NURƏDDİN KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII CİLD

# MİLLİ PEDAQOGİKADA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

BAKI – 2008

Hazırkı «Seçilmiş əsərlər» «Milli pedaqogika məktəbi» idarə heyətinin qərarı ilə çap edilir.

**Elmi redaktor:** pedaqoji elmlər doktoru, professor
*Fərahim Balakişi oğlu Sadıqov*

**Rəyçi:** professor
*Fikrət Əhməd oğlu Seyidov*

**Tərtibçi:** pedaqoji elmlər namizədi, dosent
*Ayaz Nurəddin oğlu Kazımov*

# TƏRTİBÇİDƏN

Bu yaxınlarda həmkarlarından biri yarı zarafat, yarı ciddi müəllifə dedi:

-Nurəddin müəllim, Milli pedaqogikanın əsas yaradıcısı kimi sizə aid çap olunmuş biblioqrafik məlumatda yazılır ki, əsərlərinizin sayı 450-ni keçib; amma M.F.Axundov adına mərkəzi kitabxanada sizin qeydə alınmış əsərlərinizin sayı heç 10-nu keçmir. Bəs əsərlərinizi küll şəklində nə vaxt nəzərdən keçirmək olar?

Həmkarının iradı atamı xeyli düşündürdü. Nəhayət qərara gəldi ki, mən əsərləri toplayım, qruplaşdırım, sistemə salım və çapına nail olum. Bu vəzifə məndən əlavə vaxt, enerji və vəsait tələb etsə də geri çəkilmədim. Bir də ona görə ki, əvvəla, Nurəddin müəllimin əsərləri bir çox nəşriyyatlarda, qəzet və jurnallarda, habelə başqa ölkələrdə çap olunmuşdur. Onları əldə etmək ciddi çətinliklər yaradırdı; ikincisi, milli hisslərdən uzaq olan, «Milli» sözünə ağız büzən, elmi yaradıcılığa deyil, başqalarının fikirlərini özününküləşdirməyə meylli olan bəziləri bir daha yəqin etsinlər ki, Azərbaycan xalqının övladları da kifayət qədər yeni pedaqoji ideyalar formalaşdıra və xalqımızın istifadəsinə verə bilir.

Bu işdə bizi ruhlandıran həm də o oldu ki, Milli pedaqogika ruhunda yazılmış «Məktəb pedaqogikası» və «Ali məktəb pedaqogikası» respublikamızda təhsil nazirinin əmri ilə ilk dəfə dərsliklər kimi çap olunmuşdur. Təsadüfi deyil ki, Milli pedaqogika ideyaları əsasında ərsəyə gəlmiş «Məktəb pedaqogikası»nın müddəaları təhsil nazirinin xüsusi əmri ilə Bakı şəhərindəki 9№-li məktəbdə sınaqdan keçirilmiş və nəticəsi təhsil nazirliyində ətraflı müzakirə olunmuşdur. O da təsadüfi deyil ki, həmin müzakirənin yekunu olaraq təhsil naziri 2007-ci il avqustun 30-da 995№-li əmr vermişdir. Əmr belə adlanır: «N.Kazımovun «Məktəb pedaqogikası» dərsliyi müddəalarının pedaqoji prosesdə tətbiqi üzrə işlərin təşkili barədə». Bu əmrə əsasən dərsliyin müddəaları həm bütün təkmilləşmə və yenidənhazırlanma institutlarında,

həm də Sumqayıt və Bakı şəhərlərinin bəzi məktəblərində tətbiq edilmişdir.

Toplanan materiallar pedaqoji elmin və pedaqoji prosesin, demək olar ki, bütün sahələrini əhatə etdiyindən, onları, nisbi mənada, qruplaşdırmağa və sistemə salmağa çalışdıq. Nəticədə məlum oldu ki, bəzi yazılar indiki dövr üçün aktuallığını itirmişdir; xaricdə çap olunmuş yazıların bir neçəsini əldə etmək mümkün olmamışdır; bundan əlavə, çap olunmuş əsərlərdən bəziləri kitabxanaya verilməmişdir; bəzi başabəla oxucuların kitabxanada saxlanan jurnallardan materialı cırıb götürdükləri hallarla da rastlaşdıq. Yaxud, xüsusən 1990-cı ilin fevral, mart, aprel və may aylarında məlum hadisələrlə əlaqədar «Millət», «Müxalifət», «Vətən», «Kommunist», «Bilik», «Azərbaycan müəllimi», «Xalq qəzeti» kimi mətbu orqanlarında çap olunmuş «Kömək? Nəyin naminə?», «Nəyi və necə tənzimləməli», «Nə üçün susuruq?», «Razılaşmaq olmaz. Nə üçün?», «Qadağalar davam edir və yaxud xalqımızın səsi respublikadan kənarda niyə eşidilmir?», «Milli birlik yolunda maneələri kimlər yaradır?», «Bu da təxribatdır», «Siyasi şüur tələbələrə nə üçün lazımdır?», «Soy adımız və Milli mənsubiyyətimiz», «Azərbaycan diplomatiyası necədir, necə görmək istərdim», «

. » kimi bir çox siyasi məzmunlu atamın yazılarını kitabxanalarda tapmaq mümkün olmadı. Bunlardan əlavə, III siniflər üçün eksperimental «Ana dili» dərsliyi (Bakı, Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun nəşriyyatı, 1959), 1963-cü ildən 1971-ci ilədək Y.Şirvanla, 1988-ci ilədək müstəqil çap olunan «Ana dili» dərsliyi, «Maarif» nəşriyyatı tərəfindən 1978-ci ildə çap olunmuş «Ulyanovlar ailəsində tərbiyə məsələləri» və 1996-cı ildə nəşr edilmiş «Pedaqogika» dərsliyi, 2001-ci ildə «Ağrıdağ» nəşriyyatı tərəfindən çap olunmuş «Milli pedaqogika yollarında» adlı monoqrafiya hazırkı «Əsərlər»ə daxil edilməmişdir. Bunlardan əlavə, Nurəddin müəllimin bilavasitə rəhbərliyi, redaktəsi və iştirakı ilə ərsəyə gələrək işıq üzü görmüş bir sıra əsərlər, o cümlədən

«Azərbaycan Milli izahlı ensiklopedik pedaqoji lüğət» (Bakı, OKA Ofset nəşriyyatı, 2005), «Pedaqogika kafedrası üzrə təhsil proqramı» (Kurrikulum) (ADU nəşriyyatı, Bakı, 2007) bu «Əsərlər»dən kənarda qalmışdır. «Çaşıoğlu» nəşriyyatı tərəfindən 2005-ci ildə albom formasında çap olunmuş «Məktəb pedaqogikası sxemlərdə» adlı maraqlı əsəri də cildlərə daxil etmək mümkün olmamışdır.

Deyilənlər nəzərə alındığından, toplanmış materialları cildlər halında «Seçilmiş əsərlər» adlandırmalı olduq.

Ayrı-ayrı toplularda çap olunan bütün əsərlərin bu və ya digər dərəcədə Milli pedaqogika ideyaları ilə əlaqədar olduğunu nəzərə almağı oxuculardan xahiş etməyi özümüzə borc bildik.

Bununla yanaşı, toplularda cəmləşən materiallar məzmunca bəzi cəhətlərinə görə fərqləndiyindən, həmin fərqi cildlərin adlarında nəzərə almağa çalışmışıq.

Oxucuların işini asanlaşdırmaq üçün həm cildlər arasında, həm də hər cildin tərkibindəki əsərlər arasında tarix və mövzu baxımından ardıcıllığa əməl etməyə səy göstərmişik.

Hesab edirik ki, cildlərin burada adlandırılması onların hərəsində cəmləşmiş əsərlərin başlıca cəhətlərinə dair maraqlananlarda ilkin təəssüratların yaranmasına yardımçı ola bilər.

**I cild:** *Müqayisə nəzəriyyəsinin formalaşması.*
**II cild:** *Pedaqoji prosesdə müqayisədən istifadənin zəruriliyi.*
**III cild:** *3-cü siniflərdə «Ana dili» dərsliyinin məzmunu və tədrisinə dair (Şəkilsiz çap edilir).*
**IV cild:** *4-cü siniflər üçün «Oxu» dərsliklərinin məzmunu (Şəkilsiz çap edilir).*
**V cild:** *Milli pedaqogikanın həyatdan şüurlara, oradan auditoriyalara və məktəblərə süzülməsi.*
**VI cild:** *İctimai-siyasi problemlərə pedaqoji müdaxilə.*
**VII cild:** *Milli pedaqogikada tərbiyə məsələləri.*
**VIII cild:** *Psixoloji inkişaf pedaqoji prosesin tərkib hissəsi kimi.*
**IX cild:** *Pedaqoji fikir tarixindən səhifələr.*

**X cild:** *Elmi-pedaqoji məsələlər Milli pedaqogika işığında.*

**XI cild:** *Pedaqoji prosesin bəzi ümumi məsələləri.*

**XII cild:** *Milli pedaqogikadan qidalanan orta təhsil pedaqogikasının məzmunu.*

**XIII cild:** *Milli pedaqogikadan qidalanan ali təhsil pedaqogikasının məzmunu.*

**XIV cild:** *Nurəddin Kazımov haqqında biblioqrafik məlumat.*

Haqqında sözü gedən cildlərin daha kamil çıxmasında öz köməkliyini əsirgəməyən universitetimizin əməkdaşlarına, xüsusən professor Fərahim Sadıqova (elmi redaktor), professor Fikrət Seyidova (rəyçi), dosent Ayaz Kazımova (tərtibçi), Məhbubə Ələkbərovaya, Gülnar Abdullayevaya, Tahirə Bağırovaya, Qəmər Məlikovaya, Sevda Xaspoladovaya və Səidə Qəmbərovaya (korrektorlar), Sədaqət Yusifovaya (texniki redaktor) və kompüterdə cildləri yığan əməkdaşlara müəllif öz minnətdarlığını bildirir.

## GİRİŞ. *Müasir şəraitdə ideoloji işin, tərbiyə işinin daha da güclənməsi*

İctimai-siyası həyatımızın başqa sahələrində oldulğu kimi, ideologiya sahəsində, sovet adamlarının kommunist tərbiyəsi sahəsində də yeni-yeni nailiyyətlər əldə edilir. Sov.İKP XXV və XXVI qurultaylarından keçən dövr ərzində ideoloji işin, tərbiyə işinin gücləndirilməsi sahəsində partiyamız bir çox ciddi tədbirlər həyata keçirmişdir. İdeya tərbiyə məsələlərini kompleks şəkildə həll etmək təcrübəsi, partiya təhsilinin vəzifələri, kütləvi informasiya və təbliğat vasitələrinə rəhbərlik, şifahi təbliğatın rolunu artırmaq, mühazirə təbliğatının yaxşılaşdırılması tədbirləri, zəhmətkeşlərin iqtisadi biliyinin rolunu gücləndirmək, bədii özfəaliyyət yaradıcılığının daha da inkişaf etdirilməsi, kənd əhalisinə mədəni xidmətin yaxşılaşdırılması, orta ümumtəhsilin texniki peşə və ali təhsilin daha da inkişaf etdirilməsi və s. haqqında partiyamızın qəbul etdiyi xüsusi qərarlar buna misal ola bilər. 1979-cu ilin aprelində «Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda Bakı şəhərində keçirilmiş Ümumittifaq konfransı və həmin ilin mayında Sov.İKP MK-nın «İdeoloji işin və siyasi tərbiyə işinin daha da yaxşılaşdırmaq haqqında» məlum qərarı, ideoloji iş və kommunist tərbiyəsi sahəsində əldə edilmiş nailiyyətlərimizi ümumiləşdirmiş və gələcək vəzifələrimizi daha da dəqiqləşdirmişdir.

Eyni ildə eyni məsələ üzrə Sov.İKP MK-nın bir neçə böyük tədbir hazırlayıb həyata keçirməsi göstərir ki, partiyamız sovet adamlarının mənəvi-siyasi tərbiyəsinə, onların şəxsiyyətcə kamilləşməsinə böyük əhəmiyyət verir. Bunu Sov.İKP MK-nın iyun (1983) Plenumunun «Partiyanın ideoloji, kütləvi-siyasi işinin aktual məsələləri» haqqında qərarı da sübut edir.

***Tərbiyə işinin hazırda daha da güclənməsinin səbəbləri.*** Müasir şəraitdə ideoloji işə, şəxsiyyətin formalaşmasına, əxlaq tərbiyəsinə partiyamızın böyük əhəmiyyət verməsinin həm obyektiv, həm də subyektiv səbəbləri vardır.

İdeoloji işi, o cümlədən tərbiyə işini gücləndirməyin zəruriliyinin **birinci səbəbi** inkişafımızın müasir tələblərindən irəli gəlir. Yuxarıda adını çəkdiyimiz ümumittifaq konfransında haqlı olaraq deyilmişdir ki, sovet cəmiyyəti öz inkişafının elə bir mərhələsinə çatmışdır ki, insanın şüurluluq səviyyəsi, siyasi və mənəvi mədəniyyəti kommunizm quruculuğunun bütün sahələrində müvəffəqiyyətlərin həlledici amillərindən biri olmuşdur. Adamların şüuruna və davranışına hopan kommunist əxlaqı keyfiyyətlər onları ucaldır, insanların həyatına dərin ictimai məna verir, fəal həyat mövqeyi tutmaqda onlara kömək edir.

Partiyanın ideoloji işinin tərkib hissəsi olan zəhmətkeşlərin kommunist tərbiyəsi ictimai həyatın bütün sahələrinin inkişafına, ictimai istehsalın səmərəliliyinə getdikcə daha fəal təsir göstərməlidir.

Şəxsiyyətin formalaşması problemlərinə, tərbiyə məsələlərinə müasir şəraitdə diqqətin artmasının **ikinci səbəbi** ölkəmizdə elmi-texniki tərəqqinin tempi və xarakteri ilə bağlıdır. Elmi tərəqqi sovet adamlarının əməyinin məzmununda ciddi dəyişikliklər yaradır. Texnikanın sürətli inkişafı fiziki əməyin yüngülləşməsinə, adamlarda texnikaya qayğılı münasibətlərin formalaşmasına səbəb olur, mürəkkəb texnikadan onların baş çıxarmasına şərait yaradır, fəhlə vicdanı, əxlaqı cəhətdən işçinin etibarlılığı, texnikaya sahib olan adamlarda yüksək əhval-ruhiyyə, onlarda texnikanın, müəssisənin, bütbvlükdə ölkənin sahibi olmaq hissi tərbiyə edir. Bunlar da öz növbəsində kommunizm quruculuğunun hazırkı mərhələsində əməyin səmərə və keyfiyyətinə, cəmiyyətdə bütün işlərin gedişinə bilavasitə təsir göstərir.

Müasir şəraitdə tərbiyə məsələsini gücləndirməyin **üçüncü səbəbi** asudə vaxtın getdikcə artması ilə bağlıdır. İş vaxtının qısaldılması sayəsində boş vaxtın qazanılmasına sosial nemətlərdən biri kimi baxılır. Asudə vaxtdan düzgün və səmə-

rəli istifadə edilməsi, əxlaqi və mədəni səviyyənin yüksəldilməsi üçün onun düzgün sərf olunması şəxsiyyətin və ailənin, nəticədə əmək kollektivinin və cəmiyyətin əxlaqi və mədəni zənginliyinin artmasına səbəb olur. Buna görə də partiyamız çalışır ki, boş vaxtdan istifadə sovet adamları şəxsiyyətinin hərtərəfli inkişafına, onların mənəvi, fiziki, estetik və s. ehtiyaclarının maksiumum dərəcədə ödənilməsinə xidmət etsin. Ayrı-ayrı faktlar gbstərir ki, boş vaxt səmərəli təşkil olunmadıqda, o hədər yerə sərf edildikdə, avaraçılıq, xuliqanlıq, sərxoşluq kimi cəmiyyətə zidd hallar törəyə bilər. Odur ki, boş vaxta məsuliyyətdən uzaq olan vaxt kimi baxmaq olmaz. Partiyamız öyrədir ki, ondan səmərəli, həm də şəxsiyyətin hərtərəfli inkişafı üçün istifadə etmək, kommunist tərbiyəsinin digər ictimai vasitələrindən və imkanlarından maksimum dərəcədə düzgün istifadəni təşkil etmək zəruridir. **Dördüncü səbəb.** Ayrı-ayrı adamların əxlaqi şüurunda və davranışında yol verilən qüsurların səbəblərindən danışanda ictimai şüurun ictimai varlıqdan bəzi hallarda geri qalmasını, mühafizəkar ənənələrin ətalət qüvvəsini, ictimai inkişafda daxili problem və ziddiyyətlərin aradan qaldırılmasının dialektik xarakter daşıdığını unuda bilmərik.

Partiyamız belə hesab edir ki, adamların şüurunda əsirlər boyu möhkəmlənmiş olan keçmişin qalıqları, birinci növbədə, xırda burjua xüsusi mülkiyyətçilik psixologiyası, köhnə dünyanın adət və ənənələrinin təzahürü əxlaq tərbiyəsinə, ictimai təcrübəyə və təsərrüfat təcrübəsinə, sosializm birgəyaşayış prinsiplərinə ciddi ziyan vurur. Öz kökləri ilə keçmişin əxlaqına bağlanan həmin psixologiya, həmin adət və ənənələr cəmiyyətimizdə bəzi adamların şüuruna və həyat tərzinə sirayət edə, orada özünə yuva sala bilir. Yeni ictimai münasibətlərin, yeni psixologiyanın, yeni ənənələrin formalaşmasına keçmişin qalıqlarının vurduğu ziyanı lazımınca qiymətləndirməmək olmaz. **Beşinci səbəb** şəxsiyyətin strukturunda, adamın şüur və davranışında müşahidə edilən nöqsanları başdan-başa tərbiyənin nöqsanları ilə izah etmək cəhdinin geniş yayılması ilə bağlıdır. Səciyyəvi bir epizodu burada xatırlamaq yerinə düşərdi.

Respublikanın rayonlarından birində maarif fəallarının müşavirəsi keçirilirdi. Uşaqların və yeniyetmələrin əxlaq tərbiyəsini yaxşılaşdırmaq məsələləri müzakirə olunurdu. Müşavirədə maarif işçiləri ilə birlikdə rayonun partiya, sovet və komsomol işçiləri, inzibati orqanların rəhbər işçiləri və iştirak edirdilər. Müşavirəyə haqlı olaraq valideynlər də dəvət olunmuşdular. Çıxışlarda ümumi bir meyl hiss edilirdi. Hamı istəyirdi ki, bizim uşaqlar xalqın, Vətənin ləyaqətli övladları kimi yetişsinlər. Uşaqların arasında intizamı pozmaq, cinayət törətmək hallarından təəssüflə, ürək ağrısı ilə danışmaq da çıxışlar üçün səciyyəvi idi. Bu da təbiidir. Çünki partiyamızın öyrətdiyi kimi, cəmiyyətimiz öz inkişafında nə qədər yüksəlirsə, sosialist əxlaq normalarından uzaqlaşmaq halları bir o qədər dözülməz olur.

Çıxışların hamısı üçün səciyyəvi cəhətlərdən biri də uşaqların, yeniyetmələrin davranışında müşahidə olunan intizamsızlıq hallarının, cinayət meyllərinin səbəblərini öyrənmək cəhdi idi. Təxminən bu cür sual onları düşündürürdü: xuliqanlıq, böyüyə hörmətsizlik, insana laqeydlik, başqasının şəxsiyyətini təhqir etmək, zəhmətdən boyun qaçırmaq kimi naqis əlamətlər bizim quruluşumuzun mahiyyətinə zidd olduğu halda onların tək-tək də olsa baş verməsinə səbəb nədir?

Ümumini düşündürən bu cür suallara savablar çox müxtəlif idi. Məktəb adından çıxış edən müəllimlərin və digər maarif işçilərinin çoxu şagirdlərin davranışında müşahidə olunan nöqsanların səbəbini ailə tərbiyəsində, valideynlərin uşaqların münasibətində görürdülər. Valideynlər məktəbdən küçənin zərərli təsirindən şikayətlənirdilər. İnzibati orqan işçiləri belə bir fikri isbat etməyə çalışırdılar ki, məktəbdə və ailədə tərbiyə işləri yüksək səviyyədə təşkil edilərsə, uşaqların davranışındakı nöqsanlar tam aradan qalxır.

Göründüyü kimi, müşavirədə çıxış edənlərin ixtisasından asılı olmayaraq hamısı davranışdakı nöqsanların başlıca səbəbini düzgün olmayan tərbiyədə, məktəb və ya ailə tərbiyəsində yol verilən nöqsanlarda görürdü. Buna görə də təkliflər bir nöqtədə birləşirdi: tərbiyə işini həm məktəbdə, həm də ailədə düzgün təşkil etmək lazımdır.

İnsan şəxsiyyətinin, o cümlədən şagird şəxsiyyətinin formalaşmasında, şəxsiyyətdə olan çatışmazlıqları yalnız tərbiyə ilə, tərbiyədə yol verilən nöqsanları aradan qaldırmağa meyl göstərmək düzgün deyildir. Deyilənlərdən belə bir nəticə çıxartmaq olmaz ki, guya biz insan şəxsiyyətinin formalaşmasında tərbiyənin rolu azaldırıq. Əsla! Əxlaqi, fiziki, estetik və digər keyfiyyətlərin formalaşmasında tərbiyənin rolu böyükdür. Partiyanın öyrətdiyi kimi, ideoloji işin, ideya tərbiyə işinin təşkili zamanı heç də hər yerdə sovet adamlarının artan təhsil və mədəni səviyyələri müasir sovet cəmiyyətində mənəvi həyatın və sosial-iqtisadi proseslərin dinamikliyi lazımınca nəzərə alınmır: tərbiyə işinin təşkilində yol verilən nöqsanlar ayrı adamların davranışındakı qüsurların səbəblərindən birinə çevrilir.

«İdeoloji işi, siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» Sov.İKP MK-nın qərarında xüsusi olaraq deyildiyi kimi, formalizm, sözçülüyə meyl, müəyyən ülgüyə salınmış ibarəli ifadələr, ümumi həqiqətlərin əsil mahiyyətini açmadan, nəzəri təhlil süzgəcindən keçirmədən mexaniki olaraq onların dönə-dönə təkrar edilməsi adamların şüuruna və hisslərinə tərbiyə işinin təsir səmərəsini xeyli aşağı salır. **Altıncı səbəb** inkişaf etmiş sosializmin tələbləri ilə əlaqədardır. Nnkişafımızın hazırki mərhələsi kommunist tərbiyəsinin həm nəzəri, həm də əməli məsələlərinə diqqəti artırmağı tələb edir. Bakı şəhərində keçirilmiş və yuxarıda adını çəkdiyimiz konfransda «Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda həsr olunmuş məruzədə deyilmişdir ki, yetkin sosializmin obyektiv ehtiyacları, maddi istehsalın durmadan artan miqyası, partiyanın həll etdiyi problemlərin müxtəlifliyi, həyatın bütün cəhətlərinin dinamik olaraq yeniləşdirilməsi sovet adamlarında şüurluluğun, siyasi və əxlaqi mədəniyyətin səviyyəsinin yüksəldilməsini tələb edir.

Tərbiyə işində mühit amillərini nəzərə almağın zəruriliyi. Ölkəmizdə iqtisadiyyatın durmadan yüksəldilməsi, partiyanın qarşıya qoyduğu başlıca vəzifənin – xalqın rifah halının daha da yaxşılaşdırılmasının həlli tələb edir ki, sovet

adamlarında mənəvi zənginlik artsın. Sov.İKP XXV qurultayına hesabat məruzəsində haqlı olaraq deyildiyi kimi, maddi imkanların artması adamların ideya-əxlaqi və mədəni səviyyəsinin artırılması ilə müşayiət edilməlidir. Əks təqdirdə xırda burjua meşşan psixologiyasına meydan açıla bilər və bəzən də açılır. Bunu unutmaq olmaz.

Tək-tək adamların xarakterində müşahidə olunan nöqsanların beynəlxalq şəraitlə də əlaqəsi vardır. Ölkəmizdə kommunizm quruculuğu, dünya sosializm qüvvələrinin möhkəmlənməsi kapitalist ölkələrindən, xüsusi imperialist dövlətlərindən təcrid olunmuş bir şəraitdə cərəyan etmir, beynəlxalq miqyasda gərgin ideoloji mübarizə şəraitində baş verir. Bizim ictimai quruluşumuza bilavasitə hücumun müvəffəqiyyətinə bel bağlamayan imperialist irtica qüvvələri ideoloji diversiyalar yolu ilə sovet cəmiyyətinin, bütövlükdə sosializm cəbhəsinin ideya-siyasi birliyini sarsıtmağa, adamların əxlaqi şüuruna, xüsusən gənclərin şüuruna hər cür təsir etməyə, bizim cəmiyyətə zidd olan davranışı yaymağa can atırlar.

Tərbiyə problemlərindən danışarkən mühitin, o cümlədən kapitalizm əhatəsinin şəxsiyyətə göstərdiyi təsiri unuda bilmərik. Biz Sov.İKP XXV qurultayına hesabat məruzəsində irəli sürülmüş prinsipial bir fikri daim yadda saxlamalıyıq: «iki sistem ideya cəhətdən daha fəal surətdə bir-birinə qarşı durur, imperialist təbliğatı daha da güclənir. İki dünyagörüşünün mübarizəsində bitərəfliyə və kompromislərə yer ola bilməz. Burada yüksək siyasi sayıqlıq, fəal operativ və inandırıcı təbliğat işi lazımdır, düşmənin ideoloji təxribatları vaxtında dəf edilməlidir». Sov.İKP MK-sı «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» qərarında haqlı olaraq qeyd edir ki, şovinistlər və təcavüzkarlar ilə açıq-aşkar səs-səsə verən imperialist təbliğatı sovet adamlarının şüuruna quduzcasına hücum edir, ən hiyləgər üsullardan və müasir texniki vasitələrdən istifadə edərək sovet həyat tərzinə böhtanlar yağdırmaqla, sosializmi gözdən salmaqla, imperializmə onun qeyri-bəşəri, qarətçi siyasəti və təcrübəsinə bəzək-düzək verməklə sovet adamlarının şüurunu zəhərləməyə can atır.

Sov.İKP XXVI qurultayının materiallarında deyilir: «…sinfi düşmənin təbliğat vasitələrinin fəallığı artmış, sovet adamlarının şüuruna onun pozucu təsir göstərmək cəhdləri güclənmişdir».

Şəxsiyyətin formalaşmasına, tərbiyə işinin səmərəliliyi və mühit amlləri az təsir göstərmir. Bununla yanaşı, şəxsiyyətin formalaşmasında irsiyyətin rolunu da unuda bilmərik.

Beləliklə, insan xarakteri bir deyil, bir-biri ilə bağlı olan, bir-birini şərtləndirən bir sıra amillər təsir göstərir. Bu amillərin konkret nədən ibarət olduğunun göstərilməsi, onların arasındakı qarşılıqlı əlaqə və aslılığın elmi şəkildə hərtərəfli təhlil edilməsi kommunist tərbiyəsi işini daha da yaxşılaşdırmaq üçün son dərəcədə böyük əhəmiyyəti vardır. Şəxsiyyətin formalaşmasına təsir göstərən amillərdən birinə diqqət yetirilməsi, başqalarının kölgədə qalması, birinin rolunun şişirdilməsi, digərinə əhəmiyyət verilməməsi düzgün nəticə çıxarmağa, tərbiyə işini düzgün təşkil etməyə lazımınca kömək göstərə bilməz. Şəxsiyyətin formalaşması problemlərinin hərtərəfli və obyektiv təhlili şəxsiyyətin formalaşması mexanizmini düzgün başa düşməyə, tərbiyə işinin səmərəliliyinə təsir göstərən amillərin və onlar arasındakı qarşılıqlı əlaqələrin nədən ibarət olduğunu düzgün təsəvvür etməyə, nəticədə, sovet adamlarının, xüsusən gənc nəslin kommunist tərbiyəsini düzgün təşkil etməyə köməklik göstərir.

# I FƏSİL. ŞƏXSİYYƏTİN FORMALAŞMASININ BƏZİ ÜMUMİMƏSƏLƏLƏRİ

## 1. ŞƏXSİYYƏTİN FORMALAŞMASINA DAİR FİKİR MÜXTƏLİFLİYİ

***Xarakterin müxtəlifliyi.*** Əməyə, xalqa və vətənə münasibət, təbiətə, kitaba və biliyə münasibət, yoldaşa, qohuma, dosta münasibət müxtəlif ölkələrdə, müxtəlif siniflərə münasibət mənsub olan adamlarda eyni səviyyədə olmur. Biri əməksevərdir, əməyin vurğunudur, əmək adamlarına dərin rəğbət göstərir. Başqa birisi tənbəldir, zəhməti lazımınca qiymətləndirmir; biri səliqəlidir, səliqəni sevir, digəri səliqədə kasaddır: birində yaşlılara hörmət etmək adətə çevrilmişdir, digərində bu cəhətdən hərdəmxəyallıq müşahidə olunur; biri musiqiyə, digəri isə təsviri incəsənətə meyl göstərir; biri kitabsız, qəzetsiz yaşaya bilmir, digəri günlərlə qəzet oxumaya bilir; biri taleyini ədəbiyyata bağlayır, digəri riyaziyyata; biri öz xoşbəxtliyini başqasının xoşbəxtliyində, digəri isə başqasının bədbəxtliyində görür. Bəzi adamlarda qabiliyyətlər çox erkən baş qaldırır; digərində isə bu qabliyyətlər sonralar özünü biruzə verir. Bir vaxt qabliyyətsiz hesab edilən şəxslər sonradan məşhur şəxslər ola bilir. Qabliyyətli adamlar bir dövrdə az, başqa dövrdə isə çox üzə çıxır və s. Bir sözlə, adamların fərdi xüsusiyyətləri müxtəlif olur Xarakterləri hər cəhətdən tam eyniyyət təşkil edən iki adam tapmaq çətindir.

***Xarakterin müxtəlif istiqamət almasının səbəbləri.*** Nə üçün adamların xarakterləri, qabliyyətləri müxtəlif olur? Bu müxtəlifliyin səbəbi və insan xarakterini formalaşdıran nədir? İki həyati fakta müraciət edək. Elza Həsənova Xəzər çimərliklərindən birində kameradan istifadə edərək çimirmiş. Birdən kamera suda çevrilir. Qızın ayağı dənizin dibinə çatmır. O özünü itirir: batıb-çıxır, Anası sahildə haray salır, köməyə çağırır. Çimərlikdəki oğlanlar köməyə gəlirlər, qızı sahilə çı-

xarda bilirlər. Bir azdan qız özünə gəlir. Lakin xilaskarlarının kim olduğunu görə bilmir: oğlanlar gediblərmiş.

Elza qəzetə məktub yazmaq qərarına gəlir: «Hörmətli redaksiya, xahiş edirəm, sizə yazdıqlarımı qəzetdə dərc edəsiniz. Adlarını bilmədiyim, üzlərini görmədiyim o qoçaq oğlanlar bu məktubu oxusunlar, bütün ailəmizin səmimi qəlbdən təşəkkürünü qəbul etsinlər».

Təmənnasız, müqabilində mükafat, şan-şöhrət ummamaq, başqalarını təhlükədən xilas etmək, onlara qayğı göstərmək, lazım gələrsə, başqasının xoşbəxtliyi üçün, hətta həyatını qurban verməyə hazır olmaq kimi bu cür ən ülvi keyfiyyətlər on minlərlə sovet adamlarına xasdır. **Sual olunur:** belə keyfiyyətlərin sovet adamlarında formalaşmasına səbəb nədir? Səbəbi nədir ki, məsələn, Naxçıvandakı 5 nömrəli trestin 51 nömrəli mexanikləşdirilmiş səyyar dəstəsində elektrik qaynaqçısı Azərbaycan SSR Ali Sovetinin deputatı Fərman Bayramov iki beşillik planı vaxtından xeyli tez yerinə yetirmiş və 1980-cı ildən o, on ikinci beşillik hesabına işləyir, lakin başqası illik planı yerinə yetirməkdə çətinlik çəkir? Nə üçün eyni ictimai mühitdə – sosializm şəraitində böyümüş A. B. Nilov xaricdə burjua kəşfiyyatının təsirinə uymuş, lakin D. Ş. Xundadze sayıqlıq göstərmiş və xarici kəşfiyyatın toruna düşməmişdir?

Yaxud, nə üçün eyni ictimai mühitdə- kapitalizm şəraitində hətta eyni məktəbdə – Simbirsk gimnaziyasında birlikdə təhsil almış Kerenskinin və V.İ.Leninin xarakterləri bir-birini tamamilə əksinə olmuşdur? Kerenski eser olmuş, zəhmət adamlarının istismarına haqq qazandırmağa çalışmış, burjua hökumətinə başçılığı öz üzərinə götürmüşdür. Lakin V.İ.Lenin bunun tamamilə əksinə, zəhmət adamlarının hər cür istismarına qarşı burjaziyaya qarşı amansız mübarizə aparmış, dünya proletariatının ədalət işinə rəhbərlik etmişdir.

Bu cür suallar qədim dövrdən tutmuş müasir dövrə qədər tərbiyənin nəzəri məsələləri üzərində işləyən alimləri, tərbiyə ilə əməli şəkildə məşğul olan şəxsləri düşündürmüş və indi də düşündürür. İnsan xarakterinin formalaşması məsələsi yazıçı və şairləri də düşündürmüşdür. Mehdi Hüseynin

«Alov» pyesindəki Fərhad Kamalov və Əmir Bəxtiyarov obrazları buna misal ola bilər. Ad və familyasına tam uyğun gələn Fərhad Kamalov müstəntiqdir, xalqın xeyrinə Fərhad kimi külüng vurur, ağıllıdır, xeyirxahdır, həyatın heç bir burulğanı, heç bir fitnə-fəsad onun xeyirxahlıqdan döndərə bilmir. O, adamları bəd əməllərdən uzaqlaşdırmağa, iftira və böhtanlardan qorumağa çalışır, onları səadətə, düzlüyə çağırır. El qayğısı çəkən, el yolunda əbədiyyata qovuşan həqiqətən kamil adamdır. Əmir Bəxtiyarov mühəndisdir, zahirən yarlı-yaraşıqlı, mədəni davranışlıdır; filosof Kant-dan tez-tez misallar gətirməyi sevir, lakin mənəvi şikəstdir, əli əyridir, rəzildir, məsum qızlara şirin dil töküb yoldan çıxartmaqda ustadır. Fərhad Kamalovu xeyirxahlığa, Əmir Bəxtiyarovu isə bədxaxlığa sövq edən nədir? Axı onların ikisi də eyni şəraitdə-sosializm şəraitində fəaliyyət göstərirlər? Pyesdə yazıçının qaldırdığı başlıca məsələlərdən biri belədir; həmin sual yazıçını da düşündürür.

İnsan xarakterinin formalaşması haqqında, adamın psixoloji xüsusiyyətlərini n kökləri haqqında bir çox filosoflar, sosioloqlar, fizioloqlar, psixoloqlar, pedaqoqlar da tərbiyə işi ilə bilavasitə məşğul olan müəllimlər və valideynlər də fikir söyləmiş və indi də söyləyirlər. Bunların arasında həm mürtəce mövqedə, həm də mütərəqqi mövqedə duranlar da olmuş və indi də vardır.

Qədim yunan filosoflarından Aristotelin, ingilis filosofları və pedaqoqlarından Spenserin, Con Lokkun, fransız ensiklopedist filosoflarından Deni Didronun, Holbaxın, J.J.Russonun, utopist sosialistlərdən Robert Ouyenin, Sen-Simonun, Azərbaycan filosoflarından və maarifçilərindən M.F.Axundovun, S.Ə.Şirvaninin, Amerika alimlərindən Kilpatrikin, Con Dyuinin, A.İensenin, müasir sovet filosofları və psixoloqlarından D.İ.Dubrovskinin, E.İlyenkovun, A.N.Leontyevin və bir çox başqalarının fikirlərini xatırlamaq olar.

İnsanın əxlaqi, estetik, əqli, fiziki və s. keyfiyyətlərinin formalaşması səbəblərinin izahında müxtəlif mövqelər, bir-birinin ziddinə olan nəzəriyyələr mövcuddur. Şəxsiyyətin formalaşmasına dair fikirlərin müxtəlifliyinə baxmayaraq,

onları qruplaşdırmaq mümkündür: 1) irsiyyətə üstünlük verilməsi; 2) mühitə üstünlük verilməsi; 3) tərbiyəyə üstünlük verilməsi; 4) irsiyyət və mühit amillərinin yanaşı təsirinin qəbul edilməsi; 5) mühit və tərbiyə amillərin qoşa təstrinin qəbul edilməsi və 6) şəxsiyyətin formalaşmasına dair marksizm- leninizm nəzəriyyəsi.

***Xarakterin formalaşması səbəbləri haqqında fikirin əməli işə təsiri.*** Şəxsiyyətin formalaşmasının nəzəri cəhətdən bu və ya digər şəkildə başa düşülməsi təlim-tərbiyə sahəsində əməli işə müəyyən təsir göstərir: təsir sisteminin qoyuluşu səbəblərindən birinə, təhsil ocaqlarında təlim-tərbiyənin məzmunu və üsullarının bu və ya digər şəkildə tətbiqi səbəblərindən birinə çevrilir. Belə bir cəhət həm də onunla izah edilir ki, şəxsiyyətin formalaşmasına dair nəzəriyyələr dərin sinfi köklərə, müəyyən metodoloji əsaslara, siyasi mahiyyətə malik olur. Odur ki, həmin nəzəriyyələrin mahiyyəti və sinfi köklərini bilmək, siyasi məzmununu, metodoloji əsaslarını başa düşmək zəruridir. Hər hansı nəzəri fikir xüsusən mütərəqqi nəzəriyyə şüurlara hakim olduqda insanı hərəkətə gətirən, onun əməlinə və fəaliyyətinə güclü təsir göstərən quvvəyə çevrilir. Sov.İKP XXV qurultayının materiallarında ümumiləşdirildiyi kimi, yaxşı nəzəriyyənin özu elə ən yaxşı praktikadır.

Marksizm-leninizm elmi milyonların şüuruna hakim kəsilmişdir. Səbəbi budur ki, bizim inqilabi elmimiz dünyanın kommunistcəsinə dəyişdirilməsində, kommunist şəxsiyyətinin təşəkkülündə partiyanın ən etibarlı və mübariz silahıdır.

Bu müddəanın tərbiyə işinə, şəxsiyyətin formalaşması məsələlərinə bilavasitə dəxli vardır. Şəxsiyyətin formalaşmasına irsi xüsusiyyətlərə üstünlük verənlər təhsil sistemini, təlim və tərbiyə işini, onun məqsəd və vəzifələrini bir cür təsəvvür edir və buna uyğun olaraq fəaliyyət göstərilməsini məsləhət görürlər; sosioloji amillərə üstünlük verənlər isə başqa cür təsəvvür edir və bu təsəvvurə uyğun işləməyi lazım bilirlər və s. Məsələn, Amerika Birləşmiş Ştatlarında əsrimizin 60-cı illərinin ortalarında «ödəmə təhsili» tətbiq olunurdu. Belə bir təhsilin əsas məqsədi uşaqları ibtidai

məktəbə hazırlamaqdan, əksər uşaqların ailə tərbiyəsindəki çatışmamazlıqları, habelə zənci məhəllələrindəki və digər yoxsul məhəllələrdəki mühitin «mənfi» təsirlərini aradan qaldırıb «faydalı» cəhətlərlə əvəz etməkdən ibarət idi. Belə bir tədbirin əsasında nisbi mənada mütərəqqi nəzəriyyə dururdu. Bu nəzəriyyəyə görə, mühiti və tərbiyəni təkmilləşdirmək yolu ilə ibtidai məktəblərdə zənci balalarının biliyi mənimsəmə keyfiyyətini bir qədər yüksəltmək mümkündür. Buna görə də ABŞ-da meydana gəlmiş «ödəmə təhsili» mütərəqqi bir ictimai hadisə idi. Çox keçmədi, ABŞ-da A.İensen mətbuatda sübut etməyə çalışmışdır ki, «ödəmə təhsili» özünü doğrultmur; guya bu təhsilin əsasını yanlış nəzəriyyə təşkil edir. A.İensenin fikrincə, zənci uşaqlarının təlimdə geri qalmalarının səbəbini ictimai mühitdə deyil, irsi amillərdə, qara irqin genetik proqramında axtarmaq lazımdır. A.İensen öz fikrinə hətta elmi forma verməyə səy göstərmişdir. Müasir genetikaya istinad edən A.İensen deyir ki, gen cəhətdən artıqlaması ilə təchiz edilən qız uşağı o qədər də talantlı olmur; gen cəhətdən artıqlaması ilə təchiz edilən qız uşağı o qədər də talantlı olmur; gen cəhətdən başqa pozğunluq, məsələn, Daun xəstəliyi əqli zəifliyə və s. səbəb olur. A.İensen buradan belə bir nəticə çıxarır ki, normal əqli inkişaf üçün adam genlərlə müəyyən ölcüdə təmin olunmalıdır. Bu nəticə ilə formal cəhətdən razılaşmamaq olmaz. Həqiqətən də normal əqli inkişaf üçün adam normal genetik imkanlara malik olmalıdır: genetik quruluşdakı qeyri-normallıq əqli inkişafın ləngiməsi səbəbinə çevrilə bilər. Lakin məsələ burasındadır ki, gen dəstələri ilə normal səviyyədə təchiz olunmuş adamlar arasında əqli, fiziki, əxlaqi və digər cəhətdən xeyli fərq olduğu hamıya məlumdur. Bu cür fərqləri genetika izah etməkdə acizdir. Həmin fərqlərin səbəblərini mühitdə axtarmaq lazımdır. A.İensen isə məhz mühitin rolunu inkar edir. Buna görə də A.İensen həmin fikirdən birtərəfli pedaqoji nəticə çıxarmalı olur. O, məsələn deyir ki, insan şüuru iki səviyyədə mümkün ola bilir və guya bu, genetik əsaslara malikdir; birinci səviyyədə olan şüur əzbərləmə, yadda saxlama və təkrarlama

kimi xüsusiyyətlərlə səciyyələnir. Nəzəri fikirləri tez tutmaq, ümumiləşmələri anlamaq, mühakimə yürütmək isə ikinci səviyyədə olan şüur üçün xarakterikdir. A.İensenin fikrincə, birinci səviyyəli şüur aşağı irqlərə, zəhmətkeşlərə məxsusdur; ikinci səviyyəli şüur isə cəmiyyətin orta və ali təbəqələrinin nümayəndələrinə xasdır.

Yaşlı adamlarda şüurun mövcud səviyyəsinin müxtəlifliyindən çıxış edən və bu müxtəlifliyin səbəbini yenə də genlərdə görən A.İensen yaşlılara aid olan fikirlərini mexaniki olaraq uşaqlara, onların təlim-tərbiyəsinə tətbiq edir; o, deyir ki, məktəblərdə, proqramlar və təlim üsulları da müxtəlif olmalıdır; guya fərdi-fərqlərin reallığı tələb edir ki, pedaqoji cəhətdən uşaqların bir qisminə üstünlük verilsin, digər qismi isə yüksək təhsildən ümüdini kəssin.

ABŞ-da və digər kapitalist ölkələfrində şəxsiyyətin formalaşmasını bioloji xüsusiyyətlərlə izah etməyin siyasi mənasını başa düşənlər və buna görə də həmin mövqeyin doğrulduğunu şübhə altına alanlar vardır. Sonuncular getdikcə daha aydın şəkildə başa düşürlər ki, başlıca kapitalist ölkələrindəki ibtidai məktəblərdə təlimin birləşmələr üzrə təşkil edilməsi və uşaqların müxtəlif səviyyəli orta məktəblər arasında test üsulu ilə bölüşdürülməsi gənc nəsil tərəfindən tutarlı təhsil almaq yolunda ciddi maneələrdir; bu maneələr qabiliyyətlərin kütləvi şəkildə itməsi və beləliklə iqtisadi imkanların azalması səbəblərindən birinə çevrilə bilər. Əlbəttə, ABŞ-da şəxsiyyətin inkişaf imkanlarını, şəxsiyyətin tərbiyəsi imkanlarını başqa mövqedən izah etməyə və fərqli istiqamətdə həll etməyə səy göstərmək halları da vardır. Bu da təbiidir, çünki bir-birinə zidd olan müxtəlif sinfi qüvvələrin qarşı-qarşıya durduğu cəmiyyətdə fikir toqquşmaları, bir-birini inkar edən nəzəriyyələr olmalıdır. Lakin əsas məsələ odur ki, şəxsiyyətin formalaşması səbəblərinin nəzəri cəhətdən, yuxarıda gördüyümüz kimi, bu və ya digər şəkildə başa düşülməsi maarif işini, təlim-tərbiyə işini təşkil etməyin əsaslarından birinə çevrilə bilir. Odur ki, insan şəxsiyyətinin formalaşması haqqında mövcud olan əsas fikirlər və nəzəriyyələrlə tanış olmaq lazımdır.

Xarakterin, qabliyyətlərin, bütövlükdə şəxsiyyətin formalaşmasına dair müxtəlif nəzəriyyələrdən düzgün baş çıxarmaqda marksizm-leninizm bizim köməyimizə gəlir.

Sov.İKP XXV qurultayına hesabat məruzəsində deyilmişdir: «Sov.İKP özünün bütün inqilabi-dəyişdirici fəaliyyəti kimi, kommunist tərbiyəsi işini də marksizm-leninizm nəzəriyyəsinin möhkəm təməli üzərində qurur. Marksizm-leninizm düzgün strategiya və taktika hazırlamaq üçün yeganə etibarlı əsasdır».

Şəxsiyyətin formalaşmasına dair marksizm-leninizm nəzəriyyəsinin başlıca müddəalarını şərh etməzdən əvvəl onun əsas xüsusiyyətlərinə toxunmağı vacib hesab edirik.

## 2. ŞƏXSİYYƏTİN FORMALAŞMASINA DAİR MARKSİZM-LENİNİZM İDEYALARI

Hər cür bitərəflilikdən azad olmaq bu nəzəriyyəni səciyyələndirən cəhətlərdən biridir. Marksizm-leninizm nəzəriyyəsi məsələsinin alternativ şəkildə (ya irsiyyət, ya mühit, ya tərbiyə; yaxud bioloji, ya sosioloji) qoyuluşu əleyhinədir. Marksizm-leninizmə görə şəxsiyyətin formalaşmasında irsiyyətin də, mühitin də müəyyən rolu vardır. Həmin amillərdən hər biri adamlarda xarakterin formalaşmasına təsir göstərir. Mühitin və tərbiyənin təsirinə şəxsiyyətin fəal münasibət göstərdiyini etiraf etmək də bu nəzəriyyə üçün səciyyəvidir.

Şəxsiyyətin formalaşmasına təsir edən amillərin rolu marksizm-leninizm klassikləri tərəfindən düzgün şərh edilir; insan xarakterinə təsir göstərən hər bir amilin yeri, mövqeyi və əhəmiyyəti aydın, əsaslı şəkildə izah olunur. Nəticədə müəyyənləşir ki, irsiyyət şəxsiyyətin inkişafına müəyyən imkan verirsə, mühit həmin imkanların gerçəkliyə çevrilməsinə təkan verə bilirsə, tərbiyə inkişafı istiqamətləndirə bilir.

Şəxsiyyətin formalaşmasına dair marksizm-leninizm nəzəriyyəsində diqqəti cəlb edən *digər başlıca cəhət şəxsiyyətə təsir göstərən amillərə dialektik mövqedən yanaşılmasından ibarətdir:* irsiyyət, mühit və tərbiyə amilləri bir-birindən təcrid

edilmir. Onlar qarşılıqlı əlaqədə götürülür. Həmin amillərin şəxsiyyətə təsiri marksizm-leninizm nəzəriyyəsində qarşılıqlı əlaqədə götürüldüyündən, şəxsiyyətin strukturunda yaranan bioloji və sosioloji xüsusiyyətlər mütləqləşdirilmir. Həmin xüsusiyyətlərin özləri də qarşılıqlı əlaqə şəraitində nəzərdən keçirilir. Mühitin və ya tərbiyənin hər şeyə qadir olduğu iddiasına düşən filosofları tənqid edərkən K.Marks «Feyerbax haqqında tezislər»ində yazırdı: «İnsanların şərait və tərbiyənin məhsulu olduğunu və deməli dəyişilmiş insanların başqa şərait və dəyişilmiş tərbiyənin məhsulu olduğu haqqındakı materialist nəzəriyyə… yaddan çıxarır ki, şəraiti dəyişdirən məhz insanlardır və tərbiyə verənnin özünə də tərbiyə vermək lazımdır». Göründüyü kimi, əgər ictimai mühit adama müəyyən təsir göstərirsə və bu mənada şəxsiyyət mühitin məhsuludursa, mühitin özünü, xüsusən ictimai mühiti dəyişdirən də adamlardır, onların inqilabi-ictimai fəaliyyətidir. İctimai mühiti təkmilləşdirməyə və dəyişdirməyə səy göstərən insanlar eyni zamanda şəxsiyyətcə kamilləşir, inkişaf edir: onların xarakterində yeni-yeni əlamətlər əmələ gəlir. Deməli, irsi əlamətlərin mühit amillərinin və tərbiyə vasitələrinin təsiri ilə formalaşan şəxsiyyətin özünün fəal olmasını, təbii və ictimai mühitə fəal təsir göstərə bilməsini qeyd etmək marksizm-leninizm nəzəriyyəsinə xasdır.

Şəxsiyyətin formalaşması haqqında marksizm-leninizm nəzəriyyəsinin səciyyəvi cəhətlərindən *biri də şəxsiyyət probleminə zaman və məkan baxımından yanaşmağı tələb etməkdən ibarətdir*. Şəxsiyyət ümumiyyətlə mövcud deyil. O, hər hansı ictimai-iqtisadi formasiyanın məhsuludur. Şəxsiyyət konkret ictimai-iqtisadi formasiyanın məhsulu olduğundan, onun inkişaf xüsusiyyətləri yaşadığı iqtisadi, ictimai, siyasi və ideoloji mühit tərəfindən şərtlənir. Məsələn, kapitalizm mühiti şəxsiyyətin azad inkişafına tam imkan vermir. Çünki antaqonist ziddiyyətlər, zəhmətkeşlərin burjuaziya tərəfindən istismarını məhdudlaşdırır. Şəxsiyyətin həqiqi, hərtərəfli inkişafı yalnız sosializm şəraitində mümkündür.

Şəxsiyyətin formalaşması haqqında marksizm-leninizm nəzəriyyəsinə və həyati faktlara əsasən deyə bilərik ki, irsiyyət,

mühit və tərbiyə amillərinin şəxsiyyətə təsiri nəinki qarşılıqlı əlaqədə götürülməlidir: bununla yanaşı *həmin amillər dinamikada nəzərdən keçirilməli, birinin digərinə çevrilə bilməsi nəzərə alınmalıdır.* Çünki bir müddət şəxsiyyətə mühitin tərkib hissəsi kimi təsir göstərən amil sonralar tərbiyə vasitəsinə çevrilə bilir. Yaxud irsi əlamət kimi özünü biruzə verən müəyyən xəstəlik münasib sosioloji təsirlərlə aradan qaldırıldıqda onda irsi təsir qüvvəsi azala və ya aradan qaldırıla bilir Eyni sözü tərbiyə vasitəsinə də şamil etmək olar. Tərbiyənin hər hansı vasitəsindən planlı və məqsədəyönlü istifadə edilmədikdə o, mühit amilinə çevrilə bilir.

Marksizm-leninizm insan şüurunun və bütövlükdə şəxsiyyətin müxtəlifliyi və onun dəyişməsi əsasını başlıca olaraq ictimai mühitin müxtəlifliyi və dəyişməsində görür; o, haqlı olaraq siyasi maarifin, tərbiyəvi təsirin, genetik qanunların rolunu da nəzərə alır. Buna görə də **şəxsiyyətin öyrənilməsinə elmi cəhətdən kompleks şəkildə yanaşmaq mümkün olur.**

Mühitdən, tərbiyədən və genetik əsaslardan asılı olaraq orqanizmin fiziki, fizioloji və psixoloji inkişafı sürətlənə və ya ləngiyə bilir. Orqanizmin geniş miqyasda fəaliyyət göstərməsinə imkan verən mühit inkişafı sürətləndirə bilir; belə imkana malik olmayan mühitdə isə inkişaf ləngiyir. Məsələn, uşağın fiziki hərəkətlərini məhdudlaşdıran ev şəraiti orqanizmdə əzələlərin inkişafını ləngidə bilir. Geniş fiziki hərəkətlərə imkan verən ev şəraitində isə böyüyən uşağın əzələləri daha intensiv inkişaf edə bilir. Yaxud şəxsiyyətin, məsələn, fiziki və ya əqli inkişafı üçün zəruri hesab edilən fiziki və ya əqli təmrinlərin intensivliyi və səmərəsi mühitdən də asılı olmur. Eyni səviyyədə aparılan fiziki və ya əqli mümarisələr müxtəlif şəraitdə (məsələn, açıq havada və ya qapalı otaqda, sakitlikdə və ya səs-küydə və s.) başqa-başqa səmərə verir. Deməli, təlim-tərbiyə işinin müvəffəqiyyəti mühitin necəliyindən çox aslıdır.

Külli miqdarda həyat faktlarından görmək çətin deyildir ki, ölkəmizdə bərqərar olmuş sosialist həyat tərzi sovet adamlarının mexaniki olaraq təyin etmir, onların xarakterinin müvəffəqiyyətlə formalaşması üçün real imkanlar yaradır. Düzgün

tərbiyə bu imkanları reallaşdırır. Yaşın müəyyən dövründə tərbiyə işindəki bəzi çatışmazlıqlar üzündən, tək-tək yanlış təsəvvür və anlayışlar üzündən bu və ya digər uşaq faydalı ictimai münasibətlər sistemindən kənarda qala, cəmiyyətdə passiv mövqe tuta və nəticədə, mənəvi cəhətdən pozulmaq təhlükəsi qarşısında qala bilir. Buna görə də şəxsiyyətin formalaşmasında həyat tərzinin rolunu mütləqləşdirmək düzgün olmadığı kimi, tərbiyənin rolunu da mütləqləşdirmək düzgün deyildir. Deməli, şəxsiyyətin formalaşmasında irsiyyətin, mühitin və tərbiyənin rolunu ümumiyyətlə deyil, konkret nəzərdən keçirmək marksizm-leninizm nəzəriyyəsi üçün xarakterik cəhətlərdən biridir.

Şəxsiyyətin formalaşmasına dair marksizm-leninizm nəzəriyyəsini səciyyələndirən cəhətlərdən biri də şəxsiyyətin mahiyyəti ilə əlaqədardır. Şəxsiyyətin mahiyyətini fərddən ayırmamaq, ictimai mühitlə əlaqədə nəzərdən keçirmək marksizm-leninizm üçün səciyyəvidir. Marksizm-leninizmə görə şəxsiyyəti fərdlə eyniləşdirmək düzgün olmadığı kimi, onu fərddən ayırmaq da düzgün deyildir. İnsan orqanizmi kimi, onun şəxsiyyəti də mürəkkəb bir mexanizmdir. Bu mexanizm adamın siyasi və əxlaqi görüşlərini də, fiziki və estetik keyfiyyətlərini də, dünyagörüşünü də, təfəkkür və iradi keyfiyyətlərini də, onun xarakterini səciyyələndirən digər keyfiyyətlərini də özündə cəmləşdirir.

Fərd fiziki varlıq kimi mövcuddur; şəxsiyyət isə fiziki varlıq kimi fərdin malik olduğu sosioloji və psixoloji keyfiyyətlərin sistemidir. Şəxsiyyətdə başlıca olaraq münasibətlərin təcəssüm etdiyini sezmək çətin deyildir. Hələ xeyli vaxt bundan əvvəl marksizm-leninizm isbat etmişlər ki, «insanın mahiyyəti ayrı-ayrı fərdlərə məxsus olan mücərrəd bir şey deyil. O, həqiqətdə, bütün ictimai münasibətlərin məcmuyudur». Şəxsiyyəti səciyyələndirən keyfiyyətlərin xarakteri ətraf mühitlə, o cümlədən ictimai mühitlə şəxsin qarşılıqlı əlaqəsinin xarakterindən xeyli dərəcədə asılıdır. Ətraf mühitlə şəxsin ictimai, iqtisadi, ideoloji əlaqələri məhdud olduqda şəxsiyyəti səciyyələndirən keyfiyyətlər də bunun müqabilində, adətən, məhdud olur; əksinə, bu və ya digər

şəxsdə müşahidə edilən mənəvi zənginlik, yüksək əxlaqi keyfiyyətlər, dərin elmi dünyagörüşü, fəal həyat mövqeyi, insanpərvərlik, vətənpərvərlik, beynəlmiləlçilik həmin şəxsin müvafiq ictimai mühitlə qırılmaz tellərlə bağlılığının, zəngin ictimai əlaqələrinin məhsulu olur. Məsələn, ölkəmizdə fəhlə sinfi ilə kolxozçu kəndlilərin sarsılmaz ittifaqı əsasında həyata keçirilən və bütöv bir sistem təşkil edən əlbir tədbirlər, fəhlələrlə kolxozçular arasında ünsiyyətin genişlənməsi və dərinləşməsi fəhlə şəxsiyyətinin zənginləşməsinə səbəb olur. Bircə misal gətirək. V.İ.Lenin adına Azərbaycan boru prokatı zavodunun təşviqat-bədii briqadasının Quba rayonundakı Sov.İKP XXII qurultayı adına sovxozda keçirdiyi təşviqat günü fəhlələrlə kənd təsərrüfatı işçiləri arasında qarşılıqlı əlaqənin genişlənməsinə səbəb olmuşdur. Metallurqlar təşviqat məntəqəsinin tərtibində kənd zəhmətkeşlərinə kömək etmiş, onlara əyani təşviqat vasitələrinin komplektini hədiyyə vermiş, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının və Azərbaycan KP yaradılmasının 60 illiyinə həsr olunmiş mühazirələr və söhbətlərlə, «canlı qəzetlə» briqadalarda çıxışlar etmiş, sovxozda kənd təsərrüfatı istehsalı ilə yaxından tanış olmuşlar.

İctimai-iqtisadi və ideoloji əlaqələrin genişləndirilməsinə xidmət edən bu cür tədbirlər kənd zəhmətkeşlərində fəhlələrə, fəhlələrdə isə kənd zəhmətkeşlərinə hörmət və rəğbət hissinin, qarşılıqlı yardım hissinin, dostluq və yoldaşlıq hissinin inkişafına kömək edir.

Mühit amillərinin müxtəlif təsir gücünə malik olması. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, şəxsiyyətin inkişafında onu əhatə edən mühit amilləri eyni dərəcədə mühüm rol oynamır. Şəxs mühit amillərindən hansıları ilə bilavasitə ünsiyyət əlaqələrində olursa, onun inkişafına məhz həmin amillər güclü təsir göstərə bilir. Məsələn, təbiət və kənd təsərrüfatı bağbanın psixologiyasında, neft istehsalı və neft mədənləri neftçinin psixologiyasında, duyğularında, təsəvvürlərində daha güclü əks-səda verir.

Təbiidir ki, bilavasitə təmasda olmadığı mühit amilləri fərdin şəxsiyyətinə həlledici təsir göstərmir. Odur ki, şəxsiy-

yətin xüsusiyyətlərindən danışarkən xarici mühit amilləri ilə onun əlaqələrinin, münasibətlərinin dairəsi və xarakteri nəzərə alınmalıdır. Xarici mühitlə şəxsin münasibətlər dairəsi dəyişdikcə və inkişaf etdikcə şəxsiyyətin maraqları, ehtiyacları, idealı, təsəvvür və anlayışları da dəyişir və inkişaf edə bilir. K.Marksın dərin mənalı bir fikrini burada xatırlamaq yerinə düşərdi. O yazırdı: «...fərdin əsil mənəvi zənginliyi tamamilə onun gerçək münasibətlərinin zənginliyindən asılıdır». Deməli, şəxsiyyətin mahiyyətinin şəxsin ümumi münasibətlərindən, xüsusən ictimai münasibətlərdən ayrılıqda başa düşmək mümkün deyildir.

Bununla yanaşı marksizm-leninizm şəxsiyyətə müvafiq əxlaqi, estetik, əqli, fiziki və s. keyfiyyətlərin məcmuyu kimi baxmır; bu keyfiyyətlərin tədricən formalaşıb bir sistem halına düşdüyünü qeyd edir.

Şəxsiyyətə konkret yanaşıldıqda, onu səciyyələndirən keyfiyyətlər konkrekt təhlil edildikdə məlum olur ki, şəxsiyyət müəyyən sistemə, müəyyən struktura malikdir, mühit və ya tərbiyə amilləri şəxsiyyət strukturunun hər sahəsinə eyni dərəcədə təsir göstərmir.

K.K.Platonov «Şəxsiyyət strukturunda sosioloji və bioloji amillər» adlı məqaləsində sübut etməyə çalışır ki, şəxsiyyətin strukturu dörd yarım strukturdan ibarətdir. Onun fikrincə, sosioloji amillər, məsələn, birinci yarım strukturun əmələ gətirdiyi maraqların, səylərin, ideyaların, siyasi və əxlaqi görüşlərin formalaşmasına güclü təsir göstərir; bioloji amillər bu yarımstrukturda dolayı rol oynayır; yaxud dördüncü yarımstrukturu əmələ gətirən temperament keyfiyyətlərinə isə sosioloji amillərə nisbətən bioloji amillərin təsiri daha güclü ola bilir.

Hazırda tibb elminin daha sürətlə inkişaf edən bir sahəsi-sosioloji tibb sahəsi, yəni klinika və profilaktika, onun nəzəriyyəsi və təcrübəsi düzgün olaraq insana ictimai varlıq kimi, ictimai istehsal münasibətlərinin vacib cəhəti kimi baxır, normal fiziologiyanı da, patalogiyanı da ictimai mühitlə, istehsalatla, siniflə, ictimai-iqtisadi quruluşla əlaqəli şəkildə nəzərdən keçirir. Ölkəmizdə geniş səhiyyə-gigiyena

tədbirləri ilə yanaşı mədəni-maarif işlərinin müəyyən sistemlə aparılması şəxsiyyət sirukturunun zənginləşməsinə, şəxsiyyətin hərtərəfli inkişafına müxtəlif cəhətdən müxtəlif səviyyədə qida verir.

Deməli, şəxsiyyət haqqında, şəxsiyyətin formalaşmasında bioloji və sosioloji amillərin rolu barədə danışarkən şəxsiyyətin bütöv bir struktura malik olduğunu, bioloji və sosioloji amillərin şəxsiyyət yarımstrukturlarına eyni qüvvə ilə təsir göstərmədiyini də nəzərə almaq lazımdır.

## 3. ŞƏXSİYYƏTİN FORMALAŞMASINA BİRTƏRƏFLİ YANAŞMA HALLARI

İrsiyyətə üstünlük verilməsi. İnsan xarakterinin əlamətlərini irsiyyət mövqeyindən izah etməyə səy göstərənlər olmuşdur. Hələ qədim yunan filosoflarından Aristotel sübut etməyə çalışırdı ki, xarakterin səbəbi başlıca olaraq, irsiyyətdir, irsi xüsusiyyətlərdir. Aristotelin fikrincə, adamlar bir-birindən fərqlənirlər; elə bil onların bir qismi tabe olmağa, digər qismi isə hakim olmağa yaranmışdır.

Quldarlar sinfinin mənafeyini müdafiə edən ideoloq kimi Platon da şəxsiyyət məsələlərini irsiyyət nəzəriyyəsi mövqeyindən izah edirdi. Platon adamların təhsilindəki bərabərsizliyin səbəbini onların ictimai bərabərsizliyində, ictimai bərabərsizliyin köklərini isə adamların şəxsi təbiətindəki fərqlərdə görürdü. Platon açıqca yazırdı ki, rəislik etməyi bacaran adamların təbiətinə ilahi qızıl qarışdırıb, buna görə də onlar çox qiymətlidir; əkinçilik və sənətlə məşğul olan ların təbiətində isə, guya, dəmir və mis qarışığı vardır. Bu ideyaya əsasən Platon birinci və ikinci qrupa aid etdiyi adamlar üçün başqa-başqa tərbiyə məqsədləri, təlim məzmunu və üsulları təklif edirdi.

Burjua ideologiyasının nümayəndələrindən biri olan məşhur ingilis filosofu H. Spenser də əsasən həmin mövqedə dururdu. O, sübut etməyə çalışırdı ki, insanın xarakteri mühitdən, ictimai-iqtisadi həyatdan o qədər də asılı deyildir.

H. Spenser obrazlı şəkildə yazırdı ki, ictimai qurluşun necəliyindən asılı olmayaraq, vətəndaşların qüsurlu təbiəti yaramaz hərəkətlərində özünü həmişə biruzə verir; elə bir siyasi alət yoxdur ki, onun köməkliyi ilə qurğuşun instiktini qızıl əxlaqa çevirmək mümkün olsun.

İnsan xarakterini irsi əlamətlərlə izah edən müasir burjua alimləri az deyildir. Amerika Birləşmiş Ştatlarından yuxarıda adını çəkdiyimiz A.İensendən əlavə, E.Torndayk, Con Dyüi, B.Ceyms, Moreno, S.Bert, Q.Ayzek, C.Qrey və bir çox başqalarının fikirləri buna misal ola bilər.

Psixoloq E.Torndayk deyir ki, insan orqanizmindəki genlər onun həm fiziki, həm də əqli keyfiyyətlərini təyin edir. Con Dyüi uşağın inkişafını anadan gəlmə instinkt və qabliyyətlər əsasında izah edir. Onun fikrincə, anadangəlmə instinktlər və qabliyyətlər mövcuddur və bu, tərbiyəni müəyyən ülgüyə müəyyən çərçivəyə salır.

V.Ceymsə görə adamların bir qismində, məsələn, qazanca meyl impulsu vardır; guya bu cür impulslar insan instinktinə aiddir.

Moreno şəxsi münasibətlər sistemində adamın mövqeyini cəmiyyətdə maddi nemətləri bölüşdürülməsi üçün əsas götürülən ölçüyə bənzədir. Onun fikrincə, hər bir şəxs anadangəlmə zərrəcik olan «tele» üzündən ya başqalarının rəğbətini qazanır, ya da adamları özündə uzaqlaşdırır.

Bir çox burjua filosofları, psixoloq və pedaqoqları öz mürtəce nəzəriyyələrinə haqq qazandırmaq üçün müasir elmlərin, o cümlədən genetikanın, neyrofiziologiyanın nəticələrindən istifadə etməyə çalışırlar. Məsələn, S.Bert sübut etməyə çalışır ki, adamın əqli qabliyyətləri onun fiziki əlamətləri kimi anadangəlmədir. O ekiz uşaqlarla əlaqədar olaraq deyir ki, kiçik yaşlarından ayrılaraq başqa-başqa mühitdə tərbiyə alan ekizlər saçlarının və gözlərinin rəngi, qan qrupu və s. əlamətlərinə görə eyniyyət təşkil edirlər. Neyrofiziologiyaya əl atan S.Bert normal adamların və fiziki qüsuru olan adamların beyin hüceyrələrinin müxtəlif quruluşa malik olduğuna işarə edir. S.Bertin fikrincə adamların beyin hüceyrələrinin müxtəlif qurluşa malik

olması onların əqli inkişafını şərtləndirir. Bert bir qədər də irəliyə gedir və göstərir ki, guya test əsasında əldə edilən statistik məlumat sübut edir ki, sinfi fərqlər genetik təbiətə malikdir. S.Bertin çıxardığı son mürtəce nəticə belədir ki, məktəblərin vahidliyi siyasətini deyil, onların müxtəlifliyi siyasətini müdafiə etmək lazımdır.

Şəxsiyyətin və təhsilin genetik cəhətdən şərtləndiyini Q.Ayzek daha qətiyyətlə müdafiə edir. Şüurun dəyişməz olduğunu və irsi xarakter daşıdığını iddia edən Ayzek burjua təhsil sistemindəki qeyri-bərabərliyə tərəfdar çıxır. Onun fikrincə zəncilər əqli cəhətdən aşağı səviyyədə dururlar. O, gətirdiyi faktları, hətta faizlə də ifadə etdirir. Q.Ayzekə görə genetik proqram şəxsiyyətin inkişafının 76%-ni şərtləndirir.

Oksford universitetinin elmi işçisi C.Qrey «Tayms» qəzetində inandırmağa çalışmışdır ki, bəşəriyyət genetikanın dəmir qanunları qarşısında gücsüzdür; guya hamı üçün ümumi, icbari təhsil həyata keçirməyə, hamı üçün bərabər təhsil imkanı yaradılmasına çalışanların səyləri baş tutmaz; guya adamlarda əqli imkan genetik cəhətdən proqramlaşır.

C.Qrey SSRİ-də icbari təhsil təcrübəsinin üstündən sükutla keçməyə məcbur olur. Çünki icbari təhsilin SSRİ-də həyata keçirilməsi C.Qrey kimi dil pəhləvanlarının fikirlərini alt-üst edir. Sovet İttifaqında isə sosial-siyasi şərait imkan vermişdir ki, hamı üçün ümumi olan icbari təhsil müvəffəqiyyətlə həyata keçirilsin.

Psixoloji və pedaqoji tədqiqatlarının «nəticələrini» sosioloji tədqiqatlarda təkrar edən burjua alimləri də vardıır. Məsələn, ingilis alimi Frendsis Qalton hələ 1869-cu ildə çap etdirdiyi «Dahinin irsiliyi» adlı kitabında bir çox alimləri, şairləri, hüquqşünasları, sərkərdələrin nəsillərini öyrənmiş və belə nəticə çıxarmışdır ki, onların keçmiş nəsillərində və qohumları arasında istedadlar adi adamların keçmiş nəsilləri və qohumları arasında olduğundan çoxdur. F.Qalton bu əsasda belə bir yanlış fikir isbat etməyə çalışmışdır ki, bəşəri qabliyyətlərin inkişafında mühitə nisbətən fərdin təbiəti daha böyük təhsil qüvvəsinə malikdir.

Amerika alimi R.Daqdel başlanğıcını Caks familyalı şəxsiyyətdən götürən bir neçə ailənin əsil-nəcabətini öyrənmiş və müəyyən etmişdir ki, Caksın nəslindəki 709 nəfərin 76-sı məhbus, 128-i pozğun, 200-i dilənçi olmuşdur.

Bu cür faktlardan R.Dakdelin çıxardığı nəzəri nəticə belədir: Şəxsiyyətin keyfiyyətləri nəsildən-nəslə keçir.

Əsil nəcabətin öyrənilməsi sahəsində tədqiqat aparan müasir alimlər də vardır. Bu istiqamətdə burjua alimlərinin tədqiqatları bir qayda olaraq, irsən keçən xəstəliklərlə əlaqədar təşkil edilir. Hər dəfə belə bir eyni nəticə çıxarılır ki, guya cəmiyyətdə adamların müxtəlif siniflərə və irqlərə parçalanmasının, habelə adamların müxtəlif əqli səviyyəyə malik olmasının əsas səbəbi irsiyyətdir. Həmin tədqiqatlardan alınan nəticələri siyasi mənası aydındır. Əgər sinfi və irqi fərq cəmiyyətdə genetik cəhətdən şərtlənirsə, əgər əqli imkanlar genetik genlərə malikdirsə, kapitalizm cəmiyyətində proletariat və burjua sinflərinin mövcudluğu və təhsil sistemində ayrı-seçkiliyin hökm sürməsi təbiidir, müxtəlif səviyyəli təhsil verən başqa-başqa məktəb tipləri olmalıdır; belə bir şəraitdə müəllimin vəzifəsi uşaqların irsən keçən qabliyyətlərinin səviyyəsini mümkün qədər kiçik yaşlardan aşkara çıxarmaqdan, uşaqların cari maraq və ehtiyaclarını nəzərə almaqdan və bütün təlim işini bu əsasda təşkil etməkdən ibarət olmalıdır. Bir çox burjua pedaqoq və psixoloqları kimi Dakdelin nəzərdə tutduğu, lakin açıq ifadə etmək istəmədiyi fikrin mahiyyəti belədir.

A.Bine, V.Ştern və başqalarının fikirlərindəki siyasi məna da bundan fərqlənmir. Onların fikrincə, uşaqda qavrayışın, təfəkkürün, müşahidəçiliyin səviyyəsi yaşdan asılıdır. Bu cür məntiqə əsaslancaq, təbii olaraq belə bir nəticə çıxarılmalıdır ki, hər hansı ictimai mühitdə tərbiyənin güclü təsirinə ümid bəsləmək əbəsdir. Bir çox burjua ideoloqları məhz belə düşünürlər. Məsələn, ingilis pedaqoqu U.Beytson genetikanın və biologiyanın nailiyyətlərinə işarə edərək yazır ki, tərbiyənin nəticələrinə bəslədiyimiz ümidlər son dərəcə məhduddur. Onun fikrincə, genetikanın və biologiyanın nailiyyətləri rüşeym hüceyrələrində şəxsiyyətin imkanları və əlamətlərini

təyin edən keyfiyyətlərin olduğu barədə heç bir şübhəyə yer qoymur. Göründüyü kimi, U.Beytson insan şəxsiyyətinin sosioloji xarakter daşıdığını inkar edən və onun bioloji xarakter daşıdığını sübut etməyə səy göstərən burjua ideologiyasının tipik nümayəndələrindən biridir.

Burjua ileologiyasının bəzi nümayəndələri şəxsiyyət problemlərində ictimai mühit anlayışını təbii mühit anlayışı ilə əvəz edərək ictimai hadisələri bioloji hadisələrlə izah etməyə çalışırlar.

Bu cür meylə rəğbət göstərmək hallarına sovet elmində də rast gəlmək olur. Məsələn, «Beyin və psixika» adlı məqaləsində D.İ.Dubrovski yazır ki, beynin genetik xüsusiyyətləri hər bir fərdin beynin ontogenetik xüsusiyyətlərini əhəmiyyətli dərəcədə təyin edir ki, bu xüsusiyyətlər də fərdi psixoloji fərqlərə bais olur. D.İ.Dubrovskinin fikrincə, insan şəxsiyyətinin və psixoloji fərqlərin sonsuz müxtəlifliyini baş beynin fərdi struktur-funksional fərqləri ilə tutuşdurmaq tamamilə məntiqi olar.

İnsan şəxsiyyəti keyfiyyətlərinin bioloji əsasda başa düşülməsi və izahı onun (insanın) mühitlə müxtəlif formalı və müxtəlif məzmunlu əlaqəsini kölgədə qoyur, insan fəaliyyətini, fəaliyyət zamanı şəxsiyyətin köklü dəyişikliklərə uğradığını unudur. Unudur ki, insan başdan-başa deyil, «qismən təbii qüvvələrə malikdir; o fəal təbii varlıqdır» (Marks).

Şəxsiyyətin bioloji amillərlə izahı nəinki yalnız nəzəriyyədə, habelə əməli işdə səhvlərə gətirib çıxarır. Bu, bir sıra vaxtı keçmiş atalar sözlərinin yersiz işlənməsinə də şərait yaradır və hətta onlara bəraət qazandırır. Məsələn, «namərd gəlib mərd olmaz, olmasa mərd atası», « ot kökü üstə bitər», «qurd adın dəyişər, xasiyyətini dəyişməz», «neyləyirsən qızıl taxtı, qızıl baxtın olsun», «olacağa çarə yoxdur» kimi atalar sözləri və zərb-məsələləri gənc nəslin kommunist tərbiyəsinin təşkilində əngələ çevrilə bilər. Uşağa münasibətdə bir sıra valideynlər və hətta, bəzi müəllimlər həmin atalar sözlərini və zərb məsələləri mənasına varmadan, təsir gücünə diqqət yetirmədən işlədirlər. Bu və ya digər uşağın tərbiyəsində çətinliklə qarşılaşan bəzi

tərbiyəçilərin «qozbeli qəbir düzəldər», «qurda nə qədər yaxşılıq etsən, yenə də meşəyə baxar», «ilanın balası da ilan olar» və s. deməklə özlərini tərksilah edir, tərbiyə işində aciz olduqlarını göstərir, şəxsiyyətin formalaşmasında mühit amillərinin, tərbiyənin rolunu, istər-istəməz heçə endirir və əslində şəxsiyyətin formalaşması məsələsini irsiyyət nəzəriyyəsi əsasında həll etmiş olurlar. Unutmaq olmaz ki, insan xarakterinin xüsusiyyətlərini yalnız irsiyyətdə axtaranlar nəinki fikirdə, hətta, əməli işdə də ciddi səhvlərə və təhriflərə meydan açırlar.

Dediklərimizdən belə bir nəticə çıxarmaq düzgün olmazdı ki, guya biz şəxsiyyətin formalaşmasında irsiyyətin ümumiyyətlə rolunu tamamilə inkar edirik.

Deməliyik ki, fiziki, əqli, əxlaqi keyfiyyətlərin formalaşmasına irsi əlamətlərin müəyyən təsiri olur.

*Mühitə üstünlük verilməsi.* İnsan şəxsiyyətinin formalaşmasında irsiyyətin roluna üstünlük verən filosofların, psixoloq və redaqoqların bir çoxu mühitin, ictimai amillərin rolunu inkar edə bilməmişdir. Məsələn, əvvəlki paraqrafda adlarını çəkdiyimiz A.İensen, C.Qrey, Q.Ayzek və bir çox başqaları insan şəxsiyyətinin formalaşmasını başlıca olaraq irsiyyətlə izah etməyə səy göstərərkən xarici mühitin də müəyyən rolu olduğunu etiraf etməyə məcbur olmuş, hətta, onların təsir nisbətini faizlə ifadə etməyə çalışmışlar. Məsələn, A.İensenə və C.Qreyə görə şəxsiyyətin formalaşmasına genlər 80% mühit isə 20%, Q.Ayzekə görə genlər 76%, mühit isə 24% təsir göstərir.

Yaxud, ikinci dünya müharibəsi zamanı xeyli təsirə malik olmuş ingilis pedaqoqlarından C.Adams bir qədər əsəbi şəkildə yazmışdır ki, bütün çətinliyi ilə başa düşmək lazımdır ki, uşaq qabaqcadan dəqiqləşmiş təbii imkanlarla dünyaya gəlir; uşaq «irsiyyətin» və «mühitin» çarpışdığı meydana çevrilir; lakin «mühit» hələ işə başlayandan xeyli qabaq «irsiyyət» öz varlığını göstərir. C.Adamsın fikrincə, mühit heç bir şeyi dəyişdirməyə qabil deyildir. Guya mühit, o cümlədən tərbiyə, uşaqlara yalnız müəyyən məlumat verə bilir. Şəxsiyyətin formalaşmasında irsiyyətə üstünlük verə

bilir. Şəxsiyyətin formalaşmasında irsiyyətə üstünlük verən alimlərin bir qisminin fikrincə, şəxsiyyətin inkişafında mühit keyfiyyət dəyişikliyinə səbəb olmur, adamda məlumatlılıq dərəcəsinin artmasına imkan verir.

Bəzi burjua alimləri şəxsiyyətin formalaşmasında mühitin rolunu qəbul etməkdə bir qədər irəliyə getmişlər. Bu cəhətdən Helmut Fon Brakkenin ümumiləşdirici tədqiqatından çıxartdığı nəticə çox xarakterikdir. Marburq universitetindən olan H.F.Brakken psixoloji funksiyaların genetikasına dair 1100 tədqiqat işinin analitik icmalını verərkən belə bir nəticəyə gəlir: «İnsanın fərdi mənliyinin başdan-başa genetik mənlik amilllər ilə şərtləndiyinin iddia edildiyi dövr keçmişdir. Bu sahənin problematikası dərindən öyrənildikcə aydın olur ki, xarici mühitə və genetik amillərlə onun çoxcəhətli toqquşmalarına ciddi diqqət verilməzsə, genetik psixologiyanın sonrakı inkişafı mümkün olmaz. Eyni sözü xarici mühit təsirinin öyrənilməsi barədə də demək olar».[1]

Mühitin təsir gücünü nəzərə almağın zəruriliyini etiraf edən filosof, psixoloq və pedaqoqlarla yanaşı şəxsiyyətin formalaşmasında mühitin rolunu həddən artıq şişirdənlər, onu mütləqləşdirənlər və beləliklə, irsiyyətin rolunu heçə endirənlər də olmuşdur. İngilis filosofu C.Lokkun, fransız ensiklopedist filosofu və pedaqoqu J.J.Russonun və bir çox başqalarının fikirləri buna misal ola bilər. Con Lokk şəxsiyyətin formalaşmasını irsiyyətlə izah edən nəzəriyyələrə qarşı vaxtilə kəskin çıxış etmiş və «ağ lövhə» nəzəriyyəsini, mühitin və tərbiyənin başlıca rolu olduğuna dair fikri əsaslandırmağa çalışmışdır. O, «Tərbiyə haqqında fikirlər» adlı əsərində sübut etməyə çalışmışdır ki, şəxsiyyəti yaradan mühitdir, ətrafdakı şəraitdir. Bununla yanaşı, Con Lokk tərbiyənin rolunu inkar etməmişdir. O, məsələn, deyirdi ki, adamların xeyirxah və ya bədxah olması aldıqları tərbiyənin nəticəsidir.

«Azad tərbiyə» nəzəriyyəsinin əsasını qoymuş olan fransız alimi J.J.Russo da mühitin təsir gücünə müstəsna əhəmiyyət vermişdir. J.J.Russonun fikrincə, uşaqla uzun-

---

[1] Bax: «Вопросы психологии» jurnalı, 1972, №2, səh.178.

uzadı söhbət aparmağın, ona öyud-nəsihət verməyin mənası yoxdur: istənilən əxlaqi keyfiyyəti uşaqda görmək üçün onu müvafiq şəraitə, müvafiq mühitə salmaq lazımdır. Həmin mühit özü uşağa istədiyiniz əxlaqi keyfiyyəti aşılayacaqdır. Bununla J.J.Russo şəxsiyyətin formalaşmasında irsiyyətin rolunu inkar etmiş və tərbiyənin rolunu isə faktik olaraq kölgədə qoymuşdur. J.J.Russo, düzdür, sözdə tərbiyəni qəbul etmiş, hətta, pedaqoji sistemində «azad tərbiyə» və «təbii tərbiyə» anlayışları da olmuşdur. Lakin «təbii tərbiyə» dedikdə o, təbiətin, ətrafdakı adamların və əşyaların uşağa təsirini, «azad tərbiyə» dedikdə isə, təşkil olunmuş mühitin uşağa təsirini nəzərdə tutmuşdur. Göründüyü kimi, Russo mahiyyətcə mühitin təsir gücünü mütləqləşdirmişdir.

C.Lokkun və J.J.Russonun fikirləri birtərəfli olsa da, öz dövrü üçün mütərəqqi əhəmiyyətə malik olmuşdur. Çünki, yenicə yaranan və inkişaf edən burjuaziyanın nümayəndələri kimi C.Lokk və J.J.Russo mürtəce irsiyyət nəzəriyyəsinə qarşı qətiyyətlə mübarizə aparmış və şəxsiyyətin formalaşmasını yalnız irsiyyətlə izah etməyin həm səhv və həm də zərərli olduğunu nəzəri cəhətdən isbat etməyə səy göstərmişlər.

Müasir dövrdə mühitin, o cümlədən kapitalizm mühitinin rolunu mütləqləşdirmək hallarına, əlbəttə, heç bir bəraət qazandırmaq olmaz.

Kapitalizmdə sosioloji amillərə üstünlük verən burjua pedaqoqlarının fikirlərində spesfik cəhətlər olsa da, mahiyyətcə həmin fikirlər hakim siniflər üçün sərfəli olur. Çünki kapitalizm şəraitində mühit amillərinə üstünlük verənlərin çoxu həmin amillərin dəyişməz olduğunu nəzərdə tuturlar. Onlar fəhlə ailəsinin mühitini və burjua ailəsinin mühitini dəyişməz mühit kimi qələmə verdiklərindən müxtəlif mühitlərin uşaq psixologiyasına təsirini mütləqləşdirir; mühiti uşağın qabiliyyətini bir yolluq təyin edən amil kimi qəbul edirlər. Buna görə də burjua pedaqoqları əslində kapitalizm cəmiyyətinə başqa formada bəraət qazandırırlar.

1935-ci ilə qədər SSRİ-də «Məktəbin ölüb getməsi nəzəriyyəsi» deyilən bədnam nəzəriyyənin tərəfdarları şəxsiyyətin formalaşmasında mühitin rolunu nəinki mütləqləşdirir,

hətta mühitin dəyişməz olduğunu iddia edirdilər. Bu yolla onlar diqqəti tərbiyə işlərindən yayındırır, gənc nəslin yetişdirilməsində, xarakterin formalaşmasında məktəbin rolunu heçə endirirdilər.

Yalançı elm olan pedalogiya da 1936-cı ilə qədər maarifə və pedaqogikaya az zərər vurmamışdır. Pedaqoqlar müxtəlif formalı testlərlə uşaqların mövcud inkişaf səviyyəsini üzə çıxarmağa və yalnız bu əsasda uşağın gələcək müqəddəratını həll etməyə çalışırdılar.

***Mühit anlayışının bəzi cəhətləri.*** Şəxsiyyətin formalaşması ilə əlaqədar olan mühit anlayışı çox genişdir. İnsanın inkişafına bu və ya digər dərəcədə təsir göstərən bütün xarici amillər mühit anlayışına daxil edilə bilər. Həm təbiət, təbii cisim və hadisələr, həm də ictimai hadisələr, ictimai-iqtisadi münasibətlər, siyasi və ideoloji mühit, məişət, maddi və mənəvi mədəniyyət mühit anlayışına daxildir. Mühitin bu cür amilləri şəxsiyyətin formalaşmasına müəyyən təsir göstərir. Mühit anlayışının təhlilindən aydın olur ki, hər bir ölkənin nəinki daxili şəraiti, həm də onun xarici vəziyyəti həmin ölkənin qarşısında müvafiq sosial, iqtisadi və siyasi vəzifələr qoyur və bu vəzifələrin həlli orada adamların xarakterinə, şəxsiyyətinə müəyyən təsir göstərir.

Ayrılıqda hər bir ölkənin özünəməxsus spesifik cəhətləri olsa da, Sov.İKP XXV qurultayı materiallarına uyğun olaraq ölkələri üç qrupa ayırmaq mümkündür: sosialist ölkələri, kapitalist ölkələri və inkişaf edən ölkələr.

Hər qrupa aid olan ölkələrin həm spesifik və həm də ümumi, səciyyəvi cəhətləri vardır ki, həmin cəhətlər orada yaşayan adamların mənəviyyatına güclü təsir göstərir. Məsələn, inkişaf etməkdə olan ölkələrin spesifik şəraiti orada yaşayan adamların fəaliyyətinə və deməli, xarakterinə kapitalist ölkələrindəkindən fərqli şəkildə təsir göstərir. Müstəmləkə asılılığından azad olaraq müstəqil inkişaf yoluna qədəm qoyan ölkələri hazırda səciyyələndirən cəhətlərdən birisi sənayenin inkişafında ağırlıq mərkəzinin dövlət bölməsinə keçməsi, feodal torpaq sahibliyinin ləğv edilməsi, gənc dövlətlərin öz təbii sərvətləri üzərində suverenliyə nail

olmaq məqsədilə xarici müəssisələrin milliləşdirilməsi, milli kadrların yetişdirilməsi və s-dir. İnkişaf etməkdə olan ölkələr, bu ölkələrin zəhmətkeşləri imperializmə qarşı mübarizədə siyasi və iqtisadi hüquqlarını getdikcə daha artıq bir əzmlə müdafiə edərək, öz istiqlaliyyətini möhkəmləndirməyə, öz xalqlarının sosial, iqtisadi və mədəni inkişaf səviyyəsini yüksəltməyə çalışırlar. Belə bir fəaliyyətin şərtləndirdiyi xarakterin özünəməxsus xüsusiyyətləri olur.

Kapitalist ölkələrinin daxilindəki sinfi mübarizə və kapitalist ölkələri arasındakı ziddiyyətlər həmin ölkələrin adamlarına, onların xarakterinə, şəxsiyyətlərinə başqa cəhətdən təsir göstərir. Sov.İKP XXV qurultayına hesabat məruzəsində deyilir: «İmperialistlər arasında rəqabət, «Ümumi bazar»da və NATO-nun daxilində münaqişələr güclənmişdir. Beynəlxalq inhisarın gücünün artması rəqabət mübarizəsini daha amansız bir şəklə salmışdır. Kapitalist ölkələrinin hökumətləri ziddiyyətləri azaltmaqdan, böhranı aradan qaldırmaqdan ötrü birgə tədbirlər haqqında razılığa gəlmək üçün xeyli cəhd göstərirlər. Lakin imperializmin təbiəti elədir ki, hər kəs başqasının hesabına üstünlük əldə etməyə, başqasınə öz iradəsinə tabe etdirməyə çalışırlar. İxtilaflar yeni formalarda üzə çıxır, ziddiyyətlər yeni qüvvə ilə alovlanır».

Kapitalist ölkələrində xalq kütlələrinin üzərinə ağır yük düşmüşdür. Orada bahalığın artması əhalinin real gəlirini amansız surətdə azaldır. Rəsmi məlumatlara görə kapitalist ölkələrində 15 milyon nəfərdən çox zəhmətkeş işdən kənara atılmışdır; mənəvi mədəniyyət tənəzzülə doğru gedir. Qadınlara kişilərdən az maaş verilir; cinayətkarlıq artır. Təbiidir ki, belə bir şəraitdə zəhmətkeş kütləri buna proletariatcasına cavab verir, ictimai bəlaların əsas təqsirkarı olan iri kapitala qarşı mübarizəni gücləndirirlər. Zəhmətkeşlərin ən müxtəlif təbəqələrinin iştirak etdiyi tətil mübarizəsi son onilliklər ərzində ən yüksək səviyyəyə çatmış, zəhmətkeş kütlələrin inqilabi əhval-ruhiyyəsi daha da güclənmişdir. Kapitalist ölkələrinin zəhmətkeşləri aydın şəkildə dərk etməyə başlamışlar ki, ictimai yeniləşmənin ən qüdrətli amili

inqilabdır; xalqın içərisində yatıb qalan böyük yaradıcı qüvvələrin buxovlarını inqilab zərbələri qırıb atır.

Ümumi şəkildə səciyyələndirdiyimiz faktlar göstərir ki, mühit anlayışında ölkənin sosial-iqtisadi vəziyyəti aparıcı, həlledici rola malikdir. Kapitalizm və sosializm şəraitində şəxsiyyətin formalaşmasının başlıca cəhətləri sonrakı fəsillərdə müfəssəl şərh ediləcəkdir.

***Tərbiyəyə üstünlük verilməsi.*** Külli miqdarda həyati faktlar göstərir ki, şəxsiyyətin formalaşmasını yalnız ictimai mühitlə, ətraf mühitin təsiri ilə izah etmək, yalnız şəxsi fəaliyyətlə izah etmək, irsiyyətin və tərbiyənin rolunu isə inkar etmək düzgün deyildir. Bu fikrin doğruluğunu hiss edən bəzi alimlər, pedaqoq və psixoloqlar şəxsiyyətin formalaşmasında diqqəti əsasən tərbiyəyə cəlb etmişlər.

Şəxsiyyətin formalaşmasında irsiyyətin də, mühitin də rolunu azaldan və bəzən onları inkar edənlər, başqa amilə-tərbiyəyə üstünlük verənlər tarixdə olmuş və indi də vardır. Bu cür alimlərin əqidəsinə görə insan xarakterini, onun şəxsiyyətini formalaşdıran başlıca amil tərbiyədir: guya tərbiyə hər şeyə qadirdir. Y.A.Komenski, K.A.Helvetsi, Mişel Lepeletye, Robert Ouen və bir çox başqaları buna misal ola bilər. Komenskinin əqidəsinə görə, insan tərbiyə sayəsində insan olur. O, yazırdı ki, hər cür uşağı tərbiyənin köməkliyi ilə insan etmək olar. Yaxud fransız ensiklopedist materialistlərindən olan K.A.Helvetsi «İnsan, onun əqli qabliyyətləri və tərbiyəsi» adlı əsərində adamların əqli və əxlaqi keyfiyyətlərinə dair fikirlərini şərh etmiş və belə bir nəticəyə gəlmişdir ki, adamların hamısı eyni dərəcədə təhsil almağa qadirdir; təbii imkanlarına görə adamlar bərabərdir; əqli və əxlaqi keyfiyyətlər isə adamlarda müxtəlif ola bilir. Helvetsi həmin müxtəlifliyin səbəblərini öyrənməyə səy göstərmişdir. Onun əqidəsinə görə, əqli cəhətdən bərabərsizlik məlum səbəbin nəticəsidir və bu səbəb tərbiyədəki fərqdən ibarətdir. Helvetsi mühitin şəxsiyyətə təsirini də tərbiyə anlayışına daxil etmişdir. Onun fikrincə, gənclərin başlıca tərbiyəçisi yaşdıqları dövlət üsulu idarə formalarının xalqda yaratdığı adət və ənənələrdir. Vaxtilə Helvetsiyə

tutarlı etiraz edən Deni Didro yazırdı ki, tərbiyə hər şey deyil, çox şeyə qadirdir. Tərbiyənin təbii xüsusiyyətlərə münasibəti məsələsinə toxunarkən Didro Pestalotsinin məlum bir fikrinə yaxınlaşır; D.Didro deyirdi ki, tərbiyə uşaqların təbiətini nəzərə ala bilsə onlarda faydalı təbii imkanları inkişaf etdirə və zərərli təbii imkanları üstələyə bilər.

Tərbiyənin hər şeyə qadir olduğuna ömrünün son günlərinə qədər K.A.Helvetsidən də güclü inam bəsləyən şəxslər tarixdə az olmamışdır. Mişel Lepeletye, utopik sosialist Robert Ouen və b. bu fikirlə nəinki nəzəri cəhətdən qaynayıb qarışmış, hətta, həmin fikrin həyata keçirilməsi üçün bütün qüvvələrini səfərbər etmiş, əməli fəaliyyət də göstərmişlər.

XVIII əsrin sonunda Fransa burjua inqilabı zamanı Mişel Lepeletye maarif sahəsində islahat aparmaq məqsədilə irəli sürdüyü layihədə isbat etməyə çalışmışdı ki, təhsil və tərbiyə vasitəsilə yeni adamlar hazırlamaq və cəmiyyəti təzələmək olar. Lahiyəyə görə, yeni adamları «milli tərbiyə evlərində» hazırlamaq lazım idi. 5-12 yaşında olan bütün oğlan və qızları «milli tərbiyə evləri»nə cəlb etmək və dövlət hesabına tərbiyə etmək məsləhət görüldü. Bu yolla uşaqları mühitin mənfi təsirindən mühafizə etmək nəzərdə tutulurdu. Lakin Lepeletyenin layihəsini kapitalizm şəraitində həyata keçirmək mümkün olmamışdır.

Məlumdur ki, Robert Ouen kapitalizm cəmiyyətini tərbiyə vasitəsilə dəyişdirməyə və sosializm cəmiyyəti qurmağa böyük səy göstərmişdir. O, təşkil etdiyi fabriklərdə öz hesabına uşaq bağçaları və məktəblər açmış, fəhlələrin uşaqlarına tərbiyə verməklə yeni nəsil yetişdirməyə, həmin nəslin vasitəsilə yeni cəmiyyət-sosializm cəmiyyəti qurmağa çalışmışdır. Robert Ouenin faciəsi orasında olmuşdur ki, o, şəxsiyyətin formalaşmasında ətraf mühitin, ümumi kapitalizm əhatəsinin rolunu lazımınca qiymətləndirə bilməmişdir. O, sadəlövhlüklə inanmışdır ki, ictimai-iqtisadi münasibətləri dəyişdirmədən təhsil və tərbiyə vasitəsilə şüurda dönüş yaratmaq, adamlarda, o c ümlədən kapitalistlərin balalarında sosialist əxlaqını formalaşdırmaq mümkündür. Obyektiv amilləri, mühitin

rolunu lazımınca qiymətləndirə bilmədiyindən Ouenin planları həyata keçmədi, utopiya olaraq qaldı.

Tərbiyənin qüdrətini həddən artıq şişirtmək hallarına Azərbaycan maarifpərvərləri arasında da təsadüf edilirdi. Məsələn, M.Ə.Sabirin bəzi fikirləri buna nümunə ola bilər. M.Ə.Sabir bir vaxt tərbiyəyə böyük ümidlər bəsləmişdir. O, hər cür çətinliyin işıqlı yolunu, xoşbəxtliyin dürüst ünvanını tərbiyədə görürdü. M.Ə.Sabir «Tərbiyə» adlı şeirində yazırdı:

*«Ümmətin rəhnüması tərbiyədir,*
*Millətin pişvası tərbiyədir.*
*Tərbiyətlə keçir ümuri-cahan,*
*Hər işin ibtidası tərbiyədir…*
*Tərbiyət elmsiz deyil məqbul*
*Ki, onun müqtəzası tərbiyədir».*

Təəssüflə etiraf etməyə məcburuq ki, şəxsiyyətin formalaşması məsələsinə bitərəfli yanaşmaq hallarına bəzi müəssisə və idarə rəhbərləri arasında, müəllim və valideynlər arasında indi də rast gəlmək olur. Məsələn, qəbahət iş görmüş şagirdlərin davranışı məktəbin pedaqoji şurasında müzakirə edilən zaman bəzi müəllimlər və məktəb rəhbərləri bir çox halda həmin uşaqların yalnız valideynlərini, onların ailə tərbiyəsini günahkar görürlər. Valideynlərin bəziləri isə belə hallarda məktəbi, məktəbdə tərbiyə işlərinin pis təşkil edildiyini söyləyirlər. Halbuki həmin valideynlər də, müəllimlər də birtərəfli düşünürlər. Onlar güman etmirlər ki, şagirdin davranışını şərtləndirən yalnız ailə tərbiyəsi, yaxud yalnız məktəb tərbiyəsi deyildir. Doğrudur, şagirdin xarakterini ailə tərbiyəsi də, valideynlərin davranışı da, məktəb tərbiyəsi də, müəllimlərin davranışı da şərtləndirir. Lakin burada şagirdi əhatə edən mühitin təsirini unutmaq olmaz. İctimai mühit amilləri də şagird şəxsiyyətinə güclü təsir göstərir.

***Qoşa aml nəzəriyyəsi.*** «Qoşa amil» nəzəriyyəsinin tərəfdarları da təhlil etdiyimiz problemi düzgün həll edə bilməmişlər.

«Qaşa amil» nəzəriyyəsi müxtəlif formada özünü göstərir. Məsələn, bir qrup alim sübut etməyə çalışır ki, şəxsiyyətin başqa istiqamət almasına səbəb təkcə tərbiyə, yaxud təkcə mühit deyil, həm tərbiyə və həm də mühitdir: tərbiyə və mühit şəxsiyyətə eyni zamanda təsir göstərir. Belə bir fikrə

əsaslanan nəzəriyyənin nöqsanı təkcə ondan ibarət deyildir ki, bu nəzəriyyə şəxsiyyətin formalaşmasında irsi əlamətlərin rolunu heçə endirir; həm də ondan ibarətdir ki, «qoşa amil» nəzəriyyəsində şəxsiyyət tərbiyənin və mühitin passiv məhsulu hesab edilir, şəxsiyyətin fəal qüvvə olduğu, mühitə onun təsir göstərə bildiyi kölgədə qalır. Bu meylə Helvetsinin əsərlərində də rast gəlmək olur.

Şəxsiyyətin formalaşmasını başlıca olaraq mühit və irsiyyət amilləri ilə izah etməyə aludə olanlar da vardır Bu cərəyan tərəfdarlarının əqidəsinə görə həmin amillər eyni zamanda, bir-birindən asılı olmayaraq şəxsiyyətə təsir göstərir və şəxsiyyətin formalaşmasını şərtləndirir. «Qoşa amil» nəzəriyyəsinin bu formasında da şəxsiyyət hər iki amilin məhsulu hesab edilir: mühitin və irsiyyətin qarşılıqlı əlaqəsi, birinin digərinə təsir edə bildiyi nəzərə alınmır.

«Qoşa amil» nəzəriyyəsinin həm birinci, həm də ikinci formasının təhlükəli və zərərli cəhəti ondan ibarətdir ki, kapitalizm şəraitində həmin nəzəriyyələr burjua mühitini dəyişməz mühit kimi qəbul edir və bu mühiti inqilabi yolla dəyişdirməyin mümkün olduğunu bilə-bilə unudur. Kapitalizm cəmiyyətində insan şəxsiyyətinə mühitin təsir qüvvəsini qəbul etmək mahiyyətcə həmin cəmiyyəti dəyişdirməyin mümkün olduğunu tələb etmir, yaxşı halda diqqəti kapitalizm şəraitində mühitin təkmilləşdirilməsinə yönəldir.

Mühit amilinə məhəl qoymayan, şəxsiyyətin formalaşmasını irsiyyət və tərbiyə amilləri ilə izah etməyə meyl göstərən pedaqoqlar da olmuşdur. İohan Henrix Pestalotsini bu meylin parlaq nümayəndələrindən biri etmək olar. İ.H.Pestalotsinin fikrincə, tərbiyənin məqsədi adamın təbii qüvvələrini və qabiliyyətlərini inkişaf etdirməkdən ibarət olmalıdır; təbii qüvvələr və qabiliyyətlər böyük əhəmiyyət kəsb etdiyindən ciddi şəkildə nəzərə alınmalıdır. Pestalotsi fikrini izah edərkən belə bir obrazlı müqayisədən istifadə edir: tərbiyə öz binasını möhkəm dayanan böyük qayanın (təbiətin) üzərində tikir (şəxsiyyəti formalaşdırır); tərbiyə həmin qaya ilə sıx əlaqədə olarsa və dönmədən onun üzərində möhkəm dayanarsa, qarşıya qoyulan məqsədə nail olar.

A.S.Makarenko kimi onlarla sovet pedaqoqlarının təcrübəsi bütün dünyaya sübut etdi ki, uşaqlarda pozğun əxlaq nəinki pozğun mühitin və başlı-başına buraxılmış tərbiyənin nəticəsidir: əgər həmin uşaqlar düzgün tərbiyə işinə *fəal* şəkildə qoşularsa və mühitin *fəal* amilinə çevrilərsə, qüsurlu mühitin və qüsurlu tərbiyənin məhsulu olan qüsurlu əxlaqi keyfiyyətləri aradan qaldırmaq və bunun əvəzində uşaqlarda yeni keyfiyyətlər, cəmiyyət üçün faydalı əxlaqi sifətlər formalaşdırmaq olar.

«Qoşa amil» nəzəriyyəsinin təzahür formalarından biri də geştalt-psixologiyadır, personalizmdir. Geştalt psixologiyanın da, personalizmin də nümayəndələri insan şəxsiyyətini psixo-fizioloji paralelizm mövqeyindən izah edirlər. Onlar psixoloji və fizioloji prosesləri bir-birindən ayırır və bunların təsirini ayrılıqda tədqiq etməyə səy göstərirlər. Belə çıxır ki, əxlaqi xüsusiyyətlərin necəliyi psixoloji və fizioloji keyfiyyətlərin necəliyindən asılıdır. Bununla da geştalt-psixoloqlar nəinki psixoloji və fizioloji proseslərin qarşılıqlı təsirinə o qədər də məhəl qoymurlar:onlar şəxsiyyətin formalaşmasında psixoloji və fizioloji amillərin gücünə uyaraq tərbiyənin də təsirini kölgədə qoyurlar.

Etiraf edilməlidir ki, burjua alimləri arasında obyektiv həqiqətə doğru meyl göstərənlərin sayı getdikcə artır. Məsələn, Avstriya alimi Karl Fon Fişeirin 1973-cü ildə Nobel mükafatına layiq görülmüş «Heyvanların arxitekturası» adlı kitabında irəli sürülən fikirlər buna nümunə ola bilir. Kitabda belə bir fikir irəli sürülür ki, həşəratların, quşların və başqa heyvanların davranışlarında maraqlı əlamətlər vardır; həmin əlamətlər göstərir ki, heyvanların həyatında adətlərin qazanılması və fərdi təcrübə bir çox mütəxəssislərin güman etdiklərindən də çox rol oynayır.

Göründüyü kimi, Kral Fon Fişeirin fikiri heyvanlara aiddir. İctimai varlıq olan insanlarda isə həmin xüsusiyyətlər, yəni şəxsi fəaliyyət, həyat təcrübəsi daha qabarıq, daha aydın, daha geniş miqyasda, şüurlu şəkildə özünü göstərir və daha böyük əhəmiyyət kəsb edir. Söz yoxdur ki, psixika ayrı-ayrı uşaqlarda o qədər də müxtəlif olmayan morfofizioloji zəmində inkişaf edir, lakin bu o demək

deyildir ki, morfofizioloji zəmin uşağın gələcək həyatını, onun psixikasını və xarakterini başdan-başa şərtləndirir.

Məşhur sovet psixoloqu A.N.Leontyev güman edir ki, insanın irsi xüsusiyyətləri ilə onun psixikasını və xarakterini başdan-başa şərtləndirir.

Məşhur sovet psixoloqu A.N.Leontyev güman edir ki, insanın irsi xüsusiyyətləri ilə onun « psixoloji fonotipi» arasında əlaqə vardır və bu əlaqəni anlamağın açarını insanın ontogenetik inkişafına dair nəzəriyyədə axtarmaq lazımdır.

Yuxarıda gətirdiyimiz fakt və fikirlərə əsasən deməliyik ki, bəsit konsepsiya olan «qoşa amil» konsepsiyası çərçivəsində şəxsiyyətin formalaşması probleminin düzgün həllinə yanaşmaq mümkün deyildir.

«Qoşa amil» nəzəriyyəsi ilə əlaqədar başqa bir cərəyanın olduğunu da qeyd edə bilərik. Şəxsiyyətin formalaşmasını mühitin və tərbiyənin təsiri ilə izah edənlər arasında elələri də vardır ki, onlar sözdə mühit və tərbiyə anlayışlarını işlətsələr də, əslində mühitin şəxsiyyətə təsirini geniş mənada tərbiyə kimi başa düşürlər. A.P.Medvedkovun, V.A.Suxomlinskinin və B.T.Lixaçovun fikirlərini buna misal gətirmək olar. Məsələn, A.P.Medvedkov « -
, »[1] adlı kitabında orqanizmin inkişafını pedaqoji proses adlandırmışdır.

Bu fikrin ünsürlərinə B.T.Lixaçovun «Şəxsi münasibətlər və tərbiyənin qanunauyğunluqları məsələsinə dair»[2] adlı məqaləsində də rast gəlirik. O, məqaləsində mühitin şəxsiyyətə təsirini Medvedkov kimi tərbiyə prosesinə aid edir. Buna görə də sosioloji və pedaqoji proses məqalədə eyniləşdirilir. V.A.Suxomlinski «Kommunist tərbiyəsi haqqında etüdlər»[3] adlı məqaləsində tərbiyəni formalaşan şəxsiyyətə mürəkkəb kompleksli təsirlər kimi qələmə verir.

Göründüyü kimi, şəxsiyyətin formalaşmasında tərbiyənin və mühitin rolunu ədəbiyyatda eyniləşdirmək hallarına rast gəlmək olur. Şəxsiyyətin formalaşmasına təbiətin, xalqın,

---

[1] Петроград, 1914.
[2] «Советская педагогика» jurnalı, №10, 1966.
[3] «Народное образование» jurnalı, №2, 1967.

mədəniyyətin güclü təsir göstərdiyini hələ K.D.Uşinski də vaxtilə etiraf etmişdir. Lakin o, mühitin və tərbiyənin şəxsiyyətə təsirini qətiyyən eyniləşdirməmişdir. K.D.Uşinski yazırdı: «İnsan həyatında tərbiyəyə böyük yer verərkən biz aydın şəkildə başa düşürük ki, tərbiyəvi fəaliyyətin hududları artıq insanın psixi və fiziki təbiəti şəraitində, habelə insanın yaşamalı olduğu mühitdə verilmişdir Bundan əlavə, biz aydın dərk edirik ki, tərbiyə sözün əsl mənasında, qabaqcadan düşünülmüş fəaliyyət kimi – məktəb, rəsmi tərbiyəçi və müəllim adamın heç də yeganə tərbiyəçisi deyil, onun qədər, bəlkə də ondan daha güclü olan və əvvəlcədən planlaşdırılmayan tərbiyəçiləri: təbiət, ailə, cəmiyyət, xalq, onun dini, dili, bir sözlə, sözün geniş mənasında təbiət və tarix vardır»[1].

«Qoşa amil» nəzəriyyəsinin ünsürlərinə böyük Azərbaycan şairi S.Ə.Şirvaninin yaradıcılığında da rast gəlmək olur. Şair şəxsiyyətin formalaşmasında mühitin də, tərrbiyənin də böyük qüvvəyə malik olduğunu göstərir. O, şeirlərinin birində mühitin rolunu belə ifadə etmişdir:

*«Ey oğul, tutma nanəcib ilə xu;*
*Türkidə bir gözəl məsəldir bu:*
*At yanındakı bağlan yabu*
*Rəngi bir olmasa, olur həmxu».*

S.Ə.Şirvani «İqlimin təsiri» adlı şeirində isə tərbiyənin müstəsna təsir gücünə malik olduğunu etiraf edərək deyir:

*«... ki, nə qədər olsa şəxs naqabil*
*Tərbiyəylə olur yenə kamil».*

«Qoşa amil» nəzəriyyəsinin bəzi ünsürləri şifahi xalq yaradıcılığında, xüsusən atalar sözlərində və zərb-məsəllərində də vardır. «Yaxşı yoldaş adamı bay edər, pis yoldaş zay»; «Mərdi qova-qova namərd etmək olar»; «Hər zamanın bir hökmü var» və s. kimi zərb-məsəllərdə tərbiyə ilə yanaşı, mühitin də rolu öz əksini tapmışdır.

---

[1] К.Д.Ушинский. Сочинения. Moskva-Leninqrad. RSFSR PEA nəşriyyatı, səh. 18.

# II FƏSİL. ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA İRSİYYƏTİN VƏ MÜHİTİN ROLU

## 1. ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA İRSİYYƏTİN ROLUNA DAİR

***Orqanizmin normal irsi inkişaf imkanları.*** Cinsi hüceyrədəki xromosomlar nəsillər arasında, bir növ körpü rolunu oynayır.

Xromosom özünü təkrar etmək, özünü «istehsal etmək», özünün eynini yaratmaq xüsusiyyətin malikdir. Səbəbi budur ki, hüceyrədəki hər bir xromosom iki hissəyə ayrılır, yəni ikiləşir və buna görə də özünün eynini yaratmaq qabiliyyətinə malik olur.

Orqanizmin embrional inkişafının müəyyən mərhələsində rüşeymin hüceyrələri diferensiallaşmağa, xüsusiləşməyə başlayır ki, bunların bir hissəsində cinsi vəzin təməli qoyulur. Həmin təməldə cinsi hüceyrə mitoz bölünmə ( yəni mürəkkəb bölünmə) yolu ilə çoxalır. Bir vaxt gəlir ki, cinsi hüceyrələrdə bölünmə yolu ilə çoxalma prosesi dayanır və cinsi yetişmə başlayır.

Marksizm klassikləri vaxtı ilə haqlı olaraq yazırdılar ki, bəşəriyyət hələ özündən əvvəl inkişafın müxtəlif mərhələlərindən keçməsəydi, nəsillər arasında irsiyyətin və inkişafın təmin etdiyi bu əlaqə olmasaydı, insan fərdinin, onun düşünən beyninin mövcudluğu möcüzə ola bilərdi.[1]

Sinir sistemi insanın təlim alması və tərbiyə olunması üçün böyük imkanlara malikdir.

**Sual olunur:** eyni xromosom dəstinə (toplusuna) malik olan adamlar nə üçün bir-birindən fərqlənirlər? Üzün quruluşunda, saçın və ya gözün rəngində, qamətdə, səs tellərində və orqanizmin digər hissələrində müşahidə olunan fərdi xüsusiyyətlər nəsildən-nəslə necə keçir? Bu cür fərdi əlamətlərin irsən keçməsini şərtləndirən nədir?

---

[1] K.Marks və F.Engels. Əsərləri, c. 20, səh. 512.

Valideynlərə məxsus olan fərdi əlamətlərin nəsildən-nəslə keçməsini şərtləndirən imkana elmdə «gen» adı verilmişdir. Genlər xromosomlarda yerləşir. Güman edilir ki, cinsi hüceyrədə olan genlərin hərəsi valideyn orqanizmindəki bir əlamətin (normal və ya potoloji əlamətin) daşıyıcısıdır.

Hər bir hüceyrənin nüvəsində milyonlarla gen olur. Hər əlamətin (məsələn, saçın rənginin) bir geni atadan, bir geni isə anadan uşağa keçə bilir. Uşaqda bu genlərdən biri dominant (üstün), o biri isə resessiv (gizli) ola bilir. Dominant olan genin təmsil etdiyi əlamət aydın ifadə edilir, passiv genin təmsil etdiyi əlamət isə gizli qalır. Lakin passiv əlamətlər ikinci nəsildə (nəvədə) və ya üçüncü nəsildə (nəticədə) hökmən meydana çıxır. İrsi xəstəliklərin mövcud ola bilməsi, orqanizm üçün nəinki ciddi əhəmiyyəti olmayan əlamətlər (məsələn, gözün, saçın və ya dərinin rəngi; başın, üzün və ya burunun forması) hətta orqanizm üçün həyat mənası kəsb edən normal və ya anormal əlamətlər, habelə bir çox xəstəliklər də irsən keçir. Elmə bu cür minə qədər irsi xəstəlik məlumdur. Çanaq, bud oynağının anadangəlmə çıxığı, anadangəlmə kəmağıllılıq, cinsi inkişafın anormallığı və s. bu cür xəstəliklərdən hesab edilir.

Orqanizm hüceyrələrinin xromosom sayında və xromosomun strukturunda yaranan qeyri normallıq orqanizmin bu və ya digər qüsurunda özünü göstərir. Hüseyrədəki xromosomların sayı 46 deyil, 45 və yaxud 47 olduqda kişi orqanizmində kişiyə xas olmayan bəzi qadın əlamətləri (məsələn, səsin incəliyi, saqqalsızlıq, bığsızlıq əlamətləri, döş vəzilərinin normadan artıq olması və s.), qadın orqanizmində isə boyun həddən artıq qısalığı, cinsi inkişafın geri qalması, döşlərin zəif inkişafı və s. əlamətlər müşahidə edilir.

Qızlarda xromosom dəsti bir vahid azaldıqda, yəni 45 olduqda Terner-Şorşevski deyilən, əksinə, bir vahid artdıqda, yəni 47 olduqda isə oğlanlarda Klayn filter deyilən xəstəlik əmələ gəlir.

Bu cür faktlardan görmək çətin deyildir ki, nəinki normal fiziki və fizioloji əlamətlər irsən nəsildən-nəslə keçir: irsən keçən əlamətlərin bir çoxu açıq ifadə olunur, bəziləri isə

müəyyən dövrdə özünü aydın büruzə vermir; hətta normadan kənarda olan əlamətlərin mövcud yəni anormal fiziki və fizioloji əlamətlərin də irsi kökləri ola bilir.

Lakin müasir tədqiqatlardan görünür ki, orqanizmin hər cür anadangəlmə əlamətlərini irsi əlamət adlandırmaq düzgün olmaz. Çünki bu cür əlamətlərin bir qismi orqanizmin xarici və daxili mühitin dəyişməsi nəticəsində yaranan əlamətlər kimi, əvvəllər müşahidə olunmayan fərdi əlamətlər kimi meydana çıxa bilir. İrsi əlamətlər isə mühitdəki təsadüfi, ötəri dəyişikliyin təsirinə tez məruz qalmır. Mühitdə əmələ gələn yeni amillər uzun müddət nəsillərə təsir göstərdikdə yeni irsi əlamət yaranan və ya mövcud irsi əlamət dəyişikliyə uğraya bilir.

Nəsildən-nəslə irsən keçən əlamətlər bəzi anadangəlmə fiziki və fizioloji qüsurlara da səbəb ola bilir. Lakin bu cür qüsur və çatışmazlıqları olan adamlar tək-təkdir. Həmin qüsur və çatışmazlıqlar bəşəriyyət üçün səciyyəvi deyildir. Bəşəriyyət üçün insan orqanizmi hüceyrələrində xromosomlar yığımının və xromosom strukturunun normallığı xarakterikdir.

İrsi əlamətlərin necəliyinə qan qohumluğu əsasında nigah da təsir göstərə bilir. Müəyyən edilmişdir ki, qohum valideynlərin uşaqları arasında irsi xəstəliklər qan qohumu olmayan valideynlərin uşaqlarına nisbətən xeyli çox olur. Tarixdən məlumdur ki, Habsburqlar ailəsində doğulmuş uşaqlar, adətən, heç bir fəaliyyət göstərə bilməyən oliqofren olmuşlar. Çünki, məsələn, II Filpp birinci nigahda əmisi qızını, ikinci nigahda isə xalası qızını, onun oğlu III Filpp əmisi qızına, IV Filpp xalası qızına evlənmişdir. Mütəxəssislər güman edirlər ki, Misir fironlarının süquta uğraması səbəblərindən birisi nəsildən-nəslə bacı ilə qardaşın evlənməsi olmuşdur. Tibb elmində isbat edilir ki, hər hansı səbəbdən dəyişmiş bir gen onun sahibinin sağlamlığına o qədər də təsir göstərmir və ondan əmələ gələn uşaq da sağlam ola bilir. Lakin dəyişmiş gen sahibi eyni xarakterli genə malik olan şəxslə evləndikdə əmələ gələn nəsil üçün irsi xəstəlik təhlükəsi reallaşır. Qan qohumluğu əsasında evlənmək hallarında isə dəyişmiş genlərin qovuşması imkanı imkanı çox olur. Deyilənlərdən belə bir

nəticə çıxarmaq olar: evlənənlər arasında qan qohumluğu nə qədər yaxındırsa, onların övladlarında qeyri normal inkişaf halları bir o qədər artır, qohumluq dərəcəsi azaldıqca bu cür hallar da müvafiq şəkildə azalır. Adamların böyük əksəriyyətinin normal irsi imkanları təqribən oxşar olur. Bu səbəbdən də onlar oxşar psixoloji inkişaf imkanlarına malikdirlər. Eyni yaş dövründə və eyni şəraitdə normal inkişaf edən adamların çoxunda bir sıra xarakterik psixoloji xüsusiyyətlərin müşahidə olunduğu həmin fikri sübut edən amillərdən biridir.

Deyilənlərdən aydın olur ki, əvvəla şəxsiyyətin formalaşmasında irsiyyətin müəyyən rolu vardır: irsiyyətin rolunu heçə endirmək və ya onu inkar etmək düzgün olmaz İkincisi, bir sıra irsi əlamətlər, o cümlədən irsi xəstəliklər uşaqlarda vaxtında müəyyənləşdirilməli və təlim-tərbiyə zamanı hökmən nəzərə alınmalıdır. Üçüncüsü, irsi qüsurlardan azad olan və fiziki inkişafı normal gedən uşaqlarda psixoloji funksiyaları, ocümlədən şüuru yüksək səviyyədə müvəffəqiyyətlə formalaşdırmağın mümkün olduğuna inanmaq lazımdır. Çünki normal irsi əlamətlərə malik olan uşaqlar normal da psixi inkişaf imkanlarına malik olurlar.

***Anadangəlmə əlamətlərə təsir etməyin mümkün olması.*** Şəxsiyyətin formalaşmasında müəyyən rolu olan irsi əlamətlər biryolluq verilmiş əlamətlər, fövqəltəbii, dəyişməsi mümkün olmayan əlamətlər deyil. Biologiya sahəsində bir sıra son tədqiqatlar göstərir ki, vaxtilə təbii qüvvələrin, ətraf mühitin təsiri ilə yaranmış olan irsi əlamətlər özləri də müəyyən şəraitdə başqa təbii qüvvələrin təsiri ilə dəyişə bilir. Məsələn, qravitasiya qüvvələrinin təsirindən azad olduqda, yəni çəkisizlik şəraitinə düşdükdə fizioloji dəyəşikliklər baş verir. Xüsusən kosmik gəmilərdə aparılan tədqiqatlardan məlum olmuşdur ki, çəkisizlik şəraitinə düşən orqanizmlərin hüceyrələrində gedən maddələr mübadiləsi və hüceyrələrin genetik quruluşu dəyişməyə başlayır, dəyişkənliyin baş verməsi üçün müəyyən şərait yaranır. Belə bir dəyişkənlik isə irsi əlamətlərin dəyişməsinə gətirib çıxara bilir.

Azərb. SSR EA-nın genetika və seleksiya institutunda aparılan bir sıra tədqiqatlar nəticəsində sübut edilmişdir ki

süni şəraitdə də irsi əlamətləri dəyişdirmək mümkündür. Alimlər, məsələn, ionlaşdırıcı şüaların təsiri ilə bir sıra yeni və daha məhsuldar bitki növləri ala bilmişlər.

Bu cür tədqiqatlardan aydın görmək olur ki, mühitin təsiri altında yaranan irsi əlamətlərin özü mühit amillərinin dəyişməsi sayəsində yenidən dəyişkənliyə məruz qalır, bitki orqanizmi yeni irsi əlamətlər kəsb edir.

Bitki orqanizmi ilə əlaqədar olaraq müəyyənləşdirilmiş həmin xüsusiyyət insan orqanizmində də müşahidə edilmişdir. Aşkara çıxarılmışdır ki, ətraf mühitdə əmələ gələn ionlaşmış radiasiya hüceyrənin irsi quruluşuna təsir göstərər və onu dəyişdirə bilər. Belə bir nəticənin doğruluğunu Xirosima və Naqasaki şəhərlərinə atom bombasının salınması nəticələri də sübut edir.[1]

Tibb aləmində məlumdur ki, nəsildən-nəsilə keçən bir sıra xəstəlikləri müxtəlif müasir üsullarla, o cümlədən klinik, sitogenetik, biokimyəvi, genoloji üsullarla müəyyənləşdirmək olur. Alimlər, məsələn, ovucdakı haşiyələrlə irsi xəstəliklər arasında qanunauyğun asılılıq olduğunu aşkara çıxarmışlar. Məlum olmuşdur ki, hər bir irsi xəstəliyin öz dəstixətti vardır; irsi xəstəlik ovucdakı dəri hüceyrələri haşiyələrinin xüsusi quruluşda olmasına gətirib çıxarır.

Sovet və dünya tibb elminin qabaqcıl nümayəndələri uzun illər apardıqları tədqiqatlar nəticəsində sübut etmişlər ki, bir sıra irsi xəstəliklərə təsir etmək və onları müalicə etmək mümkündür. Ümumdünya səhiyyə təşkilatının məlumatına görə uşaqların təqribən 4 faizi bu və ya digər genetik qüsurlarla doğulurlar. Bu cür qüsurlar uşağın səhhətinin pozulmasına gətirib çıxara bilir. Böyük fərəh hissi ilə bilərik ki, irsi qüsurlardan çoxunun qarşısını almaq üçün müasir tibb elmi indi real imkanlara malikdir. Həmin imkanları öyrənməli və ondan tərbiyə işində fəal istifadə etməliyik.

Bizim ölkəmizdə gələcək nəsil haqqında əvvəlcədən məlumat verə biləcək tibbi-genetik məsləhətxanalar, anadan olan körpələrin kütləvi şəkildə müayinədən keçirilməsi üsulları, hələ

---

[1] Bax: «Pravda» qəzeti, 24. IX. 79.

anadan olana qədər uşağın irsi xəstəlikləri barədə diaqnoz üsulları səhiyyə təcrübəsində geniş yayılmağa başlamışdır.

***İrsi xəstəlikləri müalicə etməyin mümkünlüyü.*** Hamiləliyin ilk həftələrində uşağın cinsini, xromosom pozğunluğunun olub-olmamadığını, uşağın bioloji uyuşması məsələlərini, maddələr mübadiləsi ilə əlaqədar olan qırxa qədər irsi xəstəlikləri indi müəyynləşdirmək, qismən də müalicə etmək mümkün olmuşdur. Maddələr mübadiləsi ilə əlaqədar olan xəstəliklərdən birini- qalaxtozemiyanı buna misal gətirmək olar. Tibb elmində sübut edilmişdir ki, xəstəliyin bu növündə süd şəkərinin parçalanmasından əmələ gələn məhsullar orqanizm tərəfindən lazımınca mənimsənilmir, qida toplanır, həyat üçün vacib olan üzvlərə-beyinə və qara ciyərə zəhərləyici təsir göstərməyə başlayır, qaraciyər serrozu üçün, kəmağıllıq üçün şərait yaradır. Elmdə sübut edilmişdir ki, doğuş ərəfəsində hamilə qadın üçün xüsusi pəhriz təyin etməklə, yenicə anadan olmuş uşağın qidasından südü kənar etməklə maddələr mübadiləsini tədricən nizama salmaq və əqli cəhətdən geridə qalmağın, qaraciyər serrozunun qarşısını almaq olur.

Maddələr mübadiləsinin pozulmasından irəli gələn digər irsi xəstəliyi-fenilketonuriya deyilən xəstəliyi də indi müvəffəqiyyətlə müalicə etmək mümkün olmuşdur. Xəstəliyin bu növü əqli inkişafın ləngiməsinə də səbəb olur.

Tibb elmindən məlumdur ki, hamilə qadının həyatda qazandığı bir çox zərərli adətlər ana bətnindəki rüşeymin inkişafına ciddi təsir göstərə bilir. İngilis həkimi Corc Nikolson apardığı tədqiqatlardan belə bir nəticəyə gəlmişdir ki, hamilə qadın papiros çəkməkdə davam edirsə, belə qadının körpəsi «narkoman» kimi dünyaya gəlir; ilk üç ayda körpə uşaq aramsız olaraq ağlamağa başlayır. Ana bətnində ikən rüşeym nikotinə alışır, doğulandan sonra isə bu cür uşağın bədənində nikotin çatmır; nəticədə uşaq narahat olur, qışqırır. Deməli, körpənin «narkomanlığın» irsi əlamət deyil, anadangəlmə əlamət hesab etməliyik. Bu cür faktlara görə, anadangəlmə əlamətlərin hamısını irsi əlamətə aid etmək olmaz.

Anadangəlmə əlamətlərin irsi və ya qeyri-irsi olduğunu müəyyənləşdirmək tərbiyə işi üçün az əhəmiyyətə malikdir. Anadangəlmə əlamətlərin qeyri-irsi olduğunu yəqin edən valideynlərin işi xeyli yüngülləşir, seçəcəyi tərbiy1əvi təsir tərzi elmi xarakter alır.

Ana bətnində rüşeymin inkişafına xarici və daxili mühitin bir sıra namünasib amilləri pis təsir göstərə bildiyindən, uşağın bəzi anadangəlmə nöqsanlarla doğulacağı ehtimalı çoxalır. Anadangəlmə nöqsanların yaranma səbəblərini öyrənmək əsasında hamiləliyə qədər və hamiləlik dövründə qadını əhatə edən mühitdə müvafiq dəyişkənliklər etməklə bir çox anadangəlmə xəstəliklərin qarşısını almaq mümkün olur.

Həmin nəticəni irsiyyətlə əlaqədar olan bəzi psixi xəstəliklərə də şamil etmək olar. Məsələn, sübut edilmişdir ki, Daun xəstəliyinə tutulmuş uşaqların böyük əksəriyyətində müşahidə edilən anadangəlmə psixi anomaliya ana bədənindəki xromosom pozğunluğu ilə əlaqədardır. Həkimlər bu cür qadınlara hamilə olmağı məsləhət görmürlər. Yaxud, körpə uşaqda anadangəlmə psixonevroloji xəstəlik müəyyənləşdirildikdə onu müalicə etmək mümkün olur. Alimlər öyrənmişlər ki, ferment fəallığının pozulmasından bədəndə toplanan amin turşuları qalıqları uşağın normal inkişafına mane olur və onun beyin funksiyasını poza bilir; müvafiq pəhriz yeməkləri və kimyəvi müalicə vasitələri ilə biokimyəvi tarazlığın anadangəlmə pozğunluğunu aradan qaldırmaq və sinir sisteminin normal inkişafına nail olmaq mümkündür. Sinir sisteminin normal inkişafı isə təlim və tərbiyənin müvəffəqiyyəti üçün son dərəcə vacibdir.

Tibb elmindən məlum olan bir çox faktlar göstərir ki, sosioloji amillərin təsiri ilə irsi psixonevroloji çatışmazlıqların qarşısını almaq və bu çatışmazlıqları bəzən aradan qaldırmaq olur: çünki orqanizmin irsi əlamətləri ilə mühitin sosioloji təsirlər arasında qarşılıqlı əlaqə vardır. Həmin əlaqəni nəzərə alaraq irsi köklərə malik olan psixoloji çatışmazlıqları uşaqlarda vaxtında müəyyənləşdirmək və vaxtında tədbir görmək tələb olunur. Bu məqsədlə valideynlər, müəllim və tərbiyəçilər həkimlərlə, xüsusən psixonevro-

loqlarla və psixiatrlarla sıx əlaqə saxlamalı, onlardan lazımi məsləhətlər almalıdırlar.

Bir hamilə qadın həkimə müraciət edir və həyata gələcək uşağının çanaq-bud oynağında çıxıq olub-olmayacağını öyrənmək istəyir. Həkim söhbətdən yəqin edir ki, irsi xəstəliklə üz-üzə dayanmışdır. Hamilə qadının ilk qızı, bacısı, xalası və nənəsi də həmin xəstəliyə tutulubmuş. Həkim üçün aydın olur ki, hamilə qadın çanaq-bud oynağı çıxığını şərtləndirən genin daşıyıcısıdır. Qadına məsləhət görülür ki, anadan olan kimi uşağı mütəxəssis həkimə göstərsin. Ana tapşırığa əməl edir. Həkim körpə uşaqda çanaq-bud oynağının çıxıq olduğunu müəyyən edir; vaxtında müalicə aparılır; mürəkkəb cərahiyyə əməliyyatına ehtiyac qalmır.

Etiraf etməliyik ki, bəzi irsi xəstəliklərin qarşısını almaq tibb elmində hələlik mümkün olmamışdır. İrsən keçən bir sıra göz xəstəlikləri, o cümlədən qlaukoma buna misal ola bilər. Çünki bu cür xəstəliklərin irsi mexanizmi hələlik elmə o qədər də aydın deyildir. Yəqin ki, qlaukoma kimi xəstəliklərə səbəb olan irsi pozğunluqların mexanizmi öyrənildikdən sonra həmin xəstəliklərə qarşı səmərəli profilaktik tədbirlər görmək mümkün olacaqdır. Bütün deyilənlərdən təbii olaraq belə bir nəticə çıxır ki, sosioloji amillərin, o cümlədən səhiyyə və tərbiyə tədbirlərinin orqanizmə və şəxsiyyətə təsir səviyyəsi orqanizmdə cərəyan edən fizioloji prosesləri öyrənməyin səviyyəsindən də asılıdır. Həmin nəticəni qanunauyğunluq şəklində ifadə etməyə çalışaq. Orqanizmdə gedən fizioloji proseslər nə qədər dərindən və nə qədər ətraflı öyrənilirsə, sosioloji və pedaqoji amillərdən orqanizmin xeyrinə, şəxsiyyətin xeyrinə bir o qədər səmərəli istifadə edilir və deməli, şəxsiyyətin inkişafında irsiyyətə üstünlük verilməsi və mühitin təsir gücünə əhəmiyyət verilməməsi nə nəzəri cəhətdən, nə də əməli cəhətdən özünü doğrultmur. Bununla yanaşı şəxsiyyətin inkişafı səbəblərindən danışanda irsiyyətin rolunu nəzərə almamaq düzgün nəticə çıxarmağa imkan vermir. Halbuki, insan mənəviyyatının inkişafında irsiyyətin rolunu inkar etməyə meyl göstərən alimlər indi hətta sovet alimləri arasında da vardır.

Məsələn, E.V.İlyenkov «Psixika və beyin»[1] adlı məqaləsində yazır ki, beynin bütün spesifik insani funksiyaları və bunları təmin edən beyin strukturları təbii varlıq kimi deyil, bir ictimai varlıq kimi istisnasız olaraq 100% adamın şüurlu fəaliyyət tərzlərindən asılı olub, bu fəaliyyət tərzləri ilə izah edilir. E.V.İlyenkovun əqidəsincə, hər bir sağlam adamın beyni istənilən qabiliyyəti və istənilən iş tərzini mənimsəyə bilər. Onun fikrincə, hər şey bizim özümüzdən, bizim mədəniyyətimizdən asılıdır.

Göründüyü kimi, İlyenkov şəxsi fəaliyyətin rolunu mütləqləşdirir.

## 2. MÜHİT VƏ ŞƏXSİYYƏTİN İNKİŞAFI

***Kapitalizm mühiti və şəxsiyyətin inkişafının məhdudlaşması.*** Kapitalizm getdikcə daha qabarıq şəkildə sübut edir ki, o, gələcəyi olmayan cəmiyyətdir; texniki tərəqqi müəssisələrdən kənara o qədər fəhlə atır ki, həmin fəhlələr kapitalizmin bütün ictimai-siyasi sisteminin varlığını lərzəyə gətirir. Bu ideya Sov.İKP XXVI qurultayında yeni qüvvə ilə səslənmişdir.

Milyonerlər və onlara xidmət edən hakim dairələr sürətlə dəyişən ictimai-siyasi mühitə uyğunlaşmağa çalışdıqca geniş zəhmətkeş kütlələrinə daha böyük iztirab, daha çox əzab gətirirlər; sosial tərəqqi yolunda daha böyük əngəllər törədirlər, zəhmət adamlarının həyatını daha geniş miqyasda zəhərləyirlər.

Kapital və əmək arasında, fəhlə sinfi ilə burjuaziya arasında mübarizə getdikcə kəskinləşir. Kapitalist ölkələrində sinfi mübarizənin formalarından biri əmək haqqının yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması uğrunda tətillərin təşkili və keçirilməsidir. Məsələn, İngiltərədə təkcə 1979-cu ilin iyun ayında keçirilmiş tətillər zamanı 700 min iş günü, avqust ayındakı tətillər zamanı 4,2 milyon, sentyabr-

---

[1] Bax: «Вопросы философии» jurnalı, 1968, №8.

da 11. 249 min, həmin ilin sentyabrına qədər keçirilmiş tətillər zamanı isə 32. 685 min iş günü itirilmişdir.

İngiltərədə varlılar və yoxsullar arasında uçurum getdikcə genişlənir. 1979-cu ildə İngiltərədə 14 milyon adam var-yoxdan çıxmışdır. Bu, həmin ölkədə əhalinin 26%-ni təşkil edir. Piter Taunsend «Böyük Britaniyada dilənçilik» adlı kitabınla göstərir ki, ildən-ilə varlılar daha da varlanır, yoxsullar isə daha da yoxsullaşır. Əhalinin bir faizi ölkədə şəxsi mülkiyyətin 25%-ni öz əlində cəmləşdirmişdir; əhalinin 5%-i isə şəxsi mülkiyyətin yarıdan artığına ağalıq edir.

Kapitalist ölkələrindəki qeyri-bərabərlik həyatın başqa sahələrində də qalır. Məsələn, İngiltərədə gəlirin və sərvətin bölüşdürülməsi üzrə kral komissiyasının məruzəsindən aydın olur ki, ingilis qadınları eyni iş üçün kişilərin aldıqları maaşın yalnız 59%-ni alırlar.

Kapitalizm nəinki yaşlı əhalinin inkişafını məhdudlaşdırır. Kapitalizm xüsusilə uşaqlar üçün bəladır, uşaq şəxsiyyətini əzir. Uşaqların böyük əksəriyyətinin maddi ehtiyac içərisində olması kapitalizmin xüsusiyyətlərindən biridir. Hesablamalara görə dünyada I milyard 600 milyon uşaq vardır. Uşaqlar əhalinin 36%-ni təşkil edir. Hər il yüz milyona qədər uşaq doğulur. Onlar müxtəlif millətlərə mənsub olub müxtəlif ictimai-iqtisadi şəraitdə və başqa-başqa mədəni ənənələrin təsiri altında böyüyürlər.

Belçika jurnalı «Purkua pa?» çap etdirdiyi «200 milyon qul-uşaq» adlı məqalədə yazmışdır ki, dünyanın bir çox ölkələrində uşaq əməyi həyasızcasına istismar edilir.

Jurnalın yazdığına görə Kolumbiyada bu cür uşaqların sayı 3 milyona çatmışdır. Ailədə 5-6 yaşdan yuxarı bütün uşaqlar işə cəlb edilirlər. Uşaqları təsərrüfatın bütün sahələrində işlədirlər. Hətta, şaxtalarda 12 yaşlı uşaq əməyindən də istifadə edirlər. Belə uşaqlar bütün uşaqlığının şaxtada keçirir, böyüyəndə də orada işi davam etdirirlər.

İtaliyada 500 min az yaşlı zəhmətkeş uşaq vardır. Onların əksəriyyəti 10-12 yaşındadır. Belə uşaqları bütün iş sahələrində: ticarətdə, xidmət müəssisələrində, kənd təsərrüfatında, tikintidə görmək olar. Hətta İtaliyanın gizli ayaq-

qabı sexlərində 9 yaşlı uşaqlara da təsadüf edilir. 12 yaşlı uşaqlar gündə 12 saat işləyir. İtaliyanın şimalında uşaq alveri ilə məşğul olan bazar da vardır. Oradan qoyun və ya mal otarmaq, evdə nökər olmaq üçün uşaqları bir aylığa, bir illiyə, hətta biryolluq alıb aparmaq mümkündür.

5-14 yaşında işləyən uşaqların sayı cəhətdən Hindistan birinci yeri tutur. Orada 16,5 milyon belə uşaq vardır. Şivəkaşi rayonundakı kibrit fabrikində işləyən 28 min uşağın arasında 5-6 yaşlılar da vardır.

Talilandın mərkəzi Banqkok şəhərinin ətrafındakı 5 min xırda emalatxanada 10-12 yaşlı uşaqlar gündə 15 saat işləyir və istirahət gününün nə olduğunu bilmirlər. Uşaqlar sandal Tikir, Budda fiqurları düzəldir, pambıqdan parça toxuyur, turistlərə satılmaq üçün müxtəlif əcayib oyuncaqlar düzəldirlər.

Tayvanda qızlar gündə 14 saat toxuculuq dəzgahının arxasında durur və ya elektron aparatı yığırlar.

AFP-də uşaq əməyinə rəsmən icazə verilmişdir.

Uşaq ili olan 1979-cu ildə keçirilmiş Ümumdünya konfransında konfransın prezidenti Frida Braun məruzə etmişdir Məruzədə göstərilir ki, yer uzərində dilənçi həyatı keçirən 600 milyon uşaq vardır. Onun 200 milyonu hər gün ac qalır.[1]

Nəzərə alınmalıdır ki, uşaq hüquqları haqqında bəyannaməyə görə uşaqlar hər yerdə irqindən, dərisinin rəgindən, cinsindən, dini mənsubiyyətindən asılı olmayaraq bərabər pulsuz təhsil hüququna, milli mənsubiyyət hüququna, yaşamaq hüququna malikdir. Bəyannaməyə görə hər şeyin yaxşısı uşağa verilməlidir.

**Sual olunur:** uşaq hüquqlarının elan olunmasına baxmayaraq kapitalist ölkələrində uşaq əməyinin amansızcasına istismar edildiyini nə ilə izah etmək olar? Uşaq əməyinin ucuzluğu ilə, istismara qarşı uşaqların mübarizə aparmadığı ilə, uşaq hüququnu müdafiə edən həmkarlar təşkilatının olmadığı ilə, öz uşaqlarının əməyini satmağa valideyinlərinin məcburiyyəti qarşısında qaldıqları ilə!

---

[1] Bax: «Учительская газета», 8 sentyabr, 1979-cu il.

Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul olunmuş bəyənnaməyə faktiki heç bir kapitalist ölkəsində əməl olunmur. Bir sıra kapitalist ölkələrində uşaq əməyi rəsmən qadağan olsa da, qanun yalnız kağız üzərində qalır. ABŞ və İtalya buna misal ola bilər. ABŞ-da uşaq əməyi təqribən 30 il bundan əvvəl qadağan olunsa da, orada 800 min uşaq fermalarda və plantasiyalarda belini əyir. Yaxud, İtalyada azyaşlı uşaqların əməyini mühafizə etmək üçün 1967-ci ildə qanun qəbul edilmişdir. Buna baxmayaraq orada on minlərlə uşaq sink və qurğuşun istehsalına, kibrit hazırlanmasına, kimyəvi boyaqlar və dəri istehsalına, inşaat işlərinə cəlb edilmişdir.

Təbiidir ki, bu cür şəraitdə uşaq ölümü adi hala çevrilir. YUNESKO-nun (BMT Uşaq fondunun) məlumatına görə yalnız 1979-cu ildə yer üzündə 1milyon 558 min uşaq ölmüşdür. Afrikanın bir çox ölkələrində anadan olan körpələrin hər min nəfərindən 147-si ölür. Latın Amerikası ölkələrində, Kubadan başqa, son 10 il ərzində 7,5 milyon uşaq ölmüşdür.

Halbuki, yalnız ABŞ və NATO hərbi məqsədlər üçün gündə bir milyard dollar xərcləyir; ümumiyyətlə kapitalist ölkələrinin bir illik hərbi xərci isə 400 milyard dollar olur. Bir ədəd «Leonard-2» tipli tankın puluna 3 otaqlı 36 mənzil tikmək, «traydent» sualtı qayığının dəyərinə bir il ərzində 16 milyon uşağa təhsil vermək, «MX» sistemli raketin xərcinə 300 min ibtidai məktəb binası tikmək olar.

Kapitalizm mühitinin uşaqlara «bəxş etdiyi ikinci başlıca «töhfə» savadsızlıqdır. Hazırda kapitalizm aləmində milyonlarla uşaq əlinə bir dəfə də olsun kitab almamışdır. Asiya, Afrika və Latın Amerikasında 40-a qədər ölkədə hələ ümumi icbari təhsil tətbiq olunmur. Dünyada savadsız uşaqların sayı azalmır, artır. YUNESKO-nun məlumatına görə 1979-cu ildə məktəb yaşını ötmüş adamların 800 milyonu «tamamilə savadsızdır». «Yu S.Nyusənd völd» jurnalının yazdığından məlum olur ki, ABŞ-da 2,4 milyon uşaq məktəbə getmir, orada yaşlıların 22%-i hətta dəmir yol cədvəlini belə oxuya bilmir. Pakistanda məktəb yaşlı uşaqların 40%-dən artığı oxumur.

Latın Amerikasında 73 milyon 5-14 yaşlı uşağın 33 milyonu oxumur. Kapitalist ölkələrində məktəbə gedən uşaqların 40%-i bir neçə ildən sonra məktəbi buraxmağa məcbur olur.

Kapitalist ölkələrində təhsil üçün, maarifin ehtiyacları üçün dövlət tərəfindən vəsait kifayət qədər ayrılmır, müəllimlərə qayğı göstərilmir. AFR nümunəsinə müraciət edək. 1979-cu ildə yalnız Baden-Vyurtemburq ərazisinin məktəblərində yerli hökumət 1800 gənc müəllimi işdən azad etmişdir. Müəllimlər ona görə işdən azad edilməmişlər ki, orada müəllim olduğundan artıqdır; əksinə, orada müəllimlərə ehtiyac çoxdur. Qərbi Almaniyanın həmin hissəsində müəllim çatışmadığından hər gün bir çox fənlərdən dərs keçilmir.

Müəllimlərin işdən azad olunmasının başlıca səbəbi budur ki, məktəbləri saxlamaq üçün dövlətin vəsaiti çatışmır. Buna baxmayaraq hərbi məqsədlər üçün AFR-in ayırdığı vəsait ildən-ilə artır.

ABŞ-da müəllimlərin vəziyyəti ağırdır. Orada qiymətlər durmadan artır. Qiymətlərin artması milyon-milyon zəhmətkeşlə bərabər müəllimlərin də vəziyyətini ağırlaşdırır. Bir çox ştatlarda yerli hakimiyyət orqanları təhsil üçün ayrılan vəsaiti ildən-ilə azaldırlar. Müəllimlər arasında işsizlərin sayı sürətlə çoxalır. İşdə qalan müəllimlərin pedaqoji yükü artır, siniflərdə şagirdlərin sayı da çoxalır.

Dözülməz vəziyyət ABŞ məktəblərində müəllimlərin tətillərinə səbəb olur. 1979-cu ilin sentyabrında yalnız Detroyt şəhərində 12000 müəllim tətil elan etmişdir. Bütövlükdə ABŞ üzrə 50 mindən artıq müəllim məktəbi buraxıb küçələrə çıxmışdır.

Hakimiyyət orqanları nümayiş iştirakçılarına divan tutur, onları həbs edirlər. Məsələn, Alyaska ştatındakı Ankoric şəhərində 11 müəllim, Nyu-Cersi ştatındakı Vudbric şəhərində 20 müəllim həbsxanaya salınmışdır.

ABŞ-da şagirdlər də korluq çəkirlər. Tədqiqatlar göstərir ki, orada şagirdlərin bilik və bacarıq səviyyəsi ildən-ilə aşağı düşür.

«Bizim məktəbləri xilas edin», «Bizə yaxşı məktəblər verin!», «Təhsildə deyil, silahlanmada qənaət etmək lazımdır!» kimi şüarlarla nümayişə çıxan müəllimlər aydın başa

düşürlər ki, kapitalizm şəraitində təhsilin tənəzzülə uğraması mövcud ictimai-iqtisadi quruluşla bağlıdır.

AFR-də nəğmə və təsviri incəsənət müəllimlərinə təklif edilir ki, işsiz qalmaq istəmirlərsə ixtisaslarını dəyişdirib riyaziyyat və ya dil müəllimi olsunlar. Orada müəllimlərin işə şərti olaraq qəbul edilməsi təcrübəsi getdikcə geniş miqyas alır. Həmin təcrübə maarif orqanlarına istədikləri vaxt istədikləri müəllimi işdən azad etmə imkanı verir. Belə bir şəraitdə işləyən müəllimin hisslərini başa düşmək çətin deyildir.

Kapitalist ölkələrində uşaq şəxsiyyətinin inkişafını məhdudlaşdıran cəhətlərdən biri də dərs vəsaitlərinin və yazı ləvazimatının baha olmasıdır; zəhmətkeş balaları bir çox halda xüsusən dərslik ala bilmirlər. Məsələn, İtalyada, dərsliklərin və əyani vəsaitlərin qiymətinin yenidən 15% qalxdığı bir ölkədə məktəbi tərk edən və istehsalata gedən uşaqların sayı 1979-cu ildə xeyli çox olmuşdur. Turin qəzeti «Qadzettadel popolo»nun yazdığına görə dərslik və dərs vəsaitləri qiymətinin artması İtalyada zəhmətkeş ailələri üçün əsil iqtisadi faciəyə çevrilmişdir. İndi hətta işlənmiş dərsliklər də yoxsul uşaqlara müyəssər olmur; çünki bir dərsliklə eyni zamanda bir neçə şagird məşğul olduğundan bazarda satmağa, demək olar ki, dərslik çıxarılmır.

Qəzetlərin yazdıqlarına görə Türkiyədə son bir il ərzində dərs ləvazimatı üç dəfə bahalaşmış, şəxsi məktəblərdə isə təhsil haqqı 60% artmışdır. Türkiyə maarif nazirliyinin sərəncamına görə bütün şagirdlər vahid məktəbli forması geyməlidir. Lakin belə bir forma almaq dövlət qulluqçusu az qala bir aylıq maaşını verməlidir. Ölkədə bütün malların qiymətinin artmasını da deyilənlərin üstünə gəlsək, yəqin etmək çətin deyil ki, Türkiyədə hətta orta təminatlı ailələrdə uşaqların təhsil alması çətinləşir. Bütün bunların nəticəsində uşaqlar kiçik yaşlarından istehsalatda, tarlada və ya evdə işləməyə, valideynlərə kömək etməyə məcburdurlar. Türkiyədə ibtidai təhsilin icbari olduğu qanunla elan olunsa da, məktəb yaşlı altı milyondan çox uşağın heç də hamısı təhsil ala bilmir.

Kapitalist ölkələrində və inkişaf etməkdə olan ölkələrdə uşaqlara tibbi yardım lap aşağı səviyyədədir. Frida

Braunun məruzəsində göstərildiyi kimi, hazırda inkişaf edən ölkələrdə hər 20 uşaqdan yalnız biri tibbi xidmət görür. Dünyada hər il 100 milyon uşaq doğulur; Bunun 10-nundan 7-si, yəni 70 milyonu ixtisaslı tibbi xidmətsiz dünyaya gəlir. Kənd yerlərində yaşayan uşaqların 85%-i kifayət qədər təmiz su üzü görmür. «A» vitaminin çatışmamazlığından hər il 100 mindən artıq uşaq kor olur.

Demokratik azadlığın tapdalandığı, milli məhdudiyyətin və apartendin dövlət siyasətinə çevrildiyi ölkələrdə uşaqların vəziyyəti xüsusilə faciəlidir. Apartend siyasəti isə 44 min qara əhaliyə bir həkim, 400 ağ sakinə də bir həkim deməkdir; apartend siyasəti-ağ müəllimin maaşından qara müəllimin maaşının 2 dəfə az olmasıdır; apartend siyasəti uşaq hüquqları haqqında bəyannamənin bütün bəndlərinin pozulması deməkdir.

Özünü sivilizasiyalı hesab edən İngiltərə formal sənədlərə görə; məsələn, müəssisə rəhbəri işə adam götürəndə irq fərqini nəzərə almamalıdır. Lakin əslində lap Londonun özündə qaraları işə o qədər də həvəslə götürmürlər.

«İrqi bərabərlik uğrunda» Londonda yaradılmış komissiyanın məruzəsində göstərilir ki, Londonun müxtəlif mərhələlərində yaşayan qara dərili uşaqlardan məktəbi qurtaranların 60%-i işə düzələ bilmir; onların gələcəkdə işə düzəlmək ehtimalı isə ildən-ilə daha da azalır. Qara dərili qızların işə düzəlmə vəziyyəti isə daha ağırdır. Bu cür qızlar nəinki qara olduqları üçün, habelə qadın olduqları üçün ikiqat əziyyət çəkirlər.

Qara dərili şəxsləri İngiltərədə işə götürməmək üçün müxtəlif bəhanələrə əl atılır. Məsələn, Lids nəqliyyat idarələrində avtobus konduktoru vəzifəsinə zənci, ərəb, hind və rəngi qara olan digər millətlərin nümayəndələrin yaxın buraxmamaq üçün «minimum çəkiyə malik olmaq» senzi qoyulduğundan, o cür qadınla konduktorluq vəzifəsini tutmaq imkanlarından məhrum edilmişdir.

Dərisi qara olan şəxslər irqi məhdudiyyət sədlərini hər hansı yolla dəf etsələr də, işdə onlar ikinci dərəcəli işçilər

hesab edilirlər; ən çirkli və aşağı maaşlı işə: supurgəçiliyə, yükdaşımağa, qab yumağa qəbul olunurlar.

Kapitalist ölkələrində milyonlarla uşaqların bədbəxtliyinə başqa səbəb də vardır. Həmin ölkələrdə pozğun məzmunlu şəkillərin, narkomaniyanın, kütləvi cinayətin, kino və televiziya verilişlərinin təsiri ilə uşaq əxlaqi, mənəvi cəhətdən tam pozulmaq təhlükəsi altında olur. ABŞ-dan bircə fakt gətirək. Qəzetlər haqlı olaraq bu ölkəni gələcəyi olmayan cəmiyyət adlandırır. 14 yaşlı Cek Makroy Ohayo ştatındakı Kolumbus şəhərində yaşayır. O, 11 yaşlı qardaşı Bomu pistoletlə vurub öldürür.[1] Təhqiqat zamanı məlum olur ki, Cek həmin cinayəti «İyrənc Harri» adlı filmə televiziyada baxdığı günün sabahı törətmişdir. Sən demə filmin qəhrəmanı eynilə həmin cinayəti həyata keçirmişdir. Polis işçilərinə Cekin etiraf etdiyinə görə, o, çalışmışdır ki, cinayət kinoda olduğu ardıcıllıqda cərəyan etsin.

Bu cür faktlar ABŞ ictimayyətinin diqqətini zorakılıq təbliğ edən kino və televiziya verilişlərinə cəlb etmişdir. Bu yaxınlarda valideynlər və müəllimlərin milli təşkilatının apardığı tədqiqatdan məlum olmuşdur ki, ABŞ-ın televiziya verilişlərində zorakılıq, ölüm və dava-dalaş səhnələri 75% təşkil edir. ABŞ-ın üç ən iri televiziya şirkəti Si-Bi-Es, En-Bi-Si və Ey-Bi-Si televiziya verilişlərinin hər saatında kobud zorakılıq səhnələrinə 12 dəqiqə vaxt ayırır.

Uşaqların və yeniyetmələrin üzərinə televiziya şirkətlərinin yağdırdığı zorakılıq halları onların şüurunu və psixikasını korlayır.

Pensilvaniya universitetinin dekanı professor Corc Herbner «Krisçen sayens monitor» qəzetinə verdiyi intervüdə demişdir ki, televiziya və kinolarda hər cür polis səhnələrinin, zorakılıq hallarının göstərilməsi, ölkədə cinayətkarlığın armasına səbəb olur.

Göründüyü kimi, kapitalizm şəraitində-uşaqların kiçik yaşlarından istismar edildiyi, onlara kiçik yaşlarından qayğı və tibbi yardım göstərilmədiyi, uşaqların təhsildən uzaqlaş-

---

[1] Bax: «Bakı» qəzeti, 25 sentyabr, 1979.

dırıldığı, ildə milyonlarla uşağın öldüyü sağ qalanlarının şüurunun mənfur ideyalarla zəhərləndiyi bir cəmiyyətdə şəxsiyyətin inkişafından, xüsusən hərtərəfli inkişafından söhbət açıla bilməz.

Sov.İKP və Sovet hökuməti, bütün sovet xalqı kapitalist ölkələrində uşaq şəxsiyyətinin məhdudlaşdırılmasına biganə qalmır, çalışır ki, bəşəriyyətin gələcəyi olan uşaqlar bütün ölkələrdə sülh şəraitində yaşasın, istismar olunmasın, ata və ana nəvazişi görsün, təhsil alsınlar. 1979-cu ilin sentyabrında uşaq problemlərinə həsr olunmuş ümumdünya konfransının keçirilməsində, belə bir konfransın məhz Moskvada keçirilməsində Sovet İttifaqının böyük xidmətləri olduğunu burada qeyd etməliyik. «Bütün uşaqların firavan və xoşbəxt gələcəyi uğrunda» devizi altında keçirilmiş olan ümumdünya konfransına Sov.İKP MK-nın təbrik məktubu göndərməsi dünya uşaqlarına göstərilən qayğının təzahürlərindən biri olmuşdur. Təbrik məktubunda deyildiyi kimi, BMT qərarının əhəmiyyətini biz hər şeydən əvvəl onda görürük ki, dünyada ictimaiyyətin diqqətini bir çox ölkələrdə milyonlarla uşaqların dilənçilik, aclıq, xəstəlik şəraitində güzəran keçirdiyi faktına cəlb edək. Külli miqdarda uşaq heç vaxt parta arxasında oturmamışdır, onların əməyi amansızcasına istismar olunur. Faşist, diktator rejimlərinin hakim olduğu ölkələrdə, irqçilik və apartend şəraitində yaşayan uşaqların iztirabları saysız-hesabsızdır… gənc nəslin dolğun inkişafı, ahəngdar tərbiyəsi və təhsili yalnız sülh şəraitində mümkündür. Xoşbəxt uşaqlıq uğrunda mübarizə aparmaq eyni zamanda sülhü, xalqın milli azadlığını və təhlükəsizliyini möhkəmləndirmək, silahların azaldılmasına, tərksilaha nail olmaq deməkdir.[1]

Şəxsiyyətin, o cümlədən uşaq şəxsiyyətinin hərtərəfli, ahəngdar inkişafını təmin etmək üçün bir sıra şərtlərə əməl olunmalıdır. Bu cür şərtlərə sosializm cəmiyyətində əməl etmək mümkündür.

---

[1] «Молодежь Азербайджана», 11 setyabr, 1979-cu il.

# III FƏSİL. ŞƏXSİYYƏTİN HƏRTƏRƏFLİ İNKİŞAFININ OBYEKTİV ŞƏRTLƏRİ

## 1. SİYASİ ŞƏRTLƏR

Sosialist inqilabının zəruriliyi. Şəxsiyyətin hərtərəfli inkişafı bir sıra obyektiv və subyektiv şərtlərə əməl olunmasını tələb edir. Bu cür obyektiv şərtlərdən biri sosialist inqilabıdır, inqilab yolu ilə burjuaziya hakimiyyətinin devrilməsi yeni cəmiyyətin – sosializm cəmiyyətinin qurulmasıdır, bu yolla cəmiyyətin bütün üzvləri üçün bərabər inkişaf imkanlarının yaradılmasıdır. Marksizm klassikləri çox haqlı olaraq sosialist inqilabının adamların azad inkişafının ən vacib, ən ümumi şərti hesab etmişlər. [1]

SSRİ-nin və digər sosialist ölkələrinin təcrübəsi marksizm-leninizm klassiklərinin tamamilə haqlı olduqlarını isbat etdi. Böyük Oktyabr sosialist inqilabından sonra SSRİ-də şəxsiyyətin hərtərəfli inkişafı üçün zəruri olan şərait yaranmışdır. «Böyük Oktyabr sosialist inqilabının 60 illiyi haqqında» Sov.İKP MK-nın məlum qərarında göstərildiyi kimi, şəxsiyyətin hərtərəfli inkişafını təmin edən şərtlərə ölkənin iqtisadi qüdrətini daha da artırmaqla yanaşı, sovet cəmiyyətinin sosial simasının aşağıdakı yeni xüsusiyyətləri də daxildir: sinfi fərqlərin aradan qaldırılması və cəmiyyətin sosial yekcinsliyinin möhkəmlənməsi; ictimai həyatın bütün sahələrində bütün millətlərin və xalqların faktik bərabərliyinin təmin edilməsi; ideya etiqadının, mədəniyyətə və biliyə səyi, kollektivçiliyi, sosialist vətəninə hədsiz məhəbbəti özündə birləşdirən və inqilab alovlarında formalaşan sovet adamlarının olması.

***Hüquq bərabərliyi.*** SSRİ-də sosializmin sovet adamlarına bəxş etdiyi ən böyük nemətlərdən biri bütün vətəndaşlara bərabər hüquqların verilməsidir. SSRİ konstitutsiyasının 34-cü maddəsində oxuyuruq: «SSRİ vətəndaşları

---

[1] K.Marks və F.Engels. Əsərləi, cild 3, səh. 441.

mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən, məşğuliyyət növündən və xarakterindən, yaşayış yerindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər.

SSRİ vətəndaşlarının hüquq bərabərliyi iqtisadi, siyasi, ictimai və mədəni həyatın bütün sahələrində təmin edilir»[1]. Bərabər hüquqların həyata keçirilməsi SSRİ-nin bütün millətlərini və xalqlarını hərtərəfli inkişaf etdirmək və bir-birinə yaxınlaşdırmaq siyasəti ilə, adamların sovet vətənpərvərliyi və sosialist beynəlmilləlçiliyi ruhunda tərbiyə olunması ilə, ana dilindən və başqa xalqların dilindən istifadə etmək imkanı ilə təmin edilir. Bu cür xüsusiyyətlərə görə haqlı olaraq sosializmi real humanizm cəmiyyəti adlandırırlar. Öz vətəndaşlarına hüqüq bərabərliyi verən bir cəmiyyət – sosializm hər şeyi insanın rifahı üçün, şəxsiyyətin hərtərəfli inkişafı üçün nəzərdə tutur. Sovet həyat tərzinin başlıca xüsusiyyətlərindən biri belədir.

***Şəxsiyyətin hərtərəfli inkişafına dövlət qayğısı.*** Şəxsiyyətin hərtərəfli inkişafını təmin etməyin başqa bir obyektiv şərti ondan ibarətdir ki, dövlət hər bir şəxsin hərtərəfli inkişafını öz əlinə alsın, bundan ötrü maraqlı olsun, onu özünün məqsədlərindən birinə çevirsin. SSRİ-də sosializm quruculuğu təcrübəsi göstərir ki, sovet dövləti cəmiyyət üzvləri şəxsiyyətin hərtərəfli inkişafını özünün ən vacib məqsədinə çevirmiş və bu fikir SSRİ Konstitusiyasının 20-ci maddəsində öz əksini tarmışdır: «Komunizmin: «hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir» idealına uyğun olaraq dövlət öz qarşısına vətəndaşların yaradıcı qüvvə, qabiliyyət və istedadlarını tətbiq etmələri üçün, şəxsiyyətin hərtərəfli inkişafı üçün real imkanları genişləndirmək məqsədini qoyur».[2] Belə bir məqsədin dövlət miqyasında qarşıya qoyulması və onun həllinə qayğı göstərilməsi şəxsiyyətin hərtərəfli inkişafını təmin etməyin zəruri olan

---

[1] Sovet Sosialist Respublikaları İttifaqının Konstitutsiyası, Azərnəşr, 1978, səh 18.
[2] SSRİ Konstitutsiyası, Bakı, Azərnəşr, 1978, səh. 14.

obyektiv şərtlərindən biri hesab edilməlidir. Bu cəhətdən SSRİ Konstitusiyasının 27-ci maddəsi daha səciyyəvidir: «Dövlət mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan sovet adamlarının mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etmək qayğısına qalır.

SSRİ-də peşəkar və bədii xalq yaradıcılığının inkişafı hər vasitə ilə həvəsləndirilir».[1] Məsələ burasındadır ki, sovet dövləti hər bir şəxsin, birinci növbədə gənc nəslin hərtərəfli inkişafını öz əlinə almış və bundan ötrü hər cür şərait yaratmışdır. SSRİ-də sovet vətəndaşı şəxsiyyətinin inkişafının dövlət miqyasında hərtərəfli təmin edildiyini yalnız bir cəhətdən-uşaqların gümrah böyüməsinə, onların təlim və tərbiyəsinə çəkilən xərc cəhətdən nəzərdən keçirək. Məlumdur ki, uşağın sağlamlığının bünövrəsi ana bətnində qoyulur və hamilə qadına göstərilən qayğıdan da asılı olur. Bu cəhətdən sovet dövlətinin uşaqlara göstərdiyi qayğı nədən ibarətdir? Dövlət hamiləliyə və doğuşa görə analara nə dərəcədə yardım göstərir? İftixar hissi ilə etiraf etməliyik ki, dünyada heç bir ölkə hamiləliyə və doğuşa görə SSRİ qədər vəsait ayırmır. Bu məqsədlə sovet dövlətinin ayırdığı vəsait ildən-ilə sürətlə artır. Hamiləliyə və doğuşa görə SSRİ də, məsələn, 1940-cı ildə 56 milyon manat, 1950-ci ildə isə 176 milyon manat ayrılmışdırsa, 1978-ci ildə bu vəsait 1,431 milyon olmuşdur.[2]

Ölkəmizdə uşaqların pulsuz dərsliklərlə təmin olunması, Sov.İKP XXVI qurultayının göstərişlərinə uyğun olaraq uşaqların altı yaşından ümumtəhsil məktəblərinin hazırlıq siniflərində oxumasına tədricən keçilməsi ailənin xüsusən qadının ailədə zəhmətini xeyli yüngülləşdirir

Müvafiq şəkildə məktəbəqədər tərbiyə müəssisələri də inkişaf edir. Əgər SSRİ-də bu cür müəssisələr 1940-cı ildə 46 min idisə, 1978-ci ildə sayı 122 mini keçmişdir. 1978-ci ildə bu müəssisələrdə 13 milyon uşaq tərbiyə almışdır. İldə bu

---

[1] SSRİ Konsitutiyası, Bakı, Azərnəşr, 1978-ci il, səh. 15.

[2] «Здоровье» jurnalı, № 11, 1979.

uşağa çəkilən xərc körpələr evində 500, uşaq bağçasında 450, məktəbdə 180 manat olmuşdur. Məktəblərimizdə isə 39,9 milyon şagird oxuyur. Məktəbəqədər uşaq müəssisələrində bir ildə çəkilən xərcin miqyasını təsəvvür etmək üçün 500-ü və 450-ni 13 milyona vurmaq lazım gəlir. Xalq maarifinə, gənc nəslin təlim və tərbiyəsinə Sov.İKP və Sovet hökumətinin göstərdiyi qayğı yalnız hər uşaq üçün çəkilən xərclə əlaqədar deyildir; bundan əlavə, həmin qayğı məktəbəqədər uşaq müəssisələri üçün, məktəb və məktəbdənkənar tərbiyə müəssisələri üçün, ali və orta ixtisas məktəbləri, texniki peşə məktəbləri üçün yeni-yeni binaların tikilməsində, çoxmilyonlu tirajlarla dərsliklər və əyani vəsaitlər buraxılmasında, müəllimlərin və tərbiyəçilərin, digər maarif işçilərinin ehtiyaclarına həssaslıqla yanaşılmasında, onların maddi təminatının yaxşılaşdırılmasında və s. tədbirlərdə öz parlaq ifadəsini tapır.

***Sosial yekcinsliyin təmin olunması.*** SSRİ-də şəxsiyyətin hərtərəfli inkişafına imkan verən ictimai mühit amillərindən biri cəmiyyətin sosial yekcinsliyinin getdikcə daha çox güclənməsinin təmin olunmasıdır. İctimai mühitimizin bu cəhəti də SSRİ Konstitusiyasında aydın ifadə olunmuşdur. Konstitusiyənın 19-cu maddəsində yazdığı kimi: «Dövlət cəmiyyətin sosial yekcinsliyinin güclənməsinə-sinfi fərqlərin, şəhərlə kənd, əqli əməklə fiziki əmək arasında mühüm fərqlərin silinməsinə, SSRİ-nin bütün millətləri və xalqlarının hərtərəfli inkişaf etməsinə və bir-birinə yaxınlaşmasına kömək edir».[1]

Sov.İKP XXVI qurultayına hesabat məruzəsində fəhlə və kolxozçular səciyyələndirilərkən deyilmişdir: «...milyonlarla fəhlələrin və kolxozçuların istehsal fəaliyyətində fiziki və əqli əmək getdikcə daha sıx çulğaşır».[2]

Eyni ölkədə yaşayan bütün xalqların və millətlərin nümayəndələrinin bərabər hüquqlara malik olması, cəmiyyətin sosial yekcinsliyinin ardıcıl şəkildə təmin olunması şəxsiy-

---

[1] SSRİ Konstitusiyası, Bakı. 1978, səh. 14.

[2] Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayına Sov.İKP MK-nın hesabatı...», Azərnəşr, 1981, səh. 7.

yətin hərtərəfli inkişafına imkan verən ən vacib obyektiv amillərdən birinə çevrilmişdir. Bunu bütün müvafiq respublikaların, o cümlədən Azərb. SSR-in nümunəsində də aydın görmək olar. «Azərbaycan SSR-in və Azərbaycan Kommunist partiyasının 60 illiyi haqqında» Azərbaycan KP MK-nın qərarında deyildiyi kimi, «Azərbaycan sosialist millətinin tərəqqisi, ölkənin başqa millətləri və xalqları ilə dərin, çoxcəhətli, həyatımızın bütün sahələrinə nüfuz edərək qarşılıqlı əlaqələrin bərqərar olması Sovet Azərbaycanının keçdiyi altımış illik yolun ən mühüm sosial-siyasi yekunlarından biridir».[1]

Azərbaycan SSR-də yaşayan bütün xalqların nümayəndələri Sovet hakimiyyəti illərində yüksək sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinə çatmışdır. Respublikada yaşayan əhalinin məqsəd birliyi ilə möhkəmlənən vahid çoxmillətli zəhmətkeşlər ailəsi halında sıx birləşməsi xalqların dostluq və qardaşlığı haqqında Lenin ideyalarının əsil təntənəsi olmuşdur.

## 2. İQTİSADİ ŞƏRTLƏR

***Əmək hüququnun təmin olunması.*** Şəxsiyyətin inkişafına təkan verən obyektiv amillərdən biri vətəndaşların əmək hüququna malik olmasıdır, işlə təmin olunmaq imkanının mövcudluğudur. Xüsusi olaraq qeyd edilməlidir ki, təminatlı iş şəxsiyyətin inkişafına güclü təsir göstərir. SSRİ-də əməyə yalnız ictimai sərvəti artırmaq vasitəsi kimi deyil, habelə xalqın və hər bir sovet adamının rifahını yüksəltmək mənbəyi kimi, mənəviyyatı saflaşdırmaq vasitəsi kimi baxılır. Ölkəmizdə sosial mühitin bu cəhəti də SSRİ Konstitusiyasında əks olunmuşdur. Konstitusiyanın 40-cı maddəsində yazılır: «SSRİ vətəndaşları əmək hüququna, yəni əməyin kəmiyyət və keyfiyyətinə uyğun olaraq və dövlət tərəfindən müəyyən edilmiş minimum məbləğdən aşağı olmamaqla

---

[1] Bax: «Kommunist», 8yanvar 1980.

haqqı ödənilən təminatlı iş almaq hüququna, o cümlədən həvəsinə, qabliyyətinə, peşə hazırlığına, təhsilinə münasib olaraq və ictimai tələbat nəzərə alınmaqla peşə, məşğuliyyət növü və iş seçmək hüququna malikdirlər.

Bu hüquq sosialist təsərrüfat sistemi, məhsuldar qüvvələrin durmadan artması, pulsuz peşə təlimi, əmək ixtisasının artırılması və yeni ixtisasların öyrədilməsi, peşə seçməkdə istiqamətləndirmə və işə düzəltmə sistemlərinin inkişaf etdirilməsi ilə təmin olunur».[1] Bütün bunlar əməyin azad olmasına imkan verir. Lakin azad əmək hüququnu, yəni qabiliyyətinə, marağına, ixtisasına, təhsilinə uyğun vətəndaşın peşə seçmək hüququnu onun maksimum dərəcədə səylə işləmək borcundan ayırmaq olmaz. İş vaxtının hər dəqiqəsindən səmərəli istifadə edilməsi SSRİ-də hər bir şəxsin borcudur.

«Xalq təsərrüfatında əmək intizamını daha da möhkəmlətmək və kadrların axıcılığını azaltmaq haqqında» Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti, SSRİ Nazirlər Soveti və ÜİHİŞM-in 1980-ci il yanvar ayında qəbul etdikləri qərarda deyildiyi kimi, Sov.İKP XXV qurultayının qərarlarını yerinə yetirən sovet adamlarının fədakar əməyi sayəsində ölkənin iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, xalqın maddi və mənəvi səviyyəsi durmadan yüksəlir, istehsalatda keyfiyyət dəyişiklikləri baş verir. Hər bir adamın öz qabiliyyətini göstərməsi üçün, təşəbbüskarlığın və yaradıcılığın, professional inkişafının təzahürü üçün əlverişli şərait yaranır.

İstehsal miqyasının durmadan genişlənməsi və qeyri-istehsal sahələrinin inkişafı işçi yerlərinin elə artımına gətirib çıxarır ki, bu artım əmək qabliyyəti dövrünə qədəm qoyan gənclərin hesabına fəhlələrin, qulluqçu və kolxozçuların sayının artmasını, habelə evdə və həyətyanı təsərrüfatda məşğul olan şəxslərin ictimai əməyə cəlb olunmasını ötüb keçir. Xalq təsərrüfatında məşğul olan fəhlə və qulluqçuların sayı sürətlə artır. SSRİ-də əgər bunların sayı

---

[1] SSRİ Konstitusiyası, Bakı, Azərnəşr, 1978, səh. 21.

1928-ci ildə 11,4 milyon idisə, 1940-cı ildə 33,9 milyon, 1965-ci ildə 76,9 milyon, 1975-ci ildə 102,2 milyon, 1979-cu ildə 14,1 milyon adam məşğul olmuşdur. Kapitalizm üçün qarşısıalınmaz xəstəlik olan işsizlik SSRİ-də çoxdan aradan qaldırılmışdır.

Sovet adamları üçün real gəlirin başlıca yolu olan əmək haqqı SSRİ-də ildən-ilə artır. İctimai istehlak fondu hesabına ödəniş və güzəştlər əlavə olunmaqla orta aylıq əmək haqqı 1940-cı ildə 40,6 manat, 1965-ci ildə 129,2 manat, 1975-ci ildə 198,9 manat, 1979-cu ildə isə 224 manat olmuşdur.

Son on il ərzində respublikamızda fəhlələrin orta əmək haqqı 33 faiz, kolxozçuların əmək haqqı 83 faiz artmış, əhalinin ictimai-istehlak fondlarından aldığı ödənc və güzəştlər 1,8 dəfə çoxalmışdır.

Sov.İKP XXVI qurultayına hesabat məruzəsində deyilmişdir: «Hamıya bəllidir ki, adamlar onların əmək və məişət şəraitinin yaxşılaşdırılmasına daim qayğı göstərildiyini hiss etdikləri yerlərdə daha yaxşı, daha həvəslə işləyirlər».[1]

***İstirahət hüququnun təmin olunması.*** SSRİ-də əmək hüququ istirahət hüququndan ayrılmazdır... Əmək mənalı istirahət üçün vacib olduğu kimi, istirahət də yaradıcı əmək üçün, əmək məhsuldarlığını artırmaq üçün zəruridir. Buna görə də şəxsiyyətin formalaşması problemini istirahətin xarakterindən ayıra bilmərik. İstirahətin məzmunu, onun xarakteri, passiv və ya fəal istirahət şəxsiyyətin formalaşmasına müəyyən təsir göstərir. Sovet adamlarının istirahəti bizdə ictimai mühit amilinə çevrilmiş və Konstitusiyada ifadə olunmuşdur. SSRİ Konstitusiyasının 41-ci maddəsində yazıldığı kimi, SSRİ vətəndaşları istirahət hüququna malikdirlər. Bu hüquq dövlət miqyasında həyata keçirilən bir sıra tədbirlərlə təmin olunur. Bunlardan biri fəhlə və qulluqçular üçün 41 saatdan çox olmayan iş həftəsinin müəyyən edilməsidir.

---

[1] Bax: «Pravda», 3 fevral 1980.

SSRİ-də iş günü dünyada ən qısa iş günüdür. Hazırda sənaye sahəsində müəyyənləşmiş orta həftəlik iş müddəti 40,6 saatdır. 1913-cü ilə nisbətən sənaye sahələrindəki həftəlik iş müddəti 18 saat azalmışdır. İnqilabdan əvvəlki sənaye müəssisələrinin əksəriyyətindəki 10-12 saatlıq iş günü əvəzinə indi 7 saatlıq iş günü tətbiq olunur; hətta fəhlələrin ayrı-ayrı kateqoriyaları üçün iş günü 6 saat və daha azdır. Bayramlar qabağı iş gününün qısalığı və bayram günlərində işin olmadığı da nəzərə alınsa, adi istirahət günlərindən əlavə, sənaye fəhlələrinin həftəlik orta iş müddəti indi 40 saat, xalq təsərrüfatındakı bütün fəhlə və qulluqçular (müəllimlər, tibb işçiləri və digər işçilər üçün nəzərdə tutulmuş qısaldılmış iş günü nəzərə alınmaqla) üçün isə 39,4 saatdır.

Fəhlə və qulluqçulara hər il haqqı ödənilən məzuniyyət verilir. Sovet vətəndaşlarının bu hüquq da ildən-ilə genişlənir. Xalq təsərrüfatının bəzi sahələrində 15 günlük məzuniyyətdən istifadə edən fəhlələr və qulluqçular üçün nəzərdə tutulur ki, on birinci beşillikdə fasiləsiz iş stajına görə əlavə məzuniyyət verilsin. İstirahət hüququ getdikcə genişlənən mədəni-maarif və sağlamlaşdırıcı müəssisələr şəbəkəsinin, kütləvi idmanın, bədən tərbiyəsi və turizmin inkişaf etdirilməsi ilə, yaşayış yerlərində istirahət üçün əlverişli imkanların açılması ilə, asudə vaxtdan səmərəli istifadə üçün digər şəraitin yaradılması ilə təmin edilir. 1939-cu ildə SSRİ-də 3600 sanatoriya və istirahət evi vardısa və oradakı çarpayıların sayı 469 min idisə, müvafiq şəkildə 1965-ci ildə 8. 080 və I mioyon 280, 1979-cu ildə 12. 870 və 2 milyon 680 olmuşdur.

Sanatoriyalarda, pansionatlarda, istirahət evləri və bazalarında yerlərin sayı yalnız 1979-cu ildə 50 min, turizm bazalarında isə 7 min çoxalmışdır. 1979-cu ildə sanatoriyalarda, istirahət müəssisələrində, turist marşurutlarında və bazalarında 53 milyon zəhmətkeşə və zəhmətkeşlərin ailə üzvləri müalicə olunmuş və istirahət etmişdir; ekskursiyalarda 165 milyon adam iştirak etmişdir. Təkcə 1979-cu ilin yayında pioner və məktəb düşərgələrində, ekskursiya-

turist bazalarında və ya dağ yerlərindəki uşaq müəssisələrində 23 milyon uşaq və yeniyetmə istirahət etmişdir.[1] Təkcə Azərbaycan həmkarlar ittifaqının sağlamlıq ocaqlarında hər il 100 mindən çox adam müalicə olunur və istirahət edir.

Son zamanlar ayrı-ayrı müəssisələrin nəzdində də sanatoriya və istirahət evləri tikilib istifadəyə verilir. Məsələn, Kareliya MSSR-də böyük müəssisələrin çoxusu iki günlük istirahət bazaları yaratmışdır. Zəhmətkeşlər həftənin altıncı və istirahət günləri həmin bazalarda dincələ bilirlər. Yaxud, Dnepropetrovsk vilayətindəki «Dneproşina» istehsalat birliyi kollektiv üçün bu yaxınlarda sanatoriya-profilaktoriyanın yeni korpusunu – «Şinnik-2» ni işə salmışdır. Burada zəhmətkeşlər istehsalatdan ayrılmadan yaxşıca istirahət edə və səhhətlərini möhkəmləndirə bilirlər. Müəssisənin sağlamlıq ocaqlarında 1979-cu ildə iki mindən artıq adam dincəlmişdir.

Bu cür sağlamlıq ocaqları Azərbaycanda da vardır və yenə də tikilir. Məsələn, yaşıllığa bürünmüş Artyom adasının mənzərəli guşəsində iki mərtəbəli bir bina diqqəti xüsusilə cəlb edir. Bura Artyom adına Neft və Qazçıxarma İdarəsinin sanatoriya profilaktoriyasıdır. Xəzər neftçiləri yaxşı işlədikləri kimi, yaxşı da müalicə olunur, istirahətlərini mənalı keçirirlər. Sanatoriyanın yaraşıqlı həyəti vardır, hər tərəfdən gül və çiçək ətri duyulur. Cərgə ilə əkilmiş söyüd, küknar, şam ağacları, qızılgül kolları, talvardakı üzüm tənəkləri adama xoş təsir bağışlayır. Yaşıllıqlar qoynunda çətirlər və kölgəliklər, gündüz işıqları sanatoriyanın həyətini nura qərq edir. Buradakı iri hovuzda çoxlu balıq saxlanılır.

Sanatoriya binasının daxilində ilk növbədə səliqə-səhman diqqəti cəlb edir. Burada fəhlə və qulluqçuların cansağlığı üçün hər cür şərait vardır. Əmək adamları tibb işçilərinin xeyirxahlıqlarından razıdırlar. Pəhriz yeməkləri ilə müalicə üsulu burada tətbiq edilir.

---

[1] «Pravda», 3 fevral 1980.

Sağlamlıq ocağında mədə-bağırsaq, qaraciyər xəstəliklərini, hipertoniya, əsəb sistemi pozğunluqlarını müalicə etmək üçün müasir tibb avadanlığından geniş istifadə olunur. Zəhmətkeşlər qırmızı guşədə dama, şahmat, nərd oynayır, qiraət salonunda təzə qəzet və jurnallar oxuyurlar.

Tez-tez söhbətlər və mülahizələr keçirilir, habelə həkim məsləhətləri təşkil edilir. İstirahət edənlər V.İ.Lenin adına Mərkəzi muzeyin Bakı filialında, 18-ci ordu və Azərbaycan tarixi muzeylərində olmuşdur. Artyom adına mədəniyyət sarayının bədii özfəaliyyət dəstələri tez-tez sanatoriyada istirahət gecələri təşkil edir, konsertlər verirlər. Sanatoriya profilaktoriyanın yarandığı gündən orada 13 mindən çox fəhlə və qulluqçu istirahət etmiş və müalicə olunmuşdur.

Göründüyü kimi, müəssisələrin nəzdində təşkil edilmiş sağlamlıq ocaqlarında istirahətin bu cür təşkili adamların gümrahlığını artırır, səhhətlərini möhkəmləndirir, şəxsiyyətlərinin hərtərəfli inkişafına kömək edir, kadr axıcılığının qarşısını alır.

Yaxşı işlədiklərinə və sosializm yarışında yüksək göstəricilər qazandıqlarına görə işçilərə istirahət üçün iki günlük putyovka verilməsi təcrübəsi ölkəmizin başqa yerlərində olduğu kimi, respublikamızda da genişlənir. Məsələn, Böyük Qafqazın ətəklərinin mənzərəli güşələrindən birində V.İ.Lenin adına Şəki İpək İstehsalat Birliyinin «Marxal» istirahət zonası yerləşir. Ən yaxşı istehsalatçılar hər şənbə və bazar günləri burada pulsuz putyovka ilə ailə üzvləri ilə birlikdə dincəlirlər. Yaxud, Sumqayıt sənaye müəssisələrinin yaratdıqları istirahət zonalarına nəzər salaq. Beş günlük iş həftəsini müvəffəqiyyətlə başa çatdıran yüzlərlə sumqayıtlı öz istirahət günlərini respublikanın cazibədar guşələrində keçirirlər

Sumqayıt alüminium zavodunun zəhmətkeşləri Qusar meşələrində alaçıqlar qurur, şəhər texniki-peşə məktəblərinin şagirdləri alma bağları diyarı olan Qubada, elektrik quraşdırma tədarükü zavodunun zəhmətkeşləri Nabranda, «Neftavtomat»ın işçiləri Lənkəran, Astara və s. yerlərdə dincəlirlər. Zəhmətkeşlərin əksəriyyəti iki günlük istirahət

putyovkalarını pulsuz alırlar. Bu cür istirahət onların zərbəçi əməyi üçün bir növ mükafat olur.[1]

***Adamların mənzillə təmin olunması.*** Şəxsiyyətin hərtərəfli inkişafına, adamların əhval-ruhiyyəsinə təsir göstərən ictimai mühit amillərindən biri də mənzildir. Adamların mənzillə nə dərəcədə təmin olunduğu, mənzil şəraiti onların psixologiyasına təsir göstərir. Sovet adamlarının mənzil hüququ SSRİ Konstitusiyasında qanuniləşdirilmişdir. Bu hüquq, hər şeydən əvvəl, ölkədə dövlət və ictimai mənzil fondunun qorunması və inkişaf etdirilməsi ilə təmin olunur. SSRİ-də mənzil tikintisi böyük sürətlə artır. Çünki mənzil tikintisinə ildən-ilə daha çox kapital qoyulur. Məsələn, əgər 1950-ci ildə mənzil tikintisinə 2,3 milyard, 1965-ci ildə 9,6 milyard manat qoyulmuşdursa, 1978-ci ildə 17,5 milyard manat olmuşdur. Ölkəmizdə 60 il ərzində 3 milyard 301,6 milyon kvadrat metr ümumi (faydalı) sahəsi olan mənzil tikilmişdir. Yalnız 1979-cu ildə 102,5 milyon kvadrat metr sahəsi olan 2 milyondan artıq mənzil istifadəyə verilmişdir. Bu 10 milyona qədər adamın mənzil şəraitinin yaxşılaşmasına səbəb olmuşdur.

Hazırda SSRİ-də hər hansı digər ölkələrindəkindən çox mənzil tikilir. Məsələn, yalnız 1979-cu ildə SSRİ-də 2.080 min, ABŞ-da, 1,60 min, Yaponiyada 1.566 min, Fransada 440 min, AFR-də 418 min, İngiltərədə 312 min mənzil tikilmişdir.

SSRİ-də mənzil hüququ habelə kooperativ və fərdi mənzil tikintisinə kömək göstərilməsi ilə, mənzil sahəsinin ictimai nəzarət altında ədalətlə bölüşdürülməsi ilə, mənzil və kommunal xidmətləri haqqının yüksək olması ilə təmin edilir. Ölkəmizdə mənzil haqqı 1928-ci ildən dəyişməmişdir; fəhlələrin ailəsində mənzil haqqı gəlirin orta hesabla üç faizindən artıq deyildir. Əhalinin mənzil və kommunal xidmətləri haqqı bu məqsədlə olan bütün xərclərin üçdə birindən də azdır.

---

[1] «Баку», 23 iyul, 1979.

Ölkəmizdə mənzil tikintisi böyük vüsət aldığından dövlət binaların saxlanılmasına getdikcə daha çox xərc çəkməli olur. Əgər bu cür xərclər 1940-cı ildə 0,1 milyard manat idisə, 1965-ci ildə 2,3, 1975-ci ildə 4,9, 1978-ci ildə isə 6 milyard manat olmuşdur.[1]

Tikilən yaşayış binalarında zəhmətkeşlərin rahatlığını təmin etmək üçün, məişətdə qadın əməyini yüngülləşdirmək üçün yeni-yeni təşəbbüslər göstərilir. Bu da təsadüfi deyildir. Sov.İKP Proqramında, məsələn, göstərilmişdir: «Məişətdə qadının qeyri-bərabər vəziyyətinin qalıqları tamamilə ləğv edilməli, qadınların xoşbəxt ana olmaqla bərabər, ictimai əməkdə və ictimai fəaliyyətdə, elmlə, incəsənətlə məşğul olmaqda getdikcə daha fəal və daha yaradıcılıqla iştirak etmələri üçün bütün sosial-məişət şəraiti yaradılmalıdır».[2] Qeyri-məhsuldar məişət əməyini ictimai iaşə xidməti ilə əvəz etmək sahəsində görülən işlərin miqyası SSRİ-də getdikcə genişlənir. Paltaryuyan və paltar təmizləyən müəssisələr, kulinariya mağazaları, ev-mətbəx daha da çoxalır, məişət texnikası vasitələri ilə məişət təsərrüfatının təchiz olunması ildən-ilə güclənir.

Məişətin daha da inkişaf etməsi, memarların ifadəsi ilə desək, «yaşayış mühiti»nin yaxşılaşdırılmasını tələb edir. Hazırda memarlar mənzil korpuslarının planlaşdırılmasında çalışırlar ki, klub işi üçün, məişət işləri üçün otaqlar da nəzərdə tutsunlar. Bütün bunlar məişəti yüngülləşdirir, qadınların ev işindən azad olmasına, mütaliə ilə, peşə hazırlığını artırmaqla məşğul olmasına kömək edir. Məsələn, iri şəhərlərdə, o cümlədən Kalininqrad şəhərində hətta ünsirlərini özündə birləşdirən gənclik yaşayış komplekslərinin tikintisi çoxalır. Bu cür yaşayış komplekslərində mühazirələr oxumaq, müzakirələr keçirmək, konsertlər vermək üçün və digər kütləvi tədbirlər üçün klub, dərnəklərdə uşaqların məşğul olması üçün otaqlar da vardır. Ailənin məişət problemini həll etmək üçün yaşayış kompleksində

---

[1] «Pravda», 3 fevral 1980.

[2] Sovet İttifaqı Kommunist Partiyasının Proqramı, Azərnəşr, 1977, səh.87.

müxtəlif variantlı imkanlar vardır.[1] Kalininqrad şəhərinin təcrübəsi ölkənin bir sıra şəhərlərində geniş tətbiq olunur.

## 3. MƏDƏNİ-MAARİF ŞƏRTLƏRİ

***Ümumi icbari təhsilin həyata keçirilməsi.*** Sovet ictimai mühitini səciyyələndirən cəhətlərdən biri xalqın təhsili ilə bağlıdır. Xalq maarifi sistemi sovet adamlarının ümumi təhsilinə və peşə hazırlığına, gənclərin kommunist tərbiyəsinə, onların mənəvi və fiziki inkişafının təmin olunmasına xidmət edir. Konstitutsiyanın 45-ci maddəsinə uyğun olaraq SSRİ vətəndaşları təhsil hüququndan istifadə edirlər. Təhsil hüququndan sovet adamlarının tam istifadə etməsi üçün ölkəmizdə geniş imkanlar yaradılmışdır. Məsələn, SSRİ-də təhsilin bütün növləri pulsuzdur, bütün gənclərin hamılıqla orta icbari təhsil almasına şərait vardır, texniki peşə təhsili, orta və ali ixtisas təhsili təlimin həyatla, istehsalatla əlaqəsi əsasında daim təkmilləşdirilir və inkişaf etdirilir, ixtisas məktəblərində şagirdlərə və tələbələrə dövlət təqaüdi verilir, istehsalatdan ayrılmamaqla təhsil alanlara dövlət tərəfindən güzəştlər verilir; Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərindən pulsuz istifadə etməsinə keçmək haqqında» 1977-ci il tarixli qərarına uyğun olaraq məktəb dərslikləri şagirdlərin pulsuz istifadəsinə verilir, müstəqil təhsil üçün münasib şərait yaradılır və s. Sovet dövləti təhsil üçün külli miqdarda vəsait xərcləyir.

Bu xərc ildən-ilə artır. Məsələn, 1940-cı ildə bu xərc 2 milyard manat, 1965-ci ildə 13,2 milyard manat, 1978-ci ildə isə 29,1 milyard manat olmuşdur.

1918-1979-cu illərdə 83,2 milyon adam orta ümumi və ya ixtisas təhsili almışdır. Yalnız 1979-cu ildə 5 milyondan artıq oğlan və qız orta tədris müəssisələrini bitirmişdir ki, bunun da 1,3 milyonu istehsalatdan ayrılmamaqla oxumuşdur.

---

[1] «Здоровье» jurn. 3,1980, səh. 2-3.

SSRİ-də təhsilin pulsuz olması ilə yanaşı orta və ali ixtisas məktəblərində oxuyan şagird və tələbələrin xeyli hissəsi təqaüd alır. Dövlət təqaüd üçün 1940-cı ildə 0,2 milyard manat, 1965-ci ildə 0,9 milyard manat, 1978-ci ildə isə 2,4 milyard manat ayırmışdır.

1918-1979-cu illərdə ali məktəblər 15,6 milyon mütəxəssis hazırlamışdır. Yalnız 1979-cu ildə ali məktəblərə 1 milyon 43 min oğlan və qız qəbul olunmuşdur. Bütün bu tədbirlərin nəticəsində xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı fasiləsiz artır. Belə mütəxəssislərin sayı 1941-ci ilin başlanğıcında 2 milyon 401 min, 1960-cı ilin sonuna 8 milyon 484 min idisə, 1978-ci ilin sonuna 26 milyon 400 min olmuşdur. 1979-cu ildə xalq təsərrüfatına 2 milyon mütəxəssis göndərilmişdir ki, bunun 0,8 milyonu ali ixtisas təhsilli, 1,2 milyonu isə orta ixtisas təhsilli idi.[1]

Ölkə üçün səciyyəvi olan bu cəhət Azərbaycan maarifinin çiçəklənməsində özünü daha qabarıq göstərir. İnqilabdan əvvəl savadsızlığın hökm sürdüyü Azərbaycan Sovet hakimiyyəti illərində təhsil sahəsində də nəhəng addımlarla irəliləyir. 1920-ci ildə Azərbaycan əhalisinin onda doqquz hissəsindən çoxu savadsız idi, azərbaycanlı qadınlar arasında isə savadlılar bir faizdən az olmuşdur. Savadsızlıq Azərbaycanda hələ 1930-cu illərdə aradan qaldırılmışdır və respublikanın 16 yaşdan yuxarı əhalisinin 34 faizinin, o cümlədən bütün qadınların 27 faizinin ali, natamam ali və orta təhsili vardır.

Sovet hakimiyyətinin birinci ilində Azərbaycan məktəblərində 73 min uşaq oxuyurdu, indi isə bir milyon altı yüz mindən çox uşaq oxuyur. Orta məktəblərə aid rəqəmlər daha heyrətamizdir. 1920-ci ildə orta məktəblərdə cəmi 4500 adam təhsil alırdı, indi isə bir milyon iki yüz mindən artıq, yəni 27 dəfə çox adam təhsil alır. Təhsilli adamlar ölkəmizdə çoxaldıqca qüdrətli şəxslərimiz, qurub-yaradan adamlarımız da çoxalır, kommunizm quruculuğunun vüsəti artır.

---

[1] «  ». 3  , 1980.

***Mədəniyyətin xalqa mənsub olması.*** SSRİ-də təhsil və mədəniyyət bir-birindən ayrılmazdır. Onlar bir-birini tamamlayır və şəxsiyyətin hərtərəfli inkişafına zəmin yaradır. İctimai mühit amili olan mədəniyyət şəxsiyyətin formalaşmasına güclü təsir göstərir.

Mədəniyyət sahəsində sovet ictimai mühitini səciyyələndirən cəhətlərdən bəzilərini burada qeyd etmək yerinə düşərdi. Biri budur ki, SSRİ vətəndaşları mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququna malikdirlər. Belə bir hüququn təmin olunması üçün ölkəmizdə münasib şərait yaradılır. Dövlət fondlarında və ictimai fondlarda olan Vətən və dünya mədəniyyəti sərvətlərinin inciləri ölkəmizdə hamıya müyyəssərdir: mədəni-maarif müəssisələri durmadan inkişaf etdirilir və genişləndirilir; həmin müəssisələr ölkə ərazisində bərabər yerləşdirilir; televiziya və verilişlərin daim təkmilləşdirilir, kitab nəşriyyatı işi və dövri mətbuat inkişaf etdirilir; pulsuz kitabxanalar şəbəkəsi genişləndirilir; xarici dövlətlərlə mədəni mübadilə aparılır və s.

İkinci səciyyəvi cəhət budur ki, sovet dövləti mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan sovet adamlarının mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etmək qayğısına qalır. Bunun da nəticəsində bütün müttəfiq respublikalarda mədəniyyət vasitələri olan mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaranmışdır. Kütləvi kitabxanaların sayı 1940-cı ilin sonundakı 95,4 mindən 1979-cu ilin sonuna 131 min olmuşdur; onlarda kitab və jurnal fondu müvafiq şəkildə 199,7 milyondan 1,771 milyona qalxmışdır. Bütün növdən olan kitabxanaların, o cümlədən kütləvi, elmi, texniki, tədris və s. xüsusi kitabxanaların sayı 1976-cı ilin əvvəlinə 35 min, oradakı kitab fondu isə 4,2 milyard olmuşdur.

Ölkəmizdə 136 min, o cümlədən kənd yerlərində 117 min klub müəssisəsi fəaliyyət göstərir. 1,4 min muzeyə hər il 150 milyon adam gedir; 589 peşəkar teatrın tamaşalarına ildə 118 milyon adam baxır.

Pullu kinotetrların sayı 1940-cı ildəki 28 mindən 1979-cu ilin sonuna 152,6 minə, orada kino seanslarına gedənlərin sayı il ərzində həmin müddətdə 0,9 milyarda qalxmışdır ki, bunun da 1,5 milyardı kənd əhalisinin hesabınadır.

SSRİ dünyada ən çox kitab oxuyan ölkədir. 1918-1978-ci illə ərzində SSRİ-də 3 milyondan artıq kitab və kitabça çap olunmuşdur ki, bunun da ümumi tirajı 50 milyard nüsxədir. Kitablar Sovet hakimiyyəti illərində 153 dildə, o cümlədən 89 SSRİ xalqları dilində nəşr olunmuşdur.

1980-ci ilin əvvəlində SSRİ-də 4,8 min jurnal və dövri mətbuat, habelə 8 min qəzet buraxılır.[1] Orta hesabla hər sovet ailəsi üç qəzet alır.

Uşaq şəxsiyyətinin hərtərəfli inkişafı üçün SSRİ-də böyük imkanlar yaradılır. Yalnız həmkarlar ittifaqları maarif və mədəniyyət orqanları tərəfindən təşkil olunmuş 868 mindən artıq müxtəlif dərnəklərdə ölkəmizin 21 milyon gənc vətəndaşı iştirak etmişdir.[2]

Şəxsiyyətə güclü təsir göstərən mühit amillərindən biri də televiziya və radio verilişləridir, televizorla və radioqəbul-edicilərlə əhalinin təchiz edilməsidir. 1979-cu ildə SSRİ-də 70 milyondan artıq radioqəbuledicisi, 74 milyondan çox radiotransliyasiya nöqtəsi olmuşdur.

Sov.İKP XXVI qurultayına hesabat məruzəsində göstərildiyi kimi, ölkəmizdə hər gün 75 milyon televizor ekranı işıqlanır.

SSRİ-də mədəniyyət və incəsənətin inkişafının nə dərəcədə böyük vüsət aldığını, əhalinin mədəni səviyyəsinin, adamlarda mədəniyyət və incəsənət qabiliyyətlərinin inkişafının kütləvi xarakter aldığını Azərbaycan SSR-nin nümunəsində də aydın göstərmək olur. Bu da təbiidir. Çünki şəxsiyyətin hərtərəfli inkişafı üçün hər cür şəraitin yaradıldığı bir diyarda, mədəniyyət və incəsənət qapılarının milyonların üzünə açıldığı bir diyarda mədəniyyət və incəsənət gözəlliyindən nəinki zövq alanların, hətta bu gözəlliyi

---

[1] « », 3 , 1980.
[2] « », 16 , 1979.

yaradanların sayı da ildən-ilə çoxalır. Azərbaycanda indi elə bir şəhər, elə bir kənd tapmaq olmaz ki, orada azı bir mədəniyyət sarayı fəaliyyət göstərməsin, orada özfəaliyyət dərnəkləri minlərlə adamı özünə cəlb etməsin?! Nümunə üçün Naxçıvan MSSR-in götürək. İnqilabdan əvvəl Naxçıvanda yalnız bir mədəni-maarif müəssisəsi-klub olmuşdur. 1980-cı ildə muxtar respublikanın zəhmətkeşlərinə 2 milyona yaxın kitab fondu olan 232 şəhər, rayon və kənd kitabxanası xidmət göstərmişdir. Muxtar respublikanın Şahbuz, Culfa, Babək, Ordubad, İliç rayonlarında 54 mədəniyyət evi, 126 klub, 13 qırmızı, mədəni çadır, 13 səyyar avtoklub işləmişdir; 5 rayon mərkəzi musiqi məktəbi və onların 10 kənddə filialı fəaliyyətdə olmuşdur. Həmin musiqi məktəblərində və filiallarında 1.308 şagird öz qabiliyyətlərini inkişaf etdirmişdir. 1977-1979-cu illərdə həmin musiqi məktəbləri üçün 1 milyon 300 min manatlıq musiqi alətləri və inventar alınmışdır. Bu, bütövlükdə səkkizinci və doqquzuncu beşilliklərindəkindən çox olmuşdur. 1980-ci ildə muxtar respublikada 14 yeni mədəni-maarif müəssisəsi tikilmişdir.

Muxtar respublikanın paytaxtında C.Məmmədquluzadə adına Dövlət Dram Teatrı, Ordubadda və Naxçıvanda xalq teatrları, Dövlət mahnı və rəqs ansamblı fəaliyyət göstərir. Naxçıvan televiziya studiyasının verlişlərinə nəinki muxtar respublikanın, həm də qonşu Ermənistanın zəhmətkeşləri də qulaq asır.

Respublikamızın şəhərlərində birinə – Qubaya, orada mədəni-maarif müəssisələrindən birinə-mədəniyyət evinə müraciət edək, həmin mədəniyyət evində xalq teatrı, «Şahdağ» xalq çalğı alətləri ansamblı, bədii-təşviqat briqadası, aktyorlar studiyası və başqa dərnəklər fəaliyyət göstərir.

1963-cü ildə yaradılmış Quba xalq teatrı «Hacı Qənbər» (N.B.Vəzirov), «Aprel səhəri» (Y.Əzimzadə), «Anaların səsi» (S.Axundov), «Rəhmə gəl, mələyim», «Bir evdə» (Q.Rəsulov), «Şeyx Rəhmətulla», «Rəisin arvadı» (M.Əlizadə), «Qaynana» (M.Şamxalov), «Həyəcan» (O.Vasilyev) və s. tamaşaları ilə həvəskar aktyorların çoxalmasına səbəb

olmuşdur. İstedadlı həvəskarların bu kollektivi Quba rayonu ilə yanaşı respublikanın Masallı, Lənkəran, Sabirabad, Cəlilabad, Zaqatala, Balakən, Qax, Ucar, İsmayıllı, Qutqaşen, Şamaxı, Səlyan, Saatlı rayonlarının, habelə Dağıstan MSSR-in Dərbənd və Axtı şəhərlərinin zəhmətkeşləri qarşısında çıxış etmişdir. Kollektiv respublikada keçirilən baxış-müsabiqələrdə iştirak etmiş və müvəffəqiyyət qazanmışdır.

Mədəniyyət evinin «Şahdağ» xalq çalğı alətləri ansamblı Azərbaycan xalq mahnılarından, qardaş respublikaların əsərlərindən ibarət konsert proqramı ilə çıxış edir. «Şahdağ» ansamblı 1975-1977-ci illərdə keçirilmiş zəhmətkeşlərin I Ümumittifaq bədii özfəaliyyət yaradıcılığı festivalının laureatı olmuşdur. Kollektiv Azərbaycan respublika təşkilat komitəsinin I və II dərəcəli diplomlarına, Aşıq Ələsgər adına respublika xalq yaradıcılığı evinin fəxri fərmanlarına layiq görülmüşdür.

Quba rayonunda 62-dən artıq kənd klubu və mədəniyyət evi vardır. Ayrı-ayrı kəndlərdə də ansambllar, dram dərnəkləri yaradılmışdır.

Neftçala rayonunda 1980-ci ildə 26 klub və mədəniyyət evi işləmişdir, oradakı özfəaliyyət kollektivləri 3. 800 nəfəri birləşdirmişdir. Rayon mədəniyyət evinin «Bahar» və «Ümid», Xıllı qəsəbə mədəniyyət evinin «Sevinc», Aşağı Surra kəndinin «Təranə» ansamblları zəhmətkeşlərin dərin rəğbətini qazanmışdır «Bahar» ansamblı hətta qardaş Gürcüstanda olmuş, Arxangelsk vilayətinin əməkçiləri qarşısında çıxış etmişdir.

Bakının Binəqədi qəsəbəsindəki mədəniyyət evinin rəngarəng proqramla çıxış edən «Qönçə» gənclik xalq çalğı alətləri ansamblı Kirov rayon zəhmətkeşləri tərəfindən böyük rəğbətlə qarşılanır. Ansambl 1979-cu ildə rayon üzrə «Səni tərənnüm edirəm, komsomol!» devizi ilə keçirilmiş festivalda yeri, Salyan rayonunda keçirilmiş baxış müsabiqəsində üçüncü yeri tutmuşdur.

Mədəniyyət evində Ağadadaş Qurbanov adına xalq teatrı, tar, qarmon, nağara, fortopiano, balaban, akkordion, rəqs,

biçmə və tikmə, makinaçılıq dərnəkləri vardır. Bu dərnəklərdə 400-dən çox gənc fəhlə və şagird məşğul olur.[1]

Xalq yaradıcılığının formalarından biri olan aşıq musiqisinin inkişafına da respublikamızda geniş şərait yaradılır, vaxtaşırı baxış müsabiqələr keçirilir. Məsələn, V.İ.Leninin anadan olmasının 110-cu ildönümünə, Azərb. SSR-in və Azərbaycan KP-nin 60 illiyinə həsr edilmiş və iki ay davam etmiş gənc aşıqların respublika festivalında bir çox istedadlı gənclər aşkara çıxarılmışdır. Qaliblər arasında Şamaxı rayonundakı Şıxzahırlı kənd məktəbinin riyaziyyat müəllimi Mahmud Ələsgər oğlu Qazax rayonundakı Musagöy kənd sakini Hacı Abdiyev də olmuşlar. Sonuncu repertuarına 72 klassik aşıq melodiyasının, demək olar ki, hamısı daxildir. O, «Arzu» ansamblının iştirakçıları olan kənd uşaqlarına öz sənətini öyrədir.[2]

Xalq yaradıcılığının inkişafı üçün respublikanın digər rayonlarında da münasib şərait yaradılmışdır.

Şəxsiyyətin hərtərəfli inkişafı üçün nəinki respublikamızın şəhərləri və rayonlarında, habelə qəsəbələri və kəndlərində mədəniyyət sarayları və evləri tikilmiş, özfəaliyyət dərnəkləri yaradılmışdır. Səciyyəvi cəhət həm də budur ki, ayrı-ayrı müəssisələr nəzdində mədəniyyət evlərinin yaradılması və özfəaliyyət kollektivlərinin təşkili adi hala çevrilmişdir.

Kirovabad şəhərindəki 3 nömrəli tikinti-quraşdırma trestinin mədəniyyət sarayına hər gün gərgin əməkdən sonra yüzlərlə gənc torlaşır, mahnı oxuyur, rəqs edir, musiqi alətlərində çalır. Burada bir çox özfəaliyyət dərnəkləri təşkil olunmuşdur. «Şərq» xalq çalğı alətləri ansamblı zəhmətkeşlərin I Ümumittifaq bədii özfəaliyyət yaradıcılığı festivalında müvəffəqiyyətlə çıxış etdiyindən birinci dərəcəli diploma layiq görülmüşdür. Kollektiv 1977-ci ildən xalq ansamblı fəxri adını dahıyır. Mədəniyyət sarayının ən maraqlı musiqi kollektivlərindən biri də «Göyərçin» uşaq

---

1 « » , * , 1980.

2 .

xalq ansamblıdır. Kollektiv «Biz Lenin və partiya işinə sadiqik!» şüarı altında keçirilmiş respublika festivalının laureatı olmuş və birinci dərəcəli diplomla təltif edilmişdir. Mədəniyyət sarayında «Şən səslər» vokal instrumental ansamblında, «Gənclik» dram kollektivində və digər kollktivlərdə də yeni-yeni istedadlar meydana gəlir.

Bir sıra müəssisələrdə yaradılan dərnəklər zəhmətkeşlərdə qabiliyyətlərin kütləvi şəkildə inkişafına kömək edir. Məsələn, Bakıdakı V.İ.Lenin adına boru-prokat zavodunda uzvləri öz qabiliyyətləri ilə geniş şöhrət qazanmışlar. Onlar sözün əsil mənasında dinləyiciləri məftun edir. Səbəblərindən birisi budur ki, zəhmətkeşlərin yaradıcılığı zavodda kütləvi xarakter daşıdığından sexlərarası yarışlar təşkil edilir. Məsələn, müəssisənin öz fəaliyyət kollektivlərinin II ümumzavod baxışında 12 sexdən 250 nəfər özfəaliyyət həvəskarlarını əhatə edən xalq çalğı alətləri ansamblı, estrada və vokal instrumental ansablları, dram kollektivləri, bədii təşviqat briqadaları iştirak etmişdir. Boru prokat sexinin nümayəndələri birinci yeri tutaraq laureat adını qazanmışdır. Mərkəzi zavod laboratoriyasının, mexaniki alət sexi özfəaliyyət kollektivlərinin üzvləri yüksək qabiliyyətə və incə zövqə malik olduqlarını nümayiş etdirmişlər.

Sosializm cəmiyyəti ayrı ailələrin bütün üzvlərinin inkişafına, o cümlədən estetik qabiliyyət və bacarıqların ailəvi inkişafına imkan verir. Demək olar ki, respublikamızın bütün şəhər və rayonlarında yaranmış ailə ansambllarının xoru sədası ürəklərə fərəh və sevinc gətirir. Bakıdan Cananovlar ailəsi, Kirovabaddan Ağayevlər ailəsi, Ucardan Sumbatovlar ailəsi, Cəlilabaddan Əzizovlar ailəsi, Şahbuzdan Nəbiyevlər ailəsi, Salyandan Məmmədovlar ailəsi və bir başqa ailə ansamblları buna misal ola bilər.

Ailə ansambllarının çoxalması və daha da inkişaf etməsi üçün respublikamızda xüsusi şərait yaradılır: mədəniyyət sarayları və mədəniyyət evləri onların xidmətindədir; ailə ansambllarının respublika yarışları keçirilir. Ailə ansambllarının son respublika baxış-müsabiqəsi 1980-ci ilin əvvəlində Şəkidə keçirilmişdir. Bakıdakı C.Orconikidze adına

mədəniyyət sarayında fəaliyyət göstərən Cananovlar ailə ansamblı zəhmətkeşlərin birinci Ümumittifaq bədii özfəaliyyət yaradıcılığı festivalının laureatı adına layiq görülmüşdür. Həmin ailə ansamblı bir neçə dəfə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə dəvət olunmuş, mərkəzi televiziya ilə çıxış etmişdir.

Qabliyyətlərin inkişafına təkan verən muzeylər, kitabxanalar, sərgilər də respublikamızda xalqın xidmətinə verilmişdir. İndi respublikamızda kitabxanası olmayan şəhər, rayon, qəsəbə, kənd yoxdur. Ayrı-ayrı ailələrdə kitabxana təşkil etmək hazırda adi hala çevrilmişdir. Şəxsi kitabxanalarda kitablarının sayı mini keçən ailələr respublikamızda on minlərlədir. Kitabxanasında 20 minə qədər kitabı olan ailələr də vardır. Kirovabad şəhərində yaşayan Kərim Tağıyevin kitabxanası buna misal ola bilər. Kərim müəllimin ev kitabxanasında 20 min kitab vardır. Kitabxananın təşkilində Kərim müəllim 1928-ci ildən başlamışdır. Orada Azərbaycan ədəbiyyatı, rus ədəbiyyatı, xarici ölkələrin ədəbiyyatı, müxtəlif ölkələrdə çap olunmuş lüğətlər, ensiklopediyalar, biblioqrafiyalar, məlumat kitabları, fars,ərəb, türk, ingilis və başqa dillərdə buraxılmış ədəbiyyat, «Molla Nəsrəddin» jurnalının tam komplekti, «Maarif işçisi», «Maarif və mədəniyyət» jurnalları və digər mətbuat nümunələri vardır. Kərim müəllimin kitabxanasından yalnız ailə üzvləri, qohum və dostları deyil, həm də şəhərin ziyalıları, fəhlələri, pensiyaçıları, tələbələr, maraqlanan digər şəxslər də istifadə edə bilirlər.

***Yaradıcılıq azadlığının təmin olunması.*** Yuxarıda gətirdiyimiz faktlar aydın şəkildə göstərir ki, sovet adamlarının qabiliyyətlərini, yaradıcılığını inkişaf etdirmək üçün respublikamızda hər cür şərait yaradılır. Hətta kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq SSRİ-də sovet vətəndaşlarının elmi, texniki və bədii yaradıcılıq azadlığı təmin olunur. Sovet adamlarının bu hüququ elmi-tədqiqatların genişləndirilməsi ilə, ixtiraçılıq və səmərələşdirmə fəaliyyəti ilə, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi ilə təmin olunur. Dövlət bundan ötrü lazımi maddi şərait

yaradır, könüllü cəmiyyətlərə və yaradıcı ittifaqlara yardım göstərir, ixtiraçıların təkliflərinin xalq təsərrüfatında, həyatın müxtəlif sahələrində tətbiqini təşkil edir. Sosializm elmi fəaliyyətin sonsuz inkişaf etdirilməsi üçün geniş imkanlar açmış və onu da xalqın xidmətinə verilmişdir. Bu, dövlət büdcəsindən və digər mənbələrdən elmi işə ayrılan vəsaitin ildən-ilə artmasında da özünü göstərir. Əgər 1940-cı ildə elmə çəkilən xərc 0,3 milyard manat olmuşdursa, 1965-ci ildə 6,9 milyard, 1975-ci ildə 17,4 milyard, 1979-cu ildə 19,9 milyard manat olmuşdur. 1980-ci ölkəmizdə 1,3 milyon elmi işçi çalışmışdır ki, bu da bütün dünyadakı elmi işçilərin dörddə birini təşkil edir.

Elmi-texniki tərəqqinin sonrakı inkişafına sovet adamlarının texniki yaradıcılığı güclü təsir göstərir. Təklif vermiş ixtiraçıların və səmərələşdiricilərin sayı 1965-ci ildəki 2,935 mindən 1979-cu ildə 4,600 minə çatmışdır. Daxil olan təkliflərin sayı müvafiq olaraq 4.076 mindən 5.100 minə, istifadə olunan ixtiraların və səmərələşdirmələrin sayı 2.841 mindən 4.200 minə qalxmışdır. Göründüyü kimi, elmə, texnikaya, xalq təsərrüfatına yenilik gətirən, yaradıcı şəkildə çalışan adamların sayı, onların səviyyəsi ildən-ilə artır. Şəxsiyyətcə kamilləşən sovet adamlarının dövlətə, xalqa verdiyi fayda da ildən-ilə sürətlə çoxalır. Təkliflərin tətbiqindən alınan iqtisadi səmərə 1965-ci ildə 1.908 milyon manat idisə, 1979-cu ildə 6 milyard manat olmuşdur.[1]

Azərbaycan SSR-də səmərələşdiriciliyin inkişafına da geniş imkanlar yaradılır. Səmərələşdiricilik sərgilərinin təşkili bu cür imkanlardan biridir. 1980-ci ilin iyununda Bakıdakı Azərbaycan komsomolunun 50 illiyi adına BEMZ-nin mədəniyyət və texnika sarayında yenilikçilərin III Respublika sərgisi açılmışdır. Dörd hissədən ibarət olan sərgi maddi və əmək ehtiyatlarından istifadə edilməsində qənaət, əmək məhsuldarlığının artırılması, istehsalın səmərəliliyi və məhsulun keyfiyyətinin yüksəldilməsi, əmək şəraitinin yaxşılışdırılması kimi sosial-iqtisadi həyatımızın

[1] «     », 3     , 1980.

demək olar ki, bütün sahələrinə səmərələşdiricilərin verdikləri yenilikləri əks etdirmişdir. Sərginin müxtəlif stendlərində 115 min səmərələşdiricini və yenilikçini özündə birləşdirən respublika səmərələşdiricilər sovetinin nailiyyətlərinin nədən ibarət olduğunu aydın görmək olurdu. Sərgiyə 250-dən artıq seçilmiş eksponat qoyulmuşdur ki, bunların tətbiqindən 10,4 milyon manat səmərə alınmışdır. Eksponalar arasında Bakı biskivit fabrikinin, «Qafqaz enerjiquraşdırma» trestinin, «Azərelektroişıq» birliyinin, L.Krasin adına elektrik stansiyasının, Azərbaycan dəmiryol Kirovabad bölməsinin və bir çox müəssisələrinin yenilikçilərinin də əməyinin məhsulu olmuşdur.

Sosializm mühitində zəhmətkeşlərin azad yaradıcılığının inkişafı onların, məsələn, bədii özfəaliyyət dərnəklərində, sərgilərdə, kütləvi şəkildə iştirak etməsində də özünü göstərir. SSRİ Mədəniyyət Nazirliyinin və həmkarlar təşkilatlarının klub müəssisələrində 1979-cu ilin əvvəlinə bu cür dərnəklərin sayı 689 min olmuşdur ki, bunun 93 mini musiqi, 75 mini xor, 80 mini xoreoqrafiya və s. dərnəkləridir. Bu dərnəklərdə 11 milyon adam məşğul olmuşdur.

Sovet adamlarının mənəvi inkişafında təsviri incəsənətin də böyük rolu vardır. Rəssamlıq, heykətaraşlıq, qrafika, tətbiqi və monumental incəsənət əsərləri ilə biz yalnız muzeylərdə və sərgilərdə tanış olmuruq. Bu cür sənət əsərləri ilə biz məişətdə, işdə, küçədə, istirahət yerlərində getdikcə daha çox tez-tez rastlaşırıq. Milli iftixarımıza qida verən fırça lövhələri, heykəltaraşlıq abidələri, memorial ansambllar adamlarımıza vətənpərvərlik, insanpərvərlik, beynəlmiləlçilik hissləri aşılayır. Buna görə də partiya və hökumətimiz sosial mühitin bu cəhətinə də gündəlik qayğı göstərir. Hər il ölkəmizdə beş minə qədər ekspozisiya açılır ki, bunlara on milyondan artıq adam baxır. Xalq şəkil qalereyalarının sayı ildən-ilə artır. İndiki dövrümüzün səciyyəvi cəhətlərindən biri də budur ki, hazırda sərgilər nəinki iri şəhərlərdə, həm də ölkəmizin ən ucqar rayonlarında, nəhəng tikintilərdə açılır. Qardaş xalqlar arasında bədii sərvətlər mübadiləsi gündən-günə güclənir.

Ölkəmizdə hər il keçirilən «Təsviri incəsənət həftəsi» sovet mədəniyyətinin əsil bayramına çevrilmişdir. Təsviri incəsənət sahəsində, qabiliyyətlərin inkişafına «Sovetlər ölkəsinin gənc qvardiyası», «Torpaq və adamlar», «Biz BAM tikirik», «Təsviri incəsənət əsərlərində bədən tərbiyəsi və idman», «Vətənin mavi yolları» mövzularında təşkil olunmuş sərgilər gənc qabiliyyətlərin aşkara çıxarılmasına imkan vermişdir. Sərginin fərdi və ya qrup, tematik və ya janr, respublika və ya ittifaq sərgisi olmasından asılı olmayaraq ekspozisiya həm rəssamlar üçün şərəfli tribuna, həm də baxanlar üçün tükənməz zövq mənbəyidir.

SSRİ-də mühit adamlarının elmi, texniki və bədii yaradıcılığı ilə yanaşı siyasi fəallığının artırılmasına da imkan verir. Konstitusiyanın 48-ci maddəsinə uyğun olaraq SSRİ vətəndaşları dövlət işlərinin və ictimai işlərin idarə olunmasında, ümumdövlət və yerli əhəmiyyətli qanun və qərarların müzakirə və qəbul olunmasında iştirak etmək hüququna malikdir. Bu hüquq xalq deputatları sovetinə və başqa seçkili dövlət orqanlarına seçilmək imkanı ilə, ümumxalq müzakirələrində və səsvermələrində, xalq nəzarətində, dövlət orqanlarının, ictimai təşkilatların və ictimai özfəaliyyət orqanlarının işində, əmək kollektivlərinin yığıncaqlarında iştirak etmək imkanı ilə təmin olunur. Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq SSRİ vətəndaşlarının ictimai təşkilatlarda birləşmə hüququ da vardır. Bu hüquqdan istifadə olunması sovet adamlarında siyasi və ictimai fəallığın və özfəalliyyətin inkişafına, onların çoxcəhətli maraqlarının ödənilməsinə kömək edir.

***Sağlamlığın təmin olunması.*** Məlumdur ki, sağlamlıq şəxsiyyətin müvəffəqiyyətlə formalaşması üçün zəruri olan şərtlərdən biridir. Sağlamlığı isə mühitdən, ictimai şəraitdən ayırmaq olmaz. Sosial vəzifələr içərisində adamların qayğısına qalmaqdan vacibi yoxdur. Odur ki, sovet dövləti öz vətəndaşlarının sağlamlığı keşiyində durur. Konstitusiyanın 42-ci maddəsinə uyğun olaraq SSRİ vətəndaşları sağlamlığın mühafizəsi hüququna malikdirlər. Bu hüququn tam təmin olunması məqsədilə ölkəmizdə geniş şərait yaradıl-

mışdır. Məsələn, səhiyyə ocaqları adamlara pulsuz və ixtisaslı tibbi yardım göstərir; zəhmətkeşləri müalicə edən və onların sağlamlığını möhkəmləndirən müəssisələrin şəbəkəsi durmadan genişləndirilir; təhlükəsizlik texnikası və istehsalat sanitariyası təkmilləşdirilir; geniş profilaktik tədbirlər görülür; böyüməkdə olan nəslin sağlamlığına xüsusi qayğı göstərilir; təlimə və tərbiyəyə dəxli olmayan uşaq əməyi qadağan olunmuşdur; xəstəliklərin qarşısının alınması və azaldılması üçün dövlət miqyasında tədbirlər görülür: sovet adamlarının uzun müddətli fəal həyatının təmin edilməsinə yönəldilən elmi-tədqiqat işləri genişləndirilir və s. SSRİ həkimlərlə təmin olunmaq cəhətdən hazırda birinci yeri tutur. Hər 10. 000 nəfərə SSRİ-də 36,2, AFR-də 24,5, ABŞ-da 21,9, Fransada 17,5, İngiltərədə 16,4 həkim düşür. Ayrılıqda götürülmüş hər bir müttəfiq respublika hər hansı inkişaf etmiş kapitalist ölkəsindən həkimlə daha çox təmin olunmuşdur. Yuxarıdakı rəqəmlərdən göründüyü kimi, kapitalist ölkələri arasında AFR həkimlə ən çox təmin olunmuş ölkədir. (24,5), SSRİ-də Türkmənistan SSR müttəfiq respublikalar arasında həkimlə ən az təmin olunmuş respublikadır (27,5). Buna baxmayaraq, yenə də hər 10. 000 nəfərə düşən həkimlərin sayı AFR-ə nisbətən Türkmənistan SSR-də çoxdur. Azərbaycan SSR-də bu rəqəm daha çoxdur: 32,5.

İctimai istehlak fondundan səhiyyə və bədən tərbiyəsi üçün ayrılan vəsait SSRİ-də ildən-ilə sürətlə artır. Həmin məqsəd üçün 1940-cı ildə 1,0 milyard manat, 1965-ci ildə 6,9 milyard, 1975-ci ildə 12,9 milyard, 1978-ci ildə 15,6 milyard manat sərf olunmuşdur. Bir xəstə üçün Sovet dövləti hər gün 9 manatdan artıq pul xərcləyir. Yalnız 1979-cu ildə 64 min çarpayısı olan xəstəxanalar işə salınmışdır.

Sovet adamları sağlamlığının qorunması və istirahət üçün ayrılan küllü miqdarda vəsait bədən tərbiyəsi və idmanın sürətlə inkişaf etməsinə gətirib çıxarmışdır. 1940-cı ildə ölkəmizdə 5,3 milyon bədən tərbiyəsi ilə məşğul olan adam

vardırsa, belələrinin sayı 1965-ci ildə 46,3 milyon, 1979-cu ildə isə 60,3 milyon olmuşdur.[1]

Ölkəmizdə səhiyyə və idmana çəkilən xərc başqa cəhətdən-sovet adamlarının ömrünün uzadılması cəhətdən də gözəl bəhrələr verir. Uzun ömürlülüyün ölkəmizdə dinamikasından məlum olur ki, SSRİ-də adamların ömrü uzanır. Məsələn, 1938-ci ildə ömrün orta müddəti SSRİ-də 47 il, 1955-ci ildə 67 il, 1958-ci ildə 69 il, 1971-ci ildə 70 il, 1979-cu ildə isə 72 il olmuşdur. Diqqəti cəlb edən cəhətlərdən birisi budur ki, hazırda ömrün uzanması yalnız bir qrup adamların qisməti deyildir. Belələrinə ziyalıların da, fəhlələrin də, kolxozçuların da, qulluqçuların da arasında getdikcə daha çox rast gəlmək olur. Bunun yuxarıda göstərdiyimiz sosial səbəbləri ilə yanaşı başqa səbəbi- sovet adamlarının sabaha inamla baxması, gələcəyə arxayın olmasıdır. Sosial təminat SSRİ-də sovet vətəndaşlarının köklü hüquqlarından biridir. Bu hüquq fəhlələrin, qulluqçuların və kolxozçuların sosial sığortalanması ilə, yaşa görə, əlilliyə görə, habelə himayədarı itirdikdə və digər ödəniş və güzəştlərlə dövlət və kolxozlar hesabına təmin olunur.

Ölkəmizdə ictimai istehlak fondundan sosial təminat və sosial sığorta üçün ayrılan xərclər ildən-ilə artır. Məsələn, əgər 1940-cı ildə həmin məqsəd üçün cəmi 0,9 milyard manat, o cümlədən pensiya üçün 0,3 milyard manat və yardım üçün 0,5 milyard manat ayrılmışdısa, müvafiq olaraq 1965-ci ildə 14,4 milyard, o cümlədən 10,6 və 3,5 milyard manat, 1978-ci ildə 40,3 milyard, o cümlədən 28,9 və 10,2 milyard manat olmuşdur.

SSRİ-də iki uşağı olan ana üçüncü uşaq və hər sonrakı uşaq üçün dövlətdən biryolluq yardım, üç uşağı olan ana dördüncü uşaq üçün və hər sonrakı uşaq üçün isə aylıq yardım alır. Bu cür aylıq yardım alan çoxuşaqlı analar 1978-ci ildə 2.331 min nəfər olmuşdur.

Çoxuşaqlı ailələrə sovet dövlətinin göstərdiyi köməklik müxtəlifdir. Belə ailələr bir çox halda geniş və yaraşıqlı

---

[1] «      », 3          1980.

mənzillə təmin olunur. Hətta kənd yerlərində xüsusi layihələrlə evlər də tikilir. Məsələn Lənkəran rayonundakı Separadi kəndində yaşayan Əhmədovlar ailəsi üçün dövlətin hesabına iki mərtəbəli ev tikilmişdir. Əhmədovlar ailəsində 17 uşaq vardır. Ailənin başçısı Zülfüqar Əhmədovun zarafatla dediyi kimi, ailəni uşaq bağçasına da, məktəbə də, sovxoz manqasına da oxşatmaq olar. Ən kiçik uşaq 1979-cu ildə anadan olmuşdur. 43 yaşlı qəhrəman ana – Zərifə Əhmədova 3 qızı ilə birlikdə çay plantasiyasında çalışır.

Ölkəmizdə pensiya alanların sayı daha artır. Belə şəxslərin sayı 1941-ci ilin əvvəlindəki 4 milyondan, 1966-cı ildə 32 milyona, 1979-cu ildə isə 47, 6 milyona qalxmışdır.

Onu da qeyd etmək lazımdır ki, SSRİ-də pensiya təminatı zəhmətkeşlərin gəlirinə toxunmadan dövlətin və kolxozun hesabına ödənilir. Hazırda qocalığa görə pensiya yaşı fəhlə, qulluqçu və kalxozçu kişilər üçün 60, qadınlar üçün 55 yaş müəyyənləşdirilmişdir. Yeraltı işlərdə, isti sexlərdə, habelə ağır iş şəraiti olan başqa yerlərdə məşğul olan fəhlə və qulluqçular pensiyanı 5-10 il əvvəl alırlar. Pensiya yaşının aşağı salınması əhalinin başqa qruplarına da şamil edilir.

Kapitalist ölkələrinin əksəriyyətində qocalığa görə pensiya yaşı SSRİ-dən yüksəkdir. Məsələn, ABŞ-da, AFR-də, İsveçdə kişilər və qadınlar üçün normal pensiya almaqdan ötrü 62-65 yaş, Norveçdə hətta 67 yaş müəyyən edilmişdir. Bununla yanaşı kapitalist ölkələrində qocalığa görə pensiya almaq üçün zəhmətkeşlərin əmək haqlarından sığorta ödənişi şəklində xeyli məbləğdə pul çıxılır.

Əməyin mühafizəsini yaxşılaşdırmaq sosial təminat sistemində vacib tədbir hesab edilir. Onuncu beşillikdə əməyin mühafizəsi tədbirlərinə çəkilən xərclər hər il 2 milyard manatdan artıq olmuşdur. Bundan əlavə, xüsusi geyim, ayaqqabı və fərdi mühafizənin digər vasitələri üçün dövlət hər il bir milyard yarım manatdan artıq vəsait ayırır Bütün bunların nəticəsində 1870-ci ilə nisbətən 1979-cu ildə istehsalat travmatizmi maddi istehsal sahəsində 29 faiz azalmışdır.[1]

---

[1] «      », 3      1980.

Pensiya yaşında adamların iş qabliyyətini saxlamaq üçün SSRİ-də hər cür şərait yaradılmışdır. Məsələn, Bakı şəhərindəki «Sağlamlıq zonasın» minlərlə pensiya yaşında olan adamlar həkim müşahidəsi altında öz sağlamlığını möhkəmləndirir. Yaxud, Tacikistan SSR-in mərkəzi olan Düşənbə şəhərində pensiya yaşlı adamlar üçün xüsusi mərkəz yaradılmışdır. Belə şəxslər burada müntəzəm olaraq həkim müayinəsindən keçir, yeməklə, rejimlə və əməklə əlaqədar ixtisaslı məsləhətlər alırlar. Ömrün uzadılmasına xidmət edən bu cür tədbirlər pensiya yaşında işləyən şəxslərin sayının xeyli çoxalmasına səbəb olmuşdur.

Şəhərlərin, qəsəbə və kəndlərin abadlaşdırılması, yeni-yeni parkların və bulvarların salınması, yaşıllığın daha da genişləndirilməsi sovet adamlarının ömrünü uzadan amillərdir. Ətraf mühitin o cümlədən, təbii mühitin şəxsiyyətə təsirini nəzərə alan sovet dövləti mühitin saflaşdırılmasına böyük qüvvə və vəsait sərf edir. SSRİ-də yer və onun təki, su ehtiyatları, bitkilər və heyvanlar aləmi mühafizə olunur; bunlardan elmi əsaslarda, səmərəli istifadə olunması qayğısına qalınır; havanın və suyun saflığı qorunur; təbii sərvətlərin bərpasının təmin olunmasına səy göstərilir; insanı əhatə edən mühitin yaxşılaşdırılması üçün tələb olunan başqa tədbirlər də görülür. Bunlar nəinki hazırki nəslin sağlamlığına xidmət edir, habelə gələcək nəsillərin xeyrinədir, gümrah və xoşbəxt böyüməsi xeyrinədir.

Göründüyü kimi, sosializm cəmiyyəti sovet adamlarına mənəvi, fiziki, estetik və s. qabliyyətlərini hərtərəfli inkişaf etdirmək üçün zəruri olan əmək, istirahət, mənzil, sağlamlıq, təhsil və s. hüquqlar vermişdir. Bu hüquqlar SSRİ Konstitusiyasında nəinki qanuniləşdirilmişdir; həmin hüquqlardan sovet adamlarının tam istifadə etməsi üçün dövlətimiz lazım olan bütün sosial, iqtisadi, siyasi və mədəni imkanları yaradır və daha da inkişaf etdirir. İstismarın, işsizliyin, yoxsulluğun, cinsə görə fərqin, milliyyətə, irqə, sosial mənşəyə görə fərqin, fiziki və zehni fərqin aradan qaldırılması, maddi istehsalata sərf olunan vaxtın azalması, müxtəlif formalı sosial təminat sosializm şəraitində

şəxsiyyətin hərtərəfli inkişafına imkan verən ciddi ictimai mühit amilləri sırasındadır. Marksizm klassiklərinin vaxtilə arzu etdikləri idealın-hərtərəfli inkişaf etdirilməli olan qabliyyətlərin hərtərəfli tətbiqi üçün ölkəmizdə geniş şərait yaradılır. SSRİ-nin nümunəsində görmək çətin deyildir ki, sosializm cəmiyyəti xalq kütlələrinin qabiliyyət və bacarıqlarını üzə çıxartmağa və inkişaf etdirməyə, bu qabliyyət və bacarıqları vahid axında birləşdirməyə, kommunizm quruculuğunda tətbiq etməyə imkan verir. Belə bir imkan olmadan, yəni sosializm olmadan adamların qabliyyətlərini hərtərəfli inkişaf etdirmək, şəxsiyyətlərini müvəffəqiyyətlə tərbiyə etmək mümkün deyildir. İndi sovet adamlarının ümumtəhsil hazırlığı, mədəni səviyyəsinin yüksəldilməsi, ixtisas biliyinin artırılması və fiziki cəhətdən kamilləşməsi nəinki onların özləri üçün faydalıdır, bütün bunlar sovet adamlarının əmək fəaliyyətinin müvəffəqiyyətli olmasının vasitələrindən birinə, sovet dövlətini gücləndirmək vasitəsinə çevrilmişdir. Bilikli, qabliyyətli, mədəni adamlar, yaradıcı düşünən və müstəqil fəaliyyət göstərən adamlar çoxaldıqca sovet dövlətinin qüdrəti də artır. V.İ.Lenin öyrədirdi ki, dövlət əhalinin şüurluluğu ilə möhkəm olur. Göründüyü işin ictimai mənasını, onun cəmiyyət üçün əhəmiyyətini aydın başa düşmək adamın yaradıb qorumaq əzmini artırır.

Bilikli, bacarıqlı, qabliyyətli olmağın başlıca yollarından biri isə tərbiyədir, məktəbdir.

# IV FƏSİL. ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏRBİYƏNİN ROLUNA DAİR

## 1. MÜASİR TƏRBİYƏNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Tərbiyənin məqsədi.*** Savadlı, bilikli olmağın başlıca yolu, kommunist tərbiyəsinin əsas vasitəsi məktəbdir, təhsil ocağıdır. Sosializmin üstünlüklərindən biri məhz təhsil sistemi ilə bağlıdır. Hamılıqla orta təhsilə keçilməsi bütün sovet adamlarının təbiətin və cəmiyyətin inkişaf qanunlarından baş çıxarmasına, xalqın keçmişini və gələcəyini aydın təsəvvür etməyə, gördüyü işin elmi əsaslarını dərindən bilməsinə geniş imkan vermişdir.

Sovet məktəbində uşaqlar nəinki faydalı bilik və bacarıqlar qazanır, həm də bu bilik və bacarıqlar vasitəsilə inkişaf edirlər: onların psixi funksiyaları və xarakterləri formalaşır. Komsomolun III qurultayında V.İ.Lenin irəli sürdüyü fikrə uyğun olaraq sovet məktəbi təhsilin istehsalatla, elmi biliklərin həyatla, kommunizm uğrunda mübarizə ilə əlaqələndirilməsinə çalışır. Çünki məhz belə bir əlaqə biliyin əqidəyə adamı hərəkətə gətirən qüvvəyə çevrilməsinə kömək edir. Böyük Lenin öyrədirdi ki, kommunizmi o vaxt müvəffəqiyyətlə qurmaq olar ki, öz şüurunuzu faydalı elmi biliklərlə zənginləşdirəsiniz.

Təbiətin inkişaf qanunları ilə yanaşı cəmiyyətin də inkişaf qanunları olduğunu uşaqlara başa salınkommunizm quruculuğu təcrübəsinin həmin qanunlardan bacarıqla istifadə etmək prosesi olduğunu onlara öyrədən ümumtəhsil və texniki peşə məktəblərinə sadəcə tədris müəssisələri kimi baxmaq olmaz, çünki sosializm cəmiyyəti inkişafının yekunu olan müasir sovet məktəbi ölkəmizin sonrakı inkişafının, bir növ, başlanğıcına, sosialist həyat tərzinin daha da təkmilləşdirilməsi üçün vacib şərtlərdən birinə çevrilmişdir. Bu fikir ümumtəhsil və texniki peşə təhsili məktəbləri haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarlarında, o cümlədən «Texniki-peşə təhsili sistemində şagird-

lərin təlim və tərbiyəsi prosesini daha da təkmilləşdirilmək haqqında» 11 sentyabr 1977-ci il tarixli qərarında aydın ifadə edilmişdir. Qərarda deyilir ki, texniki peşə təhsili sistemi hərtərəfli biliyə, möhkəm ixtisas bacarıqlarına, geniş siyasi görüş dairəsinə malik olan gənclərin əsil kommunist tərbiyəsi və əmək ustalığı məktəbinə çevrilməlidir.

Maarif sahəsində sosializmin xalqa bəxş etdiyi nemətlərdən biri də cəmiyyət üzvləri haqqında dövlət qayğısının məqsədi ilə, məktəbdə və ailədə gənc nəslin kommunist tərbiyəsi qarşısında qoyulan məqsədlərin üst-üstə düşməsidir.

Şəxsiyyətin hərtərəfli inkişafını təmin etmək sovet dövlətinin ən başlıca məqsədidir. Sov.İKP XXV qurultayı materiallarında deyildiyi kimi, şəxsiyyətin hərtərəfli inkişafını təmin etməyin mümkünlüyü SSRİ-də çoxdan real həyat faktına çevrilmişdir. Buna görə də həmin həyat faktı SSRİ Konstitusiyasının 20-ci maddəsində yazılmışdır: «...dövlət öz qarşısına vətəndaşların yaradıcı qüvvə, qabliyyət və istedadlarını tətbiq etmələri üçün, şəxsiyyətin hərtərəfli inkişafı üçün real imkanları genişləndirmək məqsədini qoyur».

Orta ümumtəhsil məktəbi qarşısında duran başlıca məqsəd-şagird şəxsiyyətinin hərtərəfli inkişafını təmin etmək vətəndaşların şəxsiyyəti haqqında dövlətin məqsədinə tam uyğundur. Ümumtəhsil məktəbləri öz nizamnaməsinə uyğun olaraq hər bir şagirdin geniş bilikli, saf əxlaqlı, yüksək estetik zövqlü, sağlam, marksizm-leninizm dünyagörüşlü, fəal həyat mövqeli əməksevər vətəndaş kimi böyüməsinə çalışır.

Sovet ailəsində valideynlər də öz övladlarını ölkəmizin layiqli vətəndaşları kimi, yəni əməyi sevən və əmək adamlarına hörmət edən, bilikli, kommunizm ideallarına sadiq, fiziki cəhətdən möhkəm, təbiətin və cəmiyyətin gözəlliklərindən zövq almağı, eybəcərliklərə qarşı barışmaz olmağı bacaran, xalqını, vətənini sevən bir vətəndaş kimi görmək istəyirlər

Bu bir həqiqətdir ki, heç bir sosial-iqtisadi quruluşda SSRİ istisna olmaqla, dövlətin, məktəbin və ailənin şəxsiyyətlə əlaqədar məqsədləri bir-birinə tam uyğun gəlməmişdir. Belə bir

uyğunluq yalnız sovet cəmiyyətinə xas olduğundan, bu, cəmiyyətdə tərbiyə işinin xeyli yüngülləşməsi səbəblərindən biri olur. Belə zəmində hər bir şagird hələ orta məktəbdə belə bir nəticəyə gəlir ki, yalnız dolanmaq üçün, yüksək maaş almaq üçün, valideynlərinin borcunu ödəmək üçün deyil, xalqın rəğbətini qazanmaq, xalqa xidmət etmək üçün, faydalı olduğunu isbat etmək üçün oxumaq və işləmək lazımdır. Şagirdlərdə belə bir şüuru formalaşdıran, onları həyata, əməyə hazırlaya bilən məktəb öz vəzifəsini yerinə yetirmiş olur. Məktəbin fəaliyyətini, məktəbdə təlim-tərbiyənin nə dərəcədə səmərəli olduğunu qiymətləndirən zaman həmin tələb nəzərə alınmalıdır. Sovet İttifaqında Maarif işinin ən köklü sahələrindən başlıcası olan məktəb işinə qiymət verməyin əsas meyarı haqqında danışarkən Azərbaycan müəllimlərinin VI qurultayında haqlı olaraq deyilmişdir: «Çox uzun müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə, əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır... Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı-bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi, bax, bu meyarla müəyyən edilir».[1]

Göründüyü kimi, sovet məktəbini, onun tərbiyə işini səciyyələndirən cəhətlərdən biri də budur ki, sovet məktəbi, oradakı tərbiyə işi həyatla, istehsalatla bağlıdır; o, həyata, istehsalata xidmət edir. Kommunist tərbiyəsi ölkəmizdə kommunizm quruculuğu ilə əlaqədə inkişaf edir. İdeoloji işçilərin ümumittifaq müşavirəsində deyildiyi kimi, yeni insanın formalaşdırılması bütün təsərrüfat problemləri, sosial və siyasi problem kompleksi ilə ən sıx şəkildə bağlıdır. Bu qanunauyğunluq sovet məktəbinin bütün inkişaf mərhələlərində özünü göstərmişdir. Həmin qanunauyğunluq sovet məktəbi inkişafının son mərhələsində daha qabarıq şəkildə müşahidə olunur. Müasir dövrdə elmi-texniki tərəqqi ictimai həyatımızın bütün sahələrinə, o cümlədən maarif sahəsinə də bir sıra yeni tələblər vermişdir. Bütün sovet

---

[1] Azərbaycan SSR müəllimlərinin VI qurultayı, «Maarif», 1980, səh. 32.

adamlarının, habelə müəllimlərimizin ürəyindən olan bu cür tələblərdən biri Sov.İKP XXV qurultayına hesabat məruzəsində belə ifadə edilmişdir: «İnsana lazım olan biliklərin həcm etibarı ilə kəskin şəkildə və sürətlə artdığı indiki şəraitdə başlıca məqsəd müəyyən qədər faktları mənimsəməkdən ibarət ola bilməz. Öz biliklərini müstəqil surətdə artırmaq, elmi və siyasi informasiyanın sürətli axınından baş açmaq bacarığı aşılamaq vacibdir».[1] Həmin tələbə uyğun olaraq Sov.İKP XXV qurultayından keçən dövr ərzində təlim və tərbiyənin həm məzmun, həm də üsulları əhəmiyyətli şəkildə təkmilləşdirilmiş və Sov.İKP XXVI qurultayının tələbləri əsasında yenə də təkmilləşdirilir.

***Tərbiyənin sinfiliyi.*** Yuxarıda isbat edildiyi kimi tərbiyə zamanı, şəxsiyyətin formalaşdırılması zamanı sosial vəziyyətin, sinfi mənsubiyyətin nəzərə alınması yalnız sovet məktəbinə xasdır. Belə bir cəhət kapitalist ölkələrinin maarif sistemində, məktəblərində özünü qətiyyən göstərmir. Məlum olduğu kimi, kapitalizmin başlıca məqsədi mümkün qədər çox gəlir əldə etməyə çalışmaqdır. Buna görə də kapitalist ölkələrində mürtəce pedaqogika və məktəb kapitalizmin həmin başlıca məqsədinə tabe etdirilir. Məktəblərdən, müəllimlərdən tələb edilir ki, gələcəyin fəhlələri olan hazırkı şagirdlərdə inqilabi əhval-ruhiyyəyə nifrət oyatsınlar, onları kapitalizm münasibətlərini təbii münasibətlər kimi qəbul etsinlər. İri inhisarçıların fikrincə, əmək məhsuldarlığı fəhlələrin bir-birinə, müəssisə sahiblərinə münasibətlərinin xarakterindən asılıdır. Buna görə də onlar təklif edirlər ki, məktəbdə şagirdləri-gələcək fəhlələri adamlarla yola getməyə, sahibkarlarla sülh şəraitində dolanmağa alışdırsınlar.

Kapitalizm mühitinin bu sifarişi, məsələn ABŞ məktəblərində təlimin məzmunundan tutmuş üsullarına qədər, sinifdənkənar tərbiyədən tutmuş məktəbdənkənar tərbiyəyə qədər sirayət etmişdir. ABŞ-ın orta məktəblərində, xüsusən yuxarı siniflərdə «Başqaları ilə işləmək bacarığı nədən ibarətdir?», «Başqaları ilə işdə yola getmək nə deməkdir», «Müəssisəyə

---

[1] Sov.İKP XXV qurultayının materialları, Azərnəşr, Bakı,1976, səh. 84

uyğunlaşan fəhləni necə təsəvvür edirsən?», «İşçi qrupunun layiqli üzvü olmaq nə deməkdir?», «Nüfuza necə layiq olmaq mümkündür» kimi məsələlər geniş müzakirə edilir. Müzakirə, mübahisə, sosioloji dram, qrup halında çıxışlar, özünə qiymət kimi tərbiyə vasitələri və üsulları ABŞ məktəblərində kütləvi hala çevrilmişdir. Belə üsul və vasitələrin köməyi ilə burjua məktəblərində müəllimlər çalışırlar ki, fabrik və zavodlarda kapitalistlərlə fəhlələr arasında baş verəcək sinfi toqquşmaları sülh yolu ilə, danışıq yolu ilə həll etməyin mümkün olduğunu şagirdlərə öyrətsinlər. ABŞ orta məktəb direktorları milli birləşməsinin bülletenində «Səmərəli kommunikasiya və yaxşı kommunikasiya» adlı məqalədə X.Bola adlı pedaqoq isbat etməyə çalışmışdır ki, adamlar ünsiyyətlərini səhmana sala bilsələr, bir-biri arasında, irqlər arasında münaqişələri həll edərlər.

Müasir Amerika pedaqoqlarının fikrincə, əməkdaşlıq, insanpərvər münasibətlər adamlardan xeyirxahlıq, məhəbbət, qayğıkeşlik, dostluq, həssaslıq kimi keyfiyyətlərə malik olmağı tələb edir. Həmin pedaqoqlar unudurlar ki, kapitalizm mühitində əməkdaşlıq, dostluq kapitalistlərlə fəhlələrin, istismarçılarla istismar olunanların dostluğunu və əməkdaşlığını nəzərdə tutur. Antaqonist siniflərin nümayəndələri arasında dostluq isə mümkün deyildir.

Göründüyü kimi, burjua məktəbi qarşısında qarşısında qoyulmuş tərbiyə məqsədləri isə kommunizmin mənafeyinə, sovet xalqının mənafeyinə xidmət edir. Buna görə də sinifli cəmiyyətdə məktəb, təlim və tərbiyə tamamilə sinfi xarakter daşıyır.

Kapitalist ölkələrində meydana çıxan ən yeni məktəb tipləri də bu qaydadan kənarda qalmır. Sosialist ölkələrindəki maarif nümunələrinə istinad edən kapitalist ölkələrinin zəhmətkeşləri hakimiyyət orqanlarını maarifdə islahat aparmağa vadar edirlər. Zəhmətkeşlərin təzyiqinə məruz qalan bəzi burjua ölkələrinin, məsələ, AFR, İsveçrə, Danimarka və İngiltərənin hakimiyyət orqanları bütün şagirdlər üçün «ümumi» olan «birləşmiş məktəblər» təşkil etmişlər. Çoxmərtəbəli və müxtəlif tipli diferensial təhsildən fərqli

olaraq «birləşmiş məktəblərdə» burjua cəmiyyətinin bütün təbəqələrinə aid olan valideynlərin uşaqları oxuya bilərlər. Deməliyik ki, bəzi fənlər, məsələn, dini, fiziki və bədii hazırlıq bu cür məktəbin bütün şagirdləri üçün eyni dərəcədə zəruri hesab edilir. Lakin eyni sinifdə oxuyan və həmin fənləri zəruri şəkildə öyrənən şagirdlər digər fənlər üzrə «qabiliyyətləri» və meyllərinə görə qruplara bölünür və müxtəlif səviyyəli, müxtəlif məzmunlu proqramla təhsil almalı olurlar. Uşaqlar «birləşmiş məktəblərin» eyni siniflərində qruplara ayrıldıqlarından eyni məktəbi müxtəlif bilik səviyyəisi ilə başa vururlar. Buna görə də «qabiliyyətlilər» və «qabiliyyətsizlər» başqa-başqa həyat yoluna qədəm qoymalı olurlar.

Göründüyü kimi, tərbiyənin sinfiliyi məktəbin qarşısında qoyulmuş məqsəd və vəzifələrdə, təlimin məzmununda, təşkili formaları və üsullarında özünü daha aydın büruzə verir.

***Tərbiyənin mühitlə əlaqəsi.*** Həyat faktları göstərir ki, ən qabaqcıl məqsədə xidmət edən məktəb, ən mütərəqqi məzmuna malik olan təlim şəxsiyyətin müvəffəqiyyətlə formalaşması üçün zəruri olsa da kifayət deyildir. Çünki qarşısında ən yüksək bəşəri vəzifələr duran məktəb, ən mütərəqqi məzmuna malik olan təlim şagird şəxsiyyətində lazım olan müsbət keyfiyyətləri avtomatik şəkildə formalaşdırmır. Belə məqsədə və belə məzmuna malik olan təlim şəraitində oxuyan şagirdlərdən bəzilərinin xarakterində bir sıra qüsurlar müşahidə edilir. Bu cür nöqsanları isə, əlbəttə, yalnız tərbiyə işində yol verilmiş nöqsanlarla izah etməyə səy göstərmək düzgün olmazdı; mühitin təşkilində yol verilən bəzi nöqsanlar da burada nəzərə alınmalıdır. İki misal gətirək. Bunlardan biri şagird biliyinə verilən qiymətlə əlaqədardır. Ailə mühitində olduğu kimi, məktəb mühitində keçirilən hər bir tədbir şagirdlərin xarakterinə təəssüf ki, bəzən mənfi təsir göstərir. Məlumdur ki, məsələn, tədris materialını bilməyən şagirdə müəllim dərsdə adətən «2» qiymət yazır. Lakin ümumi şəkildə düzgün olan bu məntiq bəzi konkret halda nəinki özünü doğrultmur, hətta mənfi

nəticələrə də gətirib çıxara bilir. Çünki ev tapşırığını icra edə bilməməyin və ya icra etməməyin müxtəlif üzürlü səbəbləri ola bilir. Səbəblər araşdırılmadan müvəffəqiyyətsizliyə görə «2» ilə cəzalandırılan və evdə danlanan şagird bəzi müəllimlərin və səbrsiz valideynlərin ədalətsizliyindən, danlaqlarından, məzəmmətlərindən yaxa qurtarmaq üçün bəhanələr axtarmağa, yalan danışmağa meyl göstərməyə başlayır. Bu cür şağirdlərdən bəziləri hər hansı cəza almamaq üçün yaxşı oxuyacağına, ev tapşırığını vaxtında icra edəcəyinə söz verir, lakin sözünü yerinə yetirə, vədinə əməl edə bilmir. Yalançılıq əlaməti baş qaldıra bilir.

Sonra isə müəllimlər və valideynlər bir-birini günahkar edərək təəccüblə soruşurlar: verdiyi sözə əməl etməmək, yalan danışmaq kimi zərərli keyfiyyətlər uşaqda əvvəllər yox idi, görəsən necə yaranıbdır?

Halbuki tədris materialını materialını şagirdin bilməməsinin və ya tapşırığı yerinə yetirməməsinin səbəbi öyrənildikdə məlum olur ki, burada valideynlərin də, müəllimlərin də günahı ola bilir. Bir çox halda uşağın tapşırıqları vaxtında səviyyədə yerinə yetirməsi üçün ailədə zəruri olan şərait yaradılmır, onun üzərində düzgün nəzarət təmin olunmur. Yaxud təlim zamanı şagirdin fərdi xüsusiyyətləri gündəlik olaraq nəzərə alınmır. Belə hallarda «2»-ni uşağın özünə deyil, onun üzərində pedaqoji rəhbərliyə vermək lazım gəlir. Odur ki, uşaqla əlaqədar görülən hər bir tədbir, o cümlədən uşağın biliyinə verilən qiymət hər bir konkret halda pedaqoji cəhətdən ətraflı ölçülüb biçilməli, uşaq psixologiyasına onun necə təsir edə biləcəyini əvvəlcədən müəyyənləşdirməlidir.

Müşahidələr göstərir ki, sözün deyilmiş tərzindən asılı olaraq adamlarda, o cümlədən şagirdlərdə əmələ gələn təəssürat müxtəlif ola bilir. Ən vacibi qəlbə toxunmayan ifadə tərzi tapmaqdan ibarətdir. Bu fikir təkcə maarifə, müəllimlərə aid deyildir; adamlarla işin bütün sahələrinə: partiya, sovet və təsərrüfat işinə və onun bilavasitə dəxli vardır. Yadda saxlamaq faydalı olur ki, kiminləsə, hətta prinsipial məsələdə düz gəlmirsənsə, heç kəsi alçaltmayasan.

Məsələn, demək olar: «Boş-boşuna çərənləyirsiniz!». Əlbəttə,belə ifadə qəlbə toxunar.

Əgər adam səmimi danışarsa, belə də demək mümkündür: «Məsləhətinizə görə çox sağ olun, fikirləşərik. Bəlkə də belə edək?» Deməli, emosiyaları boğmaq gərəkdir, partiyanın irəli çəkdiyi vəzifədə işlərkən götür-qoy etməmiş söz deməyə ixtiyarın yoxdur.

İkincisi hədiyyə ilə əlaqədardır. Uşaq bağçasında tərbiyəçiyə və ya bağça müdirinə, məktəbdə müəllimə və ya direktora hədiyyə vermək halları, təəssüf ki, çox ləng azalır. Vəzifə borcunu yerinə yetirən tərbiyəçiyə və ya müəllimə hədiyyə vermək halları nəinki hədiyyəni təqdim edən valideynin və hədiyyəni alan tərbiyəçinin (müəllimin) mənəviyyatını korlayır; bu hal uşaqların şüurunda da əks səda verir. Münasibətlərin ətir, baş yaylığı, parça və s. əşyalar vasitəsilə nizama salındığını görən uşağın həmin münasibətlərin sabah pul vasitəsi ilə həll edilməsinin mümkün olduğu fikrinə gəlməyəcəyinə kim zəmanət verə bilər? Heç kim! Hansı formada olursa-olsun hədiyyə verən valideyn və hədiyyə alan müəllim (tərbiyəçi) uşağa pis nümunə verdiklərini unutmamalıdır. Unutmamalıdır ki, onların hər ikisi uşaqların düzgün tərbiyə olunmasına cavabdehdir.

Uşaqların ailə tərbiyəsində də, məktəb tərbiyəsində də kiçik şey yoxdur, nəzərə alınması vacib olmayan kiçik cəhət yoxdur. Valideynlərin bəzən məna vermədikləri kiçicik cəhətlər belə uşaqların şəxsiyyətinə pis təsir göstərə bilir. Uşaqla hesablaşmayan, onun mənəvi aləminə nüfuz etməyən, fikirlərini nəzərə almayan valideynlərdən övladları tədricən uzaqlaşır; uşaqla hesablaşan, uşaqların fikir və hisslərini nəzərə alan, ailənin həyatına uşağı cəlb edən valideynlər övladlarını maqnit kimi özlərinə cəlb edirlər. Sonuncu ailələrdə uşaq özünü necə də xoşbəxt hesab etməsin?! Buna bircə misal gətirək. Cəlilabadda Əhməd Əzizovlar ailəsi vardır. Əhməd Əzizov uzun illər sovxozda fəhlə işləyib. Sonralar pensiyaya çıxmışdır. O, ailə ansamblı yaratmışdır. Özü yaxşı balaban çalır. Oğlanlarından

Nəhmət qazanxana işçisi, Muxtar fəhlə, Məmmədəli çilingər, Əzizağa şagirddir. Onlar qoşa nağara, klarnet çalmağı bacarırlar. Nəvələri Əsgər, Zəminə, Zülfiyyə ailə ansamblna müğənnisidirlər. Onların repertuarında Vətən və partiya haqqında mahnılar, el nəğmələri əsas yer tutur. Ansablın üzvləri tez-tez müxtəlif təntənələrə dəvət olunurlar. Bu xoşbəxt fəhlə ailəsini rayonda hamı yaxşı tanıyır.[1] Keçirilən tədbirlərdə bəzi ailə üzvlərinin iştirakı böyük tərbiyəvi əhəmiyyətə malik olur. Valideynlərə aid olan yığıncaqlara uşaqların, uşaqlarla bağlı olan tədbirlərə valideynlərin dəvət olunması həm valideynlər üçün, həm də uşaqlar üçün böyük səmərə verir. Valideynlər məktəbdə uşaqların təlim fəaliyyətindən uşaqlar isə validleylərin iş yerindən və işindən xəbərdar olurlar. Bu cür tədbirlərin əhəmiyyət-li olduğunu və iştirakçıların psixikasına güclü təsir göstərdiyini başa düşmək çətin deyildir. Yığıncağa dəvət olunan ailə üzvləri – övlad, an vəya ata qayğısından sonra eşitdiklərini evdə müzakirə edir, öz münasibətini göstərir. Bəzən hətta mitinqin özündə kiminsə arvadı ərindən soruşa bilər:

-Bu nədir, başqalarını tərifləyirlər; sənin barəndə heç nə demirlər?

Yaxud uşaq sual verir:

-Ata, nə üçün filan əmiyə əl çalırlar, amma sənə yox?

Bu, əsl canlı, kütləvi işdir və onun çox böyük səmərəsi olur. İnsana ancaq maddi stimulların lazım olduğunu zənn etmək böyük səhvdir. Yox, sovet adamlarına çox şey gərəkdir-böyük işin iştirakçısı olduğunu dərk etmək, əməkdə özünü göstərməyə çalışmaq, öz ustalığı ilə fəxr etmək, yoldaşlarının hörməti, şərəf-şan.

Tərbiyədə ictimai rəyin nəzərə alınması. Tərbiyə işində ictimai rəyin öyrənilməsi və nəzərə alınmasının faydalı olduğunu unutmaq olmaz. Bu cəhət tərbiyənin bütün sahələrində və mərhələlərində: həm gənc nəslin, həm də yaşlıların tərbiyəsində özünü göstərir. Görülən tədbirlərin

---

[1] Kommunist qəzeti, 8 aprel 1980

ayrı-ayrı şəxsə və ya kollektivə aid olub-olmadığından asılı olmayaraq, tədbirlə əlaqədar ictimai rəyin nəzərə alınması çıxarılan qərarın daha obyektiv olmasına, onun tərbiyəvi təsir gücünün artmasına kömək edir. Çünki belə halda çıxarılan qərar, görülən tədbir bir nəfərin deyil, kollektivin, ictimaiyyətin qərarı, kollektivin tədbiri kimi başa düşülür. Təbiidir ki, belə qərarın və tədbirin həyata keçirilməsində kollektiv daha böyük səy göstərir.

Kollektivin, ictimaiyyətin rəyi nəzərə alınmadan görülən tədbirin, çıxarılan qərarın həyata keçirilməsi çətinləşir və bəzən qeyri mümkün olur. Belə tədbirin, belə qərarın tərbiyəvi təsiri azalır və əksər halda adamların psixologiyasına, onların şəxsiyyətə pis təsir göstərir, tərbiyə işini xeyli çətinləşdirir. Bu fikrin həqiqət olduğunu həyat faktları hər dəfə yeni qüvvə ilə təsdiq edir. İctimai rəyə etinasızlıq göstərən, özlərini qeyri təvazökar aparan, hər cür əliəyri adamlara havadarlıq edən, qeyri-səmimilik göstərən şəxslər, adamların tərbiyəsinə böyük ziyan vururlar.

***Qarşıdakı işin mənasının başa düşülməsi.*** Görüləcək işin mahiyyətini başa düşmək, onun kollektiv üçün, xalq üçün əhəmiyyətini dərk etmək uşaqlara vacib olduğu qədər yaşlılara da lazımdır. Məktəbdə yaxşı oxumağın, təlimdə maksimum səy göstərməyin, işgüzar olmağın mənasını aydın təsəvvür edən şagirdin fəaliyyəti daha çox səmərə verir, şəxsiyyətində faydalı keyfiyyətlərin formalaşması sürətlənir. Şagird şəxsiyyətinin formalaşmasında özünü göstərən bu qanunauyğunluq müəyyən formada yaşlıların fəaliyyətində də sezilir. Digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də son illərdə quruculuğun bütün sahələrində qazanılan misilsiz nailiyyətlərin səbəblərindən birisi budur ki, respublika partiya təşkilatının ardıcıl, dönmədən həyata keçirdiyi tədbirlər sayəsində zəhmətkeşlərin böyük əksəriyyəti gördüyü işin xalq üçün, indiki dövr üçün, gələcək dövr üçün əhəmiyyətini dərk etmişdir. Bu cəhətdən ölkəmizdə kommunizm quruculuğunun bütün sahələrindən faktlar gətirmək olar. Faktlardan biri belədir.

Sement, şübhəsiz lazımdır. Sementsiz beton hazırlamaq mümkün deyildir. Lakin bəndə beton döşəyən adamın nə üçün

bu betonun iyirmi dərəcə şaxtada qırx metr yüksəklikdə döşəməli və bərkidilməli olduğunu dərk etməsi daha vacibdir. Məlumdur ki, müharibə zamanı hitlerçilərin texnikası və döyüş üçün lazım olan bütün vəsaitləri çox idi. Buna baxmayaraq biz qalib gəldik, çünkü sovet əsgərləri atəş və ölüm saçan düşmən mövqelərinə nəyin naminə hücuma keçdiyimizi dərindən dərk edirdilər. Məhz buna görə partiya təşkilatları özlərinin fəaliyyətində insan tərbiyə etmək vəziyfəsini ön plana çəkirlər. Belə olduqda, məsələn, sement də, bütün başqa şeylər də tez tapılır və işlərimiz daha sürətlə gedir.

***Müsbət keyfiyyətlərə istinad edilməsi.*** Adamların tərbiyəsində nəzərə alınmalı tələblərdən biri də şəxsiyyətdəki müsbət keyfiyyətlərin üzə çıxarılması və nəzərə alınmasıdır. Müsbət keyfiyyətləri tərbiyə işində nəzərə almağın faydalı olduğunu bir sıra görməkli pedaqoqlar, xüsusən A.S.Makarenko əsaslandırmışlar. Onlar haqlı olaraq sübut etməyə çalışmışlar ki, şəxsiyyətdə yalnız nöqsanı görmək hər dəfə nöqsanı nəzərə çarpdırmaq tərbiyə olunan şəxsin işində lazımi səmərə vermir, çünki belə hallarda tərbiyə olunan şəxslə tərbiyəçi arasında mənəvi uçurum yaranır, birinci ikincidən uzaqlaşmağa, onun gözünə görünməməyə çalışır. Nöqsanlarını tez-tez eşidən şəxs həmin nöqsana alışa bilir. Belə adamda özünə inam azalır, nöqsanları aradan qaldırmaq üçün səy göstərmir.

Xoşbəxtlikdən başdan-başa nöqsanlı xarakterə malik olan adamlar indi az tapılır. Adamlara diqqətlə, qayğı ilə yanaşıldıqda yəqin etmək çətin olmur ki, nöqsanı olan7 şəxsin xarakterində hansısa yaxşı cəhətlər də vardır. Bu cür yaxşı cəhətləri tapıb üzə çıxartdıqda, onlara istinad etdikdə xarakterdəki nöqsanı aradan qaldırmaq işi xeyli asanlaşır. Çünkü nöqsanlı xarakterin sahibi ətrafdakı adamların ədalətli olduğunu, qayğıkeş olduğunu, pislə yanaşı yaxşını da qeyd etdiyini görür, öz qüvvəsinə inam yaranır, nəticədə nöqsanı aradan qaldırmağa çalışır.

Tərbiyə işində müsbət xüsusiyyətlərə istinad edərək nöqsanları aradan qaldırmağın faydalı olduğunu həm tədris müəssisələrində, həm istehsalat və idarələrdə özünü doğruldur.

Tərbiyə işində şəxsin müsbət keyfiyyətlərinə istinad etməyin şərtləri çoxdur. Bu cür vacib şərtlərdən biri belə ifadə edilə bilər. Əgər insan işi bilirsə, işə sadiqdirsə, ümumi mənafe üçün çalışırsa ona kömək göstərilməlidir. Burada məqsəd birdir: işçinin səhvini düzəltmək, onu düz yola çəkmək, tərbiyə etmək gərəkdir, daha əzmək yox. Başlıca cəhət insanın yaxşı keyfiyyətlərini üzə çıxarmaq və işin xeyri üçün ondan istifadə etməkdir.

Yaxşı rəhbər işçilər belə bir şərtə də əməl edirlər. Çox vaxt tribunadan bir nəfəri tənqid eləyənlər elə oradaca onu bir işçi kimi qiymətləndirirlər. Bu barədə danışmaq bəzən vacib olur.

Deyilənlərdən belə bir nəticə çıxarmaq düzgün olmazdı ki, guya hər cür nöqsana malik olan şəxsin xarakterində yaxşı cəhət tapıb ona istinad etməyi təbliğ edirik. Nöqsan var, nöqsan var! Nöqsan var ki, ona qarşı amansızcasına, açıq-aşkar mübarizə aparmaq zəruridir. Demaqoqluq, böhtançılıq bu cür nöqsanlardandır. Belə nöqsanların daşıyıcıları əxlaqi cəhətdən tam kasıb olub, ayrı-ayrı namuslu adamlara, kollektivlərə qara yaxmağa çalışmaqla ümumi əxlaqi-psixoloji mühiti korlayır, nəinki ayrı-ayrı adamlara və kolektivlərə ziyan vurur, təsərrüfat işinin geriləməsinə səbəb olurlar.

Demaqoqluq və böhtançılıq kimi, himayədarlıq, yerlibazlıq, vəzifədən sui-istifadə, rüşvətxorluq, nöqsanları ört-basdır etmək, gözdən pərdə asmaq, görülən işləri şişirtmək təkcə mühitdə əlavə çətinliklər əmələ gətirmir, həm də adamların mənəviyyatına, əxlaq tərbiyəsinə olduqca pis təsir göstərir, sosialist qanununun gücünə, ədalətə inamı azaldır.

Himayədarlığın mahiyyətini başa düşmək vacibdir. Yadda saxlamaq lazımdır ki, proteksionizm xeyirxahlıq pərdəsi altında meydana çıxır. Təşkilat və idarəetmə prinsiplərinə, kadrların seçilməsinə və yerləşdirilməsinə ciddi zərər vuran proteksionizm qohumbazlıq, dostbazlıq, yerlipərəstlik doğurur. Belə sağlam olmayan bir zəmin üzərində vəziyyətə uyğunlaşma, mənsəbpərəstlik, yaltaqlıq xüsusilə geniş yayılır, həm də bunlar böhtan, fitnəkarlıq,

qeybətçilik, dedi-qodu üçün və başqa alçaq niyyətlər üçün qida verən mühitdir.

***Tərbiyədə başçının rolu.*** Müəssisənin, kolxoz və sovxozun, idarə və təşkilatın fəaliyyətində, həyatında rəhbərin böyük rola malik olduğu təkcə təsərrüfat işində deyil, adamların tərbiyəsində də özünü göstərir. Rəhbər işçinin sözü ilə işi arasında nə dərəcədə uyğunluq olduğu, tabelikdə olan adamlara nə dərəcədə obyektiv münasibət göstərdiyi kollektiv üzvlərinin şəxsiyyətində əks səda verir, onların xarakterinə müəyyən dərəcədə təsir göstərir. İrəli sürülmüş vəzifənin əzmlə yerinə yetirilməsinə çalışan, fəal həyat mövqeyində duran, əxlaqa zidd hərəkətlərə dözməyən tabelikdə olan adamlara tələbkarlığını qayğı ilə uzlaşdıran, məsuliyyətsizlik hallarına qarşı barışmaz olan kollektivin fikri ilə hesablaşan müəssisə və idarə rəhbəri ətrafındakı adamlara gözəl əxlaq nümunəsi vermiş olur.

Təlim-tərbiyə məsələlərində də belədir. Gənc nəslin tərbiyəsində məktəb rəhbərlərinin, müəllimlərin müstəsna rolu vardır. Məktəb rəhbərliyinin, müəllimin danışığındakı, davranışındakı kiçik bir qüsur dərhal uşaqlar tərəfindən sezilir, bəzən də əğz olunur. Pedaqoq daim yadda saxlamalıdır ki, onun hər bir addımı, hər bir sözü şagirdlərinin güclü nəzarəti altındadır və onlar tələbkarlıqla bu addımı, hərəkəti təfsilatı ilə öz aralarında müzakirə edir, müəyyən nəticələr çıxarırlar. Bu mənada pedaqoqun əməyi son dərəcə məsuliyyətli və çətindir. Müəllim hər gün, həmişə, hər yerdə, bütün ömrü boyu mütəşəkkil, təmkinli, səbirli olmağa borcludur.

Müəllimin əməyi eyni zamanda şərəflidir. Çünki o, bəşəriyyətin əldə etdiyi təcrübəni, özbiliyini, qüvvəsini şagirdlərə bəxş edir, yurdumuzu sevməyi, xalqın xeyrinə işləməyi müdrikliklə və səbirlə onlara öyrədir. Hamıya məlum olduğu kimi, müəllim müxtəlif zamanlar arasında əlaqə yaradır, o, nəsillər silsiləsinədə bir halqadır. Müəllim indiki zamanın estafedini gələcəyə verir.

Müəllim şəxsiyyətinin tərbiyəvi təsiri yalnız ayrı-ayrı fənlərin tədrisi ilə məhdudlaşmır. Şagird şəxsiyyətinin for-

malaşmasında sinifdənkənar və məktəbdənxaric iş sisteminin imkanlarından da geniş istifadə edilir.

***Gənc nəslin tərbiyəsi ilə zəhmətkeşlərin tərbiyəsi arasında əlaqə.*** Məktəbdə və məktəbdənkənar uşaq müəssisələrində aparılan tərbiyə işlərinin səmərəliliyini ölkədə aparılan ideya-siyasi tərbiyə işlərindən aslı olmur. Böyük fərəh hissi ilə qeyd etməliyik ki, Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyi ilə bütün müttəfiq respublikalarda, o cümlədən Azərbaycan SSR-də çox faydalı və rəngarəng tərbiyəvi tədbirlər həyata keçirilir. Belə tədbirlər məktəbin tərbiyəvi işini xeyli yüngülləşdirir. Ukraynada Azərbaycan ədəbiyyatı və incəsənəti günləri və Azərbaycanda Ukrayna ədəbiyyatı və incəsənəti günləri buna misal ola bilər. Həmin ədəbiyyat və incəsənət günləri həqiqi dostluq bayramına çevrilmiş, qonaqlar duz-çörəklə, rəqs və nəğmə ilə qarşılanmışdır. Bakıda, Kirovabadda, Lənkəranda, Şəkidə, Neft daşlarında Ukrayna ilə, Ukrayna xalqı ilə bağlı hadisələrə həsr olunan sərgilər açılmış, abidələr ucaldılmış, bağlar salınmış, suverinlər hazırlanmış və s.

Yaxud, 1979-cu ilin iyununda Azərbaycanda Özbəkistan ədəbiyyatı və incəsənəti günlərinin keçirilməsi Azərbaycan və Özbəkistan xalqları arasında dostluğun və qardaşlığın parlaq, fərəhli bayramı olmuş, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, mədəniyyətlərinin qarşılıqlı surətdə zənginləşməsinə, beynəlmiləlçilik tərbiyəsinin güclənməsinə kömək etmişdir.

SSRİ xalqlarının qarşılıqlı şəkildə ədəbiyatı və incəsənəti günlərinin keçirilməsi ənənə halını almışdır. Sosializmin məhsulu olan belə ənənələrin böyük tərbiyəvi imkanları vardır. Rayonlarda və şəhərlərdə, qəsəbə və kəndlərdə keçirilən məhsul bayramları, sosializm yarışı qaliblərinin təntənəli şəkildə mükafatlandırılması əmək sülalələri şərəfinə bayramların təşkili və s. kimi ənənəvi kütləvi tədbirlər zəhmətkeşlərin kommunist tərbiyəsinin qüdrətli vasitəsi olub gənc nəslin tərbiyəsinin müvəffəqiyyəti üçün geniş ictimai zəmin yaradır.

Əmək sülalərinin şərəfinə bayram şənliklərinin təşkili bu baxımdan daha çox diqqəti cəlb edir. Belə şənliklərdən biri 1979-cu ildə Bakının Ramanı qəsəbəsində keçirilmişdir. Bayram şənlikləri Yeni Ramanada ictimayyətin qüvvəsi ilə salınmış təzə bağçada açılmışdı. Bayramın açılışı günü qəsəbənin pensiyada olan qocaman sakinlərindən bir qrupuna «Əmək veteranı» medalı təqdim olunmuşdur. Samovar başında ənənəvi kollektiv istirahət axşamlarına, idman yarışlarına, bədii özfəaliyyət kollektivinin konsertlərinə qəsəbə caamatı küçə-küçə yığışmışdır. Qəsəbə camaatı ən çox əmək sülalələrinin başçılarından Minasovların, Cəlilovların, Zeynalovların və bir çox başqalarının başına toplaşmışdı. Şənliklərdə veteranların şərəfinə onların sevdikləri mahnılar ifa olunmuşdur. Yram şənlikləri göstərmişdir ki, qəsəbə sakinləri-neftçilər, maşınqayıranlar, kimyaçılar Bakı proletariatının şanlı ənənələrini qayğı ilə qoruyur və artırırlar.

Bununla belə təəsüflə qeyd etməliyik ki, mühitdə tərbiyə işini çətinləşdirən nöqsanlı hallar tək-tək də olsa rast gəlmək olur. Ədalətsizlik, qohumbazlıq, himayədarlıq, yerlibazlıq, məsuliyyətsizlik, vəzifədən sui-istifadə kimi kommunist tərbiyəsinə zidd olan hallar zəhmətkeşlərin, xüsusən gəncliyin tərbiyə işinin xeyli çətinləşdirir. Odur ki, Sov.İKP kommunist əxlaqı antipodlarına qarşı mübarizəni genişləndirmişdir. Azərbaycan KP MK-sı bu istiqamətdə daha fəal, ardıcıl mövqe tutmuşdur. Bütün Azərbaycan zəhmətkeşləri partiyamızın yenilməz mövqeyini ürəkdən bəyənir.

Kommunist əxlaqı antipodlarına qarşı aparılan mübarizə bədii ədəbiyyatda da öz əksini tapmışdır. İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» adlı romanı buna misal ola bilər. Əsərin bir epizodu sovxozda yaranmış vəziyyətdən bəhs edir. Məcidov sovxozun direktorudur. Onun bir sözunu iki eləmək olmur. Ona «bəli, «bəli» deyənlər sovxozda əksəriyyəti təşkil edir. Vay o adamın halına ki, onun bir sözünü iki eləyə. Rayonda prokurordan tutmuş milis nəfərinə kimi onun nüfuzunun keşiyində durur. Öz işində təmiz olanın, direktor Məcidovun işində nöqsan

görənin o nöqsandan dolayı da olsa danışanın vay halına. Niyə? Çünki, sovxozda bir vahimə hökm sürür, ədalətsizlik, zülm, ikiüzlülük, simasızlıq, qohumbazlıq məskən salmışdır. Belə bir şərait, əlbəttə, o cür sovxoza düşən adamlara ikiüzlülük, yaltaqlıq, simasızlıq kimi xoşagəlməz keyfiyyətlər təlqin edə bilər. Yazıçı sürücü fəhlə obrazının dili ilə sovxozda yaranmış qeyri-normal vəziyyəti sürücünün başa düşəcəyi tərzdə, Camal müəllimin psixologiyasına uyğun formada ifadə edir. Sürücü Zeynal deyir: «Bütün Sabir sovxozu yoldaş Məcidov işləyir. Keçmiş bəylər o qələti eləyə bilməzdi». Camal müəllim isə əlavə edir: «Məcidov girməli kol deyil».

Məcidov kimilərin nə qədər at oynatsalar da, nəticədə həyat səhnəsindən getsələr də, tərbiyə işinə böyük ziyan vururlar.

Təbiidir ki, belə bir şəraitdə uşaqların kommunist tərbiyəsi xeyli çətinləşir. Gənc nəslin ideya-siyasi və əxlaq tərbiyəsini tədris müəssisələrinin işində yol verilən nöqsanlar da çətinləşdirir. Nöqsanlara isə ayrı-ayrı müəllimlərin və məktəb rəhbərlərinin işində tək-tək də olsa rast gəlmək olur. Şagirdlərdən hədiyyə almaq hallarına müraciət edək. Müxtəlif münasibətlərlə, məsələn, anadan olduğu günlə, beynəlxalq qadınlar günü, Sovet Ordusu günü münasibətilə şagirdlərdən hədiyyə alan müəllim onların əxlaqını korlayırmı? Bəli, korlayır! Şagirdlərdən hər hansı formada olursa-olsun hədiyyə alınması, əvvəla, hədiyyə alan müəllimi hədiyyə verən şagirdin gözündə alçaldır. Şagird belə müəllimin öyüd-nəsihətlərinə şübhə ilə baxır, ona inamı azalır. İnsani münasibətlərin əşya vasitəsilə tənzim edilə bildiyi barədə uşaqlarda yanlış təsəvvür və zərərli vərdiş yarana bilər. İkincisi, hədiyyə şagirdin hesabına əldə edilir. Buna görə də hədiyyənin çeşidi və dəyəri ailədə müzakirə edilir. Nəticədə bir müəllimin günahı üzündən başqa müəllimlər və bütövlükdə məktəb valideynlər qarşısında nüfuzdan düşə bilir. Şagirddən və ya onun valideynindən hədiyyə alan müəllim nə şagirdə, nə də onun valideyninə tələbkər ola bilir, tərbiyəçi kimi nüfuzdan düşür, nəticədə

nəinki tərbiyə işinin təlimin də səviyyəsi aşağa düşür. Müəllimə hörməti hədiyyədə görən şagirdin təlimə marağı azala bilir. Şagirdin təqribən bu cür düşünməsinə imkan yaranır: «Dərsi bilməməsi də olar, axı müəllim bizdən hədiyyə alıbdır: hədiyyə ala-ala iki yaza bilər!?».

**Soruşmaq olar:** şagird və ya valideyn müəllimə dərin hörmət bəslədiyini hansı formada ifadə edə bilər? Biz belə bir əqidədəyik ki, tərbiyə işində hörmət əşya formasına salınmamalıdır. Ona görə ki, birincisi, yuxarıda dediyimiz kimi, hörmətin əşya formasında ifadəsi həm verənin, həm də alanın əxlaqını pozur; ikincisi, əşya (ayaqqabı, paltar və s.) tez sıradan çıxdığı kimi, tez də unudula bilir: üçüncüsü və ən əsası, əşya forması alan hörmət əsil hörmətdən çox-çox uzaq olur. Çünki orada deyilməyən, lakin nəzərdə tutulan fikirlər məqsədlər ola bilir. Hədiyyə verən şəxs hədiyyə verdiyi şəxsdən hansısa güzəştlər gözləyir: hədiyyə alan şəxs isə öz növbəsində nədəsə, haradasa ümuminin zərərinə güzəştə gedəcəyini düşünür. Sözdə ifadə olunmamış bu bəd keyfiyyətlərin qovuşması və həyata keçməsi yolunda hədiyyə körpü rolunu oynayır. Buna görədə əşya formasına salınan «hörmət sövdələşməkdən, qarşılıqlı şəkildə bir-birini aldatmaqdan, riakarlıqdan başqa bir şey deyildir.

Təlim-tərbiyə işində şagirdin müəllimə dərin hörməti, həqiqi rəğbəti müəllimin bütün tapşırıqlarını vaxtında yüksək səviyyədə yerinə yetirməsindən, dərsə daim hazır gəlməsindən, nümunəvi şagird olmasından ibarət olmalıdır. Müəllim üçün şagirdin ən yüksək hədiyyəsi, gözəl təhsili ilə, nümunəvi davranışı ilə müəllimini sevindirməsidir, ömrü boyu əziz müəllimini unutmamasıdır, ona etiramını bildirməsidir. Hədiyyəni bunda görən müəllim özünü şagirdlərin gözündə ucaldır, şagirdlərinin qəlbində özünə möhkəm özüllü mənəvi abidə qoymuş olur. Hörməti əşyada görən müəllim isə özünü şagirdləri arasında alçaldır, şagirdlərinin qəlbində yer tapa bilmir.

Hörməti əşya formasında ifadəsi hallarına qarşı nəinki məktəblərdə, həm də ictimai həyatımızın digər sahələrində

mübarizəni gücləndirmək lazımdır. Şəxsiyyətin ahəngdar inkişafını təmin etmək üçün bu, vacibdir.

Şəxsiyyətin hərtərəfli inkişafında ideya-siyasi və əxlaq tərbiyəsi ilə yanaşı fiziki tərbiyənin də böyük əhəmiyyəti vardır.

## 2. İNKİŞAF ETMİŞ SOSİALİZM ŞƏRAİTİNDƏ FİZİKİ, ESTETİK VƏ ƏMƏK TƏRBİYƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Fiziki tərbiyənin bütün zəhmətkeşləri, bütün gəncliyi əhatə etməsi.*** Maksizim leninizm klassikləri fiziki tərbiyəni kommunist tərbiyəsinin tərbiyəsinin tərkib hissələrindən biri kimi, şəxsiyyəti hərtərəfli inkişaf etdirməyin vasitələrindən biri kimi qiymətləndirmişlər. Maksizm-leninizmə sadiq qalan Sov.İKP MK-sı və Sovet hökuməti sovet adamlarının, o cümlədən gənc nəslin fiziki tərbiyəsinə böyük qayğı göstərir. Bu qayğı ailədən və körpələr evindən, uşaq bağçasından başlamış ali məktəbə qədər, istehsalatdan tutmuş pesiya yaşına qədər ardıcıl olaraq özünü göstərir.

Tədris müəssisələrində fiziki tərbiyə üç əsas vəzifənin həyata keçirilməsinə xidmət edir. Birincisi, fiziki tərbiyə zamanı gənc nəsil sağlamlıq və onun əhəmiyyəti haqqında təsəvvür və anlayış əldə edir. İkincisi, fiziki tərbiyə uşaqların, yeniyetmə və gənclərin sağlamlığını möhkəmləndirir, orqanizmin sistemlərinin ahəngdar inkişafına kömək edir. Üçüncüsü, fiziki tərbiyə gənc nəsli ictimai faydalı və məhsuldar əməyə, vətənin müdafiəsinə hazırlayır. Bu vəzifələrin təlim-tərbiyə müəssisələrində həyata keçirilməsi üçün müxtəlif vasitələrdən istifadə edilir. Tədris planına uyğun olaraq keçilən bədən tərbiyəsi dərsləri, müxtəlif idman yarışları, gün rejimi, təbiətə gəzintilərin və səyahətlərin təşkili təbii amillərdən (hava, su və günəşdən) düzgün istifadə olunması və s. bu cür vasitələrdir.

Uşaq bağçalarında və bütün tədris müəssisələrində bədən tərbiyəsinin təşkili məcburidir. Bəzi cüzi müstəsna halları

çıxmaqla şagirdlər, bütün tələbələr bədən tərbiyəsi məşğələlərinə cəlb olunurlar.

Bədən tərbiyəsi üzrə məcburi məşğələlərdən əlavə orta və ali məktəblərdə idmanın bütün növlərinə aid bölmələr və dərnəklər yaradılır. Həvəskar oğlan və qızlar öz maraqlarına uyğun gələn idman növünü – futbolu, voleybolu, basketbolu, həndibolu, tennisi, güləşi, boksu, bədii gimnastikanı və s. seçir və bədənlərini möhkəmləndirirlər.

Kanikullar zamanı, xüsusən qış və yay kanikulu günlərində uşaqların, yeniyetmə və gənclərin gəzinti və səyahətlərə cəlb edilməsi onların orqanizmlərinin dözümlülüyünü, həyat qabiliyyətini artırır.

Gənc nəslin orqanizminin normal inkişafını təmin etmək üçün təbii amillərdən: hava, su və günəşdən ölkəmizdə geniş istifadə edilir. SSRİ-nin, o cümlədən respublikamızın gözəl guşələrində: meşəliklərdə, çəmənliklərdə, dəniz, göl və çay kənarlarında, şəhərlərin böyük məhəllələrində pioner düşərgələri salınır. Uşaqlar açıq havada olmaq, suda çimmək, günəş vannası qəbul etmək imkanı qazanırlar.

İnsan orqanizmininin inkişafında gün rejiminin böyük əhəmiyyəti olduğundan, istər bağçalarda, istərsə də ali və orta məktəblərdə təlim və tərbiyənin təşkili zamanı rejimin tələbləri nəzərə alınır. Gün rejiminin stabilliyi sinir sisteminin normal fəaliyyəti üçün zəruri olan şərtlərdən biridir. Gün rejimi stabil olduqda baş beyin qabığında dinamik stereotip tez yaranır, əsəbilik əlaməti tez aradan qalxır. Orqanizmin, xüsusən sinir sisteminin normal fəaliyyətini, şəxsiyyətin ahəngdar inkişafını təmin etmək üçün gün rejiminin stabil olmasına çalışmaq lazımdır.

Fiziki tərbiyənin hüdudları ölkəmizdə yalnız təlim-tərbiyə müəssisələri ilə məhdudlaşmır. Fiziki tərbiyə bütün zəhmətkeşləri əhatə edir. Yetkin sosializm şəraitində elə bir müəssisə: fabrik və ya zavod, kolxoz və ya sovxoz tapmaq olmaz ki, orada bədən tərbiyəsi və idman tədbirləri keçirilməsin. İndi özünün xüsusi idman bazası olmayan istehsalat müəssisəsi tək-təkdir. Hər bir müəssisə çalışır ki, özünün bədən tərbiyəsi və idman bazası olsun, zəhmətkeşlərin

sağlamlığını birinci növbədə orada təmin etsin. Bu məqsədlə Bakıdakı Keşlə maşınqayırma zavodunun təcrübəsinə müraciət edək. Zavodun kollektivi çalışır ki, mövcud idman bazasını da genişləndirsin. Hətta, zavodda bədən tərbiyəsi təlimatçıları üçün xüsusi kabinet yaradılmışdır. Kabinetdəki kuboklar, tərifnamələr, plakatlar göstərir ki, zavodda idman zəhmətkeşlərin istehsalat fəaliyyətinin tərkib hissəsinə çevrilmişdir. Sexlərarası yarışlar, spartakiadalar artıq ənənə olmuşdur. ƏMH kompleksi normalarının . dənilməsi üzrə yarışlarda daha çox fəhlə və qulluqçu iştirak edir. Sexlər arsında vaxtaşırı baxış-müsabiqələr keçirilir. Müsabiqələrin qaliblərinə mükafatlar verilir, onlar şəhər birinciliklərində zavodun şərəfini qoruyurlar.

Külli miqdarda həyat faktları təsdiq edir ki, fiziki tərbiyənin əhəmiyyəti yalnız orasında deyildir ki, idman tədbirlərində iştirak edən zəhmət adamları gümrah və sağlam olurlar. Belə adamlarda əməyə məhəbbət hissi, ictimai fəallıq xeyli güclənir. Belə bir cəhəti idmanla məşğul olan on minlərlə zəhmət adamlarında dönə-dönə yəqin etmək olur. Əli Bayramlı Dövlət rayon elektrik stansiyasının istilik yoxlama avtomatika sexində çalışan çilingər A.Hüseynov minlərlə bu cür adamlardan biridir. O, idmanın vurğunudur, stansiyada keçirilən neçə-neçə idman yarışının təşkilatçılarından biri olmuşdur. Sinəsini «Qırmızı Əmək bayrağı» ordeni bəzəyən A.Hüseynov neçə illərdir ki, kommunist əməyi zərbəçi adını şərəflə doğruldur, şəxsi beşillik tapşırığını stansiyada hamıdan tez yerinə yetirmişdir, sex partiya təşkilatının katibidir.

SSRİ-də fiziki tərbiyənin səciyyəvi xüsusiyyətlərindən birisi budur ki, fiziki tərbiyə tədbirləri ayrı-ayrı təlim-tərbiyə ocaqları çərçivəsi ilə, ayrı-ayrı istehsalat müəssisələri ilə məhdudlaşmır. Sovet adamları müəssisələrarası, rayonlar və şəhərlərarası, respublikalararsı idman tədbirlərinə də cəlb olunurlar. Bu cür əhatəli, yüksək səviyyəli tədbirlərdən biri də spartakiadalardır. SSRİ xalqlarının VII Ümumittifaq yay spartakiadası 1979-cu ildə keçirilmişdir. Gənclik, gümrahlıq, sağlamlıq, dostluq bayramına çevrilmiş bu spartikia-

danın yarışlarında 22 milyon adam ƏMH kompleksinin nişançıları olmuş, 18 milyon nəfər isə dərəcələr tələblərini yerinə yetirmişdir.[1]

1980-cı ildə Moskvada keçirilən dünya olimpiadasına hazırlaşmaq, orada yüksək yerlər tutmaq, medallar almaq cəhətdən də ümumittifaq spartikiadasının böyük əhəmiyyəti olmuşdur.

Bədən tərbiyəsi və idmana partiya və dövlət qayğısı. Bədən tərbiyəsi və idman sahəsində qazanılan müvəffəqiyyələrimizin başlıca səbəblərindən biri budur ki, ölkəmizdə bədən tərbiyəsi və idman işlərinə bilavasitə Kommunist partiyası və sovet hökuməti rəhbərlik edir. Məsələn, SSRİ Ali Sovetinin 1978-ci ilin noyabrında keçirilmiş onuncu sessiyası Konstitutsiyasının müddəalarını həyata keçirərək rayon və şəhər xalq deputatları sovetlərinə tapşırmışdır ki, bədən tərbiyəsi və idman işinə rəhbərlik etsinlər, idarə tabeliyində aslı olmayaraq, idman qurğularının yerləşdirilməsi planlarını hazırlayıb təsdiq etsinlər, əhali üçün kütləvi istirahət zonaları yaratsınlar, bu zonaları abadlaşdırsınlar, onlardan istifadə olunmasına nəzarət etsinlər.

Başqa müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də bədən tərbiyəsi və idman sahəsində görülən işlər getdikcə güclənir. Çünki bu sahəyə rayon və şəhər xalq deputatları sovetləri, Azərbaycan SSRİ Ali Soveti, Azərbaycan SSRİ Nazirlər Soveti və Azərbaycan KP MK sı gündəlik qayğı göstərir. Məsələn, partiya fəallarının 1974-cü ildə keçirilmiş respublika yığıncağı və «Respublikada bədən tərbiyəsini və idmanı daha da inkişaf etdirmək tədbirləri haqqında» Azərbaycan KP MK-nın və Azərbaycan SSRİ Nazirlər Sovetinin həmin yığıncaqdan sonra qəbul etdikləri qərar respublikamızda bədən tərbiyəsi və idman hərəkatının inkişafında mühüm rol oynamışdır. O vaxtdan keçən dövr ərzində kütləvi bədən tərbiyəsi və idman işi problemləri respublika portiya, sovet, həmkarlar ittifaqı, komsomol və təsərrüfat təşkilatlarının daim diqqət mərkəzində olmuşdur.

[1] «Baku» qəzeti, 23 iyul, 1979.

Bədən tərbiyəsinin və idmanın inkişafına diqqətin getdikcə güclənməsini belə bir cəhət də sübut edir ki, bu məsələ respublika ali dövlət hakimiyyəti orqanının – Azərbaycan SSRİ Ali Sovetinin xüsusi müzakirəsinə verilmişdir. 1980-cı il mart ayının sonunda onuncu çağırış Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasında «Azərbaycan SSR-də bədən tərbiyəsinin və idmanın vəziyyəti və onların daha da inkişaf etdirmək tədbirləri haqqında» məsələ müzakirə olunmuşdur.

Fiziki tərbiyəyə göstərilən partiya və dövlət qayğısı nəticəsində bədən tərbiyəsi və idman ölkəmizdə kütləviləşmişdir. Bədən tərbiyəsi və idmanın kütləviliyi sovet fiziki tərbiyə sisteminin səciyyəvi xüsusiyyətlərindən birinə çevrilmişdir. Yuxarıda müraciət etdiyimiz sessiyanın materiallarında deyilir ki, 1980-cı ildə respublikamızda 2 milyon 100 mindən çox adam bədən tərbiyəsi ilə məşğul olmuşdur. Bu 1974-cü ildəkindən iki dəfə çoxdur. İdman bölmələrində 1 milyon nəfərdən artıq adam müntəzəm surətdə öz ustalığını artırır ki, bu da 1974-cü ildəkindən təqribən 200 min nəfər çoxdur. Təkcə 1979-cu ildə respublikamızda ƏMH kompleksi üzrə döş nişanı alan təqribən 500 min nəfər kütləvi dərəcəli idmançı, təqribən 200 nəfər SSRİ idman ustası hazırlanmışdır.

Əhalinin yaşayış yerlərində kütləvi bədən tərbiyəsi işinin inkişafı üçün bir sıra tədbirlər görmüşdür. Son illərdə respublikada mənzil-istismar kontorları yanında 36-dan çox bədən tərbiyəsi – idman klubu yaradılmış, bilavasitə yaşayış massivlərində yüzlərlə müxtəlif idman qurğusu tikilmişdir.

Son iki-üç ildə 772 min nəfərdən artıq uşaq «Ümid startları» respublika yarışlarında iştirak etmişdir. 125 min gənc futbolçu «Sevinc» klubunun mükafatları uğurunda mübarizə aparmış, 650 min uşaq yüngül atletikanın dörd növü üzrə «Dostluq» yarışlarında iştirak etmişdir.

«Dəri top» klubunun mükafatları uğurunda Ümumittifaq yarışlarında 10-11 yaşlı uşaqlar arasında Qubanın «Şahdağ» komandasının futbolçuları birinci yerə çıxmış, 12-13 yaşlı futbolçular arasında isə Kirovabadın «Kəpəz» komandasının üzvləri gümüş medallar almışlar.

Yay kanikulu dövründə uşaqlar arasında kütləvi sağlamlaşdırma işinin yaxşılaşdırılması üçün az tədbir görülmür. Beynəlxalq uşaq ili elan edilmiş 1980-cı ildə respublikanın 1500 pioner düşərgəsində və idman-sağlamlıq düşərgələrində 265 min nəfərdən çox uşaq və yeniyetə dincəlmiş, bədən tərbiyəsi və idmanla məşğul olmuşdur. Təkcə son illərdə Azərbaycanda 12 stadion, 394 futbol meydançası, 270 idman salonu, 9 hovuz, yüzlərlə idman oyunları meydançası tikilmişdir.

Bakı şəhərinin Nərimanov rayonunda üzgüçülük hovuzları olan nadir kompleks, 1 nömrəli evtikmə kombinatında hovuzu olan idman kompleksi tikilmişdir. Lenin komsomolu adına stadionda üzgüçülük kompleksi istifadəyə verilmişdir. Kirov və Əzizbəyov rayonlarında stadion və idman oyunları meydançaları, Oktyabr rayonunda tennis kortu istifadəyə verilmiş, Şaumyan rayonundakı Nizami adına parkda üzgüçülük hovuzu yenidən qurulmuş, Qırmızı Bayraq ordenli Xəzər Donanmasının üzgüçülük hovuzu istifadəyə verilmiş, «Spartak» stadionunda idman salonu və idmançılar üçün pansionat tikilmişdir. «Neftçi» komandasının futbolçuları üçün çox gözəl təlim-məşq bazası yaradılmışdır. Bakı şəhərində yeni idman obyektlərinin tikintisi davam edir. İdman sarayını, əl oyunları stadionunu, «Dinamo» üzgüçülük kompleksini, yüngül atletika manejini və bir çox başqa qurğuları misal göstərmək kifayətdir.

İdman qurğuları təkcə Azərbaycanın paytaxtında deyil, respublikanın şəhərlərində və kənd rayonlarında da tikilir. Mingəçevirdə pansionat, yeməkxana, idman salonu və örtülü üzgüçülük hovuzu, Kirovabadda idman kompleksi, Naxçıvanda pəhləvanlar üçün idman salonu, Gədəbəy, Masallı, Göyçay, Kürdəmir, İmişli royanlarında və başqa rayonlarda stadionlar istifadəyə verilmişdir. Naxçıvan MSSR-də, DQMV-də, Sumqayıt və Mingəçevir şəhərlərində, Astara, Şuşa, Yevlax, Qusar, Lənkəran, Qazax, Salyan, Şamaxı, Bərdə və başqa rayonlarda bir sıra idman obyektlərinin tikintisi davam edir.

İdman qurğuları tikintisinin miqyasını belə bir faktdan da görmək olar ki, 10-cu beşilliyin 4 ili ərzində üst-üstə 8-ci və 9-cu beşilliklər ərzindəkindən üç dəfə çox əsaslı vəsaitdən istifadə edilmişdir.

***Fiziki tərbiyənin və idmanın ideyalılığı.*** Ölkəmizdə fiziki tərbiyəni səciyyələndirən xüsusiyyətlərdən biri də fiziki tərbiyənin ideyalılığıdır, ideya-siyasi tərbiyəyə, əxlaq tərbiyəsinə onun xidmət etməsidir. Pedaqoji cəhətdən düzgün təşkil edilən fiziki tərbiyə sovet adamlarının təkcə sağlamlığını möhkəmləndirmir, onların həm də mənəviyyatına güclü təsir göstərir, sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyi hisslərinin, iradə möhkəmliyinin artırılmasına kömək edir. Fiziki tərbiyənin bu cəhəti SSRİ-də bədən tərbiyəsi və idman işlərinin ən yüksək forması olan spartakiadalarda daha aydın şəkildə özünü göstərir. SSRİ xalqlarının VII Ümumittifaq yay spartakiadasının Moskvada açılışını xatırlatmaq kifayyətdir. Çiyinlərindən keçirilən enli qırmızı lentlərin üstündə müxtəlif yarışlarda qazandıqları ən yüksək medallar düzülmüş idman veteranları ilə yanaşı gənc idmançıların – «olimpiya ümidlərinin» tribuna qarşısından keçməsi gözəl idman ənənələrinin nəsillərdən-nəsillərə verildiyini andırır. Stadionda SSRİ himninin sədaları qəlbləri riqqətə gətirir, Sovet Sosialist Respublikalarının dövlət bayrağı qaldırılır. Spartakiada iştirakçıları ürəklərində deyirdilər: «Vətənimizin idman şərəfini bu bayraq kimi yüksəklərə qaldıracağıq». Qitənin ən surətli qaçanları Lyudmila Kondratyevanın və Vera Anisimovanın, iki dəfə olimpiya çempionu Valeri Borzovun əllərindəki məşəllər «Oraq və çəkic» adına Moskva metallurgiya zavodunda əridilən poladın alovlarında və naməlum əsgər qəbrinin üstündəki əbədi məşəldə yandırılmışdır. Onların stadiona daxil olmalarının və spartakiada alovunu yandırmalarının rəmzi mənasını hər bir idmançı başa düşür: anlayır ki, əmək rəşadətinin alovu və Böyük Vətən müharibəsinin qəhrəmanları haqqında xalqın minnətdarlıq xatirəsinin rəmzi olan alov stadion üzrə ucalmış nəhəng metal camda vahid məşəl şəklində birləşərək idman yarışının xeyirxah mənasını

Lujnikidə 16 gün təcəssüm etdirilmişdir. Bəs yaşıl meydanda müxtəlif geyimli «Xalqlar dostluğu»nu ifadə edən xoreqrafiya kompozisiyası necə? Kompazisiya rəqs dilində adamların eyni tarixi birliyinin-sovet xalqının vəhdətini və qardaşlığını təsvir edirdi.

Təntənənin estafetini sovet cəmiyyətində yeganə imtiyazlı sinif olan uşaqların nümayəndələri – Moskvanın gənc idmaçıları qəbul etmişdir. Onların beynəlxalq uşaq ilinə həsr etdikləri idman çıxışının sujetini də başa düşmək çətin deyildi: «ƏMH nişanından-olimpiada medallarına».

***Estetik tərbiyənin şəxsiyyətə təsiri.*** Şəxsiyyətin formalaşmasında estetik tərbiyənin rolu böyükdür. Estetik tərbiyə adamlara gözəllik haqqında anlayış verir, onlara gözəllik nümunələri yaratmaq bacarıqları aşılayır. Estetik tərbiyənin təsiri altında adamlar cəmiyyət və təbiət hadisələrindəki gözəllikləri başa düşür, cəmiyyətdə baş verən eybəcərliklərə nifrət edir, həyatı daha da gözəlləşdirməyə çalışırlar. Düzgün təşkil edilmiş estetik tərbiyə sovet adamlarında, o cümlədən gənc nəsildə əsil estetik zövqün yaranmasına səbəb olur, həyatın, sənətin gözəlliyini başa düşməyə, ondan həzz almağa, xeyirxah işlərə, alışdırır. Maneələri aradan qaldırmağa sövq edir, qəlbi yumşaldır, həyatdakı və sənətdəki nöqsanlara qarşı barışmaz olmağı öyrədir. Böyük Vətən müharibəsi günlərinə aid olan səciyyəvi bir epizodu xatırlamaq yerinə düşərdi. Tsemes buxtasında «Ritsa» adlı gəmi minaya toxunur və batır. Oradakı döyüşçülərlə birlikdə komandir də buzlu suyun üstündə qalmalı olur. Alt köynəklərinə qədər suya batmış olan, soyuqdan titrəyən əsgərləri hər dəqiqə döyüş gözləyir. Kiçik torpaqda yaranmış mahnı belə bir ağır şəraitdə, partlayışların şəfəqi altında səslənir. Nəğmə döyüşçülərin yenilməz iradəsindən, onların mərdliyindən danışır. Adamlar yavaş-yavaş başlarını qaldırmağa başlayır; uzananlar əyləşirlər, əyləşənlər ayağa qalxırlar. Kimsə oxuyanın səsinə səs ver. Həmin anı ömür boyu unutmaq olarmı!? Mahnı adamların qamətini düzəldir. Təsvir olunmuş dəhşətə baxmayaraq hamıda inam oyanır, döyüş əhval-ruhiyyəsi yaranır.

Mənalı nəğmə adamlara qol-qanad verir, onları ruhlandırır, öz qüvvələrinə inamını artırır.

SSRİ-də estetik tərbiyənin bütöv bir sistemi yaranmışdır. Bu sistem, fiziki tərbiyədə olduğu kimi, uşaq bağçasından tutmuş ali məktəbə qədər bütün uşaqları; yeniyetmə və gəncləri, kənddən tutmuş şəhərə qədər bütün yaşlı əhalini əhatə edir.

Estetik tərbiyə vəzifələrini həyata keçirmək üçün müxtəlif vasitələrdən istifadə edilir. Təlim-tərbiyə ocaqlarının tədris planları və proqramlarında estetik tərbiyə imkanları çox genişdir. Tədris planlarına əsasən öyrədilən müsiqi, nəğmə, rəsm, rəsmxət bilavasitə uşaqların estetik hissləıri və bacarıqlarının formalaşdırılmasına xidmət edir. Qalan bütün fənlərin, məsələn, ədəbiyyatın, dilin, tarixin, riyaziyyatın gözəlliklə, estetik mədəniyyətlə əlaqəsi vardır. Riyaziyyatda diqqəti cəlb edən ardıcıllıq, məntiqlik, ahəngdarlıq adamı riqqətə gətirir, heyran edir, onda gözəllik hisslərini dərinləşdirir.

Estetik tərbiyə vəzifələri yalnız tədris ocaqlarında, dərslərdə deyil, habelə sinifdənkənar və məktəbdənxaric işlər prosesində də həyata keçirilir. Ayrı-ayrı məktəblərdə yaradılmış dram və xor dərnəkləri, çalğı və rəqs ansablları, toxunma və tikmə dərnəkləri, təsviri incəsənət dərnəkləri və s. uşaqlarda, yeniyetmə və gənclərdə estetik mədəniyyətin inkişafına tabe etdirilmişdir.

Məktəbdənxaric uşaq müəssisələrində: pioner evlərində və saraylarında, gənc təbiətçilər, gənc texniklər stansiyalarında, şagirdlərin estetik zövqləri və bacarıqlarının inkişafında mühüm yer tutur.

Partiya və hökumətimiz çalışır ki, təlim-tərbiyə müəssisələrində gənclərin estetik tərbiyəsi sonralar daha da genişləndirilsin. Hazırda zəhmətkeşlərin estetik tərbiyəsi ilə məşğul olmayan müəssisə, idarə və təşkilat tapmaq olmaz. Sov.İKP XXV qurultayının tələblərinə yuğun olaraq sovet adamlarının estetik mədəniyyətini artırmaq üçün hər bir müəssisədə, hər bir idarədə və təşkilatda rəngarəng tədbirlər həyata keçirilir. Hətta, fiziki və estetik tərbiyə müəssisələri istehsalat kollektivlərinin sosial inkişaf planlarına daxil edilir.

Sovet adamlarının estetik tərbiyəsinin səmərəliliyinin artırılmasına ictimai mühitimizdə əmələ gələn yeniliklər müsbət təsir göstərir. Xüsusən şəhər və kəndlərimizdə, yaşıllığın artırılması, gül-çiçəyin çoxaldılması, yeni-yeni gözəl binaların tikilməsi, təzə park və bağların salınması, küçələrdə səliqə-sahmanın yaradılması, yeni-yeni fantanların düzəldilməsi, abidələrin ucaldılması, şəhər və kəndlərin gecələr nura qərq olması nəinki yaşlılarda, həm də uşaqlarda estetik zövqün inkişafına xidmət edir. Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərə yalnız 1977-1980-ci illərdə Bakı şəhərinin rayonlarında 120-dən artıq abidə qoyulmuşdur.

Sov.İKP MK-sı Sovet hökuməti çox yaxşı bilirlər ki, gənc nəslin estetik tərbiyəsi və estetik mədəniyyəti sovet xalqının ümumi mədəniyyətinin geniş inkişafı üçün sanballı bünövrədir. Buna görə də respublikamızda uşaqların estetik tərbiyəsi ümumxalq qayğısına çevrilmişdir. Bu qayğının parlaq təzahürlərindən biri məktəblilərin 1980-ci ildə keçirilmiş ümumittifaq mahnı və rəqs festivalı idi. Digər respublikalarda olduğu kimi, bizim respublikamızda da bütün məktəblərdə, bütün şəhər və kəndlərdə uşaq musiqi festivalına uzun müddət hazırlıq getmişdir. Nəhayət, 1980-ci il mayın 31-də Bakı şəhərindəki V.İ.Lenin adına respublika stadionunda respublika uşaq musiqi festivalının yekun bayramı keçirilmişdir. Bu, uşaqların üçüncü respublika rəqs və mahnı festivalı idi. Festivalda ən yaxşı başlıca ifaçılar-rayon, şəhər və vilayət müsabiqə-baxışın qalibləri toplanmışdı.

Əgər birinci bayramda 8 min, ikinci bayramda 10 min uşaq iştirak etmişdisə, üçüncü bayramda stadionda təqribən 20-min istedadlı uşaq musiqi ilə məşğul olan yaşıdlarını təmsil edirdi.

Stadionda xəfif küləyin al bayraqları dalğalandırması, günəş şüaları altında bərq vuran qırmızı qalstuklar, pionerlərin əllərində ahənglə yellənən rəngarəng qərənfillər estetik hisslərin mənbəyinə çevrilmişdir. 26 Bakı komissarlarının məzarı üzərində əbədi şölənən alovdan alışdırılmış festival məşəli yaşıl meydana xüsusi gözəllik verirdi. Stadionda

təntənə ilə səslənən Səməd Vurğunun «Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!» sözləri estetik zövqlə qovuşaraq uşaqların köksünü qürur hissi ilə doldururdu.

Kiçik idmançılar ahəngdar qaçışla al-əlvan çiçəklər kimi qrup-qrup meydançaya səpələndilər. Azərbaycan SSR Gerbinin və nəhəng «60» rəqəminin canlı təsviri əmələ gəldi. Bunun arxasınca məktəblilərin birləşmiş xorunun 16 min iştirakçısı ayağa qalxdı. SSRİ xalq artisti Niyazinin drijorluğu ilə M.Yaqubun sözlərinə Dadaşovun bəsdələdiyi «Qızıl şəfəq» mahnısının sədaları stadionu bürüdü. Hamı mahnının nəqaratını oxumağa başladı: «Mahnı ilə yola çıx!»

Qırmızı qalstuklu pionerlərin ən sevimli mahnılarından biri olan «Tonqal başına!» mahnısı bayram iştirakçılarının və qonaqların ifasında daha məlahətlə səsləndi: bu eşidənlərin zövqünü oxşayırdı. Stadionda nəğmə və rəqs aləminin gözəlliyi gümrahlıqla, idman çıxışları ilə, ideya-siyasi və əxlaqi keyfiyyətlərlə çulğalaşırdı. Festivalın bu xüsusiyyəti məktəblilərə daha güclü mənəvi təsir göstərirdi.

38 ildən artıqdır ki, sovet adamları dinc səma altında yaşayırlar. Böyük idman proqramında iştirak edən məktəblilər uşaqların səadətini faşizmlə vuruşmalarda qorumuş sovet adamlarının, yaşlı nəsllərin və şanlı Sovet Ordusunun şərəfinə şüarlar dedilər. Ordunun gənc dostlarının-pioner və məktəblilərin «Üfüqdə parıltı» və «Orlyonok» kimi sevimli hərbi idman oyunları iştirakçılarının dəstələri qaçış yollarına çıxdılar. Meydanda qürurla addımlayan, yenilməz görkəm alan gənc leninçilər sanki demək istəyirdilər: ata və analarımızın, yaşlı nəsillərin, partiyamızın bəşəri işinə daim sadiq olacağımıza söz veririk. Sovet ölkəsinin gənc vətəndaşları mərdlik və vətənpərvərlik nümunələri az göstərməmişdir.

Stadionun tən ortasında qoyulmuş nəhəng səhnə festivalın mərkəzinə çevrildi. Respublikanın şəhər və rayonlarından gəlmiş kollektivlər və solistlər bir-bir səhnəyə çıxıb öz gözəl ustalıqlarını nümayiş etdirdilər. Baxışlar çoxlu yeni istedadlı ifaçı aşkara çıxarmışdır. Bayram günü belə istedadlar stadionda göründükdə xüsusilə aydın oldu ki, dövlət uşaqlarda qabliyyətlərin inkişafına nə qədər fikir verir,

sovet uşaqlarının həqiqətən bəxtəvər olması üçün ölkə nə qədər böyük qayğı göstərir.

Y.Qaqarin adına pioner və məktəblilər sarayının kanonçalanlar ansamblı, Naxçıvan pionerlər sarayının uşaq mahnı və rəqs kollektivi çıxış etdilər. Onları Dağlıq Qarabağ Muxtar Vilayətindən, Kirovabaddan, Astaradan gəlmiş balaca artistlər əvəz etdilər: axı, istedadlı uşaqların sayı-hesabı yoxdur!

Bayram sahiblərinin yaşıdlarının – Gürcüstan və Ermənistan məktəblilərinin qızğın rəqsləri heç kəsi biganə qoymadı. Yaşıl meydançada «Uşaqların bayramı» xoreoqrafiik nömrəsini Bakı stadionuna toplaşanlar səmimiyyətlə alqışladılar. Bu nömrəni Tbilisi pioner və məktəblilər sarayının Lenin komsomolu mükafatı laureatı olan «Nakaduli» xoreoqrafiya ansamblının iştirakçıları ifa etdilər. Yerevan pioner və məktəblilər sarayı uşaqlarının hazırlamış olduqları «Bayram rəqsi» də şən və fərəhli təsir bağışladı.

Uşaqların, yeniyetmə və gənclərin estetik tərbiyəsində və estetik mədəniyyətinin inkişafında festivalın böyük əhəmiyyətə malik olduğu görkəmli sovet bəstəkarları D.B.Kabalevskinin təbrik nitqində ifadə edilmişdir. O, üzünü bayram iştirakçılarına tutaraq demişdir: «Əziz uşaqlar, mənim balaca dostlarım! Səmimi-qəlbdən sizi bayram münasibəti ilə təbrik edirəm. Bu, təkcə mahnı və rəqs bayramı deyil, həm də gənclik, səadət və sevinc bayramıdır. Görün, bu gün siz nə qədər sevinirsiniz, görün bu gün valideynləriniz, müəllimləriniz, yaşlı dostlarınız sizinlə birlikdə nə qədər sevinc hissi keçirirlər. Axı, sizin sevinciniz biz yaşlılar üçün ən böyük sevinc deməkdir. Sizə ömür boyu musiqini həqiqətən sevməyi, musiqi ilə yaşamağı arzulayıram».

Bayramın sonunda birləşmiş xor M.Seyidzadənin sözlərinə S.Rüstəmovun bəstələdiyi «Böyük Lenin» mahnısını ifa etdikcə gənc idmançıların toplaşdığı meydanda hamıya əziz olan insanın adının canlı təsviri alındı: «Lenin».

***Şəxsiyyətin formalaşmasında əmək tərbiyəsinin əhəmiyyəti.*** Şəxsiyyətin formalaşmasında əxlaq, fiziki, estetik tərbiyə ilə yanaşı əmək tərbiyəsinin də böyük əhəmiyyəti

vardır. Əmək nəinki cəmiyyət üçün vacibdir. Cəmiyyət əmək üzərində, maddi nemətlərin istehsalı üzərində qurulur. Maddi və mənəvi sərvətlərin mənbəyi olan əmək olmadan cəmiyyət yaşaya bilməz. Əmək insanın orqanizmi üçün də vacibdir. Orqanizmin normal inkişafı əməkdən kənarda mümkün deyildir.

İnsan psixikasının inkişafında, əxlaqın saflaşmasında əməyin müstəsna əhəmiyyəti vardır. Vaxtilə «insan əməyin məhsuludur» deyəndə F.Engels tamamilə haqlı idi.

Bu cür vacib cəhətlərə görə ölkəmizdə əməyə və əmək tərbiyəsinə xüsusi əhəmiyyət verilir. Ailədən və uşaq bağçasından başlayan əmək tərbiyəsi təhsil ocaqlarında daha da dərinləşdirilir və daha da genişləndirilir. Həm sinif məşğələlərində, həm də sinifdənkənar məşğələlər zamanı şagirdlər əməyin mahiyyəti və əhəmiyyəti haqqında anlayış əldə edir, əmək adamlarına hörmət ruhunda tərbiyə olunur, əmək vədişlərinə yiyələnirlər. Şagirdlər nəinki zehni əmək, habelə fiziki əmək sahəsində kamilləşirlər. Fənnin xarakterindən asılı olmayaraq tədris tapşırıqlarını icra edən şagird tapşırıqların yerinə yetirilməsi üçün iradi səy göstərməli olur, tədris məqsədinə nail olmaq üçün vasitələr düşünür, onları tətbiq edir, rast gəldiyi çətinlikləri aradan qaldırır, nəticədə tapşırığın öhdəsindən gəlir. Buna görə də deməliyik ki, şagirdlərin əmək tərbiyəsi üçün müstəsnasız olaraq bütün fənlərin geniş imkanları vardır.

Ədəbiyyat, tarix, riyaziyyat və s. ümumtəhsil fənlərinin əmək tərbiyəsi imkanları ilə yanaşı şagirdlərdə əmək vərdişlərinin və anlayışlarının formalaşmasına bilavasitə yardım edən spesifik imkanları da vardır. Bu mənada biz orta ümumtəhsil məktəblərinin tədris planlarında nəzərdə tutulmuş əl əməyini, əmək təlimini, praktikumları və istehsalat təcrübəsini nəzərdə tuturuq. Əgər digər ümumtəhsil fənləri əmək tərbiyəsinin qarşısında duran vəzifələrə bilavasitə deyil, dolayı yolla xidmət edirsə, əmək təlimi məşğələləri şagirdlərdə əmək vərdişləri və anlayışlarının formalaşdırılmasına bilavasitə kömək göstərir. Fiziki əmək

vərdişləri tədris planı üzrə I sinifdən X sinfə kimi başlıca olaraq əmək məşğələlərində şagirdlərə aşılanır.

Əmək tərbiyəsi qarşısında qoyulmuş vəzifələr sinifdənxaric tədbirlər `sistemində də həyata keçirilir. Şagirdlərin özünəxidmət, ictimai-faydalı və məhsuldar əməyi buraya daxildir. Özünəxidmət zamanı şagird yalnız şəxsən özünə xidmət etmək vərdişlərinə yiyələnmir, bundan əlavə oxuduğu sinfə və məktəbə xidmət vərdişlərinə də alışır. Göründüyü kimi geniş mənada başa düşülən özünəxidmət əməyi kommunist birgəyaşayış qaydalarına alışmaqda, təkcə özü üçün deyil, aid olduğu kollektiv üçün yaşadığını, kollektivə xidmət etməli olduğunu başa düşməkdə və vərdiş qazanmaqda böyük əhəmiyyətə malikdir.

İdeya-siyasi və əxlaqi keyfiyyətlərin şagirdlərə aşılanmasında ictimai-faydalı əməyin böyük əhəmiyyəti vardır. Şagirdlərin həyata, gələcək fəaliyyətə hazırlanmasına xidmət edən ictimai-faydalı və məhsuldar əmək sistemi həm məktəbdə, həm də məktəbdən kənarda həyata keçirilən tədbirləri nəzərədə tutur. Şagird əməyi indi məktəb çərçivəsindən çox-çox kənara çıxmışdır. Bu da təbiidir. V.İ.Lenin komsomolun III qurultayında demişdir ki, gələcəyin təlim və tərbiyəsi kommunizm quruculuğu ilə bağlı olmalıdır. Lenin ideyalarına daim sadiq Sov.İKP MK məktəbin həyatla, kommunizm quruculuğu ilə əlaqəsini möhkəmləndirmək üçün bir sıra qərarlar qəbul etmişdir. Partiya və hökumətin göstərişlərinə uyğun olaraq sovet məktəbləri həyatla, kommunizm quruculuğu ilə əlaqəni müxtəlif yollarla möhkəmləndirir. Məktəb şagirdləri küçənin, kəndin, şəhərin yaşıllaşdırılması, məktəb binasının təmiri, məktəb mikrorayonunun abadlaşdırılması və s. işlərə cəlb edir. Şagirdlər kənd təsərrüfatı işlərinə də kömək edirlər. Pambığın, tütünün, üzüm və alma bağlarının alaqdan təmizlənməsində, baramaya qulluq edilməsində, pambıq, tütün və bağ məhsullarının, habelə digər kənd təsərrüfatı məhsullarının yığılmasında şagirdlər fəal iştirak edirlər.

Xalq təsərrüfatının müxtəlif sahələrində, xüsusən kənd təsərrüfatında şagirdlərin iştirakı onlarda əməyə və əmək

adamlarına məhəbbət hissinin güclənməsinə, əmək vərdişlərinin möhkəmlənməsinə, təlim və tərbiyə işi səviyyəsinin yüksəlməsinə kömək edir.

Lakin təəssüflə etiraf etməyə məcburuq ki, şagirdlərin xüsusən kənd təsərrüfatı işlərinə cəlb edilməsində yol verilən tək-tək qüsurlar bu gözəl tədbirlərin tərbiyəvi səmərəsinin xeyli aşağı düşməsinə səbəb olur. Geniş ictimaiyyəti narahat edən iki məsələyə diqqəti cəlb etmək istərdik. Bunlardan biri şagirdlərin təsərrüfat əməyinə cəlb olunmasının xarakteri ilə əlaqədardır. Məlum olduğu kimi, Sovet İttifaqı Kommunist partiyası və Sovet dövləti tələb etmiş və indi də tələb edir ki, şagird əməyi yalnız təlim və tərbiyə vəzifələrinə tabe edilməməlidir: təlimə xidmət etməyən əməyə şagirdlərin cəlb olunmasına yol verilməməlidir. Azərbaycan SSR Konstitusiyasının 40-cı maddəsində yazılmışdır ki, «Azərbaycan SSR vətəndaşları sağlamlığın qorunması hüququna malikdir və bu hüquq bir sıra vasitələrlə, o cümlədən təlimə və əmək tərbiyəsinə daxil olmayan uşaq əməyinin qadağan edilməsi ilə təmin edilir».

Uşaqların məhsuldar əməyə cəlb olunmasına aid partiya və hökumətimizin konkret və aydın göstərişi olduğuna baxmayaraq, bəzi məktəblərin və maarif şöbələrinin rəhbərləri şagirdləri təlimə dəxli olmayan uzun müddətli fiziki əməyə cəlb edirlər, təsərrüfatda şagird əməyini təlimlə, ayrı-ayrı proqram materiallarının öyrədilməsi ilə əlaqələndirmirlər. Nəticədə bu cür əmək şagird üçün nə təhsil cəhətdən, nə də tərbiyə cəhətdən səmərə verir. Şagirdlərin təlimlə əlaqələndirəilən, əmək tərbiyəsinin vəzifələri ilə əlaqələndirilən əmyə cəlb olunmasına qayğı göstərilməlidir.

İkinci məsələ şagird əməyinin təsərrüfatda təşkili zamanı yol verilən saxtakarlıq halları ilə bağlıdır. Məsələ burasındadır ki, dərsin əvəzinə şagirdləri tarlaya çıxaran bəzi məktəblərdə jurnala dərsin keçirildiyi qeyd edilir.

Bu cür saxtakarlıq gəncliyin mənəvi tərbiyəsinə çox ciddi ziyan vurur. Keçilməyən dərslərin, olmayan dərsə davamiyyətin və verilməyən cavabva qiymətin jurnala yazıldığını görən şagirdlərdə kollektivi və yuxarı təşkilatları aldat-

mağın, saxtakarlığın mümkün olduğuna dair əqidə yarana bilir, şagird şəxsiyyətində kommunist əxlaqı antipodlarının baş qaldırmasına münasib zəmin yaranar. Bu nöqsan etiraf olunmalı və müəyyən tədbir görülməlidir. Həyat göstərir ki, nöqsanı ört-basdır etmək yolu ilə problem həll etmək mümkün deyildir. Sov.İKP MK-nın 26 aprel 1979-cu il tarixli «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» qərarında deyilir: «İctimai həyatımızın aktual məsələlərini açıq şəkildə müzakirəyə qoymaqdan çəkinmək, həll edilməmiş problemləri, kəskin məsələləri və bunların üstündən keçmək, real həyatda mövcud olan nöqsanların və ya çətinliklərin üstünü vurmamaq meylinə təsadüf edilir ki, bunlarda ideya tərbiyəsi işi qarşısında partiyanın qoyduğu vəzifələrlə bir araya sığmır.[1]

Nöqsanlarımıza partiyanın bu mövqeyindən yanaşmalıyıq. Əvvəla, məktəb, o cümlədən müəllimlər kolxozun və sovxozun təsərrüfatına kömək etməlidirlər. Məktəb rəhbərləri və müəllimlər çalışmalıdırlar ki, hər dəfə şagird əməyi proqram materialları ilə, tərbiyə vəzifələri ilə əlaqələndirilsin. İkincisi, dərs zamanı, dərs hesabına şagirdlər tarlaya çıxarıldığı hallarda jurnala dərs yazılması qəti qadağan edilməlidir.

Müəllim və şagirdlərin tarlada olduğu günlərdə keçirilməyən proqram materiallarının öyrədilməsi və ya ixtisar olunması, təsərrüfata kömək etdikləri günlərdə müəllimlərə maaş verilməsi imkanları açıq müzakirə olunmalı və aydın tədbir görülməlidir. Qaldırılan problemin örtülü qalmaması, onun cəsarətlə həll edilməsi təlim-tərbiyə işinin səviyyəsinin yüksəldilməsinə kömək etməlidir.

***Tərbiyə işində kanikulların imkanlarından istifadə olunması.*** Şagird şəxsiyyətinin formalaşmasında kanikul günlərinin səmərəli keçirilməsi böyük əhəmiyyətə malikdir. Sovet məktəblərində kanikulların başlıca xüsusiyyətlərindən biri budur ki, şagirdlərin günləri mütəşəkkil keçir, bu vaxt onlar

---

[1] İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında Sov.İKP MK-nın 26 aprel 1979-cu il tarixli qərarı. Azərnəşr, 1979, səh.5-6.

daha fəal olurlar. Qış kanikulu günlərində şagirdlər, məsələn, pioner saraylarında və evlərində təsviri incəsənət sərgilərinə baxır, rəssamlarla görüşürlər. Pioner saraylarındakı, gənc təbiətçilər və gənc texniklər stansiyalarındakı dərnəklərin fəaliyyəti daha da canlanır Məsələn, 1980-cı ilin tətili günlərində Bakı şəhərindəki Şaumyan rayonu 2№-li pioner evinin özfəaliyyət dərnəyi üzvləri hərbi hissələrdə çıxış etmişlər. Yaxud, Razin qəsəbəsindəki pioner evinin yetirmələri-kitaraçılar, nağaraçılar, xoreoqrafiya dərnəyinin üzvləri-öz valideynləri üçün konsertlər vermişlər. Qaqarin adına pioner və məktəblilər sarayında politexnik olimpiada keçirilmişdir. Respublikanın bir çox rayonlarının məktəblərində şagirdlərin texniki yaradıcılıq sərgisi təşkil olunmuş, ən qabliyyətli gənc texniklər ölkəmizin digər şəhərlərinin ən güclü gənc texnikləri ilə görüşmək üçün Moskvaya getmişlər.

Qış kanikulu günlərində şagirdlərin V.İ.Lenin adına neft emalı zavoduna, «Bakı fəhləsi» Montin adına, S.M.Kirov adına maşınqayırma zavodlarına, V.İ.Lenin adına tikiş kombinatına və s. istehsalat müəssisələrinə ekskursiyaları, istehsalat qabaqcılları, əmək qəhrəmanları, partiya və komsomol veteranları ilə onların görüşləri şagirdlərdə əməyə və əmək adamlarına məhəbbət hissinin, vətənpərvərlik hissinin güclənməsinə kömək etmişdir.

Kitabxanalarda, xüsusən uşaq kitabxanalarında yazıçılar və şairlərlə, bəstəkar və aktyorlarla görüşlər, oxucular konfransları şagirdlərin estetik və əxlaq tərbiyəsinə az təsir etməmişdir.

Moskva, Leninqrad, Riqa, Vilnüs, Odessa, Tbilisi, Yerevan, Qorki, Nalçik və s. şəhərlərə şagirdlərin ekskursiyalarının təşkili onlarda vətənpərvərlik və iftixar hissinin dərinləşməsinə kömək etmişdir.

Şagird şəxsiyyətinin hərtərəfli inkişaf üçün yay istirahət günlərinin də imkanları az deyildir. «Pioner və məktəblilərin istirahətinin təşkilini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» Sov.İKP MK-nın, habelə bu sahədə Azərb. KP MK-nın qərarları əsasında uşaqların hərtərəfli inkişafını

təmin etmək üçün ölkəmizin hər yerində olduğu kimi respublikamızda da böyük işlər görülür. Əgər doqquzuncu beşillik ərzində respublikamızda 1. 880 yeri olan 8 pioner düşərgəsi tikilib istifadəyə verilmişdisə, onuncu beşilliyin dörd ili ərzində pioner düşərgələrinin sayı 2 dəfə artmışdır, bunlarda 3. 520 uşaq dincəlmişdir. Şəfalı Xəzərin qumlu sahillərində, dağların yaraşığı Şuşada, səfalı Hacıkənd meşələrində, bulaqlı Lənkəran, Zaqatala, Şəki, İsmayıllı yaylarında və respublikamızın digər cazibədar guşələrində düşərgələr pionerləri öz ağuşuna almışdır. Xüsusi olaraq qeyd etməliyik ki, 1979-cu ildə 1. 047 düşərgədə 250 min pioner və məktəbli pulsuz və güzəştli putyovka ilə istirahət etmişdir.

1980-ci ilin yayında həmkarlar ittifaqı, komsomol, xalq maarifi və ictimai təşkilatların köməyi ilə xalqımızın və onun inqilabi mübarizəsinin tarixi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti, döyüş və əmək ənənələri haqqında məlumat toplamaları məqsədilə uşaqların və yeniyetmələrin böyük şəhərlərə turist səfərləri keçirilmişdir.

Əmək, istirahət, hərbi-idman, gənc meşəçi və digər profilli düşərgələrin tərbiyəvi imkanları da nəzərə alınır. 1980-cı ildə respublikamızda 700 əmək-istirahət guşəsi fəaliyyət göstərmişdir ki, bu düşərgələrdə 150 min məktəbli istirahət etməklə yanaşı müxtəlif təsərrüfat sahələrində çalışmış, əmək vərdişlərinə yiyələnmiş, məktəbdə qazandıqları bilikləri təcrübədə daha da dərinləşdirmişlər.

Yay tətili günlərində şəhərlərdə qalan şagirdlər də partiya və hökumətin qayğısı ilə əhatə olunur. Bu cür uşaqların istirahətini və tərbiyəsini səmərəli və mütəşəkkil etmək üçün şəhər tipli düşərgələrdə yaradılır. Məsələn, 1980-ci ildə respublikamızın mədəni-maarif ocaqlarında, pioner parklarında, iri məhəllələrdə, pioner evlərində, uşaq klublarında fəaliyyət göstərmiş olan 134 şəhər tipli düşərgədə 25 mindən çox rəngarəng tədbirlərlə əhatə olunmuşdur.[1]

---

[1] «Azərbaycan müəllimi», 11 iyul, 1980.

Şəxsiyyətin hərtərəfli inkişafını təmin etmək cəhətdən tələbələrin yay tətili günlərini səmərəli təşkil etməyin böyük əhəmiyyəti olur. Ənənə şəklini alan inşaat dəstələrinin fəaliyyəti daha səciyyəvidir. Hazırda bütün ali məktəblərdə tələbələrin üçüncü ali semestri təşkil olunur. İnşaat dəstələrində tələbələrin fəaliyyəti əsil vətənpərvərlik məktəbinə çevrilmişdir. Tələbələrin əmək hünərinin sədaları təkcə respublikamızın tikintilərindən deyil, ucsuz-bucaqsız ölkəmizin müxtəlif şəhərlərindən, hətta sosialist ölkələrindən gəlir. Tələbələrdə əmək vərdişlərinin formalaşmasında, onlarda kommunist əxlaqı keyfiyyətlərinin aşılanmasında, ideya-siyasi əqidənin möhkəmlənməsində inşaat dəstələrinin əhəmiyyətini bir misalda-Azərbaycan mühəndis inşaat institutunun Kalinin vilayətində 1979-cu ildə fəaliyyət göstərmiş tələbə inşaat dəstələrinin nümunəsində göstərək. Yalnız 1979-cu ilin yayında Azərbaycan Mühəndis İnşaat İnstitutunun 530 tələbəsini əhatə edən 10 inşaat dəstəsi Kalinin vilayətində olmuşdur. Dəstələrdən üçü «Rakovski», «Kuçinski» və «Blaqinski» sovxozlarında maldarlıq binaları tikmişlər. «Bakı» inşaat dəstəsi 1.100 yeri olan məktəb binası tikintisini başa çatdırmışdır. Plandan əlavə uşaq bağçası üçün bina da tikmişlər. «Kəpəz» inşaat dəstəsi qonşuluqda ferma tikmişdir. «Azərbaycan» inşaat dəstəsi Kalinin şəhərində telefon kabeli çəkmişdir. «Xəzər» inşaat dəstəsi 70 min manatlıq iş görmüşdür. İnstitutun tələbələri həmin yayı Kalinin vilayətində müqaviləyə görə 928 min manatlıq iş əvəzinə bir milyon yarımlıq iş görmüşlər.[1]

Tələbələr hətta istirahət günlərini də fəal işlə keçirərək ot və kətan yığımında sovxoza kömək etmiş, öz institutları haqqında sovxoz işçiləri üçün məruzə oxumuşlar. Tələbələr əmək smestri zamanı məhsuldar əməklə yanaşı Kalinin vilayətinin tarixi ilə də tanış olmuşlar. Öyrənmişlər ki, məsələn, Böyük Vətən müharibəsi illərində Rjevski əsil döyüşən şəhər olmuş, Moskvaya doğru faşist ordusunun qarşısını qəhrəmanlıqla kəsmişdir. Rjevski şəhəri Sovets-

---

[1] «                » 1.1 .1979.

kaya meydanındakı gözəl parkında daş üzərində bu sözlər həkk olunmuşdur: «1943-cü ildə burada Rjevskinin gizli fəaliyyət göstərən qəhrəmanları faşist qəsbkarları tərəfindən vəhşicəsinə edam olunmuşlar»

Müharibədən əvvəl 60 min əhalisi olmuş Rjevskidə azad edildiyi 1943-cü il martın 3-də yalnız 362 adam qalmışdı. Şəhərdə hər şey: dəmir yolları, sənaye müəssisələri, məktəblər, xəstəxanalar, uşaq bağçaları yerlə yeksan edilmişdir. Rjevskidə Böyük Vətən müharibəsi zamanı həlak olmuş qəhrəmanların siyahısı Lenin adına sovxozda saxlanılır. Siyahıda azərbaycanlı familyaları da vardır.

Göründüyü kimi, inşaat dəstəsi tələbələrə nəinki əməyə və əmək adamlarına məhəbbət hissi aşılayır, onlara nəinki əmək vərdişləri verir, onları həm də həyata qovuşdurur, dünyagörüşlərinin genişlənməsinə, nəcib hisslərin inkişafına kömək edir.

Sovet adamlarında, o cümlədən gənc nəsildə şəxsiyyətin, xarakterin formalaşmasına güclü təsir göstərən tərbiyəvi amillərdən biri də nümunədir.

## 3. TƏRBİYƏ İŞİNDƏ NÜMUNƏNİN ROLU

***Nümunənin əhəmiyyəti.*** Yetkin sosializm dövründə müsbət nümunənn rolu daha da artmışdır. Qabaqcıl adamlardan söz açmağın, onların özünü və işini nümunə gətirməyin tərbiyəvi mənası böyükdür. Əvvələ, nümunə gətirilən adam özü hiss edir ki, onun şəxsiyyətinə, zəhmətinə, fəaliyyətinə yüksək qiymət verilir, sayılır, seçilir, başqalarına nümunə göstərilir. Belə bir qiymət həmin şəxsin özünü ruhlandırır, daha yaxşı işləməyə səyini artırır, ətrafdakı adamlarla qayğıkeş, xeyirxah münasibətinə qol-qanad verir. İkincisi, ətrafdakı adamlar əyani şəkildə görürlər ki, partiyamız, dövlətimiz, xalqımız kimlərə yüksək qiymət verir, cəmiyyətimizdə necə adamlar yüksəlir. Ətrafdakılar nümunə sayılan şəxsiyyətlər kimi olmağa çalışırlar. Deməli, həm nümunə gətirilən adamlar, həm də nümunəyə şahidlik edən adamlar

faydalandıqlarından və düzgün tərbiyə olunduğundan cəmiyyətimizin irəliyə doğru inkişafı sürətlənir.

Azərbaycan SSR-də kommunizm quruculuğu işləri ilə əlaqədar «Pravda» qəzetinin müxbirləri 1979-cu il avqust ayının əvvəllərində müsahibə keçirmişlər: Həmin müsahibə zamanı respblikamızın qabaqcıl adamlarından bir neçəsi o cümlədən adlı-sanlı neft ustası İsrafil Hüseynov nümunə gətirilmişdir. Belə bir yüksək qniymətdən xəbər tutan İ.Hüseynov yoldaş «Kommunist» qəzetində «Düzlüyə çağırış» adlı məqalə ilə çıxış etmişdir. Məqalədə oxuyuruq: Bu sözlər qəlbimizi sevinclə doldurur. Hamımız iftixar hissi keçiririk. Əməyimizin belə son dərəcə yüksək qiymətləndirilməsi bizi qanadlandırır, daha yaxşı işləməyə ruhlandırır».[1]

Cəmiyyətimizdə nümunə olmağa kimlərin haqqı vardır? Əsil kommunistlərin, qabaqcıl sovet adamlarının gözəl əxlaqi keyfiyyətlərini özlərində cəmləşdirən buruq ustası İsrafil Hüseynov, neftçi Qurban Abbasov, sağıcı Lena Qulyan, qurğu rəisi Zəki Şükürov, tokar Aleksandr Semyonov, inşaatçı Artyom Mirzoyan, kolxozçu Şamama Həsənova kimi adamların!

***Nümunəyə layiq olan adamların səciyyəvi keyfiyyətləri.*** Neft buruq ustası İsrafil Hüseynov adi fəhləlikdən mühəndisliyə qədər ucalmışdır. Əvvəlcə, texnikum, sonra isə institut qurtaran İ.Hüseynovun işlədiyi 28 Aprel adına neft yatağı açıq dənizdə məşhur Neft daşlarının qonşuluğundadır. İ.Hüseynov və onun aslan ürəkli, nər biləkli yoldaşları yalnız qəhrəmanlara müyəssər ola bilən şəraitdə fəaliyyət göstərirlər. Onların işlətdiyi qazma qurğusunun ümumi hündürlüyü dənizin təkindən ta buruğun başınadək 150 metrdir. Bunun 84 metri suyun altındadır. Dənizin səthindən qazma meydançasına 18 metrlik məsafə vardır. Qazma meydançasının tutduğu sahə 3 min kvadrat metrdir. Vertolyot meydançası təxminən 25 metr ucalığındadır. Belə bir qeyri-adi, nəhəng buruqda işləyən oğullar həqiqətən xariqələr yaradırlar. Bir ailə üzvləri kimi işləyən və yaşayan

---

[1] «Kommunist» qəzeti, 4 avqust, 1979.

həmin buruq ustaları, məsələn, 9-cu beşilliyin iki il doqquz aya ödəmişlər. Qeyri-adi şəraitdə nəhəng istehsalat addımları atan şəxslərdən biri kimiİ. Hüseynov SSRİ Ali Sovetinin deputatıdır, Azərb.KP Bakı şəhər komitəsinin üzvüdür, Respublika Dövlət mükafatı laureatıdır. Onun döşünü Sosialist Əməyi Qəhrəmanının Qızıl Ulduzu, orden və medallar bəzəyir.

Daim fədakarlıq, yenilik hissi ilə yaşamaq, irəliyə doğru can atmaq, xalqa maksimum fayda vermək kimi keyfiyyətlər neftçi Qurban Abbasova da xasdır. O, adi fəhləlikdən Xəzər Dəniz Neft və Qazçıxarma Ümumittifaq İstehsalat Birliyinin rəisi kimi şərəfli bir yol keçmişdir. Qurban Abbasov namuslu əməyi, işgüzarlığı ilə xalqın məhəbbətini qazanmışdır. Onun adına mahnı da bəstələnmişdir: «Neftçi Qurban». Qəhrəmanlığına, yeniliklərinə, ustalığına, çalışqanlığına görə Qurban Abbasova SSRİ Dövlət mükafatı laureatı,Sosialist Əməyi Qəhrəmanı, Respublika Dövlət mükafatı laureatı, SSRİ fəxri neftçisi və s. kimi fəxri adlar və mukafatlar verilmişdir. O, SSRİ Ali Sovetinin deputatı Sov.İKP XXV qurultayının nümayəndəsi olmuşdur.

Şərəfin zirvələrinə ucalan şəxslərdən biri də Lena Baxşıyevna Qulyandır. Mardakert rayonundakı Leninavan sovxozunun sağıcısı olan Lenanı şərəfin zirvələrinə ucaldan onun əməyə vurğunluğudur, vətəni sevməsidir, adamların xoşbəxtliyi üçün canını əsirgəməməsidir, kəndə, ailəsinə maksimum qayğı göstərməsidir. Lena onuncu beşilliyin ikinci ilində hər inəkdən 6.451 kiloqram süd sağmışdır. Həmin beşilliyin üçüncü ilində köhnə rekordu təzələmişdir, hər inəkdən 6.492 kq süd sağmışdır. 1979-cu ilin 6 ayında isə hər inəkdən 3.821 kq süd sağa bilmişdir.

Lena qabaqcıl təcrübənin öyrənilməsinə böyük diqqət yetirir, qəzet və jurnallar oxuyur, sağıcılığın sirlərini öyrənir. O öz həyatını kəndin, sovxozun həyatından ayrı təsəvvür etmir. Kəndin abadlaşdırılması, adamların rahatlığının təmin edilməsi Lenanı düşündürən məsələlərdəndir. Vilayətin, respublikanın partiya və sovet təşkilatları ilə sıx əlaqə saxlayır.

Ailə münasibətlərində də Lena nümunədir. Şərəfli əməyi ilə şöhrətlənən Lena ailəsinin bütün qayğıları ilə də mşğul olmağa vaxt tapır, uşaqlarının vətəndaş kimi böyüməlerinə xeyli əmək sərf edir. Böyük oğlu Mixail sürücüdür, qalanları şagirddir. Övladları barədə Lena belə düşünür: «Onların hansı ixtisas sahibi olacaqları öz işləridir. Bir valideyn kimi rahatıq, ona görə ki, uşaqlarda halal əməyə məhəbbət, cəmiyyətə hörmət hissi oyada bilmişik. Beləlari həyatda aciz qalmaz».

Nümunəvi keyfiyyətlərə malik olan Lena Azərbaycan SSR Ali Sovetinin deputatlığına, respublika Dövlət mükafatı laureatlığına, Sov.İKP XXV qurultayı nümayəndəliyinə, «Şərəf nişanı», «Qırmızı Əmək Bayrağı» ordenlərinə layiq görülmüşdür.

Əməyə vurğunluq, əməyi ilə xalqına xidmət etmək, bütün varlığını ölkənin çiçəklənməsinə, onun şöhrətinin daha da çoxalmasına tabe etmək kimi ülvi keyfiyyətlər Sov.İKP XXII qurultayı adına zavodun qurğu rəisi Zəki Şükürova da xasdır. Fəaliyyətinizdə nəyi əsas götürürsünüz, deyəndə, Zəki Şükürov qətiyyətlə cavab verir: «Gördüyümüz işin hər şeydən əvvəl, kollektivə, xalqa, cəmiyyətə xeyrini fikirləşirik».

Kollektivin, xalqın mənafeyini həmişə üstün tutan şəxsin sözü daim işinə uyğun gəlir. Belələrinin kollektivə rəhbər olmağa, nümunə olmağa haqqı vardır. Zəki Şükürov özü haqqında «Mənəvi borcumuz» adlı məqaləsində yazır: «Əgər özüm yaxşı işləməsəm, zəhmətin necə qüdrətə malik olduğunu əyani surətdə göstərməsəm, sözdə bir cür, işdə başqa cür hərəkət etsəm, onda mənə kim inanar?! Əlbəttə, heç kim»[1].

Sosialist Əməyi Qəhrəmanı Zəki Şükürov tabeliyində olan adamlar üçün gözəl nümunədir. Zəkinin qurğusunda işləyənlərin hamısı: Rəqəm İbişov, Aleksandr Alvinova, Qafil İsmayılov, Yevgeniya Oreşkina və başqaları Zəki mənəviyyatlı, Zəki qəlbli qurub-yaradanlardır. Zəkinin əli altından onlarla bu cür saf mənəviyyat sahibləri çıxmışdır, onların hərəsi bir kollektivə, bir qurğuya rəhbərlik edir, onların hər biri cəmiyyətimiz üçün faydalı adamlar yetiş-

---

[1] «Kommunist» qəzeti, 7 avqust, 1979.

dirir. Mirzəbaba Abutalıb oğlu, Yəhya Hacıyev, Nikolay Sosin və başqaları belələrindəndir. Zəkinin şagirdlərindən Mirzəbaba Abutalıb oğlu da Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Hansı sahədə işləyən şəxslər nümunə ola bilər? Nəinki istehsalat qabaqcılları, nəinki maarif və mədəniyyət, elm və incəsənət sahələrində, ictimai həyatımızın bütün digər sahələrində fədakar əmək və əxlaq nümunələri göstərən şəxslər! Birinci növbədə müəssisə, idarə və təşkilat rəhbərləri! V.İ.Lenin adamların tərbiyəsində rəhbərlərin şəxsi nümunəsinə böyük əhəmiyyət verərək yazırdı ki, biz fəhlələri və kəndliləri vicdanla intizama alışdırmaq istəyiriksə, bu işi hökmən özümüzdən başlamalıyıq.

***Tərbiyədə Lenin nümunəsindən istifadə edilməsi.*** V.İ.Lenin rəhbərliyin, insanlara rəftarın ən gözəl, hətta deyərdik ki, ideal nümunəsini vermişdir. Bunu dünyada ilk sosialist dövlətinin banisi, sosialist inqilabının təkrarolunmaz strateqi V.İ.Leninlə bilavasitə təmasda olmuş hər kəs çox qabarıq şəkildə hiss etmişdir. Mariya Skrıpnik belə şəxslərdən biri olmuşdur. Mariya Skrıpnik V.İ.Leninin yanında Xalq Komissarlar Sovetinin ikinci katibi vəzifəsində işləmişdir. «İliç haqqında xatirələr» yazmışdır. Xatirələrdə bir rəhbər kimi V.İ.Lenini səciyyələndirən bəzi cəhətlərə diqqəti cəlb edək. Bunlardan biri xeyirxahlığıdır, adamların şəxsiyyətinə hörmətlə tələbkarlığı uzlaşdırmasıdır. Mariya Skrıpnik xatirələrində yazır: «V.İ.Lenindən adamlara qayğı ilə yanaşmaq nümunəsi bizə irs qalmışdır. O heç zaman adamların yanından laqeyd keçməzdi. Xeyirxah idi. Bu, böyük bir insanın xeyirxahlığı idi. Bu xeyirxahlıq zahirən də onun xoşsifət və mehriban olmasında, rəftarında da özünü göstərirdi və bütün bunlara görə hər adam ona müraciət edə bilirdi.

Eyni zamanda da birisində prinsipiallıq olmadığını, onun intizamı pozduğunu hiss etdikdə ciddi və kəskin olurdu, yaltaqlıq, vəziyyətə uyğunlaşmaq və mənsəbpərəstlik kimi pis keyfiyyətlərə nifrət edirdi».[1]

---

[1] M.N.Skrıpnik. İliç haqqında xatirələr. Bakı, Azərnəşr, 1976, səh. 43-44.

Mariya Skrıpnikin xatirələri başqa bir cəhətdən – V.İ.Lenində adamların yaradıcı qüvvəsinə inam, onlarda yaxşı keyfiyyətləri üzə çıxarmaq və ona istinad etmək cəhətdən də səciyyəvidir. Rəhbərin xarakterində bu cəhəti sezən Mariya Skrıpnik yazırdı: «Mənim dərin əqidəmə görə, adamlar və hadisələr üzərində onun hökmranlığı və gücü bunda idi ki, o hər bir adamın yaradıcı qüvvəsini aşkara çıxarmağı hər kəsdən yaxşı bacarır, fəaliyyət üçün iradə gücünü səfərbərliyə ala bilirdi».[1]

Danışanı axıra qədər diqqətlə dinləməyi bacarmaq, onun fikrini aydın başa düşməyə çalışmaq V.İ.Leninə xas olan mühüm keyfiyyət idi. Bu cəhəti Mariya Skrıpnik hər dəfə müşahidə etmişdir. O, yazırdı: «Lenin heç zaman çıxış edənin sözünü kəsməzdi, hər adama öz fikrini axıra qədər söyləmək imkanı verər və hamısını diqqətlə dinləyərdi».[2]

İntizamı sevməyin, intizamlı olmağın və başqasından da bu keyfiyyəti tələb etməyin gözəl nümunəsi V.İ.Lenində olmuşdur. Mariya Skrıpnikin gətirdiyi faktlardan biri budur: «Xalq Komissarları Sovetinin iclaslarında Vladimir İliç həmişə birinci olaraq gəlirdi. Xalq Komissarları Soveti üzvlərinin azacıq gecikməsi onu əsəbləşdirirdi».[3]

V.İ.Leninin xarakterində bizdən ötrü nümunə olan cəhətlərdən biri də işdə səliqəlilikdir, səliqə-səhman tərəfdarı olmaqdır, səliqəsizliyə qarşı barışmaz olmaqdır. V.İ.Leninin fəaliyyətində bu cəhəti daim görən M.Skrıpnik yazırdı ki: İliçin «…stolun üstündə həmişə bir nizam görünürdü: o, səliqəsizliyə və hərcmərcliyə dözməzdi».[4]

Yoldaşlarına son dərəcə diqqətli olmaq, onlara daim qayğı göstərmək V.İ.Leninin xarakterində səciyyəvi xüsusiyyətlərdən biri olmuşdur. Bu xüsusiyyəti Mariya Skrıpnik həm başqalarına, həm də özünə Leninin münasibətində yəqin etmişdir. Mariya Skrıpnik Ukraynada Sovet hakimiyyəti təşkil olunandan sonra Kiyevə – başqa işə göndərilir.

---

[1] Mariya Skrıpnik. İliç haqqında xatirələr. Azərnəşr, 1967, səh. 22.

[2] Yenə orada, səh. 43.

[3] Yenə orada, səh. 43.

[4] Yenə orada, səh. 25.

Kiyevə göndərilən zaman o, xəstələnir. Xeyli vaxtdan sonra Mariya Moskvada Xalq Komissarları Sovetində Vladimir İliçi görür. Vladimir İliç adəti üzrə mehribanlıqla görüşür və axırda: -Bəs səhhətiniz necədir, - deyə maraqlanır – O zaman Smolnıda xəstə idiniz.

Sadə əmək adamlarının ürəyindən olan keyfiyyətlər V.İ.Lenində təcəssüm tapmışdır. Adamların psixologiyasında, əxlaqına təsir etməyin müxtəlif formaları bir rəhbər kimi V.İ.Leninin iş üslubunda daim sezilmişdir:yumşaqlıq və sərtlik, rəhbərlikdə müstəqillik və kollegiallığın uzlaşması, tabeliyindəki adamlara qarşı tələbkarlıq və onların tələblərinə əməl etmək, etibar və nəzarət, adamlarla rəsmi olmaq və eyn zamanda onlarla dostcasına mehriban olmaq, əmr vermək və xahiş etmək, inandırmaq və tənqid etmək, gülümsəmək və ciddilik, güzəştə getmək və amansız olmaq kimi bir-birini elə bil istisna edən keyfiyyətlər əlavə olaraq göstərir ki, adamların kimliyindən və onların əməllərinin necəliyindən asılı olaraq V.İ.Lenin yumşaqlıq göstərmiş, onlara etibar etmiş, mehriban olmuş, qayğı göstərmişdir. Sosialist inqilablarına, sosializm quruculuğuna maneçilik göstərənlərə isə, əksinə, nifrət hissi, qəzəb hissi bəsləmiş, onlara qarşı sərt və yenilməz olmuşdur.

V.İ.Leninin böyüklüyünü səciyyələndirən keyfiyyətlər arasında birinə də diqqəti cəlb etmək istərdik: başqalarından tələb etdiyi keyfiyyətlərin hamısının özündə olmasıdır. Belə bir cəhətin nümunədə rolu böyükdür. Həyata qədəm qoyan gənc oğlan və qızlara V.İ.Leninin yaradıcılığını öyrənməyi, onun kitablarını oxumağı, həyatını və xarakterinin xüsusiyyətlərini diqqətlə öyrənməyi, bizə qoyub getdiyi zəngin ideya irsini əxz etməyi tövsiyə etməkdən faydalı məsləhət ola bilməz. Çünki bəşəriyyətin, o cümlədən gəncliyin arzuladığı yaxşı nə varsa, hamısı V.İ.Lenində olmuşdur. O, əbədi şölə saçan mayak olmuş və indi də belə mayak olaraq qalır, o tükənməz nümunə mənbəyidir. V.İ.Lenin tipli rəhbərlər ölkəmizdə vardır.

Lenin tipli rəhbərlər qoyduqları bütün tələblərə özləri daim əməl edirlər. Məsələn, Zaporojye vilayətində işləyən

katiblərdən, biri tabeliyində olan partiya işçilərinə məsləhət görmüşdür ki, işlərin hamısını obyektlərə köçürsünlər. Onlar vilayət partiya komitəsi birinci katibinin özünün məhz bu cür hərəkət etdiyinə görə həmin məsləhətə əməl olunması tezliklə rayon, şəhər və vilayət partiya komitələrinin bütün katiblərində, şöbə müdirlərində, təlimatçılarında adət halını almışdır. Bu cür iş üslubunun böyük tərbiyəvi əhəmiyyəti vardır. Biz gərək heç vaxt unutmayaq ki, xüsusən rəhbər işçinin sözü əməlinə tamamilə uyğun gəlməlidir. Axı, rəhbər işçi həmişə göz qabağında olur. Buna görə də şaşqınlıq, zəiflik göstərə bilməz. Qəlbindən nələr keçsə də özünü yığışdırmalı, gümrah olmalı, əsəblərini cilovlamalıdır ki, adamlar ondan inam əxz etsinlər.

Deyilən cəhətlərlə yanaşı rəhbəri, o cümlədən kollektiv rəhbərini səciyyələndirən xüsusiyyətlərə obyektivliyi, düzlüyü, ədaləti də əlavə edənlər yanılmırlar. Azərbaycan SSR Ali Sovetinin deputatı inşaatçı İlyas Quliyevin sözləri və əməli buna nümunədir. Kirovabad şəhərindəki 3 nömrəli tikinti trestində briqadir işləyən İlyas Quliyev kollektiv rəhbərini səciyyələndirən cəhətlərə toxunarkən «Qəlblərə yol tapanda» adlı məqaləsində yazır. «Müxtəlif xarakterlərlə rastlaşmışam. Həmişə görmüşəm ki, gənclər ədalətli, obyektiv adamı çox sevirlər. Onları gərək düz-əməlli inandırasan. Gördülər ki, səmimisən, həqiqəti deyirsən, qurtardı, oda-alova buyursan, gedəcəklər».[1]

Gənclərdə şəxsiyyətin formalaşmasına valideynlərin nüfuzu, onların nümunəsi də güclü təsir göstərir. Valideyn nümunəsinin güclü təsirə malik olduğunu isbat edən faktlar çoxdur. Ulyanovlar ailəsində, Krupskayalar ailəsində tərbiyə təcrübəsi də bunu təsdiq edir. Məsələn, Nadejda Konstantinovna Krupskayada inqilabi xarakterin formalaşmasına təsir göstərən amillər arasında şair və yazıçılarla yanaşı valideynlərinin də təsiri olmuşdur.

Rəhbər işçinin fəaliyyətində kiçik görünən elə bir cəhət yoxdur ki, bu cəhət tabeliyində olan adamların mənəviyya-

---

[1] «Kommunist» qəzeti, 7 avqust 1979.

tında bu və ya digər şəkildə əks-səda verməsin, onların əxlaqına təsir göstərməsin.

Gözəl əxlaqi davranış nümunələri ilə yanaşı gəncliyə, təəssüf ki, pis nümunə verən idarə və müəssisə rəhbərləri hələ də vardır. Məsələn, tribunadan böyük vədlər verən, lakin işdə bu vədləri unudan müəssisə və ya idarə başçısı tabeliyində olan şəxslərə boşboğazlıq nümunəsi vermirmi? Yaxud, yığıncaq vaxtını elan edən, lakin yığıncağı həmin vaxtda açmayan şəxs, iclas üçün müəyyənləşdirilmiş reqlamentə tabe olmağı başqalarından tələb edən, lakin həmin reqlamentə əməl etməyən müəssisə rəhbəri, əşyabazlığı sözdə pisləyən, lakin özü bu xəstəliyə tutulan adam özünü kollektivə qarşı qoymaq, müəyyənləşdirilmiş qaydalara əməl etməmək nümunəsi vermirmi?

Zərərli nümunənin daha eybəcər formalarına da rast gəlmək olur.

Məsələn, ali məktəbin hazırlıq şöbəsinə daxil olmaq üçün bir sıra gənclərə saxta sənəd verən müəssisə və ya idarə rəhbəri güman edir ki, xeyirxahlıq, rəhmdillik göstərir. Əslində isə belə başabəla rəhbərlər gəncliyin əxlaqını pozmuş olur, pis nümunə verir, gənclərdə yanlış təsəvvür yarada bilir ki, hər hansı məqsədə əyri yolla da nail olmaq mümkündür.

Kollektivin rəhbəri deyəcəyi hər bir sözü, atacağı hər bir addımı əvvəlcədən ətraflı ölçüb-biçməli, onun tərbiyəvi nəticəsini əvvəlcədən görməyi bacarmalıdır.

Tərbiyədə nümunə ilə əlaqədar bir cəhətə də toxunmaq istərdik. Aydındır ki, tərbiyədə müəllim nüfuzu, hər şeydən əvvəl, müəllimin özündən, öz üzərində nə dərəcədə işlədiyindən, həmkarları ilə, şagirdlərlə, onların valideynləri ilə, ictimaiyyətlə rəftarından asılıdır. Bununla yanaşı, müəllim nüfuzu partiya və sovet orqanlarının, ictimaiyyətin müəllimə münasibəti ilə, müəllim nüfuzunu onların nə dərəcədə müdafiə etmələri ilə də əlaqədardır. Belə bir qanunauyğunluğu nəzərə alan Sov.İKP MK-sı müəllim nüfuzunun artırılmasına xüsusi qayğı göstərir və maariflə əlaqədar olan qərarlarda bu ideyanı ifadə edir. Məsələn,

«Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1977-ci il qərarında yazılır ki, məktəbin və müəllimin nüfuzunun möhkəmlənməsinə hər vasitə ilə kömək göstərilməlidir.

İnkişafımızın müasir mərhələsinə xas olan həmin qanunauyğunluq, təəssüf ki, bəzi rayonlarda heç də həmişə nəzərə alınmır. Xüsusən məktəblilərin kənd təsərrüfat işinə cəlb olunması zamanı bəzi təsərrüfat rəhbərləri müəllimlərlə rəftarında kobudluq əlamətləri göstərir ki, bu da müəllim nüfuzunun yüksəldilməsinə ziyan vurur.

Müəllim nüfuzunun yüksəldilməsi – hər yerdə dönmədən təmin olunmalıdır. Onu da unutmaq olmaz ki, Sov.İKP XXVI qurultayında maarif sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində müəllimin roluna yüksək qiymət verilmişdir: «Burada müəllimlər, əlbəttə, həlledici rol oynayırlar. Onların əməyinə, məişətinə, ixtisasının artırılmasına diqqəti əsirgəmək lazım deyildir. Lakin onların işinə tələbkarlıq da artır».[1]

Göründüyü kimi tədris müəssisələri, orada aparılan təlim-tərbiyə işi, zəhmətkeşlərin kommunist tərbiyəsi sovet adamları şəxsiyyətinin formalaşmasında aparıcı rola malikdir. Lakin, bununla yanaşı, tərbiyə mühitlə qarşılıqlı əlaqədə şəxsiyyətə təsir göstərir.

---

[1] Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayına Sov. İKP MK-nın hesabatı… Bakı, Azərnəşr, 1981, səh. 80.

# V FƏSİL.

# MÜHİT, TƏRBİYƏ VƏ İRSİYYƏT ARASINDA QARŞILIQLI ƏLAQƏ; QABİLİYYƏTLƏR VƏ ONLARIN İNKİŞAFI

## 1. MÜHİT VƏ TƏRBİYƏ ARASINDA QARŞILIQLI ƏLAQƏ

***Tərbiyənin mühitlə əlaqəsi.*** Ölkəmizdə Sov.İKP MK-nın rəhbərliyi ilə aparılan tərbiyə işinin ana xəttini bu işin həyatla, əməli məsələlərin həlli ilə əlaqələndirilməsi təşkil edir. V.İ.Lenin bu xəttin vacibliyini sovet hakimiyyətinin qurulduğu ilk günlərdən qeyd etmişdir. «Böyük təşəbbüs» adlı əsərində V.İ.Lenin yazırdı: «Kommunizm orada meydana gəlir ki, sıravi fəhlələr ağır əməyə üstün gələn bir fədakarlıqla əmək məhsuldarlığını artırmaq qayğısına..., taxılın, kömürün, dəmirin və başqa məhsulların hər pudunun qorunması qayğısına qalmağa başlayırlar». V.İ.Leninin ideyalarına daim sadiq qalan Sov.İKP tərbiyə işinin başlıca istiqşamətinə dair onun fikrini də dönmədən həyata keçirir.

Azər. KP MK-nın 1979-cu il iyul plenumunda «İdeoloji və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində»ki məruzəsində ideoloji işin, siyasi tərbiyə işinin həyatla, əməli məsələlərin həlli ilə əlaqəsini möhkəmləndirməyin lüzumundan xüsusi söhbət açılmışdır.

Əxlaq normalarını quruculuq işlərindən ayırmaq mümkün olmadığı kimi, əxlaq tərbiyəsini də quruculuq işlərinə münasibətdən ayırmaq olmaz. Bir çox qabaqcıl kollektivlərdə qaldırılmış «Yanımızda bircə nəfər də geridə qalan olmamalıdır» təşəbbüsü ilə əlaqədar partiyamızın irəli sürdüyü fikri burada xatırlamaq yerinə düşərdi. «Bu, təkcə istehsalat şüarı deyil, həm də mənəvi bir normadır».

Hər bir sovet adamı, hər bir gənc gündəlik gördüyü konkret işin ümumi məqsədlərimizlə əlaqəsini, bunlara nə dərəcədə xidmət etdiyini, öz davranışı ilə yüksək kommunizm idealları arasında əlaqənin olduğunu, həmin idealların həyata keçirilməsinə konkret davranışın nə dərəcədə kömək etdiyini başa düşürsə və həmin şüurun müqabilində fəaliyyət göstərirsə, kommunizm quruculuğu işinə real kömək etmiş olur. Kommunizmə xidmət edən belə bir şüura uyğun olaraq sovet adamlarında yüksək mənəvi keyfiyyətlər tez formalaşır, tərbiyə işinin səmərəliliyinə mənfi təsir göstərən keçmişin qalıqlarına qarşı, burjua ideologiyasına və əxlaqına qarşı mübarizə işi asanlaşır. Bu baxımdan tərbiyə və mühit arasında qarşılıqlı əlaqə məsələləri nəzərdən keçirilməlidir.

***Tərbiyə və mühit arasında qarşılıqlı əlaqə*** məsələləri bir də ona görə xüsusi öyrənilməlidir ki, inkişaf etmiş sosializm şəraitində tərbiyənin rolu xeyli artmışdır. Müasir şəraitdə tərbiyənin rolu barədə danışılarkən Sov.İKP Proqramında yazılır: «Kommunizmə keçilməsi prosesində cəmiyyətin həyatında əxlaq prinsiplərinin rolu getdikcə daha da artır, mənəvi amilin təsir dairəsi genişlənir və insanlar arasında qarşılıqlı münasibətlərin inzibati qaydada tənzim edilməsinin əhəmiyyəti müvafiq surətdə azalır».[1]

Həyat faktlarından görmək çətin deyildir ki aparılan tərbiyə işi mühitin tələblərinə uyğun gəldikdə onun səmərəsi artır, uyğun gəlmədikdə isə səmərəsi azalır, bəzən də heçə enir. Sosializm cəmiyyəti bəşəriyyətin idealı olan şəxsiyyətin hərtərəfli inkişafına real imkan verir və belə bir şəraitdə kommunist tərbiyəsi həmin idealın hyata keçirilməsini xeyli sürətləndirir. Lakin kapitalizm mühiti şəxsiyyətin hərtərəfli inkişafına imkan vermədiyindən bu istiqamətdə aparılan tərbiyə həmin mühitdə səmərə verə bilmir. Məlumdur ki ağır uşaq əməyi beynəlxalq razılığa gəlmələrlə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən bir səslə qəbul olunmuş uşaq hüquqları bəyannaməsi ilə qadağan

---

[1] Sovet İttifaqı Kommunist Partiyasının Proqramı. Azərnəşr, 1977, səh.108.

olunmuşdur. Buna baxmayaraq, xüsusi kapitalın hökm sürdüyü ölkələrdə uşaqlar ucuz iş qüvvəsi kimi insafsızcasına istismar olunur. Yoxsulluq və ehtiyac, qəddarlıq və əxlaqsızlıq şəraitində dünyaya gələn milyon-milyon uşaqların şəxsiyyətini hərtərəfli inkişaf etdirmək mümkündürmü?

Ədalətsizlik və zorakılıq nəinki bütövlükdə kapitalizm mühitinə xasdır. Bu eybəcərliklərdən məktəblər də xilas olmamışdır. ABŞ qəzeti «Deyli nyus»un yazdığına görə «Amerika məktəblərində oğurluq və dava-dalaş, bıçaqlaşma, döymək və soyğunçuluq hər gün baş verir».

Qəzetin yazdığına görə cinayət təkcə Nyu-Yorkdakı və onun ətrafındakı məktəblər üçün xarakterik deyildir, bütün ölkə üçün problemə çevrilmişdir. Əlbəttə, bu cür mühitdə uşaqlara humanizm hissləri aşılamaq, onların şəxsiyyətini hərtərəfli inkişaf etdirmək mümkün deyildir.

Sosializm mühitində fəaliyyət göstərən sovet məktəblərində isə insanpərvərlik, yoldaşlıq və dostluq, qarşılıqlı hörmət kimi insani keyfiyyətləri uşaqlara müvəffəqiyyətlə aşılamaq olur.

***Düşərgələrin imkanlarından istifadə edilməsi.*** Respublikamızın ictimai təşkilatları dərslərini müvəffəqiyyətlə başa vuran oğlan və qızların yay istirahətini, istirahət dövründə tərbiyə işini daha yaxşı təşkil etmək üçün hər il böyük işlər görürlər.

Düşərgələrdə uşaqların qabiliyyətlərini inkişaf etdirmək üçün hər cür şərait yaradılır. Uşaqlar xor, bədii qiraət, turizm, şahmat, voleybol, basketbol, futbol, tennis, həndbol, dama, gənc təbiətçilər, gənc rəssamlar və s. dərnək və bölmələrdə fəaliyyət göstərirlər. Uşaqlar düşərgələrin abadlaşdırılmasında da canla-başla iştirak edirlər. Onlar əkdikləri ağaclara, kollara, gül-çiçəklərə özləri qulluq edirlər.

Yay zamanı şəhərdə və kənddə qalan uşaqların istirahətini və tərbiyəsini müvəffəqiyyətlə təşkil etmək üçün məktəblərin nəzdində şəhər və kənd tipli düşərgələrin imkanlarından da geniş istifadə edilir.

**Mənzil-istismar kontorlarının imkanlarından tərbiyə məqsədi ilə istifadə edilməsi.** Mənzil-istismar kontorları iri

yaşayış məntəqələrində uşaqlar üçün futbol, voleybol, basketbol, nərd, şahmat, dama və s. dərnəklər təşkil edir, orada estetik, fiziki, əmək və əxlaqi qabiliyyətlərin qol-qanad açmasına şərait yaradırlar. Bir çox hallarda bu cur şəraitdən uşaqların tərbiyəsi üçün geniş istifadə olunur. Bircə misal. Kirovabad şəhərində «Kəpəz» futbol komandasının üzvləri məhz bu yolla parlamış, ümumittifaq yarışlarında dəfələrlə mükafata, hətta gümüş medala layiq görülmüşdür. 1955-ci ildə müəllimlərin, valideynlərin və ictimaiyyətin köməyi ilə şəhərin 9№-li mənzil-istismar kontorunun ərvazisində 12-13 yaşlı uşaqlardan ibarət komanda düzəldilmiş, sahə ayrılmış və orada həvəskarların köməyi ilə meydança, paltar saxlanan, yuyunan yer, istirahət otağı yaradılmışdır. Belə bir şəraitdə, ictimaiyyətçi həvəskarlar uşaqların fiziki, estetik və əxlaqi tərbiyəsi ilə müvəffəqiyyətlə məşğul olmuş, onları şərəfin uca zirvəsinə qaldıra bilmişlər. Bu cür faktlar göstərir ki. Mənzil-istismar kontorlarında tərbiyə işi üçün müvafiq şərait yaradıldıqda, bu şəraitdən maksimum dərəcədə istifadə edildikdə tərbiyə işinin səmərəsi qat-qat artır.

Hərbi idman, futbol, atıcılıq, şahmat, tennis, dekorativ incəsənət, toxuma və tikmə, kukla teatrı, foto, radiotexnika və s. bölmə və dərnəklər yaratmış olan mənzil-istismar kontorları şəhərlərimizdə az deyildir. Bu cür şərait olduqda, təbii ki, yaşayış yerləri tərbiyə ocağına çevrilə bilir.

Tərbiyə işi üçün yaradılan müvafiq şərait lazım olan kavtomatik olaraq uşaqlara aşılamır. Şərait amillərinin tərbiyə vasitələrinə çevrilməsi üçün böyük təşkilatçılıq işi tələb olunur. Məsələn, məktəblərarası tədris-istehsalat kombinatında gələcək həyat yolunu seçmələrində gənclərə real kömək etmək mümkündür. Çünki, MTİK-da adətən yaxşı təhciz olunmuş geniş tədris kabinetləri olur: müxtəlif peşələr üzrə təlim aparılır və s. Lakin MTİK-dakı şəraitdən məktəb rəhbərləri və müəllimlər kifayət qədər istifadə etmədikdə tərbiyə işinin səviyyəsi aşağı olur. Kombinatın imkanlarından maksimum dərəcədə istifadə edildikdə isə şagirdlərin həyata, əməyə hazırlanması səviyyəsi xeyli yüksəlir.

Eyni sözləri şagirdlərin tərbiyə işində istehsalat kollektivlərinin hami fəaliyyətinin təşkili barədə də demək olar.

***Hami təşkilatların imkanlarından istifadə.*** Bütün orta məktəblər ölkəmizdə hami təşkilatlarla əlaqədardır. Buna baxmayaraq hami təşkilatlarla əlaqə heç də bütün məktəblərdə eyni dərəcədə səmərə vermir. Çünki şagirdlərin peşə oriyentasiyası, əmək və əxlaq tərbiyəsi məqsədi ilə hami təşkilatların imkanlarından bütün məktəblər eyni dərəcədə səmərəli istifadə edə bilmir. Hansı məktəb hami təşkilatlarla birgə tədbirlərdən, briqada-sinif münasibətlərindən, qarşılıqlı öhdəlik götürməkdən, qarşılıqlı öhdəliyi birlikdə qəbul etməkdən və nəticəsini birlikdə müzakirə etməkdən, birgə istirahət gecələri, idman yarışları, disputlar, iməciliklər keçirməkdən, ən yaxşı komsomol briqadası, komsomol qrupu şərəfinə əmək şöhrəti məşəli yandırmaqdan, döyüş və əmək şöhrəti yerlərinə birgə yürüşlərdən, əmək və döyüş şöhrəti otaqlarını, tədris kabinetlərini birgə tərtib və təchizdən və digər yollardan istifadə edirsə, həmin məktəblərdə şagirdlərin əmək və əxlaq tərbiyəsinin səviyyəsi xeyli yüksək olur.

***Maarif və mədəniyyyət ocaqlarının imkanlarından tərbiyə məqsədi üçün istifadə edimləsi.*** Respublikamızda hər il keçirilən, məsələn, «Teatr», «Teatr baharı» adlı müsabiqələr xalq teatrlarının yaradıcılıq səviyyəsinin yüksəlməsinə, yeni-yeni kollektivlərin üzə çıxarılmasına imkan verir. «Teatr-78», «Teatr-79» və «Teatr-80» respublika baxış-müsabiqələrində Masallı, İsmayıllı və Şamxor rayonlarının dram kollektivləri tamaşaların bədii dəyərinə, rejisor və aktyor işindəki sənətkarlıq keyfiyyətlərinə görə xalq teatrı adına layiq görülmüşdür.

Özfəaliyyət dərnəklərinin, xalq teatrlarının inkişafı üçün yaradılan şəraitdən hərtərəfli istifadə olunduğu yerdə qabiliyyətlərin inkişafı daha geniş miqyas alır. Məsələn, Bakıdakı Xəzər dənizçilərinin mədəniyyət evində yaradılmış dram, Azərbaycan xalq çalğı alətləri ansamblı, vokal-instrumental ansamblı, «həmişə irəli» bədii-təşviqat briqadası, «Gənclik» kino həvəskarları studiyası və s.

dərnəklər, bu cür dərnəklərdə işin nümunəvi təşkili neçə-neçə qabiliyyətli adamın yetişməsinə səbəb olmuşdur.

Orta ümumtəhsil məktəblərində olduğu kimi, orta ixtisas məktəblərində də şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün münasib şərait yaradılır. Lakin bu şəraitdən tərbiyə vasitəsi kimi istifadə olunduğu yerdə daha çox şagird bədii fəaliyyətin müxtəlif növünə cəlb edilir. S.Dadaşov adına Kirovabad İnşaat texnikumunda yaradılmış şəraitdən tərbiyə məqsədi üçün nümunəvi istifadə edildiyini buna misal gətirmək olar. Texnikumda təşkil olunmuş «Gəncə» xalq çalğı alətləri ansablının konsertlərinə hətta ətraf rayonların və müəssisələrin zəhmətkeşləri böyük həvəslə qulaq asırlar.

Yaradılmış şəraitdən tərbiyə vasitəsi kimi müvəffəqiyyətlə istifadə olunması təşkilatçı tərbiyəçilərin təşəbbüskarlığından çox asılıdır. Məsələn, Lənkəran rayonundakı Gərmətük qəsəbə orta məktəbində təsviri incəsənətə marağın daha böyük olmasının səbəbini biz orada yaradılmış təsviri incəsənət dərnəyində, dərnəyin rəhbəri həvəskar rəsam Arif Seyfullayevin və məktəb rəhbərlərinin təşəbbüskarlığında görürük. Məktəbdəki böyük sərgidə şagirdlərin rəsmlərindən ibarət 130 eksponat olmuşdur. Eksponatlar Lənkəran rayonunu, onun əməkçilərini və onların istehsalat fəaliyyətini tərənnüm edir.

Gətirilən faktlar aydın şəkildə göstərir ki, müasir şəraitdə sosializmin imkanlarından tərbiyə məqsədləri üçün nə qədər geniş istifadə edilirsə, zəhmətkeşlərin və gənclərin mədəni-kütləvi və ideya-siyasi tərbiyə işinə cəlb edilməsi bir o qədər kütləvi xarakter alır. Buna görə də partiyamız sosializm şəraitinin imkanlarından tərbiyə məqsədləri üçün geniş istifadə olunmasını daim diqqət mərkəzində saxlayır.

«Bədii fəaliyyət yaradıcılığını daha da inkişaf etdirmək tədbirləri haqqında» Sov.İKP MK-nın qərarında deyildiyi kimi, «fəhlələrin, kolxozçuların, ziyalıların, tələbələrin, şagirdlərin və gənclərin bədii yaradıcılıqda kütləvi surətdə iştirak etməsi sosialist həyat tərzinin səciyyəvi xüsusiyyətidir, sovet xalqının mənəvi zənginliyinin parlaq təzahürüdür».

İctimai həyatımızın başqa bir cəhətinə – çoxuşaqlı ailələrə, onlara dövlətin münasibətinə, mühitin bu amilindən tərbiyədə nə dərəcədə istifadə olunduğuna diqqət yetirək. Sovet hökümətinin gündəlik qayğısı sayəsində ölkəmizdə çoxuşaqlı ailələrin sayı ildən-ilə artır. İndi çoxuşaqlı ailələr respublikaları meydana gəlir. Belə respublikalardan biri də Qazaxıstandır. Orada, məsələn, 1980-ci ilin fevralında 40 mindən artıq qadın «Qəhrəman ana» fəxri adına layiq görülmüşdür. Həmin respublikada çoxuşaqlı ailələrin sayının sürətlə artmasına təsir göstərən amillərdən biri də bu cür ailələrdən tərbiyə vasitəsi kimi istifadə edilməsidir. Respublikanın bir çox rayonlarında, hətta, bir çox kəndlərində «Qəhrəman analar klubu» böyük tərbiyəvi iş aparır. Kokçetav vilayətindəki, məsələn, «Bidaik» sovxozunda «Qəhrəman analar klubu» «Xoşbəxtlik böyük ailədədir» devizi altında olduqca müxtəlif tədbirlər keçirir. Belə tədbirlərdən iştirakçıların çıxardığı nəticəni bu cür ifadə etmək olar: çox uşağı olan ailədə valideynlər də, uşaqlar da özlərini xoşbəxt hiss edirlər. Tədbirlərin burada kütləvi, kollektiv xarakter daşıması da az əhəmiyyət kəsb etmir.

***Kollektivin tərbiyəvi imkanları.*** Şəxsiyyətin hərtərəfli inkişafı üçün adamın kollektivdə olması zəruridir. Qabiliyyətlərin, cəmiyyət üçün faydalı keyfiyyətlərin inkişafı kollektivdə mümkün olur. K. Marks və F. Engels haqlı olaraq yazırdılar: «Fərd öz təmayüllərini hərtərəfli inkişaf etdirmək üçün ona imkan verən vasitələri yalnız kollektivdə əldə edir».[1] İnsanın bəşəri ehtiyacları, onun başqaları ilə ünsiyyəti, öz varlığını büruzə vermək meyli, yaradıcılığa səyi kollektivdə ödənilə bilir. Bəşəri ehtiyaclarının kollektivdə ödənildiyini yəqin edən şəxs kollektivdən məmnun olur, ona bağlanır, adamın təşəbbüskarlığı, şücaəti, işgüzarlığı artır: nəyin yaxşı, nəyin isə yolverilməz olduğunu kollektivdən əxz edir. Şəxsiyyətin formalaşmasında kollektivin geniş imkanları olduğunun başa düşülməsi, kollektiv üzvlərinin müxtəlif ictimai əlaqələr sisteminə qoşulmasının təşkili

---

[1] K.Marks və F.Engels. Gənclər haqqında, Gənclik, Bakı, 1977, səh.245

nəinki iqtisadi, həm də pedaqoj əhəmiyyət kəsb edir. Kollektiv üzvlərində yaranan əhval-ruhiyyə, hiss və həyəcanlar, sevinc və ya kədər, inam və ya inamsızlıq kollektivin ümumi fəaliyyətinə, tərkibinin sabitləşməsinə, məhsulun keyfiyyətinə xeyli təsir göstərə bilir.

A.S.Makarenkonun vaxtilə işləyib hazırladığı «Kollektivdə, kollektiv vasitəsilə, kollektiv üçün» Prinsipi bu gün üçün xüsusilə aktuallıq kəsb edir. Kollektivə yalnız mühit amili kimi baxmaq olmaz. Kollektiv eyni zamanda güclü tərbiyə vasitəsidir. Kollektivdən tərbiyə vasitəsi kimi istifadə edilməsi kollektiv üzvlərinin, bütövlükdə kollektivin irəliyə doğru inkişafını sürətləndirir.

Kollektivin mütəşəkkilliyi, kollektiv mühitinin sağlamlığı ayrı-ayrı adamlara kollektivin qayğısı bu və ya digər şəxslərin xarakterində müşahidə edilən qüsurların aradan qaldırılmasına səbəb ola bilir. Kollektiv və onun rəhbərləri nəinki adamların şəxsiyyətindəki nöqsanları aradan qaldırmağa qadirdir, həm də cəmiyyət üçün faydalı olan keyfiyyətlərin onlara aşılanmasını şərtləndirir. Təşəbbüskarlıq kimi xasiyyətin formalaşmasına nəzər salaq. Ayrı-ayrı adamlarda təşəbbüskarlığın baş qaldırması kollektivin mühitində, onun rəhbərliyinin təşkilatçılığından da asılıdır. Faktlar göstərir ki, kollektivə rəhbərliyin xüsusiyyəti kollektiv üzvlərində təşəbbüskarlığın inkişafına təkan verə də, onun qarşısını ala da bilər. Adamların əmək və siyasi fəallığı, həyatda fəal mövqe tutmasının səviyyəsi onların işlədiyi kollektivin ideya-siyasi və əxlaqi-psixoloji vəziyyətindən də asılıdır. Kollektivdə birlik nə qədr möhkəmdirsə, onun partiya özəyi nə qədər prinsipial və ardıcıldırsa, ideya və vətəndaşlıq yetkinliyi nə qədər yüksəkdirsə, əxlaqi saflığı da bir o qədər yüksək olur. Kollektivdə xeyirxahlıq əhval-ruhiyyəsi yoldaşlıq və dostluq əhval-ruhiyyəsi adamlarda fəallığın və təşəbbüskarlığın artmasına kömək edir.

***İnformasiya mətnlərində tərbiyə məqsədi üçün istfadə edilməsi.*** Başqa müttəfiq respublikalarda olduğu kimi, respublikamızda da güclü informasiya mənbələri yaradılmış və müasir texnika ilə təchiz olunmuşdur. Bizdə 130 qəzet və

107 jurnal nəşr olunur. Hər il təqribən ümumi tirajı 13,5 milyon nüsxə olan 1400-dən çox adda kitab buraxılır. Azərbaycan televiziyası hər gün iki kanala 13 saat veriliş verir: radioda sutkada 48 saat 7 dildə veriliş gedir. Bu qədər qəzet və jurnallardan, kitablardan, radio və televiziya verilişlərindən zəhmətkeşlərin, gənclərin və uşaqların tərbiyəsində istifadəsi kütləvi və fərdi şəkildə təşkil edildikdə onlar mühit amillərindən pedaqoji amilə çevrilir.

Mühit amili olan kinodan, radio və televiziyadan kommunist tərbiyəsi vasitəsi kimi ölkəmizdə getdikcə daha geniş miqyasda istifadə edilir. Televiziyanın, məsələn, sənədli publisist və bədii əsərləri geniş tərbiyə imkanlarına malik olub, zəhmətkeşlər arasında ictimai rəy yaradılmasında partiyaya yazından kömək edir. Televiziya filmlərinin Bakı şəhərində keçirilmiş VIII Ümumittifaq festivalının materialları göstərdi ki, televiziya filmləri həm sosializm mühitinin, həm də sovet adamlarında şəxsiyyətin hərtərəfli inkişafına imkan yaradır. Unutmaq olmaz ki, mühit hadisələrini ümumləşdirən, bədii obrazlar yaradan filmlər həyat hadisələrini birtərəfli əks etdirdikdə, yəni diqqəti yalnız nöqsanlara cəlb etdikdə, yaxud müsbət cəhətləri həddən artıq şişirtdikdə, adamların psixologiyasına pis təsir edir. Mühit hadisələrinin televiziya filmlərində obyektiv şəkildə, sosializm realizmi mövqeyindən əks olunması zəhmətkeşlərin kommunist tərbiyəsinə lazımi qida verir. göründüyü kimi, filmlər özlüyündə mühit amili olur, şəxsiyyətin formalaşdırılması məqsədi üçün istifadə edildikdə isə tərbiyə vasitəsinə çevrilir. Mühiti zənginləşdirən abadlıq işləri: parkların salınması, abidələrin ucaldılması, fəvvarələrin düzəldilməsi, gözəl binaların tikilməsi və s. adamlarımızın psixologiyasına, onların xarakterinə tərbiyəvi təsir göstərir.

***Respublikalararası əlaqələrin tərbiyəvi imkanları.*** SSRİ-nin tərkibinə daxil olan respublikalar arasında qarşılıqlı iqtisadi, elmi və mədəni əlaqələr sovet həyat tərzinin yenilməz qanunauyğunluğuna çevrilmişdir. İctimai mühitimizin xüsusiyyətinə istinad edilməsi, ondan istifadə olunması xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, xalqlar dost-

luğu, sovet vətənpərvərliyi və beynəlmiləlçilik hisslərinin onlara aşılanması vasitəsi olur. Əlaqələrin son dərəcə müxtəlif formaları meydana gəlmişdir: şəxsi əlaqə; müəssisələrarası, kolxozlararası, rayonlar və şəhərlərarası respublikalararası əlaqələr və s.

***Xalqlar arasında qarşılıqlı əlaqələrin tərbiyəvi imkanları.*** Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərində daha qabarıq şəkildə özünü göstərmişdir. Məsələn, Sumqayıtda əziz qonaqları Çərkəz Qurbanov və Qriqori Onışko salamlamışdır. Onlar kimdir? Hər ikisi Sumqayıtda işləyir. Biri azərbaycanlıdır, o biri ukraynalı. 1943-cü ildə həmyerlimiz başçılıq etdiyi kəşviyyat vzvodu şiddətli vuruşmalarda Kirovoqrad vilayətindəki Voloçanovka xutorunu azad etmişdi. 30 ildən sonra azərbaycanlı döyüşçünün hünəri şərəfinə həmin xutora Çərkəz adı verilmişdir. İki Qırmızı Ulduz ordeni və bir çox döyüş medalları ilə təltif olunmuş Çərkəz Qurbanov birinci, ikinci və üçüncü Ukrayna cəbhələrində vuruşaraq Kiyevin, Xarkovun, Dnepropetrovskinin, Xersonun, Kirovoqradın və Ukraynanın onlarca kəndinin alman-faşist işğalçılarından azad olunmasında iştirak etmişdir.

Həmin jitomirli bir gənc – Qriqorii Onışko Sumqayıt şəhərini salmağa başlamış olan inşaatçılar dəstəsinə qoşulmuşdu. Qriqorinin yenilikçilik qabiliyyəti burada – Sumqayıtda qolqanad açmış, iki yüzdən artıq səmərələşdirmə təklifi və bir neçə ixtirası həyata keçirilmişdir. Dəmir-beton məmulatı zavodunun çilingəri Onışko burada zərbəçi əməyə görə vətənimizin yüksək mükafatına – Lenin ordeninə və Azərbaycan əməkdar səmərələşdirici adına layiq görülmüşdür.

Göründüyü kimi, Ukrayna elçilərini salamlayan Çərkəzin də, Qriqorinin də həyatı və fəaliyyəti ibrətamiz olub böyük tərbiyəvi təsir gücünə malikdir: biri faşist işğalçılarından Ukraynanın azad olunmasında həyatını əsirgəməmiş, digəri bütün fəaliyyətini Azərbaycanın daha da çiçəklənməsinə həsr etmişdir.

Ukraynalı dostların özləri ilə gətirdiyi töhfələr də tərbiyə cəhətdən ətraflı ölçülüb biçilmişdir. Qardaş respublikanın

ədibləri, məsələn, Azərbaycanın 50-dən artıq şairinin əsərlərinin Ukrayna dilinə tərcümə edilib toplandığı «Azərbaycanım mənim» adlı kitabı gətirmişdilər. Ukraynalı dostların qələm qardaşları isə onlara Ukrayna poeziyası və nəsrindən ibarət iki yeni məcmuə təqdim etmişlər. Bu məcmuələr Ukrayna SSR ədəbiyyatı və incəsənəti günləri münasibətilə Azərbaycanda buraxılmışdı. Göründüyü kimi, millətlərin və milli mədəniyyətlərin daha da yaxınlaşması, qarşılıqlı şəkildə şəkildə zənginləşməsi əxlaqi və ideya-siyasi tərbiyənin həyata keçirilməsini xeyli asanlaşdırır. Mədəniyyət, incəsənət və ədəbiyyat sahəsində hər hansı müttəfiq respublikanın qazandığı nailiyyətlərlə digər respublikaların tanışlığı ümumxalq xarakteri alır və adamların sovet vətənpərvərliyi, sosialist beynəlmiləlçiliyi ruhunda tərbiyəsi üçün, şəxsiyyətin müvəffəqiyyətlə formalaşması üçün münasib şərait daha da genişlənir və dərinləşir. İdeya-siyasi və əxlaq tərbiyəsinin müvəffəqiyyətinin isə öz növbəsində cəmiyyətin iqtisadiyyatının, mədəniyyətinin, elmi və maarifinin sonrakı sürətli inkişafı üçün vacib şərtlərindən birinə çevrilir.

Beləliklə, tərbiyə vasitələri adamın şəxsiyyətinə, o cümlədən uşaq şəxsiyyətinə birbaşa, mexaniki şəkildə təsir göstərmir. Bu təsir müəyyən mühitdə, müəyyən həyat tərzində baş verir. tərbiyənin təsir gücü tərbiyənin həyata keçirildiyi mühitin xarakterindən, onun necəliyindən də asılı olur. Tərbiyənin cərəyan etdiyi mühit tərbiyəvi təsirin kəsərini artıra da, azalda da bilir. Müəyyən tərbiyə işi hər cür mühitdə arzu olunan nəticəni vermir, tərbiyə işindən gözlədiyimiz nəticəni müvafiq şəraitdə almaq mümkün olur. Deməli, tərbiyəvi tədbir təşkil olunan zaman həmin tədbirin müvəffəqiyyətlə keçməsini tələb edən şərait yaradılmalıdır.

Eyni tərbiyəvi tədbir kapitalizm və sosializm mühitində başqa-başqa səmərə verir. Sosializm mühiti kommunist tərbiyəsinin müvəffəqiyyəti üçün başlıca şərtlərdən biridir.

Maarif ocaqlarında, ailədə, ictimai yerlərdə, təşkilat və müəssisələrdə sovet adamlarının, o cümlədən yetişməkdə olan gənc nəslin kommunist tərbiyəsini müvəffəqiyyətlə təşkil etmək üçün sosializm cəmiyyəti geniş imkanlar

yaratmışdır. Lakin sosializmin üstünlüklərindən, sosialist həyat tərzinin bizə verdiyi geniş imkanlardan bütün məktəblərimiz, bütün ailələrimiz, bütün təşkilatlarımız tərbiyə məqsədilə heç də həmişə tam istifadə edə bilmirlər. Sosializmin bütün imkanlarından tərbiyə məqsədilə maksimum dərəcədə istifadə olunmalıdır. Bundan əlavə, uşaqlarda hansı əxlaqi keyfiyyətləri görmək istəyiriksə, hansı əxlaqi sifətləri onlara aşılamaq istəyiriksə, uşaqlardan məhz həmin keyfiyyətləri tələb edən mühitin yaradılmasına nail olmalıyıq. Məhz belə şəraitdə bizim apardığımız tərbiyə işinin səmərəsi qat-qat artır. Deməli, mühitin və tərbiyənin şəxsiyyətə təsiri bir-birini tamamlamalıdır.

İnkişaf etmiş sosializm şəraitində mühit amilləri getdikcə daha artıq dərəcədə planlaşdırılır və kommunist tərbiyəsi vəzifələrinə tabe etdirilir, tərbiyə vasitələrinə çevrilir. İctimai mühit amillərinin sosializm dövründə getdikcə daha geniş miqyasda tərbiyə vasitələrinə çevrilməsi şəxsiyyətin formalaşmasında tərbiyəvi təsir dairəsinin, cəmiyyət üçün faydalı olan xüsusiyyətlərin gənc nəslə daha müvəffəqiyyətlə aşılanması imkanlarının genişlənməsinə səbəb olur. Buna görə də inkişaf etmiş sosializm dövründə mühit anlayışına dəyişməz anlayış kimi baxmaq olmaz. Şəxsiyyətin formalaşmasında mühit amillərindən planlı, məqsədyönlü şəkildə istifadə edilməsi tərbiyə cəbhəsinin genişləndiyini göstərir. Bəzən bunun əksi də müşahidə olunur: tərbiyəvi təsir vasitələrinə laqeydlik göstərilən yerlərdə həmin vasitələr mühit amili olur, tərbiyə prosesinin hüdudları məhdudlaşır, mühitin şəxsiyyətə təsiri isə güclənir. Mühit amillərinin tərbiyə vasitəsinə çevrilməsi şəxsiyyətin formalaşmasını asanlaşdırdığı kimi, tərbiyə vasitələrinin qismən də olsa mühit amillərinə çevrilməsi isə şəxsiyyətin formalaşmasını xeyli çətinləşdirir. Şəxsiyyətə mühitin təsiri nə qədər geniş, tərbiyənin təsiri isə nə qədər məhduddursa, tərbiyəçinin işi bir o qədər çətinləşir. Tərbiyəvi təsirlər sistemindən kənarda qalan uşaqlar, adətən, birgəyaşayış qaydalarını pozmağa daha çox meylli olurlar. Həyatda bunun əksini də müşahidə etmək olur: şəxsiyyətə göstərilən tərbiyəvi təsir dairəsi nə qədər geniş-

lənirsə, bunun müqabilində mühitin təsir dairəsi isə nə qədər məhdudlaşırsa, tərbiyəçinin işi bir o qədər səmərəli olur.

Şəxsiyyətin formalaşmasında mühit və tərbiyənin qarşılıqlı əlaqəsində özünü göstərən həmin qanunauyğunluq tərbiyə işinin təşkili zamanı nəzərə alınmalıdır.

***Tərbiyə və irsiyyətin qarşılıqlı əlaqəsi.*** Deyilənlər qismən tərbiyə və irsiyyət arasındakı qarşılıqlı əlaqəyə də aiddir. İrsi əlamətlər tərbiyə işini həm asanlaşdıra, həm də çətinləşdirə bilir. Məsələn, normal irsi əlamətlər təlim-tərbiyə işinin müvəffəqiyyəti üçün zəruridir: belə irsi əlamətlər tərbiyə işinin müvəffəqiyyətlə nəticələnməsinə imkan verir. Normadankənar özünü göstərən irsi əlamətlər (irsi xəstəliklər) isə tərbiyə işini xeyli çətinləşdirir. Mühit amillərinin və tərbiyəvi tədbirlərin təsir göstərmək istədiyi fiziki, əxlaqi, estetik və s. keyfiyyətlərin şəxsiyyətdə normal inkişafı üçün orqanizmdə normal irsi imkanlar da olmalıdır. Belə imkanlar varsa, həmin təsirlərin səmərəsi çoxala bilir, yoxdursa, çətinlik artır. Buradan belə bir nəticə də çıxır ki, şəxsiyyətin formalaşmasına ümumiyyətlə irsiyyətin təsirindən danışmaq o qədər də dəqiq deyildir. Çünki şəxsiyyətin inkişafı həm normal, həm də qeyri-normal irsi imkanlar zəminində cərəyan edə bilir: tərbiyə vasitələrinin şəxsiyyətə təsiri həm normal, həm də qeyri-normal imkanlarla rastlaşa bilir.

Hüceyrədə əmələ gəlmiş gen və xromosom pozğunluqları, yəni irsi xəstəliklər, yuxarıda dediyimiz kimi, özlüyündə tərbiyə işini xeyli çətinləşdirir, lakin nəzərə alınmalıdır ki, sosioloji amillərin köməyi ilə,məsələn, profilaktik və müalicə tədbirləri ilə irsi xəstəliklərin şiddətlənməsi qarşısını almaq və nəticədə, tərbiyə işini qismən də olsa yüngülləşdirmək mümkündür: şəxsin əhval-ruhiyyəsi xeyli yaxşılaşır, tərbiyəvi təsir üçün bir qədər münasib psixoloji şərait yaranır.

İrsi xəstəliyin müalicəsi, əslində sosial amillərin köməyi ilə irsiyyətə təsir edilməsi və onun strukturunda müəyyən dəyişikliyin yaradılması deməkdir. Deməli, irsiyyət və mühit arasındakı qarşılıqlı əlaqənin necəliyi şəxsiyyətin formalsaşmasında müəyyən rol oynayır. Alimlərin apardıqları tədqiqatlardan məlum olur ki, bir çox irsi xəstəliklərin şiddət-

lənmə dərəcəsi ictimai mühitlə əlaqədar ola bilir. İnsan orqanizmi münasib olmayan sosial-siyasi və mənəvi mühitə düşdükdə irsi xəstəliklər özünü daha tez və daha qabarıq şəkildə göstərə bilir. Orqanizm üçün münasib mühit yaradıldıqda həmin irsi xəstəliklərdən bəzilərinin inkişafını ləngitmək olur. Qan təzyiqi, ateroskleroz, oma sümüyünün çıxığı və bir sıra digər xəstəliklərin irsiyyətlə əlaqədar olan halları buna misal ola bilər. Sovet alimlərinin tədqiqatları sübut edir ki, qan təzyiqi və ya ateroskleroz xəstəliyinə tutulmuş valideynlərin övladları münasib olmayan şəraitə düşən kimi həmin xəstəliklər onlarda daha tez baş qaldırır və daha şiddətli formada cərəyan edir. Xarici mühitin namünasib təsirləri ardıcıl olaraq aradan qaldırıldıqda nəsildən-nəslə, valideynlərdən uşaqlara keçən həmin xəstəliklərin ya qarşısı alınır, ya onlar azalır, yaxud da zəif təzahür edir.

## 2. QABİLİYYƏTLƏR VƏ ONLARIN İNKİŞAFI

Qabiliyyətin mahiyyətinə, şəxsiyyət strukturunda qabiliyyətlər probleminə marksizm-leninizm nəzəriyyəsində böyük əhəmiyyət verilir. Bunun səbəbi odur ki, qabiliyyətlər şəxsiyyət strukturunda mərkəzi yerlərdən birini tutur. Qabiliyyətin mövcud səviyyəsi, qabiliyyəti səciyyələndirən psixoloji keyfiyyətlərin necəliyi şəxsiyyətin sonrakı inkişafını şərtləndirən güclü amillərdən biridir.

Bəs, onda *qabiliyyət* nədir? Qabiliyyətləri səciyyələndirən başlıca cəhətlərdən birisi onun konkret fəaliyyətlə bağlılığıdır. Qabiliyyət deyərkən insan fəaliyyəti göz önündə canlanır. Adətən, hər hansı fəaliyyət sahəsində işi keyfiyyətlə və vaxtında icra edən adama qabiliyyətli adam deyirlər.

***Qabiliyətlərin fizioloji köklərinin*** olması onun ikinci başlıca xüsusiyyətidir. Qabiliyyətlərin inkişafında sürətlə və ya ləng formalaşması sinir sisteminin vəziyyətindən də asılıdır. Sinir sisteminin normal fəaliyyəti qabiliyyətlərin normal inkişafı üçün zəruri olan vacib şərtlərdən biridir.

Normal anatomik-fizioloji imkanlara malik olmayan və sinir sistemi normal fəaliyyət göstərməyən adamda qabiliyyətlərin yüksək dərəcədə inkişafına nail olmaq çox çətindir.

Qabiliyyətləri səciyyələndirən üçüncü mühüm cəhət psixika ilə, psixoloji keyfiyyətlərlə onun bağlılığıdır. Hər bir fəaliyyətin müvəffəqiyyətli olması adamdan müvafiq psixoloji keyfiyyətlər tələb edir. Məsələn, minik maşınının bacarıqla idarə olunması sürücüdən bir sıra psixoloji keyfiyyətləri, o cümlədən diqqətli olmağı, öz diqqətini yolun vəziyyəti, maşının sürəti, yoldan keçən adamlar, qarşıdan gələn maşınlar və s. amillər arasında bölüşdürə bilməyi tələb edir. Bu cür psixoloji keyfiyyətlər sürücüdə olmadıqda, sürücünün fəaliyyəti müvəffəqiyyətli getmir, maşın tez qəzaya uğraya bilir.

Beləliklə, qabiliyyət müəyyən fəaliyətin müvəffəqiyyətli cərəyan etməsi üçün adamdan tələb olunan fərdi psixoloji keyfiyyətlərdir.

A.N.Leontyev haqlı olaraq yazırdı ki, insanda formalaşan qabiliyyətlər yaranan yeni psixoloji əlamətlərdir ki, irsi mexanizm və proseslər zəruri olan daxili şərait rolunu oynayır və həmin psixoloji qabiliyyətlərin yaranmasına imkan verir, lakin onların nə keyfiyyətini, nə də tərkibini təyin edir.[1]

***Qabiliyyətlərin müxtəlif yaş dövründə vüsət ala bilməsi.*** Qabiliyyətlər adamda hansı yaşdan daha aydın şəkildə təzahür oluna bilər? Müxtəlif xarakterli faktlardan görmək olur ki, adamda qabiliyyət erkən yaşlarda da, inkişafın sonrakı dövründə də baş qaldıra bilir. Belə bir həyat həqiqətini hər sahədə: musiqi, təsviri incəsənət, ədəbiyyat, elm, texnika və s. sahələrdə müşahidə etmək mümkündür. Məsələn, Macarıstanın Alşojolts kəndində Andraş adlı balaca bir oğlan yaşayırdı. Bir neçə il bundan əvvəl Andraş Bakoşun hələ 6 yaşı olanda yaşıdları onu görən kimi sevinərlərmiş. Çünki o, babasından eşitdiyi müxtəlif hekayələri uşaqlara danışar, uşaqları əyləndirərmiş. Kiçik Andraş oxumağı və yazmağı bilməsə də, şifahi olaraq riyazi

---

[1] Problemı razvitiya psixiki, M. RSFSR PEA nəşriy. 1959, səh. 288.

hesablamaları sürətlə və dəqiq apararmış. Hətta çətinlik çəkmədən üç-dörd rəqəmli ədədləri vurub hasilini ifadə edərmiş. Qabiliyətləri lap kiçik yaşlarından inkişaf edən Andraş görkəmli macar alimlərinin diqqətini cəlb etmişdir.

Yaxud, Dnepropetrovsk şəhərində Ulanovski Slava adlı bir uşaq yaşayır. Podqorodiyansk 1№-li orta məktəbin I sinfində oxuyan zaman onun dörd yaşı vardı və əlaçı idi. Qeyri-adi qabiliyyət sahibi olan Slava yaş yarım olanda bütün əlifbanı bilirdi, üç yaşında oxumağı və yazmağı bacarırdı. Slava əlifba kitabından hər hansı mətni bir dəfə oxuyan kimi onu əzbər deyə bilirdi. Bu uşağın aqibəti ilə sonralar həkim və psixoloqlar maraqlanmışlar.

Başqa misal: Yuqoslaviyanın Zrendanino şəhərindən Borislav Hacanski on bir yaşında qələm və dəftərsiz riyaziyyatdan ali məktəb proqramını əla bilmiş, qələm və dəftərsiz ən mürəkkəb riyazi hesablamalar aparmışdır.

Belə faktlardan aydındır ki, qabiliyyətlər adamlarda hələ kiçik yaşlarından özünü qabarıq şəkildə göstərə bilir.

Başqa xarakterli həyat faktları da məlumdur. Qabiliyyətlər inkişafın sonrakı mərhələlərində də təzahür edə bilir. Məsələn, məşhur fizika-riyaziyyat elmləri doktoru, prof. A.İ.Markuşeviçin riyaziyyat sahəsində qabiliyyəti çox gec təzahür etmişdir. Özü haqqında qeydlərinin birində A.İ.Markuşeviç yazırdı ki, on iki yaşı olanda Davıdovun «Həndəsə» kitabından heç bir şey başa düşə bilməyibdir. Lakin xeyli vaxt keçdikdən sonra A.İ.Markuşeviç böyük riyaziyyatçı olub, riyaziyyatdan neçə-neçə kitablar yazıbdır.

Yazıçı Y.Sotnik, artist Q. Vitsin və bir çox başqaları maraqlı yaradıcılıq yolu keçmişdir. Y.Sotnik özü haqqında yazırdı: «12 yaşım olnda nə qədər «iki» qiymət alırdım». Müəllimlər mənə baxıb hey deyərdi:

«Görəsən bu zavallı uşağa bir şey başa salmaq mümkün olacaqmı?» Bəs RSFSR əməkdər artisti Q. Vitsin necə?

Q. Vitsin görün özü haqqında nə deyir:

«Cəbrdən o vaxt bildiyim, indi də yadımda qalan və müəllimin bütün suallarına cavabım belə idi: **a+v**»; müəllim isə dərindən nəfəs alıb deyərdi.

«Vitsin, otur! Əgər bildiyin **a+v**-dən irəli getməyəcəksə, sənə məsləhət görürəm: indidən özünə süpürgəci yeri axtara bilərsən».

Bu cür həyat faktları təsdiq edir ki, qabiliyyətlər inkişafın erkən dövründə də, sonrakı dövründə də təzahür edə bilir.

***Qabiliyyətlərin müxtəlif sahələrdə və müxtəlif istiqamətdə inkişaf edə bilməsi.*** Məsafədən fikri oxumaq sahəsində, şifahi hesablamalar sahəsində, eşitmə və görmə sahəsində, balet və şahmat sahəsində də, maddi nemətlər istehsalı və s. və i. a. sahələrdə qabiliyyətlər maksimum dərəcədə inkişaf edə bilir.

«*İdeomotor»*[1] hadisənin «oxunması» sahəsində qabiliyyətlərin son dərəcə inkişaf edə bilməsi faktlarına müraciət edək. Dünyada məşhur olan Mixail Kuni və Volf Messinq kimi, həmyerlimiz Tofiq Dadaşov da başqasının fikrini məsafədən «oxuya» bilir. Bu cür adamlarda başqasının əzələ hərəkətini həssaslıqla duymaq qabiliyyəti maksimum dərəcədə inkişaf etmişdir.

Volf Messinq xeyli vaxt bundan əvvəl öz qabiliyyəti haqqında yazırdı: «Güman etmək lazım deyildir ki, guya induktorun yalnız əl hərəkətləri «kompas» ola bilər. Mən fikri tapşırıqları induqtorla bilavasitə təmasda olmadıqda, hətta gözübağlı da tapa bilirəm. Burada mənə induktorun tənəffüs tezliyi, nəbzinin döyünməsi, səsin tembiri, yerişinin xarakteri və s. kömək edir».[2]

Fikri tapmağa titrəyişlər də, iy də, istilik də, mimik reaksiyalar da, baxışın istiqaməti və s-də əlaqə məlumat mənbəyi ola bilir.

Elmdə sübut edilmişdir ki, adam fikirləşərkən onun nəinki fikir orqanı olan beyni fəaliyyətdə olur; fikirlə əlaqədar olan üz, göz, əl, ayaq əzələləri və s. əzələlər də az və ya çox dərəcədə gərilir, hərəkət edir. Hələ neyrofiziologiyanın banisi olan İ.M.Seçenov «Baş beynin refleksləri» adlı kitabında yazırdı ki, baş beyin fəaliyyətinin bütün

---

[1] İdeomotor-fikirlə müşayiət olunan üz, əl, bədən hərəkətləri.
[2] «Texnika molodeji» jurnalı, №12, 1965.

hətsiz-hüdudsuz müxtəlif xarici təzahürləri nəticə etibarı ilə əzələ hərəkətlərinə gətirib çıxarır. Adam fikirləşdikdə xarakterindən, sinir siteminin xüsusiyyətlərindən asılı olaraq onun fikri əzələ hərəkətləri ilə (ideomotor hərəkətlərlə) zəif də olsa müəyyən dərəcədə müşayiət olunur. Fikirləşən şəxsin əzələ hərəktlərinin zəif təzahürlərini adi adamlar kənardan duya bilmir. Bu təzahürləri duymaq, qabiliyyətlərini maksimum dərəcədə inkişaf etdirmiş olan şəxslərin, məsələn T.Dadaşovun nəzərindən fikirlə müşayiət olunan hərəkətlər yayılmır. Tofiq Dadaşovun gözləri bağlı, başında qalın qara materialdan örtük, əlləri qabağa doğru uzanmış, barmaqları açılmış halda, elə bil havada gözə görünməz sapları tutmaq istəyir. O, düşünən şəxsin arzu və istəklərini bu vəziyyətdə dinləyir və çox keçmir ki, fikirləşən şəxsin tələblərinə əməl edir.

Belə bir qabiliyyətin sahibi olan T.Dadaşovun hələ orta məktəbin 7-ci sinfində oxuyarkən ədəbiyyat dərsində ilk dəfə hiss etmişdir ki, başqalarına məsafədən təsir göstərə bilir. Ədəbiyyat müəllimi dərsdə bir-birinin ardınca gözəl ifadə ilə şeir deyir. Tofiq öz-özünə fikirləşir: «Müəllim səhv edə bilməzmi?» O, müəllimin ünvanına ürəyində deyir: «Səhv et! Səhv et!» Müəllim dili dolaşmağa başlayır, şeiri davam etdirə bilmir və çətin vəziyyətə düşdüyünü hiss etdiyindən o, sinifdən çıxır.

Gözlənilməz vəziyyət Tofiqin özünü də çaşdırır. O yenə fikirləşir: «Doğrudanmı başqasına təsir göstərə bilirəm?»

Şübhəni dağıtmaq, sirri açmaq lazım idi. Sınaqlar başlayır. Tofiq dərsdə növbəti ev tapşırıqlarını təyin edə bilir... O, bir-biri ilə əsəbi deyişən iki nəfərə sözsüz təsir göstərmək, onları sakitləşdirmək qərarına gəlir. Tofiq buna nail olur. O, öz qabiliyyətini müxtəlif şəraitdə, müxtəlif şəxslərlə əlaqədar müvəffəqiyyətlə sınaqdan keçirir. Nəhayət, gərgin məşqlər başlayır. Küçəyə, metroya, adam çox olan yerlərə çıxır, əzələlərini maksimum dərəcədə gərir: çənəaltının əzələləri, boyun və qarın əzələləri gərilir, «daxili sinir cərəyanı» yaranır, başqasını öz təsiri altına almaq və ya fikrini «oxumaq» üçün özündə daxili imkanlar yaradır.

T.Dadaşov öz orqanizmini tam idarə etmək qabliyyətinə malikdir. O, indi istədiyi zaman bədənini tam gərginləşdirə, əzələlərini elə gərilmiş vəziyyətə sala bilir ki, onun bədəni öz hissiyyatını itirir, hətta iynələdikdə ağrı hiss etmir.

Belə vəziyyətdə T.Dadaşov təmasda olduğu şəxsdən müəyyən məsafədə emosional, obrazlı və impluslu siqnallar qəbul edə və onları müvafiq sözlərə və fikirlərə çevirə bilir.

***Xəstəliyi məsafədən təyin etmək və məsafədən müalicə etmək qabiliyyətinin*** adamlarda inkişafını göstərən faktlar da məlumdur. Tbilisi şəhərinin sakini Cuna Davitaşvili əllərini xəstənin bədənindən 10-15 santmetr aralı massaj eləyirmiş kimi yavaş-yavaş hərəkət etdirməklə xəstələnmiş orqanı və nahiyəni müəyyənləşdirir və yəni bədənə toxunmadan əl hərəkəti ilə xəstəliyi müalicə edir.

«Zarya Vostoka» qəzetinin yazdığına görə Cunanın yanına bir kişi gəlir. Onun üzü gah ağarır, gah qızarırmış: o, baş ağrısından şikayət edir. Kişini nəzərdən keçirən Cuna sol əlinin ovcunu açıb irəli, sağ əlini isə kişinin boynuna uzadır. Bir saniyə, iki saniyə bu vəziyyətdə dayanır. Sonra deyir: «Qurtardı»! Möcüzə göz qabağındadır: kişinin üzündən qırmızı ləkələr də, ağartı da çəkilir. Bunlarla birlikdə ağrı da. C.Davitaşvili ayağında trofik yara olan bir nəfəri redaksiya əməkdaşının gözləri qarşısında müalicə etmişdir. Bint açılır: dəridə ortası çökək olan nəmişli qara dairəvi yara görünür. Cuna deyir: «İndi mən bir neçə hərəkət edəcəyəm, yara qurumağa başlayacaq, quruyan qərtməyin altında qan süzüləcək, sonra isə hamısı çəkiləcək». O, sol əlinin barmaqları ilə yaraya toxunmadan onun üzərində hərəkət etdirir. Hər şey Cunanın dediyi kimi olur: yara qurumağa, qabığına qan sızmağa başlayır.

Cuna deyir ki, hələlik kifayətdir, bir dəfə də müalicəni təkrar etsək, xəstə tamam sağalar.

Bu cür faktlara əsasən güman edilir ki, Cunanın əllərindən statik elektirik axını çıxar və müalicə edilən şəxsin xəstə hüceyrələrini təxərrüşə gətirib sağaldır.

Cuma müalicə üsulunu belə izah edir: «Mən əlimi adamın bədənindən bir qədər aralı gəzdirəndə barmaqlarım olduqca

müxtəlif təsirlər, bəzən barmaqlarıma elə bil iynələr toxunur, bəzən hərarət, bəzən də barmaqlarım soyuqluq hiss edir. Duyğularımın müxtəlifliyi xəstənin bədənində bu və ya digər orqanın vəziyyətindən asılı olur».[1]

Müasir elm belə bir nəticəyə gəlmişdir ki, orqanizmin ətrafında biosahə olur. Orqanizmin daxili vəziyyətindən asılı olaraq biosahənin xüsusiyyətləri də dəyişə bilir. Cuna Davitaşvili bədənin ətrafında yaranan biosahənin xüsusiyyətlənini əlləri ilə hiss edə bilir. Bu hissiyyat Cunada maksimum inkişaf etmişdir.

Elə şəxslər də vardır ki, onlar hətta adam bir neçə kilometr uzaqda olduqda da onu «görə» və xəstəliyini müəyyənləşdirə bilir. B.A.İvanov buna parlaq nümunədir.

İvanov «Texnika-molodeji» jurnalının redaksiyasına dəvət olunur. Ona redaksiyanın əməkdaşlarından biri, məsələn, belə bir sual verir: - Mənim bu dəqiqə fikrən təsəvvür etdiyim qadın haqqında nə deyə bilərsiniz?

Siz o qadını yaxşımı tanıyırsınız? Mən diaqnoz verdikcə dəqiqliyini deyə bilərsinizmi?

Belə bir dialoqdan sonra jurnal yazır:[2] «Nələrin şahidi olduq. İvanov əlləri ilə Cuna kimi hərəkət edərək burada olmayan qadın haqqında danışmağa başladı: «Qadın 30 yaşındadır, əsəbidir, tez özündən çıxır, son ildə şəxsi həyatında çoxlu çətinlikləri olub, görünür şəxsi həyatı tam qaydada deyildir».

Bu sözlərdən sonra İvanov qadının xəstəlikləri haqqında dəqiq məlumat verir. Həmı təəcüblənir. Lakin İvanov bildirir ki, burada təəcüblü heç bir şey yoxdur: - Sadəcə olaraq mən özümdə gizli olan qabiliyyətləri tərbiyə etmişəm. Burada ona qədər adam vardır, bu qabiliyyətlər onlarda da vardır, lakin onlar həmin qabiliyyətləri ilə məşğul olmur, inkişaf etdirmirlər.

Qeyri-adi qabiliyyət şifahi hesablama sahəsində də müşahidə edilir. Məlumdur ki, hər şəxs müəyyən dərəcə şifahi hesablamanı bacarır. Lakin adamlar arasında elələri vardır

---

[1] Bax: «Zarya Vostoka» qəzeti, 19 oktyabr, 1979.
[2] Bax: «Texnika molodeji» №3. 1980, səh. 54.

ki, EHM surətinə bərabər surətlə şifahi hesablamalar apara bilir. Məsələn, yaponiyalı Osakaya 4024207478277656 7 ədədinin altıncı dərəcəli kökünü hesablamağı təklif edirlər. Osaka tapşırığı səhvsiz o dəqiqə cavab verir.

Bu cür möcüzəli qabiliyyətə malik olan şəxslərin bəziləri, ingilis Bakston, hələ yazıb-oxumağı bilmədiyi zaman şifahi hesablamada hər kəsi heyrətə salmışdır. Belə adamların bəziləri ümumi savad aldıqca şifahi hesablama qabiliyyətinin inkişaf tempi azalır. Amper buna misal ola bilər. Bəzilərində isə həm şifahi hesablama qabiliyyəti, həm də başqa qabiliyyətlər surətlə inkişaf edir. Qauss və Eyler buna gözəl nümunədir.

Bir neçə il bundan əvvəl fransız Moris Daqber dəqiqədə milyon əməl icra edən elektiron hesablayıcı maşınla yarışmışdır. O, verilmiş 10 misalı 3 dəqiqə 43 saniyəyə, maşın isə 5 dəqiqə 18 saniyəyə həll etmişdir.

Şifahi surətli hesablama qabiliyyətinin yaranma səbəbləri hələ elmdə tam aydınlaşdırılmamış olsa da, mütəxəssislərin fikrincə yaşlı adamlarda bu qabiliyyət müəyyən dərəcədə həyatda qazanılır. Kar uşaqlarda eşitmə, lal uşaqlarda nitq, kor uşaqlarda oxumaq qabiliyyətini inkişaf etdirməyin mümkün olduğu alimlərin həmin mülahizələrinin doğruluğunu təsdiq edən əlavə dəlillərdir. Tədqiqatlar isbat edir ki, məsələn, hətta tamamilə kar olan hər bir uşaqda eşitmə qalığı qalır və bu qalığa istinad etmək, onu inkişaf etdirmək, bu əsasda hətta həmin uşaqlara təhsil vermək mümkündür. Belə bir elmi nəticə, əlbəttə, kar uşaqlar haqqında əvvəlki təsəvvürləri alt-üst etmişdir: tam kar uşaqlarla aparılan iş sayəsində onlara əvvəlcə doqquz il ərzində ibtidai məktəb həcmində təhsil vermək olurdu, SSRİ PEA-sının Defektologiya institutunda bu cür uşaqlarla aparılan sistemli işin metodikasını təkmilləşdirmək yolu ilə 12 il ərzində 8 illik məktəbin proqramını onlara mənimsəmək mümkün olmuşdur. Mütəxəssislər hazırda həmin müddəti daha iki il qısaltmaq üzərində işləyirlər. Kar uşaqlar xüsusi sinifdə-divarları və döşəməsi əlavə səsləri udan materialla örtülmüş sinifdə məşğul olurlar. Həmin sinfin partaları eşitmə cihazları ilə, mikrofonlarla, səsi idarə

etmək üçün qurğularla təchiz olunmuşdur. Dinməzliyə məhkum olunmuş belə uşaqların səsləri eşitdiyini və danışdığını görən hər kəs yəqin edir ki, insanlar təbiət qarşısında, xüsusən insan təiətinin karlıq kimi «nemətləri» qarşında aciz deyil, onlara da üstün gəlməyə qadirdir.

Dilləri müvəffəqiyyətlə mənimsəmək sahəsində də fövqəlada nəticələr qazanmaq hallarda vardır. Leninqrad şəhərindəki ali məktəb müəllimi Sergey Xalipov buna misal ola bilər. Xalipov dilçidir 19 dil bilir. O, xarici dili bir aya öyrənir. S.Xalipovun öyrəndiyi dillər arasında holland, island, irland və s. dillər də vardır.

Şahmat sahəsində qabiliyyəti erkən inkişaf edən, 15 yaşında SSRİ birinciliyi uğrunda mübarizə aparan və beynəlxalq usta adını alan bakılı Harri Qasparov dünya şahmat ictimaiyyətinin diqqətini cəlb etmişdir. On yaşında idman ustasına namizəd adı alan Harri Qasparov hələ 7 yaşında ikən külli miqdarda coğrafi adları, tarixi rəqəmləri yadda saxlamış, şeiri bir-iki dəfə oxumaqla əzbərləmiş valideynlərinin oxuduğu bir səhifəlik mətni oxuduğu kimi təkrar etməyi bacarmışdır. Harri 12 yaşında gənclər arasında SSRİ çempionatında birinci yerə çıxmışdır. O, 1979-cu ildə yeddi qrossmesterin və doqquz beynəlxalq ustanın mübarizə apardığı beynəlxalq yarışda iştirak edərək beynəlxalq usta adına və birinci qrossmester balına layiq görülmüşdür.

Sovet təyyarə konstruktorları Tupolevin, İlyuşinin, Antonovun yaratdıqları səma gəmiləri adamları heyran qoyur. Səma ilə əlaqədar qabiliyyətlərin başqa istiqamətdə də inkişaf etdiyi məlumdur. Son zamanlara qədər güman etmək olmazdı ki, məsələn, paraşütçülük sahəsində qadınlar görünməmiş hünər nümayiş etdirə bilərlər. Çünki paraşütçülük qadın üçün o qədər də adi fəaliyyət sahəsi deyildir. Məlum olduğu kimi, Valentina Zakoretskaya paraşüt idmanı sahəsində şərəfin ən yüksək zirvəsinə qalxaraq, dünya çempionu, üç dəfə ölkə çempionu, SSRİ xalqları spartakiadasının çempionu adına layiq görülmüş, onlarla dünya rekordunun sahibi olmuşdur.

Tarixdə görünməmiş sahədə – tük üzərində sənət sahəsində xariqələr yaradanlar da vardır. Ukraynanın Jmerinka şərində yaşayan Mixail Qriqoryeviç Masluyk musiqi yazır, kolleksiya ilə məşğul olur, saat düzəldir, mikroskop altında möcüzələr yaradır. İnsan tükünün kəsiyi üzərində Mixail Qriqoryeviçin düzəltdiyi iki qoşqulu traktoru, iyirmi vaqonlu qatarı, Kremlin Spasski qülləsini yalnız mikroskop altında görmək mümkündür. Bütün təfərrüatı ilə tükün üstündə düzəldilmiş bu cür əsərləri görən hər kəs insan əlinin, insan şüurunun nələrə qadir olduğuna heyran qalmaya bilmir. Xalq yaradıcılığı ustası barədə haqlı olaraq «Belə xasiyyət» adlı film çəkilmiş, əsərlərindən ibarət SSRİ-də, Bolqarıstanda, Çexoslavakiyada, Yaponiyada sərgilər təşkil edilmişdir.

Başqa bir misal. Ermənistanda məşhur olan skripkaçı Eduard Kazaryan orijinal çalğı alətləri də düzəldə bilir. E. Kozaryan mikrominatürist kimi daha geniş məşhurdur. Onun mikroskop altında düzəltdiyi adi gözlə görünməyən fiqurları və kompozisiyaları ölkəmizdən kənarlarda da nümayiş etdirilmişdir. Qum dənəciyindən 800 dəfə kiçik olan rəqqasənin necə rəqs etdiyini, dənizin arxasında enən günəş şüaları altında sahildə dəniz quldurlarının basqınına Çarli Çaplinin necə müqavimət göstərdiyinin yalnız mikroskop altında görmək olar. 1979-cu ildə Los-Anjelisdən alim Otto Stin Eduard Kazaryana Albert Eynşteynin şəklini göndərmiş və xahiş etmişdir ki, iynə qulaqcığında onun heykəlini düzəltsin. E.Kazaryan xahişə insan tükünün ucunda əməl etmişdir.[1]

Balet səhnəsi göstərir ki, öz sənətində kamilliyin son mərhələsinə ucalan şəxs özünü ülviləşdirə, bir növ ilahiləşdirə bilir. Qalina Ulanova buna ən gözəl nümunədir. Səhnədə Ulanovanın hərəkətlərindəki yüngüllük, ahəngdarlıq, ən gözəl insani hisslərin təcəssümü, hisslərlə ağılın-kamalın qovuşması, daim irəliyə, xeyrə doğru meyli elə bil ona qol-qanad verəğək, səmaya, buludların üstünə qaldıracaqdır. Orqanizmin bütün əzalarına, bütövlükdə bədəninə hakim olmaq, ülvi hiss və həyəcanları bədən hərəkətlərində maddiləşdirmək Ulanovanın

---

[1] Bax: «Pravda», qəzeti, 4 iyul, 1979.

nəinki ilhamlı əməyinin təcəssümüdür, həm də tamaşaçılar üçün ilham və gözəllik mənbəyidir.

Gətirdiyimiz faktlardan belə bir nəticə çıxarmaq çətin deyildir ki, istedadlı adamlar, qabiliyyətlər təkcə idman, mədəniyyət və incəsənət sahəsində inkişaf etmir.

***Xalq təsərrüfatının bütün sahələrində qabiliyyətlərin inkişaf etməsinin mümkünlüyü.*** İnkişafımızın müasir dövründə qabliyyətlər xalq təsərrüfatının bütün sahələrində qabarıq şəkildə özünü göstərə bilir. Buna görə də etiraf etməliyik ki, sovet adamlarında qabliyyətlərin inkişafı kütləvi xarakter daşıyır. Qabliyyətlərin inkişafının ölkəmizdə kütləvi xarakter daşıdığını belə bir faktdan da görmək çətin deyildir ki, məsələn, bədii özfəaliyyət dərnəklərində 18 milyon, elmi-texniki cəmiyyətlərin, səmərələşdiricilər və ixtiraçılar cəmiyyətlərinin işində 19 milyon adam iştirak edir. Təkcə Azərbaycanda doqquzuncu beşillik ərzində yalnız sənaye fəhlələrinin 40 faizi texniki yaradıcılıq işinə cəlb olunmuşdur. Təkcə «Azərneft» birliyinin neft-qaz istehsal edən idarələrində və istehsalat bölmələrində onuncu beşillik ərzində 10 min səmərələşdirici təklif tətbiq edilmişdir ki, bunun da 12 milyon manatlıq iqtisadi səmərəsi olmuşdur.

Selinoqraddan sürücü V.Şeirbakov ölkədə ağır yüklü avtoqatarın idarə olunmasının ilk təşəbbüsçüsüdür. Onun ilə avtomatların yük götürmək qabiliyyəti 50 tona, sonradan isə yüz tona qaldırılmışdır ki, bu da normadan bir neçə dəfə artıqdır.[1]

Respublikamızda çoxdəzgahçılıq hərəkatını və onun təşəbbüskarlarını götürək. Başqa təşəbbüslər kimi, çoxdəzgahçılıq hərəkatı istehsalın səmərəliyinin artırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olmuşdur. Çox dəzgaha xidmət edən Yaqub Rüstəmov,Qreta Avakyan, Zahid Əmiraslanov, Tamara Xmılnina və başqaları bir növbədə 2 norma yerinə yetirirlər.

Müasir dövrdə xalq yaradıcılığının, sovet adamlarında qabiliyyətlərin inkişafının başqa bir xüsusiyyəti də müşahidə

---

[1] Bax: «Pravda», qəzeti, 25 iyul 1979.

olunur. Adamların qabiliyyətləri nəinki ixtisasları və peşələri ilə əlaqədar, habelə öz ixtisasları ilə bilavasitə əlaqəsi olmayan sahələrdə də qol-qanad aça bilir. Bu cəhət yuxarıda istinad etdiyimiz faktlarda da əks olunmuşdur. 1980-cı ildə M. F. Axundov adına rus dili və ədəbiyyatı pedaqoji institutunda Qərib Sultanovun 60-dan yuxarı rəsm əsərinin sərgisi açılmışdı. Eksponatların arasında ağac və daş üzərində nəqqaşlıq əsərləri də vardı. Sultanovun əsərlərinin mövzuları çox müxtəlifdir. Ayrı-ayrı görkəmli şəxslərin portretləri ilə yanaşı «Qoy həmişə günəş olsun», «Sülh hökmən müharibəyə qalib gələcək» və s. müasir mövzuda əsərlər də nümayiş etdirildi. Qərib Sultanovun əsərlərinə Moskvada ümumittifaq sərgisində böyük maraq göstərilmiş zəhmətkeşlərin bədii yaradıcılığının I Ümumittifaq festivalının laureatı adına layiq görülmüşdür. Rəssam Q. Sultanov, rus dili müəllimidir, A.F.Axundov adına pedaqoji institutu bitirmiş, Quba rayonundakı 103№-li kənd texniki peşə məktəbində dərs deyir.

Yaxud özfəaliyyət estrada və vokal-instrumental kollektivlərinin IX respublika baxış-müsabiqəsində I dərəcəli diplom almış kollektivi – Azərb. SSRİ EA-sı Fizika institutunun vokal-istrumental ansamblını xatırlamaq yerinə düşərdi. Məlum olduğu kimi, ansamblın üzvlərinin hərəsi institutda bir vəzifə daşıyır. Məsələn, ansamblın bədii rəhbəri Eduard Vəliyulin fizika-riaziyyat elmləri namizədi, baş elmi işçidir; ansamblın musiqi rəhbəri Vasif Axundov elektromontajçıdır; gitarada və fleytada çalan və oxuyan Musa Elyan tokardır; müğənni Tərlan Muradxanov mühəndisdir; xoş səsə malik olan və çoxsəsliyə qoşulan Aydın Rəsulov tokardır; udda çalan Böyükağa Ələkbərov mühəndisdir və s.

***Qabiliyyətlərin mühit və tərbiyə ilə, şəxsi fəaliyyətlə əlaqədar olması.*** Yuxarıda gətirdiyimiz faktlar göstərir ki, qabiliyyətlər erkən yaşlarda da, fərdi inkişafın sonrakı mərhələlərində də qabarıq şəkildə özünü göstərə və son dərəcə müxtəlif istiqamətdə ola bilir. Bunun səbəbi də müxtəlifdir. Başlıca səbəblərdən birisi mühit və tərbiyədən əlavə, şəxsin göstərdiyi fəaliyyətdir, öz işinə, öz təcrübəsinə şüurlu münasibətdir. Məsələn, yuxarıda adını çəkdiyimiz

S.Xalipovun dil sahəsində qabiliyyətinin inkişafı markaya olan marağından başlamışdır. S.Xalipovun tərcümeyi-halından məlum olur ki, onun dilə olan marağı kiçik yaşlarından – marka toplayan zaman, marka kolleksiyası düzəldən zaman inkişaf etməyə başlamışdır. O, topladığı xarici ölkə poçt markalarındakı yazıların nə demək olduğunu başa düşməyə böyük səy göstəmişdir. S.Xalipovun uşaqlıqda marka yazıların öyrənmək üçün göstərdiyi səy tədricən öz gözəl nəticəsini vermişdir.

S.Xalipov sonralar dili xüsusi metodika üzrə öyrənmişdir. Tanış olmayan sözləri konkret mətndə yadda saxlamağa çalışmaq, sözü, cümləni, mətni bərkdən oxumaq, dillə hər gün (istarahət günü də) məşğul olmaq və. s. Bu metodikanı səciyyələndirən xüsusiyyətlərdir. 16 yaşından S.Xalipov fransız, ingilis, alman, isveç, fin və başqa dillərdə kitab oxumağa başlamışdır.

Öz qabiliyyətinin mənbələri barədə danışın zaman Qalina Ulanova deyirdi: «Rəqs böyük gündəlik zəhmət tələb edir. Hətta yayda istirahətdə olanda belə, fərqi yoxdur, məşğul olmaq lazımdır… Ustalığın başlanğıcı barədə danışmaq lazım gəlirsə, Qorkiyə müraciət etmək daha yaxşıdır: istedad – çalışmaqdır».

Bakılı Harri Kasparovun olduqca nadir görünən qabiliyyətini nə ilə izah etmək olar? Hər şeydən əvvəl, şahmat lap kiçik yaşlarından məşğul olması ilə! Harrinin mühəndis olan valideynləri şahmatdan çalışmaları «ağılın gimnastikası və düzgün təfəkkür məşqi» adlandırmış və övladlarının diqqətini lap kiçiklikdən şahmata cəlb etmişlər. Harri bir neçə il Bakıdakı Qaqarin adına pioner və məktəblilər sarayında şahmatla məşğul olmuş və eks-çempion Mixail Botvinnikdən məktublaşma yolu ilə məsləhətlər almışdır. Şahmatın tarixinə dair Harrinin nəinki geniş məlumata malik olması, işgüzarlığı, şahmat gedişlərini yorulmaq bilmədən təhlil etməsi Botvinniki heyrətə salmışdı.

Adamın düşdüyü sosial mühit və aldığı tərbiyə qabiliyyətlərin baş qaldırmasına və müvafiq inkişaf istiqaməti almasına səbəb ola bilir. Yuxarıda bu fikrin həqiqiliyini isbat edən xeyli

faktlar gətirmişik. Xarakterik olan bir fakt da əlavə edək. Məlum olduğu kimi, Şimil dənizində Fer-Ayl adlı tənha adada yaşayan 70 nəfər həyat üçün lazım olan bütün işləri özləri görürlər. Orada həyat tərzi məcbur edir ki, hər bir şəxs bir neçə peşə sahibi olsun, bir növ universallaşsın. Məsələn, Alekstout eyni zamanda balıqçıdır, toxucuüdur, şkiperdir, maşın hörməsinin öhdəsindən müvəffəqiyyətlə gəlir. Yaxud, Syuat Tomrson poçtmeystrin, qəssabın, yanğın söndürənin, avtomexanikin vəzifələrini özündə cəmləşdirmişdir.

Göründüyü kimi, Fer-Ayl adasının sakinlərində qabliyyətlilər bir deyil bir çox istiqamətdə inkişaf edir. Bunun başlıca səbəbi adadakı spesifik həyat tərzidir.

Qabliyyətlərin formalaşmasında şəxsi fəaliyyətin, mühitin və tərbiyənin rolu ilə yanaşı, yuxarıda dediyimiz kimi, irsi əlamətlərin, sinir sistemi, əsasən baş beyin qabığı xüsusiyyətlərinin rolu da vardır.

« » jurnalı redaksiyasının təşkil etdiyi «Dəyirmi stol ətrafında» söhbətində V.N.Kolbanovski maraqlı elmi faktlar gətirmişdir. Faktlardan birisi budur ki. beynin və duyğu orqanlarının qurluşundakı və funksiyasındakı bəzi əlamətlərlə bir sıra xüsusi qabliyyətlər arasında müəyyən əlaqə vardır. Məsələn, musiqi sahəsində yüksək qabliyyətə malik olan adamlarda beynin gicgah qırışıqlarındakı sitoarxitektonik sahələrdə sinir hüceyrələri yaxşı inkişaf etmiş olur. Musiqi səslərinn yüksəkliyini fərqləndirə bilməyən adamların gicgah sahəsində isə həmin hüceyrələrin o cür inkişafı müşahidə edilmir.

**Sual olunur:** baş beyin qabığında aşkara çıxarılmış bu cür xüsusiyyətlər musiqi fəaliyyətinin, yoxsa musiqi sahəsində müşahidə olunan qabliyyətlər beynindəki həmin xüsusiyyətlərin nəticəsidir? Təəssüflə deməliyik ki, elm bu suala hələlik tutarlı, əsaslı, inandırıcı cavab vermir. Hələlik tək-tək faktlar əsasında güman etmək olar ki, baş beynin xüsusiyyətləri qabiliyyətlərimizi, psixoloji keyfiyyətlərimizi müəyyən dərəcədə şərtləndirdiyi kimi, şəxsin müəyyən istiqamətdə göstərdiyi fəaliyyət də onun beyninin xüsusiyyətlərinə, yeni qabliyyətlərin əmələ gəlməsinə təsir göstərə bilir. Belə bir

nəticə çıxarmağa əsasımız vardır: fəaliyyət sahəsində dəyişən psixika beyinə təsir göstərməsəydi, beyində əks-səda verməsəydi, istər-istəməz etiraf etməliydik ki, psixikanın, psixoloji xüsusiyyətlərin dəyişməsi başdan-başa mühitin təsirindən aslıdır. Güman etmək mümükündür ki, adamların həyat tərzində, fəaliyyət tərzində əmələ gələn dəyişikliklər nəinki onların psixikasında, habelə beynində yaranan xüsusiyyətlərin səbəblərindən biri ola bilir. Bu sonuncu ehtimal bizdən ötrü daha təbiidir. Çünki xarici aləmi beyinin inikas etdirməkdən ibarət olan əlamət, yəni psixika dəyişərsə, onun daşıyıcısı olan beyin də mühitin təsiri ilə, psixikanın yeniləşməsi ilə dəyişməlidir. Psixika beyinin xüsusiyyətlərindən biridir. Xüsusiyyətin dəyişməsi onun aid olduğu varlığın, yəni beynin də müəyyən dərəcədə dəyişdiyini söyləməyə imkan verir.

Elmdə bu cür suallar qoymaq olardı: mühitin, təbii inkişafın və fərdi fəaliyyət xarakterinin təsiri altında daha çox dəyişən beyin olur, yoxsa psixika? Bəlkə bunların dəyişmə dərəcəsi eyni olur? Bizcə, bu cür suallar qoymaq olar və elm onlara cavab verməlidir. Görünür, həyat şəraitinin inikas olan psixika, inikası orqanı olan beyinə nisbətən dəyişkənliyə daha çox meyillidir və onların dəyişməsi bir-birini şərtləndirir.

Beyin özü xarici mühiti passiv şəkildə əks etdirmir. İnikas zamanı beyin daha gərgin fəaliyyət göstərməli olur. Beyinin inikas fəaliyyəti, bu fəaliyyətin gərginlik dərəcəsi düşünən beyinin özünə təsir etməyə bilməz. Güman edilir ki, beyin fəaliyyət göstərdikcə onun fəaliyyətlə bilavasitə əlaqəsi olan hüceyrələri məşq edir: məşq edən beyin hüceyrələri arasında yaranan inikas əlaqələrinin davamlılığı müəyyən qədər artır.

***Orqanizmin təkmilləşmək imkanlarına malik olması.*** Son vaxtlar neyrofiziologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, beyində yerləşən milyonlarla hüceyrələr çox müxtəlif vəzifələr yerinə yetirir. Hər bir hüceyrə mürəkkəb quruluşa malik olduğu kimi, onun (yəni hüceyrənin) icra etdiyi vəzifələr də mürəkkəbdir. Beyin hüceyrəsinin membranını (pərdəsini) götürək. Elmdə sübut edilmişdir ki,

papiros kağızından yüz min dəfə nazik olan bu zərif pərdə həyat üçün zərurətə çevrilən ionların hüceyrələrarası sahədən hüceyrəyə ötürülməsini və geri qaytarılmasını tənzim edir. Elmdə məlum olmuşdur ki, orqanizmin özündə və ətraf mühitdə baş verən dəyişikliklər sinir hüceyrəsi membranının xassələrinin dəyişməsinə səbəb olur: hüceyrə membranı xassəsinin dəyişməsi isə insan hisslərinin emosionallığını dəyişdirə bilir. Göründüyü kimi, qabiliyyətlərin inkişafından danışan zaman orqanizmin təbii imkanlarına, baş beynin, sinir sisteminin xüsusiyyətlərinə əhəmiyyət verməmək, onları nəzərə almamaq, onlarla tərbiyə zamanı hesablaşmamaq olmaz. Hər hansı sahədə normal fəaliyyət göstərmək və müvəffəqiyyət qazanmaq üçün adam müəyyən anatomik-fizioloji imkanlara, yəni beynin, sinir sisteminin, duyğu orqanlarının normal fəaliyyəti üçün lazım olan normal irsi əlamətlərə malik olmalıdır: bu, vacib olan şərtlərdən biridir. Sinir sisteminin normal fəaliyyəti imkan verir ki, baş beyin qabığındakı sinir hüceyrələri arasında əlaqələr vaxtında yaransın və davamlı olsun. İnsan qabiliyyətləri bu zəmindən formalaşır və inkişaf edir.

Fikrimizi bir qədər müfəssəl şərh edək. Həyat faktlarından belə bir nəticəyə gəlmək olur ki, hər hansı sahədə təkmilləşmək üçün adamın malik olduğu fiziki və psixoloji imkanları istifadə etdiyi imkanlardan çox-çox genişdir. Məsələn, müntəzəm məşğul olan idmançıların saatda 15-18 km sürətlə qaça bilməsi, 200 kq-dan artıq yük qaldırması, baldır sümüyünün 1600-1800 kq təzyiqə tab gətirməsi, başqasının fikri ilə əlaqədar əzələ hərəkətlərini dəqiqliklə duya bilməsi: xarici dili bir aya öyrənə bilməsi və s. faktlar sübut edir ki, adamların böyük əksəriyyəti malik olduqları imkanların cüzi bir hissəsindən istifadə edir. İmkanların xeyli hissəsi isə ehtiyat qüvvəsi kimi istifadəsiz qalır.

Tükənməz inkişaf və təkmilləşmək imkanları beyində də vardır. Biologiya elmindən məlumdur ki, eyni iş üçün beyində bir-biri ilə əlaqədar olan bir neçə ehtiyat mərkəzləri vardır. Həmin mərkəzlərdən biri hər hansı səbəb üzündən sıradan çıxarsa, onun yerinə yetirə bilmədiyi funksiyanı ehtiyatda olan

başqa mərkəz icra edə bilir. Neyropsixologiya, neyrofiziologiya, nevropotologiya və psixiatriya sahələrində aparılan müasir tədqiqatlara əsaslanaraq belə bir nəticə çıxarmaq olar ki, orqanizmin, xüsusən onun ən həssas və ən zərif üzvü olan baş beynin tükənməz ehtiyat qüvvələrinə malik olduğunu isbat edən amillərdən birisi baş beynin iki yarımkürədən ibarət olmasıdır. Yarımkürələrdən hər birinin özünəməxsus spesifik xüsusiyyətləri olsa da (məsələn, sol yarımkürə xarici aləmi başlıca olaraq duyğular və qavrayışlar əsasında, sağ yarımkürə isə başlıca olaraq təsəvvürlər və anlayışlar əsasında dərk olunmasına imkan versə də), yarımkürələr arasında, bir növ ixtisaslaşma getsə də, onlar, qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir, lazım gəldikdə bir-birinin ehtiyat qüvvələrindən orqanizmin xeyrinə istifadə edilməsinə imkan verirlər. Tibb elmində bu da məlumdur ki, daxili ehtiyatların qarşılıqlı şəkildə səfərbər edilməsi halları orqanizmin böyrək, ciyər, göz, qulaq və s. üzvlərinin fəaliyyətində də müşahidə edilir. İnsan beyninin fəaliyyət imkanları istifadə olunan imkanlardan genişdir.

İnsan 150 il yaşasa da, onun fəaliyyət imkanlarından bir hissəsi istifadə olunmamış qalır. Beyin yüksək dərəcədə təkmilləşmiş elə bir mikro «cihazdır» ki, kiçik enerji ilə uzun müddət səhvə yol vermədən fəaliyyətdə olur.

Orqanizmin, o cümlədən beyin geniş inkişaf imkanlarına malik olduğu üçün adamlar müxtəlif sahələrdə : idman, musiqi, təsviri incəsənət, ədəbiyyat, fiziki əmək, mücərrəd zehni fəaliyyət və s. sahələrdə müvəffəqiyyətlə məşğul ola və həmin sahələrdə qabliyyətlərini daim təkmilləşdirə bilirlər. Yeni-yeni sahələrdə eyni adamın müvəffəqiyyətlə fəaliyyət göstərə bilməsi faktı sübut edir ki, normal fizioloji zəmində beyin ehtiyat qüvvələrini səfərbərliyə almaq, qabliyyətləri eyni adamda istənilən sahə üzrə maksimum dərəcədə inkişaf etdirmək mümkündür. Bunun ən başlıca rolu şəxsi fəaliyyətdir, yorulmaq bilmədən, müntəzəm olaraq öz üzərində işləməkdir. Odur ki,şəxsiyyətin formalaşmasında fəaliyyətin rolu barədə ayrıca danışmaq vacibdir.

# VI FƏSİL.

# FƏALİYYƏTDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASI

## 1. ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ƏMƏYİN ROLU

***Əmək fəaliyyəti təbiətin və şəxsiyyətin dəyişdirilməsinin vəhdəti kimi.*** Yuxarıda qeyd etdik ki, insan öz əməyi ilə ətraf mühiti dəyişdirir, istehsalat əməyi ilə, ictimai-siyasi fəaliyyəti ilə təbiəti və cəmiyyəti dəyişdirən adamlar eyni zamanda öz xarakterlərini, öz mənəviyyatlarını da dəyişdirmiş olurlar. Belə bir qanunauyğunluq sosializm şəraitində daha qabarıq şəkildə özünü göstərir. İnkişaf etmiş sosializm şəraitində sovet adamlarının əmək fəaliyyəti sayəsində təbiətin dəyişdirilməsinin geniş miqyası hər bir şəxsin qəlbini riqqətə gətirir. Yeni-yeni şəhərlər və qəsəbələr salınır, zavodlar və fabriklər tikilir, göllər və kanallar yaradılır, bağlar və meşələr salınır, əsrlər boyu istifadəsiz qalmış xam torpaq sahələri yaşıl tarlalara çevrilir və s. Belə bir geniş miqyaslı yaradıcılıq və quruculuq işləri ilə məşğul olan sovet adamlarının şəxsiyyəti, mənəvi keyfiyyətləri də təkmilləşir.

Yetkin sosializmdə mühitə fəal təsir göstərərək onu daim təkmilləşdirən təşəbbüskar adamların sayı getdikcə artır. Sovet xalqı hazırda tarixin əsil yaradıcısına çevrilmişdir. V.İ.Leninin uzaqgörənliklə demiş olduğu bir fikri burada xatırlamaq yerinə düşərdi. O, deyirdi ki, insanların tarixi yaradıcılığı genişlənib dərinləşdikcə şüurlu tarixi xadim olan əhali kütləsinin miqdarı da artmalıdır. V.İ.Leninin bu dahiyanə fikri bəşəriyyətin nəinki keçmiş tarixini ümumiləşmiş şəkildə ifadə edir, həm də gələcək inkişafın meylini əks etdirir. Sovet adamlarının şüurluluğu artdıqca, onların təşəbbüskarlığı gücləndikcə, cəmiyyətimizin inkişaf qanunlarını daha dərindən dərk etdikcə, öz fəaliyyətlərində bu qanunauyğunluqları daha dəqiq nəzərə aldıqca ətraf mühitə

onların təsiri daha geniş miqyas alır, şəxsiyyətlərin normal inkişafı təmin olunur.

Hələ F.Engels «Meymunun insana çevrilməsində əməyin rolu» adlı tarixi əsərində elmi dəlillərə əsasən isbat edirdi ki, insani keyfiyyətlərin formalaşmasında biz əməyə borcluyuq, insanı formalaşdıran əməkdir. Əmək fəaliyyəti şəxsiyyətin formalaşmasına güclü təsir göstərir. Marksizm-leninizm nəzəriyyəsi öyrədir ki, müəyyən ictimai mühitdə müvafiq fizioloji imkanlara malik olan adamların ictimai əməli fəaliyyəti onlarda şəxsiyyəti formalaşdıran ən güclü amillərdən biridir. Buradan belə bir nəticə çıxara bilərik ki, şəxsiyyət başdan-başa deyil, müəyyən mənada irsiyyətin, mühitin və fəaliyyətin məhsuludur: müvafiq mühitdə və müəyyən tərbiyəvi təsirlər sistemində formalaşan şəxsin özü passiv olmur, fəallıq göstərir, fəaliyyətdə olur.

Şagirdlərin əmək birləşmələri nümayəndələrinin ümumittifaq toplanışının iştirakçılarına Sov.İKP MK-nın məktubunda deyilən bir fikri burada xatırlamaq yerinə düşərdi: «Sovet adamlarının yaxşı keyfiyyətləri məhz Vətən naminə əməkdə özünü göstərir».

İnsan fəaliyyəti, onun mübarizəsi mühitin yalnız fərəhli cəhətləri ilə bağlı olmur. Cəmiyyətdə yol verilən nöqsanlara qarşı mübarizə də insan fəaliyyətinin sahələrindən biridir. Fəaliyyətin bu sahəsinin də şəxsiyyətin formalaşması ilə əlaqəsi vardır. Sovet adamlarında yüksək siyasi mənəvi keyfiyyətlər, onların kommunist dünyagörüşü, mühitdə mövcud olan nöqsanların, mənfi halların aradan qaldırılması prosesində, xoşagəlməz hallara qarşı mübarizə zamanı formalaşır.

Sov.İKP XXVI qurultayına hesabat məruzəsində deyilmişdir: «Rüşvətxorluq, böhtançılıq, imzasız məktub yazmaq, sərxoşluq kimi kommunist əxlaqı antipodlarına qarşı qəti mübarizə aparmadan, kommunist əxlaqı qalib gələ bilməz. Adamların şüurunda və davranışında keçmişin qalıqları adlandırdığımız həmin hallara qarşı mübarizə partiyanın, bizim cəmiyyətin bütün şüurlu qüvvələrinin daim diqqətini özünə cəlb edən bir işdir».

***Əmək fəaliyyətində həyatın dərk olunması.*** Fəaliyyət zamanı sovet adamları, o cümlədən gənc nəsil Sov.İKP-nin siyasəti ilə yaxından tanış olur; hüquq qaydalarına əməl etməyə alışır; kollektiv üçün məsuliyyət daşımağın vacibliyini dərk edir; dostluq və yoldaşlığın qədrini bilir; əməyin mənasını daha aydın dərk edir; yoldaşlarla münasibətdə səmimiliyin nə demək olduğunu hiss edir; təşkilatçılıq bacarığına yiyələnir; vicdanla işləyənlərə cəmiyyətimizdə yüksək qiymət verildiyinin şahidi olur; ictimai-siyasi həyatın iştirakçısına, tarixin yaradıcısına çevrilir.

Əməyin böyük tərbiyəvi mənası müəllimlərin IV Ümumittifaq qurultayına Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Nazirlər Sovetinin məktubunda da aydın ifadə olunmuşdur: «İşi belə təşkil etmək lazımdır ki, ictimai faydalı, məhsuldar əmək gəncin həyati ehtiyacının, onun mənəvi formalaşmasının əsası olsun»

***Orqanizmin möhkəmlənməsinə əməyin təsiri.*** Azad əmək nəinki insan mənəviyyatını saflaşdırır, həyatın dərk olunmasına kömək edir, bununla yanaşı səhhətin möhkəmlənməsində də əməyin rolu vardır. Əmək ömrün uzanmasına səbəb olur. Bir əsrdən artıq ömür sürən adamların həyatı göstərir ki, uzun ömürlüyün səbəblərindən birisi fərəh gətirən əməkdir. Şirəli Müslümovun, Mahmud Eyvazovun, Muxan Sərdaryanın respublikamızın yüzlərlə belə sakinlərinin həyatı buna nümunə ola bilər.

Dağlıq Qarabağda yaşayan Sərdaryanın 1980-cı ildə yüz on illiyi qeyd edilmişdir. Muxan kişinin dediyi kimi, onu gümrah saxlayan daim zəhmətlə məşğul olmasıdır. Onun 104 yaşlı bacısı Nübar hazırda gəbə toxumaqdan əl çəkmir.

Əmək fəaliyyəti zamanı orqanizmin ayrı-ayrı üzvləri məşq edir, maddələr mübadiləsi, qanın oksigenlə təmin olunması yaxşılaşır. Məlumdur ki, spirtli içkilərə alüdəçilik göstərmək halları beyin funksiyalarının pozulmasına səbəb olur. Həmin səbəbdən beyin funksiyaları qismən pozulmuş olan şəxsləri bizim ölkəmizdə sosioloji təsirlərin gücü ilə, o cümlədən əmək fəaliyyətinə cəlb etmək yolu ilə müalicə etmək mümkündür. Əmək vasitəsilə müalicə ayrı-ayrı

şəxslərin beyninə, sinir sisteminə, əxlaqına təsir göstərməklə onların cəmiyyət üçün faydalı adamlara çevrilməsinə yardım edir. Buna görə də insan beynini onun funksiyalarından ayırmaq, psixikanı onun maddi özülündən – beyindən ayırmaq düzgün olmadığı kimi, sinir sistemini və onun funksiyası olan psixikanı da əməkdən, əmək fəaliyyətindən ayırmaq, onları ayrılıqda öyrənmək düzgün deyildir: əmək müalicə xarakteri daşıyır.

***Adamların mövqeyini müəyyənləşdirməkdə əməyin rolu.*** Əmək fəaliyyəti nəinki adamın xarakterinə, şəxsiyyətinə, psixikasına təsir göstərir; bununla yanaşı əmək şəxsin cəmiyyətdə mövqeyini də şərtləndirir. Sov.İKP XXV qurultayı materiallarına uyğun olaraq Azərb. SSR konstitusiyasının 14-cü maddəsində yazılır: «ictimai faydalı əmək və onun nəticələri cəmiyyətdə insanın vəziyyətini müəyyən edir».[1]

Sov.İKP MK-sı V.İ.Leninin bütün ideyalarına sadiq qaldığı kimi, şəxsiyyətin tərbiyəsində, şəxsiyyətin mövqeyini təyin etməkdə əməyin roluna dair fikirlərinə də daim əməl edir. V.İ.Lenin öyrədir ki, adama qiymət verərkən onun nə dediyinə deyil, birinci növbədə nə etdiyinə, fəaliyyətinə diqqət yetirmək lazımdır. Komsomolun III qurultayındakı nitqində V.İ.Lenin haqlı olaraq deyirdi ki, kommunist əxlaqının mahiyyətini yeni cəmiyyət uğrunda, kommunizm uğrunda mübarizə təşkil edir.

Sov.İKP XXV qurultayı tərbiyə işinin səmərəliliyinin meyarını əməli işdə görür: «Kütlələrin siyasi tərbiyəsinin müvəffəqiyyəti, əlbəttə, konkret işlərlə ölçülür» Sov.İKP XXV və XXVI qurultayları materiallarında hər bir sovet adamının fəal həyat mövqeyi tutmasının zəruriliyi xüsusi qeyd edilir. Cəmiyyətdə fəal mövqe tutan şəxsin sözü ilə əqidəsi, sözü ilə əməli işi üzvi şəkildə birləşmiş olur.

Xarakterin formalaşmasında şəxsi fəaliyyətin müstəsna rolu olduğundan, əməyin bəzi sahələrində şəxsiyyətin for-

---

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası. Azərnəşr, 1978, səh. 9.

malaşması məsələlərinə burada bir qədər ətraflı toxunmağı vacib hesab edirik.

## 2. ƏMƏYİN NÖVLƏRİ VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASI

***Təlim əməyi və şəxsiyyətin inkişafı.*** Təlim fəaliyyət formalarından biridir, məktəblilərin isə başlıca fəaliyyət formasıdır. Təlimdə şəxsiyyətin inkişaf səviyyəsi arasında müəyyən əlaqənin olduğunu psixoloq və pedaqoqlar çoxdan aşkar etmişlər. Mütəxəssislərdən bəziləri, məsələn, A.Bine, B.Ştern Piaje və bir sıra başqaları şagirdlərin təlim fəaliyyətinin yaş xüsusiyyətlərindən, inkişaf səviyyəsindən asılı olduğunu isbat etməyə çalışmışlar. Onların fikrincə, təlimin məzmunu, üsulları və təşkili formaları şagirdlərin inkişaf səviyyəsinə uyğunlaşdırılmalıdır. Təlim fəaliyyətini başdan-başa yaş xüsusiyyətləri üzərində qurmağa çalışan psixoloq və pedaqoqlar təlim fəaliyyətinin uşaq psixologiyasına güclü təsir göstərə bildiyini lazımınca qiymətləndirə bilməmişlər.

Təlim zamanı şagirdlərin yaş xüsusiyyətlərini, inkişaf səviyyələrini nəzərə almağın zəruriliyini əsaslandıran görkəmli pedaqoqlardan J.A.Komenski, İ.H.Pestalotsi və başqaları yaş xüsusiyyətlərini düzgün olaraq mütləqləşdirməmişlər. Onlar başqa tələblərlə yanaşı təlimdə uşaq təbiəti ilə hesablaşmağın, uşağın mövcud psixoloji xüsusiyyətlərini nəzərə almağın da vacib olduğunu göstərmişlər.

Onu da etiraf etməliyik ki, təhsilin təşkilini başdan-başa inkişaf səviyyəsinə uyğunlaşdırmaq və uşaqları məktəbə qəbul edərkən, yaxud sinifdən sinfə keçirərkən onların yalnız mövcud fərdi xüsusiyyətlərinə əsaslanmaq, müasir kapitalist ölkələrində olduğu kimi, imtiyazlı siniflərin uşaqları üçün ictimai həyat pillələri ilə yüksəlmək imkanını genişləndirir, zəhmətkeşlərin uşaqları üçün bu imkanları məhdudlaşdırır.

Məşhur rus psixoloqu L.S.Vıqotski uzun müddət sübut etməyə çalışmışdır ki, təlim uşaqların inkişafını öz arxasınca aparmalıdır. Lakin L.S.Vıqotskinin bu həyati fikri inqilaba

qədər genuş tətbiq edilə bilmədi. Yalnız sovet hakimiyyəti illərində həmin fikrə böyük maraq göstərildi.

Görkəmli sovet psixoloqları və pedaqoqlarından D.C.Elkonin, V.V.Davıdov, L.V.Zankov və başqaları L.S.Vıqotskinin fikrini inkişaf etdirərək eksperimental yolla isbat etdilər ki, təlimin məzmununu və üsullarını təkmilləşdirmək yolu ilə uşaqların inkişafını sürətləndirmək, yaş dövrlərinin hüdudlarını tərpətmək mümkündür.

L.S.Vıqotskinin və onun ardıcıllarının son vaxtlar apardıqları tədqiqatlara və məktəbdə uzun illər apardığımız müşahidələrə əsasən deyə bilərik ki, təlim və inkişaf arasındakı əlaqə birtərəfli deyil, qarşılıqlıdır. Təlim və tərbiyə zamanı şagirdlərin yaş xüsusiyyətlərini, onların fərdi xüsusiyyətlərini nəzərə almaqla kifayətlənmək olmaz; düzgün təşkil olunmuş təlim psixoloji inkişafın özünü sürətləndirə, yaş və fərdi xüsusiyyətlərin hüdudlarını xeyli irəlilədə bilir.[1]

Adi şəraitdə təlim uşaqların psixoloji funksiyalarına təsir göstərir və bu funksiyaları müəyyən dərəcədə inkişaf etdirir. Lakin təlimin məzmununda və metodikasında əsaslandırılmış dəyişiklik aparmaqla uşaqların psixoloji funksiyalarının, yəni onlarda təfəkkürün, nitqin, təsəvvürün, hafizənin, diqqətin, iradənin və s. funksiyaların inkişafını xeyli sürətləndirmək, uşaqlarda hələ formalaşmamış, lakin onların təlim fəaliyyətinin müvəffəqiyyəti üçün zəruri olan psixoloji keyfiyyətləri təlimdə onlara aşılamaq mümkündür.

Səviyyəsi yüksəlmiş təfəkkür, hafizə, diqqət,iradə təlimin sonrakı mərhələsində fəaliyyətin daha müvəffəqiyyətli olmasına imkan verir. Deməli, uşaqların inkişaf səviyyəsi bir halda səbəb, təlimdə onların müvəffəqiyyəti isə müəyyən mənada nəticə olduğu kimi, başqa bir halda uşaqların düzgün təlimi səbəbə,onların inkişafı isə nəticəyə çevrilə bilir. Başqa sözlə,təlimin bir mərhəlisində nəticə olan inkişaf digər mərhələsində səbəb olur. Buna görə də təlim və inkişaf probleminin həllində birtərəfli fikir yürütmək düzgün olmaz.

---

[1] Sovet İttifaqı Kommunist Partiyası XXV qurultayı. Stenoqrafik hesabat. Azərnəşr, Bakı, 1977, səh. 112.

Məsələn, yeni proqram materiallarının mənimsənilməsində müxtəlif inkişaf səviyyəsi müşahidə edilirsə,bunun səbəbini yalnız uşaqlarda,onların hazırlıq səviyyəsində və ya təkcə təlimin məzmununda və metodikasında axtarmaq düzgün olmaz. Burada hər iki cəhət bir-birini şərtləndirə bildiyindən, hər ikisinin xüsusiyyətləri nəzərə alınmalıdır.

Deyilənlərdən belə bir nəticə çıxarmaq olmaz ki,guya hər hansı inkişaf mərhələsində uşağa istənilən biliyi öyrətmək, uşaqda istənilən əqli qabiliyyətləri formalaşdırmaq olar. Halbuki, bu əqidədə olan pedaqoqlar vardır. Məsələn, C.Bruner «Təlim prosesi» adlı kitabında yazır ki,istənilən fənni uşaqlara istənilən yaş dövründə kifayət qədər yüksək səviyyədə öyrətmək olar. Fikrimizcə, C.Bruner uşaqların imkanlarını qiymətləndirməkdə ifrat dərəcədə sol mövqe tutur və yaş imkanlarını demək olar ki,inkar edir.

Təlimi başdan-başa yaş xüsusiyyətlərinə, inkişafın müəyyən səviyyəsinə tabe etmək birtərəfli olduğu kimi,yaş xüsusiyyətlərini tamamilə inkar etmək onu təlimdə qətiyyən nəzərə almamaq da birtərəflidir.

Təlim şagirdlərin nəinki mövcud inkişaf səviyyəsini nəzərə almalı,həm də uşaqlarda müşahidə olunmayan, lakin tədris materialının yüksək səviyyədə mənimsənilməsi üçün zəruri psixoloji funksiyaların onlarda formalaşdırılmasına kömək etməlidir. Təlim və inkişaf arasındakı münasibətdə bu iki cəhətin nəzərə alınması sayəsində uşaqlarda fikri fəaliyyət funksiyalarının daha müvəffəqiyyətlə formalaşdırmaq, tədris tapşırıqlarını tədricən çətinləşdirmək, şagirdlərin müstəqilliyinə getdikcə daha geniş imkan vermək mümkün olur. Deməli, uşaqların psixoloji inkişafı müəyyən dərəcədə təlim fəaliyyətindən asılı olduğu kimi, təlimin müvəffəqiyyəti də uşaqlarda psixoloji inkişafın səviyyəsini nəzərə almaqdan asılı olur. Bu fikrin həqiqət olduğunu yəqin etmək üçün təlimin hər hansı mərhələsində tədris materialı ilə şagird arasında müşahidə olunan münasibətlərin xarakterinə ümumi nəzər salmaq kifayətdir. Öz təcrübəsini diqqətlə izləyən müəllim həmişə yəqin edir ki, təlimdə müyəssərlik öyrənilən materialın şagird qarşısında qoyduğu

tələblə bu tələbin öhdəsindən şagirdin gələ bilmək imkanı arasındakı nisbətin dərəcəsi ilə ölçülür. Burada nə qədər fərdi psixoloji fərqlər müşahidə edilir! Həmin psixoloji fərqləri nəzərə almağa kömək edən pedaqogika maarifin sonrakı inkişafına xeyli xidmət etmiş olardı.

Lakin təəssüflə etiraf etməyə məcburuq ki, təlim zamanı belə fərdi fərqləri və bu əsasda müəyyənləşdirilən uyğunsuzluqları müəllim heç də həmişə bütün şagirdlərlə əlaqədar olaraq nəzərə almaq və həmin uyğunsuzluqları aradan qaldırmaq iqtidarında deyildir. Çünki, hələlik, müasir metodika və pedaqogika təlim materiallarının öyrənilməsi ilə şagirdin mənimsəmə imkanları arasında nisbət məsələsinin tədqiqi ilə lazımınca məşğul olmur. Bu məsələ geniş tədqiq edilməlidir.

Müəllim istəsə də, istəməsə də təlimin məzmunu və üsulları şagirdlərin əqli inkişafına kömək edir. Təlimdə belə bir qanunauyğunluğun olduğunu bilən və əməli işdə bu qanunauyğunluğa istinad edən müəllim isə təlim zamanı şagirdlərin əqli inkişafını xeyli sürətləndirmiş olur.

***Sinifdənkənar fəaliyyət zamanı şagird şəxsiyyətinin formalaşması.*** Nəinki təlim zamanı, habelə sinifdənkənar və məktəbdənxaric tədbirlərdə şagirdləri fəaliyyətin müxtəlif növlərinə cəlb etmək və fəaliyyət vasitəsilə onları tərbiyə etmək zəruridir. Məktəblərin təcrübəsi göstərir ki, məsələn, sosialist beynəlmiləlçiliyini şagirdlərə aşılamaq üçün beynəlmiləlçiliklə əlaqədar onların fəaliyyətini təşkil etmək çox gözəl nəticə verir. Demək olar ki, hər bir məktəbdə beynəlmiləlçilik klubu təşkil edilmişdir. Bu cür klubların üzvləri «SSRİ mənim Vətənimdir» marşrutu üzrə ekspedisiyalarda iştirak edir, «SSRİ – Bolqarıstan», «SSRİ – Çexoslovakiya» və s. cəmiyyətlərin kollektiv üzvləri kimi iş aparır, məktəb haqqında məktəbə gələn xarici qonaqlara məlumat verir, klubun işi haqqında valideynlərə, bütün şagirdlərə,pedaqoji kollektivə, rayon zəhmətkeşlərinə izahat verirlər və s.

Yaxud, yaşlılara hörmət hissi bir sıra fəaliyyət növü ilə, məsələn, müharibə və əmək veteranlarının axtarılmasına şagirdlərin cəlb edilməsi ilə, xəstə və qocalar üzərində

şagirdlərin hamiliyini təşkil etməklə, Böyük Vətən müharibəsi abidələrinin qorunub saxlanılmasına şagirdləri qoşmaqla və digər yollarla tərbiyə olunur.

Şagirdlərdə vətəndaşlıq hissini inkişaf etdirmək, onların fəal həyat mövqeyi tutmalarına yardım etmək üçün şagirdləri, pioner və komsomolçuları müxtəlif ictimai-faydalı əməyə cəlb edənlər düzgün yol tutmuş olurlar. Bir çox məktəblərin komsomol komitələri nəzdində yaradılmış əmək, bilik, qayda-qanun, pioner və digər qərargah və klublar xətti ilə komsomolçular böyük iş aparırlar. Müxtəlif özünü-idarə orqanlarına şagirdlərin cəlb edilməsində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması onlarda təşkilatçılıq qabiliyyətinin aşkara çıxarılmasına, idarə etmək və tabe olmaq bacarıqlarının inkişafına kömək edir.

Məktəblərimizdə yaradılan özfəaliyyət dərnəkləri, idman bölmələri şagirdlərdə gərgin fəaliyyət tələb edən iş formalarıdır. Şagirdlərdə estetik qabiliyyətlərin inkişafına kömək edən müxtəlif özfəaliyyət dərnəklərinin, fiziki keyfiyyətlərin formalaşmasına yardım edən idman bölmələrinin, mənəvi keyfiyyətlərin inkişafına yol açan tədbirlərin imkanlarından maksimum dərəcədə istifadə olunmasına böyük səy göstərən məktəblərimiz az deyildir. Belə məktəblərdə, əlbəttə, şagirdlərin davranış mədəniyyəti onlarda daxili və zahiri keyfiyyətlərin birliyi kimi özünü göstərir.

Kənd təsərrüfatına aid bilik və bacarıqların fəaliyyətdə inkişafına imkan verən iş formaları çoxdur. Məsələn, yalnız məktəbyanı sahədə tərəvəzçilik, bağçılıq, quşçuluq, gülçülük üzrə təcrübə işləri aparılır: burada kənd təsərrüfatının müxtəlif sahələrinə aid şagirdlərin təsəvvürləri genişlənir, bacarıq və vərdişləri inkişaf edir.

«Üfüqdə parıltı» pioner hərbi-idman oyunu uşaqlarda sovet vətənpərvərliyi hissini inkişaf etdirmək üçün üçün gözəl fəaliyyət vasitəsidir. «Üfüqdə parıltı» VIII Ümumittifaq pioner hərbi – idman oyununun respublikamızda keçirilməsi və qəhrəman Tula şəhərində onun final yarışları göstərdi ki, bu oyun çərçivəsində pionerlərin fəaliyyət dairəsi çox genişdir. Gənc hərbiçilər müxtəlif hərbi ixtisaslar üzrə keçirilən yarış-

larda güclərini sınamışlar. Məsələn, kiçik saplı tüfəngdən atəş açmaqda, «Əməyə və müdafiəyə hazıram» çoxnövçülüyündə, yol müfəttişlərinin, sanitar postlarının, rabitəçilərin, yanğınsöndürənlərin, kəşfiyyatçıların, turistlərin yarışlarında,habelə mülki müdafiədə iştirak etmiş olan pionerlərdə nəinki həmin sahələr üzrə bacarıq və qabiliyyətlər, habelə vətənə məhəbbət hissi daha da inkişaf etmişdir.

Şagirdlərin ideya-siyasi,əxlaq və əmək tərbiyəsinin birliyini təmin etməkdə inqilab,döyüş və əmək şöhrəti müzeyinin məktəbdə təşkili, uşaqların bu işə cəlbi xüsusi əhəmiyyət kəsb edir. Məsələn, Salyan rayonundakı Sarvan kənd orta məktəbində şagirdlərin yaratdıqları şöhrət müzeyində başqa güşələr kimi Sosialist Əməyi Qəhrəmanı Qüdrət Səmədova həsr olunmuş guşə də əməyə məhəbbət, əməksevərlik hisslərinin şagirdlərdə güclənməsinə səbəb olur. Qüdrət Səmədov adına kolxozun keçmişini və bu gününü əks etdirən eksponatlar da uşaqların qüvvəsi ilə yaradılmışdır.

Yay istirahətinin səmərəli keçirilməsinə Sov.İKP MK-sı və Sovet hökuməti böyük qayğı göstərir. Sov.İKP-nin və SSRİ Nazirlər Sovetinin 22 dekabr 1978-ci il tarixli qərarında deyilir: «Uşaqların və yeniyetmələrin boş vaxtlarının təşkilinə daha çox qayğı göstərməli, şagirdləri idman, turizm, bədii və və texniki yaradıcılıq məşğələlərinə cəlb etməli».

Pioner düşərgələrində uşaqların olduqca müxtəlif fəaliyyət növünə cəlb edilməsi ilə yanaşı onların əmək fəaliyyəti də təşkil edilir.

Yayda şagirdlərin əmək fəaliyyətinin növlərindən biri də yay əmək rübüdür. «Mənim əməyim respublikamın əməyinə qovuşur»devizi ilə ənənəvi şəkildə təşkil edilən əməyin ictimai-siyasi mənasını şagirdlər daha aydın dərk edirlər. Hər il milyonlarla yuxarı sinif şagirdləri həmin deviz altında yay əmək rübündə iştirak edirlər. Onlar kağız və dəmir qırıntısı toplayır, kolxoz və sovxozların biçilmiş taxıl zəmilərində tökülən sünbülləri yığır, kənd təsərrüfat məhsullarının toplanışında yaşlılara kömək edirlər və s.

Ali məktəblərdə tələbələrin təlim və tərbiyəsinin ictimai-siyasi həyatla, istehsalatla və elmi problemlərin həlli ilə

əlaqələndirilməsi onların fəaliyyətində indi başlıca istiqamətə çevrilmişdir. Tələbələrin şəxsiyyəti ilə məktəb işinin bu başlıca istiqamətində, əmək semestrində, bədii özfəaliyyət kollektivlərində, idman məşğələlərində, kənd təsərrüfat məhsullarının yığılmasında, ictimai-peşə fakultələrində iştirakı zamanı formalaşır. Tələbələrin fəaliyyət formaları arasında birinə əmək semestrinə diqqəti xüsusilə cəlb etmək istərdik.

Keçən dövr ərzində tələbə inşaat dəstələrində ali məktəblərin, texnikumların və texniki-peşə məktəblərinin milyonlarla tələbə və şagirdləri iştirak etmişdir.

Kamaz, xam torpaq, Qərbi Sibir tikintiləri bizim gənclərdə xarakterin, iradə möhkəmliyinin əsil sınaq meydanına çevrilmişdir. TİD-də (tələbə inşaat dəstəsində) əmək yaradıcılığının, təşəbbüskarlığının inkişafı üçün geniş imkanlar olur. Tələbələr arsında səmərələşdirici təkliflər verənlərin sayı ildən-ilə çoxalır. Yalnız 1979-cu ildə TİD-də səmərələşdirici təkliflərin tətbiqindən alınan faydanın dəyəri 5 milyon manat olmuşdur.

Xalqlar arasında dostluq tellərini, sosialist beynəlmiləlçiliyi əlaqələrini daha da möhkəmləndirmək məqsədilə nəinki müttəfiq respublikalar arasında, habelə SSRİ ilə digər sosialist ölkələri arasında birgə tədbirlər keçirilir. Bu cür tədbirlərdən biri də dostluq və həmrəylik görüşləridir. Məsələn, SSRİ və Vyetnam gəncləri bu cür görüşləri ənənəyə çevirmişlər. 1979-cu ildə onların Alma-atada IV görüşləri keçirilmişdir. Görüş zamanı iki sosialist ölkəsinin gəncləri öz təhsilləri və əməyi haqqında, vətənin müdafiəsinə dair, yeni cəmiyyət qurmaqda öz böyük qardaş və bacılarına, ata və analarına necə yardım etdikləri barədə təcrübə mübadiləsi keçirmişlər. Sosialist ölkələri gənclərinin dostluq və həmrəylik görüşləri onların beynəlmiləlçi kimi yetişmələrinə, sülhün və sosial tərəqqinin carçısı kimi tərbiyə olunmalarına kömək edir, imperializm, irtica və təcavüz qüvvələrinə qarşı mübarizə əzmini, sosializmin nailiyyətlərini hər cür qəsdlərdən qorumaq əzmini qat-qat artırır.

Biz burada qabiliyyətlərin inkişafına kömək edən fəaliyyətin bir sıra növlərinə ötəri nəzər saldıq:demək istədik

ki,insan xarakterinin, qabiliyyətlərin qol-qanad açması fəaliyyət zamanı mümkün olur və fəaliyyətin bu və ya digər növü ilə əlaqədardır.

## 3. FƏALİYYƏT ZAMANI QABİLİYYƏTLƏRİN FORMALAŞMASI ŞƏRTLƏRİ

Eyni sahədə fəaliyyət göstərən adamlarda eyni qabiliyyət başqa-başqa səviyyədə inkişaf edə bilir. Fəaliyyətin hər hansı bir növü ilə hər hansı səviyyədə məşğul olmaq müvafiq qabiliyyətlərin maksimum inkişaf səviyyəsinə qalxmasını mexaniki təmin etmir. Bundan ötrü bir sıra şərtlərə əməl edilməlidir. Bu şərtlərdən bir neçəsini qeyd edək.

***Fəaliyyətdə təkidlilik göstərilməsi.*** Hər hansı fəaliyyət sahəsində qabiliyyətlərin maksimum dərəcədə inkişafını təmin edən şərtlərdən biri təkidlilikdir. Fəaliyyət zamanı işgüzarlıq, təkidlilik göstərməyən, çətinliklər sinə gəlməyən, işdə rast gəldiyi maneələrin aradan qaldırılmasına səy göstərməyən şəxs qabiliyyətlərini inkişaf etdirə bilməz. A.S.Makarenko istedadlı pedaqoq olmağın sirlərindən danışarkən yazırdı ki, pedaqoji institutu əla qiymətlərlə başa vuran şəxs həyatda, müəllimlikdə öz üzərində müntəzəm çalışmazsa, gündəlik təcrübəsini təhlil edib nöqsanlarının və müvəffəqiyyətlərinin səbəblərini açmazsa, sonrakı fəaliyyətini bu əsasda qurmazsa, bacarıqlı pedaqoq ola bilməz.

K.Marks əqli inkişafda gərgin şəxsi fəaliyyətin rolunu nəzərə alaraq vaxtilə yazırdı ki, elmdə geniş şahrah yol yoxdur: elmin şölə saçan zirvələrini yalnız onun daşlı-kəsəkli cığırları ilə yorulmaq bilməyən irəliləyən şəxslər fəth edə bilər.

Qabiliyyətlərin inkişafında müntəzəm, ardıcıl şəxsi fəaliyyətin əhəmiyyəti barədə M.F.Axundovun bir fikrini burada xatırlamaq yerinə düşərdi. O, yazırdı ki, alimlik ata çuxası deyil ki, miras kimi övlada verilsin. Əsl alim olmaq üçün yorulmaq bilmədən işləmək və təkidlə öyrənmək lazımdır.

SSRİ xalq artisti İ.Arxipovaya sual verirlər ki, istedad nədir? Cavabında bildirir ki, istedad doxsan doqquz faiz zəhmət deməkdir.

B.B.Mayakovski gözəl şeirin yaranma səbəblərini səciyyələndirərkən poetik şəkildə bildirmişdir.

*Poeziya da*
*Radium tək*
*Çətin tapılır, çətin*
*Bircə qramdan ötrü*
*Bir il əmək çəkirsən.*
*Bir kəlmə seçmək üçün*
*Yüz ton*
*Söz külçəsini*
*Arayır,*
*Axtarırsan*
*Qazıb*
*Yerə tökürsən*[1].

Göründüyü kimi, istedadlı adamlar, müstəsna istedad sahibi olan şəxslər də qabiliyyətlərin inkişaf səbəblərini müntəzəm, ardıcıl, gərgin zəhmətlə əlaqələndirirlər.

Əməyin hər hansı sahəsində qazanılan müvəffəqiyyətin səbəbləri arasındakı asılılığı riyazi şəkildə ifadə etməli olsaq, adamın malik olduğu qabiliyyətləri kəsrin məxrəcinə əmək sahəsində göstərdiyi fəaliyyəti, işgüzarlığı, təkidliliyi isə surətinə yazmalıyıq. Əməkdə qazanılan müvəffəqiyyətlər daha çox şəxsin malik olduğu qabiliyyətlərin məhsuludursa, qabiliyyətləri də onun göstədiyi işgüzarlığın, fədakarlığın, səyin nəticəsidir. Gərgin şəxsi fəaliyyət müəyyən qabiliyyətlərin yaranmasına səbəb olduğu kimi, yaranan yeni qabiliyyətlər gələcək fəalliyyətin müvəffəqiyyətli olmasını şərtləndirir.

***İşdə maksimum fəallıq göstərilməsi.*** Deyilənlərdən belə bir nəticə çıxır ki, qabiliyyətlərin inkişafı üçün işdə maksimum dərəcədə fəallıq, maksimum dərəcədə şüurluluq göstərilməlidir. Buna görə də şəxsiyyətin formalaşmasında şəxsi fəaliyyətin mühüm rol oynadığını qeyd edərkən,göstərilən

[1] V.V.Mayakovski. Şerlər və poemalar. Azərnəşr. 1950, səh. 21.

fəallığın dərəcəsi nəzərdən qaçmamalıdır. İş zamanı nəzərə çarpan fəallıq adamlarda müxtəlif səviyyədə ola bilər.

Faktlar göstərir ki, fəallığın xarakteri, onun dərəcəsi şəxsiyyətin formalaşmasında az rol oynamır. Bu ümumi hal nəinki böyüklərə, habelə uşaqlara, şagirdlərə də aiddir.

Şagirdlərin təlim fəaliyyətinin xarakteri ilə psixi inkişafı arasındakı asılılığın tədqiqinə aid bir fakta müraciət edək. S.İ.Rubinşteynin, L.V.Zankovun və bir sıra digər sovet psixoloqlarının təlim və tərbiyə sahəsində apardıqları bəzi tədqiqatlarda aydın olur ki,psixoloji funksiyaların, o cümlədən qavrayışın, təfəkkürün, hafizənin və iradənin səviyyəsi idrak fəaliyyətinin xarakterindən də asılıdır. Təlim zamanı müəllim şagirdlərdə mövcud olan psixoloji xüsusiyyətlərə istinad etməklə yanaşı öyrədilən biliyin, anlayışın mənimsənilməsini təmin edən psixoloji funksiyaları, məsələn, ümumiləşdirmə, müqayisə, təhlil kimi funksiyaları hərəkətə gətirdikdə, bu cür psixoloji funksiyaların baş qaldırması və hərəkətə gəlməsi üçün müvafiq didaktik şərait yaratdıqda qabiliyyətlərin inkişafı xeyli sürətlənir. Yaranan yeni psixi funksiyalar və qabiliyyətlər isə təlimdə, ümumiyyətlə fəaliyyətdə sonrakı müvəffəqiyyətin şərtlərindən birinə çevrilir. Fəallığı maksimum dərəcədə təmin edilən uşaqların fiziki və əqli inkişafı adətən, yüksək səviyyədə olur. Belə bir qanuna uyğunluq şagirdlərin ictimai fəaliyyətinə də aiddir. Həmin qanuna uyğunluğun həyatiliyi nəinki kütləvi məktəblərin iş təcrübəsində, habelə xüsusi məktəblərin, kar-lallar üçün olan məktəblərin təcrübəsində də özünü açıq göstərir.

SSRİ PEA-sı defektalogiya institutunun əməkdaşlarından İ.A.Sokoyanskinin, A.İ.Meşşeryanovun tərbiyə etdiyi kar, kor və lal şagirdlərin Sergey Sirotkinin, Yura Lernerin, Saşa Suvorovun, Nataşa Korneyevanın və yüzlərlə başqalarının nümunəsi isbat etmişdir ki, teletaktorun köməyi ilə yazmağı, oxumağı və danışmağı o cür uşaqlara öyrətmək olur: hətta S.Suvorov şer də yazır, Yura Lerner heykəltəraşlıqla da məşğul olur. Onlar elmi işdə aparırlar. Bu faktlar sovet elmini, sovet həyatının, sovet tərbiyəsinin əsl möcüzəsi hesab edilməlidir. İstehsalatda və təlimdə şəxsi

fəallığın hər vasitə ilə gücləndirilməsi və rəğbətləndirilməsi həmin möcüzəyə-kar,kor və lal uşaqların ictimai həyata, əmək fəaliyyətinə qovuşmasına gətirib çıxarmışdır.

Sergey Kutnikov 1980-cı ildə 12 yaşında ikən onuncu sinfi bitirmişdir. O, hələ 10-11 yaşlarında ciddi elmi-tədqiqat işləri aparmış, alimlərin ümumittifaq konfranslarında elmi məruzələrlə çıxış etmiş, onun məqalələri çap olunmuşdur. Sergeydə qabiliyyətlərin inkişafı səbəblərindən danışarkən, Sergeyin üzv olduğu «gənc tibb işçisi» dənəyinin rəhbəri prof. K.M.Meşşerskaya demişdir: «Sergey adi oğlandır, onun hafizəsi ən parlaq hafizə deyil və hadisələrə göstərdiyi reaksiyalar da yaşıdlarından sürətli deyildir. Onu başqalarından fərqləndirən hər şeyə böyük maraq göstərməsi, hədsiz işgüzarlığı, məqsədə çatmaqda təkidliliyidir».[1]

***Qabiliyyətlərin fəaliyyət obyektinə münasbətdən asılılığı.*** Şəxsiyyətin fərmalaşmasında fəaliyyətin rolu əməyin növləri ilə, fəaliyyət obyektinə münasibətlə əlaqədar daha qabarıq şəkildə özünü göstərir. Başqa sözlə demiş olsaq, şəxsiyyəti səciyyələndirən xüsusiyyətlərin bir qismi fəaliyyətin növü ilə, onun necəliyi ilə bağlı olur. İş tərzi, fəaliyyətin xarakteri, fəaliyyət obyektinə adamın münasibəti psixikanın inkişafına güclü təsir göstərir. Məsələn, məlumdur ki, tarzən pionoçuya nisbətən çalğı alətindəki nasazlığı daha tez hiss edir. O da məlumdur ki, çalğı alətlərinin kökdən düşməsi alətdə alınan səslərin təhrifinə səbəb ola bilir. Çaldığı alətin kökdən düşdüyünü pianoçuya nisbətən tarzənin tez hiss etməsinin, bu hissiyyatın, bu qabiliyyətin tarzəndə daha çox inkişaf etməsinin əsas səbəbi nədir? Musiqiçidə çalğı alətinə münasibətin tərzi! Məsələ burasındadır ki, pianonu adətən piano çalanın özü deyil, xüsusi usta kökləyir. Tarı isə, adətən, tarzənin özü kökləyir. Tarzən çala-çala hər simin kökdən düşüb-düşmədiyinə daim diqqət yetirməli və lazım gəldikdə, müvafiq simi özü kökləməli olur. Pianoçu isə zəruri hallarda xüsusi ustaya müraciət edir və həmin usta pianonu kökləyir. Buna görə də pianonun, bir növ daim köklü olması üçün

---

[1] «Учительская газета» 14 avqust. 1980

pianoçu bilavasitə məsuliyyət daşımır. Deməli, tarzən və pianoçu musiqi alətlərində çalarkən bu alətlərə başqa-başqa münasibət göstərdiklərindən onlarda musiqi səslərinə həssaslıq başqa-başqa səviyyədə inkişaf edir.

Hafizə hadisələrinə müraciət edək. Sübut olunmuşdur ki, müəyyən məqsəd baxımından oxunan mətn daha möhkəm yadda qalır. Məruzə etmək və ya əsər yazmaq üçün nəzərdən keçirilən material ümumi tanışlıq üçün, elə-belə nəzərdən keçirilən materiala nisbətən daha yaxşı mənimsənilir və uzun müddət unudulmur. Burada da hafizə obyektinə (mətnə) göstərilən münasibətin xarakteri şəxsiyyətdə – mənimsəmə və hafizədə öz dəst – xəttini əks etdirir: məqsədli oxu hafizəni möhkəmləndirir, mənimsəməni yüngülləşdirir: məqsədsiz oxu hafizəni zəiflədə bilir.

***Qabiliyyətin formalaşmasına fəaliyyət şəraitinin təsiri.*** Fəaliyyət şəraiti qabiliyyətlərin formalaşmasına təsir edir. Müvafiq qabiliyyətləri qol-qanad açması üçün adamdan bu qabiliyyətləri tələb edən şərait olmalıdır. Məsələn, yenilməzlik, cəsarət, təbiətin kortəbii qüvvələrinə qalib gəlmək, təbiəti öz iradəsinə tabe etmək keyfiyyətlərin adamlarda formalaşması üçün fəaliyyətin o qədər də asan olmayan şəraitdə cərəyan etməsi lazımdır. Dəniz neftçilərinin fəaliyyət şəraiti buna misal ola bilər, onların əməyi əsil qəhrəmanlıq əməyi kimi qiymətləndirilir.

Qabiliyyətlərin fəaliyyət şəraiti ilə əlaqədar olduğu təhsil ocaqlarında da yəqin etmək mümkündür. Elm və texnikanın, idman və incəsənətin müxtəlif sahələri üzrə dərnəklər təşkil edən və şagirdlərini bu dərnəklərə cəlb edən məktəblərdə istetadlı, qabiliyyətli uşaqlar daha çox yetişir.

Fizioloqlar isbat edirlər ki, yeyən zaman və yemekdən sonra kitab oxumaq, yaxud kifayət qədər işıq düşməyən şəraitdə uzanıb kitab oxumaq hafizəyə təsir göstərir, yadda saxlama müddətini azaldır. Orqanizmə daxil olan qida ilə əlaqədar qan cərəyanı mədə-bağırsağa tərəf intensivləşir: yaddasaxlama qabiliyyəti zəifləyir. Uzanan vəziyyətdə oxuyanda da beynin qanla təchizi azalır. Lazımınca işıq düş-

məyən yerdə kitab oxuduqda göz həddən artıq gərginləşir, yorğunluq tez baş verir, nəticədə hafizə zəifləyə bilir.

Oturaq vəziyyətdə xeyli vaxt gərgin işləyərkən və eyni iş vəziyyətində uzun müddət qalarkən orqanizmin sistemləri arasında uyğunsuzluğun əmələ gələ bildiyi, buna görə də işgüzarlığın azala bildiyi nəzərə alınmalıdır. Fizioloqlar haqlı olaraq eyni iş vəziyyətini dinamik hərəkətlə növbələşdirməyi məsləhət görürlər.

İclas şəraitini götürək. Məlumdur ki, ətraflı ölçüb-biçilən iclas və ya müşavirə kollektiv ağıl, kollektiv şüur kimi iştirakçıların şəxsiyyətini inkişaf etdirməkdə böyük imkanlara malikdir. Lakin, təəssüflə etiraf etməliyik ki, hazırlıqsız, tələsik, başdansovdu keçirilən iclas və yə müşavirə nəinki gözlənilən səmərəni vermir, nəinki iştirakçılarda müsbət keyfiyyətlərin formalaşması imkanını azaldır, hətta onlarda iclasa, müşavirəyə qarşı ikrah hissi yarada bilir. Buna görədə şəxsiyyətin formalaşmasında iclas və müşavirələrin rolunu gücləndirmək üçün, onların sayını azaltmaqla yanaşı, işgüzarlığını artırmaq zəruridir.

***Əməyin ictimai mənasının dərk olunması.*** Görülən işin ölkə üçün əhəmyyətini başa düşmək ilham mənbəyinə çevrilir, adamın fəaliyyətini gücləndirir, qurmaq, yaratmaq əzmini artırır. Budur adi sovet adamlarından birisi-Şiri Salayev. O, talış dağlarının qoynundakı Sım kəndində yaşayır:yaşı yüzü keçsədə, təqaüdə çıxsa da bikar durmur, ağaclardan gözəl naxışlı müxtəlif məişşət əşyaları: tabaq, qaşıq, beşik, dəhrə, balta dəstəyi və s. düzəldir. Nəinki Sım kəndinin, habelə qonşuluqdakı Şumrud, Pəlikəş, Burzubənd kəndlərinin camaatı da yüksək zövqlə hazırlanan bu zərif məişət əşyalarından geniş istifadə edir. Zəhmətin məhz bu cəhəti Şiri babaya ilham verir, həyatını mənalandırır. Şiri baba deyir: «...hər dəfə görəndə ki, düzəltdiyim bu əşyalar kiminsə gərəyinə gəlir, fərəhim köksümə sığmır. Bəlkə də doğma el-obaya hələ köməyim dəydiyini gördüyüm üçündür ki, belə çox yaşamışam».

Məlumdur ki, el üçün bağ salmaq, körpü salmaq, bulaq tikmək qədimdən ata-babalarımızın adəti olub. Azərbay-

cana öz təşəbbüskarlarının adını yaşadan bu cür tikintilər az deyildir. Bu ənənəyə yenilik gətirənlər bizim dövrümüzdə daha çoxdur. Onlar tikdikləri binalarda, saldıqları körpülərdə, hördükləri bulaqlarda, yetişdirdikləri bağlarda özlərini yaşadır, xalqına fayda verirlər. Belələrindən biri də Zaqatala şəhərinin sakini Lətif Əliyevdir.[1]

Yayın qızmar çağında uzaq və bürkülü yol gəlmiş avtobus sərnişinlərinin üstü rəngarəng daşlardan səliqə və incə zövq ilə hörülmüş bulağa yaxınlaşdığını, buz kimi sərin sudan içib, ürək yanğınlarını söndürdüklərini, əl-üzlərini yuduqlarını görən adamlar arasında Lətif Əliyev daha çox sevinc hissi keçirir. Çünki bu bulağı tapıb üzə çıxaran da, onun üstünə yüksək zövqlə hörüb yaraşığa salanda L.Əliyev olmuşdur. Onun qadir əlləri ilə Zaqatalanın müxtəlif mənzərələri guşəsində on belə bulaq-abidə inşa edilmişdir. «Nəsimi» və «Müşfiq»bulaqları xalqımızın bu şair oğullarının yubileylərindən yadigardır. «Əsgər bulağı» Böyük Vətən müharibəsindən həlak olmuş zaqatalalı şagirdlərin xatirəsini əbədiləşdirir. «Xəyyam» bulağı Şərqin mütəfəkkir şairinə hörmət və ehtiram əlamətidir.

Öz yaradıcılığının xalqa fayda verdiyini görən L.Əliyevin yaradıb-qurmaq əzmi qat-qat artmışdır. İndi onun iş qovluğunda 100-dən artıq kiçik arxitektura nümunələrinin eskizləri vardır. Onların bəziləri Bakıya, Rostova, Moskvaya və digər şəhərlərə aiddir.

Əməyin xalqa, Vətənə mənsub olduğunu və ilham mənbəyinə çevrildiyini Azərb. SSR Ali sovetinin deputatı, inşaatçı Artyom Mirzoyanın fəaliyyət nümunəsində görmək olar. O, «Şəxsi nümunə» adlı məqaləsində yazır:»inşaatçı peşəsi əsl sülh, dinclik peşəsidir. Bilirsən ki, daş üstə daş qoyduğun bu divardan az sonra bina əmələ gələcək. Buraya insanlar köçəçəklər. Dillərdə dolaşan sağollardan bir pay da inşaatçıya düşəcək. Sənin yolun həmin binanın yanından keçəndə qanrılıb fəxrlə baxacaqsan. Ürəyində deyəcəksən bunu mən tikmişəm».

---

[1] «Kommunist» qəzeti, 6 may 1980

Bu cür iftixar hissinin psixoloji əsasları vardır. Quruculuq işlərində zəhmət çəkmiş hər bir şəxs düşünməli olur:mən hər dəfə doğma yerlərə gedəndə, sadəcə olaraq o yerlərin gözəlliyini tamaşa etmirəm, həm də yadıma salıram: bu yol hələ mənim vaxtımda çəkilib, bu mədəniyyət sarayı da, bu zavodlar, elektrik stansiyaları və s. mən işləyən zaman tikilib, onlarda mənim əməyimin, mənim düşüncələrimin, həyəcanlarımın, yuxusuz gecələrimin bir hissəsi qalıb.

***Mühitin dərk olunması.*** Görulən işin xalq üçün, Vətən üçün əhəmiyyətini başa düşməklə yanaşı fəaliyyətin sosial-iqtisadi mühitə uyğun gəlməsi, mühitdən irəli gəlməsi də şəxsiyyətin inkişafına təsir göstərir. Xarici mühitin dərk olunmasına əsaslanan fəaliyyət daha şüurlu, daha səmərəli olur. Təbiət və cəmiyyətin qanunauyğunluqlarından doğan fəaliyyət zamanı şəxsiyyətin azad inkişafı üçün münasib şərait yaranır.

Sosializm şəraitində azad inkişaf dedikdə, sosial-iqtisadi qanunauyğunluqlardan kənarda cərəyan edən sərbəst inkişaf nəzərdə tutulmur: özünün hər bir addımını, fəaliyyətini təbiətin və cəmiyyətin qanunauyğunluqlarına müvafiq şəkildə quraraq təkmilləşmək nəzərdə tutulur. F.Engels yazırdı: «Azadlıq özümüzü xəyalən təbiət qanunlarından asılı saymamağımızdan ibarət deyil, ondan ibarətdir ki, həmin qanunlar dərk edilsin və bu bilik əsasında təbiət qanunları plana uyğun bir surətdə müəyyən məqsədlər üçün işləməyə məcbur edilə bilsin. Bu həm xarici təbiət qanunalarına, həm də insanın özünün cismani və mənəvi varlığını idarə edən qanunlara aiddir».[1]

Xarici mühitin inkişaf qanunlarını və özünün həm cismani, həm də mənəvi varlığının inkişaf qanunlarını dərk edən və bu əsasda fəaliyyət göstərən, yəni fəlsəfi mənada azad olan şəxs təbii və ictimai mühitə və deməli, öz təbiətinə daha güclü təsir göstərə bilir.

Özündən əvvəlki materalizmi təhlil edərkən K.Marks «Feyerbax haqqında tezislər»ində yazırdı ki, əvvəlki

---

[1] F.Engels, Anti-Dürinq, Azərnəşr, 1953, səh. 107.

materalizmin – Feyerbax materalizminin də başlıca nöqsanı ondan ibarətdir ki, onun nümayəndələri xarici aləmi praktika kimi deyil, yalnız seyr obyekti kimi götürürdülər. Əvvəlki materalizm əməli tənqidi fəaliyyətin, yəni inqilabi fəaliyyətin mənasını başa düşməmişdir. Marks özünəqədərki materalizmin həmin nöqsanını da aradan qaldırmışdır. K.Marks göstərmişdir ki, «insan xarakterini dəyişdirən mühitin özünü yeniləşdirən məhz insandır, onun fəaliyyətidir. Şəraitin dəyişməsi ilə insan fəaliyyəti arasındakı mütənasiblik ancaq inqilabi təcrübə olaraq qavranılıb ağılla başa düşülə bilər.[1] Göründüyü kimi, mühitin dəyişməsi ilə insan təbiətinin dəyişməsi arasında dərin dialektik əlaqə mövcuddur: mühit adamı dəyişdirir, adam da mühiti. Bu cür qarşılıqlı əlaqəyə imkan verən isə insanın əmək fəaliyyətidir: onun «əməli-tənqidi» fəaliyyətidir. Mühiti dəyişdirən şəxs öz təbiətini dəyişdirmiş olur.

Məlumdur ki, 1905-ci il inqilabı məğlub olduqdan sonra V.İ.Lenini və onun ardıcıllarını onda təqsirləndirirdilər ki, guya fəhlə sinfi inqilaba hazır deyildi: onun inqilabi şüuru hələ yetişməmişdi, odur ki, guya əvvəlcə fəhlə sinfini hazırlamaq, onun inqilabi şüurunu inkişaf etdirmək, sonra inqilaba qoşmaq lazım idi. V.İ.Lenin isə hələ o zaman isbat edirdi ki, fəhlə sinfinin inqilabi xarakteri məhz inqilabın gedişində, inqilab alovlarında, sinfi mübarizə zamanı formalaşmalıdır: proletariatın sinfi şüuru məhz kapitalizm mühitini dəyişdirmək üçün, burjuaziyanın hakimiyyətini devirmək üçün onun göstərdiyi əməli səydə püxtələşməlidir: fəhlə sinfinin məhz özü proletar diktaturasını yaratmalı, sosializm qurmalıdır.

İnsan xarakterinin formalaşması barədə V.İ.Lenin ideyaları özünü tamamilə doğrultdu. Sovet adamlarının xarakteri, onlarda sovet dövlətinə sadiq olmaq, sovet vətənini qəlbən sevmək, kommunist partiyasının ideyalarına sadiq olmaq, öz xalqına dönmədən xidmət etmək, kommunist əxlaqı antipodlarına qarşı barışmaz olmaq kimi keyfiyyətlər inqilab alovlarında, kapitalist və mülkədarların müqavimətini qırmaq

---

[1] K.Marks, F.Engels. Seçilmiş əsərləri, cild, II, Azərnəşr, 1953, səh. 406.

prosesində, daxili əksinqilabi qüvvələrə qarşı, impealist müdaxiləsinə qarşı mübarizədə, xalq təsərrüfatının sənayələşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi prosesində, mədəni inqilabın gedişində, geniş sosializm quruculuğunda fəal iştirak zamanı formalaşmışdır.

Adamların xarakter xüsusiyyətlərinin formalaşmasına dair markizm-leninizm nəzəriyyəsinin başlıca müddəası «Böyük Oktyabr Sosialist İnqilabının 60 iliyi haqqında «Sov. İKKP MK-nın qərarında yeni qüvvə ilə ifadə olunmuşdur. Qərarda oxuyuruq:» İnqilabi quruculuq və azadlıq uğrunda mübarizə gedişində, sosializm quruculuğunun adi günlərində sovet adamı yetişmiş və mətinləşmişdir».[1]

Ölkəmizdə adamların mənəvi keyfiyyətlərinin inqilabi fəaliyyətdə, Böyük Vətən müharibəsi illərində, quruculuq işlərində formalaşdığı sovet ədəbiyyatında, təsviri incəsənət əsərlərində, o cümlədən «İnqilabdan doğulmuşlar» adlı filmdə çox aydın şəkildə tərənnüm olunur.

Mühitin dərk olunması əsasında fəaliyyətin qurulması, mühitin dəyişdirilməsi ilə xarakterin dəyişməsinin fəaliyyət zamanı üst-üstə düşməsi və bunun dərk olunması qabiliyyətlərin kütləvi şəkildə inkişafını təmin etməyə imkan verir.

***Fəaliyyətdə kütləvilik.*** Şəxsiyyətin formalaşması qanunauyğunluqlarını dərindən bilən Sov. İKP sovet adamlarında qabiliyyətlərin kütləvi şəkildə inkişaf etdirilməsinə çalışır, onların kütləvi fəaliyyətini təşkil edir. Əmək yarışını götürək. Xalq təsərrüfatının bütün sahələrində kollektivlər arasında istehsalat yarışları təşkil edilir. Yarış formalarından biri də müxtəlif şəhərlərin eyni adlı rayonları arasında, məsələn, Bakı, Tbilisi və Yerevan şəhərlərinin 26 Bakı komissarları adına rayonları arasında gedən yarışdır. Əmək yarışlarının bu cür təşkili istehsalın artırılmasına, habelə yarış iştirakçılarında sosialist beynəlmiləlçiyinin, dostluq və qardaşlığın daha da möhkəmləndirilməsinə kömək edir. Bakı şəhərinin kənarında Şıxovda Xalqlar Dostluğu parkı

---

[1] Böyük Oktyabr Sosialist İnqilabının 60-cı ildömü haqqında (Sov.İKP. MK 1977-ci il 31 yanvar tarixli qərarı), Azərnəşr, 1977, səh. 14.

salınarkən Gürgüstan və Ermənistan elçiləri gətirdikləri palıd və eldar şamları pöhrələrini öz əlləri ilə orada əkmişlər. Moskvanın Qaqarin adına rayonunda iri küçələrdən birinə 26 Bakı komissarları adı verilmiş və orada inqilab qəhrəmanlarına həsr olunmuş memorial – heykəl qoyulmuşdur. Heykəlin önündə təntənəli bayram günlərində pioner toplanışı keçirilir. Gənc moskvalılır inqilab cəngavərlərinin işini davam etdirəcəklərinə and içirlər.

Qardaşlaşmış rayonlar, qardaşlaşmış şəhərlər şərəfinə əmək növbəsində durmaq, fəhlələrdən, qulluqçulardan, elm və mədəniyyət xadimlərindən, fəallardan ibarət nümayəndə heyətləri göndərmək həmin rayonların və şəhərlərin adamlarını bir-birinə daha da yaxınlaşdırır, mənəviyyatlarının zənginləşməsinə, qurub-yaratmaq əzminin artmasına səbəb olur.

Əmək kollektivləri arasında iqtisadi, elmi və mədəni əlaqələr getdikcə daha geniş vüsət alır.

Bütün müttəfiq respublikaları, ölkəmizi başdan-başa əhatə edən Lenin iməciliyi günləri sovet adamlarında kommunist xarakterinin yaranmasına bolluca qida verir. Şəhərlərin, qəsəbələrin, kəndlərin abadlaşdırılmasında sovet adamlarının elliklə iştirakı bir ənənəyə çevrilmişdir. Məsələn, sovet Azərbaycanının 60 ililk yubileyi ərəfəsində sosialist Kirovabadının şimal qərbində Quru Qobu tərəfində izdihamlı mitinq keçirilmişdir. Milli geyimdə qızlar və oğlanlar rəqs edir, mahnı oxuyurdular.

Mitinq açılır. SSRİ-nin və Azərbaycanın SSR-in himnləri səslənir. Sürəkli alqışlar altında yeni Gəncənin rəmzi məşəli yandırılır. Mitinqə toplaşan minlərlə Adam qədim Gəncədə yeni Gəncənin təməlini qoyurlar: Azərbaycan SSR Ali Sovetinin deputatı, respublika Dövlət mükafatı laureatı İlyas Quliyev 2000-ci ilin sakinlərinə xatirə və tövsiyə məktubunu əbədi məşəlin önündə mərmər lövhənin altına basdırır. Xalqın elliklə iştirakı sayəsində sosialist Kirovabadının siması dəyişir. Şəxsiyyətin, qabiliyyətlərin adamlarda inkişafına təsir göstərən əmək yarışı və iməcilik kimi kütləvi fəaliyyət formaları ilə yanaşı spartakiadaları da qeyd etmək lazımdır. Ölkəmizdə artıq ənənəyə çevrilmiş

SSRİ xalqları spartakiadaları bədən tərbiyəsi və özfəaliyyət kollektivlərinin ümumittifaq yarışlarını, məktəblərinin ümumittifaq spartakiadaları, gənclərin idman oyunlarını, bədii yaradıcılıq üzrə yarışları özündə birləşdirir. Bunlar da fəaliyyət növlərindən biri kimi qiymətləndirilir. Təkcə 1979-cu ildə keçirilmiş yeddinci spartakiada zamanı idmanın kütləvi növləri üzrə 219 min 200 kollektivdə keçirilən yarış zamanı qələbə uğrunda mübarizə aparan 87,6 ml. nəfərdə bir sıra gözəl keyfiyyətlər inkişaf etmişdir. İştirakçıların fiziki hazırlıq səviyyəsi də xeyli artmış, 29 ml. nəfər ƏMH kompleksi normalarını, 24,4 ml. nəfər isə dərəcə normalarını yerinə yetirmişdir.[1]

Söz yoxdur ki, bu cür böyük miqyaslı fəaliyyət əvvəlcədən ətraflı ölçülüb-biçilir və planlaşdırılır.

***Fəaliyyətin planlaşdırılması.*** Görüləcək işin əvvəlcədən planlaşdırılması fəaliyyətin məhsuldarlığına, şəxsiyyətin, o cümlədən müvafiq qabiliyyətlərin formalaşmasına kömək edir. Özünün və kollektivin fəaliyyətin düzgün planlaşdırmaq, hər şeydən əvvəl, vaxtın nəzərə alınması və bölüşdürülməsi, habelə fəaliyyətin müvəffəqiyyəti üçün lazım olan nə varsa, hamısının nəzərdə tutulması deməkdir. İşin planlaşdırılması və plana uyğun şəkildə fəaliyyətin təşkili adama imkan verir ki, ortaya çıxan nöqsanları vaxtında görsün, onların səbəblərini araşdırsın, aradan qaldırılması yollarını vaxtında müəyyənləşdirsin. Bunu görkəmli alimlərin istehsalat qabaqcıllarının təcrübəsi təsdiq edir. Məsələn, buruq ustası Hüseyn Hüseynovun briqadasını başqalarından fərqləndirən cəhətlərdən birisi budur ki, briqada bütün quyuların təmirinə qabaqcadan hazırlıq görülür. Təmir əvvəlcədən planlaşdırıldığından, məsələn, briqada 141 nömrəli quyuda işləyən zaman artıq 138 nömrəli quyunu təmir etmək üçün hazırlıq işi aparmışdır: lazım olan avadanlığı əldə edib oraya daşımışdır. Nəticədə vaxt itkisinə yol verilmir, təmir qrafikinə əməl olunur. Bu, adamdan böyük təşkilatçılıq bacarığı tələb edir.

[1] «Kommunist» qəzeti, 8 avqust 1979

Hələ 1977-ci ilin sonunda «bir beşillikdə iki beşillik planı yerinə yetirməli» təşəbbüsünü irəli atan qabaqcıllar arasında Hüseynov da vardır. Briqadir vədinə şərəflə əməl etmişdir: 1978-ci ilin iyun ayında bir beşilliyin yerinə yetirdiyi barədə qələbə raportu vermişdir.

Azərb. SSR Ali Sovetinin deputatı Lenin ordenli H. Hüseynov işindəki təşəbbüskarlığı, yenilikləri üçün SSRİ Dövlət mükafatı laureatı kimi şərəfli ada layiq görülmüşdür.

Leytenant Şmidt adına maşınqayırma zavodunda «Bir beşillikdə iki beşillik ilan» devizi ilə işləyən tokar Çapar İsmayılovu götürək.

Fəaliyyətin düzgün pallaşdırılması və bu plana ciddi əməl olunması Hüseyn və Çapay kimi istehsalat qabaqcıllarının şəref zirvələrinə ucalmalarının səbəblərindən birinə çevrilmişdir.

***Qabiliyyətlərin formalaşmasında məşqin əhəmiyyəti.*** Öz fəaliyyətinə şüurlu münasibət, eyni istiqamətdə müntəzəm və ardıcıl məşq adamda qabiliyyətləri inkişaf etdirən qüdrətli vasitələrdən biridir. Bu həqiqət fəaliyyətin bütün sahələrində özünü doğruldur. Tarixdə hələ belə bir hal məlum deyildir ki, məsələn, musiqi, idman, təsviri incəsənət və s. sahələrdə şəxsi fəaliyyət göstərmədən, müntəzəm və gərgin məşq etmədən, ardıcıl səy və işgüzarlıq göstərmədən kimsə məşhur şəxsiyyət kimi yetişmiş olsun. Paraşütçülük sahəsində Valentina Zakoredskayanın qabiliyyətinin yüksək dərəcədə inkişafına səbəb nə olmuşdur? Yorulmaq bilməyən müntəzəm məşq! Dünyaya məşhur olan cəsarətli qadının tərcümeyi-halında məlumdur ki, B.Zakoretskaya 13 il məşq etmiş, 6 min dəfə paraşutla tullanmışdır. Hər dəfə ni onun yüksəlişində bir pillə hesab etsək, 6 mininci tullanmanı pillələrin ən yüksək zirvəsi kimi təsəvvür etməliyik.

Yaxud, baş aviasiya konstrukturu O.K.Antonovun həyati da bu cəhətdən xarakterikdir. Məlum olduğu kimi, «Antey» yaradıcısı olan Antonov şagird ikən aviasiya həvəskarları dərnəyinin üzvü olub, təyyarə haqqında hər cür məlumatları toplamağa böyük maraq göstərib, müxtəlif təyyarə modelləri quraşdırmaqla məşğul olub, aviasiya ilə əlaqədər olan kitablar alaraq şəxsi kitabxana düzəldibdir.

Göründüyü kimi, antonovun yükəliş yolu aviasiya sahəsində uşaqlıqdan çəkilən müntəzəm, gərgin əmək, aviasiyaya heç zaman azalmayan böyük maraq yolu olmuşdur.

**Sual olunur:** adi adamların sezə bilmədiyi əzələ hərəkətlərini hiss etmək qabiliyyəti T.Dadaşov kimi şəxslərdə necə inkişaf etmişdir? Başlıca olaraq məşq yolu ilə!

T.Dadaşov fikrin əzələ effektini duymaq sahəsində müntəzəm və gərgin məşğul olmaqla öz həssaslığını, müşahidəçilik qabiliyyətinin son dərəcə inkişaf etdirməyə nail olmuşdur. Tənəffüsün tezliyi, nəbzin döyünmə xarakteri,fikrən təkrar edilən sözün (səsin) tələffüz tembri, yerişin xüsusiyyəti, duruş vəziyyəti, üzdə mimik reaksiyalar, baxışların istiqaməti və s. T.Dadaşov kimi adamlar üçün məlumat mənbəyi olur.

Məlumdur ki,möcüzədarların və izilluziyaçıların hər üç ildən bir ümumidünya konqresi keşirilir. Sonuncu konqres 1978-ci ilin iyun-iyul aylarında Brussel şəhərində keşirilmişdir, Qazaxıstan SSR artistləri Sari Kabiqujina və Sultanqali Şükürov konqres iştirakçılarını heyran qoymuşlar: bütün zaldakılar ayaq üstdə onlara əl çalmışlar.

Nailiyyətlərinin sirrini, qabiliyyətlərinin səbələrini aydınlaşdırmağı xahiş etdikdə S.Şükürov demişdir: «...bu uzun illər təkidli və gərgin əməyin nəticəsidir».

Fiziologiyada məlumdur ki, gərgin fiziki və ya zehni iş orqanizmə daha çox oksigen daxil olmasını, ürək-damar sisteminin daha intensiv fəaliyyətdə olmasını tələb edir.

Ciyərlər isə çox gərgin fəaliyyətdə olan ürək-damar sistemini, bədənin toxuma və hüceyrələrini tələb olunan qədər oksigenlə təmin etməkdə çətinlik çəkir, ciyərlər borc hesabına, bədəndəki oksigen ehtiyatı hesabınada fəaliyyət göstərməli olur. Orqanizm fiziki və ya zehni məşqə alışdıqca, ayrı-ayrı üzvlərə ziyan vurmadan, ehtiyatda olan oksigeni daha çox sərf edir. Bununla yanaşı orqanizm başqa bir faydalı xüsusiyyət də qazanır, oksigen borcunu tez ödəməyə alışır. Məşqə alışmayan adamın orqanizmi gərgin fəaliyyət zamanı xərclədiyi ehtiyat oksigeni tez ödəyə bilmir, belə adamın orqanizmi toxuma və hüceyrələrini oksigenlə vaxtında təmin etməkdə çətinlik çəkir, bu da özünü təngənəfəslikdə, nəbzin şiddətlənməsində, ürək

döyüntüsünün artmasında və s. hallarda göstərir. Məşqə alışmış orqanizm isə sərf etdiyi ehtiyat oksigeni növbəti gərgin iş qurtaran kimi az vaxt ərzində atmosfer hesabına tez ödəyə bilir. Buna görə də belə adamlarda təngənəfəslik,şiddətlənən ürək döyüntüsü tez qaydaya düşür.

Orqanizm hesabına sərf olunmuş oksigen ödənilən zaman, yəni bərpa olunan zaman atmosferdən daxil olan oksigen orqanizmdə qeyri-bərabər şəkildə paylanır: əvvəlcə beyin toxumaları, sonra ürək və başqa əzələ toxumaları oksigenlə təmin olunur.

Bu cür bərpanın mahiyyəti ondan ibrətdir ki, oksigen borcunu ləğv edənə qədər məşqə alışmış orqanizmin müxtəlif sistemləri funksional fəallığını davam etdirə bilir; işin məhsudarlığı daha artır; məşqə alışmamış orqanizmin ayrı-ayrı sistemlərinin funksional fəalığı isə pozula, məhsuldarlığı azala bilir.

Həmin faktlar bir daha sübut edir ki, mühit amillərinin köməyi ilə, xüsusən fiziki təmrinlər vasitəsi ilə, orqanizmin ayrı-ayrı sistemlərinə, onların funksiyalarına təsir göstərmək, orqanizmin malik olduğu imkanları səfərbər etmək və onlardan maksimum dərəcədə istifadə etmək mümkündür.

***Psixi-fzioloji amillərin təsiri.*** Aparılan elmi-tədqiqat işləri və həyat təcrübəsi göstərir ki, qabiliyyətlərin inkişafına fizioloji amilər də təsir göstərə bilir. Məsələn, isbat olunmuşdur ki, hafizənin səviyyəsi emosiyaların səviyyəsi ilə əlaqədar olur. Müsbət və mənfi emosiyaların yaranmasında amillər-serotonin və noradrenalin iştirak edir. Eksperimental yolla müəyyənləşdirilmişdir ki, məsələn, siçanın beynində serotinin sintezində iştirak edən mərkəzin fəaliyyətini dayandırdıqda müsbət emosiya, norad renalin sintezində iştirak edən mərkəzin fəaliyyətini dayandırdıqda isə mənfi emosiya baş vermir. Deməli, orqanizmdə serotonin və ya noradrenalin sintezinin dərəcəsini dəyişdirməklə emosiyaların, nəticədə isə hafizənin səviyyəsinə təsir etmək mümkündür.

İsbat olunmuşdur ki, orqanizmdə amillərin sintez olunma dərəcəsi fəaliyyətin xarakteri ilə də bağlıdır. Məsələn, məsuliyyət hissi adamda hafizənin güclənməsinə, diqqətin

artmasına səbəb olur. Aşkara çıxarılmışdır ki, məşq, istirahət və beynəlxalq yarışlar zamanı yadda saxlama qabiliyyətinin səviyyəsi başqa-başqa olur. Hafizənin ən yüksək göstəriciləri beynəlxalq yarışlar dövrünə düşür. Yəqin edilmişdir ki,beynəlxalq yarışlar zamanı idmançıların orqanizmində noradrenalin daha da çoxalır. Çünki onların məsuliyyətləri xeyli artıq, emosianal gərginlikləri daha yüksək olur. Məsələn, böyük su-elektrik stansiyasının idarə pultunda dayanan operator cihazlardakı göstəricilərin azacıq dəyişməsindən dərhal nəticə çıxarmalı, düzgün tədbir görməli olur, onda fikir aydınlığı artır, diqqətliliyin səviyyəsi yüksəlir.

«Hafizə: molekulyar əsasları»[1] adlı məqaləsində R.İ.Kruqlikov mövcud ədəbiyyatı ümumiləşdirərək göstərir ki, yadda saxlamanın müddətinə bir sıra biokimyəvi amillər də, sinir huceyrələrinin elektrik fəallığını dəyişdirən amillər, məsələn, elektrik cərəyanı, beyinin qanla təmin olunmasının pozulması, oksigen çatışmazlığı, narkoz, bəzi zəhərlər də təsir göstərir. Beyin hüceyrələrində nuklein turşularının, xüsusən zülalların sintezi elmdə yaddasaxlamanın əsaslarından biri hesab edilir. yaddasaxlama prosesində məhz spesifik zülalların mübadiləsi daha çox dəyişkənliyə məruz qalır. İsbat olunmuşdur ki, yaddasaxlama prosesində yeni zülallar da sintez olunur. Belə zülalların sintez olunmasını beyində süni yollarla dayandırmaq mümkün olduqda beyində hüceyrələrarası əlaqələrin yaranması xeyli zəyifləyir, izlər tez itir.

Bu yaxınlarda sübut olunmuşdur ki, yaddasaxlamanın müddətinə bəzi hormonlar da, məsələn, adrenokoptikotrop və lizinvazopressin hormonu təsir göstərir. Avtomobil qəzası nəticəsində hafizəsini itirmiş iki nəfər lizinvazopressin vasitəsilə nüalicə olunmuş və onların hafizəsi bərpa edilmişdir.

Bu cür faktlar göstərir ki, hafizə beyində cərayan edən biokimyəvi hadisələrlə də əlaqədardır və beyin hüceyrələrində müvəqqəti əlaqələrin çoxneyronlu sistemidir: yaddasaxlama isə bu cür əlaqələrin yaranması prosesidir.

---

[1] «Pravda» qəzeti, 6 aprel, 1980. Bax: «                » jurnalı, №12, 1979.

Şəxsiyyətin formalaşmasında, fəaliyyətin müvəffəqiyyətində daxili imkanlar, mövcud adət və vərdişlər, anlayışların səviyyəsi az rol oynamır. Adamın psixologiyası, onun mövcud maraqları, təsəvvür və anlayışları mühit amillərinə və tərbiyəvi tədbirlərə həmin şəxsin münasibətini müəyyən dərəcədə şərtləndirir. Başqa sözlə desək, tərbiyəvi tədbirlərin adamlara, o cümlədən uşaqlara təsirinin səmərəsi onlarda mənəviyyatın səviyyəsindən də asılı olur. Adamın mənəvi səviyyəsi ilə onun özünütərbiyə imkanları arasında, təkmilləşmək və cəmiyyətdə fəal mövqe tutmaq imkanları arasında üzvi əlaqə vardır. Adam mühit amillərinə, tərbiyəvi təsirlərə ayrı seçkiliklə yanaşa bilir, öz anlayışlarına və maraqlarına uyğun gələnlərini qəbul edə, uyğun gəlməyənlərinə ya laqeyd ola, yaxud da müqavimət göstərə bilir.

Partiya tərəfindən qabiliyyətlərin qiymətləndirilməsi. Ölkəmizdə partiya rəhbərliyi qabiliyyətlərin inkişafına təkan verən amilə çevrilmişdir. Qabiliyyətli, istedadlı adamların aşkar edilməsini və rəğbətləndirilməsini Sov.İKP təşkil edir. Partiyamızın şanlı tarixi, onun hazırkı coşğun fəaliyyəti bu həqiqəti təsdiq edir. Böyük Vətən müharibəsindən sonrakı bərpa illərinə nəzər salaq: müharibənin vurduğu yaraları sağaltmaq, faşistlər tərəfindən dağıdılmış təsərrüfatı bərpa etmək lazım idi. Müharibə təzəcə qurtarmışdı ki, «soyüq müharibə» başlayır. Ölkənin traktora, avtomobilə, digər maşınlara olan ehtiyacını tezliklə ödəmək lazım gəlir. ABŞ isə, məsələn, su-elektrik stansiyaları üçün aqreqatların tam kompoektini hazırlamağı öhdələrinə götürsə də, maşın satışını qəflətən dayandırır. ABŞ polad təbəqəni strateji materiallar siyahısına salaraq, bu təbəqənin bizə satışını gözlənilmədən kəsir. Polad təbəqəsiz isə nə avtomobil, nə də traktor istehsal etmək mümkün deyildi.

Belə bir şəraitdə «Zaporojstal»ı təcili bərpa etmək lazım idi. Xarici mütəxəssislər Zaporojyedə olduqdan sonra yazmışdır ki, «Zaporojstal»ı bərpa etmək ümumiyyətlə ağlasığmaz işdir, yeni zavod tikmək bundan ucuz başa gələr. Faşist generalı Ştülpnagel Dneprdən qovulandan sonra

Hitlerə belə bir məlumat vermişdi: «Dağıdılanları bərpa etmək üçün Rusiya iyirmi beş il sərf etməli olacaqdır».

Bütün bunlara əsasən imperialist siyasətçiləri güman edirdilər ki, təsərrüfat çətinlikləri məcbur edəcək Ki, SSRİ ABŞ qarşısında diz çöksün və SSRİ-nin daxili işlərinə qarışmağa imkan yaransın.

Belə bir vəziyyəti aydın şəkildə başa düşən partiyamız hələ o zaman sovet xalqını ayağa qaldırmış, onun yaradıcı qüvvələrini səfərbər etmiş, işin zəruriliyini zəhmətkeşlərə aydınlaşdırmışdır. Sovet adamlarının qurmaq və yaratmaq əzmi qat-qat artdı, minlərlə istedadlı istehsalatçılar, qabil təşkilatçılar meydana çıxdı. Nəticədə «Zaporojstal» 1947-ci ildə bir il ərzində bərpa edilib işə salındı.

Sov.İKP müasir dövrdə də sovet xalqının quruculuq işlərini təşkil edir, ona istiqamət verir. Sov.İKP xalq təsərrüfatında, elm və mədəniyyət sahəsində adamların təşəbbüskarlığına, yaradıcılığına nəinki şərait yaradır, həm də təşəbbüskai və yaradıcı şəkildə işləyən adamları müdafiə edir, onlara arxa olur.

Partiyamız fədakar əməyə, sosialist əməyinə, istehsalat qabaqcıllarına, istedadlı adamlara yüksək qiymət verir. Belə adamlar Sov.İKP MK-sına, Azərb. KP MK-sına, SSRİ və Azərb. SSR Ali Sovetlərinə deputat seçilir, onlara Sosialist Əməyi Qəhrəmanı fəxri Adı verilir. Sov.İKP və Sovet hökuməti nəinki ayrı-ayrı adamların əməyini, hətta ayrı-ayrı istehsalat kollektivlərinin, şəhərlərin, respublikaların əməyini qiymətləndirir. Əməyinə, fəaliyyətinə yüksək qiymət verilən şəhərlər və respublikalar arasında Bakı şəhəri və Azərbaycan SSR də vardır. Məsələn, xalq təsərrüfatını inkişaf etdirmək haqqında Sov.İKP XXV qurultayı qərarının həyata keçirilməsində Azərb. SSR zəhmətkeşlərinin qazandıqları böyük müvəffəqiyyətlərə, sənaye və kənd təsərrüfatı məhsulu istehsalına dair onuncu beşillik tapşırıqlarının vaxtından əvvəl yerinə yetirilməsinə görə respublikamız üçüncü dəfə Lenin ordeni ilə təltif edilmişdir.

Böyük Oktyabr Sosialist inqilabının yubileyi ərəfəsində ədəbiyyat, incəsənət və arxitektura sahələrində olduğu kimi, sosializm yarışının önündə gedən, vətənpərvərlik, təşəbbüs-

ləri göstərən istehsalat yenilikçilərinə SSRİ Dövlət Mükafatı laureatı adı verilməsi artıq ənənəyə çevrilmişdir. SSRİ Dövlət Mükafatı laureatlarının sıralarına 1979-cu ildə 180 fəhlə və kolxozçu əlavə olunmuşdur. Onların arasında bütün müttəfiq respublikaların nümayəndələri vardır.

Partiyamızın və Sovet hökumətinin əməyə, istehsalat yenilikçilərirnə verdiyi qiymət sovet adamlarını yeni əmək nailiyyətlərinə səsləyir, onların əmək coşğunluğunu artırır. Kommunist partiyasının və Sovet dövlətinin qayğısına cavab olaraq, zəhmətkeşlər daha yaxşı işləyəcəklərinə söz verir, yeni, daha yüksək sosialist öhdəlikləri götürürlər. Bircə misal gətirək. Azərbaycanın üçüncü dəfə Lenin ordeni ilə təltif olunması, Sov.İKP MK-nın respublika zəhmətkeşlərinə təbriki bütün müəssisələrdə olduğu kimi, Kirovabad çörək-qənnadı istehsalat birliyində də böyük ruh yüksəkliyi yaratmışdır: hər bir işçi yüksək mükafata özünün əməli işi ilə cavab verdiyini hər gün sübut edir. İstehsalat birliyində hamı çalışır ki, zəhmətkeşlərin süfrəsində daha çox şirniyyat olsun. Beləlikdə, qabiliyyətlərin erkən yaşlarında və ya inkişafın sonrakı mərhələlərində daha qabarıq şəkildə özünü göstərməsi, habelə başqa-başqa istiqamətdə təşəkkül tapa bilməsi hər bir şəxsin anatomik-fizioloji imkanları ilə, ətraf mühitlə, alınan tərbiyənin xarakteri ilə, şəxsi fəaliyyətlə, adamın psixoloji keyfiyyətlərinin mövcud səviyyəsi ilə bağlı olur. Buna görə də tərbiyə işində həmin cəhətlər diqqət mərkəzində saxlanmalı, şüurda və ya davranışda müşahidə olunan nöqsanların səbəblərini yalnız tərbiyədə axtarıb tərbiyəçini, yalnız mühitdə axtarıb mühiti, yalnız irsiyyətdə axtarıb insan təbiətini günahkar etmək obyektivlikdən uzaq olar. Şəxsiyyətin formalaşması səbəblərini yalnız irsiyyət, yalnız mühit və ya tərbiyə amili ilə izah etmək düzgün deyildir. İnsan xarakteri xüsusiyyətlərinin səbəblərini Qoşa amillərdə, yəni irsiyyət və mühitdə, yaxud mühit və tərbiyədə axtarmaqda problemin tam həlli üçün kifayət deyildir. Şəxsiyyətə irsiyyətin, mühitin və tərbiyənin təsirinin ayrılıqda vəya onların rolunun birlikdə nəzərdən keçirilməsi də elmi kifayət sayıla bilməz. Çünki həmin hallarda şəxsiyyətə

təsir göstərən amillərin qarşılıqlı əlaqəsi və şəxsiyyətin fəallığı, onun passiv olmadığı nəzərə alınmır.

Marksizm-Leninizm şəxsiyyətin formalaşmasında irsiyyətin, mühitin və tərbiyənin ayrılıqda rolunu qəbul etməklə kifayətlənmir; bundan əlavə, onların təsirini qarşılıqlı əlaqədə nəzərdən keçirilməyi vacib hesab edir: çünki irsiyyət, mühit və tərbiyə amilləri şəxsiyyətə qarşılıqlı əlaqədə təsir göstərir. Marksizm-Leninizm insana yalnız bioloji varlıq kimi baxmır, onu həm də ictimai varlın hesab edir. Şəxsiyyətin formalaşmasına dair nəzəriyyə üçün bu müddəanın böyük əhmiyyəti vardır. Belə müddəa adamların həm bioloji inkişaf qanunauyğunluqlarını həm də ictimai münasibətlər sistemində ki, mövqelərini tərbiyə zamanı nəzərə almağın zəruriliyini şərtləndirir.

Hazırda tibb elminin daha surətlə inkişaf edən bir sahəsi – sosioloji tibb sahəsi, yəni klinika və profilaktika, bunun nəzəriyyəsi və təcrübəsi düzgün olaraq insana həm də ictimai varlıq kimi, ictimai istehsal münasibətlərinin vacib cəhəti kimi baxır: normal fiziologiyanı da, potologiyanı da ictimai mühitlə, istehsalatla, siniflə, sosial-iqtisadi quruluşla əlaqəli şəkildə nəzərdən keçirir.

İrsiyyət şəxsiyyətin inkişafı üçün zəmin yaradırsa, inkişaf bu zəmin əsasında cərəyan edirsə, mühit şəxsiyyətdə yeni-yeni əlamətlərin inkişafını sürətlənməsini və ya ləngiməsini şərtləndirirsə, tərbiyə uşağın həyat və fəaliyyəti təşkil etməklə, mühit amilləri arasında tərbliyə məqsədləri üçün münasib olanları seçməklə şəxsiyyətin inkişafını istiqamətləndirir və idarə edir.

Planlı, əsaslı görünən ictimai siyasi tədbirlər, düşünülmüş şəkildə aparılan təlim və tərbiyə işləri, mədəni maarif tədbirləri, adamın istehsalat fəaliyyəti, onun nəinki psixikasına, xarakterinə, habelə psixikanın maddi əsası olan beyinə, sinir sisteminə təsir göstərir; irsi daşıyıcıların, irsi əlamətlərin özünü də dəyişkənliyə uğrada bilir. Adamın psixo-fizioloji və fiziki imkanları müəyyən ictimai mühitdə, əmək fəaliyyəti zamanı, ictimai ünsiyyət prosesində, tərbiyənin gedişində inkişaf edə və gerçəkliyə çevrilə bilir.

İnsan fəal məxluqdur. O. özündə hiss etdiyi nöqsanları məhz fəaliyyət zamanı aradan qaldırmağa qadirdir: insan nəinki xarici mühitə uyğunlaşır, hətta mühitdə müşahidə etdiyi nöqsanlara qarşı fəal mübarizə apara, mühiti dəyişdirə bilir. Məhz belə bir mübarizə prosesində adamın mənəvi, psixi inkişafı daha geniş miqyas aldığından, onun şəxsiyyətini mühitin, irsiyyətin və tərbiyənin passiv məhsulu hesab etmək düzgün deyildir. Şəxsin fəallığı nəinki ətraf mühitə, tərbiyəyə qarşı ona münasibətlərində ona göstərir, habelə onun fəallığı özünə münasibətində də müşahidə edir. Şəxs özünə, öz hərəkətlərinə tənqidi münasibət göstərə bildiyindən özünü tərbiyə və təkmilləşmək olur. Özünütərbiyə mühitin və tərbiyənin tələblərinə, öz imkanlarına uyğun gəldikdə daha çox səmərə verir. Buna görə də qəbiliyyətləri hər bir adamda inkişaf etdirməyin mümkün olduğu barədə inam yaradılması böyük əməli əhəmiyyət kəsb edir. Uşaq şəxsiyyətini inkişaf etdirməyinsəmərəsini artırmaq üçün təbiət və cəmiyyət qanunlarının uşaqlar tərəfindən hərtərəfli öyrənilməsini təşkil etmək, öz fəaliyyətini həmin biliklərə uyğun şəkildə qurmağı onlara öyrətmək vacibdir; şəxsiyyətin mahiyyəti ictimai münasibətləri özündə əks etdirildiyindən, uşaqların təbii imkanlarının və əqli qabiliyyətlərinin inkşafına təkan vermək üçün onları ictimai fəaliyyət təcrübəsinə qoşmaq, ictimai münasibətlər sisteminə qovuşdurmaq zəruridir; uşaqların ictimai və məhsuldar fəaliyyətini təşkil edən zaman ölkəmizdə sosial-iqtisadi və mədəni münasibətlərdə əmələ gələn yeniliklər nəzərə alınmalıdır.

*Uşaqlar ictimai-faydalı işlərə fəal ictimai münasibətlərə nə qədər geniş miqyasda və nə qədər müntəzəm şəkildə cəlb edilərsə, bu cəhətdən onların fəaliyyətləri nə qədər mənalı və mütəşəkkil olarsa, onda şəxsiyyətin, xarakterin formalaşması bir o qədər səmərəli cərəyan edir.* Uşaqlarda xarakterin formalaşmasının səmərəlilik dərəcəsi ictimai fəydalı işlər sisteminə onların cəlb edilmə dərəcəsindən, fəaliyyətin şüurluluq dərəcəsindən də asılıdır. Mühitin ayrı-ayrı cəhətlərinin təkmilləşdirilməsi işinə uşaqların cəlb olunması düzgün tərbiyənin vacib şərtlərindən biri hesab edilməlidir.

Şəxsiyyətin formalaşması qanunauyğunluqlarının düzgün başa düşməyin böyük siyasi və əməli əhəmiyyəti vardır. İrsiyyətin, mühitin və tərbiyənin ayrılıqda rolunu və onların qarşılıqlı əlaqəsinin düzgün qiymətləndirmək əsasında hər bir şəxsin qabiliyyətlərini maksimum dərəcədə inkişaf etdirmək üçün yetkin sosializm şəraiti dövlət miqyasında fəaliyyət göstərməyə imkan verir. Bu cəhət də etiraf olunmalıdır ki, sosializm şəraitində şəxsiyyətin formalaşmasına təsir göstərən amillər arasındakı qarşılıqlı əlaqənin xarakteri kapitalizm mühitində müşahidə edilmir. Sosializm şəraitində tərbiyə qarşısında qoyulan məqsədin müvəffəqiyyətlə həyata keçirilməsi üçün münasib sosial mühit-sovet həyat tərzi: kollektivçilik və yoldaşlıq, həmrəylik ölkənin bütün millətləri və xalqları arasında dostluğun gündən-günə artması və s. vardır.

İnsan orqanizmində gedən fizioloji prosesləri və inkişaf edən psixoloji xüsusiyyətləri öyrənmək əsasında şəxsiyyətə göstərilən planlı təsirlər sistemi ölkəmizdə getdikcə genişlənir və dərinləşir. Uşağın düzgün tərbiyəsi sosializm şəraitində dövlət əhəmiyyətli siyasi məna kəsb edir. SSRİ-nin yeni Konstitusiyası qanuniləşdirmişdir ki, SSRİ vətəndaşları uşaqların tərbiyəsinə qayğı göstərməyə, onları ictimai-faydalı əməyə hazırlamağa borcludur.

İnkişaf etmiş sosializmin belə bir yeni cəhətini də nəzərə almalıyıq; ölkəmizdə uşaqların və gənclərin tərbiyəsinə sovet adamlarının köməyi xeyli asanlaşır, çünki bizim gənc nəsil onların əhatəsində tərbiyə almalı olur. Sovet adamları isə, Sov.İKP XXV qurultayının göstərdiyi kimi, sovet hakimiyyəti illərində püxtələşmiş olan adamlar, azadlığa nail olan, bu azadlığı ölüm-dirim vuruşlarında qoruyub saxlayan adamlardır; öz qüvvəsini əsirgəməyərək, hər cür qurbanlara sinə gələrək gələcəyi quran adamlardır; bütün imtahanlardan çıxaraq özü başdan-başa dəyişmiş olan, etiqadını böyük həyat enerjisi ilə, mədəniyyətlə, biliklərlə və onları tətbiq etmək bacarığı ilə birləşdirən adamlardır; hərarətli vətənpərvər olub dönmədən beynəlmiləlçi olan adamlardır.

Sovet adamlarının əxlaqi, estetik, fiziki və s. keyfiyyətlərinin formalaşmasında ailə həyatının rolunu unutmaq olmaz. Ailədə həyat tərzinin, ailə həyatındakı xüsusiyyətlərin nəinki ailə üzvlərinə, habelə bütün cəmiyyətə dəxli vardır. Cəmiyyətdə baş verən hadisələr ailənin vəziyyətinə təsir göstərdiyi kimi, ailə həyat tərzi, ailədə əxlaqi iqlim cəmiyyətə müəyyən təsir göstərə bilir.

Ayrı-ayrı adamların şüurunda və davranışında müşahidə olunan bəzi xoşagəlməz halların, məsələn, kollektivlə hesablaşmamaq, dedi-qodu yaratmaq, qeybət qırmaq, yoldaşa böhtan atmaq, imzasız məktub yazmaq, rüşvətxorluq və s. kökü ailə ilə, ailə tərbiyəsində yol verilən nöqsanlarla da bağlı olur. Uşağı ərköyün böyüdən, vaxtından əvvəl dəbdəbəli geyimlərə uyduran, ailə qayğılarından uşağı azad edən valideynlərin uşaqlarında istehlakçılıq, ata-analara qarşı laqeydlik, xüdpəsəndlik, özündən bədgüman olmaq, özbaşınalıq kimi yaramaz xüsusiyyətlərin qol-qanad açması heç kəsdə təəccüb doğurmamalıdır

Adamların mənəviyyatı, onların hansı əqidədə olduqları, kommunist əxlaqı normalarına nə dərəcədə əməl etdikləri kollektivdə və ailədə yaranan psixoloji iqlim fəaliyyətin xarakterinə, müəssisədə məhsuldarlığın səviyyəsinə təsir göstərir.

Kollektivdə və ya ailədə qeyri-sağlam əxlaqi iqlim kök saldıqda, qanunçuluğun və əxlaq qaydalarının pozulmasına yol verildikdə, kadrlarda iş zamanı partiya normalarının pozulmasına imkan verildikdə, adamlara laqeyd münasibət göstərildikdə kollektivin üzvlərində əməyə yaradıcı münasibət, təşəbbüskarlıq sönür, təsərrüfatsızlıq meylləri güclənir. Nəticədə, istehsalat zərər çəkir, işin səmərəsi və keyfiyyəti azalır. Buna görə də ailədə və istehsalat kollektivində mənəvi mühiti daim sağlamlaşdırmağa və təkmilləşdirməyə səyi artırmaq zəruridir. Göstərilən halların qarşısını almaq üçün görülən tədbirlər sırasında kollektivin, ictimaiyyətin rəyini öyrənmək, onu nəzərə almaq, onunla hesablaşmaq mərkəzi yerlərdən birini tutmalıdır.

Sovet adamlarına xas olan keyfiyyətlərin sosializm mühitində, onun siyasi quruluşunun təsiri altında formalaşdığını

aydın təsəvvür edən partiyamız xalq deputatları sovetinin, komsomol və həmkarlar təşkilatlarının fəaliyyətini təkmilləşdirməyi, dövlət və ictmai işlərin idarə olunmasına sovet adamlarını getdikcə daha geniş miqyasda cəlb etməyi, sosialist demokratiyasını daha da təkmilləşdirməyi daim diqqət mərkəzində saxlayır.

Kommunizm quruculuğunun tələb etdiyi keyfiyyətlərin sovet adamlarında formalaşması səviyəsi bu işə partiya təşkilatlarının rəhbərlik səviyyəsindən də asılıdır. Əxlaq tərbiyəsi ilə əlaqədər olaraq bir fikri burada xatırlayaq: «Müasir mərhələdə zəhmətkeşlərin mənəvi tərbiyəsini təkmilləşdirmək vəzifəsi ideoloji işə partiya rəhbərliyi səviyyəsini daha da yüksəltməyi tələb edir... Təcrübə sübut edir ki, partiya rəhbərliyi səviyyəsi nə qədər yüksək olursa, əmək kollektivində, rayonda, şəhərdə, respublikada istehsalat göstəriciləri bir o qədər yaxşı, mənəvi psixoloji iqlim bir o qədər sağlam olur. Mənəvi tərbiyə sisteminin təsir gücü partiya komitələrinin ictimai həyatın diqqətlə təhlil olunmasını tələb edən saysız-hesabsız işlər içərisində mənəvi cəhətləri seçib ayırmaq bacarığından çox asılıdır».[1] Bu müdrik sözləri hər bir partiya təşkilatı və onun rəhbərləri möhkəm yadda saxlamağa və ona əməl etməyə borcludur.

İnkişafımızın müasir səviyyəsində diqqəti belə bir cəhət də cəlb edir ki, kommunistlərin avanqard rolunun artırılması, kadrlarda məsuliyyətin yüksəldilməsi, onlara qarşı tələbkarlığın gücləndirilməsi, partiya və dövlət intizamının təkmilləşdirilməsi, Azərb. KP MK-nın şəhər və rayon partiya komitələrinin, ilk partiya təşkilatlarının dönmədən apardığı məqsədyönlü iş respublikamızda bütün partiya və dövlət aparatının fəaliyyətini yaxşılaşdırmağın əsasına, iqtisadiyyatın inkişafı sayəsində nailiyyətlərimizin əsasına, əxlaqi-psixoloji sağlamlaşdırmağın, yüksək əxlaqi sifətləri sovet adamlarına aşılamağın əsasına çevrilmişdir.

---

[1] Fəal həyat mövqeyinin formalaşdırılması:mənəvi tərbiyənin təcrübəsi və aktual poblemləmləri. Azərnəşr, 1979, səh. 40.

Göründüyü kimi, inkişaf etmiş sosializm dövründə şəxsiyyətin formalaşması prosesində bir dialektika olduğu sezilir: sovet adamlarının fəaliyyəti ətraf mühitlə, onların sosial-iqtisadi ehtiyacları ilə şərtlənir; bu fəaliyyətə partiyamız istiqamət verir və rəhbərlik edir: adamların istehsalat fəaliyyəti sahəsində mühit daha da təkmilləşir və bu zaman onların şəxsiyyətidə inkişaf edir. Yeni keyfiyyətlərə malik olan sovet adamları ətraf mühitə daha fəal təsir göstərirlər. Ölkəmizdə kommunizm quruculuğu işlərinə aid külli miqdarda faktlar belə bir nəticə çıxarmağa əsas verir ki, məhsuldar əməyin, ictimai-faydalı əməyin nüfuzunu hər yerdə dönmədən qaldırmaq, adamların əmək fəaliyyətini hər yerdə elmi əsaslarda təşkil etmək, onları əmək məhsuldarlığının artırılmasına, istehsalın səmərəliliyini və işin keyfiyyətini yüksəltməyə daha geniş miqyasda cəlb etmək şəxsiyyəti formalaşdırmağın, mənəvi zənginliyin başlıca istiqamətlərindən birinə çevrilməlidir.

Cəmiyyətdə artıq özünə haqq qazandıran bu istiqamətin məktəblərə, təhsil ocaqlarına da dəxli vardır. SSRİ-də xalq maarifi, məktəblərdə təlim-tərbiyə işi daim xalq təsərüffatı ilə təmasda inkişaf etmişdir. Müasir dövrdə ölkəmizin iqtisadiyyatı son dərəcə iri addımlarla irəliləyir, sənaye geniş miqyasda yenidən qurulur, daha da genişləndirilir. Ən qabaqcıl texnika ilə təchiz olunmuş yeni müəssisələr tikilir, yeni istehsal sahələri meydana gəlir. Kənd təsərrüfatının inkişafında da yeni mərhələyə qədəm qoyulmuşdur: kənd təsərrüfatının ixtisaslaşdırılması, təmərküzləşdirilməsi və aqrar-sənaye inteqrasiya əsasında istehsalın intensivləşdirilməsi prosesi böyük sürətlə gedir. Belə bir şəraitdə orta məktəb məzunlarına, orta və ali təhsil sahiblərinə yeni-yeni tələblər verilir. Gənclərimiz elmi işçilərə xas olan bir sıra xüsusiyyətlərə yiyələnməli, elmi yeniliklərdən xəbərdar olmalı, onların tətbiqində daha fəal iştirak etməlidirlər. Yeni dövr məktəblərdən yeni iş üslubu, məzunlardan yeni keyfiyyətlər tələb edir. Bu tələb Azərbaycan müəllimlərinin VI qurultayında daha əyani şəkildə ifadə olunmuşdur: «Çox uzun müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə – əsas hesab edilən

göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər adamlar yetişdirmək məktəbin ən birinci borcudur. Məzun əməyə hazırdırmı? Bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi bax, bu meyarla müəyyən edilir».[1] Hər bir tədris müəssisəsinin rəhbəri, orada işləyən hər bir müəllim və tərbiyəçi bu başlıca meyarı diqqət mərkəzində saxlamalı və işində ona əməl etməlidir.

Məktəbin qarşısında duran yeni vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi tələb edir ki, pedaqoji prosesin köklü qanunauyğunluqları nəzərə alınsın. Pedaqoji prosesin bu cür qanunauyğunluqlarından birisi onun dialektik ziddiyyətli xarakterə malik olmasıdır. Pedaqoji proses həm xarici, həm də daxili ziddiyyətlərə malik ola bilir. Təlim-tərbiyə işinin gedişinə xarici ziddiyyətlər müəyyən təsir göstərsə də, pedvaqoji proses üçün daxili ziddiyyətlər səciyyəvidir. Bu cür səciyyəvi ziddiyyətlərdən biri belə ifadə olunur: tərbiyə olunan şəxslər qarşısında qoyulan və getdikcə artan ictimai mahiyyətli vəzifələrlə bu vəzifələrlərin həmin şəxslər tərəfindən yerinə yetirilməsini məhdudlaşdıran onların daxili imkanları arasındakı ziddiyyətdir.

Müəllimlər, valideynlər, idarə və ya təşkilat rəhbərləri tərbiyəvi təsir göstərmək istədikləri şəxslər qarşısında müəyyən tələblər, müəyyən vəzifələr qoyurlar. Tərbiyə prosesinin bu ilk mərhələsində tərbiyə olunanlar müvafiq etik, estetik və s. təsəvvür və anlayışlara, müvafiq əqidə və davranışa, müəyyən meyl və marağa malik olurlar. Məktəbin, müəssisənin, ailənin uşaqlar qarşısında qoyduqları tələb və vəzifələr onların təsəvvür və anlayışlarına, əqidə və davranışlarına nə dərəcədə uyğun gəlir?. Tərbiyənin müvəffəqiyyəti üçün bu sual və onun cavabı tərbiyəçiyə aydın olmalıdır. Tərbiyə elə qurulmalıdır ki, nəticə etibarilə tərbiyə olunan şəxslər qarşısında qoyulan vəzifələrlə onların həyata keçirilməsi üçün zəruri olan daxili

---

[1] Möhkəm ideyalı, hərtərəfli inkişaf etmiş kommunizm qurucuları təbiyə etməli. Azərnəşr, 1978, səh. 26-27.

imkanları arasında uyğunsuzluqlar aradan qaldırılsın, birinci ilə ikinci arasında ahəngdarlıq təmin olunsun. Tərbiyə prosesində tərbiyəçinin pedaqoji ustalığı konkret pedaqoji situasiyada olan ziddiyyətlərin xarakterini aşkara çıxarmaqdan, tərbiyə olunan şəxslərin daxili imkanları ilə hesablaşmaqdan, onları nəzərə almaqdan, bu imkanları qarşıya qoyulmuş vəzifə və tələblər səviyyəsinə qaldırmaq üçün müvafiq şərait yaratmaqdan, həmin daxili imkanları: təsəvvür və anlayışları inkişaf etdirmək üçün, əqidə və davranışlarını təkmilləşdirmək üçün tərbiyəvi tədbirlərdən ibarət olur.

Tərbiyə işinin təşkilində həmin qanunauyğunluğa istinad edilməsi tərbiyə olunan şəxslərə imkan verir ki, qarşıya qoyulmuş vəzifələrin ictimai mahiyyətini dərk etsinlər, onları öz vəzifələri kimi qəbul etsinlər, fəaliyyətlərində həmin vəzifələrin yerinə yetirilməsinə çalışsınlar. Göründüyü kimi, pedaqoji prosesin başlıca qanunauyğunluğa istinad edilməsi, onlan istifadə olunması tərbiyənin özünütərbiyəyə çevrilməsinə imkan verir.

Pedaqoji prosesdə tərbiyənin özünütərbiyəyə çevrilməsi tərbiyənin daha müvəffəqiyyətli cərəyan etdiyini göstərən ən güclü meyar hesab olunmalıdır. Tərbiyə prosesində özünütərbiyənin əmələ gəlməsi tərbiyə prosesinin nəinki əvvəlki müvəffəqiyyətli mərhələsinin nəticəsi olur, bu nəticə də tərbiyənin növbəti mərhələsinin müvəffəqiyyətli getməsi səbəblərindən birinə çevrilir.

Tərbiyə prosesində yaranan özünütərbiyə hadisəsi göstərir ki, tərbiyəçi tərbiyə zamanı uşaqların daxili aləminə dərindən nüfuz edə, onu tərbiyənin konkret vəzifəsinə uyğun olaraq dəyişdirə, təkmilləşdirə bilmişdir. Burada belə bir qanunauyğunluğun da olduğu özünü aydın şəkildə göstərir: tərbiyə zamanı tərbiyəçi tərbiyə olunanların şüuruna, hisslərinə, əqidəsinə, anlayışlarına nə qədər güclü təsir göstərirsə, tərbiyə prosesi bir o qədər səmərəli cərəyan edir. Ümidvarıq ki, oxucular: tərbiyəçilər, tərbiyə işi ilə bu və ya digər şəkildə əlaqədar olan şəxslər tərbiyə zamanı həmin qanunauyğunluğu da nəzərə alacaqlar.

# II HİSSƏ. MİLLİ PEDAQOGİKA TƏRBİYƏNİN BƏZİ MÜASİR PROBLEMLƏRİ HAQQINDA

## 1. FORMALİZM TƏRBİYƏ İŞİNƏ YADDIR

Başını sola-sağa çevirməsindən, əllərini ovuşdurmasından, qaşlarını çatmasından başa düşülürdü ki, sinif rəhbəri hövsələdən çıxdığını valideynə bildirmək istəmir.

-Bilsəniz, sizin uşağınıza nə qədər enerji, nə qədər vaxt sərf edirəm! Onunla təklikdə dönə-dönə danışmışam, uşaqların arasında danlamışam, başqalarını nümunə gətirmişəm. Hər dəfə söz verir, lakin… görürsünüz, yenə sizi dəvət etməyə məcbur olmuşam. Başa düşə bilmirəm.

-Müəllim, biz də başa düşə bilmirik. Bu qədər danlamaq, bu qədər məzəmmət, bu qədər töhmət olmaz…

Bu cür söhbətlərə nəinki bəzi valideynlərlə sinif rəhbərləri, hətta müəllimlər, maarif işçiləri arasında da rast gəlmək olur. Müəllimlər də bir-birinə sual verirlər:

-Bu qədər ki, biz söhbətlər, disputlar, məruzələr, müzakirələr keçiririk, uşaqları kinoya, teatra aparırıq, gərək əxlaq qaydalarından kənara çıxmaq halları olmasın. Amma nədənsə…

Bəli, nədənsə? Söhbətimiz məhz bu sual ilə əlaqədardır. Tərbiyəçilərdən bir qisminin apardığı iş nə üçün gözlənilən nəticəni vermir?

Sosialist ictimai həyatı, sovet həyat tərzi, milyonlarla sovet adamının fədakar əməyi gənc nəsli kommunist əxlaqı ruhunda, sovet vətənpərvərliyi, sosialist beynəlmiləlçiliyi, əməyə kommunist münasibəti, kollektivçilik, nöqsanlara qarşı barışmazlıq ruhunda müvəffəqiyyətlə tərbiyə etmək üçün münasib obyektiv şərait yaradır. Hazırda xalq təsərrüfatının, mədəniyyət və incəsənətin, ümumiyyətlə ictimai həyatımızın bütün sahələrində fədakarlıqla fəaliyyət göstərən milyon-milyon adamın hamısı ümumtəhsil məktəbindən keçmiş, orada əxlaq tərbiyəsi çeşməsindən qidalanmışdır.

Böyük ictimai-siyasi mənası və əhəmiyyəti olan ümumtəhsil məktəblərinin fəaliyyətinə Sov.İKP XXV qurultayının

yüksək tələbləri səviyyəsindən yanaşmış olsaq etiraf edilməlidir ki, bu məktəblərin işində böyük nailiyyətlərlə yanaşı nöqsanlar da vardır. Şagirdlərin əxlaq tərbiyəsi üzrə ümumtəhsil məktəblərinin işi ölkəmizdə geniş sosializm quruculuğunun artan tələblərindən, beşilliyin möhtəşəm vəzifələrindən geri qalır. Bir çox həyat faktları aydın şəkildə göstərir ki, bəzi şagirdlərin həm əxlaqi təsəvvürlərində və baxışlarında, həm də əxlaqi adət və davranışlarında ciddi kəsirlər, çatışmazlıqlar vardır. Bu çatışmazlıqlar, yuxarıda dediyimiz kimi, nəinki valideynləri və müəllimləri, habelə dövlətimizi, partiyamızı da narahat edir.

Sov.İKP XXV qurultayına hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: «Cəmiyyətimiz öz inkişafında nə qədər yüksəlirsə, sosialist əxlaq normalarından uzaqlaşmaq halları bir o qədər dözülməz olur».

Sosialist əxlaq normalarından uzaqlaşmağın səbəbləri isə müxtəlifdir. Onlardan ən başlıcası tərbiyə işindəki formalizmlə əlaqədardır. Formalizm bir çox məktəblərin əxlaq tərbiyəsi sisteminə hakim olmuşdur. Əxlaq tərbiyəsindəki formalizm plan tərtibindən tutmuş onun icrasına nəzarətə qədər bu və ya digər şəkildə özünü büruzə verir. Ayrı-ayrı müəllimlərin, tərbiyəçilərin, pedaqoji kollektivlərin bu istiqamətdəki fəaliyyətini yoxlayarkən və qiymətləndirərkən, hər şeydən əvvəl, planın, göstərişin olub-olmadığına, hansı məsələlərin nəzərə alındığına, tərbiyəvi tədbirlərin protokollaşdırıldığına diqqət yetirilir. Uşaqlarla aparılan canlı tərbiyə işi isə kölgədə qalır. Tərbiyənin nəticələrinə, yəni məktəblilərin əxlaqi təsəvvür və anlayışlarının, əxlaqi adət və davranışlarının nə vəziyyətdə olduğuna az fikir verilir. Formalizm əxlaq tərbiyəsində nümunəvi işi qüsurlu işdən fərqləndirməyə, düzgün tədbirlər müəyyənləşdirməyə imkan vermir. Uşaqların, yeniyetmələrin və gənclərin şəxsiyyətində müşahidə edilən nöqsanların sonradan düzəldilməsini xeyli çətinləşdirir, hətta bəzilərinin müttəhimlər kürsüsündə oturmasına şərait yaradır.

Bu sahədə formalizmin başlıca səbəblərindən biri də bizcə, bəzi müəllimlərin və valideynlərin marksizm-leninizm

nəzəriyyəsi ilə, əxlaqi keyfiyyətlərin formalaşması qanunauyğunluqlarına dair biliklərlə kifayət qədər silahlanmadıqlarıdır, uşaqların əxlaq tərbiyəsində bu biliklərə lazımınca istinad etmədikləridir.

Sov.İKP XXV qurultayına hesabat mürüzəsində L.İ.Brejnev yoldaşın dediyi bu sözləri xatırlamaq yerinə düşər: «Sov.İKP özünün bütün inqilabi dəyişdirici fəaliyyəti kimi, kommunist tərbiyəsi işini də marksizm-leninizm nəzəriyyəsinin möhkəm təməli üzərində qurur».

Makrsizm-leninizmə görə şəxsiyyət ictimai münasibətlərin təcəssümüdür. Əxlaq adamın cəmiyyətə, dövlətə, xalqa, kollektivə, əməyə, başqalarına münasibəti, özünə göstərdiyi münasibət kimi başa düşülür. Adamın xarakteri, onun əxlaqı fəaliyyət göstərdiyi konkret istehsalat mühitində, ailə mühitində ictimai fəaliyyət zamanı formalaşır.

Cəmiyyətimizdə adamı yüksəldən əməkdir. Buna görə də əxlaq tərbiyəsində üstünlüyü söhbətə, izahata, məzəmmətə deyil, uşaqların müxtəlif növ fəaliyyətlərinin təşkilinə vermək lazımdır. Hər bir uşaq tədris, əmək fəaliyyətinə, ictimai fəaliyyətə cəlb edilməlidir. Adətən uşaq tədris və əmək münasibətlərindən, ictimai münasibət sistemindən kənarda qaldıqda onun əxlaq normalarının pozulmasına geniş meydan açılır. Buna görə də əxlaq tərbiyəsini öyüd-nəsihətdən, məzəmmət xarakterli söhbətlərdən başlamaq səmərə vermir. Bu işə istər evdə, istərsə də məktəbdə uşağı ictimai faydalı əməyə alışdırmaqdan başlamaq faydalıdır.

Qabaqcıl məktəblərin təcrübəsi göstərir ki, tədris prosesində, əmək tapşırıqlarının icrasında, ictimai işlərdə şagirdin şəxsən iştirakı, bu cür tədbirlərin təşəbbüskarı və təşkilatçısı olması onda nəinki düzgün əxlaqi təsəvvür və anlayışların, habelə cəmiyyət üçün faydalı olan əxlaqi adət və vərdişlərin formalaşmasına kömək edir. Bu baxımdan tədris sexlərinin və sahələrinin, şagird əmək və istirahət düşərgələrinin şəbəkəsini genişləndirən, yaşayış məntəqələrinin abadlaşdırılmasında məktəblilərin iştirakını təmin edən və digər bu kimi kütləvi tədbirlərin təşkilinə daim diqqət yetirən pedaqoji kollektivlər düzgün mövqe tuturlar. Bu cür tədbirlər

uşaqlarda, hər şeydən əvvəl, faydalı əxlaqi təcrübənin toplanmasına xidmət edir.

Pedaqoji kollektivlər uşaqlarda kommunizm quruculuğu üçün faydalı olan əxlaqi keyfiyyətləri formalaşdırmaq məqsədilə məktəb və məktəblərarası emalatxanalardan, məktəbyanı sahələrdən, şagird istehsalat briqadalarından səmərəli istifadə etməli, oğlan və qızların əməyini müəssisələrə, kolxoz və sovxozlara köməyə yönəltməlidirlər. Çalışmaq lazımdır ki, fəaliyyət zamanı uşaqlarda yaranan əxlaqi adətlər və təsəvvürlər bir-birini tamamlasın, əxlaqi şüurla əxlaqi davranışın vahidliyi təmin olunsun. Bu məqsədlə humanitar fənlərin, o cümlədən ictimaiyyat, tarix, dövlət və hüquq əsasları, ədəbiyyat fənlərinin geniş imkanlarından tam istifadə olunmalıdır. Humanitar fənlər şagirdlərin psixoloji cəhətdən əməyə və ictimai fəaliyyətə hazırlanmasına kömək etməlidir.

Təlim zamanı V.İ.Leninin həyat və fəaliyyətindən, dahi rəhbərin silahdaşlarının, əmək qəhrəmanlarının, elm, mədəniyyət və incəsənət xadimlərinin həyat nümunəsindən istifadə edilməsi uşaqların psixoloji cəhətdən həyata, əmək fəaliyyətinə hazırlanmalarına böyük fayda verir.

Tərbiyə məqsədi üçün təlimin digər imkanlarından da zəif istifadə olunur. Çox hallarda unudulur ki, təlim şagird üçün öz işini planlaşdırmağı, tapşırığa məsuliyyətlə yanaşmağı, qarşıya qoyulmuş məqsədə nail olmağı, çətinlikləri aradan qaldırmağı tələb edən ciddi əməkdir. Bu əmək şagirdə yoldaşlarına hörmət etməyi, özünə və başqalarına tələbkar olmağı öyrədir.

Məktəbin, ailənin və ictimaiyyətin əlbir işindəki formalizmi aradan qaldırmaq vacibdir. Çünki məktəblərimizin xeyli hissəsində bu əlaqə birgə keçirilən yığıncaq, müşavirə, konfrans və görüş çərçivəsindən kənara çıxmır. Halbuki məktəb şagirdlərin iştirakını, onların fəaliyyətini təmin edən tədbirlərin təşkilində və keçirilməsində ailənin və ictimaiyyətin imkanlarından geniş istifadə etməlidir.

Gənclərin bir qisminin mənəvi həyatındakı qüsurların kökünü bəzi məktəb rəhbərlərinin, müəllim və valideynlərin əx-

laqi anlayışlarında və davranışlarında müşahidə olunan nöqsanlarda axtarmaq lazım gəlir. Buna görə də maarif orqanları gənc nəslin tərbiyəsi ilə məşğul olan kadrların seçilməsinə və yerləşdirilməsinə məsuliyyəti artırmalı, şagirdlər üçün nümunə ola bilməyənləri tərbiyə işindən kənar etməlidirlər.

Məktəbin planlı tərbiyə işi ailədə davam etdirilməli və möhkəmləndirilməlidir. Ailədə uşaqların tədris, əmək, təsərrüfat və digər fəaliyyətini təşkil etməkdə məktəb valideynlərə istiqamət verməyə borcludur. Bu məqsədlə valideynlər üçün pedaqoji bilik universitetləri işinin səmərəsi artırılmalıdır.

Gənc nəslin əxlaq tərbiyəsinə maarif orqanlarının rəhbərliyi kökündən yaxşılaşdırılmalıdır. Bizcə, yığıncaqların, konfransların, qərarların sayını minimuma endirmək, pedaqoji kollektivlərə əməli köməyi gücləndirmək, bütün şagirdlərin müxtəlif fəaliyyətə cəlb edilməsinə nail olmaq lazımdır. Uşaqların əxlaq tərbiyəsi sahəsində pedaqoji kollektivlərin işinə verilən qiymət meyarlarını təkmilləşdirməyə ehtiyac duyulur. Bu zaman keçirilən mühazirələrin, məruzələrin, söhbətlərin, görüşlərin, müzakirələrin, disputların və sair tədbirlərin miqdarını deyil, ictimai əmək və başqa fəaliyyət növlərinə uşaqların cəlb edilmə dərəcəsini, onlarda yararlı əxlaqi təcrübənin toplanması dərəcəsini, əxlaqi adətlərini və vərdişlərin vəhdətinin təmin olunması dərəcəsini əsas götürmək vacibdir.

Maarif orqanları mənzil-istismar idarələri ilə birlikdə, yaşayış məntəqələrində uşaqların boş vaxtlarını səmərəli təşkil etməli, onların müxtəlif oyunlarını, yarışlarını və sair fəaliyyətini sahmana salmalıdırlar.

Yaşayış yerlərində uşaqların fəaliyyətinin təşkili sahəsində rayon komsomol komitələri çox iş görməlidirlər. Onlar hər mənzil-istismar idarəsinə bir müəssisə komsomol təşkilatının hamiliyini təşkil edə bilər, uşaqlarla iş aparmaq üçün oraya istehsalatçı komsomolçuların, tələbələrin, idmançıların, mədəniyyət və incəsənət işçilərinin, inzibati orqanların nümayəndələrinin göndərilməsinə nail ola bilərlər.

Uşaqların əxlaq tərbiyəsində məktəb komsomol və pioner təşkilatlarının imkanlarından zəif istifadə edilir. Bu təşkilatlar

əsas diqqəti hər bir uşağın idman fəaliyyətinə, əmək, əqli, estetik, ictimai fəaliyyətinə yönəltməlidirlər. Rayon komsomol komitələri uşaqların müxtəlif növ fəaliyyətlərini təşkil etməkdə məktəb komsomol və pioner təşkilatlarına əməli köməyi gücləndirməlidirlər. Bu məqsədlə məktəblərdə şagirdlərin elmi, yaradıcılıq və əmək birlikləri, müəssisələrdə, təşkilatlarda, institutlarda və yaradıcılıq ittifaqlarında şagird dərnəkləri və klubları yaratmaq üçün məktəb komsomol təşkilatları ilə müəssisə kollektivlərinin əlaqəsini möhkəmləndirməyə böyük ehtiyac duyulur.

Komsomol təşkilatları uşaq milis otaqları və digər inzibati orqanlarla birlikdə hüquqi biliklərin öyrənilməsi və hüquq normalarını gözləmək adətlərinin mənimsənilməsi üçün tədbirlər görməlidirlər. Bu cür tədbirlərin keçirilməsinə tətil günlərində daha çox ehtiyac hiss edilir.

Uşaqların texniki, idman, əmək, bədii, tədris fəaliyyətlərinin nəticələrini nümayiş etdirən rayon, şəhər və respublika sərgilərinin, baxışlarının, müsabiqələrinin keçirilməsində, idman, sağlamlıq və kütləvi bədən tərbiyəsi tədbirlərinin təşkilində həmkarlar ittifaqları da öz fəaliyyətini gücləndirməlidir.

Qəzet və jurnal redaksiyaları, radio və televiziya əxlaq tərbiyəsi ilə əlaqədar olaraq pedaqoji kollektivlərə, komsomol təşkilatlarına və ailələrə elmi-pedaqoji istiqamət verməli; bu mühüm sahəni daim diqqət mərkəzində saxlamalıdırlar. Bu cəhətdən «Maarif» nəşriyyatının imkanlarından hələ tam istifadə edilmir.

Əxlaq tərbiyəsi kimi çox mühüm bir işdə pedaqoji kollektivlərin, komsomol və həmkarlar ittifaqları təşkilatlarının, valideynlərin, ictimaiyyətin səylərinin birləşdirilməsində və buna vahid istiqamət verilməsində məktəb partiya təşkilatları aparıcı rol oynamalıdırlar.

Uşağı cəmiyyətin layiqli gələcək qurucusu kimi görmək istəyən tərbiyəçi müəllim və valideyn onun ictimai-faydalı fəaliyyətinə xüsusi qayğı göstərməlidir.

**(«Kommunist» qəzeti, 30 yanvar 1977)**

## 2. HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNƏ UŞAQ BAĞÇASINDAN BAŞLAMAQ OLARMI?

Məlumdur ki, xalqın, dövlətin inkişafının hər marhələsi onun təhsil sistemi qarşısında, gənc nəslin təlim tərbiyəsi qarşısında yeni, özünəməxsus vəzifələr qoyur. Müasir şəraitdə Azərbaycan xalqının qarşısında duran və həlli zəruri hesab edilən vəzifələrdən biri Dağlıq Qarabağı erməni qəsbkarlanndan azad etmək, zəbt olunmuş torpaqlarımızı geri qaytarmaq, ölkəmizin ərazi bütövlüyünü təmin etmək, sərhədlərimizin toxunulmazlığını qorumaq və dövlət müstəqilliyini möhkəmləndirməkdir.

Umumxalq əhəmiyyətli, dövlət əhəmiyyətli bu yəzifələrin öhdəsindən gəlmək üçün Azərbaycanda gənc nəslin təlim tərbiyə və təhsilini gücləndirmək zərurəti yaranmışdır. Gənc nəslin təlim.tərbiyə sistemində hərbi vətənpərvərlik tərbiyəsi indi daha çox aktuallıq kəsb edir.

Son zamanlar gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi məsələlərinə Azərbaycanda diqqət haqlı olaraq artırılmışdır. Umumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsinə aid bir sıra jurnal məqalələri, kitab və kitabçalar çap olunmuşdur. A.Ağazadənin «Böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsi» («Azərbaycan məktəbi», 1972, №8), V.İ.Pleşkovun «Hərbi vətənpərvərlik tərbiyəsinin bəzi forma və metodlan» (Bakı, 1976), M.Nəsrullayevin «Hərbi vətənpərvərlik terbiyəsinin təşkili təcrübəsindən» («Məktəbdə bədən tərbiyəsi», 1979, №6), X.Fətəliyevin «Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi» (Bakı, 1987) adh əsərləri buna misal ola bilər.

Bu yazılardan əlavə, ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik məsələlərinə həsr olunmuş dissertasiyalar da yazılmışdır. X.Fətəliyevin «Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsinin nəzəriyyəsi və təcrübəsi», habelə Ş.Tağıyevin «lbtidai hərbi hazırhq kursunun ümumtəhsil fənləri ilə əlaqəli tədrisi problemləri» mövzularında yazdıqları doktorluq dissertasiyaları bu qəbildəndir.

Göründüyü kimi, hərbi vətənpərvərlik mövzusunda yazılmış məqalələr, kitablar, dissertasiyalar ümumtəhsl məktəblərini nəzərdə tutur. Aydındır ki, həmin materiallar şagirdlərin, xüsusən yöxarı sinif şagirdlərinin təlim və tərbiyəsi üçün xeyli əhəmiyyətlidir. Lakin o da aydındır ki, ümumtəhsil məktəblərinin şagirdləri üçün yazılmış faydalı əsərlərdən, orada irəli sürülən tövsiyələrdən məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mexaniki şəkildə istifadə etmək düzgün olmaz. Görünür, Azərbaycanda gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsini biz məktəbəqədər yaşdan başlamalı olacığıq. Əgər buna nail ola bilsək gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində sistem yaratmaq mümkün olar.

Ortaya təbii suallar çıxır. Məktəbəqədər yaşlı uşaqlarda hərbi vətənpərvərlik tərbiyəsi məsələsi pedaqoji ədəbiyyatda işıqlandırılıbmı? Uşaq bağçalarının tərbiyəçiləri və rəhbərləri əməli işdə bu məsələyə nə dərəcədə və necə fikir verirlər?

Pedaqoji ədəbiyyatla tanışlıqdan aydın olur ki, məktəbəqədər yaşlı uşaqlarda beynəlmiləlçilik tərbiyəsi və vətənpərvərlik tərbiyəsi bu və ya digər dərəcədə işıqlandırlmışdır. N.Rüstəmovanın «Bağçayaşlı uşaqlarda vətənə məhəbbət tərbiyəsi» («İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1971, №4), R.Muradovanın beynəlmiləl tərbiyə» («İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1972, №6), Z.Vəliyevanın «Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik tərbiyəsində yaşlıların əməyi ilə tanışlığın rolu» («İbtidai məktəb. və məktəbəqədər tərbiyə», 1973, №6), R.Cəlilova və M.Məmmədovanın «Uşaq bağçasında uşaqların vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi» («İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1973, №2), A.Cəfərovanın «Böyük bağça yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsi haqqında» («İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1980, №3), D.Səfiyevanm «Uşaq bağçasmda beynəlmiləl tərbiyə» («İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1980, №6) və s. adlı əsərləri göstərmək olar. Bununla belə uşaq bağçasında hərbi vətənpərvərlik tərbiyəsinə həsr edilmiş xüsusi elmi tədqiqat işi aparılmamış, bu məsələ üzrə heç jurnal və ya qəzet məqaləsi də yazılmamışdır.

Deyilənlərdən belə bir nəticə çıxarmaq düzgün olmazdı ki, guya uşaq bağçalarının iş təcrübəsini əks etdirən yazılarda və kitabçalarda və ya məqalələrdə hərbi vətənpərvərliyi andıran faktlar da yoxdur. Tək-tək də olsa bu cür faktlara rast gəlmək olur.

Bəs uşaq bağçalarının təcrübəsində vəziyyət necədir? Təcriibəsi ilə tanış olduğumuz tərbiyəçilərin işində hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində xüsusi fəaliyyət göstərənlərə rast gəlməmişik. Halbuki, bir çox uşaq bağçalannda hərbi vətənpərvərlik üzrə tərbiyə işi aparmaq üçün müəyyən imkanlar var. Biz uşaq bağçalannda olan oyuncaqlar arasında hərbi texnikanı, odlu silahları andıran oyuncaqların varlığını nəzərdə tuturuq. Uşaq bağçalarının çoxunda oyuncaq tanklar, toplar, raketlər, avtomatlar, tapançalar və s. «ağır» və «yüngul» «silahlar» var. Bundan əlavə, bu silahları hərəkətə gətirən «canlı qüvvə» (uşaqlar) da mövcuddur. Onlar öz təşəbbüsləri ilə, böyük həyəslə «dava-dava» oyununa qoşulurlar.

Güman edirik ki, məktəbəqədər tərbiyə müəssisələrinin bu imkanlarından istifadə etmək, uşaqların hərbi vətənpərvərlik tərbiyəsi ilə xususi məşğul olmaq mümkündür. Əgər bizim bu mülahizəmiz bəyənilərsə onda ortaya belə bir sual çıxa bilər: istər sovet dövründə, istərsə də SSRİ dağılandan sonra məktəbəqədər tərbiyənin nəzəriyyəsində və təcrübəsində bağçayaşlı uşaqların hərbi vətənpərvərlik tərbiyəsinə nə üçün xüsusi diqqət yetirilməmişdir?

Bizcə, bunun iki başlıca səbəbi var. Birisi budur ki, sovet dövründə hərbi vətənpərvərlik tərbiyəsinin vacibliyi əsasən, orta ümumtəhsil məktəbləri ilə məhdudlaşdınlmışdır. Ikinci səbəb budur ki, özündən bədgüman olan sovet dövləti gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsini uşaq bağçalarından başlamaqda lüzüm görməmişdir. Ola bilsin mütəxəssislər, pedaqoq və tərbiyəçilər də güman etmişlər ki, hərbi vətənpərvərlik tərbiyəsini məktəbəqədər yaşdan başlamaq tezdir. Bu səbəblərdən də bağçayaşlı uşaqlann hərbi vətənpərvədik tərbiyəsilə nə pedaqoji mətubatda, nə də məktəbəqədər tərbyiə müəssisələrinin əməli işində xüsusi məşğul olmuşlar.

Amma indi dövr dəyişmişdir. Sual olunur: Azərbaycanın dövlət müstəqilliyi şəraitində əwəlki vəziyyət olduğu kimi qalmalıdırmı? Bəlkə dövlət müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsini uşaq bağçalarından başlamaq lazımdır?

Həmin suallara metodoloji cəhətdən cavab tapmaq məqsədilə iki vacib dövlət sənədinə: Azərbaycan Respublkasının Konstitusiyasına və Azərbaycan Respublikasının Təhsil Qanununa müraciət etmək gərəkdir.

Azərbaycan Respublkasının Konstitusiyasında yazılır ik, «dövlət minimum təhsil standartlarını müəyyən edir». (Azərbaycan Respublkasının Konstitusiyası, Bakı, «Qanun» 1997, s.12.) Konstitusiyanın bu müddəası Azərbaycanda təhsil sisteminin tərkib hissəsi olan məktəbəqədər təlim-tərbiyə müəssisələrinə də aiddir. Uşaq bağçalarında təlim-tərbiyənin minimum məzmununu isə dövlət adından Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyənləşdirir.

Azərbaycan Respublkasının Konstitusiyası başqa cəhətdən də suallarımıza cavab tapmağa imkan verir. Biz adamlarımızın öz vətəninə münasibətlərinə dair oradakı müddəaları nəzərdə tuturuq. Bu cəhətdən Konstitusiyada yazıhr: «Vətənə sədaqət müqəddəsdir» (Yenə orada, s. 18). Bu səbəbdən də Konstitusiyada xatırlanır: «Vətəni müdafiə hər bir vətəndaşın borcudur». (Yenə orada, s. 18).

Görəsən, Konstitusiyanın həmin müddəalarını bu və ya digər dərəcədə məktəbəqədər tərbiyə müəssisələri ilə, orada aparılan tərbiyə işləri ilə əlaqələndirmək, uşaqları vətənin müdafiəsinə məktəbəqədər yaşdan başlamaq olarmı? Bizim fikrimizcə, olar!

Bu fikrə nəzəri cəhətdən inam hasil etmək üçün Azərbaycan Respublikasının Təhsil Qanununa müraciət etmək kifayətdir. Orada yazılır ki, məktəbəqədər təlim-tərbiyə müəssisələrində «cəngavərlik, qəhrəmanlıq və vətənpərvəliklə bağlı olan oyunlar, xor mahnıları, dövlət rəmzləri, o cümlədən himni öyrədilir» (Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı, «öyrətmən», 1993, s. 12).

Düzdür, bu fikirdə hərbi vətənpərvərlik ifadəsi işlədilmir, lakin belə hesab edirik ki, cəngavərlik, qəhrəmanlıq və vətənpərvərlik kimi mənəvi keyfiyyətlərin qaynayıb qarışması, üzvi şəkildə birləşməsi elə hərbi vətənpərvərlik anlayışının məzmununa daxildir. Hətta, həmin mənəvi keyfiyyətləri uşaqlara aşılamağın bəzi yolları (oyunlar, xor mahnılan, dövlət rəmzləri, o cümlədən himn) Təhsil Qanununda qeyd edilmişdir:

Deməli, rəsmi dövlət sənədlərində, «hərbi vətənpərvərlik tərbiyəsi» ifadəsi işlədilməsə də, məsələnin qoyuluşundan çıxış edərək məktəbəqədər tərbiyə müəssisələrində uşaqların hərbi vətəhpərvərlik ruhunda tərbiyəsi üzrə müəyyən tədqiqat işi aparmağın mümkünlüyü qənaətinə gələ bilirik; hətta biz uşaq bağçalarında hərbi vətənpərvərlik tərbiyəsi məsələlərinin tədqiqinə başlamağı da nəzəri cəhətdən faydalı hesab edirik.

Problemlə yaxmdan tanışlıq göstərir ki, məktəbəqədər yaşlı uşaqların hərbi vətənpərvərlik tərbiyəsi məsələləri çoxşaxəlidir: hərbi vətənpərvərlik tərbiyəsinin imkanları, mahiyyəti, məzmunu, vəzifələri, həyata keçirilmə yolları, sistemi, istiqamətləri və s. Deyilənləri nəzərə alaraq, problemi bir neçə istiqamətdə tədqiq etmək olar.

*Birinci istiqamət.* Məlumdur ki, məktəbəqədər yaş deyəndə həm bağçaya gedən və bağçada tərbiyə alan uşaqlar, həm də bağçaya getməyən, ailə şəraitində tərbiyə alan uşaqlar nəzərdə tutulur. Bu səbəbdən, şəraitin özünəməxsusluğunu nəzərə alaraq, uşaq bağçalarında və ailə şəraitində hərbi vətənpərvərlik tərbiyəsi məsələlərini ayrılıqda araşdırmaq faydalı hesab edilə bilər.

*İkinci istiqamət.* Uşaq bağçalarının orta və böyük qruplarında hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu və metodlarında spesifik cəhətləri üzə çıxartmaq maraqlı olardı.

*Üçüncü istiqamət.* Pedaqoji tədqiqatlardan məlumdur ki, hər hansı əxlaqi-mənəvi keyfiyyətin gənc nəslə, o cümlədən uşaqlarda formalaşdırılması müxtəlif mərhələlərdən keçir və buna görə, də uzun müddət davam edir. Bu mürəkkəb və uzunmüddətli proses hisslərdən başlayır, anlayışlardan keçir

və müəyyən bacarıq və vərdişlərin formalaşması ilə başa çatır. Bağça yaşlı uşaqların xüsusiyyətlərini, hərbi vətənpərvərlik sahəsində onların anlayış və vərdişlərinin olmadığını nəzərə alaraq tərbiyənin bu sahəsinin məktəbəqədər yaş dövründə hansı mərhələlərdən keçə biləcəyini tədqiqat obyektinə çevirmək mümkündür.

*Dördüncü istiqamət.* Hərbi vətənpərvərlik tərbiyəsini hisslərdən, özü də bağça yaşlı uşaqların hisslərini formalaşdırmaqdan başlamaq lazımdır ki, sonralar şagirdlərdə hərbi vətənpərvərlik anlayışlarının, bacarıq və vərdişlərinin tərbiyəsi üçün möhkəm, etibarlı zəmin yaranmış olsun.

*Beşinci istiqamət.* Uşaq bağçasmda hərbi vətəripərvərlik tərbiyəsi mövzusunda tədqiqat aparılmadığını nəzərə alaraq təklif edərdik ki, uşaq bağçalarında hərbi vətənpərvərlik tərbiyəsi üzrə iş aparmaq üçün hansı imkanları yaratmağın lazım gəldiyi də öyrənilsin.

Belə hesab edirik ki, bu cür məsələlərin öyrənilməsi ilə yalnız tədqiqatçı alimlər deyil, uşaq bağçalarının tərbiyəçiləri də məşğul olmahdırlar.

İstərdik ki, məqalədə qaldırılan məsələlərə mütəxəssislər, xüsusən uşaq bağçalarmda əməli işlə məşğul olan tərbiyəçilər və bağça müdirləri öz münasibədərini bildirsinlər; hərbi vətənpərvərlik tərbiyəsi üzrə işi necə təşkil etdikləri haqqmda mətbuatda çıxış etsinlər.

**(«İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnalı, 2000, №1)**

## 3. AĞIL TƏRBİYƏSİNİN MÜASİR DÖVRDƏ ZƏRURİLİYİ

### 1. Ağıl tərbiyəsi probleminin ədəbiyyatda qoyuluşu.

Ağıl tərbiyəsi haqqında danışmağın zəruriliyi. Ağıl tərbiyəsi problemi barədə söz açmağın zəruriliyi iki başlıca amildən irəli gəlir. Bunlardan biri dövrümüzün xüsusiyyətləri ilə, digəri isə mövcud pedaqoji ədəbiyyatla bağlıdır.

Müstəqil respublikamız bazar iqtisadiyyatına keçir. İndi həyatımızın bütün sahələrində bir çox xoşagəlməz hallarla

qarşılaşırıq. Siyasi, iqtisadi. sosial və mənəvi məsələlərin həllində ümumxalq mənafelərinin deyil, şəxsi mənafelərin ön plana çəkilməsi kimi meyllərin güclənməsi özünü qabarıq şəkildə göstərməyə başlamışdır. Belə bir mühitdə ağıllı hərəgət etməyə, ağılla durub oturmağa. ağıl tərbiyəsini gücləndirməyə böyük ehtiyac vardır. Bəla həm də orasındadır ki, alverçi də, alverə rişxəndlə baxan da, xain də, satqın da, dostluğa xəyanət edən də, bəzi siyasi cərəyanların başında duranlar da özünü ağıllı hesab edir. Səbəbi? Başlıca səbəblərdən biri budur ki, «ağıl», «ağıllılıq» anlayışlarının mahiyyəti hələ hamı üçün tam aydın deyildir. Odur ki, ağıllı və ağıl tərbiyəsinin mahiyyətini aydınlaşdırmaq lazımdır.

Bəs ədəbiyyatda həmin məsələlər necə qoyulur və necə həll edilir? Mövcud pedaqoji ədəbiyyatla tanışlıqdan belə bir nəticə hasil olur ki, ağıl tərbiyəsi məsələsində qeyri-müəyyənlik hökm sürür. Bəzi pedaqoji mənbələrdə həmin məsələyə heç toxunulmur[1]. Bəzilərində isə ağıl tərbiyəsi məsələsi üzərində xüsusi dayanılır. Rusca pedaqoji lüğətdə yazılır: «Ağıl tərbiyəsi biliklərin, vərdişlərin və dünyagörüşü əsaslarının formalaşması, şagirdlərin, inkişafı və əqli əmək mədəniyyətinin aşılanmasıdır»[2]. Başqa bir mənbədə isə ağıl tərbiyəsinə bir qədər fərqli tərif verilir: «Ağıl tərbiyəsi şəxsiyyətdə intellektual mədəniyyətin, idrak motivlərinin, təfəkkür fəaliyyəti bacarıqlırının, dialektik təfəkkürün, təlim əməyini səmərəli təşkil etmək bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur[3].

Azərbaycanda ağıl tərbiyəsi məsələsinə toxunanlar vardır. Məsələn, «Pedaqogika» adlı kitablardan birində yazılır: «Əqli tərbiyə müəllim və ya tərbiyəçinin rəhbərliyi altında şagirdlərin əqli qüvvələrinin və təfəkkürünün məqsədyönlü inkişaf etdirilməsi və onlarda elmi dünyagörüşün formalaş-

---

1 . Moskva, «Prosvehenie», 1967; « », Moskva, 1968; Pedaqoqikadan mühazirə konspektləri. Bakı, «Maarif», 1983.

2 . Moskva, APN RSFSR, 1960, s. 514.

3 Pedaqoqika. Moskva, « », 1988, s. 141.

dırılması prosesidir[1]. Yaxud 1996-cı ildə çap edilmiş kitabda deyilir: «Zehni təhsilin intellektual bacarıq və vərdişlər sisteminə yiyələnməyi, təfəkkürü və əqli keyfiyyətləri inkişaf etdirməyi, idrak motivlərini formalaşdırmağı nəzərdə tutur»[2].

Həmin mənbələr müqayisəli nəzərdən keçirildikdə məlum olur ki, 1993-cü ildə Azərbaycanda çap olunmuş kitabın fikri 1960-cı ildə çapdan çıxmış pedaqoji lüğətdəki fikrə, 1996-cı ildə çap edilmiş «Pedaqogika»dakı fikir isə 1988-ci ildə rusça çap olunmuş «Pedaqogika»dakı fikrə uyğundur.

Ağıl və ağıl tərbiyəsi anlayışlarının mahiyyətini açmaq əvəzinə, həmin kitabların birincisində təfəkkürdən, onun dialektik, məntiqi, mücərrəd, ümumi, nəzəri, texniki və s. kimi növlərindən, digərində isə elmdən, təlimdən, bilikdən, biliyin, bacarığın, vərdişin nə demək olduğundan uzun-uzadı danışılır.

Güman edirik ki, intellektual bacarıq və vərdişlərlə təfəkkürü və əqli keyfiyyətləri yanaşı qoymaq düzgün deyil. Çünki qədim yunan sözü olan intellekt elə ağıl, təfəkkür kimi başa düşülür.

Ağıl tərbiyəsini bütövlükdə təlim və ya təhsillə eyniləşdirməyə də haqq qazandırmaq olmaz. Ağıl tərbiyəsi geniş mənada başa düşülən tərbiyənin tərkib hissələrindən biridir. Bundan əlavə, təlim və təhsillə əlaqədar nəzərdən keçirildikdə deyilmzlidir ki, ağıl keyfiyyətlərini aşılamaq, onların, yəni təlim və ya təhsilin həyata keçirdikləri funksiyalardan biridir.

Ağıl tərbiyəsini dünyagörüşündən, xüsusən də elmi dünyagörüşündən asılı etmək, ona müncər etmək də möqbul sayıla bilməz. Çünki, məsələn, dini və ya idealist dünyagörüşlü adamları ağılsız hesab etmək tam ədalətsizlik olduğu kimi, özünü elmi dünyagörüşlü şəxs hesab edənlərin arasında hərəgətlərinə görə cəzalandırılanlara göz yummaq da haqsızlıq olardı.

Ağıl tərbiyəsi anlayışına verilmiş təriflərin uğursuzluğu nədən irəli gələ bilər? Bizcə, başlıca səbəblərindən biri «ağıl»

---

[1] Pedaqogika. Bakı, «Maarif», 1993, səh. 212.
[2] Pedaqogika. Bakı, «Maarif», 1996, səh. 265.

və «ağıl tərbiyəsi» anlayışlarının mahiyyətinin indiyədək aydın olmadığı ilə bağlıdır.

Məlumdur ki, eyni anlayışın başqa-başqa məfhumlarla (əqli tərbiyə, zehni təhsil, ağıl tərbiyəsi) ifadəsi yalnız dolaşıqlığa, anlaşılmazlığa səbəb olur. Bu məfhumlardan hansının işlədilməsi daha çox məqsədəuyğun hesab edilə bilər? Fikrimizcə, – «Ağıl tərbiyəsi»! «Zehni təhsil» məfhumu işlədilməməlidir, çünki onun məntiqi əsası yoxdur. O nə təhsilin formaları anlayışına (əyani təhsil, qiyabi təhsil və s), nə də növlərinə (orta təhsil, ali təhsil və s.) uyğun gəlir. Bundan əlavə, «zehni təhsil» məfhumunun işlədilməsi «fiziki təhsil» məfhumunun mövcudluğunu da nəzərdə tutur. Halbuki belə təhsil yoxdur.

«Əqli» sözü nəyi nəzərdə tutur? Aydındır ki, «Ağıl» sözünü. Bəs belədirsə, nə üçün ənənənin qulu oluruq? «Əqli» sözünü «ağıl» kimi, «əqli tərbiyəni», «ağıl tərbiyəsi» kimi işlətmək daha düzgün olmazmı? Bizcə, olar! Və şifahi xalq ədəbiyyatında, habelə bədii ədəbiyyatda «ağıl» sözü bolluca işlənir.

**2. Ağıl məfhumunun mahiyyəti.**

Mövcud ədəbiyyatda, o cümlədən pedaqoji ədəbiyyatda «ağıl» məfhumu geniş işlədilsə də, onun mahiyyəti elmi cəhətdən təhlil edilməmişdir və ona elmi tərif verilməmişdir.

Məsələyə aydınlıq gətirmək üçün keçmiş irsimizə də müraciət etmək, müdrik ata-babalarla məsləhətləşmək, ağıl haqqında, insan həyatı və fəaliyyətində onun yerinə və əhəmiyyətinə dair müdriklərimizin fikirlərini də nəzərə almaq faydalı olardı. Xalqımızın adlı-sanlı adamları, elm və mədəniyyətimizin nümayəndələri, yazıçı və şairləri ağıl haqqında olduqca dəyərli, bu günümüz üçün çox əhəmiyyətli fikirlər söyləmişlər. Həmin fikirlər atalar sözləri, zərb məsəllər, bayatılar, tapmacalar, nağıllar, rəvayətlər, şerlər, halında ifadə olunmuşdur. Bizim borcumuz bu rəngarəng zəngin tarixi irsimizdən istifadə edərək ağıl anlayışının mahiyyətini açmaqdır. Məsələn, atalar sözlərindən bəzilərini burada xatırlamaq yerinə düşərdi: «Quvvə hər şeyi, ağıl qüvvəni sındırır», «Paltarı zinətləndirməkdənsə, ağılı

zinətləndirmək yaxşıdır», «Ağıl yaşda deyil, başdadır», «Baba malından nə fayda, başda ağıl olmasa», «Allahın adama qəzəbi tutanda əvvəlcə onun ağlını alır».

Peyğəmbər kəlamıdır, deyir ki, «insanın böyüklüyü, ululuğu ağıllı olmasındadır». Qocaman Şərq dünyasının əzəmətli abidəsi kimi məşhur olan «Kəlilə və Dimnə» ağlı «Qələbələr aynası, zəfərlər güzgüsü, dünyanın bəzəyi» hesab edir.

**Sual olunur:** keçmişin fikir dühaları nə üçün ağıla bu qədər müstəsna əhəmiyyat vermişlər? Bu cür suallara keçmiş fikir dünyasından da cavab tapmaq mümkündür. İnsanların davranışlarını, həyat tərzlərini, aqibətlərini uzun müddət diqqətlə müşahidə edən ata-babalarımız bu cür ümumiləşmələrə gəlib çıxmışlar: «Ağıllı kamal axtarar, cahil mal», «Dəlinin ürəyi dilində, ağıllının dili ürəyindədir», «Ağıl ən böyük sərvətdir» və s.

Ağılın və kamalın aqibətindən söz açan böyük Firdovsi onları poetik şəkildə çox dəqiq səciyyələndirmişdir:

*«Səadət ağılda, nicat ondadır,*
*Ağılsız olan şəxs zindandadır»*[1].

Bədrəddin Qadirinin fikrincə, ağılı, kamalı olan şəxs insandır:

*«Bəni-adəmdə əgər olsa kamal, insandır,*
*Yoxsa bir surəti insan, sifəti heyvandır»*[2].

Ağıla yüksək qiymət verən A.Bakıxanov bu qiymətin səbəblərini də açıqlamışdır: «Ağıldan və əməldən üstün var-dövlət yoxdur. Çünki onlar həmişə söninlədir və onları heç kəs səndən ala bilməz»[3].

Xaqani Şirvaniyə görə, ağıl insan nəfsinə, insan tamahına üstun gəlmək vasitəsidir: o, öz fikrini arzu formasında ifadə etmişdir:

*Könül, gəl sən, ağılın pənahında ol,*
*Ki, ağıl tamahın boynunu vurar.*

Göründüyü kimi, məlumatlı, bilikli olmaqda, fikrinə, dilinə hakim kəsilməkdə, ən dəyərli sərvətə sahib olmaqda,

---

1 Firdovsi. Şahnamə. Bakı, «Yazıçı», 1987. S. 12.
2 Müdrik sözlər. Bakı, «Yazıçı», 1979, s. 103.
3 A.Bakıxanov. Nəsihətlər. Bakı, «Yazıçı», 1982, s. 12.

çətinliklərə üstün gəlməkdə, səadət və xoşbəxtlik yoluna çıxmaqda, əsl insanlıq zirvəsinə ucalmaqda, adamı alçaldan əxlaqi keyfiyyətlərdən xilas olmaqda ağılın müstəsna rol oynadığı əcdadlarımız tərəfindən dönə-dönə qeyd edilmişdir.

Bəs insanların həyatında önəmli mövqe tutan ağıl nə olan şeydir? Ağılı səciyyələndirən hansı əlamətlər vardır?

Ağılın əhəmiyyətinə dair yuxarıda söylənmiş fikirlərə və müasir həyatın reallıqlarına əsaslanaraq demək olar ki, ağıl əmək fəaliyyətində, öz işinin, əməlinin sonunu aydın təsəvvür etməkdə, öz nöqsanlarını görə bilməkdə, nitq və fikrinə hakim kəsilməkdə, məntiqli danışmaqda, dostluqda, düşmənə münasibətdə və s. sahələrdə qabarıq şəkildə özünü göstərir.

Adamın ağıllılıq dərəcəsi ilk əvvəl onun gördüyü işdə, işin keyfiyyətində və nəticəsində təzahür edir. Hər hansı işi görməzdən əvvəl onun nə ilə nəticələnəcəyini aydın təsəvvür etmək bacarığı adamın ağıllı olduğuna dəlalət edir. Ağılın bu cəhətini nəzərə alan Əssar Təbrizi yazırdı:

*«Hər ağıllı yaxşı görsə öz işinin sonunu,*
*Düşmənlərin hiylələri yaxalamaz bil onu»*[1].

Ağlın by cür cəhətinə dərindən bələdliyin nəticəsidir ki, «Qabusnamə»də qısa, lakin çox aydın şəkildə yazılır: «Əvvəlcədən düşünə bilmək bacarığa bərabərdir[2].

Atalar sözündə də ağılın həmin xüsusiyyəti diqqətdən yayınmamışdır. Atalar sözünün birində deyilir: «Bacarıq ağılın nişanəsidir».

Adamın özünə münasibətində, özündə nöqsanların olub-olmadığını müəyyənləşdirə bilməsində öz sözlərinə və hərəkətlərinə qiymət verməyi bacarmasında ağılın dərəcəsini görmək mümkündür. Məsəldir deyərlər: «Mərd özündən görər, namərd özgədən».

A.Bakıxanov ağılın bu əlamətini çox aydın və qabarıq şəkildə ifadə etmişdir: «O adam ağıllı hesab olunur ki, öz nöqsanını başqalarından çox görsün»[3]

---

[1] Əssar Təbrizi. Mehr və müştəri. Bakı, «Yazıçı», 1 988, s. 64.
[2] Qabusnamə. Bakı, «Azərnəşr», 1989, s. 50.
[3] A.Bakıxanov. Nəsihətlər. Bakı, «Yazıçı», 1982, s. 12.

Şer dünyasının günəşi olan Nizami öz eybini görə bilməyi geniş təbliğ etmişdir:

*«Özgəsinin eybinə gözlərini açma sən,*
*Öz-özünü görəndə öz eybindən qaçma sən»*[1].

Ağıl əlamətləri danışıqda, dildə daha çox özünü göstərdiyindən müdriklər sonrakı nəsilləri dönə-dönə xəbərdar etmişlər, istəmişlər ki, adamlar bir-biri ilə ünsiyyətdə olan zaman işlətdikləri söz və ifadələrdə ehtiyatlı olsunlar. Qədim yazılı abidələrdən birində oxuyuruq: «İnsan hər şeydən çox dilindən bəlaya düşür»[2].

Bunu nəzərə alan həmin mənbə deyir: «Ağıllı adamların həyatında ən layiqli cəhət danışmamaqdır».

Nizami öz fikrinin təsir gücünü artırmaq üçün danışıq tərzində ağıllı və axmaq adamın fərqini belə vermişdir:

*«Ağıllı bir işdir yumşaq danışmaq,*
*Kobudluq axmağa yaraşar ancaq»*[3]

Müdriklərimiz nitqin başqa cəhətlərinə məsələn: söylənən fikrin əlaqəli olub-olmamasında, dəlillər gətirilib-gətirilməməsində, sözün yerinə düşüb-düşməməsində ağlın nə vəziyyətdə olduğuna xüsusi diqqət yetirmiş və öz münasibətlərini bildirmişlər. Məsələn, Sədi vaxtilə yazırdı:

*«Dəlildə, sübutda olur güc, qüvvət,*
*Qanun olan yerdə iş görməz hiddət»*[4].

Bu günün özündə məntiqsiz, dəlilsiz, yersiz danışan adamların olmadığının və belələrinin xalq arasında nadan adlandırıldığının şahidiyik.

Uzaq keçmişdən bəri müdriklərin ağılla əlaqədar qiymətləndirdikləri əlamətlərdən biri də dostluqla bağlıdır. Onların gəldiyi qənaət budur ki, ağıllı adamlar üçün əsl dost dünyada ən böyük nemətdir. Nadanlar isə dostluqda müəyyən maraq güdürlər. «Kəlilə və Dimnə» kimi tarixi abidəni

---

[1] Nizami Gəncəvi. «Sirlər xəzinəsi». Bakı, «Yazıçı», 1981, s.19.
[2] «Kəlilə və Dimnə». Bakı. ADU-nun nəşriyyatı. 1961, s. 19.
[3] Nizami Gəncəvi. «İsgəndərnamə». Bakı, «Yazıçı», 1982, s. 522.
[4] Sədi. «Büstan», Bakı, «Azərnəşr», 1964, s. 100.

insanlığa bəxş edənlər deyiblər: «Ağıllı adamlar yanında dostluqdan qiymətli heç bir şey yoxdur»[1]

Ulularımız kimi, biz də bu gün görürük ki, küçələrdə veyil-veyil gəzənlərin, zəhmətdən qaçanların əksəriyyəti peşə, bir sənət sahibi olmayanlardır. Belələrinin öz ailəsində və «xalq arasında heç bir hörməti olmur. Ağıllı adamlar isə, adətən, bir peşə, bir sənət sahibi olur, hətta öz peşəsinin zirvəsinə ucalır, peşəsinin kamil ustasına çevrilir. Nizaminin aşağıdakı kəlamı yada düşür!

*«Səadət kamalla yetişir başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa»*[2].

«Qabusnamə»də sənət öyrənməyin ağılla əlaqəsi məsləhət və qismən də göstəriş formasında belə ifadə olunmuşdur: «Əgər ağlın varsa sənət öyrən». Sənət halallığa aparan, eloba arasında üzü ağardan yoldur.

Adamın ağıllılığı və ya nadanlığı onun səbirli, yaxud səbirsiz olduğundan da üzə çıxır. Tələsik nəticə çıxartmayan, səbrli olan şəxs, adətən, peşimançılıqdan uzaq olur. Dözümsüz olan, özünü ələ almağı bacarmayan, ölçülüb biçilməmiş söz deyən və ya iş görən şəxslər isə sonradan peşimançılığın acısını dönə-dönə dadmalı olurlar.

Mir Mövsün Nəvvaba görə ağıl əlaməti *olan «Səbr qurtuluşun acarıdır»*[3].

Quranda yazılmışdır: *«Səbr edənləri sevər Allah».*

Ağıllı adam kamalı təkcə dostlarından deyil, rəqiblərindən də öyrənir, vara-dövlətə uymur.

Ağıl problemində çətin məsələlərdən biri elm və ağıl arasındakı münasibət məsələsidir. Bəzi pedaqoqların fikrincə ağılın başlıca göstəricisi elmli olmaqdır.

Bir çox həyat faktlarına əsaslanaraq deyə bilərik ki, ağlı elmə münçər etmək, yaxud da ondan asılı etmək cəhdi ilə razılaşmaq çətindir. Əvvəla, elmsiz adamlar arasında yüksək ağıl sahibləri az deyil. İkincisi, hər elm adamını da ağıllı hesab etmək düzgün olmaz. Çünki elmli adamlar

---

[1] «Kəlilə və Dimnə». Bakı. ADU-nun nəşriyyatı. 1961, s. 133.
[2] Nizami Gəncəvi. «Leyli və Məcnun», Bakı, 1982, s. 64.
[3] Mir Mövsün Nəvvab. «Nəsihətnamə», Bakı, «Yazıçı», 1987, s. 52.

arasında insanlığa qarşı, öz xalqına qarşı çıxanlar az olmamışdır. Bu cür hallara görə elmi ağılın başlıca göstəricisi kimi qəbul etmək düzgün deyil.

Fikrimizcə, ağılı biliklə əlaqələndirənlərin mövqeyi daha düzgün hesab edilə bilər. Çünki bilik anlayışı elm anlayışından genişdir. Bu anlayışa həm elmi biliklər, həm də məişətdən, təcrübədən adi müşahidələrdən irəli gələn və heç bir şübhə doğurmayan biliklər aiddir. Atalar sözləri, zərb məsəllər, tapmacalar kimi şüurlara hakim kəsilən biliklər də sonunculara aiddir. Bu mənada, məsələn, atalar sözlərindən birində deyilən «Bilik ağılın aynasıdır» və ya «Cami-cəm» əsərində Əvhədinin yazdığı «Baş biliksiz olar bədgüman» kimi fikirlərə haqq qazandırmaq olar. «Cahil dirilərin ölusüdür» deyən ata-babalarımız, yaxud «Bilik insanları ucaldar aya, Nadanlıq korlar tək salar quyuya» deyən Əvhədi yanılmamışlar.

Şərh olunan fikirlərdən belə nəticə çıxır ki, geniş mənada başa düşülən biliklilik ağılın təzahür əlamətlərindən birinə çevrilə bilir. Göründüyü kimi, ağıl anlayışını səciyyələndirən əlamətlər vardır: öz peşəsinin zirvəsinə ucalmağa çalışmaq, görəcəyi işin, deyəcəyi sözün nə ilə nəticələnəcəyini qabaqcadan düşünmək, öz nöqsanını görmək, etiraf edib düzəltməyi səy göstərmək, yumşaq və məntiqli danışmaq, daim təmkinli, səbrli olmaq, bilikli olmaq.

Xarakterində bu cür ağıl əlamətləri olan şəxs öz əmin-amanlığını təmin edərək xalqına faydalı olmağa səy göstərir. Ağlın belə əlamətlərini görmək, müşahidə etmək mümkündür.

Ağılın gözlə görünməsi çətin olan əlamətləri də mövcuddur. Biz ağılın psixoloji əsasını təşkil edən müqayisəni, təhlil və tərkibi, ümumiləşdirməni, qruplaşdırma və sistemə salmanı və s. kimi təfəkkür əməliyyatlarını nəzərdə tuturuq. Nəzərə alınmalıdır ki, ağılın sezilən əlamətləri insanda həmin təfəkkür əməliyyatlarından süzülüb formalaşır. Məsələn, kimsə görür ki, iş adamları, peşəkarlar, yaxşı dolanır, hörmətli olurlar. O da çalışır ki, bir peşə sahibi olsun, ailəsinə və xalqına kərəkli adam kimi yaşayıb yaratsın, həyat faktlarını görən, onları təhlil edən, müqayisələr aparan, ümumiləşdirən şəxs belə qənaətə gələ bilir.

Yuxarıda səciyyələndirilən faktları nəzərə alaraq ağıla tərif vermək olar: *Müvafiq təfəkkür əməliyyatları əsasında ailə və xalq naminə adamda bir peşənin əsl ustası olmağa çalışmaq, görəcəyi işin və söyləyəcəyi fikrin nə ilə nəticələnəcəyini əvvəlcədən ölçüb-biçmək, yol verdiyi nöqsanı etiraf edib aradan qaldırmaq, səbrli olmaq, biliyə daim can atmaq kimi xüsusiyyətlərin vəhdəti ağıldır.*

Belə bir anlayışdan bir sıra nəticələr çıxır. Onlardan biri budur ki, ağıl və şüur anlayışlarını eyniləşdirmək olmaz. Balacadan tutmuş böyüyə qədər hamıda şüur var.

Lakin yuxarıdakı şərhdən aydın olduğu kimi, heç də hamını ağıllı hesab etmək mümkün deyil. Bu və ya digər şəxsin nə dərəcədə ağıllı olduğunu yuxarıdakı tərif əsasında müəyyənləşdirmək mümkündür. Digər nətiçə budur ki, ağıllı adam şöhrətpərəstlikdən, vəzifəpərəstlikdən uzaq olur; bilir ki, vəzifə müvəqqətidir. Üçüncü nəticə belədir: ağıllı adam dostcanlı olur, dostluqda naxələfliyə nifrət edir. Nəhayət, ağıllı adamlar ağsaqqal hesab olunur; qohum-qardaş, dost-aşna, yaxın-uzaq məhz ağıllı adamlarla məsləhətləşir, belələrindən məsləhət alır.

Ağıl anlayışının mahiyyətindən çıxış edərək ağıl tərbiyəsinin məzmununu, vəzifələri və yollarını dəqiqləşdirmək mümkündür.

### 3. Ağıl tərbiyəsinin məzmunu.

Ağıllı adam öz sənəti, öz peşəsi ilə sayılıb seçilir. Ağıllı adamlardan biri kimi xalqımızın qiymətləndirdiyi, məsələn, Üzeyir Hacıbəyov, hər şeydən əvvəl, bəstəkar kimi şöhrətlənmişişdir. Veyil-veyil gəzən, bir sənət, peşə sahibi olmayan, vaxtını eyş-işrətdə keçirən şəxslər arasında ağıllı adam kimi ad çıxaranlar tarixdə olmamış və indi də yoxdur.

Ağıl tərbiyəsində mühüm əhəmiyyət kəsb edən xüsusiyyətlərdən biri də atılacaq addımın, deyiləcək sözün nə ilə nəticələnəcəyini əvvəlcədən görə bilməklə bağlıdır. Hər birimizin gündəlik həyatı ilə, iş şəraiti ilə, ictimai yerlərlə, müxtəlif adamlarla əlaqədar olur. Hansısa işi içra edirik, kimlərləsə təmasda oluruq. Bu zaman lazımınca düşünülmə-

miş davranışımız, yaxud götür-qoy edilməmiş dediyimiz söz və ya fikir çox halda arzu olunmaz nəticə verə bilir, peşimançılıq yaranır. Belə hallarda ağılın hələ kamil olmadığı özünü göstərir. Söyləniləcək fikrin, görüləcək işin sonu barədə düşünüb-daşınanda, yalnız bundan sonra işə və ya sözə başlayanda adam uğur qazana bilir. Bu cür hallarda ağılın formalaşdığı şübhə doğurmur. Atalar gözəl deyib: «ho ho var – adamı dağa qaldırır, ho ho var – dağdan endirir». Atalarımız sözün deyiliş tərzindən asılı olaraq onun təsir gücünün başqa-başqa olduğuna xüsusi diqqət yetirmişlər.

Müxtəlif səbəblər üzündən adam müəyyən səhvə yol verir. Buraxılan səhvə münasibət adamlarda fərqli ola bilir, bəziləri açıq-aşkar qəbahət hərəkətə yol versələr də, cəsarətləri çatıb onu etiraf etmirlər; bəziləri etiraf etməkdən bəhanələrlə boyun qaçırmağa çalışırlar. Elələri də tapılır ki, öz günahını başqasının boynuna atmağa çalışır. Belə halar ağlın naqisliyindən xəbər verir.

Ağıllı adam isə hərəkətində və ya sözündə nöqsanı hiss edən kimi ya başqalarının şahidliyi ilə, yaxud da özü öz qarşısında həmin nöqsanı etiraf edir və çalışır ki. Gələcəkdə o cür nöqsan təkrar olunmasın. Öz nöqsanını görməmək, yaxud görməyə meyilli olmamaq halları ağıl tərbiyəsində nöqsanlı keyfiyyət kimi qeyd edilir. Yol verdiyi nöqsanı qəbul edib aradan qaldırmağa çalışılmasının cəmiyyətdə rəğbətlə qarşılandığı ağıl tərbiyəsində xüsusi qeyd edilir. Nöqsanını görüb etiraf etmək və onu aradan qaldırmaq bacarığı nəink ağıl əlamətidir, hətta igidliyə bərabər xüsusiyyətdir.

Ata-babalarımız ağıllılıq əlaməti kimi səbrli, təmkinli olmağı vacib hesab etdiklərindən, səbrliliyin gənclərə aşılanması ağıl tərbiyəsində önəmli yer tutmalıdır. həyatda dönə-dönə isbat olunmuşdur ki, dedi-qodular, söz-söhbətlər əsasında tələsik nəticə çıxarıb tədbir görən adamlar çox halda səhvə yol verir, pis vəziyyətdə qalırlar. Səbrli olanlar isə, əksinə, nəticə çıxarıb tədbir görməkdə qətiyyən tələsmir, bir müddət keçir, məsələni hərtərəfli öyrənir, bir müddət keçir, məsələni hərtərəfli öyrənir, qəti yəqinlik hasil olandan sonra iş görürlər; ağıllı olduqlarını isbat edirlər.

Daim öyrənməyə, bilik əldə etməyə meyl ağıllı adamın bəzəyi olduğundan, ağıl tərbiyəsində biliyə can atmaq, bilikli olmağa səy göstərmək diqqət mərkəzində durur. Bilikli adamın inamlı, güclü olduğu, biliksiz adamın isə avam qaldığı, zəif olduğu uşaqların nəzərinə çatdırılır. Böyük Nizami vaxtilə xəbərdarlıq edirdi:

*«Ancaq öyrənməyi ar bilən insan,*
*Məhrumdur dünyada bilik almaqdan»*[1].

Təhlil, tərkib, müqayisə, ümumiləşdirmə və s. Təfəkkür əməliyyatları barədə imkan düşdükcə şagirdlərə müvafiq məlumatların verilməsi və əməliyyatlar üzrə bacarıqların onlara aşılanması da ağıl tərbiyəsinin məzmununa daxil edilməlidir. Nəzərə alınmalıdır ki, peşəsini kamil bilən, hərəkətlərinin sonunu ətraflı düşünən, sözünü lazımınca ölçüb-biçən, nöqsanını etiraf edib aradan qaldıran, səbrli olan, biliyə can atan adam nəinki ailəsi üçün, habelə öz xalqı üçün faydalı olur, sayılır-seçilir. Bu xüsusiyyətlərin sahibi həm də vətənpərvər hesab oluna bilər.

**4. Ağıl tərbiyəsinin vəzifələri.**

Ağıl tərbiyəsinin vəzifələri ağıl anlayışının mahiyyətindən irəli gəlir. Ağıl tərbiyəsi qarşıda qoyulan vəzifələrdən biri sənətlə, peşə ilə əlaqədardır. Tərbiyə zamanı hər bir uşaq, yeniyetmə və ya gənc şəxsi həyatda, ümumxalq işində peşənin, sənətin əhəmiyyətini aydın təsəvvür etməli və bir peşənin sahibi olmalıdır; bilməlidir ki, peşənin pisi yoxdur, cəmiyyət üçün bütün peşələr faydalıdır.

Ağıl tərbiyəsi baxımından yaşlı adamların vəzifəsi, peşə, sənət sahəsində daha da təkmilləşməkdir. Amma sənətkar var, sənətkar var! Hər sənətkar hörmətli olmur. Sənətinin mahir ustası olanlar ağıl zirvəsinə ucala bilirlər. Ölməz Nizaminin aşağıdakı kəlamı burada yada düşür:

*«Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan»*[2].

---

[1] Nizami Gəncəvi. «Yeddi gözəl», Bakı, «Yazıçı», 1983, s. 53.
[2] Nizami Gəncəvi. «Sirlər xəzinəsi». Bakı, «Yazıçı», 1981, s.65.

Ağıl tərbiyəsinin vəzifələrindən biri də atacaqları addımların və deyəcəkləri sözlərin nə ilə nəticələnəcəyini qabaqcadan düşünə bilmək bacarığının gənc nəslə aşılanmasından ibarətdir. Tərbiyə olunanların nəzərinə çatdırmaq gərəkdir ki, bir işi görməzdən, bir sözü deməzdən əvvəl fikirləşsin, görsün nəticəsi özü üçün, ailəsi üçün, cəmiyyət üçün faydalı, yoxsa zərərli olar? Zərərli olarsa, həmin işdən və ya sözdən vaz keçsin; faydalı olarsa, işə başlansın, yaxud sözünü desin. Atalar əbəs yerə deməmişlər: «Yüz ölç, bir biç!» Bu yüz ölç, bir biçi hər bir uşaq, hər bir yeniyetmə və gənc yadında möhkəm saxlamalı və həyatı boyu ona əməl etməlidir.

Təcrübə göstərir ki, nöqsana yol verməyən adam az olur. Müdriklərimizi maraqlandıran yalnız bu deyil, həm də nöqsanlara adamların münasibətidir. Çoxlarımız nöqsanlarımızı ya görmək istəmir, ya görüb etiraf etmir, ya da etiraf edib islah etmir. Bu səbəbdən də ata-babalarımız nöqsanları ləğv etməyi vacib bilmişlər; indinin özündə də vacib hesab edilir. İşdə, adi həyatda adamların yol verdikləri nöqsanların etiraf olunmasına və aradan qaldırılmasına yönələn səylər ağıl tərbiyəsinin vəzifələrinə aid edilməlidir.

Ağıl tərbiyəsi qarşısında qoyulan vəzifələrdən biri də səbrlə əlaqədardır. Gənc nəsli səbrli, təmkinli olmağa alışdırmaq, onu ağıl zirvəsinə qalxan cığıra salmaq deməkdir. Adamlarla rəftarda tez özündən çıxmaq, səsini ucaltmaq, kobudluq hallarına yol vermək, dözümsüzlük göstərmək, danışanın sözünü kəsmək kimi qəbahət sayılan xüsusiyyətlər adamı hörmətdən salır. Bu cür halların xalq arasında pis qarşılandığını hər bir uşaq, yeniyetmə və gənc bilməlidir; bilməlidir ki, xalq səbrli adamları sevir; həyatda səbrlə uğur qazanmaq olur. Təsadüfi deməmişlər ki, «Səbr ilə halva bişər, ey qora səndən, bəsləşən atlas olar tut yarpağından».

Daim biliyə can atmağın, geniş biliyə malik olmağın həyatda, fəaliyyətdə əhəmiyyətini gənc nəslə başa salmaq, biliyə, elmə onda dərin maraq oyatmaq ağıl tərbiyəsinin vəzifələrindəndir.

Təlim-tərbiyə və təhsil zamanı bizim uşaqlar, yeniyetmə və gənclər anlamalıdırlar ki, düzgün mühakimə yürütmək,

əlaqəli, məntiqli danışmaq təfəkkür əməliyyatlarını tanımaqdan və onlardan yerli yerində istifadə etməkdən çox asılıdır. Təhlil, tərkib, müqayisə ümumiləşdirmə və s. təfəkkür əməliyyatlarının gənc nəsldə formalaşdırılması ağıl tərbiyəsinin vəzifələrinə aiddir.

Hələ görün nə qədər müddət bundan əvvəl ölməz Nizamimiz ağıl tərbiyəsi ilə məşğul olmağın zəruriliyini necə ustalıqla ifadə etmişdir:

*«Şahanə tərbiyə, hünər, nəzakət,*
*Ağıla nur verir, ürəyə qüvvət»*[1].

**5. Ağıl tərbiyəsinin yolları.**

Ağıl tərbiyəsi qarşısında qoyulmuş vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək üçün istifadə edilən yollar çoxdur. Onlardan bəzilərini göstərək: sənətinin kamil ustası olan tarixi adamların nümunəsindən istifadə, imkan daxilində bu cür şəxslərlə görüşlərin təşkili; işin icrasından əvvəl onun nə ilə nəticələnəcəyini görməyə və görməməyə aid həyatdan götürülmüş faktlar haqqında söhbət; düşünərək və düşünmədən deyilən sözlərin sonuna aid müsahibə; səbrlə və səbirsiz görülən işlərin aqibəti barədə müsahibə; biliyin və bilikli olmağın əhəmiyyəti haqqında müzakirə; təfəkkür əməliyyatlarına uyğun gələn və uyğun gəlməyən mühakimələrin təhlili.

*Öz sənətinin əsl ustası olan tarixi şəxslərin nümunəsi.* Ağıl tərbiyəsi qarşısındakı vəzifələrin öhdəsindən ləyaqətlə gəlmək üçün ağıllı adamların nümunəsindən istifadə edilir. Gənc nəsl bilir ki, xalq kimləri hansı keyfiyyətlərinə görə ağıllı hesab edir, onlara ehtiram göstərir? heç vaxt unutmur. Nizami Gəncəvi, Nəsrəddin Tusi, Əcəmi, Üzeyir Hacıbəyov, Səməd Vurğun kimi şəxslərin nümunəsində ağıllılıq əlamətlərini uşaqların, yeniyetmə və gənclərin qarşısında açıb göstərmək mümkündür. Bu cür nümunələr əsasında gənc nəsil yəqin edə bilir ki, ağıllı adamlar birinci növbədə öz peşələrinin vurğunu olmuş, seçdikləri peşənin əsl ustasına çevrilmiş və buna görə də Azərbaycan xalqına başucalığı

---

[1] Nizami Gəncəvi. «İsgəndərnamə». Bakı, «Yazıçı», 1981, s.66.

gətirə bilmişlər. Və məhz buna görə də belə adamlar dünyasını dəyişsələr də, öz xalqının xatirində əbədi yaşayırlar.

*Ağıllı hesab edilən şəxslərlə görüşlər.* Ağıllı adamlarımız indinin özündə az deyil. Öz peşəsinin kamil ustası olan adamlarımız hər kənddə, hər qəsəbə və şəhərdə kifayət qədərdir. Səciyyələndirdiyimiz ağıl keyfiyyətlərinə malik olan bu cür adamlarla şagirdlərin görüşünü təşkil etmək çox faydalıdır. Görüş zamanı şagirdlər konkret şəxslərin nümunəsində, yəqin edə bilirlər ki, təsərrüfatın, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin və digər sahələrin sayılıb seçilən adamları az deyil. Onlar təkcə öz ailələrinə deyil, kəndə, şəhərə, bütövlükdə vətənə maksimum dərəcədə fayda verməyə çalışırlar; bu keyfiyyətlərinə görə də xalq beləl追 belələrini sevir.

*İşə başlamazdan əvvəl nəticəsini görə bilmək haqqında müsahibə.* Ağıl tərbiyəsində diqqət yetirilən cəhətlərdən biri də hər hansı işin nəticəsini qabaqcadan görə bilmək bacarığının gənc nəsldə formalaşdırılmasıdır. Şagird bilməlidir ki, görüləcək işin müddətindən və miqyasından asılı olmayaraq nə ilə nəticələnəcəyini özü üçün aydınlaşdıranlar da, aydınlaşdırmayanlar da olur. Birinci hal ağıllılıq, ikinci hal isə nadanlıq əlaməti kimi özünü göstərir: birinci hal uğurla, ikinci hal isə uğursuzluqla nəticələnə bilir. Həmin hallara aid şagirdlərin və yaşlıların həyatı və fəaliyyətindən konkret faktlar gətirmək olur. Məsələn, 1988-ci ilin qışında Ermənistandan zorla qovulan azərbaycanlıların Dağlıq Qarabağda məskunlaşmalarına o dövrdəki respublika rəhbərliyi icazə vermədi, versəydi, Dağlıq Qarabağ problemi tez həll olunardı.

Ətraflı təhlil olunan bu cür faktlardan şagirdlər belə bir qənaətə gəlirlər ki, hər hansı işi görməzdən əvvəl onun nə ilə bitəcəyini adam özü üçün aydın təsəvvür etməyə çalışmalıdır.

*Düşünərək və düşünmədən deyilən sözlərin natiçəsinə aid müsahibə.* Ağıl tərbiyəsi ilə məşğul olan şəxs şagirdlərə başa salır ki, adamlar arasında baş verən narazılıqların, çəkişmələrin, incikliyin çoxu danışıqda, nitq ünsiyyətində yol verilən nöqsanlardan irəli gəlir. Rişxənd, istehza, ələ salmaq, şit zarafat, mənasını başa düşmədən işlədilən sözlər qəlbə daha çox toxunur. Şagirdlər üçün o da aydın

olmalıdır ki, sözün deyiliş tərzi də inciklik yarada bilir. Amiranə xarakterli, göstəriş səciyyəli, təkəbbürlü, yekəxana deyilən sözlər adamları bir-birindən uzaqlaşdırır. Nitq ünsiyyətindən alınan bu cür faktların təhlili əsasında şagirdlər yəqin edirlər ki, həmin faktlar ağıl nişanəsi deyil, nadanlıq nişanəsidir. Tərbiyəçi bu məqsədlə müvafiq atalar sözlərindən, zərb məsəllərdən də istifadə edə bilər: «Qılınc yarası sağalar, söz yarası sağalmaz».

*Səbrli və səbrsiz görülən işlərin aqibəti barədə müsahibə.* Bu istiqamətdə ayrı-ayrı faktlar ətrafında şagirdlərlə müsahibələr aparılır. Şagirdlər həmin faktlardan belə bir nəticəyə gəlirlər ki, səbrlə görülən iş və ya tədbir faydalı olur; səbrsiz, tələsik çıxarılan qərar, görülən iş, atılan addım peşimançılığa gətirib çıxara bilər. Sözdə də eyni vəziyyət müşahidə olunur. Şagirdlər bilməlidir ki, deyilən söz atılan oxa bənzəyir, onu geri qaytarmaq mümkün deyil. Hövsələsiz görülən iş üçün, əsəbi vəziyyətdə deyilən söz üçün tez-tez üzr istəmək, peşimançılıq çəkmək çox halda yersiz və səmərəsiz olur. Bu çür halları nəzərə alan müvafiq atalar sözləri də şagirdlərin diqqətinə catdırıla bilər: «Daldan atılan daş topuğa dəyər».

*Biliyin və bilikliyin əhəmiyyəti barədə müzakirə.* Şagirdlərlə aparılan müzakirə zamanı bilikli olmağın həyatda əhəmiyyəti qabarıq şəkildə açılır. Şagirdlər yəqin edirlər ki, müəyyən dərəcədə biliklərə yiyələnmədən müasir həyatda layiqli yer tutmaq çətindir. Bilikli, məlumatlı olmaq, öz biliyini daim artırmaq və genişləndirmək ağıllı adamlara xas olan əlamətdir. Şagirdlər arasında müsahibə apararkən bilik əldə etməyin vacibliyinə dair atalar sözlərini, fikir bahadırlarının söylədiklərini xatırlamaq yerinə düşür. Məsələn, ölməz Nizami xatırladır:

*«Hər kim öyrənməyi bilməyibsə ar,*
*Sudan dürr, daşdan da gövhər çıxarar.*
*Ancaq öyrənməyi ar bilən insan,*
*Məhrumdur dünyada bilik almaqdan»*[1].

---

[1] Nizami Gəncəvi. «Yeddi gözəl». Bakı, «Yazıçı», 1981, s.53.

*Təfəkkür əməliyyatlarına uyğun gələn və uyğun gəlməyən mühakimələrin təhlili.* Ağıl tərbiyəsi ilə məşğul olai şəxs təfəkkür əməliyyatlarının nədən ibarət olduğunu, ayrılıqda hər birinin xüsusiyyətlərini bilməlidir. Bu cəhətdən özü üçün aydınlıq hasil etmiş olan şəxs şagirdlərdə müqayisə, təhlil, tərkib, ümumiləşdirmə və s kimi təfəkkür əməliyyatlarının inkişafını sürətləndirə bilir ağıl tərbiyəsində müvəffəqiyyətin vacib şərtlərindən biri belə dir. Onu da bilmək faydalıdır ki, adamın söylədiyi fikir istəsə də, istəməsə də, həmin təfəkkür əməliyyatlarından süzülüb keçir. Bunu çoxlarımız duymur. Duyulduqda, ifadə etdiyimiz fikir daha dolğun, daha sistemli, daha məntiqli olur; təfəkkürümüz daha intensiv inkişaf etməyə başlayır. Təhlil və tərkib əməliyyatı ilə əlaqədar bircə misal gətirək. Şagirdlərlə söhbətdə, məsələn, deyilir: «Üzeyir Hacıbəyov ağıllı adam idi». Həmin fikrin deyənə də, eşidənlərə də dəxli vardır. Deyən ya Üzeyir Hacıbəyovu dəfələrlə görüb, müşahidə edib, ya da onun həyat və fəaliyyətini öyrənib, həmin nəticəyə gəlibdir. Nəticəyə gələnədək, o, bəstəkarın əməyə münasibətini, işə başlamazdan və ya bir söz deməzdən əvvəl nəticəsi barədə ətraflı düşündüyünü, heç kəsi incitmədiyini, səbrli, bilikli olduğunu təhlil edib, fikrini ümumiləşdiribdir. Bunlarla yanaşı, yuxarıdakı fikri söyləyən şəxs xəyalən, özü hiss etmədən həm xüsusinin (Üzeyir Hacıbəyovun) ümumiyə (ağıllı adamlara) aid olduğunu, həm də bir qrupa aid olan keyfiyyətlərin Üzeyir Hacıbəyovda mövcudluğunu etiraf etmiş olur.

Müəllimin şüurunda sezilmədən cərəyan edən həmin təfəkkür əməliyyatları şagirdlərin şüuruna da sezilmədən süzülə bilir. Lakin, bu zaman, ustad müəllim, şagirdlərin sezmədən qəbul edəcəkləri həmin təfəkkür əməliyyatlarını xüsusi olaraq onların nəzərinə çatdırdıqda tamam başqa səmərə əldə edilir. Bununla da müəllim öz şagirdlərində ağlın intensiv inkişafına güclü təkan vermiş olur.

Ağıl tərbiyəsi, həm fənlərin tədrisində, həm də dərsdənxaric tədbirlərdə həyata keçirilir. Bundan ötrü bütün fənlərin tədrisində imkanlar var. Konkret tədris mövzusunun və ya dərsdənxaric konkret tədbirin imkanını nəzərə

alan müəllim ağıl tərbiyəsinin vəzifələrinə uyğun gələn üsulları seçir və tətbiq edir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1977, №3)**

## 4. DÖVLƏT MÜSTƏQİLLİYİ ŞƏRAİTİNDƏ İDEYA-SİYASİ TƏRBİYƏ

***İdeya-siyasi tərbiyə məsələsinin ədəbiyyatda qoyuluşu.*** Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində ideya-siyasi tərbiyənin aktuallığı xeyli artmışdır. Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandığından, ideya-siyasi tərbiyənin təkcə forması deyil, məqsədi də, məzmunu da köklü şəkildə dəyişmişdir.

Bəs ideya-siyasi tərbiyə məsələsi mövcud ədəbiyyatda necə qoyulur? Pedaqoji ədəbiyyatda ideya-siyasi tərbiyəyə münasibət müxtəlifdir. Ədəbiyyatla tanışlıqdan aydın olur ki, bir sıra mənbələrdə ideya-siyasi tərbiyə məsələsinə heç toxunulmur. Buna misal olaraq Moskvada «Prosveşeniye» nəşriyyatı tərəfindən 1968 və 1977-ci illərdə çap olunmuş eyni adlı «Pedaqogika» və 1967, habelə 1976-cı illərdə buraxılmış eyni adlı «Хрестоматия по педагогике» kitablarını göstərmək olar.

Görünür, həmin kitabların müəllifləri ideya-siyasi tərbiyə məsələsini pedaqogika üçün lüzumsuz hesab edirlər.

Bununla belə, ideya-siyasi tərbiyə məsələsi üzərində xüsusi dayanmaq halları da var.

Bəzi mənbələrdə məsələ ideya-siyasi, (Pedaqogikadan mühazirə konspektləri. Bakı, «Maarif», 1983) bəzilərində ideya-əxlaq, (Pedaqogika. Moskva. «Prosveşenie», 1988), bəzilərində ideya-mənəvi, «Pedaqogika. Bakı, «Maarif», 1993), bəzilərində ideya-siyasi-əxlaqi «(Pedaqokika. Moskva, «Prosveşenie», 1978) formasında ifadə olunur.

Ədəbiyyatda ideya-siyasi tərbiyə və ideya-mənəvi tərbiyə ifadələri daha geniş yayılmışdır. Fikrimizcə, birinci ifadə daha dəqiqdir. Çünki ideya və siyasi anlayışların həm fərqləri sezilir, həm də bu anlayışlar bir-birini tamamlayır.

İdeya və mənəvi anlayışlar isə mahiyyətcə eyniyyət təşkil edir: ideya eyni zamanda mənəvidir, maddi deyil.

İdeya-mənəvi tərbiyə məsələsinin ədəbiyyatda qoyuluşunu da qənaətləndirici hesab etmək çətindir. Şərhin mahiyyəti belədir: «İdeya-mənəvi tərbiyənin sisteminə elmi dünyagörüşü, əqidə, xalqımızın mütərəqqi ənənələrinə sədaqət, vətənpərvərlik, humanizm, vətəndaşlıq borcunun dərki və s. keyfiyyətlərin formalaşdırılması daxildir» (Pedaqogika. «Maarif», Bakı. 1993, s. 218).

Həmin səhifədəcə yenə yazılır: «ideya-mənəvi tərbiyənin məzmununa dövlətin siyasətini başa düşmək, elmi dünyagörüşü və ideya-siyasi əqidəni formalaşdırmaq, vətəndaşlıq şüuru və yetkinliyi, vətənpərvərlik və beynəlmiləlçilik, habelə hüquq tərbiyəsi daxildir (Yenə orada, s 218).

Təbii sual doğur: bu iki anlayışın hansına inanaq? Heç birinə. Nə üçün? Çünki elmi dünyagörüşü fərqli problemdir, ümumiyyətlə, əqidə və ideya-siyasi əqidə eyniləşdirilir, vətəndaşlıq borcunun dərki və vətəndaşlıq şüuru və yetkinliyi arasında fərq qoyulmur, dövlət siyasətini başa düşmək və hüquq tərbiyəsi yanaşı qoyulur, bir halda humanizmin, digər halda beynəlmiləlçiliyin adı çəkilir. Əsasən əxlaq tərbiyəsinə aid olan məsələlər ideya-mənəvi tərbiyəyə aid edilir və s. Ən başlıcası budur ki, eynihüquqlu məsələlərin bir qismi ideya-mənəvi tərbiyənin sisteminə, digər qismi ideya-mənəvi tərbiyənin məzmununa aid edilir.

Göründüyü kimi, hələ bir kitabda yalnız bir mövzu üzrə qarmaqarışıqlıq və qeyri-müəyyənlik hökm sürür. Həm də bu səbəbdən, ideya-siyasi tərbiyə məsələsinə aydınlıq gətirməyə böyük ehtiyac vardır.

İdeya-siyasi tərbiyə üzərində xüsusi dayanmağın zəruriliyi həm də məktəb təcrübəsindən, bəzi müəllimlərin məsələyə münasibətindən irəli gəlir. Məsələ burasındadır ki, sovet dövrünün ab-havasını xatırlayan bəzi müəllimlər ideya-siyasi tərbiyəni ilan çalan ala çatıdan diksindiyi kimi qarşılayırlar. İdeya-siyasi tərbiyə sahəsində təcrübələrini öyrənmək istədikdə belə müəllimlər narazı halda bildirirlər:

-Əşi, nə ideya tərbiyəsi, nə siyasi tərbiyə? Canımız ideya-siyasi tərbiyədən təzəcə qurtarmayıbmı?

Yarı ciddi, yarı zarafat formasında söylənmiş bu fikirdə müəyyən həqiqət var. həqiqət budur ki, ideya – kommunizm ideyası, siyasət sovet siyasəti olmuşdur. İndi Sovet İttifaqı dağılmışdır, sovet dövrünün ideya-siyasi tərbiyəsi də aradan qaldırılmışdır. Lakin bu köklü dəyişiklikdən belə bir nəticə çıxarmaq düzgün olmaz ki, guya Azərbayçan Respublikasında daha ideya-siyasi tərbiyə aparılmamalıdır. Belə düşünmək sadəlövhlük olardı.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində ideya-siyasi tərbiyənin əhəmiyyəti nəinki azalmış, hətta xeyli artmışdır. Belə ki, Azərbaycanda indi milli ideologiya formalaşır, milli mənlik şüurumuz baş qaldırır, ənənələrimiz dirçəlir, dövlətçiliyimiz möhkəmlənir, ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək üçün xalqımız səfərbər olunur. Təlim-tərbiyə işi, xüsusən, ideya-siyasi tərbiyə bu ümumxalq qayğılarından kənarda qala bilməz və qalmır.

İstiqlal gününü, Konstitusiya gününü, dünya azərbaycanlılarının həmrəylik gününü qeyd etmək, şəhidləri yad etmək və bir çox başqa siyasi tədbirlər məktəblərimizdə ideya-siyasi tərbiyənin məzmununa çevrilir.

İdeya-siyasi tərbiyənin mahiyyətini açmaq üçün onun əlamətlərinin nədən ibarət olduğu göstərilməlidir.

İdeya-siyasi tərbiyə və onun vəzifələri, ideya və siyasi anlayışları bir-birini tamamlayır.

İdeya yunan sözüdür (idea), xarici aləmin cisim və hadisələrinin təsəvvür və anlayış formasında inikasını bildirir.

İdeya tarixən müxtəlif alimlər tərəfindən müxtəlif cür başa düşülmüşdür. Məsələn, vaxtilə Demokrit görünməyən atomları, Platon görünən cisim və hadisələrin kənardakı kölgələrini ideya adlandırmışdır.

Cəmiyyətdə əhəmiyyətinə görə ideyaları iki qrupa ayırmaq olar: mütərəqqi və qeyri-mütərəqqi ideyalar. Birincilər – cəmiyyətin irəliləməsinə, ikincilər isə – geriləməsinə təsir göstərir.

Azərbaycan üçün mütərəqqi ideyalar olduqca əhəmiyyətlidir. Belə ideyalardan biri milli mənlik şüurudur. Milli

mənlik şüuru tələb edir ki, özünü azərbaycanlı adlandıran şəxs Azərbaycan xalqının sevincinə sevinsin, kədərinə şərik olsun, xalqı ilə qaynayıb qarışsın. «Mən azərbaycanlıyam» demək azdır. Azərbaycana məxsus olduğunu işdə, əməldə, davranışda isbat etmək lazım gəlir. İdeya-siyasi tərbiyənin vəzifələrindən biri məhz milli mənlik şüurunun gənc nəsildə formalaşmasına xidmət etməkdən ibarətdir.

Azərbaycanda sosial və iqtisadi, siyasi və mənəvi inkişafa əsaslı kömək edən ideyalardan biri milli mədəniyyətimizi sevməkdir. İdeya-siyasi tərbiyə vasitəsilə gənc nəsil çoxcəhətli Azərbaycan mədəniyyəti, onun ayrı-ayrı növləri barədə konkret təsəvvür edirlər. Üzeyir hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov kimi bəstəkarların, Bülbül, Rəşid Behbudov kimi müğənnilərin, Mikayıl Yullayev, Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov kimi rəssamların, Yusif Məmmədəliyev, Ziya Bünyadov kimi alimlərin, Hüseyn Cavid, Səməd Vurğun kimi şair və yazıçıların, mədəniyyətin digər sahələrində dünya şöhrəti qazanmış elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılıq yolları gənc nəsil üçün çox gözəl fəaliyyət nümunəsidir. Elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində Azərbaycana başucalığı gətirmiş şəxslərin tükənməz yaradıcılıq xəzinələri ilə uşaqları, yeniyetmə və gəncləri tanış etmək ideya-siyasi tərbiyənin vəzifələrindəndir.

Tarixi yaddaşı qoruyub saxlamaq da ideya sərvətlərimizə aiddir. Azərbaycan xalqının keşməkeşli tarixini, başına gətirilmiş saysız müsibətləri hər bir azərbaycanlı öyrənməli, daim yadda saxlamalı və bunlardan özü üçün lazımi nəticələr çıxarmalıdır. Çünki xalqımızın çəkdiyi bəlaların, verdiyi qurbanların, gördüyü dağıntıların, zaman-zaman itirdiyi torpaqların, vaxtaşırı keçirdiyi ahu-zarın başlıca səbəblərindən birini özümüzdə, tarixi yaddaşımızın zəifliyində, xalqımızın tarixini yaxşı bilməməyimizdə axtarmalıyıq.

Son zamanlar nankor qonşuların şimaldan, qərbdən və cənubdan etdikləri təcavüzlərin, təzyiqlərin, ərazi iddialarının səbəblərindən biri də tarixi unutqanlığımızla bağlıdır. Müxtəlif vaxtda erməni cəlladları milli qırğınlar törətmiş və dünyaya çar çəkmişlər ki, «Ay haray, qoymayın, bizi, yazıq

erməniləri qırırlar». Həqiqətdə isə kütləvi şəkildə qırılanlar, ata-baba yurdlarından qovulanlar, torpağı əldən gedənlər hər dəfə azərbaycanlılar olmuşdur. Çox keçməmiş, alçaq qonşular şirin dil tökmüş, biz isə işi unudaraq güzəştə getmişik. Bəlalar, müsibətlər, yenidən dönə-dönə təkrarlanmışdır. İdeya-siyasi tərbiyənin vəzifələrindən biri bu həqiqətləri gənc nəslə çatdırmaqdan, onun tarixi yaddaşını möhkəmləndirməkdən, onu nankor qonşunun məkrli iddialarını dəf etməyə hazırlamaqdan ibarət olmalıdır.

Vətən təəssübkeşliyi, Vətənə xidmət, lazım gələrsə, Vətən yolunda canını qurban verməyə hazır olmaq indi Azərbaycanda getdikcə geniş yayılan ideyalardan biridir. Vətənpərvərlik, o cümlədən hərbi vətənpərvərlik kütlələrin şüuruna daha çox hakim kəsilir. 1990-cı ilin yanvarında Azərbaycan ərazisinə soxulan tankların qarşısını əliyalın kəsməyə çıxan minlərlə xalq kütləsinin fədakarlığı, təpədən dırnağacan top, tank, avtomatla silahlanmış və rus polkuna arxalanan erməni qəsbkarlarının qarşısına ov tüfəngi ilə çıxan azərbaycanlıların igidliyi buna bariz nümunədir.

Lakin bütün bunlarla yanaşı, 1988-ci ildən üzü bəri baş verən hadisələrdə dönüklər, satqınlar, xəyanətkarlar, qorxaqlar, xalqımızın ağır vəziyyətində müxtəlif bəhanələrlə respublikadan qaçıb gedənlər də az olmadı. Bu cür hallar da nəzərə alınmaqla indi gənclərin vətənpərvərlik, o cümlədən hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması xüsusi əhəmiyyət kəsb edir. Bu vəzifə ideya-siyasi tərbiyənin üzərinə düşür. Uşaqları, yeniyetmə və gəncləri Vətən təəssübkeşliyi ruhunda, öz Vətəninə, doğma torpağına, el-obasına bağlılıq ruhunda boyabaşa çatdırmaq ideya-siyasi tərbiyənin vəzifəsidir.

Deməliyik ki, Azərbaycanda milli mənlik şüurunun formalaşdırılması milli mədəniyyətin öyrənilməsinə, tarixi yaddaşımızın qorunub saxlanmasına və nəhayət, Vətən təəssübkeşliyi çəkilməsinə qətiyyən millətçilik kimi baxıla bilməz, hər şeydən əvvəl ona görə ki, Azərbaycanda ideya-siyasi tərbiyə bəşəri dəyərlərə laqeyd deyildir.

İdeya-siyasi tərbiyənin istiqamətlərindən biri məhz bəşəri dəyərlərlə əlaqədardır. Bəşəri dəyərlərə, məsələn, demokra-

tiyaya, sülhə, azadlığa, türkçülüyə, islamın mütərəqqi adət və ənənələrinə qovuşmaq indi bizim əsas götürdüyümüz ideyalardandır. Hazırada respublikamızda demokratik hüquqi dövlət quruculuğu davam edir, insan hüquqları qorunur, söz azadlığı, mətbuat azadlığı təmin olunur. Rəsmi dövlət qəzetləri qədər qeyri-dövlət qəzetləri çap olunur. Dini əqidəyə görə heç kəs təqib edilmir, məscidlər sərbəst fəaliyyət göstərir; Quranı Azərbaycan dilində oxumaq imkanı yaranmışdır. İslam dinində halallığa, rəhmdilliyə, ədalətə, elmə, tərbiyəyə dair bəşəri fikirlər geniş təbliğ edilir. Türk dünyası ilə əlaqələrimiz genişlənir, gediş-gəliş artır, qarşılıqlı yardım güclənir. Deməli, bəşəri dəyərlərə yiyələnmə gənc nəslin ideya-siyasi tərbiyəsi qarşısında duran vəzifələrdən biridir.

Siyasi tərbiyənin məzmunu. İdeya tərbiyəsi siyasi tərbiyə ilə qaynayıb qarışır və vahid məqsədə – gənc nəslin ideyaca mətin, siyasi cəhətdən yenilməz vətəndaş kimi yetişməsinə xidmət edir.

Nəzərə alaq ki, siyasi və siyasət sözləri, eyni kökdən olsalar da, mahiyyətcə fərqlənirlər. Təəssüf ki, bəzi mütəxəssislər həmin anlayışları eyniləşdirirlər; buna görə də onlar siyasətə aid dövlətin bütün tədbirlərini siyasi tərbiyənin məzmununa aid edirlər. Bu cür anlamla razılaşmaq mümkün deyil.

Sual oluna bilər: bəs siyasi tərbiyənin məzmunuma indiki şəraitdə konkret nələr daxildir? Birinci növbədə ərazi bütövlüyünün təmin olunması. Azərbaycan dövləti hazırda çalışır ki, pozulmuş ərazi bütövlüyü bərpa olunsun, qaçqın və köçkünlərimiz öz yerlərinə qayıtsınlar. Gənc nəslin siyasi tərbiyəsinin istiqamətlərindən biri məhz bu vəzifə ilə bağlıdır. Özünü azərbaycanlı hesab edən hər bir gənc çalışmalıdır ki, Vətənimizin ərazi butövlüyü təmin olunsun, onun sərhədləri pozulmasın.

Azərbaycan xalqının tarixi nailiyyətlərindən biri dövlət musiqilliyini əldə etməsidir. Lakin məlum olur ki, bəzi xarici qüvvələr Azərbaycanı müstəqil dövlət kimi görmək istəmirlər. Bu məqsədlə qara qüvvələr dövlətçiliyimizə qarşı müxtəlif təxribatlar, terror aktları törədir, süni çətinliklər yaradır, böhtanlar atırlar. Gəncliyimiz bu cür hallara laqeyd

qala bilməz. Odur ki, dövlət müstəqilliyimizin qorunması, möhkəmlandirilməsi və inkişaf etdirilməsi gənc nəslin siyasi tərbiyəsinin tərkib hissəsinə çevrilmişdir.

Siyasi tərbiyənin vəzifələrindən biri də dövlət rəmzlərinə dərin hörmət hissinin gənc nəslə aşılanmasını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının əsas dövlət rəmzləri onun bayrağı, gerbi və himnidir. Azərbaycanda yaşayan hər bir kəs: istər uşaq, yeniyetmə və ya gənc dövlətinin rəmzləri barədə konkret təsəvvürə malik olmalıdır: anlamalıdır ki, məsələn, dövlət bayrağımızdakı rənglər nələri bildirir, onun ortasındakı ay və ulduz nə deməkdir.

Bu fikir dövlət himninin və gerbinin məzmununa da aiddir. Azərbaycan Respublikasının dövlət himni, gerbi və bayrağı aşağı siniflərdən öyrənilir. Məsələn, IV sinfin «Oxu» dərsliyi dövlətimizin himni və bayrağı ilə başlanır. Aşağı siniflərin şagirdləri dövlət himnini əzbərdən bilirlər; onlar bir ağızdan deyirlər:

*«Səndən ötrü can verməyə cümlə hazırıq,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz».*

Dövlət himni əsasında şagirdlər Azərbaycan xalqının keçdiyi ağır tarixi yolu gözləri qarşısında canlandıraraq bildirirlər:

*«Minlərlə can qurban oldu,*
*Sinən hərbə meydan oldu,*
*Hüququndan keçən əsgər*
*Hərə bir qəhrəman oldu».*

Tarixi keçmişini dövlət himni əsasında yada salan şagirdlər gələcəklə əlaqədar öz istək və arzularını himnin dili ilə ifadə etməyə çalışırlar:

*«Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən! Şanlı Vətən!*
*Azərbaycan! Azərbayçan!»*

Şagirdlər onu da öyrənirlər ki, həmin himn 1918-1919-cu illərdə fəaliyyət göstərmiş Azərbaycan Demokratik Cümhu-

riyyətinin himni olmuşdur; onun sözləri Əhməd Cavadın, musiqisi Üzeyir Hacıbəyovundur.

Azərbaycan Respublikası dövlət rəmzlərinin məzmununu və onların tarixini bilməyin böyük tərbiyəvi əhəmiyyətə malik olduğunu xüsusi izah etməyə ehtiyac yoxdur.

Göründüyü kimi, ideya tərbiyəsi və siyasi tərbiyə bir-birini tamamlayır. Bu səbəbdən də onlar tərbiyə zamanı vahid proses kimi cərəyan edir. Deyilənlər nəzərə alınarsa, ideya-siyasi tərbiyəyə tərif vermək mümkündür: gənc nəsli milli mənlik şüuruna, milli mədəniyyətə və bəşəri dəyərlərə qovuşdurmaq üçün onda tarixi yaddaşı və dövlət müstəqilliyini qoruyub saxlamaq meylini, Vətən təəssübkeşliyi və ərazi butövlüyünü təmin etmək əzmini, habelə dövlət rəmzlərinə hörmət bəsləmək həvəsini gücləndirmək üçün mütəşəkkil işlər ideya-siyasi tərbiyədir.

Xatırladaq ki, ideya-siyasi tərbiyənin əhatə etdiyi fikirlərlə silahlanmış şəxslərin fəaliyyyəti respublikamızın inkişafına, xalqımızın əmin-amanlığının təmin olunmasına güclü təkan verir.

***İdeya-siyasi tərbiyənin aşılanma yolları.***

İdeya-siyasi tərbiyənin qarşısında qoyulmuş vəzifələr əsasən üç istiqamətdə həyata keçirilir: təlimdə, sinifdənxaric tədbirlərdə və məktəbdənkənar tərbiyə işində.

Təlim prosesində, yəni ayrı-ayrı fənlərin tədrisi zamanı ideya-siyasi tərbiyənin vəzifələrini yerinə yetirmək üçün geniş imkanlar var. Məsələn, məzmunu quru rəqəmlərlə zəngin olan riyaziyyatın tədrisində milli mənlik şüurunu formalaşdırmaq məqsədi ilə Azərbaycanın görkəmli riyaziyyatçılarının fikirlərini xatırlamaq yerinə düşər. Bu cür imkanlar fizikanın, biologiyanın və digər fənlərin tədrisində də vardır.

Şagirdləri milli mədəniyyət inçiləri ilə tanış etmək üçün təkcə nəğmə və ya təsviri incəsənət fənlərinin deyil, ədəbiyyat, tarix və digər fənlərin də imkanlarından istifadə olunur. Dünya şöhrəti qazanmış elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin yaradıcılıq nümunələrindən şagirdlərimiz bəhrələnməlidir

Tarixi yaddaşımızı göz-bəbəyi kimi qoruyub saxlamaq, vətənpərvərlik əzmini gənclərdə artırmaq üçün bütün tədris fənlərinin, xüsusən tarix və ədəbiyyatın imkanları daha genişdir. Bu mənada müəllimlərin hazırlıq səviyyəsindən çox şey asılıdır. Tədris materialları ilə əlaqədar olan şifahi xalq yaradıcılığı nümunələrindən dərsdə məharətlə istifadə etmək halları az deyil.

«Doğma yurd şirin olar», «Vətən viran da olsa cənnətdir» kimi atalar sözləri, Səməd Vurğunun «Yurdunu atana dünya dar olsun» (Seçilmiş dram əsərləri və poemaları, Bakı, Azərnəşr, 1974, s. 12) kəlamı sinif otaqlarında tez-tez səslənir.

*Burda yolum oldu tən,*
*Varmı bu yoldan ötən?*
*Bu dünyada şirin şey*
*Bir anadır, bir vətən.*

Bu cür bayatılardan dərs zamanı istifadə edən müəllimlərimizin işi təqdirəlayiqdir.

Tarixi şəxsiyyətlərin nümunələrini, onların ibrətamiz kəlamlarını dərsdə gənc nəslə çatdıran müəllimlərimizə haqq qazandırılır. Məsələn, Şeyx Məhəmməd Xiyabaninin belə bir fikri şüurlara hakim kəsilir: «Ölümdən qorxmayan bir millətə ölüm yoxdur» (Bax: Müdrik sözlər, Bakı, «Yazıçı» 1979, s. 47). Çeçen xalqı bu fikrin həyatiliyini öz mübarizliyi ilə isbat etdi.

Vətənpərvərlik tərbiyəsinə, o cümlədən hərbi vətənpərvərlk tərbiyəsinə xüsusi fənnin – i btidai hərbi hazırlığın güclü təsiri ayrıca qeyd edilməlidir. Bu fənn şagirdləri həm nəzəri, həm də əməli cəhətdən Vətənin müdafiəsinə hazırlayır. Vaxtilə yazı yaratmış olan məşhur Əhvədi elə bil həmin fənnin mənasını və bugünkü şəraitimizi qabaqcadan görüb yazmışdır:

*«Atıcı əllərdən başqa heç bir kəs,*
*Düşməni qovaraq məhv edə bilməz.*

İdeya-siyasi tərbiyədə vətənpərvərliyin əksi olan qorxaqlıq və satqınlıq hallarına da toxunulur. Qorxaqların və satqınların, xəyanətkarların aqibətləri gənc nəslə məlum olmalıdır. Bilmək lazımdır ki, xalq xəyanətkarları,

satqınları heç vaxt bağışlamır. Məhəmməd Peyğəmbər hələ uzaq keçmişdə bildirmişdir: «Millətimin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz».

Gənc nəslin ideya-siyasi tərbiyəsində sinifdənxaric tədbirlərin əhəmiyyəti az deyil. Məktəbdə fəaliyyət göstərən dram, xor, rəqs, təsviri incəsənət dərnəkləri, habelə ayrı-ayrı fənlər üzrə təşkil edilmiş dərnəklər şagirdləri milli mənlik şüuruna, milli mvdəniyyətə, bəşəri dəyərlərə qovuşdurmaqda xeyli iş görür.

Məlum olduğu kimi, haqq, ədalət, sülh, səxavət, azadlıq, bərabərlik kimi əxlaqi kateqoriyalar bəşəri dəyərlərdir. Bəzi sinif rəhbərləri bəşəri dəyərlər mövzusunda söhbətlər, müzakirələr keçirirlər. Məsələn, sinif rəhbərinin tapşırığı ilə şagirdlər haqq və ədalət mövzusunda söhbət üçün bayatılardan nümunələr də gətirməli idilər. Şagirdlərdən birinin gətirdiyi nümunə belə idi:

*Əzizim haqqa doğru,*
*Aç qəlbin haqqa doğru,*
*Dünyada bədbəxt olar*
*Gedən nahaqqa doğru.*

Başqa bir şagirdin bayatılardan seçdiyi nümunə belə səslənir:

*Gün xoş keçsə, dərd ölər,*
*Qüssə, kədər, dərd ölər,*
*Haqq yolunda can qoyan*
*Ad qazanar, mərd ölər.*

Vətən torpağının qorunmasında canından keçmiş şəhidlərin dəfn edilməsində, ailələrinə maddi yardım göstərilməsində məktəblərin fəal iştirakı onlarda vətənpərvərlik, o cümlədən hərbi vətənpərvərlik hissinin, dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq əzminin güclənməsinə təkan verir. Şagirdlərin müxtəlif kompozisiyada çıxışları, şer oxumaları, atalar sözlərindən, bayatılardan istifadə etmələri tədbirlərin tərbiyəvi təsirini xeyli artırır.

Milli Qəhrəmanlarımızın şəxsi igidlikləri fonunda şagirdlər namərdləri, dönükləri dərin qəzəb hissi ilə lənətləyir.

Bələlərinə öz kəskin nifrətlərini bildirir və bəzən el sözlərindən də istifadə edirlər:

*Sürü tapar qurdunu,*
*İgid sevər yurdunu.*
*Bir xain, bir də qorxaq*
*Batırar bir ordunu.*

İdeya-siyasi tərbiyədə istifadə edilən güclü vasitələrdən biri də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının nitq və çıxışlarıdır. Bu nitq və çıxışlarda dövlət müstəqilliyinin qorunması, sərhədlərimizin toxunulmazlığı, ərazi bütövlüyünün təmin olunması zəruriliyi dönə-dönə xatırladılır. Həmin fikirlər bütün xalqımızı, o cümlədən gəncliyimizi hər cür gözlənilməz hadisələrə qarşı daim sərvaxt dayanmağa və hazır olmağa səsləyir.

Azərbaycan Respublikasının bayrağındakı qırmızı rəng – istiqlaliyyət, göy rəng – müasirlik, yaşıl rəng isə – islamçılıq mənası daşıyır. Bayrağın ortasındakı aypara İslam rəmzi olub, müsəlmanlara xas bəzək formasıdır. Ayparanın ortasındakı səkkiz guşəli ulduz Azərbaycanda yaşayan millətlərin birliyinə işarədir. Bu bayraq 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətinin bayrağı olmuşdur.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti öz qərarı ilə həmin bayrağı yenidən xalqımıza qaytardı.

Hər bir azərbayçanlı nəinki himnimizin və bayrağımızın; habelə gerbimizin daşıdığı mənalardan hali olmalıdır. Dövlət gerbimizin əsasını qalxan təşkil edir, təcavüz olarsa, müdafiəyə hazırlığın zəruriliyini bildirir. Qalxanın üzərindəki üç rəngdə dairəvi xətt – bayrağa işarədir, xətlərin üzərindəki səkkizguşəli ulduz, yuxarıda deyildiyi kimi, Azərbaycanda yaşayan millətlərin birliyini əks etdirir, ulduzun ortasındakı alovun iki mənası var: Azərbaycanın mavi yanacaqla zənginliyini və sağdan sola oxunuşda Allah» sözünü andırır, qalxanın aşağısından sağa tərəf çəkilən sünbül – bolluq, sola tərəf çəkilən palıd yarpaqları – uzunömürlülük rəmzləridir. Bütövlükdə gerbin əsas ideyası belədir: «Bizimlə birlikdə yer kürəsi xalqlarına Allahın istəyi ilə əmin-amanlıq, bolluq, sağlamlıq, uzun ömür arzulayırıq.

Biz müharibə istəmirik, bizə hücum edənlərdən isə müdafiə olunmağa hazırıq».

Ali məktəb tələbələri arasında aparılan söhbətdən məlum olur ki, hətta tələbələrimizin bir qismi dövlət rəmzlərinin daşıdığı mənaları təfsilatı ilə bilmir. Güman edirik ki, dövlət rəmzlərində əks olunan ideyaların tələbələr tərəfindən də öyrənilməsinə qayğı göstərilməlidir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1977, №6)**

## 5. HÜQUQ TƏRBİYƏSİNİN GÜCLƏNDİRİLMƏSİ DÖVRÜN TƏLƏBİDİR

**1. Hüquq anlayışı, hüquq tərbiyəsinin məzmunu. Hüquqi dövlət quruculuğunda hüquq tərbiyəsinin rolu.**

*Hüquq anlayışı.* Hüquq ərəb sözündən alınmadır, mənası «haqq söz» deməkdir. Elmdə hüquq ümumiləşmiş anlayış hesab edilir. Azərbaycan Respublikasının Konstitusiyasından göründüyü kimi, hüququn sahələri olduqca genişdir. Buraya daxildir: təhsil hüququ, yaşamaq hüququ, istirahət hüququ, əmək hüquqıı, mənzil toxıınulmazlığı hüququ, vətəndaşlıq hüququ, sağlamlığm qorunması hüququ, seçmək hüququ, seçilmək hüququ, azadlıq hüququ, mülkiyyət hüququ. bərabərlik hüququ, şəxsi toxunulmazlıq hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin qorunması hüququ və s.

Sadalanan sahələr üzrə bütün münasibətlər Konstitusiyanın müvafiq maddələrinə əsasən tənzimlənir. Məsələn, maddə 43-də mənzil hüququ belə ifadə olıınur: I. Heç kes yaşadığı mənzildən qanunsuz məhkum edilə bilməz. II. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil lıiiqıiqunu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür.

Digər hüquq normaları da beləcə müvafıq maddələrdə konkretləşdirilir.

Hüquq normalarının pozulması hallarının qarşısını almaq üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi mövcuddur. Konstitusiyada göstərilən hüquqların pozulması halları

ilə əlaqədar görülməli cəza tədbirləri Cinayət Məcəlləsində sadalanır. Məsələn, mənzil hüququnun pozulması üzrə nəzərdə tıtulan cəza tədbirlərindən biri belədir: Qanuni əsas olmadan, mənzildə yaşayan şəxsin ifadəsi ziddinə onun mənzilinə girmək üçün bir ilədək müddətə azadlıqdan məlırum etmə ilə və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Deməli, hüquq və onun normaları dövlət tərəfindən müəyyəndəşdirilir. Bu normalara riayət edilməsi məcburidir. Onların pozulması halları dövlət tərəfindən cəzalandırılır. Bu reallığı hər birimiz, o cümlədən gənc nəsil yaxşı bilməli vo möhkəm yadda saxlamalıdır.

Deyilənlər nəzərə alınarsa, hüquq anlayışına belə bir sadə, anlaqlı tərif vermək olar: adamlar arasında, vətəndaşlarla dövlət arasında münasibətləri tənzimləyən məcburi normalara hüquq deyilir.

*Hüquq tərbiyəsinin məzmunu.* Azərbaycan Respublikası Konstitusiyasının nəzərdə tıtduğu hüquqlar, azadlıqlar və vəzifələr hüquq tərbiyəsinin məzmununu təşkil edir.

Azadlıqlara aiddir: fıkir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplanmaq azadlığı, məlumat azadlığı, yaradıcılrq azadlığı və s.

Vətəndaşların əsas vəzifələrinə aiddir: vergilər və başqa dövlət ödənişləri, Vətənə sədaqət, dövlət rəmzlərinə hörmət, Vətəni müdafıə, tarix və mədəniyyət abidələrinin qorunması, ətraf mühitin qorunması, qanuna zidd işlərin icrasına yol verilməməsi, məsuliyyət və s.

Hüquq tərbiyəsi ilə məşğul olan hər bir şəxs (müəllim, valideyn və digər tərbiyəçi) ölkəmizdə qəbul olunmuş hüquqların, azadlıqlar və vəzifələrin nədən ibarət olduğunu bilməlidir. Və bundan sonra bildiklərini gənc nəslə konkret olaraq öyrətmək imkanı qazanir. Unutmaq olmaz ki, bir çox halda hüquq normalanndan hali olınamaq hüquq pozuntuları ilə nəticələnir.

*Hüquqi dövlət quruculuğunda hüquq tərbiyəsinin rolu.* Azərbaycan Respublikasında dövlət fəaliyyətinin istiqamətlərindən biri hüquqi dövlət qurmaqdır. Hiiquqi dövlətdə qanunun aliliyi təmin edilir. Bu o deməkdir ki, bütün

məsələlər yalnız mövcud qanunlar çərçivəsində, hüquq normalarına uyğun şəkildə həll olunur.

Cəmiyyətdə qanunun aliliyinə isə birdən-birə, özü də yalnız inzibati yolla nail olmaq çətindir. Burada müntəzəm tərbiyəvi iş aparmağa böyük ehtiyac dıyulur.

Gənc nəsil hüquqi dövlət quruculuğuna hazırlanmalıdır. Bunun başlıca yolu hüquq təıbiyəsidir. Gənc nəslin hüquq tərbiyəsi ailədən başlamalıdır. Qanunlara, hüquq normalarına hörmət etməkdə valideynlər öz övladlarına nümunə olmalıdır. Belə bir mühitdə onlar qanunlara hörmət hissini uşaqlarına müvəffəqiyyətlə aşılaya bilirlər. Nəvvab haqlı olaraq valideynlərə məsləhət görürdü: «Ovladına elm və ədəbi uşaqlıqdan öyrət, qayda-qanunları ona təlim et» (Mir Möhsün Nəvvab. Nəsihətnamə. Bakı, «Yazıçı», 1987, səh.30).

Gənc nəslin hüquq tərbiyəsi ümumtəhsil məktəbində davam etdirilməli, ali məktəbdə isə daha da dərinləşdirilməlidir.

Uşaqlann hüquq tərbiyəsində dövlət qanunları və hüquq normaları ilə yanaşı müdrik kəlamlardan da istifadə olunur. Bir çox lıalda xalq deyimləri də kara gəlir. Hüquq tərbiyəsi zamanı uşaqlarında insaf və vicdan hissləri oyadan valideynlərə haqq qazandırmaq lazımdır. Onlar, məsələn, bu cür deyimlərə əl atırlar: «İnsaf qanunların anasıdır», «Vicdan qanunlar qanunudur».

Ailə tərbiyəsində uşaqlar onu da yəqin etməlidirlər ki, hüquqi dövlətdə yalan danışmaq, başqasına böhtan atmaq təkcə əxlaq qaydalarını pozmaq kimi qiymətləndirilmir, bu cür hallara həm də hüquq pozuntusu kimi baxılır və cəzalandırılır.

Xalqın əxlaqı da, dövlətin qanunu da doğruçuluğa rəvac verir, onu təbliğ edir: «Doğruya zaval yoxdur, çəksələrmin divana» deyilir.

**2. Hüquq tərbiyəsinin vəzifələri.**

Hüquq tərbiyəsi qarşısında qoyulan əsas vəzifələr bunlardır: hüquqa və hüquq normalarına aid gənc nəsildə hissiyyatın və biliklərin formalaşdırılması; qanunçuluğa inamın artırılması; hüquq normalarına əməl edilməsi; qanunçıluğun pozulması hallarına qarşı barışmazlıq.

*Hüquqa və hüquq normalarına aid gənc nəsildə hissiyyatın yaradılnıası.* Hüquq tərbiyəsinin ilk mərhələsində hüquqa aid, hüquq normalarına aid uşaqlarda hissiyyat yaradılır. Uşaqlar anlamalıdırlar ki, cəmiyyətdə, o cümlədən adamlar arasında davranış əxlaq normaları ilə yanaşı, hüquq normalarına uyğun tənzimlənir. Hər bir uşaq hiss etməlidir ki, cəmiyyətdə hüquq normaları mövcuddur.

Hüquq tərbiyəsi gənc nəsildə hüquq normalarına dair hissiyyatı hüquq normalarına aid konkret biliklərə çevirməlidir. Gənc nəsil cəmiyyətdə hüquq normalarının varlığını nəinki duymalı. həm də bu normaların nələrdən ibarət olduğumu bihnəlidir. Bilməlidir ki, məsələn, hər hansı formada olursa olsun, müharibə təbliğatı aparmaq üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; yaxud, Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırmna beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; və ya əmək qabiliyyəti olmayan valideynlərin saxlanması üçün məhkəmə tərəfindən müəyyən edilmiş vəsaiti verməkdən qəsdən boyun qaçırma bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Hüquq normalarına aid bu cür konkret biliklər gəncliyin gözünü açır, onu ehtiyatlı davranmağa sövq edir.

*Qanunçuluğa inamın artırılması.* Hüquq tərbiyəsi əsasında gənc nəsil başa düşməlidir ki, hüquq normalarını bilmək və onlara əməl etmək cəmiyyət və əminamanlıq üçün vacibdir. Və əksinə, hüquq normalarına laqeyd qalmaq, yaxud onlara əməl etməmək cəmiyyətdə qarmaqarışıqlığa, özbaşınalığa, cəzasızlığa, əxlaqsızlığa səbəb olur.

Qoca Şərqin ən möhtəşəm tarixi abidələrindən biri olan «Avesta» problemin həmin cəhətinə diqqət yetirmişdir: «Yalançıları sevindirsəniz, doğruçuları kədərləndirmiş olarsınız».

Hüquq normalarına əməl etməyin zəruriliyini dərk edən hər bir şəxs nəticə olaraq Azərbaycan Respublikasının dövlətçiliyini, ictimai quruluşunu, onun siyasi və iqtisadi sistemini, mülkiyyəti, şəxsiyyəti, vətəndaşların hüquq və azadlıqlarını hər cür cinayətkar qəsdlərdən qorumuş olur.

*Hüquq normalarına əməl edilməsi.* Həyat faktları göstərir ki, hüquq normalarını bilmək və onlara əməl olunmasının zəruriliyini başa düşmək vacib olsa da, hələ kifayət deyil. Hüquq tərbiyəsi üzrə işi başa çatdırmaq üçün yeniyetmə və gənclər hüquq normalarına praktik şəkildə əməl edilməsi prosesinə qoşulmahdırlar. Onlar heç bir hüquq pozuntusuna yol verməməlidirlər.

Tədris müəssisəsində daxili nizamintizam qaydalarına tam əməl edilməsinə, tədris tapşırıqlarının şagirdlər (tələbələr) tərəfindən yüksək səviyyədə yerinə yetirilməsinə hüquq normalarına əməl edilməsinin bazası kimi baxılmalıdır. Tədris müəssisəsində daxili nizamintizam qaydalarını pozmağa meylli olan şagirdlər (tələbələr) arasında hüquq normalarına məhəl qoymayanlar çoxluq təşkil edirlər. Tədris müəssisəsində daxili intizam qaydalarına əməl edilmə dərəcəsi ilə hüquq normalarına əməl edilmə dərəcəsi arasındakı asılıhq nəzərə alındıqda hüquq tərbiyəsi zamanı daha çox uğur qazanmaq mümkün olur. Bir sözlə, gəncliyin hüquq fəallığını artırmaq, onu qanunçuluğun və birgə yaşayış qaydalarının mühafizəsində fəal iştirak etməyə hazırlamaq gərəkdir.

Qanunçuluğun pozulması hallarına qarşı barışmazlıq. Hüquq tərbiyəsi o vaxt başa çatmış hesab edilir ki, şagirdlər (tələbələr) nəinki hüquq normalarını bilsin və onlara əməl etsin; bundan əlavə, onlar qanunçuluğu qorumağı bacarsınlar, qanun pozuntularına qarşı barışmaz mövqe tutsunlar.

Sistemli, ardıcıl, planlı və məqsədyönlü hüquq tərbiyəsi görmüş yeniyetmə və gənclərin ictimai-siyasi görüş dairəsi xeyli genişlənir; beləlari cəmiyyətdə baş verən social-siyasi və iqtisadi hadisələrdən asanlıqla baş aça bilirlər. Ölkədə mövcud olan qanunları, hüquq normalarını bilən və hərəkətlərində, fəaliyyətlərində onları nəzərə alıb əməl edən şəxs özünü azad hiss edir, bəlalardan uzaq olur, alnı açıq, üzü ağ yaşayır.

Həyata keçirdiyi vəzifələri nəzərə alaraq hüquq tərbiyəsinə belə tərif vermək olar: adamlarda hüquq normalarına dair hissiyyatın, biliklərin və inamın, bu normalara əməl

etmək bacarığının, habelə onların pozulmasına qarşı barışmazlığın məqsədyönlü və planlı şəkildə formalaşdırılması prosesi hüquq tərbiyəsidir.

**3. Hüquq tərbiyəsinin yolları.**

Hüquq tərbiyəsi qarşısında duran vəzifələr aşağıdakı yollarla həyata keçirilir: Azərbaycan Respublikası dövlət sənədlərinin öyrənilməsi; ayrı-ayrı fənlərin tədrisi imkanlarından istifadə edilməsi; hüquq-mühafizə orqanlarının iş xüsusiyyətləri ilə tanışlıq; hüquq məsələləri ilə əlaqədar əsərin, filmin, teatr tamaşasının müzakirəsinin keçirilməsi: hüquq mövzusunda fotostendlərin tərtibi; «Gənc hüquqşünaslar» dərnəyinin təşkili; hüquq məsələlərinə həsr olunmuş sual-cavab gecələrinin, disputların və s. bu kimi tədbirlərin keçirilməsi.

*Hüquqla əlaqədar dövlət sənədlərinin öyrənilməsi.* Hüquqla əlaqədar dövlət sənədləri dedikdə Azərbaycan Respublikasının Konstitusiyası, Prezidentin fərmanları və Azərbaycan Respublikası Milli Məclisinin qərarları nəzərdə tutulur.

Azərbaycan Respublikasının hər bir vətəndaşı Azərbaycan Respublikasmın Konstitusiyasını bilməlidir. Çünki, əvvəala, Respublikanın Prezidentinin hər hansı fərmanı və ya sərəncamı Konstitusiyaya əsaslanır. İkincisi, Milli Məclisin qəbul etdiyi bütün qərarlar Konstitusiyaya uyğunlaşdırılır; üçüncüsü, müəssisə və təşkilatlar, habelə vətəndaşlar öz fəaliyyətlərində Konstitusiyanı əsas götürürlər. Azərbaycan Respublikasında Konstitusiyadankənar görülən iş qeyri-qanuni, yəni Konstitusiyaya zidd hesab edilir. Məhz bu səbəblərdən də Azərbaycan vətəndaşları, o cümlədən gənc nəsil Respublikamızın əsas qanunu hesab edilən Konstitusiyanı dərindən öyrənməyə borcludur.

Konstitusiya ilə tanışlıq gənc nəsli yalnız hüquqlara aid konkret bilikləri deyil, həm də ona Konstitusiyanın əsasmda duran köklü siyasi niyyətləri öyrədir: Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; vətəndaş cəmiyyətinin bərqərar edilməsinə

nail olmaq; xalqın iradəsinin ifadəçisi kimi qanunların aliliyini təmin edən hüqüqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əminamanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Təcrübədən aydın olur ki, Konstitusiyanı gənclərin fəsillər üzrə öyrənmələri yaxşı nəticə verir. Məlum olduğu kimi, Konstitusiya on fəsildən ibarətdir: xalq hakimiyyəti, dövlətin əsasları, insan və vətəndaş hüquqları və azadlıqları, vətəndaşların əsas vəzifələri, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, qanunvericilik sistemi.

Konstitusiyanın fəsilləri ümumi şəkildə nəzərdən keçiriləndən sonra ayrı-ayrılıqda fəsilləri öyrənilir.

Vaxtaşırı hüquqla əlaqədar Prezidentin müvafiq fərmanları və Milli Məclisin qərarları olur. Gəncliyin tərbiyəsində həmin sənədlərdən də istifadə edilir.

Ayrı-ayrı fənlərin imkanlarından istifadə edilməsi. Aşağı sinif şagirdləri «Ana dili» fənni ilə əlaqədar hüquq mühafizə orqanları: polis, prokurorluq və məhkəmə haqqında, cəmiyyətdə onların roluna dair ilkin məlumat alırlar.

V-VIII siniflərdə şagirdlər öz hərəkətləri üçün məsuliyyət daşımağa, ictimai birgə yaşayış qaydalarına əməl etməyə, hüquq normalarının pozulması hallarına qarşı çıxmağa qoşulurlar.

Yuxarı siniflərdə hüquq tərbiyəsi baxımından insan və cəmiyyət, tarix, iqtisadi coğrafiya fənlərinin imkanları daha genişdir. Həmin fənlər dövlət, cəmiyyət, siyasi sistem, Prezidentin fərmanları, Milli Məclisin qərarları vətəndaşların hüquqları və vəzifələri və s. məsələlər barədə şagirdlərin anlayışlarını xeyli zənginləşdirir.

Ali məktəbdə hüquq tərbiyəsi daha mütəşəkkil təşkil edilir. Pedaqoji təmayüllü ali məktəblərdə pedaqogika kursunun tədrisi zamanı tələbələr hüquq tərbiyəsi mövzusunu

öyrənirlər. Bundan əlavə, ali məktəblərdə «hüququn əsasları» adlı xüsusi kurs tədris edilir.

*Hüquq mühafizə orqanlarının iş xüsusiyyətləri ilə tanışlıq.* Gənc nəsil üçün aydın olmalıdır ki, hüquq-mühafızə orqanları deyəndə polis, prokurorluq, məhkəmə və təhlükəsizlik orqanları nəzərdə tutulur. Bu orqanlar hüquq normalarının keşiyində durur, onların pozulması qarşısını alır, hüquq pozuntularında günahkarları cəzalandırır.

Hüquq tərbiyəsi əsnasında gənclik polisin, prokurorluğun, məhkəmə və təhlükəsizlik orqanlarının iş xüsusiyyətlərini daha konkret təsəvvür etməyə başlayırlar. Hüquq mühafızə orqanlarının müvafiq işçilərini vaxtaşırı dəvət edən və tələbələr (şagirdlər) qarşısında onların çıxışlarını təşkil edən tədris müəssisələri var. Bu cür görüşlərdə onlar yəqin edirlər ki, məsələn, Azərbaycan Respublikasının prokurorluğu qanunların eyni cür və dürüst icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından şikayət verir. Yaxud məhkəmə Azərbaycan Respublikasında hakimiyyətin qollarından biridir, özü də məhkəmə hakimiyyəti adlanır. Məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Hakimlər heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından; habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

Hüquq məsələləri ilə əlaqədar əsərlərin, kino filmlərin və teatr tamaşalarının müzakirəsi. Hüquq məsələləri ilə bu və ya digər dərəcədə bağlı olan əsərlərimiz, film və teatrlarımız var. Tədris müəssisələri hüquq tərbiyəsində bu cür əsərlərdən imkan düşdükcə istifadə edir. İstifadə forması müxtəlifdir. Bəzi müəllimlər həmin əsərlərin oxunuşu, yaxud filmə və teatra baxışı əsasında müzakirələrini təşkil edirlər.

Müzakirəsi keçirilən bədii əsərlər arasmda bunlar da olur: M.F.Axundovun «Müdafiə vəkilləri» komediyası, S.Vurğunun «Ölüm kürsüsü» poeması, C.Əmirovun «Qara Volqa» romanı, İ.Şıxlının «Dəli Kür» romanı və s.

Hüquq məsələləri ilə əlaqədar olan fılmlərə «Dağlarda döyüş», «Arxadan vurulan zərbə», «Qaçaq Nəbi», «İstintaq» və başqaları misal göstərilə bilər.

Bədii əsər, film və ya teatr üzrə referat, yaxud kurs işi yazdırmaq halları da var. Dərnəklərin işində hüquq məsələlərinə dair şagirdlərin (tələbələrin) məruzələrinə də rast gəlmək olur.

*Hüquq mövzusunda fotostendlərin tərtibi.* Tərbiyə işində, xüsusən hüquq tərbiyəsində əyani təsir vasitəsi kimi fotostendin böyük rolu vardır. Bunu bilən müəllimlər zərərli adətlərin, o cümlədən papirosa, narkotik maddələrə, spirtli içkilərə aludəçiliyin acınacaqlı nəticələrini əyani şəkildə görməyə imkan verən fotostendlərin təşkilinə xüsusi diqqət yetirirlər. Faydalı cəhət budıır ki, fotostendlərin tərtibinə şagirdlər (tələbələr) də cəlb edilir.

Törətdikləri cinayətlərdən peşmançılıq keçirmək və bunu etiraf etmək halları barədə məlumatlar bəzən mətbuatda verilir. Yeniyetmə və gənclərə aid qəzet səhifələrində verilən bu cür materiallardan da fotomantaj düzəldilir.

«Gənc hüquqşünas» dərnəyinin təşkili. Polis, prokurorluq və məhkəmə işçilərindən bəziləri tədris müəssisələrində bu cür dərnəklər təşkil edirlər.

Dərnəklərin məşğələləri bir çox halda tədris müəssisəsində, bəzən də hüquq mühafızə orqanlarının özündə keçirilir. Dərnəyin üzvləri məhkəmə iclaslarından bəzilərinə dəvət olunurlar. Onlar belə dəməklərə böyük maraq göstərirlər. Respublikamızda müvəffəqiyyətlə fəaliyyət göstərən görkəmli hüquqşünasların bir qismi vaxtilə məhz həmin dəməklərin üzvləri olmuşdur.

Hüquq məsələləri üzrə sual-cavab gecələri, disputlar və sair tədbirlərin keçirilməsi.

Spirtli içkilərin və narkotik maddələrin qəbulu və cinayətkarlığın bəzi növləri ilə əlaqədar tədris müəssisələrində

sual-cavab gecələri, disputlar keçirilir. Bu cür tədbirlərə hüquqmühafizə orqanlarının səlahiyyətli nümayəndələri dəvət olunur. Tələbələrin (şagirdlərin) suallarına həmin mütəxəssislər cavab verir. Keçirilən disputlara hüquq-mühafizə orqanlarının nümayəndələri yekun vurur.

Hüquq tərbiyəsində beynəlxalq hüquq aktlarından istifadə. Şagirdlərin (tələbələrin) hüquq tərbiyəsində beynəlxalq hüquq aktlarından istifadə etmək halları vardır. Bu cür aktların öyrənilməsi zamanı şagirdlər (tələbələr) Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş hüquq normalarının beynəlxalq hüquq normalarına uyğun gəldiyini yəqin edirlər. Beynəlxalq hüquq aktları isə az deyil. Yalnız insan hüquqları ilə əlaqədar istifadə edilən bəzi beynəlxalq sənədlərin adlarını qeyd edək: «İnsan hüquqları haqqında 1948-ci il ümumi deklarasiyası»; «İnsan hüquqları haqqında 1966-cı il paktı»; «Soyqırımının, aparteidin, irqi ayrıseçkiliyin qadağan olunması və qarşısının alınması haqqında konvensiya»; «1975-ci il yekun aktı»; «Qadınlarla əlaqədar ayrı-seçkiliyin hər cür formasının ləğv edilməsi haqqında 1979-cu il konvensiyası», «Uşaq hüquqları Konvensiyası» UNİSEF, 1946-1996 və s.

Hüquq tərbiyəsinin müvəffəqiyyətini təmin edən amillər, hüquq tərbiyəsinin uğurla getməsinə təsir göstərən amillər çoxdur. Onlardan ikisini qeyd edək: tədris müəssisəsinin təşəbbüskarlığı, müəllimin səriştəliyi və ətraf mühitin təsiri.

Tədris müəssisəsi hüquq tərbiyəsinə xüsusi qayğı göstərdikdə və bu işi səriştəli müəllimlərə tapşırdıqda müvəffəqiyyətə bel bağlamaq olur. Hüquq tərbiyəsi başlı-başına buraxıldıqda, yalnız müəllimlərin təşəbbüsündən asılı qaldıqda kütləvi uğur qazanmaq çətinləşir. Odur ki, hüquq tərbiyəsi üzrə iş tədris müəssisəsinin fəaliyyət planında nəzərdə tutulmalıdır.

İctimai mühitin necəliyi də hüquq tərbiyəsinin keyfiyyətinə güclü təsir göstərir. Ölkədə, o cümlədən tədris müəssisəsində səlahiyyətli şəxslər, habelə hüquq-mühafizə orqanları işçiləri, müəllimlər yaxşı mənada nümunə olduqda, onların sözləri ilə əməlləri bir-birinə uyğun gəldikdə,

yəni mənəvi psixoloji mühit sağlam olduqda gənc nəslin hüquq tərbiyəsi müvəffəqiyyətli gedir. Qanunu, hüquq normalarını pozanlar vaxtında cəzalandırılmadıqda, əli əyrilər əməli saleh insanlardan yaxşı yaşadıqda, kəmsavadlılar savadlılara rəhbərlik etdikdə, adını müəllim və ya tərbiyəçi qoyan, hüquq keşiyində durmalı olan şəxslər göz qabağında qanunsuzluqlara yol verdikdə, günahsız qan axıdanlar ədalət məhkəməsinə çəkilmədikdə, xalq adından danışıb xalqın ehtiyaclarına məhəl qoymayanlar ifşa edilmədikdə, yəni nahaq haqqı üstələdikdə hüquq tərbiyəsində uğur qazanmaq xeyli çətinləşir.

Çalışmaq lazımdır ki, hüquq tərbiyəsi vəzifəsini öhdəsinə götürən şəxslər, öz imkanları daxilində, cəmiyyətimizdəki eybəcərliklərə qarşı mübarizə aparsınlar və bu mübarizlik ruhunu gənc nəslə də aşılasınlar.

**(«Azərbaycan məktəbi» jurnalı, 1988, №3)**

## 6. ƏMƏK TƏRBİYƏSİNİN NƏZƏRİYYƏSİ VƏ TƏCRÜBƏSİ HAQQINDA

«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında» Sov.İKP MK aprel (1984-cü il) plenumunda və on birinci çağırış SSRİ Ali Soveti birinci sessiyasında bəyənilmiş sənəddə böyük ictimai-siyasi əhəmiyyət kəsb edən vəzifələr, o cümlədən əmək tərbiyəsi sahəsində möhtəşəm vəzifələr irəli sürülmüşdür. Məktəbdə təlim və tərbiyə işini real istehsalatla əlaqələndirmək, şagird əməyini vaxtaşırı keçirilən tədbirdən müntəzəm tədbirə, məktəb həyatının ikinci dərəcəli ünsüründən ən başlıca ünsürlərindən birinə çevirmək nəzərdə tutulmuşdur. Sov.İKP MK-nın Baş katibi K.U.Çernenko yoldaş aprel (1984-cü il) plenumundakı məruzəsində tədris prosesinin yenidən qurulmasını, şagird əməyinin sahmana salınmasını təmin etməyin vacibliyini qeyd etmişdir. O demişdir: «...uşaqların başlıca əməyi, əlbəttə, təhsildir, elmin əsaslarına möhkəm yiyələnməkdir... İndi, xüsusilə gələcəkdə kommunizm quruculuğu-

nun bütün sahələrini öz işini yaxşı bilən, həm peşə, həm də intellekt baxımından daim inkişaf etməyə qadir olan adamlarla etibarlı şəkildə təmin etmək bunsuz mümkün deyildir».

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Gənclərin ümumi orta təhsilini daha da təkmilləşdirmək və ümumtəhsil məktəbinin iş şəraitini yaxşılaşdırmaq haqqında» qəbul etdiyi qərarda (aprel 1984-cü il) şagirdlərin təlim əməyinin səmərəliliyini artırmaq tədbirləri nəzərdə tutulmuşdur.

Tədris prosesinin yenidən qurulması, şagird əməyinin sahmana salınması necə başa düşülməlidir? Bu cür yeni vəzifələri təlim-tərbiyənin islahata qədərki təcrübəsi ilə, islahata qədərki anlayışları əsasında müvəffəqiyyətlə həll etmək mümkündürmü? Bizcə, yox, mümkün deyildir. Çünki əmək tərbiyəsi ilə əlaqədar bir çox mövcud pedaqoji anlayışlar və mövcud təcrübə yeni tələblərə, yeni vəzifələrə uyğun gəlmir.

Əmək tərbiyəsi sahəsində məktəblərin təcrübəsi göstərir ki, müəllimlərin, məktəb rəhbərlərinin, maarif şöbə işçilərinin xeyli hissəsi şagirdlərin əmək tərbiyəsinin hüdudlarını yalnız fiziki əmək sahəsi ilə məhdudlaşır, onların təlim əməyinə və zehni əməyinə əhəmiyyət vermir. Əmək tərbiyəsi təcrübəsi barədə mətbuat səhifələrində dərc olunmuş bəzi materiallarda yalnız məktəb məzunlarından neçəsinin kənddə qalıb işlədiklərindən, neçə hektar sahəni becərdiklərindən, neçə şagird istehsalat briqadası təşkil olunduğundan, pambıqçılıq, tingçilik, bağçılıq, meşəçilik, inşaat, maldarlıq, quşçuluq və s. manqaların işindən söhbət açılır. Buradan belə bir nəticə çıxarmaq olmaz ki, guya biz kənd məktəbləri məzunlarının kənddə qalıb işləmələrinin, şagird istehsalat briqadaları təşkil etməyin, şagirdlərin kənd təsərrüfat əməyinə qovuşdurulmasının tərəfdarı deyilik. Əsla! Şagirdlərin müxtəlif peşələrə, o cümlədən kənd təsərrüfat peşələrinə istiqamətləndirilməsi, onlarda kənd təsərrüfatının müxtəlif sahələrinə aid anlayışlar və vərdişlərin formalaşdırılması müasir şəraitdə müstəsna əhəmiyyət kəsb edir. Bu, məktəb sahəsindəki islahatın ən başlıca istiqamətlərindən biridir. Lakin bizi narahat edən

budur ki, əmək tərbiyəsi sahəsində aparılan işi və söhbəti müəllimlərimizin və metodistlərimizin, hətta mütəxəssis alimlərimizin bir qrupu şagirdlərin ancaq fiziki əməyinə müncər edir.

Səbəbi nədir ki, məktəb təcrübəsində əmək tərbiyəsi birtərəfli həll edilir, əmək tərbiyəsi yalnız fiziki əməyə müncər olunur? Nə üçün müəllimlərin və məktəb rəhbərlərinin böyük əksəriyyəti əmək tərbiyəsinin yeganə yolunu şagirdlərin fiziki əməyində görür? Bunun səbəblərindən birini pedaqoji ədəbiyyatda və müəllim kadrları hazırlanmasında yol verilən nöqsanlarda axtarmaq lazımdır. Məsələ burasındadır ki, müasir pedaqoji ədəbiyyatda əmək tərbiyəsi fiziki əməklə eyniləşdirilir; təlim əməyi, şagirdlərin zehni əməyi əmək tərbiyəsinə verilən təriflərdə nəzərə alınmır, təlim əməyinin, zehni əməyin tərbiyəvi imkanlarına o qədər də əhəmiyyət verilmir. Məsələn, rus dilində çap olunmuş pedaqoji lüğət məktəbdə şagird əməyini belə izah edir: «Məktəbdə əmək ümumtexniki, kənd təsərrüfatı və məişət-təsərrüfat əməyi sahəsində şagirdləri bilik, bacarıq və vərdişlər sistemi ilə silahlandıran tədris məşğələləri, habelə onlarda texniki təfəkkürün və quraşdırma yaradıcılığının inkişaf etdirilməsi, əməyə kommunist münasibəti tərbiyəsi deməkdir» (bax: . - , , 1960, səh. 493).

Göründüyü kimi, belə bir mötəbər pedaqoji mənbədə şagird əməyinə verilən tərif onun zehni əməyini və təlim əməyini nəzərə almamışdır. Bunu da əlavə etmək yerinə düşərdi ki, şagirdin «təlim əməyi», «zehni əməyi», «təlim fəaliyyəti» kimi vacib anlayışlar həmin pedaqoji lüğətə heç daxil edilməmişdir.

Pedaqoji institutlarda da əmək tərbiyəsi məsələləri birtərəfli tədris edilir. Pedaqoji institutlar üçün pedaqokika proqramında əmək tərbiyəsinin həyata keçirilməsi yolları kimi əsasən özünəxidmət əməyinin, məktəb emalatxanasında əmək təlimi məşğələlərinin, praktikumların, istehsalat təcrübəsinin, şagird istehsalat briqadalarında əməyin, başqa

sözlə, şagirdin fiziki əmək növlərinin adları çəkilir. Burada da təlim əməyi və şagirdlərin zehni əməyi kölgədə qalır.

Sual olunur, bəlkə bundan sonra da, yəni məktəb islahatı haqqında qanunun qəbulundan sonra da məktəbdə əmək tərbiyəsini fiziki əmək tərbiyəsi kimi başa düşmək, indiyə kimi olmuş təcrübə ilə barışmaq lazımdır? Bizdə möhkəm bir əqidə yaranmışdır ki, əmək tərbiyəsi sahəsində indiyə kimi kök salmış anlayışa və geniş yayılmış təcrübəyə tənqidi yanaşmaq və məktəb islahatı ilə əlaqədar olaraq həmin anlayışları və təcrübəni xeyli təkmilləşdirmək həyati zərurətə çevrilmişdir. Bu zərurət, hər şeydən əvvəl, Sov.İKP MK-nın son zamanlar aydın şəkildə ifadə etdiyi bir sıra müddəalarından irəli gəlir. Faydalı əmək, məhsuldar əmək, cəmiyyət üçün gərəkli əmək haqqında danışılarkən Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunda haqlı olaraq deyilmişdir: «Təlimi istehsalat əməyi ilə birləşdirmək yaxşı tərbiyə vasitəsidir. Faydalı əməyə vərdiş və məhəbbəti məktəbliyə aşılamaq xəttini möhkəm yeritmək lazımdır. Bu, fiziki və zehni əmək ola bilər, lakin hökmən əsl əmək – məhsuldar, cəmiyyətə gərəkli əmək olmalıdır».

Göründüyü kimi, Sov.İKP MK əvvəla, əməyə vərdiş və məhəbbəti şagirdlərə aşılamaq deyəndə təkcə fiziki əməyi deyil, bununla yanaşı zehni əməyi də nəzərdə tutmuşdur. İkincisi, zehni əməyi də fiziki əmək kimi eyni dərəcədə faydalı, cəmiyyət üçün gərəkli əmək hesab etmişdir; üçüncüsü, zehni əməyi də fiziki əmək qədər məhsuldar əmək saymağı lazım bilmişdir.

Diqqəti cəlb edən cəhətlərdən birisi budur ki, müzakirə etdiyimiz bu məsələdə Sov.İKP MK-nın aprel (1984-cü il) plenumu və SSRİ Ali Sovetinin 12 aprel 1984-cü il tarixli sessiyası Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun xəttini ardıcıl davam etdirmişdir. Sessiyanın materiallarında deyilir: «İndiki şagird nə qədər talantlı olsa da, kim olmağa – əkinçi və ya kosmonavt, inşaatçı və ya rəssam, poladəri-dən və ya həkim olmağa çalışsa da, – seçilmiş məqsədə yalnız öz əməyi ilə yol açmalıdır. O, xalqın rifahı üçün, Vətən rifahı üçün yalnız öz əməyi ilə bir vətəndaş kimi ucala

bilər. Sosializm – zəhmətkeşlər cəmiyyətidir; məhz əmək – istər fiziki, istərsə də zehni əmək burada adamların şərəfini də, ləyaqətini də, vəziyyətini də təyin edir».

Şagird əməyinin təşkilində biz Sov.İKP MK-nın və SSRİ Ali Soveti sessiyasının materiallarından çıxış etməliyik; indi şagird əməyini yalnız onun fiziki əməyinə müncər edə bilmərik, əmək tərbiyəsini isə fiziki əmək sahəsi ilə məhdudlaşdırmağa haqqımız yoxdur. Məktəbdə şagirdlərin fiziki əməyi də, zehni əməyi də diqqət mərkəzində olmalıdır; məktəbdə əmək tərbiyəsi həm fiziki əməyin, həm də zehni əməyin müxtəlif vasitələri ilə həyata keçirilməlidir.

Əmək tərbiyəsində şagirdlərin zehni əməyini nəzərə almamağın zərəri ola bilərmi? Bəli, olar! Əmək tərbiyəsində şagirdin təlim əməyini nəzərə almamaq ölkəmizin elmi-texniki potensialının azalmasına gətirib çıxara bilər. Halbuki, müasir dövrdə xalq təsərrüfatının sonrakı inkişafı üçün elmi-texniki tərəqqiyə Sov.İKP MK və Sovet hökuməti müstəsna əhəmiyyət verir. Sov.İKP MK-nın Baş katibi K.U.Çernenko yoldaş seçicilərlə görüş zamanı demişdir: «Biz gərək xalq təsərrüfatının bütün sahələrini elmin və texnikanın müasir nailiyyətləri əsasında tez və müntəzəm yeniləşdirək. Bu, bizim ən köklü vəzifələrimizdən biridir».

Onu da nəzərə almalıyıq ki, maddi nemətlər istehsalı sahəsində olduğu kimi, elm və texnikanın, ədəbiyyat, incəsənət və arxitekturanın coşğun inkişafını təmin etmək məqsədi ilə ölkəmizdə hər il dövlət mükafatları laureatları müəyyənləşdirilir.

Biz belə bir cəhəti də unuda bilmərik: islahat sovet məktəbini ona istiqamətləndirmişdir ki, birtərəfli başa düşülən əmək tərbiyəsini deyil, məhz fiziki əməklə zehni əməyi üzvi şəkildə uzlaşdıran əmək tərbiyəsini gücləndirsin; nəzərdə tutulduğu kimi, bu cür başa düşülən islahat Gənclərin hamılıqla ümumi orta təhsilini hamılıqla peşə təhsili ilə tamamlamalı və ona keçidi təmin etməlidir. Belə bir vəzifə qoyulur ki, bütün gənclər, o cümlədən ümumtəhsil məktəblərinin məzunları öz əmək fəaliyyətlərinə başlayanadək müəyyən peşəyə yiyələnsinlər.

SSRİ Ali Soveti sessiyasının materiallarında deyildiyi kimi, islahatın həyata keçirilməsi sayəsində sovet məktəbinin inkişaf dialektikası daha qabarıq şəkildə özünü göstərməlidir: şagirdlərin bütün əmək və peşə hazırlığı, ümumtəhsil hazırlığının köklü şəkildə daha da yaxşılaşdırılması zəminində qurulacaqdır. Müəyyən peşəyə yiyələnməsi şagird üçün həyat yolunu seçmək imkanlarını genişləndirməlidir. Bu isə şagirdlərin peşə hazırlığı ilə politexnik hazırlığını da düzgün uzlaşdırmağı nəzərdə tutur; ümumtəhsil, politexnik və peşə hazırlığının bir-birini tamamlaması və bir-birini şərtləndirməsi elmi-texniki tərəqqinin müasir tempinə daha çox uyğun gəlir. Belə şəraitdə sovet adamı istehsalat sahəsində, əməkdə baş verən dəyişikliklərə, qovuşuq peşələrə, hətta tamam yeni peşələrə, daim özünü təkmilləşdirməyə hazır olmalıdır.

Bu cür ciddi, yeni sosial vəzifələrin öhdəsindən isə yalnız fiziki əməklə gəlmək qeyri-mümkündür.

Fiziki əməklə zehni əməyi, ümumi orta təhsillə politexnik və peşə təhsilini üzvi şəkildə birləşdirməyi nəzərdə tutan islahatın həyata keçirilməsi sayəsində sovet cəmiyyətinin hər yeni nəsli təhsilin, ümumi mədəniyyətin, peşə hazırlığının və vətəndaşlıq fəallığının daha yüksək səviyyəsinə qalxmalıdır.

Gənclərin həyata, məhsuldar əməyə hazırlanmasını, onun əmək tərbiyəsini bir də ona görə yalnız fiziki əməyin üzərinə atmaq olmaz ki, islahatın bir sıra digər vacib məsələlərinin həlli üçün şagirdlərin zehni əməyinin, onların təlim əməyinin də geniş imkanlarından istifadə edilməlidir. Sov.İKP MK-nın Baş katibi K.U.Çernenko yoldaş aprel (1984-cü il) plenumunda demişdir ki, məktəbin vəzifəsi şagirdlərdə Marksist-Leninçi əqidənin, müstəqil, yaradıçı təfəkkürün formalaşmasını təmin etməlidir, sosialist Vətəninin müqəddəratı üçün öz məsuliyyətini başa düşmək şüurunu onlarda inkişaf etdirməlidir. Şagirdlər nəinki yaşlı nəsillərin təcrübəsini mənimsəməlidir, həm də onu öz əməlləri, öz nailiyyətləri ilə zənginləşdirməlidir.

Fiziki əmək və əmək təlimi yaxşı halda yaşlıların əmək təcrübəsini, mövcud təcrübəni öyrənməyə imkan verir;

əməyə yaradıçı münasibəti, yaşlıların əmək təcrübəsini öz əməlləri ilə daha da zənginləşdirmək qabiliyyətini uşaqlarda yalnız mövcud fiziki əmək bacarıqları və vərdişləri ilə inkişaf etdirmək mümkün deyildir. Bundan ötrü məktəbdə daha geniş miqyasda iş aparılmalıdır. Bu cəhətdən təlimin, xüsusən təlim əməyinin bütün imkanlarından maksimum dərəcədə istifadə olunmalıdır. Çünki təlim əməyi şagirdin başlıca fəaliyyət sahəsidir. Əmək tərbiyəsi problemini nəzəri cəhətdən düzgün başa düşmək üçün və əməli cəhətdən müvəffəqiyyətlə həll etmək üçün biz Sov.İKP MK-nın aprel (1984-cü il) plenumunun müəyyənləşdirdiyi istiqaməti əsas kötürməliyik. həmin plenumda isə çox aydın şəkildə deyilmişdir: «Şagirdlərin gücü çatacaq məhsuldar əmək vasitəsilə tərbiyəsinin prinsipial əhəmiyyətə malik olmasına baxmayaraq, ona xüsusi diqqət yetirilməsi belə bir həqiqəti aradan qaldırmır ki, uşaqların başlıca əməyi təlimdir, elmlərin əsaslarına möhkəm yiyələnməkdir. Buradan da məktəbdə bütün ümumtəhsil fənlərinin, aydındır ki, o cümlədən humanitar fənlərin tədrisini yaxşılaşdırmaq tələbi irəli gəlir».

Məhz bu cür geniş mənada başa düşülən əmək və əmək tərbiyəsi məktəb qarşısında qoyulmuş yeni və ciddi vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlməyə imkan verir, elmi-texniki tərəqqinin müasir nəhəng axınını nəzərə ala bilər, əhalinin ümumi mədəniyyətinin, xüsusən əmək mədəniyyətinin sonrakı inkişafına güclü təkan verə bilər.

Təlim əməyi ilə əlaqədar aşağı siniflərdən formalaşmalı olan işgüzarlıq, işləmək bacarığı və vərdişi nəinki yalnız əmək tərbiyəsinin, məktəbdə, ümumiyyətlə, təlim-tərbiyənin səviyyəsini islahatı tələbləri səviyyəsinə qaldırmağın ən etibarlı vasitələrindən və şərtlərindən biridir. Bu ehtiyat mənbəyindən istifadə olunması, habelə əmək tərbiyəsinin məktəbdə təlim əməyindən başlaması əmək təliminin də səmərəliliyini artırmağa xeyli kömək edər. Təlim tapşırıqlarını daim vaxtında, yüksək səviyyədə icra etməyə alışan şagirdlər, təlim intizamına müntəzəm əməl edən şagirdlər əmək təlimi məşğələlərində, sonralar isə istehsalatda böyük müvəffəqiyyətlər qazanarlar.

Deyilənlər göstərir ki, şagird əməyi və əmək tərbiyəsi anlayışlarını təkmilləşdirmək lazımdır; şagird əməyini yalnız fiziki əməklə məhdudlaşdırmaq ciddi nöqsanlara gətirib çıxarır. Məktəbdə şagird əməyi həm onun təlim əməyini, həm də fiziki əməyini nəzərdə tutmalıdır. Təlim əməyi şagirdin başlıca əməyi olduğundan və tədris planında vaxt büdcəsinin böyük əksəriyyətini əhatə etdiyindən, onun imkanlarından əmək tərbiyəsində geniş istifadə olunmalıdır. Şagirdlərin əmək tərbiyəsində onların fiziki əməyi ilə zehni əməyi arasında qarşılıqlı əlaqə diqqət mərkəzində durmalıdır.

Biz əminik ki, əmək tərbiyəsi təcrübəsini və nəzəriyyəsini təkmilləşdirmək, şagirdlərin zehni əməyinə diqqəti gücləndirmək və təlim əməyinin tərbiyəvi imkanlarından maksimum dərəcədə istifadə etmək məktəb haqqında islahatın daha müvəffəqiyyətlə həyata keçirilməsinə kömək edəcəkdir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1984, №9)**

## 7. MÜSTƏQİLLİK ŞƏRAİTİNDƏ FİZİKİ TƏRBİYƏNİN AKTUALLIĞI

### 1. Fiziki tərbiyənin mahiyyəti, əhəmiyyəti və vəzifələri.

*Fiziki tərbiyənin mahiyyəti.* İndi fiziki tərbiyəyə pedaqoji prosesin tərkib hissəsi kimi baxılır. Fiziki tərbiyənin başlıca məqsədi gənc nəslin sağlam, nikbin, gümrah böyüməsinə xidmət etməkdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində fiziki cəhətdən möhkəm olan gənclərə ehtiyac xeyli artmışdır.

Azərbaycan xalqı tarixən gənc nəslin sağlam böyüməsinə xüsusi diqqət yetİrmişdir. Bu qiymət hətta aforizm şəklinə də salınmışdır: «Maya budlu arvad al, nər qollu oğul doğsun».

Qızın özü və valideynləri də oğlana razılıq verməzdən əvvəl onun yalnız ağlını, nəsil-nəcabətini, qohumluq dərəcəsini, maddi imkanını deyil, həm də sağlamlığını, hünərini nəzərə almışlar. Evlənməzdən əvvəl oğlanı müxtəlif sınağa

çəkmək halları «Kitabi-Dədə Qorqud» dastanında geniş təsvir olunur.

İndi də bu ənənə davam edir.

Fiziki sağlamlığı çox qiymətli nemət hesab edən xalqımız düşünür: «Sağlıq ən böyük varlıqdır». Çünki cansağlığı olmayandan sonra heç bir şeyin, o cümlədən ləl-cəvahiratın, var-dövlətin əhəmiyyəti yoxdur: «Neynirəm o qızıl teşti ki, içinə qan qusam». Xalqımız can sağlığını var-dövlətdən üstün tutur və öz fikrini aydın şəkildə həm də belə ifadə edir: «Uca-uca dağlar başı qarlı da olar, qarsız da, igidin canı sağ olsun, varlı da olar, varsız da.

*Fiziki tərbiyənin əhəmiyyəti.* Sağlamlıqda, vətənin müdafiəsində, əməkdə, ağılda fiziki tərbiyənin böyük əhəmiyyəti var.

Fiziki tərbiyə sağlamlığın etibarlı vasitəsidir. Fiziki tərbiyə ilə əhatə olunan şəxslər, adətən, bədəncə dözümlü olurlar. Fiziki tərbiyənin tələblərinə əməl edən şəxslərin əzələləri möhkəmlənir, ürək-damar sisteminin fəaliyyəti normallaşır. İntensiv fiziki hərəkət tənəffüs sistemini möhkəmləndirir, qanın oksigenlə təchizini yaxşılaşdırır, bədəndə maddələr mübadiləsini sahmana salır. Ən vacibi həm də budur ki, ətraf mühitlə orqanizmin qarşılıqlı əlaqəsində aparıçı rol oynayan ali sinir sistemi kamilləşir. Nəticədə bizi əhatə edən mühitin zərərli təsirlərinə, yoluxucu xəstəliklərə orqanizmin müqaviməti qat-qat artır.

Bədəncə möhkəm olan şəxsin əmək fəaliyyəti artır, əmək məhsuldarlığı yüksəlir. Bu fikirlər tələbələrə (şagirdlərə) də aiddir. Fiziki cəhətdən zəif olan tələbələr tez-tez xəstələnir, daha çox dərs buraxır və adətən təlimdə geriləyirlər. Burada fiziki tərbiyə tələbələrin, şagirdlərin köməyinə gəlir, fiziki kamilliyə, fiziki inkişafın əsaslarını mənimsəməyə olan ehtiyaclarını ödəyir, onların sanitar-gigiyenik biliklərini, bacarıq və vərdişlərini artırır.

Əxlaqi keyfiyyətlərin kamilləşməsində, ağılın yetkinləşməsində, hafizənin və digər psixoloji proses və xüsusiyyətlərin inkişafında fiziki tərbiyə az rol oynamır. Öz sağlamlığını möhkəmləndirən, idmanın bu və ya digər növü ilə

intensiv məşğul olan şəxslər vətənini şöhrətləndirmək qayğısına qalırlar, iradi cəhətdən möhkəm olurlar.

Vətənin müdafiəsində fiziki tərbiyənin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qorumağa qadir olan oğlan və qızlar başqa keyfiyyətləri ilə yanaşı, fiziki cəhətdən güclü, çevik, dözümlü, elastik, sürətli olmalı, fiziki bacarıq və vərdişlərlə silahlanmalıdır. Fiziki tərbiyənin qayəsi məhz həmin keyfiyyətləri gənc nəsildə formalaşdırmaqdan ibarətdir.

*Fiziki tərbiyənin vəzifələri.* Fiziki tərbiyə Pedaqoji prosesin tərkib hissəsi olduğundan, ümumi vəzifələrlə yanaşı, spesifik vəzifələr də yerinə yetirir. Fiziki tərbiyənin həyata keçirdiyi başlıca spesifik vəzifələr bunlardır: fiziki keyfiyyətlərin formalaşdırılması, fiziki bacarıqların inkişaf etdirilməsi və gigiyenik bilik və bacarıqların mənimsənilməsi.

*Fiziki bacarıqlar* deyəndə həyat və fəaliyyət üçün zəruri olan düzgün yerimək, qaçmaq, uzununa və hündürlüyə tullanmaq, çayda, göldə və ya dənizdə üzmək, dırmanmaq, velosiped, motosiklet və ya avtomobil sürmək, konkidə və ya xizəklə sürüşmək, qayıq sürmək, güləşmək, futbol, voleybol və ya basketbol oynamaq, gimnastik alətlərdə düzgün hərəkət etmək və s. bacarıqlar nəzərdə tutulur.

*Fiziki keyfiyyətlər* fiziki bacarıqlardan ayrılmazdır. Onlar bir-birini tamamlayır və birlikdə fiziki kamilliyi əmələ kətirir. Fiziki keyfiyyətlər arasında daha geniş istifadə olunanları aşağıdakılardır: dözümlülük, cəldlik, çeviklik, güclülük, elastiklik, sürətlilik.

*Dözümlülük* – içrası adi qaydadan fərqlənərək uzun müddət tələb edən fəaliyyətə davam gətirməkdir. Suyun altında uzun müddət nəfəs almadan qalmağa dözmək, yaxud uzun müddət fasiləsiz qaçmağa tab gətirmək dözümlülüyə misal ola bilər.

*Cəldlik* – hər hansı işi və ya hərəkəti bir anda, ani olaraq icra etməkdir. Məsələn, tərəddüd etmədən təyyarədən paraşütla tullanmaq, bir göz qırpımındaca gülləni tüfəngə vermək, bir anda hədəfi nişan alıb vurmaq cəldliyə misal ola bilər.

*Çeviklik* – əsasən orqanizm əzalarını (qolları, qıçları, başı, bədəni) istənilən anda istənilən tərəfə yönəltməkdir. Məsələn, müharibə zamanı düşmənə atəş açan kimi başı gizlətmək, yaxud gözlənilmədən avtomobil təhlükəsi yarananda ayağı və ya bədəni ani olaraq yana çəkmək çeviklik nümunəsidir.

*Guclüluk* – böyük əzələ gərginliyi hesabına hər hansı bir maneəni aradan qaldırmaq, hər hansı işi görməkdir. Ağır yükü qaldırmaq, onu xeyli aparmaq, güləşdə məğlub olmamaq üçün gərgin müqavimət göstərmək və s. güclülüyə misal ola bilər.

*Elastiklik* – bədənə istənilən vaxt istənilən formanı verməkdir. Bir əlin üstündə fırlanmaq, ensiz bir yerdən sivişib keçmək, ayaqları başın arxasında çarpazlaşdırmaq, bədənə yuvarlaq forma vermək və s. elastikliyə misal ola bilər.

*Sürət* – hər hansı işi və ya hərəkəti mümkün qədər qısa vaxtda həyata keçirməkdir. Eyni məsafəni hamıdan tez qət etmək, misalı başqalarından tez həll etmək, qoyunun yununu daha tez qırxmaq, məhsulu daha tez istehsal etmək və s. sürət anlayışının mahiyyətini açan nümunələrdir.

*Gigiyenik bilik və bacarıqlar.* Fiziki tərbiyənin həyata keçirdiyi vəzifələrdən biri də gigiyenik bilik və bacarıqları gənc nəslə mənimsətməkdən ibarətdir. Gigiyenik bilik deyəndə bədən təmizliyinə aid biliklər nəzərdə tutulur. Yeməkdən əvvəl əlləri, səhərlər dişləri, vaxtlı-vaxtında saçları yumağın, vaxtaşırı yuyunmağın, dırnaqları təmiz saxlamağın zəruriliyinə və s.-yə aid olan biliklər gigiyenik biliklərə aiddir. Həmin biliklərə adamın şəxsi həyatında əməl etməsi Gigiyenik bacarıqlardır. Aydındır ki, fiziki bacarıq və vərdişlər məqsədyönlü, planlı şəkildə formalaşdırılır.

Sadalanan vəzifələrin yerinə yetirilməsi elə fiziki tərbiyə deməkdir; yəni, fiziki bacarıqların, keyfiyyətlərin, gigiyenik bilik və bacarıqların adamlara məqsədyönlü və planlı surətdə aşılanması prosesi fiziki tərbiyədir.

**2. Fiziki tərbiyənin yolları və vasitələri.**

Fiziki tərbiyə qarşısında duran vəzifələr bir sıra yollar və vasitələrlə həyata keçirilir. Fiziki tərbiyənin yolları: səhər gimnastikası, bədən tərbiyəsi məşğələləri, idman oyunları,

milli və mütəhərrik oyunlar. Fiziki tərbiyənin vasitələri: gün rejiminə əməl edilməsi, turizm, təbii amillərdən (hava, günəş və sudan) istifadə, zərərli adətlərə qarşı mübarizə,

*Səhər gimnastikası.* Özünə qiymət verən, sağlamlığın qədrini bilən hər kəs səhər gimnastikası ilə məşğul olur. Bu cür yaşlılar öz uşaqlarını da səhər gimnastikasına alışdırır. Səhər gimnastikası idman alətləri ilə də, alətlərsiz də mümkündür.

Səhər gimnastikası hamıya, o cümlədən şagirdlərə də aiddir. Yataqxanada və ya ailədə yaşamağından asılı olmayaraq tələbələr səhər gimnastikasını adətə çevirməlidirlər.

Dərs başlayana qədər şagirdlərin səhər gimnastikasını təşkil edən məktəblərin təcrübəsini geniş yaymaq lazımdır.

*Bədən tərbiyəsi məşqələləri.* Məlum olduğu kimi təhsil müəssisələrinin tədris planlarında bədən tərbiyəsi bir fənn kimi nəzərdə tutulur. Bədən tərbiyəsi məşğələləri yaş dövrləri üzrə təşkil edilir və dərəcələrə bölünür. Birinci dərəcə «Yürüşə hazıram» adlanır və ibtidai məktəb şagirdlərini (6-9 yaşlı uşaqları), ikinci dərəcə «cəsurlar və cəldlər» adlanır və V-VII sinif şagirdlərini, üçüncü dərəcə «İdman sahəsində əvəzedicilər» adlanır və VIII-IX sinif şagirdlərini, dördüncü dərəcə «Qüvvət və igidlik» adlanır və X-XI sinif şagirdlərini əhatə edir.

Fiziki tərbiyənin üsulları və təşkili formaları arasında bədən tərbiyəsi xüsusi əhəmiyyət kəsb edir. Çünki, əvvəla, bədən tərbiyəsi məşğələsi dərs cədvəli üzrə hər həftə müntəzəm təşkil edilir; ikincisi bu məşğələlərə istisnasız olaraq bütün oğlan və qızlar cəlb olunur; üçüncüsü, oğlan və qızların məşğələlərinə müəllimin pedaqoji rəhbərliyi təmin edilir.

*Gün rejiminə əməl edilməsi.* Gün rejimi hamı üçün müyəssərdir. Adamın fəaliyyət növlərinin hər gün eyni vaxtda, eyni ardıcıllıqda təkrarı gün rejimidir. hər gün eyni vaxtda yuxudan durmaq, səhər gimnastikası ilə məşğul olmaq, yuyunmaq, yemək, məktəbə (instituta) və ya işə getmək, nahar etmək, maraq üzrə məşğul olmaq, ədəbiyyat oxumaq, şam yeməyi, yatmaq gün rejiminin tərkib hissələridir.

Gün rejimi tərtib etmək, ona müntəzəm əməl etmək sağlamlığın rəhnidir. Rejimə riayət edən şəxsin daxili orqanları,

xüsusən həzm orqanları və ali sinir sistemi tam normal fəaliyyət göstərir.

Ulularımız bir sıra gigiyena qaydaları barədə faydalı məsləhətlər vermişlər. Məsələn, yatmaqla əlaqədar Əvhədi yazırdı:

*«İşin yatmaq olsa ölmüş kimisən,*

*Qəlbən diri olar oyaq qalanlar».* (Marağalı Əvhədi. Cami-Çəm. Bakı, «Azərnəşr», 1970, səh.161)

Tusi onun səbəbini açaraq xatırladırdı ki, «Çox yatmaq zehni kütləşdirər, hafizəni öldürər, bədəni lırtlaşdırar, insanı süst edər» (N.Tusi. Əxlaqi-Nasiri. Bakı, «Elm», 1980, səh.159).

Gün rejiminin ünsürlərindən biri kimi, yemək tərzi barədə müdriklərimizin bü gün də əhəmiyyətini saxlayan nəsihətləri vardır. Məsələn, ölməz Nizami öyrədir:

*«Az yeyib çox dincəlmək məziyyətdir insana,*

*Çox yemək narahatlıq, əziyyətdir insana».* (Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, «Yazıçı», 1951, səh. 103)

Adam başqa cəhətlərdə olduğu kimi, qidalanmaqda özünü idarə etməyi bacarsın Gərək nə istəyirsə onu yox, nə lazımdırsa və nə qədər faydalıdırsa, o qədər də yesin. Buna el arasında nəfsi boğmaq deyərlər. Adam nəfsin qulu olmamalıdır. Atalar gözəl deyib: «Nəfs başdan aşağıdır».

*İdman.* İdman fiziki tərbiyənin təsirli yollarından biridir. Bədəni möhkəmləndirmək üçün onun istifadə olunan növləri çoxdur: futbol, voleybol, basketbol, ağırlıq qaldırma, güləş, üzgüçülük, ox atmaq, qılınc oynatmaq, yüngül atletikanın müxtəlif növləri, tennis, dama, şahmat, badminton və s.

Gəncliyin sərəncamında bir çox idman müəssisələri var: uşaqlar və gənclər üçün idman sarayı, uşaq stadionu, uşaq-gənclər idman məktəbi, uşaq gənclər fiziki hazırlıq klubu və s.

İdmanın sadalanan və adları çəkilməyən növlərinin xeyli hissəsi tədris müəssisələrində təşkil edilir. Uşaqların, yeniyetmə və gənclərin bir çoxu maraq və imkanlarına uyğun gələn bu və ya digər idman növündə məmnuniyyətlə fəaliyyət göstərir. Təəssüf ki, gəncliyin bir qismi idmanın heç bir növündə iştirak etmir və bununla da öz sağlamlığının

qayğısına qalmır. Halbuki peyğəmbər kəlamlarında da idmanla məşğul olmağın vacibliyi dönə-dönə qeyd edilir: «Oğluna üzməyi, ox atmağı öyrətmək... atanın boynuna düşən vəzifələrdəndir». «Ox atmaqla məşğul olmaq asudə vaxtın ən xeyirlisidir».

*Oyunlar.* Orqanizmin möhkəmləndirilməsində, bir sıra faydalı əxlaqi keyfiyyətlərin formalaşdırılmasında oyunların, o cümlədən milli oyunların böyük əhəmiyyəti vardır. Nəsildən-nəslə ötürülən bu cür milli oyunlarımız isə yetərincədir: «Vur nağara, çıx qırağa», «Əl üstə kimin əli?», «Bənövşə bəndə düşə», «Gizlənpaç», «Dəsmal aldı qaç», «Çiling ağac», «Dirədəymə», «Beş daş», «Ustdən hoppanma», «Evcik-evcik» və s. Həmin oyunlar həm fiziki bacarıqların və keyfiyyətlərin formalaşmasına, həm də ətraf mühiti öyrənməyə, görüş dairəsinin genişlənməsinə kömək edir.

Uşaqlar yeniyetməliyə və xüsusən gəncliyə qədəm qoyduqca, gərginliyi və mürəkkəbliyi ilə fərqlənən xalq oyunlarına maraq göstərirlər. Bu oyunlar arasında geniş yayılanları bunlardır: hündürlüyə və uzununa tullanmaq, qurşaq tutmaq, güləşmək, əllə və ya sapandlauzağa daş atmaq nişana qoyub vurmaq, suda üzmək, qaçış üzrə yarışmaq, qılınc oynatmaq, at çapmaq (çovqan oyunu, papaq oyunu, yaylıq oyunu və s.). Bu cür milli oyunlar gənclərimizdə cəsurluq, fəallıq, çeviklik, döyüşmək və müdafiə olunmaq bacarıqları, dözümlülük, sərrastlıq, gümrahlıq, zövq kimi faydalı keyfiyyətləri formalaşdırır. Bu səbəbdən də uşaqların, yeniyetmə və gənclərin milli oyunlara cəlb edilməsi ümumxalq qayğısı ilə əhatə olunmalıdır.

*Turizm.* Turizm fransızca gəzinti, səfər etməkdir. Azərbaycan dilində də həmin mənada işlədilir. Turizm adamın fiziki inkişafına yardımla yanaşı, doğma təbiətlə, vətənimizin görməli yerləri ilə tanış edir, əhvalını yaxşılaşdırır, müşahidəçilik qabiliyyətini gücləndirir.

Bütün tədris müəssisələri fiziki tərbiyə vasitəsi kimi turizmdən bu və ya digər dərəcədə istifadə edir. Bundan əlavə, yeniyetmə və gənclər üçün xüsusi turizm təşkilatları

da fəaliyyət göstərir: uşaqların və gənclərin turizm, diyarşünaslıq və ekskursiya mərkəzi, gənc turistlər stansiyası və s.

Hər bir gənc bu cür imkanlardan hali olmalı və onlardan -istifadə etməlidir. Hələ neçə əsr bundan əvvəl böyük Tusi məsləhət görürdü: «Çox yerimək, hərəkət etmək, at minmək» lazımdır. (Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, Elm», 1980, səh.159)

*Təbii amillər.* Təbii amillərin - suyun, havanın və günəşin sağlamlığa bilavasitə dəxli var.

Təmiz, içməli suyun orqanizm üçün əhəmiyyətini isbat etməyə ehtiyaç yoxdur. Çirkli su isə xəstəlik mənbəyidir. Vaxtlı-vaxtında çimmək, səhərlər bədəni yaş dəsmalla silmək, sağlamlıq üçün zəruridir. Şəxsi təmizlik gümrahlıq deməkdir. Dişləri və ağzı su ilə yuyub təmiz saxlamaq, saça qulluq etmək, təmiz və səliqəli geyinmək insan şəxsiyyətini səciyyələndirən keyfiyyətlərdəndir. İslam etiqadına görə müsəlmanlıq təmizlik əsasında qoyulub. Peyğəmbər kəlamıdır: «Vücudu təmiz olaraq yatan adam ibadətlə məşğul olan, oruc tutana bənzər», «Təmiz olmayan şeylər günahdır, haramdır.

Atalar da sağlamlıq üçün təmizliyi yüksək dəyərləndiriblər: «Azar təmizlikdən bezardır».

Təmiz hava da təmiz su qədər insan sağlamlığı üçün həyat əhəmiyyətinə malikdir. Odur ki, təcrübəli insanlar yaşadıqları və işlədikləri otaqların havasını tez-tez dəyişir, saflaşdırırlar. Açıq havada gəzintilər və səyahətlərdən başlıca məqsəd orqanizmi möhkəmləndirmək, qanın tərkibində oksigeni artırmaqdır. Təsadüfi deyildir ki, ata-babalarımız xalq oyunlarını açıq havada, həm də musiqi sədalarının müşayiətində keçirirmişlər. Nəticədə hava, fiziki və estetik amillər bir-birini tamamlamışdır.

Su və hava amilləri günəş amili ilə birləşdikdə insan orqanizminə sağlamlaşdırıcı təsiri qat-qat artır. Bu səbəbdən də adamlar xüsusən yay aylarında çay, göl və dəniz kənarlarına tez-tez gedir və günəş vannası qəbul edirlər.

Yaşayış və iş yerlərində də günəş şüaları qiymətləndirilir. Adamlar çalışır ki, olduqları otaqlara mümgün qədər çox

şüa düşsün. Günəş şüası düşməyən mənzildə xəstəlik imkanı çoxalır. Bu fikir atalar sözlərində də nəzərə alınmışdır: «Günəş girməyən evə həkim tez-tez girər».

Həmin gigiyenik qaydalar tədris müəssisələrində də nəzərə alınmalıdır: sinif otaqlarına (auditoriyalara) günəş şüaları düşməli, havası təmiz olmalı, bina su ilə normal təmin edilməlidir.

*Zərərli adətlərə qarşı mubarizə.* Fiziki tərbiyə qarşısında duran vəzifələrin öhdəsindən tam gəlmək üçün sağlamlığa ziyan vuran alətləri dəf etmək zəruridir. Sağlamlığın düşmənləri arasında alkaqollu içkiləri, narkomaniyanı, qəm-qüssəni, əsəbiliyi, düşünülməmiş qidalanmağı qeyd etmək vacibdir.

Xəstəlik törədən va bununla da sağlamlığa xələl gətirən amillərdən uzaq olmağın zəruriliyi bir sıra elm və ədəbiyyat xadimləri tərəfindən qeyd edilmişdir. Onlardan biri Çamidir:

*«Xəstəlik törədən amilləri sən,*
*Çalış ki, özündən kənar edəsən.*
*Uzaq ol dərmandan, acmamış yemə,*
*Doymamış əlini götür süfrədən».* (Əbdürrəhman Cami. Baharistan. Bakı, «Azərnəşr», 1964, səh. 21)

Yeniyetmə və gəncliyin qorunması zəruri hesab edilən təhlükəli adətlərdən biri alkoqollu içkilərdir. Tərbiyə sistemi elə qurulmalıdır ki, alkaqollu içkiləri (şərabın, arağın, konyakın və s.-in) insan orqanizminə və mənəviyyatına, əxlaqına vurduğu ziyanı hər bir şagird (tələbə) aydın başa düşsün. Bu işdə həkimlərin «Şərab içən ağlını itirər», «İçmə çaxırı, açar paxırı», «Sərxoşun dəniz topuğundandır», «Şərabın kədəri nəşəsindən artıqdır» kəlamları xatırladılır.

Səhhəti sökən, ömrü gödəldən zərərli adətlərdən biri də narkomaniyadır. Narkotik maddələr iki qrupa ayrılır: siqaretlə və iynə ilə qəbul edilən narkotik maddələr.

Gənclik konkret faktlar əsasında anlamalıdır ki, narkotik maddələr yalnız səhhəti sarsıtmır, bundan əlavə, ömrü xeyli gödəldir, nəslin azalmasına səbəb olur, əxlaqı pozur.

Yadda saxlamaq faydalıdır ki, törədilən hər cür cinayətin böyük qismi alkoqollu içkilərə və narkotik maddələrə aludəçiliyin nəticəsidir. Gəncliyin sağlamlığı keşiyində durmaq

üçün alkoqolizmə və narkomaniyaya qarşı barışmaz mübarizə aparmalıyıq.

Sağlamlığa ziyan vuran psixoloji amillər də var. Birinci növbədə qəm-qüssəni və əsəbiliyi nəzərdə tuturuq. İnsanın çəkdiyi qəm, keçirdiyi qüssə onun bütün mənliyini sarsıdır, ağacı qurd daxildən yediyi kimi, qəm-qüssə də adamı içəridən əridir, onu insanlarla ünsiyyətdən qoyur, tənhalaşdırır, adam daxili aləminə qapılıb qalır. Atalar haqlı deyib: «Dəmir nəmdən, insan qəmdən çürüyər». Odur ki, qəm-qüssəni törədən səbəbin necəliyindən asılı olmayaraq hər bir gənc bu psixoloji bəladan uzaq olmağa hazırlaşdırılmalıdır.

Əsəbilik də qəm-qüssə qədər orqanizmə ziyan vuran psixoloji amillərdəndir. Əsəbiləşən zaman insanın daxili orqanlarının, o cümlədən ali sinir sisteminin, qan dövranının, nəfəs orqanlarının normal fəaliyyəti pozulur, qanın tərkibi pisləşir, orqanizm süstləşir. Bütün bu cür zərərli cəhətlərini nəzərə alaraq atalar çox düzgün qeyd edirlər: «Hirsin cana ziyanı var». Nəinki «Hirsli başda ağıl olmaz», həm də hirsli canda can qalmaz. Bu həqiqət də gəncliyin şüarına çevrilməlidir.

Təkcə qidanın necəliyi deyil, həm də necə yeməyin sağlamlığa dəxli var. Müdriklərimizin öyüdlərindən biri məhz yemək tərzi ilə bağlıdır. Həyat təcrübəsindən çıxış edən ata-babalar gözəl deyiblər: «Abır istəsən çox demə, sağlıq istəsən çox yemə», «Çox yemək adamı az yeməkdən də qoyar», «Nə çiy ye, nə də qarnın ağrısın». Bu məqsədlə səhər gimnastikasını adətə çevirməli, bədən tərbiyəsi və idman məşğələlərindən birində fəal iştirak etməli, gəzintiyə çıxmalı, hava, günəş və su amillərindən yetərincə istifadə etməli, alkoqolizm və narkomaniyadan, qəm-qüssədən uzaq olmalıdır; əsəbiliyini cilovlamağı, yeməklə əlaqədar nəfsini idarə etməyi bacarmalıdır.

**(«Azərbaycan məktəbi» jurnalı, 1988, №5)**

# 8. TƏRBİYƏ İŞİNİ TƏKMİLLƏŞDİRMƏYİN İMKANLARI

Respublikamızın rayonlarından birində maarif fəallarının müşavirəsi keçirilirdi. Mən də iştirak edirdim. Uşaqların və yeniyetmələrin əxlaq tərbiyəsini yaxşılaşdırmaq məsələləri müzakirə olunurdu. Müşavirədə maarif işçiləri ilə birlikdə rayonun partiya, sovet və komsomol işçiləri, inzibati orqanların rəhbər işçiləri də iştirak edirdilər. Müşavirəyə haqlı olaraq valideynlər də dəvət olunmuşdular. Çıxışlarda ümumi bir meyl hiss edilirdi. Hamı istəyirdi ki, bizim uşaqlar xalqın, Vətənin ləyaqətli övladları kimi yetişsinlər; onların arasında intizamı pozmaq, cinayət törətmək hallarından təəssüflə, ürək ağrısı ilə danışmaq da bütün çıxışlar üçün səciyyəvi idi. Bu da təbiidir. L.İ.Brejnev yoldaşın dediyi kimi, «Cəmiyyətimiz öz inkişafında nə qədər yüksəlirsə, sosialist əxlaq normalarından uzaqlaşmaq halları bir o qədər dözülməz olur».

Çıxışların hamısı üçün səciyyəvi cəhətlərdən biri də uşaqların, yeniyetmələrin davranışlarında müşahidə olunan intizamsızlıq hallarının, cinayət meyllərinin səbəblərini öyrənmək cəhdi idi. Təxminən bu cür sual onları düşündürürdü: xuliqanlıq, böyüyə hörmətsizlik, insana laqeydlik, başqasının şəxsiyyətini təhqir etmək, zəhmətdən boyun qaçırmaq kimi naqis əlamətlər bizim quruluşumuzun mahiyyətinə zidd olduğu halda, onların tək-tək də olsa baş verməsinə səbəb nədir?

Ümumini düşündürən bu suala cavablar çox müxtəlif idi. Məktəb adından çıxış edən müəllimlər və digər maarif işçilərinin çoxu şagirdlərin davranışında müşahidə olunan nöqsanların səbəbini ailə tərbiyəsində, valideynlərin uşaqlara münasibətində görürdülər. Valideynlər məktəbdən, küçənin zərərli təsirindən şikayətlənirdilər. İnzibati orqan işçiləri belə bir fikri isbat etməyə çalışırdılar ki, məktəbdə və ailədə tərbiyə işləri yüksək səviyyədə təşkil edilərsə uşaqların davranışındakı nöqsanlar tam aradan qalxar.

Göründüyü kimi, müşavirədə çıxış edənlərin ixtisasından asılı olmayaraq hamı davranış nöqsanlarının başlıca səbəbini düzgün olmayan tərbiyədə, məktəb və ya ailə tərbiyəsində yol verilən nöqsanlarda görürdü. Buna görə də təkliflər bir nöqtədə birləşirdi: tərbiyə işini həm məktəbdə, həm də ailədə düzgün təşkil etmək lazımdır.

Təəssüflə qeyd etməliyik ki, insan şəxsiyyətinin, o cümlədən şagird şəxsiyyətinin formalaşmasını, şəxsiyyətdə olan nöqsanları yalnız tərbiyə ilə, tərbiyədə yol verilən nöqsanlarla izah etməyə meyl göstərmək yalnız həmin müşavirə üçün səciyyəvi deyildir. Bu əqidədə olanlar çoxdur. Ona görə də məsələ ilə əlaqədar ciddi söhbət açmağa böyük ehtiyac duyulur.

Şəxsiyyətin formalaşmasında tərbiyəyə üstünlük verənlər, tərbiyəyə böyük ümid bəsləyənlər az olmamışdır. Böyük fransız ensiklopedist filosofu Helvetsi, ingilis utopik sosialisti R.Ouen və başqaları bunun ən parlaq nümayəndələridir. Helvetsi, məsələn, deyirdi ki, məndə yaxşı hər nə varsa tərbiyəyə borcluyam. Yaxud, Ouen tərbiyə vasitəsilə adamların şüurunu yeniləşdirmək və bu yolla kapitalizmin əvəzinə yeni cəmiyyət, sosializm cəmiyyəti qurmaq xəyalına düşmüşdü. O, bütün şuurlu həyatını həmin ideyanın həyata keçirilməsinə sərf etdi. Nəticədə özü müflisləşdi, ideyası həyata keçmədi, xəyal olaraq qaldı. Niyə? Çünki Ouen tərbiyəyə aludə olmuş, onu fövqəladə qüvvə hesab etmişdir. Mühiti, şəxsiyyətə mühitin təsirini isə kölgədə qoymuşdu.

Şəxsiyyətin xüsusiyyətlərindən, onun səciyyəvi əlamətlərindən, qüsurlarının səbəblərindən danışarkən mühitin rolunu, xüsusən ictimai mühitin, həyat tərzinin şəxsiyyətə təsirini unutmaq düzgün nəticə çıxarmağa imkan verməz.

Tərbiyə amilləri adamın şəxsiyyətinə, o cümlədən uşaq şəxsiyyətinə birbaşa, mexaniki şəkildə təsir göstərmir. Bu təsir müəyyən mühitdə, müəyyən həyat tərzi şəraitində baş verir. Buna görə də tərbiyənin təsir gücü tərbiyənin həyata keçirildiyi mühitin xarakterindən, onun necəliyindən də asılı olur. Eyni tərbiyəvi təsir kapitalizm və sosializm mühitində

başqa-başqa səmərə verir. Sosializm mühiti kommunist tərbiyəsinin müvəffəqiyyəti üçün vacib şərtlərdən biridir.

Maarif ocaqlarında, ailədə, ictimai yerlərdə, təşkilat və müəssisələrdə sovet adamlarının, o cümlədən yetişməkdə olan gənc nəslin kommunist tərbiyəsini müvəffəqiyyətlə təşkil etmək üçün sosializm cəmiyyəti geniş imkanlar yaratmışdır. Min illərdən bəri mütərəqqi adamların gözəl arzusu – şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsi yalnız sosializm mühitində mümkün olmuşdur. Bu cəhət SSRİ Konstitusiyasında qanuniləşdirilmişdir.

Lakin sosializmin üstünlüklərindən, sosialist həyat tərzinin bizə verdiyi geniş imkanlardan bütün məktəblərimiz, bütün ailələrimiz, bütün təşkilatlarımız tərbiyə məqsədilə heç də həmişə tam istifadə edə bilmirlər. Bundan əlavə, ayrı-ayrı idarə və müəssisələrin fəaliyyətində ayrı-ayrı adamların işində bəzi nöqsanlara yol verilir. Ətraf mühitdə baş verən belə nöqsanların tərbiyə işində də əks-sədası olur: məktəbin, ümumilikdə cəmiyyətin apardığı tərbiyə işini xeyli çətinləşdirir; şəxsiyyətdə nöqsanlı əlamətlərin baş qaldırması səbəblərindən birinə çevrilə bilir. İdarə və ya müəssisə rəhbərinin işdə buraxdığı nöqsanlar: süründürməçilik, bürokratizm, yerlibazlıq, dostbazlıq, himayədarlıq, ikiüzlülük, tabeliyində olan adamları biri-birindən narazı salmaq, sözünə əməl etməmək, vədlər vermək kimi hallar onu nəinki kollektiv qarşısında gözdən salır, həm də adamlara pis nmunə verir, adamların kommunist əxlaqı ruhunda tərbiyə olunmasını xeyli çətinləşdirir.

Kommunist əxlaqı normalarından kənara çıxmaq halları başqa cəhətdən də özünü göstərə bilir. Adamlarımızın minik maşını, qiymətli ev əşyaları, dəbdə olan geyim paltarları almaq imkanları xeyli genişlənmişdir.

Bu, Sov.İKP MK-nın Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşın Bakı şəhər partiya təşkilatının 443-cü konfransındakı nitqində dediyi kimi, yaxşı əlamətdir. Lakin maddi imkanların genişlənməsi bəzi adamlarda əşya xəstəliyinə, qiymətli, parıltılı şeylərə, dəbdəbəli geyimlərə aludə olmağa gətirib

çıxara bilir: özünü başqasına qarşı qoymaq, başqasından üstün tutmaq, varlanmaq meylləri baş qaldıra bilir. Bu cür xüsusiyyətlər isə, mahiyyətcə, kommunist əxlaqına ziddir. Belə xüsusiyyətlərə qarşı partiyamız haqlı olaraq kəskin mübarizə aparır; sovet adamlarının mənəvi saflığına, əxlaqi kamilliyinə xüsusi qayğı göstərir.

L.İ.Brejnev yoldaşın Sov.İKP XXV qurultayında demiş olduğu bir fikri burada xatırlamaq yerinə düşərdi: «Maddi imkanların artması ilə yanaşı olaraq adamların ideya-mənəvi və mədəni səviyyəsi də yüksəlməlidir. Yoxsa, bizdə meşşan, xırda burjua psixologiyasının təzahürləri özünü göstərə bilər».

Mühitin, xüsusən psixoloji mühitin saflaşdırılması sahəsində respublika partiya təşkilatının son vaxtlarda apardığı geniş əhatəli tədbirlər bütün zəhmətkeşlərimizin tərəfindən rəğbətlə qarşılanır. Bu istiqamətdə partiyamızın apardığı prinsipial iş əxlaq tərbiyəsinin səmərəsini xeyli artırmışdır. Respublika partiya təşkilatının fəaliyyəti ayrı-ayrı müəssisə və idarələr üçün, kolxoz və sovxozlar üçün, institut və məktəblər üçün nümunə olmalıdır. Tərbiyə işinin, o cümlədən ideya-siyasi tərbiyənin, əxlaq tərbiyəsinin, əmək tərbiyəsinin səmərəsini artırmaq üçün tərbiyənin təşkil olunduğu müəssisənin, orada işləyən adamların xüsusiyyətləri nəzərə alınmalıdır, ətraf mühitdə, o cümlədən psixoloji mühitdə olan nöqsanlar aşkara çıxarılmalı və aradan qaldırılmalıdır. Məsələn, uşaqlardan hədiyyə alındığı, şagirdlərin biliyinə şişirdilmiş qiymət verildiyi, dərsə müəllimin gec gəldiyi, müxtəlif bəhanələrlə uşaqlardan pul yığıldığı, təlimdə geri qalan şagirdlərdən evdə fərdi məşğələlər üçün haqq alındığı məktəblərdə aparılan tərbiyəvi tədbirlərin nə səmərəsi ola bilər?

Biz uşaqlarda hansı əxlaqi keyfiyyətləri görmək istəyiriksə, hansı əxlaqi sifətləri onlara aşılamaq istəyiriksə uşaqlardan məhz həmin keyfiyyətləri tələb edən mühitin yaradılmasına nail olmalıyıq. Belə şəraitdə bizim apardığımız əxlaq tərbiyəsinin səmərəsi qat-qat artır. Mühitin və tərbiyənin şəxsiyyətə təsiri bir-birini inkar etməməlidir, bir-birini tamamlamalıdır.

Tərbiyənin səmərəsini təmin edən şərtlərdən biri də şəxsi fəaliyyətdir. Bir çox təşkilatlarda, məktəblərdə haqlı olaraq gənc nəslin kommunist tərbiyəsi işini fəaliyyət əsasında qururlar; tərbiyə olunanların müxtəlif formada şəxsi fəaliyyətini təşkil edirlər.

Tərbiyə vəzifələrini, xüsusən əxlaq tərbiyəsi vəzifələrini həyata keçirmək üçün tərbiyə olunanların fəaliyyətini təşkil etmək ona görə vacibdir ki, birincisi, Marksizm-Leninizmin öyrətdiyi kimi, şəxsiyyət fəaliyyət zamanı formalaşır və kamilləşir. Tarixdə hələ elə bir hal olmayıb ki, şəxsi fəaliyyət göstərməyən hər hansı şəxs həyatda yüksəlmiş olsun. Sovet xalqının məşhur oğulları və qızları, görkəmli alimləri, yazıçıları, bəstəkarları, rəssamları, maarif işçiləri, həkimləri, mühəndisləri lap kiçik yaşlarından şəxsi fəaliyyət zamanı müstəsna işgüzarlıq göstərərək estetik, əxlaqi, mənəvi, fiziki cəhətdən kamilləşmiş və xalqın, partiyanın böyük rəğbətini qazanmışdır.

İkincisi, tərbiyəvi tədbirlərdə, həyat hadisələrində şəxsi fəaliyyət göstərən, ictimai münasibətlər sisteminə qoşulan adamların sözü ilə əməli arasında, adətən, uçurum olmur, sözü ilə əməli vəhdət təşkil edir, sözünə daim sadiq qalır. Belə adamlar partiyamızın tələb etdiyi kimi, həyatda fəal mövqe tuturlar. L.İ.Brejnev yoldaş Sov.İKP XXV qurultayında demişdir: «Şəxsiyyəti ən çox yüksəldən onun həyatda fəal mövqe tutmasıdır, ictimai borca şüurlu münasibət bəsləməsidir, bu zaman onun sözü ilə işinin bir-birinə uyğun gəlməsi gündəlik davranış norması olur».

Üçüncüsü, tərbiyəvi işdə, ictimai həyatda şəxsi fəaliyyət göstərməklə kommunist əxlaqı münasibətlərinə qovuşan adamlar müəyyən mənada mühitin özünü təkmilləşdirir, onu dəyişdirir, mühitin yaradıcıları olurlar. İnsan şüuruna, insan psixologiyasına təsir göstərən mühitin ayrı-ayrı cəhətlərini, ayrı-ayrı əlamətlərini təkmilləşdirən və dəyişdirən şəxs öz təbiətini də dəyişdirmiş olur.

Deyilənləri nəzərə almalı olsaq tərbiyə işini kağızdan əməli işə köçürmək, tərbiyədə formalizmi aradan qaldırmaq olduqca vacibdir. Formalizm tərbiyə işinə böyük ziyan vurur. Məktəblərin, o cümlədən ali məktəblərin xeyli hissəsi müxtəlif tərbiyə

planları hazırlayırlar. Çox halda buna xeyli vaxt və qüvvə sərf edirlər. Lakin planın icrasına o qədər də qayğı göstərilmir.

Nə üçün tərbiyədə formalizm geniş kök salmışdır? Fikrimizcə, bunun başlıca səbəbi yoxlamanın xarakteri ilə bağlıdır. Məsələ burasındadır ki, bu və ya digər maarif ocağında tərbiyə işinin qoyuluşunu yoxlayan komissiyalar birinci növbədə tərbiyəvi tədbirlər planı ilə maraqlanırlar, planın əhatə dairəsinə diqqət yetirirlər. Yoxlanan müəssisədə ümumi vəziyyət, adamların davranış xüsusiyyətləri, onların mənəvi və əxlaqi səviyyələri çox halda kölgədə qalır.

Tərbiyə işinin səviyyəsini yüksəltmək üçün tərbiyədə müşahidə olunan formalizm əlamətləri aradan qaldırılmalıdır. Tərbiyə işinin səviyyəsini formal əlamətlər əsasında deyil, adamların hərəkətləri, əməlləri, fəaliyyətinin xüsusiyyətləri əsasında qiymətləndirmək lazımdır. Tərbiyə işinə qiymət verərkən sözə deyil, əmələ üstünlük verilməlidir.

Bu cəhətdən Sov.İKP XXV qurultayında irəli sürülmş bir fikri biz unutmamalıyıq: «Kütlələrin siyasi tərbiyəsinin müvəffəqiyyəti, əlbəttə, konkret işlərlə ölçülür».

Kommunist tərbiyəsi Marksizm-Leninizmin nəzəriyyəsi əsasında qurulmalıdır.

Sovet adamlarının yetişdirilməsində yalnız tərbiyəyə bel bağlamaq olmaz. Tərbiyə işində mühit amilləri də nəzərə alınmalıdır. Mühit və tərbiyənin bir-birini tamamlaması üçün tərbiyə olunanların mühitlə münasibətlər istemini təşkil etmək, onların fəallığını təmin etmək lazımdır. Belə olarsa biz sovet adamlarının, o cümlədən gənc nəslin kommunist tərbiyəsində partiyamızın tələbləri səviyyəsinə yüksələ bilərik, kommunist tərbiyəsi vəzifələrinin öhdəsindən ləyaqətlə gələ bilərik.

**(«Azərbaycan müəllimi» qəzeti, 30 yanvar 1977)**

## 9. TƏRBİYƏ İŞİNƏ KOMPLEKS ŞƏKİLDƏ YANAŞMAĞIN BƏZİ CƏHƏTLƏRİ HAQQINDA

Sov.İKP XXV qurultayında təlim-tərbiyə məsələlərinə aid bir sıra yeni ideyalar irəli sürülmüşdür. Bu cür yeni

nəzəri-pedaqoji problelərdən ən mühümü tərbiyə işinə kompleks şəkildə yanaşmağın zəruriliyi haqqında olan ideyadır. Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev yoldaşın qurultaya hesabat məruzəsində bu barədə deyilir: «…müasir şərait partiyanın ideoloji fəaliyyəti qarşısına yeni vəzifələr qoyur. Partiya təşkilatlarının təcrübəsi bizə elə bir yol göstərir ki, biz bu yolla gedib həmin işin səmərəliliyini yüksəldə bilərik. Bu yol bütün tərbiyə işinin qoyuluşuna kompleks qaydada yanaşmaqdan, yəni zəhmətkeşlərin müxtəlif qruplarının xüsusiyyətlərini nəzərə almaqla ideya-siyasi tərbiyənin, əmək və əxlaq tərbiyəsinin sıx birliyini təmin etməkdən ibarətdir».

Kommunist tərbiyəsi işinə kompleks şəkildə yanaşılmasına dair Sov.İKP XXV qurultayının irəli sürdüyü bu ideyanın müəllim və tərbiyəçilər, habelə bir sıra metodist və alimlər tərəfindən bəzən birtərəfli başa düşülməsi hallarına rast gəlmək olur. Bunu nəzərə alaraq həmin məsələnin ayrı-ayrı cəhətlərinə toxunmağı vacib hesab edirik.

Bəziləri güman edirlər ki, kommunist tərbiyəsinə kompleks şəkildə yanaşılması yalnız ideya-siyasi, əmək və əxlaq tərbiyəsinə aiddir və buna görə də kommunist tərbiyəsinin digər tərkib hissələrini əhatə etməyə bilər. Bizcə, belə əhvali-ruhiyyə məsələyə formal münasibətin nəticəsi kimi qiymətləndirilməlidir. Qurultay materiallarında tərbiyə işinə kompleks qaydada yanaşılmasından söhbət açılarkən yalnız ideya-siyasi, əmək və əxlaq tərbiyəsinin adı çəkildiyindən belə bir nəticə çıxarmaq düzgün olmaz ki, bu məsələnin fiziki və ya estetik tərbiyəyə aidiyyəti yoxdur. Tərbiyəyə kompleks şəkildə yanaşılması kommunist tərbiyəsinin bütün sahələrini, o cümlədən fiziki və estetik tərbiyəni də əhatə edir.

Bəs qurultayda bu məsələdən danışılarkən ideya-siyasi, əmək və əxlaq tərbiyəsinin adının çəkilməsinin, estetik və fiziki tərbiyənin isə qeyd olunmamasının səbəbi nədir? Fikrimizcə, bunun iki başlıca səbəbi vardır. Birincisi budur ki, inkişafımızın indiki mərhələsində Sov.İKP Mərkəzi Komitəsi zəhmətkeşlərin ideya-siyasi, əmək və əxlaq tərbiyəsinə xüsusi əhəmiyyət verir. Buna bir sıra partiya sənədləri, o cümlədən Sov.İKP

MK-nın keçən il qəbul etdiyi «İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» qərarı da aydın sübut edir. Həmin qərarla əlaqədar Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaş demişdir: «Sov.İKP XXV qurultayı qərarlarının məntiqi davamı və yaradıcılıqla inkişaf etdirilməsi demək olar MK qərarı bütün ideya tərbiyəsi işinin təkmilləşdirilməsinə dair konkret, məqsədyönlü, uzunmüddətli proqramdır» («İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında» Sov.İKP MK-nın qərarını yerinə yetirmək sahəsində respublika partiya təşkilatının vəzifələri barəsində» Azərbaycan KP MK-nın 17 iyul 1979-cu il tarixli plenumunda H.Ə.Əliyev yoldaşın məruzəsi, «Kommunist» qəzeti, 28 iyul 1979-cu il). İkincisi budur ki, Sov.İKP XXV qurultayına hesabat məruzəsindən götürülmüş hər hansı bir fikri məruzənin ümumi mətnindən, orada qaldırılmış başqa problemlərdən ayırmaq və ayrılıqda nəzərdən keçirmək olmaz; məsələləri bir-biri ilə əlaqədə, küll halında götürmək lazımdır. Məsələyə bu mövqedən yanaşdıqda məlum olur ki, partiya gənc nəslin estetik və fiziki tərbiyəsinə də böyük əhəmiyyət verir, onların fiziki cəhətdən möhkəm, yüksək zövqlü adamlar kimi yetişməsinə xüsusi qayğı göstərir. Belə ki, estetik tərbiyə vasitəsi olan ədəbiyyat və incəsənətin kommunist tərbiyəsindəki rolu da hesabat məruzəsində aydın göstərilmişdir. Burada deyilir: «Bizim yazıçıların, rəssamların xidməti bundadır ki, onlar insanın ən yaxşı keyfiyyətlərini – onun prinsipiallığını, düzlüyünü, hisslərinin dərinliyini qorumağa çalışırlar. Həm də bu zaman bizim kommunist mənəviyyatımızın sarsılmaz prinsiplərini əsas tuturlar...». «...bədii söz, boyaların rəngarənliyi, daşın ifadəliliyi, səslərin ahəngi müasirləri ruhlandırır və nəslimiz haqqında, dövrümüz, onun həyəcanları və xariqələri haqqında ürək və qəlb xatirəsini nəsillərdən nəsillərə ötürür» (Sov.İKP XXV qurultayının materialları, Bakı, Azərnəşr, 1976, səh. 88).

Sov.İKP Proqramında sovet adamlarının hərtərəfli inkişafını təmin etmək, onlarda əxlaqi saflıq, ideya möhkəmliyi, yüksək şüurluluq, əməksevərlik, vətənpərvərlik, beynəlmi-

ləlçilik kimi keyfiyyətlərlə yanaşı fiziki kamilliyi, estetik zövqü inkişaf etdirmək də başlıca məqsəd kimi qarşıya qoyulmudur. Proqramda bu barədə deyilir: «Kommunizmə keçid dövründə mənəvi zənginliyi, əxlaq saflığını və fiziki kamilliyi ahəngdar surətdə özündə birləşdirən yeni insan tərbiyə etmək imkanları artır» (Azərnəşr, 1977, səh. 109).

Sovet dövlətinin vətəndaşlarının fiziki və estetik tərbiyəsi sahəsində görməli olduğu işlər SSRİ Konstitutisyasında da təsbit edilmişdir. Əsas Qanunun 24-cü maddəsində deyilir: «Dövlət… kütləvi bədən tərbiyəsinin və idmanın inkişafına kömək edir». 27-ci maddədə isə oxuyuruq: «Dövlət mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan sovet adamlarının mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etmək qayğısına qalır».

Deyilənlərlə kifayətlənərək qeyd edə bilərik ki, tərbiyə işinə kompleks şəkildə yanaşılması əslində kommunist tərbiyəsinin bütün tərkib hissələrinə aiddir.

Müəllimlərimizi çox vaxt belə bir sual da düşündürür: Tərbiyə işinə kompleks şəkildə yanaşılması məsələsi yalnız Sov.İKP XXV qurultayı ilə bağlıdır, yoxsa bu ideya qurultaydan əvvəl də vardı? Etiraf etməliyik ki, tərbiyə işinə kompleks şəkildə yanaşılmasının zəruriliyinə dair ideya partiyamızın XXV qurultayı ilə bağlıdır. Bununla yanaşı, onu da göstərməliyik ki, Sov.İKP XXV qurultayına qədər ölkəmizdə kommunist tərbiyəsinin ideya-siyasi, əmək, fiziki, estetik, əxlaqi tərbiyə sahələri üzrə də zəngin və çox faydalı işlər görülmüşdür. Kommunizm quruculuğunun başqa sahələrində olduğu kimi, tərbiyə işində də əldə edilmiş zəngin təcrübə Sov.İKP XXV qurultayının materiallarında ümumiləşdirilərək gələcək fəaliyyət proqramı kimi müəyyənləşdirilmişdir. Partiyamızın Mərkəzi Komitəsi yəqin etmişdir ki, kommunist tərbiyəsinin müxtəlif sahələri üzrə görülən işlər pərakəndə halda olmazsa, vahid axında birləşdirilərsə, bu cəhət daim diqqət mərkəzində durarsa tərbiyə işində daha çox səmərə əldə edilər. Zəhmətkeşlərin kommunist tərbiyəsi sahəsində aparılan çoxcəhətli əməli işin nəzəri

cəhətdən ümumiləşdirilməsi əsasında meydana çıxan bu ideya həmin sahədə bizim əməli fəaliyyət yolumuzu işıqlandırır.

Bəs, tərbiyə işinə kompleks şəkildə yanaşılmasına dair ideya nə üçün məhz Sov.İKP XXV qurultayıın materiallarında aydın şəkildə ifadə olunmuşdur? Bunun müəyyən əsasları varmı? Varsa nədən ibarətdir? Bu suallara cavab verərək qeyd etmək lazımdır ki, həmin məsələnin Sov.İKP XXV qurultayı ilə əlaqədar olması təsadüfi deyildir. Bunun nəzəri, ictimai-siyasi və pedaqoji əsasları vardır. İnkişafımızın indiki mərhələsində, yəni inkişaf etmiş sosializm cəmiyyətində zəhmətkeşlərin kommunist tərbiyəsi sahəsində müəyyən xüsusiyyətlər özünü göstərir; Sov.İKP MK məhz həmin xüsusiyyətləri nəzərə almışdır. Əvvələn, tərbiyəvi tədbirlərlə inzibati tədbirlər arasında nisbətin dəyişməsi sürətlənmişdir. Müasir dövrdə ictimai həyatımızda inzibati tədbirlərə, hüquq normalarına nisbətən əxlaqi normaların rolu xeyli artmışdır. Kommunizm quran bir cəmiyyət üçün bu, təbii bir haldır.

Kommunizm quruculuğu mərhələsində Sovet dövlətinin başlıca vəzifələri Kosntitusiyada daha da dəqiqləşdirilmişdir. Dövlətin dörd daxili vəzifəsindən biri məhz tərbiyə ilə bağlıdır: «Kommunizm cəmiyyəti adamını tərbiyə etmək». Bu vacib vəzifənin yerinə yetirilməsi ilə nəinki sırf tərbiyə müəssisələri, məsələn, orta ümumtəhsil, texniki peşə, orta və ali ixtisas məktəbləri, habelə idarələr, müəssisələr, kolxoz və sovxozlar, ictimai təşkilatlar da məşğul olurlar.

Məlum olduğu kimi, 1979-cu il noyabrın 30-da SSRİ Ali Sovetinin ikinci sessiyası SSRİ-də xalq nəzarəti haqqında Qanun qəbul etmişdir. Həmin Qanun cəmiyyətimizin müasir inkişaf mərhələsində şüurluluğun, tərbiyəvi amilin rolunun artdığını aydın göstərir. Burada deyilir: «SSRİ-də xalq nəzarəti dövlət nəzarətini müəssisələrdə, kolxozlarda, idarə və təşkilatlarda, zəhmətkeşlərin ictimai nəzarəti ilə uzlaşdırır». İctimai amillərin tərbiyə prosesinə getdikcə artan təsiri keçən il respublikamızın paytaxtında keçirilmiş «Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbi-

yənin təcrübəsi və aktual problemləri» Ümumittifaq elmi-praktik konfransında da əsaslı şəkildə qeyd edilmişdir.

İkincisi, Sov.İKP XXV qurultayı materiallarının diqqətlə öyrənilməsi əsasında müəyyən etmək çətin deyildir ki, partiyamızın fəaliyyətində bütün işlərə kompleks şəkildə yanaşılması artıq prinsip halını almışdır. Qrultayda sosial-iqtisadi həyatın, xalq təsərrüfatının, o cümlədən sənayenin, kənd təsərrüfatının, mədəniyyətin bütün sahələrinə aid məsələlərə də bu baxımdan yanaşılmışdır. Məsələn, beynəlxalq məsələlərə münasibəti götürək. Sov.İKP XXV qurultayında əvvəlcə sosialist ölkələri, sonra inkişaf yoluna qədəm qoymuş ölkələr, daha sonra kapitalist ölkələri hərtərəfli təhlil edilmiş və bu təhlil əsasında beynəlxalq münasibətlərin əsas inkişaf istiqamətləri və qanunauyğunluqları müəyyənləşdirilmişdir. Deməli, qurultayda sosial-iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrinə kompleks şəkildə yanaşıldığından, tərbiyə işinə də bu qaydada yanaşılması lazım bilinmişdir.

Üçüncüsü, marksist-leninçi dialektika tərbiyə işinə kompleks şəkildə yanaşılmasına nəzəri əsas verir. Dialektik materializm öyrədir ki, xarici aləmin müxtəlif cisim və hadisələri vəhdətdədir. Onların vəhdətdə olmasını təmin edən isə maddiliyidir. Dialektikanın qanunlarından biri də cisim və hadisələr arasında qarşılıqlı əlaqənin mövcudluğu haqqındadır. Dialektika öyrədir ki, təbiət və cəmiyyətdə elə cisim və ya hadisə tapmaq mümkün deyildir ki, onların arasında qarşılıqlı əlaqə olmasın. Cismin və ya hadisənin keyfiyyəti yalnız və yalnız başqaları ilə təmasda özünü göstərir. Cismin ətrafla əlaqəsi kəsilsə onun keyfiyyəti açıq şəkildə hiss edilməz.

Deməli, xarici aləmdəki cisim və hadisələrin qarşılıqlı vəhdətdə əlaqədə olması imkan verir ki, tərbiyənin bütün komponentləri də qarşılıqlı əlaqədə götürülsün və ona kompleks şəkildə yanaşılsın.

Tərbiyə işinə kompleks şəkildə yanaşmağın başqa bir əsasına – kommunist tərbiyəsinin qarşısında qoyulmuş başlıca məqsədə diqqəti cəlb etmək istərdik. Məlum olduğu

kimi, kommunist tərbiyəsinin məqsədi hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət yetişdirməkdən ibarətdir. Kommunizm adamının əsas keyfiyyətlərini özündə ehtiva edən «hərtərəfli», «ahəngdar» sözlərinin özü obyektiv şəkildə tələb edir ki, tərbiyə işinə kompleks şəkildə yanaşılsın.

Tərbiyə işinə kompleks şəkildə yanaşmağın müxtəlif cəhətləri vardır. Birinci cəhət əməli işdə tərbiyənin bütün tərkib hissələrini eyni dərəcədə nəzərə almaqdan ibarətdir. Tərbiyənin əvvəlcə bir sahəsi ilə, məsələn, estetik tərbiyə ilə, sonra isə başqa sahəsi ilə, deyək ki, əxlaq tərbiyəsi ilə məşğul olmaq komplekslilik prinsipinə uyğun deyildir. Məktəbdə və ya ailədə tərbiyənin bütün sahələri eni zamanda əhatə olunmalıdır. Bu proses tələb edir ki, biz şagirdləri elmlərin əsasları ilə silahlandıraq, onlarda sosialist şüurluluğunun təşəkkülünə, əxlaqi saflığa, estetik zövqə, əməksevərliyə, fiziki kamilliyə nail olaq; kommunist tərbiyəsinin bütün sahələrini eyni dərəcədə diqqət mərkəzində saxlayaq, onun heç bir sahəsini unutmayaq.

Tərbiyə işinə kompleks şəkildə yanaşılmasının kinci cəhəti kommunist tərbiyəsinin tərkib hissələrindən hər hansı biri üzrə iş aparan zaman bu işi tərbiyənin digər sahələri ilə üzvi şəkildə əlaqələndirməklə bağlıdır. Tərbiyə prosesində bu cəhəti nəcərə almağın böyük əhəmiyyəti vardır. Məsələn, turizm səyahəti əsasən fiziki tərbiyə vəzifələrinin həllinə xidmət edir, şagirdlərin sağlamlığını möhkəmləndirməyə yönəldilir. Lakin fənn müəllimi, sinif rəhbəri və ya sinif müəllimi turizm səyahəti zamanı bu əsas vəzifə ilə yanaşı, şagirdlərin ideya-siyasi, estetik və əxlaq tərbiyəsi ilə də məşğul ola bilər. Nəticədə tərbiyə işi daha çox səmərə verər. Çünki səyahət zamanı şagirdlər yalnız gəzməklə, fiziki hərəkətlə kifayətlənmirlər; onlar müəllimin rəhbərliyi altında təbiət gözəlliklərini müşahidə edir, tarixi yerlərlə tanış olur, istehsalat müəssisələrinə gedir, əmək qabaqcılları ilə görüşürlər. Beynəlmiləlçilik tərbiyəsini götürək. İndi respublikamızın bir çox məktəblərində şagirdlər sosialist ölkələrindən olan məktəblilərlə əlaqə saxlayır, məktublaşırlar. Onlar bizim şagirdlərdən, məsələn, bitki nümunələri

toplayıb göndərməyi xahiş edirlər. Şagirdlər dostlarının arzusunu yerinə yetirirlər. Bu cür tədbirlər, əlbəttə, birinci növbədə, sosialist ölkələrinin məktəbliləri arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə kömək edir. Lakin, əsasən, beynəlmiləlçilik tərbiyəsinə xidmət edən məktublaşmanın, bitki nümunələri toplayıb göndərməyin başqa tərbiyəvi imkanları da vardır. Belə tədbir həm də şagirdlərdə estetik hisslərin, əməksevərliyin formalaşmasına imkan verir. Bitki nümunələrini səliqə ilə, qayğı ilə toplamaq, onları müəyyən sistem üzrə düzmək, səliqə ilə kağız üzərində bərkitmək, hər bir nümunəyə aid məlumatı qısa, aydın və gözəl xətlə yazmaq və s. cəhətlər uşaqlarda estetik hisslərin formalaşmasına kömək edir. Odur ki, keçirilən hər bir tədbirdə kommunist tərbiyəsinin bütün imkanlarından maksimum dərəcədə istifadə edilməlidir.

Tərbiyə prosesinə kompleks şəkildə yanaşılmasının üçüncü cəhəti istifadə edilən tərbiyə üsulları və iş formaları ilə əlaqədardır. Məlumdur ki, tərbiyə işinin sayız-hesabsız üsul və formaları mövcuddur. Bu cəhət tərbiyəçiyə imkan verir ki, o öz fəaliyyətində müxtəlif tərbiyə üsullarından, rəngarəng təşkilat formalarından faydalansın. Məktəbdə bəzi müəllimlər, adətən, sözdən istifadəyə aludəçilik göstərir, öyüd-nəsihətə meyl edirlər. Tərbiyəyə kompleks şəkildə yanaşılmasının zəruriliyini əsas götürən müəllim isə eyni zamanda bir çox üsul və formalardan istifadə etməyə xüsusi diqqət yetirir. Belə müəllim apardığı tərbiyə işinin nəticəsinə də tənqidi yanaşa bilir; tətbiq etdiyi üsulun, təşkil etdiyi iş formasının səmərəsinə işin gedişi və nəticəsi baxımından qiymət vermək imkanına malik olur.

Kommunist tərbiyəsi işinə kompleks şəkildə yanaşılmasının dördüncü cəhəti tərbiyə prosesində şagird qarşısında qoyulan tələblərin vahidliyinin təmin olunmasıdır. Məlumdur ki, şagirdlərin tərbiyəsi ilə məktəbdə müəllimlər, direktor, direktor müavinləri, sinif rəhbərləri və ictimai təşkilatlar məşğul olurlar. Tərbiyə prosesinə onların hərəsi bir cür yanaşdıqda, şagirdlər qarşısında başqa-başqa tələblər qoyduqda işin səmərəsi xeyli azalır. Şagirdlərin tərbiyəsi ilə

məşğul olan müxtəlif şəxslərin verdiyi tələblərdə vahidlik təmin edildikdə isə tərbiyə işinin səmərəsi xeyli artır. Məsələn, dərsə gəlməmək halına eyni sinifdə dərs deyən müəllimlərin müxtəlif münasibətlərinə, bu cəhətdən şagirdlərə verilən tələblərə nəzər salaq. Bəzən belə olur: dərsdə müəllim şagirdi keçən mövzunu danışmağa çağırır. O, isə deyir: «Müəllim, mən keçən dərs gəlməmişdim, xəstə idim». Bu, cavabla razılaşan müəllim: «Yaxşı, əyləş» – deməklə kifayətlənir. Razılaşmayan müəllim isə bildirir. «Dərsə gəlmədiyin üzürlü olduğundan, səni sonrakı dərslərə buraxıblar. Lakin dərsə gəlməmək o demək deyildir ki, dərsi öyrənməyəsən».

Dərsə gəlməmək halına göstərilən bu iki münsibət arasında ciddi fərq vardır. Birinci halla əlaqədar şagirdlərdə tədricən belə bir əhvali-ruhiyyə yaranır ki, hansı dərsdə iştirak etməmisənsə həmin dərsin materialını öyrənməmək olar. İkinci halda isə şagirdlər yəqin edirlər ki, üzürlü və yaxud üzürsüz olsun, fərqi yoxdur, buraxılan gərsin materialını hökmən öyrənməlisən. Göründüyü kimi, eyni hala müxtəlif müəllimlərin göstərdiyi münasibət şagirdlərdə ikili psixologiyanın yaranmasına səbəb olur, nəticədə tərbiyə işi çətinləşir. Bu cür çətinlikləri aradan qaldırmaq üçün şagirdlər qarşısında qoyulan tələblərdə vahidliyə riayət etmək faydalıdır.

Tərbiyə işinə kompleks şəkildə yanaşılması təkcə pedaqoji kollektivlərə deyil, ailə və ictimaiyyətə də eyni dərəcədə aiddir. Müasir dövrdə məktəb şagirdlərin kommunist tərbiyəsinin öhdəsindən təklikdə gələ bilməz. Ona görə də şagirdlərin təlim-tərbiyəsində ailə və ictimaiyyətin köməyi indi zərurətə çevrilmişdir.

Kommunist tərbiyəsi işinə kompleks şəkildə yanaşılması onun nəinki məzmununu, habelə üsullarını və təşkili formalarını əhatə edir. Ona görə də tərbiyə prosesində bu prinsipi daim diqqət mərkəzində saxlamaq lazımdır. Çünki bu, kommunist tərbiyəsi işinin səmərəliliyini təmin edən başlıca şərtlərdəndir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1980, №7)**

## 10. RESPUBLİKA XIII «PEDAQOJİ MÜHAZİRƏ»LƏRİNƏ HAZIRLIQ

Ənənəvi respublika «Pedaqoji mühazirələri» yaxınlaşır. Respublika «Pedaqoji mühazirələri» həmişə olduğu kimi, bu il də mart ayında keçiriləcəkdir. Bir çox rayonlarda mühazirələrə ciddi hazırlıq işləri gedir. «Pedaqoji mühazirələr»ə hazırlaşmaqda müəllimlərin işini asanlaşdırmaq məqsədi ilə, Elmi-Tədqiqat Pedaqogika İnstitutu ayrı-ayrı fənlərin tədrisi üzrə oxunacaq məruzələrin nümunəvi mövzularını hazırlayıb kitabça şəklində çap etdirmiş və bütün rayon xalq maarif şöbələrinə göndərmişdir.

Həmin kitabçada məktəb haqqında Qanundan irəli gələn ən vacib mövzular üzrə məruzələrin yazılması nəzərdə tutulmuşdur. Məsələn, ictimai-faydalı işlərin yerinə yetirilməsi zamanı şagirdlərin tərbiyə edilməsi, ayrı-ayrı fənlərin tədrisini həyatla istehsalatla əlaqələndirməyin formaları, dərsdə şagirdlərin müstəqil işlərinin təşkili və buna rəhbərlik, təlim zamanı müqayisə üsulundan istifadə edilməsi, fəhlə (və ya kəndli) gənclər məktəbində tərbiyə işlərinin təşkili təcrübəsindən və s. bu kimi məsələlər üzrə məruzələr yazılması məsləhət görülmüşdür.

Məktəb haqqında Qanundan irəli gələn mövzularda aşağı siniflər üzrə məruzələr hazırlamağa kitabçada istiqamət verilməsi diqqəti xüsusilə cəlb edir. Məsələn, təkcə ana dili üzrə yeni iş formalarından əşya dərslərinə, praktik məşğələlərə, müşahidələr və ekskursiyalara dair ayrı-ayrı müəllimlərin öz iş təcrübələrindən məruzə hazırlamaları nümunəvi mövzular kitabçasında tövsiyə edilmişdir.

Azərbaycan dili, ədəbiyyat, fizika, riyaziyyat, təbiiyat, kimya, tarix, coğrafiya, politexnik təlim, istehsalat təlimi və s. sahələr üzrə ən aktual məsələlər də 1961-ci ildə keçiriləcək «Pedaqoji mühazirələr» üçün nümunəvi mövzular kitabçasında əhatə edilmişdir.

Respublikanın rayon (şəhər) maarif şöbələrinin əksəriyyəti «Pedaqoji mühazirələri»n nümunəvi mövzular kitabçasını məktəb və müəllimlərə mütəşəkkil surətdə çatdırmışdır.

Belə maarif şöbələri həmin kitabçanı müəllimlərə sadəcə olaraq çatdırmaqla kifayətlənməmişlər. Onlar hansı müəllimlərin hansı mövzuları seçidiyinə, bu mövzular üzərində onların necə işlədiklərinə nəzarət etmiş və onlara lazımi kömək göstərmişlər.

Öz iş təcrübəsini sistemə salıb, bu barədə məruzə etmək istəyən müəllimlərə yaxından kömək etməyin nəticəsidir ki, Quba, Ağdam, Lənkəran, Masallı, Culfa, Ordubad, Noraşen, Şahbuz rayonlarında «Pedaqoji mühazirələr» keçirilmişdir.

Bəzi rayon xalq maarif şöbələri isə «Pedaqoji mühazirələr»ə hazırlıq məqsədi ilə, hətta ayrı-ayrı məktəblər üzrə də «Pedaqoji mühazirələr» təşkil etmişlər. Masallı Rayon Xalq Maarif Şöbəsinin işi bu cəhətdən fərəhləndiricidir. Maarif şöbəsi (müdiri Ə.Əhmədov yoldaşdır) rayonun beş məktəbində «Pedaqoji mühazirələr» keçirtmişdir. Yaxud, Bakı şəhərinin Oktyabr rayonundakı 31 nömrəli məktəbin müəllimləri də «Pedaqoji mühazirələr» keçirmişlər. Rayon üzrə keçirilmiş «Pedaqoji mühazirələr»də yüksək qiymətləndirilən məruzələrin mətnlərini maarif şöbələri respublika «Pedaqoji mühazirələri»ndə oxunmaq üçün Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutuna göndərirlər. İstituta Quba rayonundan 20, Masallı rayonundan 32, Ağdam rayonundan 19, Naxçıvan MSSR-dən 28, Lənkəran rayonundan 10, Kirovabad şəhərindən 23 məruzə mətni göndərilmişdir. İnstitut indiyədək müxtəlif rayonlardan 170-ə kimi məruzə mətni almışdır.

Məruzə mətnləri ilə tanışlıq göstərir ki, məktəb haqqında Qanunun həyata keçirilməsi sahəsində səylə çalışan, yeni məsələlər üzərində yaradıcılıqla düşünən müəllimlərimiz vardır. Məsələn, İsmayıllı qəsəbə orta məktəbinin direktoru İ.Həsənov yoldaş «Kənd təsərrüfatı istehsalatı üzrə şagirdlərin yay istehsalat təcrübəsinin təşkilinə dair» mövzusunda yazdığı mətndə məktəbin iş təcrübəsini ümumiləşdirməyə çalışmışdır. Yaxud, Lənkəran şəhərindəki 2 nömrəli orta məktəbin müəllimi Ə.İsayev yoldaş təqdim etdiyi məruzəsinin mətnində maşınşünaslığın tədrisini fizika fənni ilə necə əlaqələndirdiyini şərh edir və bir sıra konkret misallar gətirir.

Bir çox məruzə mətnləri humanitar fənlərin yeni tələblər əsasında tədrisinə həsr edilmişdir. Məsələn, Əli Bayramlı rayonundakı internat-məktəbin müəllimi C.Məmmədov yoldaş «Şagirdlərə fərdi yanaşmaq, təlimdə onların müstəqilik və fəallığını təmin etməyin şərtlərindəndir» mövzusunda məruzə mətni hazırlamışdır. Bakıdakı 1 nömrəli internat-məktəbin müəllimi H.Sadıqova yoldaş məruzəsinin mətnində ədəbiyyatın tədrisi zamanı şagirdlərin müstəqil işlərini təşkil etməyin bəzi yollarını təhlil edir.

Fevralın axırınadək «Pedaqoji mühazirələr» keçirilməsini planlaşdırılmış olan rayon xalq maarif şöbələrimiz də vardır. Nuxa, Şamxor, Qazax rayon xalq maarif şöbələri buna misal ola bilər. «Pedaqoji mühazirələri»n keçirilməsi bəzi rayonlarda artıq ənənə şəklinə çevrilmişdir. Məsələn, altı ildir ki, Şamxor Rayon Xalq Maarif Şöbəsi (müdiri X.Həsənli yoldaşdır) müəllimlərin «Pedaqoji mühazirələri»ni təşkil edir.

Vartaşen, Qutqaşen, İsmayıllı və bir sıra başqa rayonlarda qabaqlar hər il «Pedaqoji mühazirələr» keçirilərdi. Təəssüflə qeyd edilməlidir ki, son illər bu rayonların maarif şöbələri «Pedaqoji mühazirələr»ə diqqəti zəiflətmişlər.

Yeri gəlmişkən onu da göstərmək lazımdır ki, bəzi maarif şöbələri «Pedaqoji mühazirələr»ə az əhəmiyyət verdiklərindən, rayon üzrə müəllimlərin «Pedaqoji mühazirələri»ni keçirmək üçün təşəbbüs göstərmirlər. Belələrinə Lerik, Qasım İsmayılov, Zəngilan, Qax, Laçın, Yardımlı, Ağsu, Qubadlı, Kürdəmir, Zaqatala, İsmayıllı və bir sıra başqa rayonları misal göstərmək olar. Maarif şöbələrinin və pedaqoji kabinetlərin laqeydliyi üzündən həmin rayonlarda fəaliyyət göstərən qabaqcıl müəllimlərin iş nümunələri diqqət mərkəzindən kənarda qalır. Bu iş nümunələrini respublikanın müəllimləri arasında yaymaq üçün mühazirələrdən hələ az istifadə edilir.

Maarif şöbələrinin «Pedaqoji mühazirələr»ə qarşı göstərdikləri laqeyd münasibətə baxmayaraq, həmin rayonların müəllimlərindən bəziləri öz iş təcrübələri haqqında məruzə etmək arzusunda olduqlarını bildirirlər. Onlar müstəqil

mövzu götürür, məruzə mətni hazırlyır və bir baş instituta göndərirlər. Balakən rayonundan riyaziyyat müəllimi İ.Ədliyev, Kürdəmir rayonundakı Mollakənd məktəbinin müəllimi X.İbrahimov, İsmayıllı rayonundan İ.Həsənov, Zaqatala şəhərindəki 1 nömrəli məktəbdən Ə.Məmmədov və başqa yoldaşlar buna misal ola bilər.

Qabaqcıl təcrübənin öyrənilməsi və geniş yaylıması üçün «Pedaqoji mühazirələri»n böyük əhəmiyyəti vardır. Bu mühazirələrdə iştirak edən müəllimlər həm başqalarından öyrənir, həm də onları öyrədirlər.

«Pedaqoji mühazirələri»n əhəmiyyəti yalnız məruzələr oxunması və onların ətraflı müzakirə edilməsi ilə məhdudlaşdırılmır. Ən keyfiyyətli məruzələr sonradan mətbuatda dərc olunur və respublikanın bütün müəllimlərinə çatdırılır.

Müəllimlərin qabaqcıl iş təcrübələrini aşkara çıxarıb geniş yaymaq üçün rayon xalq maarif şöbələri, pedaqoji kabinetlər, metodbirləşmələr, məktəb direktorları, müəllimlərin özləri və habelə Elmi-Tədqiqat Pedaqogika İnstitutunun elmi işçiləri əllərindən gələni əsirgəməmlidirlər.

**(«Azərbaycan müəllimi» qəzeti, 23 fevral 1961)**

## 11. TƏDBİRİMİZİ MÜTƏŞƏKKİL KEÇİRƏCƏYİK

Respublika «Pedaqoji mühazirələri» mart ayının 28-də, səhər saat 10-da Azərbaycan SSR Elmlər Akademiyasının iclas salonund başlanacaqdır. Məlum olduğu kimi, respublika XVI «Pedaqoji mühazirələri» Böyük Oktyabr sosialist inqilabının 50 illiyinə həsr edilir.

Fərəhli haldır ki, bu il «Pedaqoji mühazirələr»də iş təcrübəsi haqqında çıxış etmək istəyən müəllimlərin sayı əvvəlki illərə nisbətən xeyli artmışdır. Bu, mühazirələrdə iştirak edən rayonların miqdarına da aiddir. Hazırkı «Pedaqoji mühazirələr»də 40-a qədər rayonun 200-dən artıq müəllim və dgər maarif işçisinin məruzələri dinləniləcək və müzakirə ediləcəkdir.

«Pedaqoji mühazirələr»də iştirak etmək arzusunda olan müəllimlərin sayının ildən-ilə artması göstərir ki, öz üzərində müntəzəm işləyən, pedaqoji və metodik ustalığını kamilləşdirməyə çalışan şagirdlərdə bilik və bacarıqların keyfiyyətini daha da yüksəltmək üçün yeni-yeni yollar axtaran müəllimlərimiz getdikcə çoxalır. Belə müəllimlər hiss edirlər ki, müasir dövrdə öz təcrübəsini başqalarının malı etmək, ümumiləşdirmək, təkmilləşdirmək, bu barədə həm şifahi, həm də mətbuat vasitəsilə çıxış etmək, fikir mübadiləsi yürütmək vacibdir.

«Pedaqoji mühazirələr»ə göndərilmiş məruzə mətnlərindən aydın olur ki, müəllimlərimizi təlim və tərbiyənin olduqca müxtəlif məsələləri maraqlandırır. Onlar öz məruzələrində dərsin səmərələşdirilməsindən, təlim zamanı şagirdlərin əqli inkişafına nail olmağın yollarından, təlim prosesində şagirdlərin tərbiyə edilməsindən, ayrı-ayrı mövzuların tədrisini həyatla, istehsalatla əlaqələndirməyin üsullarından, təlim-tərbiyə işlərində texniki vasitələrdən istifadə etməkdən və s. məsələlərdən söhbət açırlar.

Təlim-tərbiyə üzərində məktəbdaxili pedaqoji nəzarətin yeni üsullarından istifadə edilməsi, pedaqoji kollektivin möhkəmləndirilməsi sahəsində yaradıcılıqla çalışan bir çox məktəb rəhbərləri vardır. Bunlardan bir qismi öz iş təcrübəsi haqqında «Pedaqoji mühazirələri»n həm ümumi iclasında, həm də bölmə iclalarında məruzə ilə çıxış edəcəkdir.

Respublika «Pedaqoji mühazirələri»ndə hansı bölmələr fəaliyyət göstərəcəkdir? Təlim və tərbiyənin, demək olar, bütün sahələri üzrə fikir mübadiləsi təşkil ediləcəkdir. Aşağı siniflərdə Azərbaycan dili, ana dili, hesab, əmək, rəsm və başqa sahələr üzrə olan məsələlər ibtidai təlim bölməsində müzakirə ediləcəkdir. İbtidai təlimin bir sıra yeni məsələləri, o cümlədən yeni proqram layihələri də həmin bölmənin müzakirəsinə veriləcəkdir.

Bir çox vacib məsələlərlə yanaşı, V-X siniflər üçün tərtib edilmiş Azərbaycan dili və ədəbiyyatı proqramının yeni layihələri Azərbaycan dili və ədəbiyyatı bölməsində tənqid süzgəcindən keçiriləcəkdir. Riyaziyyatın, fizikanın, kimya-

nın, biologiyanın, coğrafiyanın, tarixin və başqa fənlərin tədrisi metodikasının ən aktual məsələləri müvafiq bölmələrdə müəllimlərin diqqət mərkəzində duracaqdır.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə aid olan bölmə, yubiley «Pedaqoji mühazirələri»ndə təşkil olunmuş yeni bölmələrdən biridir. Bu bölmədə oxunacaq məruzələr az öyrənilmiş tarixi məsələlərlə dinləyiciləri tanış edəcəkdir.

Respublika XVI «Pedaqoji mühazirələri»nin qarşısında duran ümdə vəzifələrdən biri təlim-tərbiyə sahəsində ayrı-ayrı məktəblərin və müəllimlərin qabaqcıl təcrübəsini aşkara çıxarmaq və onu geniş yaymaqdan ibarətdir.

Müzakirələrdə bəyənilmiş iş təcrübələrinə aid mətnlər mətbuatda dərc ediləcəkdir.

Bununla yanaşı, respublika «Pedaqoji mühazirələri» qabaqcıl təcrübəyə əsasən təlim-tərbiyənin səviyyəsini daha da yaxşılaşdırmağın yollarını müəyyənləşdirməyə də xidmət etməlidir. Bu sahədə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» qərarı bizə düzgün istiqamət verir. Respublika XVI «Pedaqoji mühazirələri»nin həm ümumi iclasının, həm də bölmə iclaslarının işi məhz partiya və hökumətin həmin qərarına əsasən qurulmuşdur.

**(«Azərbaycan müəllimi» qəzeti, 26 mart 1967)**

## 12. MÜHAZİRƏLƏRİN BƏZİ YEKUNLARI

Həmin pedaqoji mühazirələrin SSRİ Maarif Nazirliyinin və SSRİ PEA-nın təşkil olunduğu birinci il ərzində ittifaq alimlərinin və müəllimlərinin birlikdə iştirak etdiyi ən böyük tədbirlərdən biri kimi qiymətləndirilməlidir. Ölkəmizdə maarifin və pedaqogikanın sonrakı inkişafı üçün bu tədbirin böyük əməli və nəzəri əhəmiyyəti olduğundan, ona bir deyil, bir çox yazılar həsr etməyə dəyər.

Biz bu məqalədə Ümumittifaq pedaqoji mühazirələrinin yalnız bəzi cəhətləri haqqında söhbət açmaq istərdik.

Mühazirələrin ümumi plenar iclasını açarkən SSRİ PEA prezidenti V.M.Xvostov dedi ki, müəllim həm xalq maarifinin, həm də pedaqoji elmlərin inkişafında mühüm rol oynamalıdır. Müəllim pedaqoji fikrin məktəb həyatına yaxınlaşdırılmasına kömək etməlidir. Pedaqoji elmlərin vəzifəsi isə müəllimlərimizə yardım etməkdən ibarət olmalıdır.

Ümumi plenar iclasda SSRİ Maarif nazirinin müavini M.İ.Kondakov, pedaqoji elmlər doktoru, professor F.F.Korolyov, SSRİ PEA prezidentinin müavini A.İ.Markuşeviç, ordu generalı, Sovet Ordusu Baş Siyasi İdarəsinin rəisi A.A.Yepişev məruzə ilə çıxış etdilər.

M.İ.Kondakov «SSRİ-də 50 il ərzində xalq maarifi və onu daha da inkişaf etdirməyin yolları» mövzusunda məruzə etdi. O, 50 il ərzində ölkəmizdə maarifin keçdiyi yolu konkret faktlar əsasında işıqlandırdı.

F.F.Korolyov «Sovet pedaqogikası 50 ildə və onun inkişafı üçün müəllimlərin göstərdiyi səy» mövzusunda oxuduğu məruzədə sovet pedaqogikasının inkişaf yollarını şərh etdi və pedaqogikanın inkişafına qabaqcıl müəllimlərin göstərdiyi təsirdən danışdı.

A.İ.Markuşeviç məruzəsini «Elmi, texniki tərəqqi və məktəb təhsilinin məzmunu» məsələlərinə həsr etdi. O, göstərdi ki, orta təhsil, sürətlə inkişaf edən elm və texnikadan geri qala bilməz; tədris planı və proqramlar, tərtib edilən dərsliklər elmin, texnikanın və mədəniyyətin inkişafı ilə ayaqlaşmalı, bu inkişafı müəyyən formada əks etdirməlidir.

A.M.Arsenyev «Müasir mədəni və elmi-texniki inqilab nöqteyi-nəzərindən ümumi təhsilin başlıca problemləri», M.N.Skatkin «Təlim prosesini təkmilləşdirməyin bəzi yolları haqqında», A.N.Kolmoqorov «Orta məktəb və riyaziyyat təhsilində yeniliklər» mövzusunda məruzə ilə çıxış etdilər.

M.N.Skatkin məruzəsində dedi ki, cəmiyyətimizdə bütün adamların yaradıcı işləmələri, öz əməklərini elmi əsaslarda qurmağa meyil göstərmələri, qabiliyyətlərini hərtərəfli inkişaf etdirmək üçün boş vaxtlardan səmərəli istifadə etmələri

şagirdlərdən müstəqil düşünməyi, müstəqil bilik əldə etməyi tələb edir. Məktəb isə bu vəzifənin öhdəsindən hələlik gələ bilmir. Belə bir vəzifəni həyata keçirmək üçün məruzəçi bəzi yollar göstərdi. Əvvəla, ümumiyyətlə yaradıcılığın qanunauyğunluğunu öyrənmək və təlim zamanı həmin qanunauyğunluqları nəzərə almaq lazımdır. İkincisi, öz fəaliyyətini təhlil etməyi, ondan nəticələr çıxarmağı şagirdlərə öyrətmək vacibdir. Üçüncüsü, tədris materialının müəyyən hissəsini müstəqil öyrənməyi şagirdlərə həvalə etmək, bu məqsədlə tədqiqat üsulundan istifadə etmək yaxşı nəticə verir. Dördüncüsü, problem təlim getdikcə geniş tətbiq edilir. Məsələn, müəllim müasir elmi biliyi şagirdlərə elan edir, sonra isə onlarla birlikdə bu biliyin qısa tarixi inkişafını açıb göstərir. Bəzən də müəllim qarşıda problem qoyur və şagirdləri onun həllinə cəlb edir. Beşincisi, ən vacib tədris materialını şagirdlərə sadəcə tərzdə izah edilən materialdan fərqləndirmək, bu materialların tədrisini başqa-başqa yollarla qurmaq. Altıncısı, qabaqlar əksər hallarda müəllimlər şagirdlərdən tələb edirdilər ki, materialı olduğu kimi təkrar etsinlər. İndi isə yəqin edilmişdir ki, öyrənilən materialı şagirdlərin öz sözləri ilə başqa şəkildə danışması onların yaradıcılıq qabiliyyətinin inkişafına müsbət təsir göstərir. Yeddincisi, şagirdlər biliklərin bir qisminin müəllimin təlimatı əsasında, bir qismini isə belə bir təlimat olmadan tətbiq edirlər.

Mühazirələrin bölmə və ya yarımbölmələrində də bir çox maraqlı məruzələr edildi. Rus dilinin öyrənilməsinə dair yarımbölmədə məsələn, Taqanror şəhərindəki 2 nömrəli məktəbin müəllimi A.F.Şpilevaya çıxışında inandırıcı faktlarla göstərdi ki, şagirdlərlə aparılan fərdi iş onlarda biliyin və əxlaqın səviyyəsnin yüksəlməsinə səbəb olur. Ədəbiyyatın tədrisi üzrə yarımbölmədə məruzəçilərin bir qismi (İ.Kudryaşov, A.İ.Faybuşeviç, D.A.Sladkova, M.N.Rotermal) ədəbiyyatı problem situasiya yolu ilə öyrənməyin yaxşı nəticə verdiyini sübut etməyə çalışdı.

Qeyri-rus məktəblərində rus dili və ədəbiyyatının öyrənilməsi sahəsində aparılan fikir mübadiləsi canlı keçdi.

Burada müzakirə edilən məruzələrin əksəriyyəti qeyri-rus məktəblərinin ibtidai siniflərində və V-VIII siniflərində rus dilinin məzmunu, milli məktəblərdə rus ədəbiyyatının məzmunu kimi çox mühüm problemlərə həsr olunmuşdu. Həmi yarımbölmədə müəllim və elmi işçilər belə bir ümumi rəyə gəlmişlər ki, qeyri-rus məktəblərində şagirdlərin rusca nitqlərinin qrammatik quruluşunun spesifik xüsusiyyətlərini öyrənmək, bu xüsusiyyətlərlə əlaqədar olan çətinlikləri aradan qaldırmaq vacibdir.

Milli məktəblərdə rus dili təliminin məzmunu xüsusi qayğı obyekti olmuşdur. SSRİ PEA-nın bir qrup elmi işçisi milli məktəblərdə rus dili dərsliklərinin tərtibi təcrübəsini öyrənib ümumiləşdirmək əzmindədir. Nəzərdə tutulmuşdur ki, hələ ibtidai siniflərdə bəsit qrammatik məlumatlar verilsin, oyun ünsürləri gücləndirilsin, yaradıcı yazıların sadə formaları tətbiq edilsin. Yuxarı siniflərdə morfologiya və sintaksis arasında üzvi əlaqə yaradılması, rus dilini öyrədərkən ana dilinə aid bilklərdən ətraflı istifadə edilməsi və başqa məsələlər geniş müzakirəyə səbəb olmuşdur.

M.A.Xeqay (Özbəkistan ETPİ) məruzəsində bildirmişdir ki, özbək məktəblərində rus dilini nitq modelləri üzrə öyrətmək yaxşı nəticə verir. Nitq modellərinə yiyələnən uşaqlar rus dilini daha tez mənimsəyirlər…

V.N.Staşaytene (Vilnüs) və E.A.Beykman (Latviya) deyirdilər ki, rus dilindən bəzi tədris materiallarının proqramlaşdırılması tapşırığın şagirdlər tərəfindən necə yerinə yetirildiyi üzərində müəlimin bilavasitə nəzarət etməsinə imkan verir, şagirdlərin fəallığını artırır və nəticədə təlimin keyfiyyəti yüksəlir. Pribaltika respublikalarında rus dilinin ayrı-ayrı bəhsləri üzrə proqramlaşdırılmış vəsait çap etdirilmişdir.

Tarix və ictimaiyyətin tədrisi üzrə yarımbölmədə oxunmuş məruzələrin maraqlı cəhətlərindən birisi ondan ibarət olmuşdur ki, müəllim və metodistlər ictimai qanunauyğunluqların şagirdlərə öyrədilməsi metodikasını daha geniş müzakirə etmişlər.

Coğrafiyanın tədrisi problemləri üzrə yarımbölmədə müəllimlərin və elmi işçilərin diqqəti yeni proqramla əlaqədar olan bəzi məsələlərə yönəlmişdir. Məsələn, məktəb coğrafiya kursunda geoloji coğrafi məfhumların, klimotoloji məfhumların və s. məfhuların sistemi və həmin məfhumların şagirdlərdə formalaşması məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Kimyanın tədrisi problemləri adlı yarımbölmədə dinləyicilərin marağına səbəb olmuş məruzələrdən Moskva şəhərindəki 10 nömrəli xüsusi məktəbin müəllimi L.V.Butorinanın və Smolensk şəhərindəki 23 nömrəli məktəbin müəllimi S.N..Drozdovun məruzələrini göstərmək olar. L.V.Butorina molekulda atomlar arasındakı kimyəvi əlaqələrin növlərini – atom, kovalent polyar, qeyri-polyar, ion, donar, aspektir birləşmələrinin mahiyyətini dərsdə şagirdlərə necə başa saldığına dair öz təcrübəsindən danışdı. S.N.Drozdov isə öz məruzəsində kimya haqqında V.İ.Leninin fikirlərindən ayrı-ayrı mövzuların tədrisində necə istifadə etdiyi yollarını işıqlandırdı.

Yeni tədris planı və proqramlarına keçməklə əlaqədar olaraq ibtidai məktəb problemləri adlı bölmədə 29 məruzə oxunmuşdur. Bir qrup məruzəçi üçillik ibtiadi təhsil sisteminin tətbiqi təcrübəsindən danışdı. O cümlədən, S.M.Yazıkov və A.A.Lyubinskaya Moskva, Leninqrad şəhərlərinin və müttəfiq respublikaların bəzi məktəblərindəki iş təcrübəsinə əsaslanaraq sübut edirdilər ki, üçillik ibtidai təhsil özünü doğruldur. Onlar göstərdilər ki, aşağı sinif şagirdləri nəinki konkret faktlar əsasında, hətta mücərrəd məlumatlar əsasında da düşünə bilir.

Şagirdlərin ideya-siyasi tərbiyə problemləri üzrə yarımbölmədə də maraqlı məruzələr dinlənilmişdir. Öz iş təcrübəsi haqqında danışan bəzi məruzəçilər, məsələn, Krasnoyarsk ölkəsindən olan N.İ.Mayakin, şagirdlərin köməyi ilə bağların və şitilliklərin salınması, ağacların əkilməsi, məktəb sahəsində qayda, səliqə yaradılmasının onların əxlaqına müsbət təsir bağışladığını göstərdilər. Məktəbyanı sahədə salınmış bağdan, isti şitillikdən və sairdən yığılan məhsul

hesabına şagirdlərin ekskursiyalarını, turist yürüşlərini və s. təşkil etmək mümkün olur.

Humanitar təhsil yarımbölməsində, əsasən iki məsələnin – humanitar fənlərin tədrisində şagirdlərin idrak müstəqilliyi və onların kommunist tərbiyəsi məsələlərinin müzakirəsi daha qabarıq özünü göstərir. Bir qrup mühazirəçilər (İ.Y.Lerner, T.V.Napolnova, V.İ.Zaqvyazinski və başqaları) ayrı-ayrı fənlərin tədrisində fikri fəaliyyət tələb edən tapşırıqlar sistemi üzərində apardıqları işin nəticələrini təhlil edirdi. Başqa bir qrup məruzəçi humanitar fənlərin tədrisi zamanı problem situasiya yaratmağın səmərəli olduğunu sübut edirdi. Üçüncü qrup müəllim və metodistlər isə təlim zamanı şagirdlərin məntiqi təfəkkür priyomları ilə silahlandırmağın faydasından bəhs edirdi. Məsələn, İ.K.Juravlyov, belə bir müddəanı əsaslandırırdı ki, təlim zamanı öz fikrini sübut etmək bacarığının şagirdlərdə onlarda inam yaradılmasına kömək edir.

Böyük fərəh hissi ilə deməliyik ki, respublikamızdan getmiş İ.Mayılov, E.Ter-Danilyan, M.Salamov, R.Mustafayeva, Ə.Cəfərzadə, M.Kann, A.Dadayan, Ə.Əliyev, E.Ağabekyan, N.Gevorkova və başqa yoldaşların oxuduqları məruzələr dinləyicilərin böyük marağına səbəb olmuşdur. Məruzəçilərimiz dərsdə şagirdlərin fəallaşdırılması, onlarda nəcib əxlaqi sifətlərin və estetik zövqün aşılanması, təlim zamanı şagirdlərdə nitqin, texniki yaradıcılığın və əqli keyfiyyətlərin inkişafı, şüurlu intizam tərbiyəsi, sinifdənkənar tədbirlərdə tərbiyənin müxtəlif cəhətləri, təlimi şagird əməyi ilə birləşdirməyin yolları, yeni biliyin öyrədilməsini təkrarla vahid prosesdə birləşdirməyin üstünlüyü və s. vacib məsələlər haqqında faydalı təkliflər irəli sürmüşlər.

**(«Azərbaycan müəllimi» qəzeti, 31 yanvar 1968)**

## 13. ZƏNGİN TƏCRÜBƏ MƏKTƏBİ

V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr olunmuş Ümumittifaq «Pedaqoji mühazirələri» muəllimlərin, meto-

distlərin, pedaqoqların və digər maarif işçilərinnn yaradıcılığına Ümumittifaq baxışına çevrilmişdir. Ümumittifaq «Pedaqoji mühazirələri» göstərdi ki, maarifin, təlim və tərbiyə işlərinin daha da yaxşılaşdırılması üçün nəzəri və əməli qayğı göstərən, faydalı təşəbbüslərdə olan adamlarımızın sayı getdikcə artır.

Ümumittifaq «Pedaqoji mühazirələr»də 1.150 nəfər iştirak etmiş, 650-dən artıq məruzə oxunub geniş müzakirə olunmuşdur. Orada Azərbaycan nümayəndələri də olmuş və onların 29-u məruzə ilə çıxış etmişdir.

Aydındır ki, bir məqalədə 650-dən artıq məruzəni xarakterizə etmək imkan xaricindədir. Buna görə də çalışacağıq ki, diqqəti söylənmiş pedaqoji fikirlərin əsas istiqamətlərinə yönəldək və belə bir suala cavab verək: hazırda maarif işçilərini düşündürən başlıca təlim-tərbiyə məsələləri hansılardır?

Uşaqların, yeniyetmə və gənclərin düzgün əxlaq tərbiyəsinə nail olmağın yolları belə məsələlərdən biri olmuşdur.

V.İ.Leninin həyat və fəaliyyəti əxlaq tərbiyəsi üçün tükənməz mənbədir. Buna görə də «Pedaqoji mühazirələr»də V.İ.Leninlə əlaqədar olan mövzular xüsusilə geniş yer tutmuşdur. Oxunmuş məruzələr göstərir ki, müəllimlərimizin çoxu V.İ.Leninin əsərlərinin orta məktəbdə öyrənilməsi ilə kifayətlənmirlər, bununla yanaşı onlar «V.İ.Leninin anadan olmasının 100 illiyinə dair» Sov.İKP MK-nın Tezislərini, Leninlə əlaqədar olan monoqrafiyaların, memuar əsərlərin, ədəbi əsərlərin, rəssamların əsərlərinin oxunuşunu, bədii və sənədli kino filmlərə baxış təşkil edirlər. Lenin muzeyinin ayrı-ayrı şəhərlərdəki filiallarına kollektiv gedişdən istifadə edilməsinin də böyük təlim-tərbiyə əhəmiyyəti vardır. V.İ.Lenin irsini şagirdlərə öyrənməkdə sinif tədbirlərinin, fakültətiv məşğələlərin və sinifdənkənar tədbirlərin əlaqələndirilməsi başlıça şərtdir. Lenin irsini öyrəimməkdə seminar məşğələlərindən, ayrı-ayrı əsərlər üzrə referat yazmaqdan da istifadə edilir.

V.İ.Lenin mövzusunda oxunmuş məruzələr arasında Azərbaycandan getmiş müəllimlərin məruzələri xüsusi

vüqarla səslənmişdir. Onların arasında Bakı şəhərindəki 182 nömrəli məktəbin müəllimi Rəfiqə Mustafaya və Şamaxı rayonundakı Udulu kən məktəbinin müəllimi Əhməd Cəfərzadə və Bakı şəhərindəki 176 nömrəli məkttəbin müəllimi Z.Q.Səfərova kimi yoldaşların məruzələri Azərbaycanlı nümayəndələrdə iftixar hissinə səbəb olmuşdur. Rəfiqə müəllimə Azərbaycan ədəbiyyatı dərslərində böyük Leninə şagirdlərdə məhəbbət hissinn necə formalaşdırıldığından ətraflı danışmışdır. Əhməd muəllim isə kənd məktəbləri şəraitində Lenin ongünlüyü təşkil etməyə dair öz təçrübəsi ətrafında canlı fikir mübadiləsi keçirilməsinə nail olmuşdur. Z.Q.Səfərova yoldaş rus dilinin öyrədilməsi zamanı şagirdləri V.İ.Leninin həyat və fəaliyyəti nümunəsində tərbiyə etməyin yollarından danışmışdır.

Tarixdən praktikumlar təşkil edən və bu yolla V.İ.Leninin irsini şagirdlərə daha dərindən öyrədən müəllimlər də vardır. Məsələn, Çelyabinsk vilayətindən T.T.Medovşikova yoldaş şagirdlərə tapşırıq verir ki, V.İ.Leninin əsərlərinə aid məlumat cildinin 2-ci hissəsində (4-cü nəşrində) hansı göstəricilərin olduğunu və bu göstəricilərin hansı prinsipə əsasən tərtib edildiyini öyrənsinlər. Bundan əlavə, müəllim şagirdlərə tapşırır ki, atalar sözü, zərb-məsəllər göstəricisi ilə tanış olsunlar, bunlardan 2-3-nü seçsinlər və kitabxanada müvafiq cildi taparaq belə bir suala cavab hazırlasınlar: «Həmii atalar sözü və ya zərb-məsəli V.İ.Lenin kimlə və ya nə ilə əlaqədar olaraq işlətmişdir?». Bu istiqamətdə aparılan işin nəticələrindən biri bundan ibarət olur ki, şagirdlər Lenin mövzusunda müstəqil olaraq yeni-yeni məlumat oxumağa maraq göstərirlər.

Müəllimlər V.İ.Leninin fotoşəkilləri üzərində də müəyyən iş aparırlar. Müəllimin tapşırığı ilə şagirdlər V.İ.Leninin fotoşəkillərini toplayırlar. Hər şagird həmin şəkillərdən birini götürür və bu şəklin nə vaxt, hansı şəraitdə, harada çəkildiyini, kimlə çəkildiyini öyrənir. Şagirdlərin bir qismi əldə etdiyi məlumatı yazılı şəkildə təqdim edir, başqa bir qismi isə öyrəndikləri haqda sinifdə çıxış edir.

İnqilab, əmək və döyüş şöhrəti yerlərində təşkil olunan tədbirlərin şagirdlərə böyük tərbiyəvi təsiri olur. Məsələn, qəhrəman Brest qalasına yaxın olan məktəblər orada bəzən dərs təşkil edir, komsomola keçənlərə bilet təqdim edir, görüşlər keçirir. «Gizlədilmiş bayrağın axtarılması» adlı vilayət pioner oyununun sonu həmin qalada keçirilir. Bu oyun hər bir şagirdi öz hərəkətini kollektivin hərəkətinə uyğunlaşdırmağa alışdırır, onlarda dostluq və yoldaşlıq, qarşılıqlı yardım və hörmət hissi tərbiyə edir.

Şagirdlərin şəxsiyyətinin formalaşmasına təsir göstərən amillər. «Pedaqoji mühazirələr» iştirakçılarının diqqət mərkəzində olan məsələlərdən biri idi. İ.S.Maryenko öz məruzəsində sübut etməyə çalışmışdır ki, şagirdlərin şəxsiyyətinə güclü təsir göstərən bioloji, sosioloji və pedaqoji amillər bir-biri ilə bağlıdır.

Müəllimlərin, umumiyyətlə, tərbiyəçilərin müəyyən məqsədlə təşkil etdikləri şərait və iş formaları əxlaq tərbiyəsində həlledici qüvvəyə malik olur. Buna görə də əxlaq tərbiyəsinin səmərəliliyi tərbiyə zamanı müəllimin əldə rəhbər tutduğu nəzəri müddəalardan, onun nəzəri mövqeyindən çox asılıdır. Əxlaq tərbiyəsində tərbiyə olunanların ehtiyaclarını, maraqlarını, ideallarını, məqsədlərini, mövqelərini, fəaliyyət istiqamətlərini nəzərə almağın əhəmiyyəti az deyildir. Bütun bunların arasında pedaqoji tələblər, nəzarət və qiymət, ictimai rəy aparıcı rola malikdir. Kollektivlə və hər bir şagirdlə ardıcıl və sistemli aparılan iş şagirdlərin əxlaqi inkişafına düzgün istiqamət verir.

Əxlaq tərbiyəsinin konkret yollarından danışan müəllimlər çox olmuşdur.

Beynəlmiləlçilik tərbiyəsi sahəsində maraqlı təcrübə qazanmış məktəblər vardır. Məsələn, Maykop şəhərindəki 10 nömrəli məktəbdə təşkil edilmiş beynəlmiləl dostluq klubunda yazışma, tərcüməçilər və mühazirəçilər bölmələri fəaliyyət göstərir. Klubun üzvləri Almaniya Demokratik Respublikasını, Almaniyada inqilabi hərəkat tarixini, V.İ.Leninlə onun əlaqəsini öyrənirlər.

Riqa şəharindəki 17 nömrəli səkkizillik məktəbdə 13 millətin balaları oxuyur. Müxtəlif iş formaları ilə yanaşı, məktəbdəki beynəlmiləlçilik klubunun təşkil etdiyi bütün tədbirlərdə nəinki şagirdlər və müəllimlər, həm də valideynlər və hami təşkilatların nümayandələri iştirak edirlar. Pioner təşkilatı öz tədbirlərini məktəbdən kənarda da, lazım gəldikdə müəssisədə, ictimai yerlərdə, uşaq meydançalarında da keçirir.

R.Q.Amosova va respublikamızın Füzuli rayonundakı Pirəhmədli kənd məktəbimin müəllimi Allahverdi Məmmədov öz məruzələrində göstərmişlər ki, şagirdlərin əxlaqi keyfiyyətləri əməyin gedişinə və nəticəsinə təsir göstərir. Kollektiv fəaliyyət zamanı şagirdlər arasında qarşılıqlı yardım, tabeçilik, rəhbərlik, yoldaşlıq münasibətləri qüvvətlənir, hətta münaqişə situasiyaları meydana çıxa bilir. Belə bir şəraitdə bir-birinin, özünün davranışına, fəaliyyətinə, qiymət verməyi bacarmaq kollektivdə fəaliyyət üçün böyük əhəmiyyət kəsb edir.

Ayrı-ayrı fənlərin tədrisi zamanı əxlaqi keyfiyyətlərin şagirdlərdə formalaşması ilə müntəzəm məşğul olan müəllimlər gözəl nəticələr əldə edirlər. Müxtəlif xalqların ədəbiyyat nümunələrini əlaqəli öyrətmək də həmin məqsədə xidmət edir. Bu haqda Ümumittifaq «Pedaqoji mühazirələri»ndə öz təcrübəsindən geniş söz açmış müəllimlərdən ikisini nəzərdə tuturuq. Bunlardan biri Qazaxıstan SSR-in əməkdar müəllimi, Sosialist Əməyi Qəhrəmanı R.Nurtazina, digəri isə respublikamızın Cəbrayıl rayonundakı M.Qorki adına orta məktəbin müəllimi Q.Bayramovdur. R.Nurtazina yoldaş «Rus ədəbiyyatının qazax ədəbiyyatı ilə qarşılıqlı əlaqədə öyrədilməsi» mövzusunda, Qorxmaz müəllim isə «Azərbaycan ədəbiyyatının qardaş xalqların ədəbiyyatı ilə əlaqəli tədrisi» mövzusunda məruzə etmişlər.

Ailədə uşaqların tərbiyəsi məsələləri də müzakirə obyektinə çevrilmişdir. Peşə istiqamətinin müəyyənləşdirilməsində ailənin rolundan danışan E.D.Stepanova (Petrozavodsk şəhəri) göstərdi ki, uşaqların peşə seçməsinə ailə laqeyd ola bilməz. Valideynlər öz uşaqlarına peşə seçməkdə kömək

edərkən onların bilik və bacarıqlarını, maraq və imkanlarını, habelə cəmiyyətimizin ehtiyaclarını nəzərə almalıdırlar.

Həyatı yaxşı bilən məktəb rəhbərləri və müəllimlər ailə tərbiyəsində valideynlərin işinə istiqamət verir, gənclərin düzgün tərbiyə olunmasında onların imkanlarından ustalıqla istifadə edirlər. Məsələn, Vilnus şəhərindəki 6 nömrəli məktəbdə işləyən müəllimlər valideynlərin hansı peşəyə sahib olduqlarını öyrənmişlər. Məlum olmuşdur ki, valideynlər arasında 60-a qədər peşə sahibi vardır. Müvafiq nəzəri və metodik iş aparıldıqdan sonra həmin valideynlər peşə təmayülü sahəsindəki təbliğata cəlb edilmişlər. Müxtəlif peşələr haqqında valideynlərin söhbətləri şagirdlərə çox şey vermiş, peşələr haqqında onların təsəvvürlərini xeyli genişləndirmişdir.

Gənclərin həyata və əməyə hazırlanması sahəsində E.F.İlyanaya (Krasnodar ölkəsinin Vıselkovski orta məktəbi) maraqlı iş təcrübəsindən söhbət açmışdır. O, haqlı olaraq demişdir ki, bizim gənclər ailə və kəbin məsələlərindən halı olmalı, sovet ailəsinin hüquq normalarına və vəzifələrinə bələd olmalıdırlar. Belə biliklər gənclərdə ər-arvadlıq borcunun, valideynlik borcunun formalaşmasına, evlənənə qədər öz şəxsi həyatına, habelə ailə həyatına, uşaqların düzgün tərbiyə olunmasına şüurlu münasibətin yaranmasına xidmət etməlidir. E.F.İlyanaya təcrübədə yoxlamaq məqsədi ilə pedaqoji-psixoloji biliklər kursu hazırlamış və bunu orta məktəbin tədris planına daxil etmişdir. Həmin kursda gəncləri ailə qurmağa və uşaqları tərbiyə etməyə hazırlamağı nəzərdə tutan bəhs də vardır.

Uşaqların düzgün tərbiyə olunmasında məktəbin, ailənin və içtimaiyyətin birlikdə gördüyü işləri daha da gücləndirmək məqsədi ilə Belorusiya SSR-in Qrodno şəharində ailəyə və məktabə şəhər yardım şurası təşkil edilmişdir. Şura şəhər partiya komitəsinin rahbərliyi altında və şəhər maarif şöbəsi ilə əlbir fəaliyyət göstərir. Şura müəssisələrin inqilabi və əmək ənənələrindən, hərbi hissələrin döyüş ənənələrindən yeniyetmə və gənclərin tərbiyəsində geniş istifadə olunmasında, qəhrəmanlıq yerlərinə yürüşlərin təşkilində və s.

tədbirlərin keçirilmasində şəhərin məktəblərinə vahid istiqamat verilməsinə kömək edir.

Şagirdlərin həyata, ictimai-faydalı əməyə hazırlanmasında məktəbin və istehsalatın əlbir işi böyük əhəmiyyətə malikdir. Bu cəhətdən Xarkov şəhərindəki traktor zavodu ilə məktəblərin, Kirov şəhərindəki 16 nömrəli məktəblə zavod arasındakı əlaqə diqqəti cəlb edir. Məsələn, Xarkov traktor zavodunda məktəblər üçün tədris sexi yaradılmışdır. Həmin sexdə peşə təmayülü uzrə işlər, laboratoriya-praktik işlər, ilk peşə hazırlığı üzrə işlər, texniki yaradıcılıq işlər aparılır. Traktor zavodundakı tədris sexindən əmək və politexnik təhsilin, əmək tərbiyəsinin, peşə təmayülünün şagirdlərdə texniki yaradıcılığın tədris-texniki və tədris-istehsalat bazası kimi istifadə olunur.

Kirov şəhərindəki zavod isə belə bir tədris sexini bilavasitə 16 nömrəli məktəbi» özündə təşkil etmişdir. Onu da deyək ki, məktəbdə yaradılmış tədris sexi zavodun strukturasına daxil olan vahiddir. Orada zavodun maaşı ilə 5 nəfər işləyir. Məktəbdəki sexi bütün materiallarla, alətlərlə, avadanlıqla zavod təchiz edir. İlk dəfə zavodda tətbiq edilən cihazla məktəbdəki tədris sexində və kabinələrdə sınaqdan keçirilir. Sınaq zamanı müəllimlər və şagirdlər bir sıra konstruktorluq təklifləri, səmərələşdirici təkliflər verirlər.

Belə tutarlı əlaqə Novqorod şəhərindəki yarımkeçiricilər cihazları zavodunun və məktəblərin, Kamensv Uralsk şəhərindəki müəssisələrin məktəblərin işində də vardır. Orada uşaqlar hələ aşağı siniflərdən özlərini fəhlə kollektivlərinin hissələri hesab edirlər. Bu cür sıx əlaqənin nəticəsidir ki, məsələn, Voronej vilayətindəki Kostensk kənd, Minsk vilayətindəki Snovsk kənd, Qırğızıstan SSR-dəki Orqoçersk kənd, Zakarpat vilayətindəki Krasnyansk kənd məktəblərini və bir sıra başqa məktəbləri qurtaran şagirdlərin xeyli hissəsi kolxoz və ya sovxozda, kənd təsərrüfatı muəssisələrində qalıb işləyir, kənd təsarrüfatının inkişafına kömək edir, kənd təsərrüfatı elmlərinə onların marağı xeyli artır. Çünki ərazisində yerləşdikləri həmin kolxoz və sovxozlar məktəblərlə yaxından əlaqə saxlayır,

onlara lazımi yardım göstərirlər. Məsələn, Kostensk kolxozunun idarə heyətində, partiya komitəsində, məktəbin pedaqoji şurasında kolxozun kadrlara olan ehtiyacı müzakirə edilir, bu ehtiyacı məktəb nəzərə alır; kolxoz məktəbin nəzdində internat təşkil etmiş, tədris emalatxanası maşınşünaslıq kabineti tikdirmiş, əmək təlimi üçün məktəbə 2 traktor, kənd təsərrüfat alətləri vermiş və bu avadanlığın təmirinə kömək etmişdir. 7 ildir ki, kolxoz şagirdlərə pulsuz yemək verir; şagird briqadasının işinə yekun vurularkən kolxozun idarə heyətinin ayırdığı pul vəsaitindən mükafat nəzərdə tutulur; yay tətili zamanı kolxozun hesabına məktəbdə pioner düşərgəsi yaradılır, kolxozun tapşırığı ilə şagirdlər təcrübələr aparırlar. Kolxozda kənd təsərrüfatı bitkilərinin becərilməsi planı tərtib edildikdə həmin təcrübələrin nəticələri nəzərə alınır.

Aşağı siniflərdə yeni proqramların, xüsusən riyaziyyatdan yeni proqramın tətbiqi təcrübəsinə dair maraqlı fikirlər söylənmişdir. Məsələn, I-III siniflərin riyaziyyat kursunda həndəsi və hesab materiallarının qarşılıqlı əlaqə şəraitində öyrədilməsi haqqında danışan A.T.Katasonova (SSRİ PEA-nın təlimin məzmunu və üsulları institutu) dedi ki, bəzən həndəsi məlumatı rəqəmlərlə və ya əksinə, rəqəmləri həndəsi məfhumlarla ifadə etmək olur. Məsələn, o, yeri gəldikcə nöqtələr çoxluğunda «sonra gəlir», «əvvəl gəlir», «bir-birinin üzərinə düşür» kimi həndəsi ifadələri ədədlər çoxluğunda «çoxdur», «azdır», «bərabərdir» kimi yazı münasibətlərlə nümayiş etdirməyi məsləhət görür.

Aşağı siniflərdə riyaziyyatın tədrisi zamanı həndəsi və hesab materiallarının əlaqəli öyrədilməsinə kömək edən yollardan aşağıdakıları göstərmək olar: ədəd anlayışını öyrədərkən həndəsi fiqurlardan istifadə edilməsi; həndəsi fiqurların əlamətlərinin ədədlər vasitəsilə ölçülməsi; ədədlərin nöqtələrlə, xətt parçaları ilə ifadə olunması; simetrik ölçülər sistemindəki adlı ədədlərə istinad edərək çoxmənalı ədədlərlə tanışlıq, çoxmənalı ədədlərin toplamması və çıxılmasını xətt parçalarının toplanması və çıxılmasında nümayiş etdirmək və s.

Bu istiqamətdə aparılan işlər şagirdlərin təfəkkürünü inkişaf etdirir, biliklərini sistemləşdirir.

Müttəfiq respublikalar tarixinin öyrənilməsi sahəsində ətraflı təcrübə mübadiləsi keçirilmişdir. Məruzəçilərdən P.S.Leybenqrub, R.Y.Okuneva, V.P.İvançenko, Ş.Şükürov və bir çox başqaları öz çıxışlarında V.İ.Leninin belə bir ideyasına əsaslanmışlar ki, zəhmətkeşləri milli bərabərlik və qardaşlıq ruhunda tərbiyə etmək lazımdır. Bunun üçün SSRİ tarixi kursu və onun tərkib hissəsi olan müttəfiq respublikanın tarixi zəngin material verir, Lenin milli siyasətinin mahiyyətini şagirdlərə izah etməkdə, gəncləri sovet vətənpərvərliyi, SSRİ xalqları arasında dostluq və beynəlmiləlçilik ruhunda tərbiyə etməkdə böyük əhəmiyyətə malikdir.

Təlimin, xüsusən dərsin ayrı-ayrı cəhətləri haqqında geniş söhbət açılmışdır. Bu cür cəhətlərdən biri şagirdlərdə təlimə marağın artırılmasıdır. Bu istiqamətdə öz təcrübəsindən çox müəllim danışmışdır. Məsələn, Krasnoyarsk şəhərindəki 1 nömrəli məktəbin müəllimi N.F.Sinyakova təbiətşünaslıq dərslərində əyləncəli situasiyalar yaratmaqdan çəkinmir. O, bu məqsədlə nağıllardan götürülmüş parçalara, atalar sözlərinə, oyunlara, rebus və şaradalara və s. əl atır, çox halda dərsi bunlardan biri ilə başlayır.

Müəllimlərdən bəziləri göstərmişlər ki, təkrar dərslərində və ümumiləşdirici dərslərdə viktorinadan, tapmacadan istifadə edilməsi də yaxşı nəticə verir.

Bəzi məruzələrdə göstərilmişdir ki, müvafiq elmin tədqiqat üsulları haqqında dərs zamanı şagirdlərə məlumat vermək və onları bu istiqamətdə işlətmək yaxşı nəticə verir. Belə halda şagirdlərin nəinki təlimə, həm də elmin özünə marağı artır. Bu mənada güman edirik ki, ədəbiyyat dərslərində ədəbiyyatşünaslığın təhlil üsullarını yeri gəldikcə tətbiq edən müəllimlər düzgün hərəkət edirlər. Ədəbiyyatşünaslığın təhlil üsullarına yaxşı bələd olan müəllim bu üsulların tərkibinə daxil olan priyomlardan da xəbərdardır. Məsələn, məlumdur ki, konkret əsərin mətnini öyrənməyə əsaslanan üsula aşağıdakı priyomlar daxil olur: forma və məzmunun qarşılıqlı əlaqəsini sübut etməkdən

ötrü mətndə sınaq üçün dəyişiklik etmək, mətndəki ayrı-ayrı ifadələri hərfən başa düşməyin səhv olduğunu sübut etmək.

Yaxud, sənətkarın konkret əsərinin onun bütün yaradıcılığı ilə əlaqəsini açan üsulun tərkibində isə aşağıdakı priyomlar olur: müəllifin ideyasının necə formalaşdığını, onun yaradıcılıq axtarışlarını öyrənmək məqsədi ilə ayrı-ayrı yazılı fikirlərini (məqaləsini; məktubunu) bədii əsərinin mətni ilə tutuşdurmaq; müəllifin yaradıcılıq istiqamətini aşkara çıxarmaq məqsədi ilə eyni mətnin müxtəlif redaksiyasını müqayisə etmək; eyni sənətkar və ya eyni əsər haqqında müxtəlif şəxslərin fikirlərini tutuşdurmaq.

Sənətkarın yaradıcılığı ilə ədəbi-tarixi proses arasındakı əlaqəni öyrənməyə yönələn üsulun tətbiqində isə belə priyomlara da əl atılır: müxtəlif dövrlərdə yaşamış olan sənətkarların əsərlərinin kompozisiyasını va bədii təsvir sistemini müqayisə etmək, oxşar və fərqli cəhətləri aşkara çıxarmaq; müəyyən bir sənətkarın həyatından və ya yaradıcılığından alınmış bir faktı başqa bir sənətkarın həyatı və ya yaradıcılığındakı müvafiq faktla müqayisə etmək.

Bunları nəzərə alan müəllim hər bir üsulun, hər bir priyomun tətbiqi üçün faydalı olan ədəbiyyat məsələlərini qabaqcadan müəyyənləşdirməyə çalışır.

Dilin tədrisində də belə tədqiqat xarakterli imkanlar vardır. Bəzi müəllimlər dşq fənni ilə əlaqədar olaraq qrammatika, leksika və frazeologiya, habelə stilistika materialları əsasında tərtib edilmiş problemli tapşırıqlar uzərində şagirdləri işlədirlər. Bu cür tapşırıqlar dilçilik elmindəki təsviri və müqayisəli üsulların, tarixilik üsulunun və müqayisəli-tarixilik üsulunun, estetik və stilistik üsulların tətbiqi üçün şərait yaradır.

Qalan fənlərin həmin imkanlarından istifadə edən müəllimlər az deyildir. Məsələn, Moskvadakı 622 nömrəli məktəbin müəllimi M. İ. Bazilevskaya, Bakı şəhərindəki 117 nömrəli məktəbin müəllimi H.Bağırov və bir sıra başqaları şagirdlərdə etiqad yaratmaq, biliklərin şüurlu mənimsənilməsinə nail olmaq, onlarda elmə marağı artırmaq, müstəqil bilik əldə etmək və tədqiqatçılıq bacarığını artırmaq üçün

coğrafi tədqiqat üsulları (ekspedisiya, geofizika, radiologiya, kartoqrafiya) ilə şagirdləri tanış edirlər. Bu məqsədlə onlar həm dərsin, həm də sinifdənkənar tədbirlərin imkanlarından istifadə edirlər.

Təlimin elmi səviyyəsini yüksəltməkdə, elmi anlayışların daha əsaslı mənimsənilməsində diqqəti həmin anlayışların əhatə etdiyi əlamətlərə yönəltməyin əhəmiyyəti çoxdur. Bunu Azərbaycan DETPİ-nin elmi işçisi B.Paşayevin oxumuş olduğu məruzədə bir daha hiss etmək olur. Bəlgiyə müəllim qitələr çoğrafiyası kursu əsasında ümumi çoğrafi anlayışların elmi idrak yollarına yaxınlaşdırmağın imkanlarından danışmışdır.

Təlimi elmə, təlim üsullarını tədqiqat üsullarına yaxınlaşdırmaqda əmək təliminin də imkanları vardır.

Şagirdlərdə konstruktor-texnoloji yaradıcılığı maksimum dərəcədə inkişaf etdirmək üçün, məsələn, Moskva şəhərindəki 698 nömrəli məktəbin müəllimi S.İ.Polikanın konstruktor hazırlayırlar.

Bütün bu mərhələlərdən sonra şagirdlərin texnoloji fəaliyyəti başlayır; onlar müstəqil olaraq qarşıdakı quraşdırma işinin texnoloji planını hazırlayır və bu əsasda işə girişirlər. Bu cəhətdən Bakı şəhərindəki 27 nömrəli məktəbin müəllimi A.Çernoqlazovun öz iş təçrübəsi haqqındakı məruzəsi də maraqlı olmuşdur.

Əyani və texniki vasitələrdən təlimdə istifadə olunması sahəsində respublikamızı Sumqayıt şəhərindəkn 12 nömrəli məktəbin müəllimi Y.Bünyatov və Kirovabad şəhərindəki 16 nömrəli məktəbin müəllimi İ.Həsənov təmsil edirdilər. Yaqub müəllim özünün yaratmış olduğu avtomatlaşdırılmış sinif şəraitində riyaziyyat dərsləri zamanı şagirdlərin təfəkkürü inkişaf etdirmək təcrübəsindən, İlyas müəllim isə coğrafiyanın tədrisi əlaqədar olaraq əyani vəsaitlərin hazırlanması, saxlanması və onlardan istifadə olunması təcrübəsindən həvəslə danışmışlar. Hər iki məruzə dinləyicilərdə böyük maraq oyatmışdır.

Bir çox müəllimlər şagirdlərin müstəqil işlərinin, xüsusən dərslik üzərində mustəqil işlərin təşkili təcrübəsindən

danışmış və bu sahədə çəkilən zəhmətin böyük səmərə verdiyini, şagirdlərdə ümumiyyətlə kitab üzərində işləmək vərdişinin artmasına kömək etdiyini göstərmişlər. Bu həddən Moskva şəhərindəki 32 nömrəli məktəbin müəllimi Q.A.Kolesinanin iş təcrübəsi böyuk marağa səbəb oldu. Çünki o, dərsdə şagirdləri fəallaşdırmaq üçün kitab üzərində müxtəlif, müstəqil iş təşkil edir. O, bəzən şagirdlərə oxunan mətndə başlıca cəhəti seçməyi, bəzən dərslikdə gətirilən faktlardan nəticə çıxarmağı, bəzən mətndə deyilən ümumi fikri sübut edəcək əlavə fakt tapmağı, bəzən verilən məsələ üzrə dərslikdən material toplamağı, bəzən də mətn üzrə və konspekt tərtib etməyi tapşırır. Sistem halında aparılan bu işlər şagirdlərdə lazım olan məlumatla dərslikdən tez və düzgün tapmaq bacarığını inkişaf etdirir, dərslikdə sözlərə, mətnə, başlıqlara qarşı onları diqqətli olmağa sövq edir, fikri ardıcıl danışmağa, sübut etməyə, qarşısındakı şəxsi inandırmağa öyrədir.

Məlum olduğu kimi, mətnin əsas ideyasını, bədii parçaların başlıca ideyasını başa düşməkdə bir çox şagirdlər çətinlik çəkir. Bunu nəzərə alan müəllimlər mətn uzərində şagirdlərin işini müəyyən sistem halında təşkil etməyə çalışırlar. Məsələn, sinifdə bədii yazıların əsas ideyasını şagirdlərə başa salmaq uçün N.Orexova (Vladimir vilayəti, Kommunar orta məktəbi) onları bir silsilə təşkil edən tapşırıq üzərində işlədir. Aşağıdakı tapşırıqlar buna nümunə ola bilər: mətndə başlıqlardan eləsini seçin ki, bu başlıq mətnin məzmununu müəyyən dərəcədə ifadə etmiş olsun, mətnin məzmununu əks etdirən başlıq fikirləşin; mətndəki sözlərdə elələrini seçin ki, bu sözlər mətnin əsas fikrini ifadə etmiş olsun; mətnin əsas ideyasını deyin və bu ideyanı mətndən gətirilən faktlarla sübut edin.

Ümumittifaq «Pedaqoji mühazilər»ində dinləyicilərin böyük marağına səbəb olmuş məsələlərdən biri də problemli təlim məsələsi idi. Oxunmuş məruzələr bir daha göstərdi ki, müəllimlər dərsdə problemli situasiya yaratmağa getdikcə daha çox meyl göstərirlər. Çünki problemli situasiya mənimsənilmiş biliklərdən yaradıcılıqla istifadə edilməsinə,

elmdəki tədqiqat üsullarını öyrənməyə, elmi təfəkkürə sahib olmağa, yaradıcı fəaliyyət göstərməyə şagirdləri sövq edir; onların idrak fəaliyyətinə rəhbərlik etməyə şərait yaradır. Məruzələrdə problemli situasiya yaratmağın uç əsas növü haqqında söhbət getmişdir: 1) materialı müəllimin problemli şəkildə şərhi; 2) problem məsələlərin həllinə şagirdləri qismən cəlb etmək; 3) problem məsələlərin şagirdlər tərəfindən tam müstəqil həll edilməsi.

Problemli təlimin vəzifələrindən biri təlimdə sübutluluq dərəcəsini xeyli artırmaqdan ibarətdir. Bu, həm müəllimin şərhinə, həm də şagirdin cavabına aiddir. Eksperimental tədqiqatla sübut edilmişdir ki, tədris tapşırıqlarının həllini səmərələşdirmək və asanlaşdırmaq üçün problemli situasiyadan istifadə etmək yaxşı nəticə verir.

Təlim prosesinə idrak tapşırıqlarının necə daxil edilməsi də böyük şərtdir. Bir fakt deyək: qarşıya qoyulmuş məsələnin həlli şərtləri bəzən məsələnin qoyuluşunda ifadə olunur ki, bu, həmin məsalənin hallini yungülləşdirir.

Məsələnin həlli yollarını şagirdlərin başa düşməsinə kömək edən tərzlərdən biri də məsələnin mərhələ-mərhələ təqdim edilməsidir. Bu, ardıcıl, mərhələli mühakimə yürutməyə də şərait yaradır. Məsələnin mərhələ-mərhələ qoyuluşu nəticə etibarı ilə problemin bütövlükdə həllinə kömək edir.

Problemli təlim zamanı evristik müsahibədən də az istifadə olunmur. Çünki evristik müsahibədə da əlaqəli suallar vasitəsilə problem qoymaq, problemin həlli üçün yollar araşdırmaq, bu yollardan birinin köməyi ilə problemi həll etmək və nəticə çıxarmaq mümkün olur. Burada evristik müsahibənin əsas vəzifəsi axtarış yolunu müəyyən etməkdən, bu yolun həqiqiliyini sübut etməkdən, axtarış yolunun nümunəsini verməkdən, şagirdləri axtarışa sövq etməkdən və şagirdləri sistemli mühakimələr yürütməyə alışdırmaqdan ibarətdir.

Azərbaycan DETPİ-nin baş elmi işçisi Ə.Əfəndizadə yoldaşın məruzə üçün təqdim etdiyi mətn dil üzrə yeni mövzunun öyrənilməsi zamanı imladan istifadə etməyin yeni yollarına həsr olunmuşdur. Əziz müəllim imla

materialını sinifdə şagirdlərin qüvvəsi ilə təhlil etdirərək onların diqqətini yol verilmiş səhvlərə, bu səhvlərin səbəbini axtarıb tapmağa yönəltməyi təklif edir. Əslində yeni mövzunun şüurlu mənimsənilməsi uçün problemli situasiya yaradılmış olur: buna görə də şagirdlərin yeni mövzuya, yeni materiala, yeni biliyə marağını xeyli artırır.

Bir çox müəllimlər elmi axtarışlar edir, çalışırlar ki, müstəqil işləmək uçün şagirdlərə tapşırıq verəndə müəyyən «normaya» əsaslansınlar. Onlar belə norma müəyyənləşdirəndə haqlı olaraq tədris materialının spesifikasını, şagirdlərin istifadə edəcəkləri tədris vəsaitinin xarakterini, işin evdə və ya sinifdə yerinə yetiriləcəyi şəraiti və s. nəzərə almağa səy göstərirlər.

Bu müəllimlərin arasında elələri də var ki, onlar bütün şagirdlərə aid olan tapşırıqla ayrı-ayrı şagirdlərin imkanlarına uyğun olan tapşırıqları uzlaşdırmağa və bu əsasda onların fəallığını artırmağa çalışırlar. Moskva şəhərindəki 698 nömrəli məktəbin müəllimi M.V.Qorbaçevskaya fəallaşdırmanın bu növündən geniş istifadə edənlərdən biridir. Sinfə aid olan ümumi tapşırıqla yanaşı o, 2-3 əlavə tapşırıq da müəyyənləşdirir və hər şagird bunlardan birini: məsələn, ya formal-qrammatik əlamətli tapşırığı, ya məntiq əlamətli tapşırığı, ya da yaradıcılıq tələb edən tapşırığı seçir. Birinciyə, məsələn, nöqtələrnn yerinə hərf yazmağı, mötərizəni açmağı və s., ikinciyə – imla mətni tərtib etməyi, sxem düzəltməyi, müəyyən əlamətlərinə görə dil materialını qruplaşdırmağı, dərsin planını tərtib etməyi; üçüncüyə – hər hansı hadisənin obyektiv təsvirini, təsvir edilən hadisəyə öz münasibətini bildirməyi aid etmək olar.

Şagirdlərin seçməsi üçün təklif olunan tapşırıqlar o vaxt səmərəli olur ki, müəllim bəzi şərtlərə əməl etsin. Əvvəla, bu cür tapşırıqlar yalnız zəruri olduqda təklif edilməlidir; ikincisi, yerinə yetirilmiş işlər hökmən sinifdə təhlil edilməlidir; seçilmiş tapşırığın içrasını, onun nətiçəsini yoxlamaq lazımdır.

«Pedaqoji mühazirələr»də çıxış edən məruzəçilərdən bəziləri sübut edirdi ki, keçilən mövzuların lazım gəldikdə

ölkəşünaslıqla əlaqələndirilməsi təlim və tərbiyə səviyyəsinin yüksəlməsinə səbəb olur. Dağıstanda Oqni qəsəbə məktəbinin müəllimi Q.A.Malkinin təcrübəsi buna misal ola bilər; o, tarixə aid mövzuları tədris edərkən Dağıstanın tarixinə dair sənədlərdən, şagirdlərin turist yürüşlərindən, inqilab və müharibə veteranları ilə, onların qohumları ilə görüşlərdən, doğma ölkənin yaşlı adamları ilə söhbətlərdən, arxeoloji qazıntılarda iştirakdan, məktəbdə ölkəşunaslıq muzeyi materiallarından və s.-dən istifadə edir.

«Pedaqoji mühaz.irələr»də müəllimlərin diqqətini cəlb edən məsələlərdən biri də fənlərarası əlaqənin təmin olunması idi. Məruzəçi müəllimlər ayrı-ayrı fənlər arasında əlaqə yaratmağa dair gözəl faktlar gətirirdilər. Məsələn, Vilnüs şəhərindəki 23 nömrəli məktəbin müəllimi Y.Montvila riyaziyyat, fizika, kimya, biologiya, tarix, ədəbiyyat, etnoqrafiya faktlarından əmək təlimi zamanı istifadə etməyi müvəffəqiyyəti təmin edən başlıca amillərdən biri sayır.

Yeni proqramların tələbinə uyğun olaraq müəllimlərin bəziləri haqlı olaraq təlimin nəzəri səviyyəsini yüksəltməyə çalışırlar. Məsələn, bir çox müəllimlər, o cümlədən Kirovabad şəhərindəki 16 nömrəli məktəbin müəllimi Həsənov xarici ölkələrin iqtisadi coğrafiyasını tədris edərkən aşağıdakı səbəb-nəticə əlaqələrinin dərk olunmasına çalışırlar. Onlar ictimai-iqtisadi quruluş ilə əhalinin və təsərrüfatın inkişafı və yerləşdirilməsi arasında: ölkənin tarixi inkişafı xüsusiyyətləri ilə əhalisi və təsərrüfatın müasir xüsusiyyətləri arasında; iqtisadi-coğrafi mövqe ilə ölkə təsərrüfatının inkişafı xüsusiyyətləri arasında: təbii şərait və sərvət ilə təsərrüfatın inkişaf imkanları arasında; təsərrüfatın ayrı-ayrı sahələri arasında istehsalat əlaqələrinin; ölkənin müasir siyasi vəziyyəti ilə təsərrüfatın inkişafı arasında asılılıqların və s. şagirdlər tərəfindən dərk olunmasına səy göstərirlər. Bu işdə şagirdlərin diqqətini səbəb və nətiçə anlayışlarına yönəltmək, hadisənin nəticəsini danışmaq, sonra isə onun səbəbini izah etməyi uşaqlara öyrətmək lazımdır. Bu məqsədlə də müvafiq suallar qoymaq olar: Zəlzələ nədir?, Zəlzələ nədən əmələ gəlir? və s.

«Pedaqoji mühazirələr»də axşam məktəblərinin bir çox problemləri də müzakirə olunmuşdur. Burada yeni mövzunun öyrədilməsinə kömək edən amillər, dərs zamanı təşkil olunan müstəqil işlərin növləri, ev tapşırıqlarının xarakteri, tədris prosesinin qrafiki, axşam məktəbləri şagirdlərinin tərbiyəsi üçün içtimaiyyətin qüvvəsindən istifadə olunması və s. məsələlərin müzakirəsi dinləyiçilərin daha çox düşünməsinə səbəb olmuşdur.

Axşam məktəblərində dərs zamanı şagirdlərin müstəqil işlərinin təşkili təcrübəsinə nəzər salaq.

Yeni materialın öyrədilməsi zamanı şagirdlərin müstəqil işlərini təşkil edən və bu barədə söhbət açan müəllimlərdən biri də Leninqrad şəhərindəki 82 nömrəli axşam məktəbinin müəllimi M.R.Brodotskaya olmuşdur. Müəllim yeni mövzunu izah edərkən şagirdlərin aşağıdakı müstəqil işlərini təşkil edir: a) fiziki hadisələrin əsas xassələrini müəyyən etmək məfhumların və öyrənilmiş qanunauyğunluğun tərifini vermək; b) şagirdlərə məlum olmayan qanunauyğunluğu təcrübi və ya məntiqi yolla aydınlaşdırmaq; c) hadisələr arasındakı əlaqələrin xarakterini təhlil etmək; ç) oxşar hadisələr, faktlar və obyektlər arasındakı fərqi aşkara çıxarmaq.

Nəinki yeni mövzunun mənimsənilməsi məqsədi ilə, həm də ümumiyyətlə dərslik üzərində işləmək baçarığının şagirdlərdə formalaşması üçün müəllimlər müəyyən sistem təklif edirlər.

Bəzi müəllimlər axşam məktəbində şagirdlərin dərslik üzərində işini üç növ təşkil edirlər: 1. Mövzunu izah edən müəllim sinif qarşısında sual qoyur, şagirdlər dərslikdəki mətnin kiçik bir hissəsini oxuyub cavab verirlər; 2. Müəllimin tapşırığı ilə şagirdlər mətnin xeyli hissəsini oxuyub suala müstəqil cavab verirlər; 3. Dərsə aid mətni tam oxuduqdan sonra suala cavab verirlər.

Göründüyü kimi, birinci halda dərslik üzərində iş müəllimin izahının tərkib hissəsinə çevrilmiş olur.

İkinci halda dərslik üzərinda müstaqil iş dərsin bir hissəsini təşkil edir. Son halda isə dərslik üzərinda iş dərsin

xeyli hissəsini təşkil edir və müəllim şagirdlərin müstəqil işlərina yekun vurur.

Bəzən də bütün dərs şagirdlərin dərslik üzərində müstəqil işlərinə həsr edilir.

Axşam məktəblərində şagirdlərin bilik və bacarıqlarını yoxlamaq üçün müxtəlif yeni yollar təklif edilmişdir. Məsələn, Leninqrad şəhərindəki 156 nömrəli axşam məktəbində V.F.Maxova fizika dərsləri zamanı şagirdlərin biliyini yoxlamaq üçün ənənəvi priyomlarla yanaşı digər yollardan da istifadə edir. Bunlardan biri rəqəmli şrift imlasıdır. Müəllim şagirdlərə suallar verir və həmin sualların cavablarını nömrələnmiş formada yazı taxtasında va ya plakatda göstərir. Sualı eşitdikdən sonra şagirdlər cavabı tapır və onun nömrəsini kağız vərəqəsinə yazıb müəllimə göstərirlər. Müəllim isə yerindəcə nəticə çıxara bilir.

İkinci yol sxem üzrə frontal sorğudur. Müəllim yazı taxtasından sxem asır. Sxemin bütün hissələri rəqəmlərlə ifadə edilir. Müəllim sxema dair suallar verir, şagirdlər isə cavablarını kağızda rəqəmlərlə göstərirlər.

Özünənəzarətlə məsələ həlli də həmin yollardan biridir. Məsələlərin şərtlərini müəllim qabaqçadan xüsusü cədvəl şəklində yazı taxtasında və ya iri kağıza yazır; cədvəlin son sütununda isə ayrı-ayrı məsələlərin cavabları göstərilir. Məsələni həll etdikdən sonra şagirdlər cədvəldəki cavablar arasında öz cavabını axtarır; tapmadıqda yəqin edir ki, haradasa səhvi vardır. O, səhvini axtarıb tapmalı və onu aradan qaldırmalı olur.

Bəs, axşam məktəblərnndə şagirdlərə verilən ev tapşırıqlarının xarakteri necə olur? Bu cəhətdən Vinnitsa şəhərindəki 31 nömrəli axşam məktəbinin iş təcrübəsinə nəzər salaq. Bu məktəbdə də sinifdə icra edilmiş tapşırığa bənzər tapşırıqlar, ayrı-ayrı faktları təhlil etmək üçün verilən tapşırıqlar, şagirdləri sinifdə keçiləcək mövzunu şüurlu mənimsəməyə hazırlayan yaradıcı tapşırıqlar, ayrı-ayrı bölmələr üzrə bilikləri sistemə salmaq və ümumiləşdirmək məqsədi ilə verilən tapşırıqlar tez-tez tətbiq edilir. Müəllimlər həmin tapşırıqları lazım gəldikdə differensiallaş-

dırırlar. Bütün şagirdlərə aid olan zəruri tapşırıqlarla yanaşı zəif şagirdləri hazırlamaq məqsədi ilə onlara verilən xüsusi tapşırıqlar və daha qüvvəli şagirdlərə vermək üçün maksimum gərkinlik tələb edən tapşırıqlar da sınaqdan keçirilir.

Bir sıra axşam məktəblərinin, o cümlədən Bakı şəhərindəki 1 nömrəli axşam məktəbinin məruzəçi (həmin məktəbin tədris işləri üzrə direktor müavini V.L.Zevlever yoldaşdır) iş təcrübəsi göstərir ki, həyatda düzgün yol götürməkdə, cəmiyyətdə öz mövqeyini düzgün müəyyənləşdirməkdə bu məktəblərin müəllimləri şagirdlərə böyük kömək göstərə bilərlər. Bu məqsədlə bir çox məktəblərdə müəllimlər şagirdlərin meyl və marağını öyrənir, daha düzgün qərar çıxarmaqda onlara istiqamət verir, məzunların öz həyat planlarını necə yerinə yetirdikləri ilə maraqlanırlar.

Axşam məktəbi ilə müəssisə və istehsalat arasında möhkəm əlaqənin olması da həmin məqsədə xidmət edir.

Axşam məktəblərində müəllimləri düşündürən məsələlərdən biri də şagirdlərdə müstəqil işləmək və öz biliyini zənginləşdirmək bacarığının onlarda inkişaf etdirilməsi məsələləri olmuşdur. Dərsdə söyləmək üçün məlumat toplamaq, referat yazmaq, müxtəlif mənbələrdən istifadə edərək məruzə hazırlamaq, hər hansı mövzu (məsələ) üzrə plan tərtib etmək, mövzu üzrə ədəbiyyat siyahısı düzəltmək, fiziki və ya kimyəvi prosesləri, habelə təbiət və cəmiyyət hadisələrini müşahidə etmək və nəticəsini qələmə almaq kimi tapşırıqlar şagirdləri müstəqil işləməyə və müstəqil bilik əldə etməyə alışdırır.

Təlimin təşkilat formalarını nəzərə alaraq tədris prosesinin qrafikini tərtib edən və bu yolla tədris prosesinə nəzarət edən axşam məktəbi rəhbərləri vardır. Belə bir qrafiki tərtib etməzdən əvvəl məktəb rəhbərləri ayrı-ayrı müəllimlərdən ekskursiya, mühazirə, seminar, laboratoriya və praktik məşğələlər, texniki vasitələrdən istifadəyə dair məlumat alır. O, qrafiki bu cür məlumatlar əsasında tərtib edir.

Tədris prosesinin qrafik şəklində planlaşdırılması müəllimi və məktəb rəhbərlərini gələcək işə ciddi hazırlayır,

fəndaxili və fənlərarası əlaqələri aşkara çıxarmağa imkan verir, tədris işinə direktorluq tərəfindən daha ixtisaslı nəzarət edilməsinə, müəllimin isə öz-özünü səfərbər etməsinə imkan yaradır.

Umumiyyətlə, məktəbdaxili nəzarətin təşkili və onun səmərələşdirilməsi sahəsində zəngin təcrübə toplamış olan Ə.Əliyev yoldaş (Bakı şəhərindəki 35 nömrəli məktəbin keçmiş direktoru hazırda Nəsimi RXMŞ müdiri) dinləyicilərin diqqətini məktəbdaxili nəzarət sisteminə yönəltdi.

Yubiley «Pedaqoji mühazirələr»i göstərdi ki, bəzi axşam məktəbləri təlim zamanı texniki vasitələrdən istifadə etməkdə gündüz məktəblərindən heç də geri qalmır. Texniki vasitələrdən istifadə edən hətta qiyabi məktəblər də vardır.

Məsələn, Nikolayevsk vilayət qiyabi məktəbində avtomatlaşdırılmış sinif təşkil edilmişdir. Bu sinifdə müəllimlər həm zaçot qəbul edirlər, həm də qrup halında məsləhət verirlər. Müəyyən dövr üçün nəzərdə tutulmuş materiallar üzrə çalışmaların, mövzuları tərtib olunur; tapşırığın içrasını yüngülləşdirən əlavə göstərişlər verilir, proqramlaşdırılmış tədris mətnləri tərtib edilir. Zaçot verən ayrı-ayrı şagirdlər tərəfindən tapşırığın necə yerinə yetirildiyinə müəllim idarə pultundan nəzarət edir və yol verilmiş nöqsanı aradan qaldırmaq üçün vaxtında tədbir görə bilir.

Müəllim şagirdlərə qrup halında məsləhət vermək üçün hazırlaşan zaman, şagirdlərə aid olan bəzi suallar tərtib edir; o, həmin suallara şagirdlərin verdikləri cavablarla əlaqədar olaraq materialın kim tərəfindən necə başa düşüldüyünü pult vasitəsilə aşkara çıxara bilir; çünki hər bir şagird sualın cavabını nömrəli düyməciklər vasitəsilə müəllimə bildirir. Buna əsaslanan müəllim izahatını dəyişdirmək, əlavə əyanilikdən istifadə etmək, başqa misal gətirmək, yeni iş təşkil etmək imkanı tapır.

Müzakirələr göstərdi ki, ayrı-ayrı müəssisələrlə, ictimai təşkilatlarla möhkəm və müntəzəm əlaqəyə axşam məktəbləri daha çox ehtiyac hiss edir. Bunu nəzərə alan axşam məktəbi rəhbərləri şagirdlərin işlədikləri müəssisə və idarələrin, ictimai təşkilatların imkanlarından geniş istifadə edirlər.

Bir çox rayon təşkilatları belə məktəblərə çox real kömək göstərir. Məsələn, Kuybışev vilayətinin Çinelçerkassk rayon təşkilatlarının işi buna nümunə ola bilər. Rayonun partiya komitəsi burosunda, icraiyyə komitəsi, komsomol və kənd Soveti iclaslarında işləyən gənclərin ümumtəhsil hazırlığının vəziyyəti və təsərrüfat rəhbərlərinin hesabatları tez-tez müzakirə edilir.

İcraiyyə komitəsinin sədirliyi ilə rayonda axşam və qiyabi təhsilə yardım komissiyası fəaliyyat göstərir. Onun tərkibində rayon partiya komitəsinin, komsomol komitəsinin, müəssisə və məktəb rəhbərlərinin nümayəndələri də vardır.

Rayonda şagirdlər üçün nəzərdə tutulmuş bütün güzəştlərə əməl olunur. Axşam və qiyabi təhsili istehsalatda işlə əlaqələndirən şagirdlərin maaşlarına əlavə vəsait verən kolxozların təşəbbüsü rayon partiya komitəsi bürosu tərəfindən bəyənilmişdir. Bu rayondakı məktəblərin maddi bazaları yaxşılaşdırılmışdır: bina tikilmiş, kabinetlər avadanlıqla təchiz edilmiş, məktəbə texniki vasitələr alınmışdır.

Məktəbəqədər tərbiyə problemləri də «Pedaqoji mühazirələr» iştirakçılarının diqqət mərkəzində olmuşdur. Bağçalarda uşaqların kommunist tərbiyəsinin həm əməli, həm də nəzəri cəhətlərinə dair Azərbaycan nümayəndələrinin irəli sürmüş olduqları fikirlər İttifaq miqyasında olan təcrübənin daha da təkmilləşdirilməsinə təsir göstərməyə bilməz. Çünki bu fikirlər respublikamızda uşaq bağçalarının iş təcrübəsini ümumiləşmiş şəkildə ustalıqla ifadə etmişdir. Məsələn, Bakı şəhərindəki məktəbəqədər pedaqoji texnikumunun direktoru H.Cərullazadə yoldaş təqdim etdiyi məruzə mətnində bağça yaşlı uşaqlarda beynəlmiləlçilik tərbiyəsi təcrübəsini elmi şəkildə təhlil edib umumiləşdirmişdir. V.İ.Lenin adına APİ-nin dosenti B.Paşayeva isə öz məruzəsini bağçayaşlı uşaqlarda şəkillər vasitəsilə rabitəli nitqi inkişaf etdirmək yollarının şərhinə həsr etmişdir.

Fiziki tərbiyə məsələlərinin müzakirəsi də çox canlı keçmişdir. Fiziki tərbiyədə texniki vasitələrdən istifadə olunması mərkəzi yer tutmuşdur. Bədən tərbiyəsi müəllimləri dərs zamanı texniki vasitələrdən, xüsusən ayrı-ayrı

mümarisələrin musiqi ilə müşaiyət olunması, hər hərəkətin kinofilm vasitəsilə şagirdlər qarşısında istənilən qədər təkrar numayiş etdirilməsi, fotomontaj materialından istifadə olunması milli oyunların təşkili və s. yolları haqqında ətraflı söhbət açmışlar.

Məruzəçi müəllimlər öz təcrübəsindən gətirdikləri faktlarla subut edirdilər ki, bədən tərbiyəsi proqramı ila əlaqədar olaraq keçirilən fərdi və kollektiv yarışlar tərbiyə cəhətdən də çox faydalıdır. Bədən tərbiyəsi məşğələlərində hərbi oyunların təşkili də yaxşı nəticə verir. Bu sahələrdə bir çox Azərbaycan müəllimləri də zəngin təcrübə toplaya bilmişlər. Bakı şəhərindəki 66 nömrəli məktəbii müəllimi N.Rəhimov, 288 nömrəli məktəbin müəllimi P.Sadıqbəyov, 143 nömrəli məktəbin müəllimi Q.Smolyan öz təcrübəsini «Kütləvi idman tədbirləri zamanı çətin tərbiyə olunan uşaqlarla aparılan işlər» adlı məruzəsində umumiləşdirmiş və bu mövzuda yaxşı məruzə oxumuşlar.

Həmçinin bir çox məruzələrdə göstərilirdi ki, dərsdənkənar tədbirlərə xüsusi qayğı göstərilən maktəblərdə şagirdlərin ümumi hazırlığı və fiziki möhkəmliyi ilə, bir sözlə, gənc nəslin kommunist tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq mümkündür.

Öz təcrübəsini ətraflı ölçüb-biçən müəllimlər təlimin keyfiyyətini şagirdlərin istirahəti ilə də əlaqələndirirlər. Məsələn, I-IV sinif şagirdləri ilə aparılmış uzun müddətli iş nəticəsində aydın olmuşdur ki, dərsdən əvvəl, tənəffüslərdə və habelə dərsdə bədən tərbiyasi dəqiqələri zamanı keçirilən müvafiq gimnastika mümarisələri, xüsusən müxtəlif oyunlar şagird orqanizminin ümumi funksional; vəziyyətinin yuksəlməsinə sabəb olur. Məktəbdəki bu cür fəal istirahəti nə ticəsində şagirdlər daha diqqətli, daha fəal olur, tədris materialını daha yaxşı mənimsəyirlər; onların iş qabiliyyəti xeyli artır: yorğunluğun qarşısı müəyyən qədər alınır.

Təlim və tərbiyənin psixoloji məsələləri bir çox bölmə iclaslarında müzakirə edilmişdir. Təlimin metodoloji əsasları, tərbiyədə optimizm, proqramlaşdırılmış təlimin psixoloji cəhətləri və başqa psixoloji məsələlər ətrafında

daha geniş fikir mübadiləsi keçirilmişdir. Məsələn, SSRİ PEA-nın müxbir üzvü N.A.Mençinskaya təlimdə qavrayışdan anlayışa və anlayışdan qavrayışa keçməyin psixologiyasını ətraflı təhlil etmişdir.

Lvov şəhərindəki 50 nömrəli məktəbin müəllimi Y.L.Lvova öz məruzəsində sübut etməyə çalışmışdır ki, ayrı-ayrı şagirdlərə və ümumi sinfə optimizm mövqeyindən göstərilən münasibət şagirdləri ruhlandırır, ilk baxışda maraqsız görünən tədris materialına şagirdlərdə marağı artırır.

Xarkov şəhərində 17 nömrəli məktəbin müəllimlərindən V.Z.Korostıleva və P.S.Jedenek şagirdlərdə orfoqrafik vərdişlərin inkişafına kömək etmək üçün belə bir yol təklif edir: şagirdlər yazı yazarkən hər hansı səsin necə yazılmalı olduğunu yaxşı, dəqiq bilmədikdə həmin hərfin yerini boş buraxır və əvəzində tire (–) işarəsi yazır. Müəllim yazılara baxan kimi hansı sözün yazılışında kimin çətinlik çəkdiyini dərhal görüb ona vaxtında kömək edə bilir.

Şagirdlərdə estetik zövqün, gözəllik hissinin, həzz hissinin yaranmasını səbəb ola biləcək bacarıq və qabiliyyətlərin inkişaf etdirilməsi yollarından geniş danışan müəllimlər arasında Azərbaycan nümayəndələri də vardı.

Fərəhlə qeyd etməliyik ki, Ümumittifaq «Pedaqoji mühazirələr»inin fiziki və əqli inkişafında qüsuru olan uşaqların təlim və tərbiyəsi bölməsində də respublikamız təmsil olunmuşdur. Bu bölmədə məruzəçilər sübut etməyə çalışmışlar ki, zəif görən uşaqlar üçün ayrrıca məktəb təşkil etmək zəruridir. Çünki tam kor olan və zəif görən şagirdlər nisbəti bunu tələb edir.

Respublika korlar məktəbinin müəllimlərindən R.Əliyeva aşağı sinif şagirdlərini təlimdə fəallaşdırmaq yollarından, L.İ.Kozıreva dərslik və əlavə materiallar üzərində şagirdlərin müstəqil işlərindən, İ.L.Spektor isə zəif görən şagirdlər tərəfindən rus dilinin öyrənilməsi xüsusiyyətlərindən danışmışlar.

Ümumittifaq «Pedaqoji mühazirələri» zəngin təcrübə məktəbi oldu. Ölkəmizin xalq maarif cəbhəsində çalışan böyük müəllim ordusunun böyüyən nəslin təlim-tərbiyəsi

sahəsində ən yaxşı təcrübəsi ümumiləşdirilib dinlənilmək üçün bu böyük pedaqoji məclisə çıxarılmışdı. Bu zəngin təcrübədən respublikamızın məktəblərində istifadə olunması təlim-tərbiyə işləri keyfiyyətinin daha da yüksəlməsinə kömək edəcəkdir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1970, №8)**

## 14. YUBİLEY «PEDAQOJİ MÜHAZİRƏ»LƏRİ

Biz məktəbdə təlim-tərbiyə prosesindən, onun müvəffəqiyyətlərindən danışarkən dərsliklərin, proqramların, təlimin maddi-texniki bazası və s. amillərin böyük əhəmiyyətə malik olmasını aydın surətdə dərk edirik. Lakin bu da bir həqiqətdir ki, ən yaxşı dərsliklər, proqramlar, zəngin maddi-texniki baza və s. öz-özlüyündə təlimin müvəffəqiyyətini təmin etmir. Bu işdə müəllim həlledici simadır. Biz bu məfhumu tez-tez işlədir, lakin bəzən müəllimin işində həlledici məsələnin nədən ibarət olması üzərində az düşünürük.

Təlim-tərbiyə işində müəllimin şəxsiyyəti, onun səyi, istək və arzusu mühüm rol oynayır. Lakin yeni insan tərbiyəsi kimi çox mühüm və mürəkkəb prosesdə təkcə istək və arzu azdır. Bu işin müvəffəqiyyəti, hər şeydən əvvəl, müəllimin öz nəzəri və ixtisas səviyyəsini, metodik biliyini daim artırıb inkişaf etdirməsindən çox asılıdır.

İndi ən yaxşı hazırlıqlı pedaqoq da öz biliyini ciddi və müntəzəm surətdə daim artırmadan keçinə bilməz. Çünki həyat indiyədək heç bir zaman müəllimin qarşısında elm, texnika və mədəniyyətin indiki coşqun inkişaf dövründə yaşayan nəslin təlim-tərbiyəsi kimi bu qədər məsul və çətin vəzifə, ümumi mədəniyyəti və xüsusi biliyi artırmağa bu qədər yüksək tələb qoymamışdır. Məhz buna görə də müəllimin vəzifəsi, həyatı nəinki yalnız öyrətməkdən, habelə daim öyrənməkdən ibarət olmalıdır.

Müəllimin bu mənəvi ehtiyac və tələbini ödəməkdə məktəblərdə, şəhər və rayonlarda, respublikamızda hər il keçirilən «Pedaqoji mühazirələri»n çox böyük əhəmiyyəti vardır.

SSRİ Maarif Nazirliyi Kollegiyasının, SSRİ Pedaqoji Elmlər Akademiyası Rəyasət Heyətinin və Maarif, Ali Məktəb, Elmi İdarə İşçiləri Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin birgə qərarı əsasında 1970-ci ilin mart ayında V.İ.Leninin anadan olmasının 100 illiyinə həsr edilən Ümumittifaq «Pedaqoji mühazirələri» keçiriləcəkdir.

«Pedaqoji mühazirələr» partiyamızın XXIII qurultayının direktivləri, Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin «Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında»kı qərarı ilə müəyyən edilmiş sovet məktəblərinin və sovet elminin aktual vəzifələrini həyata keçirmək üçün müəllimləri və xalq maarif orqanlarını səfərbər etmək məqsədini qarşıda qoymuşdur.

Üç mərhələdə keçirilməsi nəzərdə tutulmuş yubiley «Pedaqoji mühazirələri»nin iki mərhələsi, yəni keçən ilin aprel-iyun aylarında rayon «Pedaqoji mühazirələri», 1969-cu ilin noyabr ayında isə respublika «Pedaqoji mühazirələri» artıq müvəffəqiyyətlə keçirilmişdir.

Bu ilki yubiley «Pedaqoji mühazirələri»nin xüsusilə mütəşəkkil keçdiyi nəzərə çarpır.

Yubiley «Pedaqoji mühazirələri»n birinci mərhələsini, yəni rayon «Pedaqoji mühazirələri»ni mütəşəkkil keçirmək üçün Azərbaycan DETPİ-nin və Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları yerlərdə məruzələrin hazırlanmasında müəllimlərə və xalq maarif şöbələrinə əməli kömək göstərmişlər.

Rayon «Pedaqoji mühazirələri»nin 10 mindən çox iştirakçısı olmuşdur. Bunlardan Naxçıvan MSSR-də keçirilmiş «Pedaqoji mühazirələr»də 59 məruzə, Bakıda 112 məruzə, Kirovabadda 84 məruzə, Sumqayıtda 55 məruzə, Mingəçevirdə 40 məruzə oxunmuş və müzakirə olumuşdur.

Naxçıvan MSSR-də, Kirovabad, Şəki, Füzuli, Cəbrayıl, Balakən, Yevlax, Mingəçevir, Salyan, Lerik, Bərdə, Lənkəran rayonlarında «Pedaqoji mühazirələri»n xüsusilə mütəşəkkil və yüksək səviyyədə keçdiyini qeyd etmək lazımdır. «Mühazirələr»də dinlənilmiş və müzakirə edilmiş

məruzələr maraqlı və məzmunlu olmuş, pedaqoji kollektivlərin qabaqcıl iş təcrübələri ətraflı təhlil edilmişdir.

Rayon «Pedaqoji mühazirələri»ndə məruzələrdən ən yaxşıları respublika «Pedaqoji mühazirələri» üçün ayrılmışdı. Yubiley «Pedaqoji mühazirələri»nin ikinci mərhələsi sayılan respublika «Pedaqoji mühazirələri»nə 878 məruzələr V.İ.Leninin anadan olmasının 100 illiyinə və Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 50 illiyinə həsr edilmiş respublika XVII «Pedaqoji mühazirələri»nin proqramına daxil edilmişdir.

Respublika «Pedaqoji mühazirələri»ndə 463 nəfər pedaqoq, komsomol və pioner işçisi, xalq maarif orqanı, habelə partiya və sovet təşkilatlarının nümayəndəsi iştirak etmişdir.

Respublika «Pedaqoji mühazirələri»nin ümumi iclasında «V.İ.Lenin və Azərbaycanda xalq maarifinin çiçəklənməsi» mövzusunda respublikanın əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Ə.Seyidov, «Məktəblərdə yeni tədris proqramlarının tətbiqi təcrübəsi və onu daha da təkmilləşdirmək haqqında» pedaqoji elmlər doktoru N.Kazımov məruzə etmişdir. 19 bölmə iclasında isə 203 məruzə dinlənilmiş və müzakirə edilmişdir.

Respublika «Pedaqoji mühazirələri» məktəb müəllimlərinin, məktəbəqədər tərbiyə ocaqları tərbiyəçilərinin və digər xalq maarifi orqanları işçilərinin ümumiləşdirilmiş təcrübi işlərini işıqlandırmışdır; oxunmuş məruzələr təlimin məzmunu, üsulları və formalarını, habelə şagirdlərin kommunist tərbiyəsinin təşkili yollarını təkmilləşdirmək xarakteri daşımışdır.

Məlum olduğu üzrə yeni proqramlara keçilməsi sovet məktəbinin hazırkı inkişaf mərhələsində çox mühüm yer tutur. Bununla əlaqədar olaraq qarşıya çıxan vəzifələr, çətinliklər müəllimlərimizi çox düşündürür. Azərbaycan SSR Maarif Nazirliyinin əmrinə uyğun olaraq bir çox fənlər müvafiq siniflərdə əsaslı şəkildə işlənmiş yeni proqramlar üzrə tədris edilir. 1975-ci ilə qədər isə bütün siniflərdə bütün fənlərin yeni proqramlar üzrə tədris olunmağa keçilməsi başa çatdırılacaqdır.

Məktəblərdə yeni proqramlara keçilməsi ilə əlaqədar olan məsələləri pedaqoji elmlər doktoru N.Kazımov «Pedaqoji mühazirələri»n ümumi iclasındakı məruzəsində ətraflı işıqlandırmışdır.

Bir sıra sovet psixoloqlarının, pedaqoq və müəllimlərinin apardığı eksperimental tədqiqatların nəticələri isə göstərir ki, müasir şagirdlərin dərketmə imkanları bizim təsəvvür etdiyimizdən də genişdir. Başqa sözlə demiş olsaq, müasir şagirdlər nəinki mövcud proqram materialını, hətta bir qədər nəzəriləşdirilmiş materialları da mənimsəmək iqtidarına malikdirlər. Biz L.V.Zankovun, D.B.Elkoninin, N.A.Mençinskayanın, B.N.Kabanova-Mellerin, V.V.Davıdovun bəzi başqa psixoloq və pedaqoqların aparmış olduqları tədqiqatların nəticələrini nəzərdə tuturuq. Bu alimlərin əsərlərində geniş eksperimental material əsasında sübut edilir ki, əvvəlki proqramların səviyyəsi əqli cəhətdən normal inkişaf edən şagirdlərin dərketmə səviyyəsindən aşağıdır; onlar daha mürəkkəb elmi məsələləri anlamağa qadirdirlər.

Elmi tədqiqatlar əsasında aşağı siniflər üçün tərtib edilmiş proqramlar müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR-in bəzi məktəblərində sınaqdan keçirilmişdir. Məlum olmuşdur ki, elmi-nəzəri səviyyəsi xeyli yüksək olan yeni proqramları eksperimental siniflərin şagirdləri əsasən yaxşı mənimsəyirlər.

Həm aşağı siniflərdə, həm də orta və yuxarı siniflərdə yeni proqramların tərtibinə aid ilk kütləvi faktlar aparılmış eksperimental tədqiqatların nəticələrinin düzgün olduğunu bir daha təsdiq edir. Müəyyən elmi-pedaqoji şərtlərə əməl olunduqda bir çox müəllimlərimiz yeni proqramların materiallarını şagirdlərə mənimsədə bilirlər.

Yeni proqramlar şagirdlərdə təlimə marağı artırır, müşahidəçilik, diqqətlilik kimi keyfiyyətləri inkişaf etdirir, tədris materialının mənimsənilməsinə şüurlu münasibət tərbiyə edir. Bakı şəhərindəki 18 nömrəli məktəbin məktəbin müəllimi S.Quliyeva, 7 nömrəli məktəbin müəllimi K.Məmmədova, 31 nömrəli məktəbin müəllimi X.Rzaquliyeva, 172 nömrəli məktəbin müəllimləri Ə.Abdullayeva,

B.Əliyeva, Ağdaş şəhərindəki 7 nömrəli məktəbin müəllimi S.İsmayılova və bir çox başqa müəllimlər, məsələn, savad təlimi zamanı öyrədilən yeni səsi heca daxilində də qiraətin səs-səs deyil, hecalarla getməsinə, mətnin üzünün hərf-hərf deyil, hecalarla köçürülməsinə nail olmuşlar. Belə bir iş hərfburaxma, hərfartırma, bir hərfi başqa hərflə əvəzetmə hallarının qarşısını almağa, cümləni bütöv sözlərlə oxumağa, sözün, hətta iki-üç sözdən ibarət cümlənin heca-heca tərkibini yadda saxlayaraq yazmağa imkan vermişdir. Deməli, adlarını çəkdiyimiz müəllimlər şagirdlərə şüurlu və savadlı yazı vərdişləri aşılamağın möhkəm təməlini qoya bilmişlər. Bu müəllimlərin indiki I sinif şagirdləri keçmiş illərdəki I sinif şagirdlərinə nisbətən daha asan, daha sürətlə və daha savadlı yazır və oxuyurlar.

I siniflərdə riyaziyyat proqramının tətbiqi sahəsində də eyni sözləri demək olar. Bakı şəhərindəki 13 nömrəli məktəbin müəllimi N.Hacıyeva, 150 nömrəli məktəbin müəllimi T.Əliyeva, 238 nömrəli məktəbin müəllimi S.Mahmudova, Ağdaş şəhərindəki 2 nömrəli məktəbin müəllimi A.Çələbiyeva, 7 nömrəli məktəbin müəllimi S.Əhmədova və başqaları I sinifdə artıq sentyabr ayı ərzində «bərabərdir», «böyükdür», «kiçikdir», «ədədlərin artan və azalan sırası» və s. anlayışları müvəffəqiyyətlə öyrədə bilmişlər. Maraqlıdır ki, bu müəllimlər hər riyazi əməli yazdırdıqdan sonra həndəsi fiqurların şəkilləri ilə öz yazılarını haşiyələndirməyi ilk gündən şagirdlərə öyrətmişlər.

Nəğmə və musiqi üzrə yeni proqramların tətbiqində də fərəhli nəticələr əldə edən məktəb və müəllimlərimiz az deyildir. Bu cəhətdən Bakı şəhərindəki 44 və 190 nömrəli məktəblərin, Xırdalan qəsəbə orta məktəbinin və bəzi başqa məktəblərin təcrübəsi diqqəti cəlb edir. Həmin məktəblərin I siniflərindən başlayaraq dərsdə musiqi savadı öyrədilir, Azərbaycan, rus və habelə dünya xalqları musiqisinin gözəl nümunələri haqqında şagirdlərə məlumat verilir, solfeco məşğələləri, musiqi lüğəti, musiqi viktorinaları təşkil edilir; sinifdə aparılan iş sinifdənkənar tədbirlərlə ustalıqla əlaqələndirilir.

Yuxarı siniflərdə biologiya, fizika, tarix və s. fənlərdən dərsləri yeni proqramlar üzrə yüksək səviyyədə aparan müəllimlərimizin işi də maraqlıdır. Məsələn, İsmayıllı şəhər orta məktəbinin müəllimi H.Ramazanovun təcrübəsi bu cəhətdən xarakterikdir. Hacalı müəllim, məsələn, V sinifdə «Tozlanmanın növləri. Süni tozlanma» mövzusunu keçərkən tozlanmanın necə aparıldığını çiçəklər üzərində nümayiş etdirir, bu nümunə əsasında şagirdlər süni tozlanma aparırlar. Müəllim sonra tozlanma haqqında nəzəri məlumat verir.

Həmin şagirdlər VI sinifdə oxuyarkən süni yolla tozlandırılmış çiçəklərdən alınan meyvələrin toxumlarını seçib əkir, toxmacarlara qulluq edir, müşahidələr aparır, X sinifdə isə bütün müşahidə materiallarını ümumiləşdirib elmi nəticələr çıxarırlar.

Konkret faktlar, müşahidələr, təcrübələr əsasında nəzəri biliklərin əməli işə tətbiqini təşkil etmək qabaqcıl fizika, kimya, əmək və s. fənn müəllimlərinin də işini xarakterizə edən mühüm cəhətlərdir.

Lakin təəssüflə deməliyik ki, yeni proqramların tətbiqinə heç də bütün müəllimlərimiz tam məsuliyyət hissi ilə yanaşmır, yeni proqram materiallarının tədrisində bir sıra ciddi qüsurlara yol verirlər. Məsələn, yenə də bir çox siniflərdə şagirdlər qrammatik və ya riyazi qaydaları, fiziki qanunları yaxşı halda əzbərdən deyir, amma həmin qayda və qanunları tətbiq etməkdə, onlara uyğun hərəkət etməkdə çətinlik çəkirlər. Bir çox şagirdlər yenə də əvvəlki kimi mühakimə yürütməkdə, fikirlərini sübut etməkdə oxuduqları mətndən və söylədikləri hadisələrdən nəticə çıxarmaqda acizlik göstərirlər. Bütün bunlar onun nəticəsidir ki, müəllimlərimizin əksəriyyəti dərsi əvvəlki qaydada təşkil edir və keçirlər.

Nəzərə almaq lazımdır ki, elmi-nəzəri səviyyəsi xeyl artırılmış olan bu proqramlar şagirdlərin hazırlıq səviyyəsini öz-özünə, mexaniki şəkildə yüksəltmir. Bəziləri belə güman edir ki, guya yeni proqramların məzmunu xeyli yaxşılaşdırılmış olduğundan, müəllim həmin proqramları köhnə qaydada tədris etsə də, şagirdlərin bilik və bacarıq səviyyəsi yüksələcək,

onların əqli inkişafı sürətlənəcək, şəxsiyyəti daha müvəffəqiyyətlə formalaşacaqdır. Bu fikr doğru deyildir.

Yeni proqramlara daxil edilmiş elmi-nəzəri biliklər bütün müəllimlərin diqqətini cəlb edir. Bu sahədə onlar fikirləşməli və hazırlaşmalı olurlar. Lakin proqramların tərtibi əsasında duran elmi-pedaqoji, psixoloji və qnoseoloji ideyaları heç də bütün müəllimlərimiz eyni dərəcədə aydın təsəvvür etmirlər. Yeni proqramların tətbiqində çətinlik çəkənlər isə məhz belə müəllimlərdir.

Yeni proqramlarla işlərkən müvəffəqiyyət qazanan müəllimlər, bir qayda olaraq, proqramın pedaqoji, psixoloji və qnoseoloji əsaslarını başa düşmüş müəllimlərdir.

Yeni proqramların əsasını təşkil edən pedaqoji və psixoloji məsələlər hansılardır? Yeni proqramların tərtibi əsasında duran başlıca pedaqoji-psixoloji ideyalardan biri təlim və əqli inkişafın qarşılıqlı əlaqəsinə aid ideyadır. Sovet pedaqoqları və psixoloqları geniş eksperiment əsasında sübut edirlər ki, təlimin məzmununu və üsullarını təkmilləşdirmək yolu ilə şagirdlərin əqli qabiliyyətlərinin maksimum dərəcədə inkişaf etdirmək mümkündür; intensiv surətdə inkişaf edən təfəkkür isə şagirdə imkan verir ki, sonrakı bilikləri daha asan, daha müvəffəqiyyətlə mənimsəsin.

Şagird şəxsən dərk etdiyi, şüurlu surətdə başa düşdüyü qanun və qaydaları yaxşı yadda saxlayır, müvəffəqiyyətlə tətbiq edir. Yeni tədris proqramları şagirdlərdə, hər şeydən əvvəl, təfəkkür qabiliyyətlərini, şüur funksiyalarını inkişaf etdirməyi nəzərdə tutmuşdur.

Təlim zamanı mənimsənilən biliklər vasitəsilə şagirdlərin təfəkkür fəaliyyətini inkişaf etdirmək, – yeni proqramların ikinci başlıca ideyasıdır.

Bu cəhətdən proqramlardakı yeniliklər qabarıq şəkildə verilmişdir. Xüsusən, aşağı siniflərin yeni proqramlarında həm öyrədilməli faktik material, həm də bu materialın öyrədilməsi zamanı şagirdlərdə inkişaf etdirilməli əqli bacarıq nəzərdə tutulmuşdur. Buna görə də faktik materialın öyrənilməsi müvafiq əqli qabiliyyətlərin formalaşmasına,

əqli qabiliyyətlərin fəaliyyətə gəlməsi isə həmin faktik materialın daha şüurlu mənimsənilməsinə kömək edir.

Yeni proqramların anlayışlar sistemi əsasında qurulması – bu proqramların mahiyyətini, əsasını təşkil edən pedaqoji və psixoloji ideyalardan biridir. Əvvəla, elm qırıq-sökük, əlaqəsiz biliklər yığınından ibarət deyildir. Elmdə məfhumlar sistemi olur. Yeni tədris proqramları isə elmdəki anlayışlar sistemini nəzərə almaya bilməzdi. İkincisi, sübut edilmişdir ki, şagird məfhumları ayrılıqda deyil, sistem halında mənimsədikdə yeni biliklərə, yeni həyat hadisələrinə, təbiət əşyalarına münasibəti daha fəal, müstəqil, daha şüurlu olur… Üçüncüsü, insan zəkasının səviyyəsi, insan biliyinin zənginliyi, adamın idrak imkanları, cisim və hadisələrin qruplarının başlıca cəhətlərini ümumiləşdirən, onların arasındakı daxili əlaqələri özündə əks etdirən məfhumlar sisteminə həmin adamın nə dərəcədə yiyələndiyi ilə müəyyən edilir. Bütün bu cəhətlər təlimin idrak əsasını gücləndirməyi tələb edir. Deməli, yeni proqramla işləməli olan hər bir müəllim bu proqramın idrak əsaslarının da nədən ibarət olduğunu dərindən bilməlidir. Müəllim bilməlidir ki, yeni proqramlar məfhumlar silsiləsini xatırladır. Bu silsilədən hər hansı səbəbdən müəyyən mərhələni keçməyən, müəyyən mərtəbəni qalxmayan, müəyyən pillələri addımlamayan şagird təlimdə müvəffəqiyyətsizliyə məruz qalacaqdır. Yeni proqramın idrak əsasını bilən müəllim proqramın əhatə etdiyi bütün məfhumların bütün şagirdlər tərəfindən şüurlu mənimsənilməsinə səy göstərəcəkdir.

Buradan irəli gələn ikinci nəticə ondan ibarətdir ki, müəllim dərsi, ümumiyyətlə, təlimi anlayışların formalaşmasında özünü göstərən qanunlara uyğun şəkildə təşkil etməlidir. Psixologiyadan və məntiq elmindən məlumdur ki, hər hansı məfhum onun əhatə etdiyi konkret cisimlərin və ya hadisələrin ən başlıca cəhətlərini ümumiləşmiş şəkildə əks edir. Deməli, hər hansı elmi məfhumu şagirdlərə mənimsətmək üçün, əvvəla, həmin məfhumun əhatə etdiyi konkret əşyaların və ya hadisələrin şagirdlər tərəfindən müşahidəsini təşkil etmək vacibdir. İkincisi, həmin konkret əşyaların müşahidəsi zamanı

şagirdlərin diqqətini bu əşyalardakı ən başlıca cəhətlərə yönəltmək, bu ümumi cəhətlərin şagirdlər tərəfindən dərk olunmasını təşkil etmək zəruridir. Konkret hadisələrdə mövcud olan başlıca cəhətlərin aşkara çıxarılmasını, ümumiləşdirilməsi və dərk olunmasını təmin etmək yeni proqramın ən başlıca idrak tələblərindən biridir. Beləliklə, təlim zamanı şagirdləri konkret tədris obyektlərinin müşahidəsindən ümumiləşdirmələrə doğru aparmaq elmi məfhumları şüurlu mənimsətməyin zəruri şərtlərindən hesab edilir. Bunsuz məfhumlar yenə də mexaniki şəkildə əzbərlənər, bilikdə formalizmə yol açılar. Halbuki konkret cisimlərin, hadisələrin, faktların müşahidəsi əsasında mənimsənilmiş məfhumlar da yeni cisimlərin, hadisələrin, faktların mahiyyətini daha asan, daha şüurlu, müstəqil başa düşməyə imkan verir.

Deməli, idrak qanunauyğunluqları əsasında təlimin qurulması şagirdlərin sonrakı fikri fəaliyyət imkanlarının genişlənməsinə səbəb olur ki, bu da yeni proqramların əsasında duran qnoseoloji ideyalardan biridir.

Yeni proqramların tərtibində nəzərə alınmış cəhətlərdən biri də bütün məfhumların bütün şagirdlər tərəfindən şüurlu mənimsənilməsini təmin etməkdən ibarətdir. Bundan ötrü müəllim ayrı-ayrı mövzuların hər bir şagird tərəfindən necə mənimsənildiyini diqqətlə izləməli, çətinlik çəkənlərə vaxtında istiqamət verməlidir. Bunsuz, yəni müasir dildə desək, əks əlaqəsiz, yeni proqramla yüksək səviyyədə işləmək çətindir.

Yeni proqramlara keçilməsi ilə əlaqədar olaraq dərsi köhnə ənənəvi qaydada deyil, yeni intensiv qaydada təşkil etmək, dərsdə əks əlaqə və problemli situasiya yaratmaq məsələləri də «Pedaqoji mühazirələr»də ətraflı işıqlandırılmışdır.

Hər bir sualla, hər bir tapşırıqla əlaqədar olaraq sinifdəki hər bir şagirdin necə düşündüyünü, necə işlədiyini tez bir zamanda yoxlayan və bunu nəzərə alan müəllimlərimiz indi az deyildir. Bu məqsədlə müəllimlər şifahi cavablardan, şagirdlərin yazılarından, perfokartlardan, kartoçkalardan və s. vasitələrdən geniş istifadə edirlər. Hətta texniki vasitələrdən, proqramlaşdırılmış təlimdən istifadə edən müəllimlərimiz də az deyildir. Naxçıvanın Cəhri kəndindəki

məktəbin dil-ədəbiyyat müəllimi Nəriman Orucəliyevin işi, Sumqayıt şəhərindəki 12 nömrəli məktəbin işi, xüsusən riyaziyat müəllimi Yaqub Bünyadovun iş təcrübəsi buna misal ola bilər: Yaqub müəllim öz təşəbbüsü ilə sinif otağını avtomatlaşdıraraq maşın vasitəsilə şagirdləri həm öyrədir, həm də sinifdə onların öyrənmə prosesinə bacarıqla nəzarət edir, kimin necə başa düşdüyünü yəqin edir və ehtiyacı olanlara yerindəcə, dərhal kömək göstərir.

Yeni proqram tələblərini yüksək səviyyədə həyata keçirməyin şərtlərindən biri də təlim zamanı hər bir şagirdin fərdi xüsusiyyətlərini dərindən öyrənmək və bu xüsusiyyətləri nəzərə almaqdan ibarətdir. Təlimi yalnız orta səviyyəli şagirdə uyğunlaşdırmaq az səmərə verir. Müəllimdən hər bir şagirdin idrak imkanlarını bilmək, əqli inkişaf sürətini izləmək, nəyə qadir olduğunu müəyyənləşdirmək və təlim zamanı bütün bunlara istinad etmək tələb olunur. Təlim qarşısında qoyulmuş bu yeni tələbi də kifayət qədər dərk edən müəllimlərimiz vardır. 172 nömrəli məktəbin müəllimi Əhməd Həsənov, 199 nömrəli məktəbin coğrafiya müəllimi Aliyə Əfəndiyeva və başqalarının iş təcrübəsi bu cəhətdən xarakterikdir. Həmin müəllimlərin bölmə iclaslarında etdikləri məruzələrdən aydın olmuşdur ki, onlar tarix və ya coğrafiyadan zəif oxuyan şagirdlərə ayrı-ayrı respublikaların, ölkələrin iqtisadi-coğrafi xəritələrini hazırladır, onları əlavə material üzərində işlədirlər. Belə şagirdlər dərsliyi daha diqqətlə oxumalı, öyrənilən ölkənin sənayesini, kənd təsərrüfatını xəritəyə köçürməli olurlar. Beləliklə, öz əməyinin təlimdə səmərəsini görən zəif şagirdlər daha da ruhlanır, müəllimin yeni göstərişini intizarla gözləyir, təlimdə tədricən irəliləyirlər.

Yeni proqramların öhdəsindən gəlmək üçün müəllimlərə kömək edən vasitələrdən biri də dərsdə problemli situasiya yaratmaqdır. Dərs zamanı ustalıqla yaradılan problem situasiyası şagirdlərdə yaradıcı fəallığı artırır, əqli qabiliyyətləri, təfəkkürü inkişaf etdirir, elmə, biliyə marağı qat-qat yüksəldir. Çünki problemli situasiya zamanı biliklər şagirdlərə hazır şəkildə izah olunmur, şagirdlərin özləri düşünməli, özləri

axtarmalı, qoyulmuş suala özləri cavab tapmalı, yaradılmış çətinliyi özləri aradan qaldırmalı olurlar.

Keçən illərdən fərqli olaraq, cari dərs ilində istər rayon və istərsə də respublika «Pedaqoji mühazirələri»ndə müasir dərs və ona verilən yeni tələblərlə əlaqədar olan məsələlərdən daha ətraflı söhbət getməsi heç də təsadüfi deyildir. Bu, məhz yeni proqramların tətbiqi ilə əlaqədar olaraq həyatın məktəb qarşısında qoyduğu vəzifələrdən irəli gəlir. Bu, həm də o deməkdir ki, müəllimlərimiz nəinki təlimin əsas təşkilat forması olan dərsə xüsusilə böyük əhəmiyyət verir, həm də dərsin tərbiyələndirici təsirindən məharətlə istifadə etməyə çalışırlar.

Təlim və metodik işlərin, tərbiyənin ümumi məsələləri, məktəbəqədər tərbiyə və pedaqoji fikir tarixi, musiqi və təsviri incəsənət, fiziki tərbiyə, axşam məktəbləri, ayrı-ayrı fənlərin tədrisi üzrə bölmələrin işləri əvvəlki illərdən fərqli olaraq daha məzmunlu, daha əhatəli olmuşdur.

Respublika «Pedaqoji mühazirələri»ndə xüsusilə fərqlənən 45 məruzə; o cümlədən Bakı şəhərindəki 35 nömrəli məktəbin direktoru Ə.Əliyevin «Məktəbdaxili nəzarət sistemində yoxlama və icranın təşkili təcrübəsindən», Quba şəhər internat-məktəbin direktoru A.Aslanovun «İnternat-məktəbdə V.İ.Lenin muzeyinin iş təcrübəsindən», Naxçıvan MSSR-in İliç rayonundakı Muğanlı kənd məktəbinin müəllimi M.Seyidovun «Tarix dərslərində müstəqil işin təşkili təcrübəsindən», V.İ.Lenin adına APİ-nin məktəbəqədər tərbiyə kafedrasının baş müəllimi B.Paşayevanın «Uşağın rabitəli nitqinin inkişafında şəklin rolu haqqında» və başqa məruzələr Ümumittifaq «Pedaqoji mühazirələri»ndə oxunmaq üçün tövsiyə edilmişdir.

Respublika «Pedaqoji mühazirələri»nin yekunları göstərir ki, V.İ.Leninin anadan olmasının 100 illiyinə və Sovet Azərbaycanının yarım əsrlik yubileyinə həsr edilmiş müəllimlərimizin bu böyük məclisi daha mütəşəkkil keçmişdir. «Pedaqoji mühazirələr» eyni zamanda göstərir ki, müəllimlərimiz və maarif işçilərimiz təlim-tərbiyə işini müasir tələblər səviyyəsinə qaldırmağa çalışır, elmi-texniki inqilabın böyük nailiyyətlərindən sovet adamları və bütün mütərəqqi bəşəriyyət

naminə istifadə etməyə qadir olan Lenin nəsli yetişdirmək üçün axtarışlar edir, yeni yollar axtarıb tapırlar.

Lakin təəssüf ki, «Pedaqoji mühazirələr» kimi çox mühüm tədbirə laqeyd münasibət bəsləyən rayonlarımız da vardır. Nəticədə Ucar, Zərdab, Sabirabad, Vartaşen, Dəvəçi, Kürdəmir, Qutqaşen, Əli Bayramlı və Şamaxıdan respublika «Pedaqoji mühazirələri»ndə yalnız bircə nəfər, Masallı, Mirbəşir, Qusar, İsmayıllı, Puşkin rayonlarından isə iki nəfər iştirak etmişdir.

Bəzi rayonlardan gələn məruzəçilərin oxuduqları mühazirələrin elmi-nəzəri səviyyəsinin aşağı olması da təəssüf doğurur. Bu habelə onu göstərir ki, həmin məruzələrin hazırladığı rayon və məktəbin rəhbərləri pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və xüsusilə «Pedaqoji mühazirə» şəklində tərtib olunub, rayon və respublika pedaqoji mühazirələrinə təqdim olunması kimi çox mühüm vəzifəyə olduqca soyuq münasibət bəsləyirlər.

Ayrı-ayrı nöqsan və çatışmazlıqlara baxmayaraq «Pedaqoji mühazirələri»n hazırlanması və keçirilməsi aydın surətdə göstərir ki, müəllimlərimiz və əməli məktəb işçilərimiz bu işə getdikcə daha böyük əhəmiyyət verir, «Pedaqoji mühazirələr»ə məhz bütün dərs ili boyu hazırlaşmaqda çox yaxşı iş görürlər.

Pedaqoji nəzəriyyənin və məktəb təcrübəsinin öyrənilməsinə və yayılmasına səbəb olan «Pedaqoji mühazirələr»də ediləcək məruzələrin keyfiyyətini gələcəkdə daha da yaxşılaşdırılması üçün müəllimlərin öz işlərinə yaradıcı münasibətini inkişaf etdirmək, onların qabaqcıl iş təcrübəsini dərindən öyrənməsinə rəhbərlik və lazımi köməklik göstərmək lazımdır.

**(«Azərbaycan məktəbi» jurnalı, 1970, №2)**

## 15. NÖVBƏTİ «PEDAQOJİ MÜHAZİRƏ»LƏR QARŞISINDA

«Pedaqoji mühazirələr» Sovet İttifaqında gözəl və faydalı bir ənənəyə çevrilmişdir. SSRİ Pedaqoji Elmlər Akademiya-

sının və SSRİ Maarif Nazirliyinin yarandığı vaxtdan bəri 2 dəfə ümumittifaq «Pedaqoji mühazirələri» keçirilmişdir. 1968-ci ilin yanvarında təşkil olnmuş birinci ümumittifaq «Pedaqoji mühazirələri» ərəfəsində ayrı-ayrı respublikalarda 10 minə qədər müəllim, metodist və elmi işçi məruzəçi olmuşdur. Mərkəzi «Pedaqoji mühazirələr»ə 6000-ə qədər məruzə mətni təqdim olunmuşdu; bunun 1066-sı proqrama daxil edilmişdi.

Birinci ümumitifaq «Pedaqoji mühazirələri»ndə respublikamızdan 14 məruzəçi və 5 qonaq iştirak etmişdi.

1970-ci ilin martında keçirilmiş ikinci ümumittifaq «Pedaqoji mühazirələri» ərəfəsində müttəfiq respublikalarda 16 minə qədər maarif işçisi məruzə ilə çıxış etmişdir. Mərkəzi «Pedaqoji mühazirələri»n proqramına isə 1.150 məruzə daxil edilmişdi. Orada Azərbaycandan 31 nəfər iştirak etmişdi ki, bunlardan 26-sı məruzəçi, 5-i isə qonaq olmuşdur.

İndiyədək respublikamızda 17 dəfə respublika «Pedaqoji mühazirələri» keçirilmişdir. Təkcə son, XVII respublika «Pedaqoji mühazirələri»ndə 10 minə qədər iştirakçı olmuşdur ki, bunların 2 minə qədəri məruzə ilə çıxış etmişdir. Təkcə Bakı şəhərində 112, Kirovabad şəhərində 84, Naxçıvan MSSR-də 60, Mingəçevirdə 40 məruzə oxunmuş və müzakirə edilmişdir.

Son respublika «Pedaqoji mühazirələri»nə müxtəlif şəhər və rayonlardan 2.000-dən artıq məruzə mətni təqdim edilmişdir ki, bunların yalnız 224-nü proqrama daxil etmək mümkün olmuşdur.

Məzmunlu məruzə ilə çıxış edən, məruzəsində yeni, faydalı iş təcrübəsi nümunələri haqqında söhbət açan, dinləyicilərin böyük marağına səbəb olan müəllimlər müxtəlif şəkildə maddi və mənəvi həvəsləndirmə tədbirlərinə təqdim edilirlər. Bu cür müəllimlərdən bəzilərinə birinci dərəcəli, bəzilərinə ikinci dərəcəli pul mükafatları verilir; bir qrupun məruzə mətnləri çap olunur; digər qrupa SSRİ PEA-nın fəxri fərmanı, başqa bir qrupa Azərbaycan SSR

«Qabaqcıl Maarif xadimi» döş nişanı, digərlərinə Azərbaycan SSR Maarif Nazirliyinin fəxri fərmanı verilir.

Göründüyü kimi, həm ümumittifaq, həm də respublika «Pedaqoji mühazirələri»nə hazırlaşmaq və onları keçirmək sahəsində müəyyən təcrübəmiz vardır. Bu təcrübəyə əsaslanaraq qarşıdakı «Pedaqoji mühazirələr»ə daha ciddi hazırlaşmalı, bütün imkanlarımızı səfərbər etməliyik.

İndi ölkəmizdə bütün maarif orqanları, elmi-tədqiqat pedaqogika və müəllimləri təkmilləşdirmə kursları, müəllimlər və digər maarif işçiləri III ümumittifaq «Pedaqoji mühazirələri»nə hazırlaşırlar. III ümumittifaq «Pedaqoji mühazirələri» 1973-cü ilin martında keçiriləcəkdir. Bu mərkəzi mühazirələrə hazırlıq bir sıra mərhələlər üzrə aparılacaqdır. «Pedaqoji mühazirələr» əvvəlcə məktəblərdə və metodbirləşmələrdə keçiriləcəkdir. Bəyənilmiş ən yaxşı məruzələr rayon və ya şəhər «Pedaqoji mühazirələri»nə təqdim ediləcəkdir. Burada diqqəti xüsusilə cəlb etmiş olan məruzə mətnləri müvafiq yolla respublika «Pedaqoji mühazirələri»ndə müzakirəyə təqdim olunacaqdır. Respublika «Pedaqoji mühazirələri»ndə oxunmuş dəyərli məruzələrin ən yaxşısı isə ümumittifaq «Pedaqoji mühazirələri»nə göndəriləcəkdir.

«Pedaqoji mühazirələr» məktəblər və metodbirləşmələr üzrə 1971-ci ilin oktyabr-noyabr aylarında, rayon və şəhər üzrə 1972-ci ilin yanvar ayında, respublika üzrə isə 1972-ci ilin mart ayında keçiriləcəkdir.

İstər rayon, şəhər və respublika, istərsə də ümumittifaq «Pedaqoji mühazirələri»nin yüksək səviyyədə keçirilməsi və istənilən nəticənin əldə edilməsi birinci növbədə «Pedaqoji mühazirələri»n mahiyyətini düzgün qiymətləndirməkdən, tədbirə düzgün münasibət bəslənilməsindən, məktəb rəhbərlərinin, maarif orqanları işçilərinin və müəllimlərin bu tədbirə göstərdikləri qayğının dərəcəsindən asılı olacaqdır.

Qabaqcıl təcrübənin aşkara çıxarılması, öyrənilməsi və yayılması üçün «Pedaqoji mühazirələri»n böyük əhəmiyyətini qeyd etməmək olmaz. «Pedaqoji mühazirələr» bizə imkan verir ki, dərsin təşkili, dərsdə şagirdlərn fəallaşdı-

rılması, onların müstəqilliyinin artırılması sahəsində, dərsdə müxtəlif texniki vasitələrdən istifadə edilməsi, dərsin intensivləşdirilməsi və dərslə əlaqədar olan digər məsələlərin həlli sahəsində müəllimlərimizin əldə etdiyi gözəl nailiyyətlərdən geniş söhbət açaq. Bu imkandan tam istifadə etmək üçün əlimizdən gələni əsirgəməməliyik.

Sinifdənkənar tərbiyəvi tədbirlərin təşkili və keçirilməsi, məktəbdənkənar uşaq müəssisələrində görülən rəngarəng işlərin öyrənilməsi üçün «Pedaqoji mühazirələri»n rolu olduqca böyükdür.

«Pedaqoji mühazirələr» məktəb komsomol və pioner təşkilatlarının, şagird özünüidarə təşkilatlarının iş təcrübəsini əks etdirən güzgüyə çevriləcəkdir.

Sinif rəhbərlərinin, məktəb direktorunun, onun müavinlərinin iş təcrübəsinə dair fikir mübadiləsi aparmaq, valideynlər arasında, ümumiyyətlə əhali arasında pedaqoji bilikləri təbliğ etməyin formalarına dair söhbət açmaq üçün «Pedaqoji mühazirələr» əlverişli şərait yaradır.

Məktəbəqədər uşaq müəssisələrinin, məktəblərin, məktəbdənkənar uşaq müəssisələrinin, məktəb kitabxanalırının iş təcrübəsini, ayrı-ayrı fənn müəllimlərinin, sinif rəhbərlərinin, direktorların və müavinlərinin yaxşı iş nümunələrini aşkara çıxarmaq üçün «Pedaqoji mühazirələr» kimi kütləvi tribunadan səmərəli istifadə etməliyik.

Partiya, komsomol və həmkarlar ittifaqı təşkilatları fəallarının, sovet idarələri işçilərinin də «Pedaqoji mühazirələr»də iştirakı, məruzə ilə onların çıxış etməsi son dərəcə faydalı olardı.

Məktəblərimizdə təlim-tərbiyə prosesini daha da təkmilləşdirmək, yeni proqramlar müvəffəqiyyətlə tətbiq etmək məqsədilə «Pedaqoji mühazirələr»dən lazımınca istifadə etməliyik. Bu cür məsələlərin həllində «Pedaqoji mühazirələri»n imkanlarından istifadə edilməsi Sov.İKP XXIV qurultayının maarif sahəsində qarşıya qoyduğu vəzifələrin – təlim və tərbiyə prosesini daha da təkmilləşdirmək, yeni proqramlara keçilməsini başa çatdırmaq, orta təhsili tam həyata keçirmək, peşə təmayülü üzrə iş sistemini yaxşı-

laşdırmaq, məktəbdə texniki vasitələrdən səmərəli istifadə etmək, məktəbin maddi-texniki bazasını genişləndirmək və s. vəzifələrin vaxtında yerinə yetirilməsinə kömək etməlidir.

Məktəblərimizdə təlim və tərbiyə işlərinin səviyyəsini daha da yüksəltmək üçün «Pedaqoji mühazirələri»n müstəsna əhəmiyyətə malik olduğunu nəzərə alaraq yerlərdə bir sıra təşkilati tədbirlər görmək vacibdir. Hər bir rayonda, hər bir şəhərdə pedaqoji mühazirələrə yüksək səviyyədə hazırlaşmaq və onu mütəşəkkil keçirmək məqsədilə maarif şöbələri nəzdində təşkilat komitəsi yaradılmalıdır. Komitənin tərkibinə maarif şöbəsinin işçilərindən, məktəb direktorlarından və qabaqcıl müəllimlərdən daxil edilə bilər. Təşkilat komitəsi rayon (və ya şəhər) ərazisində yerləşən məktəblər üzrə, sonra isə rayon (və ya şəhər) üzrə «Pedaqoji mühazirələri»n yüksək səviyyədə keçirilməsini, ən yaxşı məruzə mətnlərinin seçilib respublika «Pedaqoji mühazirələri»nə təqdim olunmasını təmin etməlidir.

Bununla yanaşı rayon (və ya şəhər) üzrə ekspert komissiyaları da yaradılmalıdır. Ekspert komissiyalarını təlim-tərbiyənin sahələri üzrə, məsələn, ayrı-ayrı fənlər üzrə, təlim və tərbiyənin ümumi məsələləri üzrə təşkil etmək olar. Respublika təşkilat komitəsinin hazırlayıb kitabça şəklində yerlərə göndərdiyi «Nümunəvi mövzular» bu cəhətdən ekspert komissiyaları yaradılması işini asanlaşdıra bilər. Ekspert komissiyaları məruzə üçün mövzuların müəyyənləşdirilməsində, mövzu üzərində müəllimlərin işinin təşkilində, məruzə mətnlərinin seçilib rayon (və ya şəhər) «Pedaqoji mühazirələri»nə təqdim olunmasında və s. işlərin görülməsində təşkilat komitəsinə yaxından kömək göstərə bilər.

Məruzə üçün mövzunun düzgün müəyyənləşdirilməsi mövzu üzərində müəllimin işini xeyli asanlaşdırır. Mövzunun düzgün müəyyənləşdirilməsində müəllimə və digər maarif işçilərinə kömək göstərmək və onlara istiqamət vermək üçün respublika təşkilat komitəsi tərəfindən «Nümunəvi mövzular» kitabçası çap etdirilib xalq maarif şöbələrinə göndərilmişdir. Kitabçada hər fənn üzrə mövzular göstərilir.

Müəllimlər, digər maarif işçiləri istədikləri mövzunu oradan seçib götürə, onun üzərində işləyə bilərlər.

Unutmaq olmaz ki, kitabçada təqribi mövzular göstərilmişdir. Bu o deməkdir ki, müəllim həmin mövzulardan birini, yaxud kitabçada yazılmamış olan və istədiyi hər hansı başqa bir mövzunu götürə bilər. Burada vacib olan şərt odur ki, götürülmüş mövzu təlim və tərbiyə təcrübəsinin müəyyən sahəsini əks etdirsin, yəni mövzu ümumi deyil, bir qədər konkret olsun. Belə olduqda onu yazmaq xeyli asanlaşır; mövzu ümumi xarakter daşıdıqda isə onun üzərində işləmək çətinləşir. Bu zaman nədən başlayıb nə ilə qurtarmağın lazım gəldiyini müəyyənləşdirməkdə müəllim çətinlik çəkir. Fikrimizi bir qədər aydınlaşdıraq. Məsələn, «Yeni proqramın tələblərini yerinə yetirmək yolları», «Təlimin təşkilat formaları», «Şagirdlər arasında tərbiyə işlərinin təşkili», «Şagirdlərlə peşə təmayülü üzrə işin təşkili» kimi mövzular həddən artıq ümumi və genişdir.

Birinci mövzuya diqqət yetirək. Əvvəla, orada hansı fənn haqqında söhbət gedəcəyi məlum deyildir. İkincisi, yeni proqramların tələbləri bir deyil, çoxdur. Hansı tələbdən danışılacağı da aydın deyildir. Üçüncüsü, yeni proqram bir sinifdə deyil, bir neçə sinifdə tətbiq edilir. Həmin mövzuda aşağı sinifdə proqramın tətbiqi təcrübəsindən danışılacağını da başa düşmək çətindir.

İkinci mövzuya nəzər salaq. Məlumdur ki, təlimin təşkilat formaları çoxdur. Buraya müxtəlif tipl dərslər də, evdə şagirdlərin təlim işi də, fərdi və qrup şəkilli məsləhətlər də, ekskursiya da, seminar və s. təşkilat formaları da daxildir. Aydındır ki, bunların hamısı haqqında bir məruzədə danışılarsa, fikirlər çox səthi və dağınıq olar.

Üçüncü mövzunu götürək. Məlumdur ki, tərbiyə çoxcəhətli prosesdir. Tərbiyə vəzifələri təlim prosesində də, sinifdənkənar tədbirlərdə də, məktəbdənkənar işlərdə də, ailədə də həyata keçirilir. Tərbiyə ilə müəllimlər də, sinif rəhbərləri də, məktəbin direktoru, onun müavinləri də məşğul olurlar. Komsomol və pioner təşkilatlarında da tərbiyəvi tədbirlər həyata keçirilir. Mövzunun göstərilən şə-

kildə qoyuluşu məruzəçidən tələb edir ki, həmin məsələlərin hamısına toxunsun, hamısı haqqında danışsın. Bu səpkidə yazılmış məruzə mətni də çox dağınıq, çox səthi ola bilər.

Son mövzuya gəldikdə deməliyik ki, göstərilən qüsurlar ona da şamil edilməlidir. Axı peşə təmayülu üzrə iş ayrı-ayrı fənlərin tədrisində də, sinifdənkənar tədbirlər zamanı da aparılır. Onunla müəlim də, sinif rəhbəri də, məktəb rəhbərləri də, komsomol və pioner təşkilatları da məşğul olur. Peşə təmayülü üzrə işin bütün bu cəhətləri haqqında müəllimin və ya hər hansı digər şəxsin bir məruzədə yazması, əlbəttə, çox çətindir.

Bütün bunları nəzərə alsaq, həmin mövzuları aşağıdakı kimi konkretləşdirmək məsləhət olardı: «I sinifdə (və ya II sinifdə) riyaziyyatdan yeni proqramın tələblərini necə yerinə yetirirəm», «Məktəbimizdə dərsi müasir tələblər əsasında necə qururuq», «Təlimi həyatla, istehsalatla əlaqələndirmək məqsədilə ekskursiyalardan necə istifadə edirəm», «Dərsin tərbiyəvi imkanlarından necə istifadə edirəm», «Kənd məktəblərində təlim zamanı peşə təmayülü üzrə işi necə təşkil edirəm» və s.

Mövzuların bu şəkildə qoyuluşu iki suala cavab verməyi tələb edir. Bunlardan biri təcrübə ilə, digəri isə ədəbiyyatla bağlıdır.

Yuxarıda «Pedaqoji mühazirələri»n məqsədindən söhbət açanda demişdik ki, əsas məqsəd müəllimlərimizin, sinif rəhbərlərinin, məktəb direktoru və onun müavinlərinin, tərbiyəçilərin, uşaq bağçası və digər maarif işçilərinin qabaqcıl təcrübəsini aşkara çıxarmaqdan, onu öyrənməkdən və geniş yaymaqdan, bu yolla təcrübəni daha da təkmilləşdirməkdən, şagirdləri həyata, gələcək əmək fəaliyyətinə daha yaxşı hazırlamağa kömək etməkdən ibarətdir. Buna görə də çalışmaq lazımdır ki, mövzunu müəyyənləşdirən zaman hər məruzəçi birinci növbədə öz təcrübəsindən çıxış etsin. Hər bir şəxs öz təcrübəsində fərəhləndiyi, xoşuna gəldiyi, başqasına söyləmək istədiyi və üstün hesab etdiyi hansı yaxşı cəhətlər varsa, həmin cəhətləri özü üçün mövzu seçə bilər. Bu cür mövzu konkret olar, başa düşüləcək tərzdə

yazılar və hamını maraqlandırar. Yuxarıda mövzuları dəqiqləşdirməyə çalışarkən biz məhz bu cəhəti nəzərdə tutmuşuq. Həmin tələbə əsaslanmış olsaq, məsələn, dərsin intensivləşdirilməsi ilə əlaqədar olan mövzunu belə ifadə edərdik: «Mən dərsləri necə intensivləşdirirəm», yaxud «Dərs zamanı şagirdlərin fikri fəallığını necə təmin edirəm».

Mövzunu əməli işlə əlaqələndirməyin vacibliyi təkcə mövzu götürən müəllimlərə deyil, məktəb rəhbərlərinə, digər maarif işçilərinə da aiddir. Bu tələbə əsaslanan sinif rəhbəri öz məruzə mövzusunu, məsələn, belə adlandıra bilər: «Sinifdə mənimsəmənin keyfiyyətini daha da yüksəltmək üçün valideynlərin imkanlarından necə istifadə edirəm». Həmin mövzunu belə də ifadə etmək olar: «Sinifdə mənimsəmənin keyfiyyətini yüksəltmək üçün valideynlərin imkanlarından istifadə etmək təcrübəsindən».

Yaxud, məktəb rəhbərlərinin götürəcəyi mövzuların qoyuluşuna aid misallara nəzər salaq. Tərbiyə işlərinə rəhbərliyi götürək. Məlumdur ki, məktəbdə tərbiyə işləri çoxcəhətli olduğu kimi, ona rəhbərlik də çoxcəhətlidir. Bunlardan biri də tərbiyə işlərinin sistemini yaratmaqdır. Həmin cəhəti mövzu şəklində belə ifadə etmək olardı: «Məktəbin tərbiyə işlərində sistem yaradılmasına necə nail oluram». Yaxud, direktorun dərslə əlaqədar gördüyü işlərdən birini bu cür ifadə etmək məsləhətdir: «Dərslərin təşkilinə necə nəzarət edirəm». Tədris işləri üzrə direktor müavininin götürməli olduğu mövzulardan birini belə adlandırmaq olar: «Məktəbdə qabaqcıl təcrübənin aşkara çıxarılması və yayılmasını necə təşkil edirəm».

Bu cür misallarla onu demək istəyirik ki, mövzunu əməli işlə əlaqələndirmək, təcrübədə qazanılmış nailiyyətləri qələmə almaq lazımdır.

Dediklərimizdən belə bir nəticə çıxartmaq düzgün olmaz ki, biz guya məruzə yazarkən ədəbiyyata istinad etməyin, ədəbiyyata əsaslanmağın tərəfdarı deyilik. Bu, bir həqiqətdir ki, müasir şəraitdə, elmin sürətlə inkişaf etdiyi indiki dövrdə elmi yeniliklərə, elmin nailiyyətlərinə istinad etmədən təcrübədə əhəmiyyətli dönüş yaratmaq çox

çətindir. Təcrübəni, əməli işi təkmilləşdirməyi arzu edən, bu sahədə tər tökən müəlim elmdən, elmi məlumatlardan uzaq olduqda çox halda öz enerjisini hədər yerə sərf edir. Çünki belə müəllim ədəbiyyatla tanışlıq zamanı yəqin edir ki, uzun müddət üzərində işlədiyi və yeni hesab etdiyi təlim və ya tərbiyə üsulu, yaxud priyomu çoxlarına məlumdur; bu istiqamətdə o qədər də çalışmağa, ədəbiyyatsız axtarışlar aparmağa ehtiyac yox imiş; müvafiq ədəbiyyatla tanış olmaq bəs edərmiş. Ədəbiyyatda şərh olunan, əməli işdə tətbiq üçün məsləhət görülən iş təcrübəsini sınaqdan keçirmək, onu daha da təkmilləşdimək kifayət imiş. Deməli, ədəbiyyat adamın gözünü açır, onu nəzəri cəhətdən müvafiq biliklərlə silahlandırır, mövcud təcrübə haqqında oxucunun təsəvvürünü genişləndirir, əməli işin səmərəlilik dərəcəsinin artmasına imkan verir. Bütün bunlara görə də iş təcrübəsindən yazarkən mövcud ədəbiyyata əsaslanmağı məsləhət görürük.

Ədəbiyyatdan istifadə edərkən yol verilən ən ciddi qüsurlardan biri haqqında burada danışmaq yerinə düşərdi. Biz, ədəbiyyata əsaslanmaq, ona istinad etmək əvəzinə ayrı-ayrı yzılardan köçürmək hallarını nəzərdə tuturuq.

Xatırladaq ki, respublika «Pedaqoji mühazirələri»nə təqdim olunmuş məruzə mətnləri müvafiq mütəxəssislərə rəy verilir, redaktə edilir. Bəzən məlum olur ki, təqdim edilmiş məruzə mətnlərindən bir qismi yaramır, onları respublika «Pedaqoji mühazirələri»n proqramına daxil etmək mümkün deyildir, çünki belə məruzə mətnlərinin müəllifləri özlərinə zəhmət verməmişlər, yaradıcı düşünmək əvəzinə, qəzetdə, jurnalda və ya kitabçada başqasının yazmış olduğu fikri mexaniki surətdə köçürmüşdür. Ədəbiyyatda xoşagələn fikrə təsadüf edən məruzəçi həmin fikrə əsaslana, onun yerini göstərə və bu fikrə tərəfdar çıxa bilər. Ədəbiyyatda irəli sürülmüş, lakin təcrübədə özünü lazımınca doğrultmayan fikirlərə isə tənqidi münasibət bəsləmək, bu barədə öz şəxsi mülahizələrini bildirmək də olar. Bu, ədəbiyyata yaradıcı münasibət əlaməti olardı, müəllimin səmərəli nəzəri fəaliyyətini göstərərdi.

Deməli, həm təcrübəyə, həm də ədəbiyyata yaradıcı münasibət «Pedaqoji mühazirələr»də müvəffəqiyyətlə çıxış etməyin əsası kimi qiymətləndirilməlidir. Bu iki tələbə ciddi əməl edən müəllifin məruzə mətni bütün dinləyicilərin rəğbətini qazanar. Belə məruzələr pedaqoji mətbuatda – «Azərbaycan məktəbi» jurnalında və «Azərbaycan müəllimi» qəzetində məmnuniyyətlə çap olunar və deməli, təcrübənin daha geniş təbliği təmin edilər.

Mövzu götürüb onun üzərində işləyən və məruzəsinin mətni respublika «Pedaqoji mühazirələri»nə təqdim olunan müəllim öz məktəbini, rayonunun və ya şəhərini təmsil etdiyi kimi, məruzəsi Ümumittifaq «Pedaqoji mühazirələri»nə göndərilən müəllimin və ya digər maarif işçisinin də orada öz respublikasını təmsil etdiyini unutmaq olmaz. Buna görə də məruzə mətni üzərində məsuliyyətlə işləmək, bütün qüvvələri səfərbərliyə almaq lazımdır.

Təcrübə göstərir ki, bizim qabaqcıl müəllimlərdən, məktəb rəhbərlərindən və digər maarif işçilərindən bir çoxu öz iş təcrübəsini qələmə almaqda, onu ümumiləşdirməkdə, bir qədər çətinlik çəkirlər. Bu cür maarif işçiləri hansı məsələlər haqqında danışacaqlarını, nədən başlayıb nə ilə qurtaracaqlarını qabaqcadan kifayət qədər ölçüb-biçmirlər.

Gözəl iş nümunələrinə malik olan elə müəllimlər, maarif işçiləri də var ki, onlar yersiz təvazökarlıq edir, öz təcrübəsindən yazmağı lazım bilmir, müvəffəqiyyətləri və çətinlikəri barədə fikir mübadiləsi keçirməyi artıq hesab edirlər. Unutmaq olmaz ki, öz təcrübəsi haqqında danışmaq başqalarını nə qədər faydalandıra bilirsə, təcrübə haqqında dinləyicilərin fikirlərini, məsləhətlərin və tənqidi qeydlərini eşitmək də bir o qədər faydalıdır. Buna görə də iş təcrübəsini qələmə almaqda, bu barədə məruzə etməkdə qənaətcil olmaq, təvazökarlıq etmək yersizdir.

Bir qrup müəllim, maarif işçisi öz təcrübəsinə dair mövzu götürüb məruzə mətni yazmağı əlavə hesab edir. Belə yoldaşlar zəhmətə qatlaşmamaq üçün məruzə hazırlamağa həvəslə girişmirlər. Bəs çəkilib öz qınına girməyə, öz təcrübəsini məhdudlaşdırmağa, qabaqcıl təcrübənin məktəblərə

yol açmasının qarşısını süni şəkildə almağa dözmək olarmı? Hər bir müəllim, hər bir maarif işçisi təcrübə əldə etdiyi, fərəhləndiyi yaxşı iş nümunələri haqqında danışmağa maraq göstərməlidir.

Qabaqcıl iş təcrübəsinin aşkara çıxarılmasında və yayılmasında məktəb direktoru, onun müavinləri xeyli iş görə bilərlər. Birinci növbədə direktor və onun müavinləri məktəbdəki müəllimləri yaxşı tanıyırlar, hansının işində qabaqcıllıq ünsürləri olduğundan xəbərdardırlar. Buna görə də direktor və müavinləri öz müəllimlərini hərəkətə gətirməli, onlara mövzular verilməsində, mövzuların dəqiqləşdirilməsində fəal iştirak etməlidirlər. Məruzə mətnlərinin vaxtında və yüksək səviyyədə yazılmasında da kömək göstərməyə borcludurlar.

Məktəb direktorlarının, onların müavinlərinin mövzu götürməsinə, mövzu üzərində işləməsinə maarif şöbələrinn işçiləri tərəfindən qayğı göstərilməlidir. Yeni proqramların tətbiqi ilə, ümumi orta təhsilə keçilməsi ilə və s. məsələlərlə əlaqədar olaraq şəhər (rayon) xalq maarif şöbələrində xeyli material və təcrübə toplanmışdır. Əldə edilmiş materiallar və qazanılmış təcrübə haqqında, qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları haqqında məruzələrlə çıxış etmək üçün xalq maarif şöbələrinin işçiləri də təşəbbüsdə olmalıdırlar.

«Pedaqoji mühazirələr»ə təqdim olunan məruzə mətnlərinin keyfiyyətli olması üçün götürülmüş mövzunun planını tərtib etmək məsləhətdir. Müəllimlərimizin çoxu mövzusunun planını hazırlayır, məruzəni həmin plan üzrə yazır. Lakin məruzə mətnini yazmaqdan qabaq plan tərtib etməyən, məruzəni plan üzrə yazmayan müəllimlər, digər maarif işçiləri də vardır. Belə müəllimlərin məruzə mətnlərində bir sıra ciddi nöqsanlar müşahidə edilir: fikirlər yarımçıq olur və bir-biri ilə kifayət qədər əlaqələndirilmir, çoxlu təkrara yol verilir, qaldırılmış məsələlər səthi təsvir edilir, lazımınca izah olunmur. Beləliklə, nəzərdə tutulmuş məsələ açılmır, yarımçıq qalır.

Mövzuya qabaqcadan plan tutduqda və məruzəni həmin plana uyğun şəkildə yazdıqda isə istənilən nəticəni əldə etmək mümkün olur: fikir dolğun şərh edilir, məsələlər arasında məntiqi əlaqə təmin olunur, təkrara yol verilmir, irəli sürülən təklif lazımınca izah edilir. Nəticədə bitkin, dolğun mətn alınır və dinləyicinin marağına səbəb olur.

Mövzunun planlaşdırılmasına dair b ir misal gətirək. Tutaq ki, məruzə üçün götürdüyümüz mövzu belə adlanır: «Dərsdə problem situasiyasından necə istifadə edirəm». Həmin mövzuya belə plan tutmaq olardı:

1. Problem situasiyasının növləri.
2. Dərsdə problem situasiyası yaratmaq üçün proqramın verdiyi imkanlar.
3. Dərsdə problem situasiyası yaratmağa dair bir neçə konkret faktın izahı.
4. Şagirdləri fəallaşdırmağa problem situasiyasının təsiri.
5. Biliklərin şüurlu mənimsənilməsinə problem situasiyasının göstərdiyi təsir.
6. Nəticə.

Bu cür plan tərtibindən sonra məruzəni yazmaq üçün müvafiq material toplamaq lazımdır. Yuxarıda dediyimiz kimi, müəllim ədəbiyyat oxumalı və öz təcrübəsində ayrı-ayrı nümunələri yada salmalıdır. Əldə edilən materialları həmin plan üzrə qruplaşdırmaq və bundan sonra məruzənin mətnini yazmaq olar.

Ədəbiyyata və təcrübəyə əsaslanaraq əvvəlcə problem situasiyasının növlərini aydınlaşdırmaq lazım gəlir. Bu ilk məsələnin aydın izahından sonra proqramı təhlil etmək, problem situasiyasının ayrı-ayrı növlərindən hansı mövzuları keçərkən istifadə etməyin mümkün olduğunu müəyyənləşdirmək məsləhətdir.

Bu ikinci məsələnin izahını qurtardıqdan sonra proqram mövzuları əsasında problem situasiyasının ayrı-ayrı növlərini dərsdə necə təşkil etməyə dair əməli işdən, dərslərdən konkret misallar, faktlar və ya nümunələr verilməlidir. Dərsdən gətirilən konkret nümunələrin təşkili metodikasını verdikdən sonra bu nümunələrin əhəmiyyətini, onların

faydalı olduğunu açmaq lazımdır. Təlimdən alınmış ayrı-ayrı faktların səmərəlilik dərəcəsini iki istiqamətdə izah etmək olar. Bunlardan biri şagirdlərin fəallığı ilə, digəri isə biliklərin şüurlu və möhkəm mənimsənilməsi ilə əlaqədardır. Dərsdə problem situasiyası yaradılmasının şagirdləri nə dərəcədə fəallaşdırdığı və biliklərin əsaslı mənimsənilməsinə nə dərəcədə kömək etdiyi izah olunmalıdır. Bütün bunlardan sonra məruzədə irəli sürülmüş fikirləri, metodik məsləhətləri yekunlaşdırmaq, ümumiləşdirmək lazımdır.

Güman edirik ki, dərsdə problem situasiyasından necə istifadə konkret faktlar əsasında, göstərilən ardıcıllıqla yazılarsa, məruzə çox yüksək səviyyədə oxunar, dinləyicilərin böyük marağına səbəb olar, məzmunluğuna görə fərqlənər, qalan müəllimlər isə ondan faydalı nəticələr çıxarırlar.

Həm respublika, həm də ümumittifaq «Pedaqoji mühazirələri»ndə bütün maarif işçiləri, bütün müəllimlər, bütün tərbiyəçilər iştirak edə bilərlər. Çünki orada bütün fənlərlə, o cümlədən bədən tərbiyəsi, əmək təlimi, təsviri incəsənət, musiqi və s. fənlərlə əlaqədar olaraq bölmələr fəaliyyət göstərəcəkdir. Bunlardan əlavə, təlimin ümumi məsələləri bölmələri, məktəbəqədər və məktəbdənkənar uşaq müəssisələri üzrə bölmələr də nəzərdə tutulmuşdur.

Deməli, məktəbin bütün sahələri üzrə, təlim-tərbiyənin bütün məsələləri üzrə qazanmış olduğumuz müvəffəqiyyətlər, əldə etmiş olduğumuz nailiyyətlər haqqında «Pedaqoji mühazirələr» zamanı fikir mübadiləsi aparmaq üçün geniş imkan vardır. Qarşıdakı «Pedaqoji mühazirələri»n – həm məktəb, həm rayon (şəhər), həm respublika, həm də ümumittifaq «Pedaqoji mühazirələri»n imkanlarından bacarıqla istifadə etməyə, qabaqcıl təcrübəni aşkar etməyə, belə təcrübənin geniş yayılması üçün səy göstərməyə borcluyuq. Bu, məktəblərimizdə müəllimlərin və digər maarif işçilərinin pedaqoji ustalığının daha da yüksəlməsinə təsir göstərər. Müəllimlərdə pedaqoji ustalığın artması isə şagirdlərin bilik, bacarıq səviyyəsinin yüksəlməsinə və deməli, onların həyata, gələcək istehsalat fəaliyyətinə daha yaxşı hazırlanmasına kömək edər.

Qarşıdakı «Pedaqoji mühazirələr» Sov.İKP XXIV qurultayının maarif sahəsində, təlim-tərbiyə sahəsində irəli sürdüyü vəzifələrin həllinə yönələcəkdir.

**(«Azərbaycan məktəbi» jurnalı, 1971, №9)**

## 16. GENİŞ İCTİMAİYYƏT CƏLB OLUNMALIDIR

Bu il keçirilən pedaqoji mühazirələrin problemi və məzmunu əvvəlki pedaqoji mühazirələrdən fərqləndiyi kimi, onun keçirilmə forması da başqadır. Qarşıdakı pedaqoji mühazirələr qış kanikulu günlərində keçiriləcəkdir. Məlumdur ki, kanikul günlərində müəllimlərin ənənəvi yanvar müşavirəsi də keçirilir.

Belə olduqda ortaya sual çıxır: pedaqoji mühazirələr və yanvar müşavirəsi bir-biri ilə necə əlaqələndiriləcəkdir?

Həmin tədbirlərlə əlaqədar olaraq müəllimlərin işini daha səmərəli təşkil etmək və onları iki dəfə toplamamaq üçün Azərbaycan SSR Maarif Nazirliyində qərara alınmışdır ki, yanvar müşavirəsi və pedaqoji mühazirələr eyni vaxtda keçirilsin, bu iki tədbir birləşdirilsin. Bundan ötrü əsas vardır.

Məlumdur ki, yanvar müşavirəsinin həm plenar, həm də bölmə iclasları olur: rayon (şəhər) pedaqoji mühazirələrinin də plenar və bölmə iclasları təşkil edilir.

Yanvar müşavirəsinin plenar iclası və pedaqoji mühazirələrin plenar iclası birləşdiriləcək, eyni plenar iclasda iki məruzə dinlənilib müzakirə ediləcəkdir. Plenar iclasda qoyulan məruzələrdən biri təlim-tərbiyə işlərinin yekunları və qarşıda duran vəzifələrə həsr ediləcəkdir. Bu mövzuda maarif şöbəsinin müdiri məruzə edəcəkdir. Həmin plenar iclasda pedaqoji kabinet müdiri və ya təkmilləşdirmə institutunun rəhbərlərindən biri ikinci məruzə ilə çıxış edəcəkdir. İkinci məruzə uşaqların və gənclərin kommunist tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir işinə həsr ediləcəkdir. Həmin gün həm birinci, həm də ikinci məruzə üzrə geniş müzakirə aparılacaqdır.

İkinci gün yanvar müşavirəsinin bölmələri işləyəcək. Üçüncü gün isə pedaqoji mühazirələrin bölmələri fəaliyyətdə olacaqdır.

Əvvəllər məlumat verildiyi kimi, bütün rayonlarda pedaqoji mühazirələrin aşağıdakı bölmələri təşkil edilməlidir:

1. Uşaqların və gənclərin kommunist tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir iş formaları.

2. Təlimin keyfiyyətini yüksəltmək məqsədi ilə ailənin və ictimaiyyətin imkanlarından istifadə edilməsi.

3. Şagird şəxsiyyətinin hərtərəfli inkişafını təmin etməkdə ailənin və ictimaiyyətin köməyindən istifadə edilməsi.

4. Valideynlər və əhali arasında pedaqoji biliklərin təbliği yolları.

5. Bağçayaşlı uşaqların tərbiyəsində bağça, ailə və ictimaiyyətin əlbir işi.

Həm plenar iclasda oxunacaq məruzənin mövzusundan, həm də bölmələrin adlarından göründüyü kimi, qarşıdakı pedaqoji mühazirələr məktəb, ailə və ictimaiyyətin əlbir işinə həsr edilir.

Belə bir problemin qyoulması təsadüfi deyildir. İndi elə bir dövr gəlib çatmışdır ki, məktəb qarşısında qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün məktəb rəhbərləri, müəllimlər, maarif işçiləri ailə ilə, valideynlərlə, geniş ictimaiyyətlə sıx əlaqə saxlamalı, ailənin və ictimaiyyətin imkanlarından maksimum dərəcədə istifadə etməlidirlər.

Gənc nəslin kommunist tərbiyəsində ailənin və ictimaiyyətin böyük rol oynadığını Sov.İKP Mərkəzi Komitəsi dönə-dönə qeyd tmişdir. «Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında», «Kənd ümumtəhsil məktəbinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» və digər qərarlarda Sov.İKP MK və SSRİ Nazirlər Soveti partiya, komsomol və həmkarlar ittifaqı təşkilatlarına, yerli sovet orqanlarına, müəssisə və idarələrə, kolxoz və sovxozlara tapşırmışlar ki, məktəblərə, uşaqların və gənclərin kommunist tərbiyəsinə qayğı və köməklik göstərsinlər.

Müəllimlərin, maarif işçilərinin vəzifəsi partiya və hökumətin bu göstərişlərinə əsaslanaraq geniş ictimaiyyətin, ailənin imkanlarını nəzərə almaqdan, bu imkanlardan istifadə etməyə çalışmaqdan ibarət olmalıdır.

Hər bir rayonda məktəbə kömək göstərən, uşaqların, yeniyetmə və gənclərin tərbiyəsində fəal iştirak edən bacarıqlı adamlar, qabaqcıl müəssisələr vardır. Məhkəmə, prokurorluq və milis işçiləri sırasında, mühəndislər və həkimlər, aqronomlar və zootexniklər arasında məktəblə yaxından əlaqə saxlayan, şagirdlər qarşısında çıxış edən, şagirdlərin tədbirlərində iştirak edən adamlarımızın sayı getdikcə artır.

Öz uşaqlarının təhsili və tərbiyəsi ilə maraqlanmayan işçilərin şəxsi məsələlərini müzakirə edən müəssisə partiya təşkilatlarının iş təcrübəsi genişlənir.

Belə iş təcrübələrini aşkara çıxarmaq, onları ümumiləşdirmək və yaymaq vacibdir. Bu cəhətdən pedaqoji mühazirələr geniş imkan verir. Məktəblə əlaqə saxlayan, təlim-tərbiyə işinə kömək edən valideynlərə, müəssisə və idarə işçilərinə, kolxoz və sovxoz rəhbərlərinə mövzu vermək, onların məruzələrini təşkil etmək zəruridir. Demək istəyirik ki, qarşıdakı pedaqoji mühazirələrdə məktəbə, uşaqların tərbiyəsinə köməklik göstərən prokurorluq, məhkəmə, milis orqanlarının işçilərinin, kolxoz və sovxoz, fabrik və zavod işçilərinin və ictimaiyyətin digər nümayəndələrinin səsi və sözü üstünlük təşkil etməlidir.

Bunlarla yanaşı, qarşıdakı pedaqoji mühazirələrdə müəllimlər, məktəb rəhbərləri və digər maarif işçiləri də məruzə ilə çıxış edə bilərlər. Onların məruzə mövzuları ümumiyyətlə iş təcrübəsinə aid olmamalıdır. Müəllimlər, maarif işçiləri təlim-tərbiyənin səviyyəsini yüksəltmək üçün idarə və müəssisələrin, kolxoz və sovxozların, geniş ictimaiyyətin imkanlarından necə istifadə etdiklərinə dair məruzə etməlidirlər.

Bəzi rayonlardan aldığımız məlumatlar göstərir ki, pedaqoji mühazirələrin təşkilində ciddi nöqsanlara yol verən maarif şöbələri vardır. Nöqsanların əsas səbəbi budur ki, həmin maarif şöbələrinin rəhbərləri qarşıdakı pedaqoji

mühazirələrin başlıca xüsusiyyətini nəzərə almır. Məruzəçilərin çoxunu müəllimlər və məktəb rəhbərlərindən müəyyənləşdirirlər. Geniş ictimaiyyət nümayəndələri, valideynlər məruzəi kimi pedaqoji mühazirələrə cəlb edilməlidir.

Ola bilsin ki, həmin rayonlarda geniş ictimaiyyətin, valideynlərin gücündən, onların imkanlarından təlim-tərbiyə məqsədi ilə istifadə olunmur. Bəlkə də maarif şöbə müdirləri belə bir vəziyyətə görə məcburiyyət qarşısında qalıb (vəziyyətdən çıxmaq üçün) məruzələrlə çıxış etməyi müəllimlərə və məktəb rəhbərlərinə tapşırmışlar.

Lakin inana bilmirik ki, hər hansı bir rayonda məktəb ictimaiyyətdən, ailədən ayrı düşüb, necə deyərlər, yalnız öz şirəsində bişir.

Pedaqoji mühazirələrə yaxşı hazırlaşan rayonlarımız az deyildir. Zəngilan rayonunu buna nümunə göstərmək olar. Pedaqoji mühazirələrə hazırlıq məsələsi maarifyanı şurada geniş müzakirə edilmiş, buraya məktəb rəhbərləri ilə yanaşı, geniş ictimaiyyət nümayəndələri ilə dəvət olunmuşdur. Rayon üzrə təşkilat komitəsi və ekspert komissiyaları yaradılmış, onların üzvlərinin təlimati seminarı keçirilmişdir. Rayonun işindəki yaxşı cəhətlərdən biri budur ki, təşkilat komitəsi respublika qəzetlərində çıxan materiallardan istifadə etmişdir və buna görə də müəyyənləşdirilmiş bölmələri yaratmış, müxtəlif ictimai təşkilatları, kolxoz və sovxoz işçilərini, valideynləri bu tədbirə cəlb edə bilmişdir.

Qarşıdakı pedaqoji mühazirələrdən istifadə edərək rayon ictimaiyyətinin diqqətini məktəb işinə, uşaqların təlim-tərbiyəsi işinə cəlb edən maarif şöbələri və maarif işçiləri bu tədbirdən daha çox fayda görəcəklər. İctimaiyyətin və ailənin imkanlarından maksimum dərəcədə istifadə edən maarif şöbələri rayon üzrə təlim-tərbiyənin səviyyəsinin xeyli yüksələcəyinə əmin ola bilərlər.

Rayon pedaqoji mühazirələrinin keçirilməsinə az qalmışdır. Pedaqoji mühazirələrlə əlaqədar görülmüş işlərə yekun vurmaq, bu sahədəki kəsirləri müəyyənləşdirmək, həmin kəsirlərin aradan qaldırılması üçün təcili tədbirlər görmək, ailəni və ictimaiyyəti səfərbər etmək, bu cəhətdən

rayon (şəhər) partiya komitəsinin köməyinə arxalanmaq zəruridir.

Çalışmaq lazımdır ki, məktəb, ailə və ictimaiyyətin əlbir işinə dair yaxşı iş nümunələri haqqında rayonlar üzrə keçiriləcək söhbətlər respublika tribunasından, sonra isə Ümumittifaq tribunasından səslənsin. Bununla biz uşaqlarımızı, yeniyetmə və gənclərimizi həyata daha yaxşı hazırlamış olarıq, kommunizm quruculuğuna daha yaxşı xidmət etmiş olarıq.

Yanvar müşavirələrinin və pedaqoji mühazirələrin birləşmiş yığıncağının birinci və üçüncü günlərində müəllimlər ictimai təşkilatların, idarə və müəssisələrin, kolxoz və sovxozların nümayəndələri ilə birlikdə müzakirələr keçirməlidirlər.

**(«Azərbaycan müəllimi» qəzeti, 27 dekabr 1974)**

## 17.

, -
, -
. ,
, ,
- -
, ( ),
.
,
.
( ) -
, ,
.
, -
. .
-
? , , -
, -
;

, ;
-
. , «
,
».
,
, -
, .
.
- - .
- ,
,
.
,
, , .

(«Учительская газета», 1974, 14 сентябр)

## 18. ATTESTASİYANIN GEDİŞİNƏ DAİR

Məlum olduğu kimi, respublikada müəllimlərin attestasiyadan keçməsi işinə başlanmışdır. Bəzi rayonlarda aparılmış attestasiyanın gedişi və nəticələri respublika attestasiya komissiyasında müzakirə edilir.

Diqqəti cəlb edən başlıca cəhətlərdən biri budur ki, attestasiyanın ictimai mənasını aydın dərk edən maarif işçilərinin sayı getdikcə çoxalır. Müəllim də, məktəb rəhbərləri də, maarif şöbəsinin işçiləri başa düşürlər ki, attestasiya müəllimlərin elmi-pedaqoji və metodik səviyyəsinin yüksəlməsinə və deməli, məktəblərimizdə təlim-tərbiyə işi keyfiyyətinin daha da yaxşılaşmasına kömək edir. Müəllim məktəb qarşısında, dövlət qarşısında böyük məsuliyyət daşıdığını başa düşür.

Qabaqcıl iş təcrübəsinə malik olan, yeni pedaqoji və metodik fikirləri öz işinə tətbiq edən, təcrübəsini qələmə

alan və yaymağa çalışan müəllimlər aşkara çıxarılır. Belə müəllimlərin bir qismi «Metodist-müəllim» adına layiq görülür, üçüncü qismi «Qabaqcıl maarif xadimi» döş nişanına və digər rəğbətləndirmələri təqdim edilir.

Bununla yanaşı, attestasiya öz üzərində çalışmayan, təlim-tərbiyə işinin keyfiyyətini yüksəltmək qayğısına qalmayan, məktəbdə ictimai iş aparmayan, həyatdan geridə qalan müəllimlər haqqında ictimai rəy yaranmasına səbəb olur. Bu cür müəllimlərin bir qismi pedaqoji kollektiv və komissiya tərəfindən müəyyən tövsiyələr, tapşırıqlar alır. Öz müəllimlik vəzifəsinin öhdəsindən gələ bilməyən, şagirdlər arasında nüfuzdan düşən, pedaqoji kollektivdə hörmətini itirən müəllimlərin haqqında isə daha ciddi qərar çıxarılır; attestasiya zamanı belə müəllimlər haqqında yazılır ki, tutduğu vəzifəyə müvafiq deyil. Bu, müəllim üçün böyük ittihamnamədir. Öz haqlarında bu cür qərar çıxarılacağını hiss edən müəllimlərdən bəziləri, zənnimizcə, düzgün hərəkət edirlər; onlar attestasiyaya qədər rayon (şəhər) XMŞ-larına ərizə ilə müraciət edir və müəllimlikdən çıxmaq arzusunda olduqlarını bildirirlər. Bununla da öz vəziyyətlərini xeyli yüngülləşdirmiş olurlar. Axı tutduğu vəzifədən könüllü getmək və pis işinə görə vəzifədən çıxarılmaq arasında mənəvi fərq yoxdur.

Attestasiyanın faydalı cəhətlərindən biri də budur ki, attestasiyaya hazırlıq və onun gedişi zamanı xalq maarif şöbəsinin işində olan bəzi nöqsanlar daha qabarıq nəzərə çarpır və maarif işçiləri həmin nöqsanların aradan qaldırılması üçün təcili tədbir görməli olurlar. Məsələn, aşkara çıxarılır ki, müəllimin heç əmək kitabçası yoxdur; yaxud məlum olur ki, rayon xalq maarif şöbəsində şəxsi işlərin bir çoxu qaydada deyildir. Bu cür hallarda maarif şöbəsinin məsul işçiləri əmək kitabçası əldə edir, şəxsi işləri səliqəyə salırlar.

Respublika attestasiya komitəsində vaxtaşırı keçirilən müzakirələr göstərir ki, attestasiyaya hazırlıqda və onun rayonlar üzrə keçirilməsində bir sıra nöqsanlar vardır. Bu nöqsanların bəziləri haqqında indidən söhbət açmaq onların başqa rayonlarda təkrar olunmasının qarşısını almağa

kömək edər, məktəb rəhbərlərinin və maarif şöbəsinin işini yüngülləşdirər.

Nöqsanların bəziləri müəllimə xasiyyətnamə yazmaqla əlaqədar olur. Müəllimlərə yazılan xasiyyətnamələr bir çox halda ümumi səciyyə daşıyır, konkret olmur; təlim işinin, dərsə verilən müasir tələblərin öhdəsindən müəllimin necə gəldiyi aydınlaşmır. Halbuki xasiyyətnamədə müəllimin necə dərs dediyi aydın ifadə edilməlidir.

Xasiyyətnamə yazılarkən sinifdən və məktəbdənkənar tədbirlərdə müəllimin iştirakı, şagirdlərin kommunist tərbiyəsində onun iştirakı bəzən unudulur.

Bəzi xasiyyətnamələrdə bu cəhət ətraflı nəzərə alınır, lakin müəllimin şəxsi keyfiyyətləri, insan kimi, vətəndaş kimi özünü necə göstərdiyi əks etdirilmir. Bu cür hallar ona gətirib çıxarır ki, müəllimin qabaqcıllığı və ya qüsurlu fəaliyyəti obyektiv qiymətləndirilmir.

Xasiyyətnamənin yazılmasında müşahidə edilən həmin nöqsanların, bizcə, iki əsas səbəbi vardır. Biri budur ki, müəllimə xasiyyətnamə yazan bəzi məktəb rəhbərləri və komissiya üzvləri nələrə diqqət yetirməyin lazım olduğunu yaxşı bilmirlər.

İkincisi budur ki, attestasiya vərəqinin doldurulmasında eyni məlumat lüzumsuz yerə olduğu kimi təkrar edilir; nəticədə xasiyyətnamənin yazılması üçün az yer qalır. Məsələn, attestasiya vərəqinin birinci yarısında müəllimin adı, atasının adı, familiyası, işlədiyi məktəbin adı və nömrəsi və s. məlumatlar yazılmalıdır. Vərəqin ikinci yarısı isə xasiyyətnamə yazmaq üçün nəzərdə tutulmuşdur. Vərəqin yuxarısında yazılmış məlumatlar, yəni müəllimin adı, familiyası, atasının adı, işlədiyi məktəbin yeri və s. məlumatlar çox halda təzədən yazılır. Halbuki belə təkrara qətiyyən ehtiyac yoxdur. Əslində xasiyyətnamə yazılan hissədə məlumatların təkrarını aradan qaldırmaq və onun əvəzində müəllimin işini, şəxsiyyətini bir qədər ətraflı səciyyələndirmək mümkündür.

Məlumdur ki, attestasiyanın obyektif getməsini, təsirliliyini təmin edən ilk şərt müəlimə yazılan xasiyyətnamənin

obyektivliyidir. Lakin faktlardan aydın olur ki, bəzi məktəb direktorları nədənsə müəllimə obyektiv xasiyyətnamə yazmaqdan çəkinir. Belə bir «ehtiyatlılığın» məktəbə, müəllim kollektivinə və şagirdlərin tərbiyəsinə vurduğu ziyanı başa düşmək çətin deyildir. Unutmaq olmaz ki, yaxşı müəllimə zəif xasiyyətnamə və ya qüsurlu işi olan müəllimə yaxşı xasiyyətnamə yazan məktəb rəhbərləri təlim-tərbiyənin keyfiyyətini daha da yaxşılaşdırmaq imkanlarınlan məktəbi məhrum edir, maarif pis xidmət göstərmiş olur. Respublika attestasiya komissiyası belə hallara qarşı qəti mübarizə aparır.

Respublika attestasiya komissiyasının iclaslarında müzakirə zamanı aşkara çıxarılmışdır ki, bəzən müəllimə yazılan xasiyyətnamə və rayonun işcil qrupunun çıxartdığı qərar bir-birinə uyğun gəlmir; qərar çıxarılır ki, müəllim tutduğu vəzifəyə uyğun deyil; xasiyyətnamədə isə müəllimin yaxşı işlədiyi qeyd edilir. Bunun əksinə də rast gəlmək olur. Respublika attestasiya komissiyası bu cür işləri geri qaytarır və məsələyə formal münasibət göstərdikləri rayonun işcil qrupunun nəzərinə çatdırılır.

Müzakirə zamanı aşkara çıxarılır ki, müəllim təkmilləşmə kursuna getməkdən boyun qaçırır. Lakin bunun səbəbi ilə nə məktəbin, nə də maarif şöbəsinin rəhbərləri ciddi məşğul olurlar.

Qaydaya görə, attestasiyaya qədər müəllim həkim müayinəsindən keçməli və rayon komissiyasına həkim arayışı təqdim etməlidir. Lakin bu qaydaya bəzən əməl edilmir. Nəticədə təlim-tərbiyə işi üçün yolverilməz olan xəstəliklər nəzərə alınmır. Gözü yaxşı görmədiyi və ya ciyərləri xəstə olduğu halda, müəllimin başqa məzmunlu arayış təqdim etməsi faktı da olur.

Biz əminik ki, müəllimlərin attestasiyasında təsadüf edilən nöqsanların aradan qaldırılması, attestasiyanın düzgün keçirilməsi məktəblərdə təlim-tərbiyə işləri keyfiyyətinin daha da yaxşılaşmasına kömək edəcəkdir.

**(«Azərbaycan müəllimi» 19 mart 1976)**

## 19. UŞAQ HƏQİQƏTİ BİLMƏLİDİR

Uşaqların, yeniyetmə və gənclərin kommunist tərbiyəsi məsələlərinin geniş müzakirə edilməsi, müzakirələrdən irəli gələn əməli nəticələrin çıxarılması birinci növbədə gənc nəslin düzgün tərbiyəsi üçün vacib olan şərtlərdən biridir.

Bu cəhətdən «Azərbaycan qadını» jurnalının səhifələrində açılmış müzakirəni çox faydalı hesab edirik. Müzakirə materiallarından görmək olur ki, uşaqların müqəddəratı, onların gümrah, fərəhli, qayğısız böyüməsi çox adamları, ata-anaların çoxunu düşündürür; onlar uşaq tərbiyəsində rast gəldikləri çətinliklərin aradan qaldırılması üçün yollar axtarırlar.

«Uşağa nə deyək?» mövzusunda yazılmış məqalə və bu məqalə ilə əlaqədar olan başqa yazılar sübut edir ki, cəmiyyətimizdə bütün uşaqlar, o cümlədən atanın (və ya ananın) atıb getdiyi uşaqlar insanpərvər adamların ılıq nəfəsi ilə əhatə olunurlar.

Jurnalın səhifələrində çap olunmuş və redaksiyaya gələn çoxlu yazılar göstərir ki, insani hisslərdən, atalıq (analıq) duyğusundan məhrum olan, qohum-qonşu qarşısında, cəmiyyət qarşısında borcunu unudan, öz uşaqlıq illərini yada salmaq istəməyən başıbəla ata-analar da təəssüf ki tapılır. Söhbət məhz həmin ata-analardan, onların uşaqlarının tərbiyəsindən gedir.

S.Axundovun «Uşağa nə deyək?» sərlövhəli məqaləsini və bununla əlaqədar verilən başqa faydalı yazıları nəzərdən keçirən hər kəsdə günahsız övladını atıb gedən valideynə qarşı qəzəb hissi baş qaldırır; oxucu itər-istəməz deməli olur: «B cür ataya, bu cür anaya ar olsun!»

Xüsusilə Kirovabad şəhərindən Miurə Cəfərovanın məktubunu həyəcansız oxumaq mümkün deyildir. Beş qardaş və bacının biri olan Minurə atası sağ olduğu halda, özünü atasız hesab edir və onu yaramaz hərəkətlərinə görə ata adını daşımağa layiq bilmir. Minurə hətta təklif də irəli sürür: belələrini nəinki atalıq, hətta insanlıq hüququndan da məhrum etmək lazımdır.

Ailə qurmaq fikrinə düşən gənclər yalnız özləri haqqında düşünməməlidirlər. Belə gənclər birinci növbədə öz taleləri və gələcək uşaqları haqqında, sevimli övladlarının tərbiyəsi barəsində düşünməlidirlər. Bu cəhətdən biz Şəfiqə Baxşıyevanın fikri ilə tamamilə razılaşırıq. O, jurnalın 1973-cü il, fevral nömrəsində çap etdirdiyi məktubunda yazır: «Hər şeydən əvvəl çalışmaq lazımdır ki, ailə möhkəm qarşılıqlı məhəbbət və hörmət əsasında qurulsun».

Bəli, qarşılıqlı məhəbbət və hörmət! Nigaha razılıq verən qızı oğlana, oğlanı isə qıza bağlayan var-dövlət, nüfuzlu qohum, vəzifə deyil, qarşılıqlı məhəbbət və hörmət hissləri olmalıdır. Bu cür qırılmaz mənəvi tellər həyata gələn uşaqla daha da möhkəmlənir, daha yenilməz, daha sarsılmaz olur.

Ər və arvadın qarşılıqlı məhəbbəti, qarşılıqlı hörməti, qarşılıqlı səmimiyyəti şəraitində böyüyən uşaq ən xoşbəxt uşaqdır. Atadan və ya anadan yetim olan uşağı isə bədbəxt uşaq hesab etmək olmaz. Çünki ölümün yenilməz, qarşısıalınmaz təbii hal olduğunu uşaq gec-tez başa düşür; bu şüur, bu hiss onu həyatda o qədər də əzmir. Bu cür uşaqları dövlət öz himayəsinə götürür, lazımi tərbiyə verir, ölmüş atanı da, ananı da əvəz edir.

Lakin valideynləri ola-ola atasız, yaxud anasız yaşayan uşaq özünü sınıq hiss edir. Çünki belə uşaq təbiətin və cəmiyyətin ona bəxş etdiyi uşaq qayğısızlığından, ana və və ata nəvazişindən süni şəkildə məhrum olur, onu qoyub getmiş atanın (ananın) insafsızlığı, vicdansızlığı daim onu düşündürür, qəlbini didir. Ata (ana) sözünü eşitdikdə ürəyi sıxılır, kədərlənir, könlü sınır, bədbinləşir. Belə bir mənəvi əzabdan, mənəvi sıxıntıdan artıq cəza, özü də ədalətsiz cəza təsəvvürə gətirmək çətindir. Bu cəhətdən uşağın bədbəxtliyinə bais olan ata və ya ana vicdan əzabı çəkməli, ictimaiyyət tərəfindən töhmətləndirilməli, məzəmmət olunmalıdır.

Öz həyat yoldaşından üz döndərən ər və ya arvad uşağını tamam unutmalıdırmı? Bu suala S.Axundov düzgün cavab verir. O, haqlı olaraq yazır ki, belə bir şəraitdə də ata öz övladına biganə qala bilməz. Bu zaman o, övladının gündəlik həyatı ilə maraqlanmalı, tez-tez bağçaya, məktəbə

getməli, müəllim və tərbiyəçilərlə söhbət etməlidir. Yeri düşdükdə uşaqla kinoya, teatra, gəzməyə çıxmağı da unutmamalıdır. Bu deyilənlər uşağını atıb getmiş anaya da şamil edilməlidir.

Aydındır ki, ailəni tərk edən ata övladı ilə, arvad isə kişisi ilə birlikdə yaşamaq istəmir. Münaqişədə adətən uşağın günahı olmur. Qadının və ya kişinin günahını uşağa da aid etmək, necə deyərlər, qurunun hesabına yaşı da alovlandırmaq böyük haqsızlıqdır. Ər-arvad arasındakı münaqişə heç bir vəchlə uşağın üzərinə göçürülməlidir: heç bir şəraitdə nə ata, nə də ana uşağı unutmamalıdır.

Ailəni tərk etmiş ata və ya ana haqqında uşağa nə etmək dazımdır? Müzakirədə iştirak edənlərin böyük əksəriyyəti, bizcə, haqlı olaraq yazırlar ki, həqiqəti uşağa demək lazımdır. Çünki gec-tez uşaq hər şeydən xəbər tutacaq, kimin haqlı, kimin haqsız olduğunu biləcəkdir.

Bəs həqiqəti nə zaman demək məqsədəuyğundur? Bunu hər yaşda açmaq olarmı? Yoxsa uşaq müəyən yaşa çatdıqdan sonra açmaq daha yaxşıdır? Belə suallara verilən cavablar müxtəlifdir. Bəzi oxucular S.Axundov yoldaşla razılaşaraq yazırlar ki, acı həqiqəti uşağa müəyyən yaşa çatdıqdan sonra, bəziləri isə belə bir məlumatı hər zaman deməyin mümkün olduğunu bildirirlər. Məsələn, Mirbəşir rayonundan K.Rəhimli yazır: «Məncə, uşaqdan həqiqəti gizlətmək lazım deyil. Qoy o, günahkar atanın və ya ananın pis əməllərini bilsin, yaxşını, yamanı vaxtında anlasın».

Fikirlərin bu cür ayrıldığını nəzərə alaraq məsələnin bəzi cəhətlərini aydınlaşdırmağı vacib hesab edirik. Bizcə, bir neçə şərti gözləməklə yaşdan, yaş dövründən asılı olmayaraq uşağa düzünü danışmaq son dərəcə vacibdir. Şərtlərdən birisi uşağın marağı, onun sualı ilə əlaqədardır. Əgər uşaq özü maraqlanarsa, atasının (və ya anasının) nə üçün evə gəlmədiyini soruşarsa, ana (və ya ata) müəyyən formada, uşağın başa düşəcəyi tərzdə həqiqəti ona danışmalıdır. Qoy uşaq istədiyi vaxt, istədiyi hadisə haqqında düzgün olan ilkin məlumat alsın. Uşağın hələ kiçik olduğunu, ağlı kəsmədiyini güman edən ana (ata) müəyyən

müddət həqiqəti uşaqdan gizlədərsə, müxtəlif bəhanələr gətirərsə, iki cəhətdən nöqsana yol vermiş olar. Əvvəla, uşaq böyüyəndə aldanmış olduğunu düşünər, yalan danışan anadan (atadan) inciyə bilər. İkincisi, istər-istəməz uşağa pis nümunə – yalan danışmaq nümunəsi verilmiş olar. Az bir müddətə olsa da uşağı aldatmağı, ona yalan danışmağı düzgün hesab etmək olmaz.

İkinci şərt həqiqəti uşağa danışmaq tərzi ilə əlaqədardır. Həqiqəti uşağa necə deyəsən? Burada subyektiv hisslərə qapılmaq qətiyyən yaramaz. Uşağa izahat verən ana ataya, ata isə anaya qarşı uşaqda kin, ədavət hissi yaratmağa çalışmamalıdır. Əks təqdirdə uşağın hisslərinə yanlış istiqamət vermiş olarıq. Ağdam rayonunun Qazıbəyli kəndindən P.Məmmədovanın haqlı olaraq yazdığı kimi, bu kin-kəsavət sonralar doğma anaya (ataya) qarşı da yönələ bilər. İzahat zamanı uşağın gözündə atanı hörmətdən salmağa çalışan ana və ya ananı hörmətdən salmağa səy göstərən ata uşağa pis təsir edər, uşaq kinli və kobud böyüyər. Uşağı öz tərəfinə çəkməyə səy göstərmək də acı nəticələr verə bilər. Sakit şəraitdə aparılan, əsəbilikdən uzaq olan obyektiv söhbətdən uşağın özü düzgün nəticə çıxarar. Bu cür söhbət edən ana (ata) uşağın gözündə daha da ucalar, daha da ülviləşər.

Uşağın, onu qoyub getmiş ata (ana) ilə gələcəkdə qovuşması ümidini qırmaq uşaq şəxsiyyətinin daha da sarsılmasına səbəb olar.

Müzakirədə iştirak edən yoldaşların böyük əksəriyyəti S.Axundov, S.Hüseynova, Ş.Baxşıyeva, M.Cəfərova, M.Muxtarova, A.Eminov və başqaları haqlı olaraq ər-arvad arasındakı münaqişələrə uşaqların cəlb edilməsinin əleyhinədirlər.

Ata və ana tərəfindən atılmış uşaqlar xüsusi diqqət tələb edir. Bu cəhətdən müəllimlər, bağça tərbiyəçiləri, qonşular xüsusilə həssas olmalıdırlar. Ata və ya ana cəhətdən qəlbi sınıq olan uşaqlarla son dərəcə ehtiyatlı olmaq lazımdır. Onların könlünə toxunacaq şəraitin yaranmasına yol verməк olmaz. Bakı şəhərindəki 225 nömrəli məktəbin müəl-

limi O.Quliyeva müəllimlərin diqqətini öz yazısında məhz bu cəhətə yönəldir.

Ədalətsiz ana (ata) haqqında söhbətdə obyektiv, münasibətdə səmimi olmaq uşağın gələcək tərbiyəsi üçün vacib şərtlərdən biridir.

İnsafsız ata (ana) haqqında yaşlılarda ictimai rəy yaratmaq, öz şəxsi hisslərini cilovlaya bilməyən, doğma övladının atalı (analı) ikən yetim qalmasına bais olan valideyn qohum-qardaşı, tanış-bilişi, iş yoldaşları və bütün ictimaiyyət tərəfindən nifrətlə qarşılanmalıdır. Bu, ailənin dağılmasının, atalı-analı uşağın «yetim» qalmasının qarşısını ala biləcək güclü mənəvi amillərdən birinə çevrilər.

**(«Azərbaycan qadını» jurnalı, 1973, №8)**

## 20. MƏKTƏBLİLƏRİN ƏMƏK TƏRBİYƏSİ VƏ PEŞƏYÖNÜMÜ İŞİNİ YENİ TƏLƏBLƏR SƏVİYYƏSİNƏ

Həyata keçirməkdə olduğumuz məktəb islahatı ümumtəhsil və peşə təhsili qarşısında bir sıra yeni vəzifələr qoyur. Məktəb gənc nəslin təlim-tərbiyə işini, onların əməyə və ictimai həyata hazırlanması işini keyfiyyətcə yeni səviyyəyə yüksəltməlidir.

Öz işini islahatın ideya və prinsiplərinə uyğun olaraq quran məktəblərimizin sayı getdikcə artır. Lakin bununla belə, etiraf etməliyik ki, şagirdlərin əmək tərbiyəsi və peşəyönümü işi hələ heç də hər yerdə müasir tələblərə tam cavab vermir. Bu işdə ciddi sistem gözlənilmir, mövcud imkanlardan lazımi qədər istifadə edilmir. Belə imkanlar isə çoxdur.

Bunlardan birinin – şagirdlərin başlıca əməyi olan təlim əməyinin imkanları üzərində xüsusi dayanmaq istəyirəm. Təlim əməyi şagirdlərdə işgüzarlıq, başlanan işi axıra çatdırmaq səyi, intizamlılıq, səliqəlilik, dəqiqlik, özünənəzarət və s. kimi müsbət keyfiyyətlər formalaşdırmağa imkan verir ki, bunlar özlüyündə fiziki əməkdə və istehsalatda da lazım olan zəruri keyfiyyətlərdir.

Bəzən məktəb təcrübəsində əmək tərbiyəsindən söhbət düşəndə məktəb rəhbərlərinin bir qismi adətən kəmiyyət göstəricilərini plana çəkir: neçə hektar sahədə iş görülüb, nə qədər məhsul toplanıb və s. Bunlar lazımdır. Lakin əmək tərbiyəsini təkcə bununla məhdudlaşdırmaq olmaz. Uşaq mexaniki olaraq çoxlu iş görə bilər, kor-koranə surətdə özünə peşə və ya iş növü seçə bilər. Amma şagirdlərdə görülən işə, seçilən peşəyə şüurlu münasibət formalaşdırılmırsa, təbiidir ki, aparılan tərbiyə işinin səmərəliliyindən danışmaq olmaz. Müasir istehsalat hər bir işçidən böyük zehni və fiziki əmək tələb edir. Odur ki, məktəbdə əmək tərbiyəsi fiziki əməklə zehni əməyin sıx vəhdətinə əsaslanmalıdır. Bunsuz əməyə şüurlu münasibət, əmək fəaliyyəti prosesində qarşıya çıxan müxtəlif məsələləri müstəqil və yaradıcı şəkildə həll etmək bacarığı formalaşdırmaq mümkün deyildir.

Təlimin məhsuldar əməklə birləşdirilməsi məktəb islahatının mühüm tələblərindən biridir. Bu, şagirdlərin həm təhsili, həm də əməyi üçün eyni dərəcədə əhəmiyyətlidir. Təlimin məhsuldar əməklə birləşdirilməsi üçün əsas şərt şagirdlərin müntəzəm olaraq ictimai-faydalı əməyə – cəmiyyətə lazım olan əsl əməyə cəlb etməkdən ibarətdir. Şagirdlərin əmək təliminə, ictimai-faydalı, məhsuldar əməyinə ayrılan vaxtın artırılması bu sahədə əlverişli şərait yaradır. Bununla əlaqədar olaraq yerli şəraitə müvafiq məhsuldar əməyin konkret məzmununu, təşkilat formalarını və obyektlərini müəyyənləşdirmək lazımdır. İmkan olduqca məktəbin yardımçı təsərrüfatının tərəvəzçilik, isti şitillik, tingçilik, quşçuluq, arıçılıq, habelə dovşan, donuz və balıq yetişdirmək sahələri üzrə genşləndirmək məqsədəmüvafiqdir.

Şagirdlərin ictimai-faydalı, məhsuldar əməyi onların əmək təlimi, tərbiyəsi və peşəyönümü işinin əsasında durmalıdır. Bu baxımdan, ilk növbədə, əmək məşğələlərinin yenidən qurmaq və onları məhsuldar əmək zəminində təşkil etmək vacibdir. İstehsalat müəssisələri ilə – fabrik və zavodlarla, sovxoz və kolxozlarla, tikinti, rabitə, məişət və digər idarələrlə müqavilə bağlamaq əsasında onların

sifarişlərini yerinə yetirmək təcrübəsi genişləndirilməlidir. Bunun üçün tədris emalatxanaları, eləcə də müəssisələrin açdığı tədris sexləri və sahələri müasir istehsalın tələbləri səviyyəsində qurulmalı, onların lazımi avadanlıq və xammalla təchiz edilməsi istiqamətində baza və hami müəssisələrlə birlikdə ciddi iş aparılmalıdır.

Şagirdlərin məhsuldar əməkdə iştirakı təkcə iqtisadi səmərə yox, həm də daha çox tərbiyəvi səmərə verməlidir. Biz uşaqları məhsuldar əməklə tərbiyə etməli, onların ideya-mənəvi inkişafını diqqət mərkəzində saxlamalıyıq. Əgər məhsuldar əmək istehsalat və uşaq kollektivlərinin, hami tərbiyəçilərin gənclərə ideya-mənəvi təsiri ilə müşayiət edilmirsə, onda belə əmək, vaxtilə A.S.Makarenkonun dediyi kimi, tərbiyə işində neytral proses olaraq qalacaqdır.

Şagirdlərin əmək tərbiyəsi, xüsusən məhsuldar əməkdə iştirakı onların düzgün peşə seçmələrinə kömək etməlidir. Gənclərin hamılıqla peşə təhsilinə keçilməsi məktəbin peşəyönümü sahəsində apardığı işi yeni əsasda qurmağı tələb edir. Hər şeydən əvvəl, peşə hazırlığı ümumtəhsil və politexnik hazırlıqla sıx əlaqələndirilməlidir. Ümumtəhsil fənlərində verilən nəzəri biliklər istehsalat proseslərinin düzgün başa düşülməsinə xidmət göstərməli, praktik əmək isə dərslərdə öyrədilən biliklərə – müvafiq elmi qanunlara istinad edilməlidir. Cəmiyyətimizdə sadə zəhmət peşələrinin rolu, əməyin və əmək adamlarının əzəməti bütün dərslərdə, xüsusən ictimai-humanitar silsilə fənlərinin tədrisində özünə layiqli yer tutmalıdır.

**(«Azərbaycan məktəbi» jurnalı, 1985, №2)**

## 21. ŞAGİRDLƏRİN ƏMƏK TƏRBİYƏSİ, TƏLİMİ, PEŞƏYÖNÜMÜ VƏ İCTİMAİ-FAYDALI, MƏHSULDAR ƏMƏYİNİ TƏŞKİL ETMƏYİN PRİNSİPLƏRİ

Kommunist tərbiyəsi, təhsil və təlim nəzəriyyəsi islahata dair sənədlərdə daha da zənginləşdirilmiş, bir sıra yeni müddəalar irəli sürülmüşdür. Şagirdlərin əmək tərbiyəsi,

təlimi və ictimai-faydalı, məhsuldar əməyi sahəsində də yeni nəzəri məsələlər vardır. Belə nəzəri məsələlərdən biri şagirdlərin əmək tərbiyəsi, təlimi, ictimai-faydalı, məhsuldar əməyini təşkil etməyin prinsiplərinə aiddir.

İslahatda şagirdlərin əmək tərbiyəsinə, təliminə, peşəyönümünə, onların ictimai-faydalı əməyinə məqsəd kimi deyil, məqsədə çatmağın, şagird şəxsiyyətini hərtərəfli və ahəngdar inkişaf etdirməyin etibarlı amillərindən biri kimi baxılır. İslahata aid əsas sənəddə yazılmışdır: «Düzgün aparılan əmək tərbiyəsi, təlim və peşəyönümü, məktəblilərin ictimai-faydalı, məhsuldar əməkdə bilavasitə iştirakı təhsilə şüurlu münasibətin, şəxsiyyətin vətəndaş kimi yetişməsinin, mənəvi və intellektual cəhətdən formalaşmasının, fiziki inkişafının misilsiz amilləridir» (bax: Ümumtəhsil və peşə məktəbi islahatı haqqında. Sənədlər və materiallar toplusu. Azərnəşr, 1984, səh. 56)*. Məsələnin mahiyyəti bu ümumi və prinsipial nəzəri müddəa ilə məhdudlaşmır. İslahatın əsas istiqamətlərində əmək tərbiyəsi, təlimi və peşəyönümü üzrə aparılmalı işlərin dairəsi çox aydın şəkildə ifadə olunmuşdur. Həmin sənəddə oxuyurq: «Məktəbdə əmək tərbiyəsinin və təliminin məqsədi bunlar olmalıdır: əməyə məhəbbət və əmək adamlarına hörmət aşılamaq; şagirdləri müasir sənaye və kənd təsərrüfatı istehsalının, tikintinin, nəqliyyatın, xidmət sahəsinin əsasları ilə tanış etmək; təhsil və ictimai-faydalı iş prosesində onlarda əmək vərdişləri və bacarığı formalaşdırmaq; şüulu surətdə peşə seçməyə sövq etmək və ibtidai peşə hazırlığı vermək» (səh. 57).

Aydınlaşdırmaq istədiyimiz məsələ baxımından məktəb islahatının üstün cəhətlərindən biri də şagirdlərin əmək tərbiyəsi və təlimini, onların məhsuldar əməkdə iştirakını təşkil etməyin prinsiplərinin nəzəri cəhətdən işlənməsidir. Bu prinsiplərin aydın başa düşülməsi xüsusi əhəmiyyət kəsb edir. Həmin prinsiplərlə silahlanan, onlara işdə əməl edən müəllimlərin fəaliyyəti daha çox səmərə verir.

---

* Bundan sonrakı sitatlar da həmin mənbədən götürülmüşdür.

Məktəb islahatına aid sənədlərdə şagirdlərin əmək tərbiyəsini, təlimini, ictimai-faydalı, məhsuldar əməyini hansı prinsiplərə uyğun şəkildə təşkil etmək vacib hesab olunmuşdur? Əsas istiqamətlərdə oxuyuruq: «Təlimin məhsuldar əməklə birləşdirilməsi dedikdə şagirdlərin aşağı siniflərdən başlayaraq özlərinin cansağlığı və yaşı üçün münasib olan müntəzəm, mütəşəkkil ictimai-faydalı əməyə – cəmiyyətə lazım olan əsl əməyə cəlb edilməsi nəzərdə tutulur» (səh. 56-57).

Göründüyü kimi, həmin fikirdə şagirdlərin əmək tərbiyəsini, təlimini, ictimai-faydalı əməyini təşkil etməyin aşağıdakı prinsipləri ifadə olunmuşdur:

1. Şagird əməyinin cansağlığına xidmət etməsi;
2. Şagird əməyinin, peşəyönümünün təşkilində yaş xüsusiyyətlərinin nəzərə alınması;
3. Şagird əməyinin müntəzəm olmasının təmin edilməsi;
4. Şagird əməyinin mütəşəkkilliyi;
5. Şagird əməyinin cəmiyyət üçün faydalı olması.

***Şagird əməyəinin cansağlığına xidmət etməsi.*** Ümumiyyətlə, Sov.İKP MK və Sovet hökuməti şagird əməyinin təşkilində onların cansağlığının təmin olunmasına xüsusi qayğı göstərirlər. Əlbəttə, şagird əməyinin təşkilində gigiyena qaydalarına əməl olunması da cansağlığına xidmət edir. İslahat sənədlərində tələb olunur ki, «...bütün şagirdlər gigiyenanın və sağlamlığın mühafizəsinin norma və tələblərinə əməl olunmaqla siniflərin və kabinetlərin yığışdırılmasında iştirak etməli, məktəb həyətlərinin, idman meydançalarının və i. a. təmizliyinə və abadlığına fikir verməlidirlər» (səh. 58).

***Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması.*** Şagirdlərin əmək tərbiyəsi və təliminin təşkilində onların yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipi məktəb islahatına aid əsas sənəddə təfsilatı ilə işlənmişdir. Məsələn, şagidlərin əmək təliminin məzmunu da, vəzifələri də islahatda məktəb tipləri üzrə konkretləşdirilmişdir. İbtidai məktəbdə, natamam orta məktəbdə və orta ümumtəhsil məktəbində şagirdlərin əmək təlimi məzmununun siniflər üzrə konkretləşdirilməsi, əlbəttə, məktəbin və müəllimlərin işini xeyli yüngülləşdirir, əmək təliminin təşkilində asandan çətinə,

sadədən mürəkkəbə doğru şagirdlərin irəliləmələri üçün obyektiv şərait yaranmış olur.

***Şagird əməyinin müntəzəm olmasının təmin edilməsi.*** Şagird əməyi müntəzəm olmalıdır. Bəs şagirdin əmək tərbiyəsi və təliminin müntəzəmliyi necə təmin olunmalıdır? Əvvəla, islahata görə, şagirdlərin əmək tərbiyəsi və təlimi I sinifdən son XI sinif də daxil olmaqla on bir il fasiləsiz davam edir. İkincisi, yay tətili dövründə şagirdlərin gücləri çatan əmək növlərinə cəlb olunması zəruri hesab edilmişdir. İslahata aid əsas sənəddə yazılmışdır: «…şagirdlərin əmək təlim və ictimai-faydalı, məhsuldar əməyi üçün zəruri olan vaxtın xeyli artırılması, habelə yay tətilini bir qədər qısaltmaq hesabına hər il əmək praktikası keçirilməsi nəzərdə tutulur» (səh.57).

İslahat tələb edir ki, şagirdlərin məktəbdə əmək tərbiyəsi və təlimi ilə onların ailədə əmək tərbiyəsi bir-birini tamamlasın. Şagirdlərin əmək tərbiyəsi ilə yalnız məktəb məşğul olarsa, ailə tərbiyəsi məktəbin səyini müdafiə və davam etdirməzsə, onların əmək tərbiyəsində müntəzəmlik pozular. Şagirdlərin özünəxidmət əməyi ilə əlaqədar islahatın əsas sənədində deyilir: «Valideynlər ailədə – mənzillərdə səliqə-sahman yaratmaq, xörək bişirmək, pal-paltar yumaq və yamamaq, məişət cihazlarını və ev əşyalarını təmir etmək sahəsində uşaqların əməyini təşkil edirlər» (səh. 58).

***Şagird əməyinin mütəşəkkilliyi.*** İslahatın tələblərindən biri də budur ki, şagirdlərin əmək tərbiyəsi və təlimi, onların ictimai-faydalı, məhsuldar əməyi mütəşəkkil olmalıdır. Şagirdlərin əmək tərbiyəsi və təlimi məktəb çərçivəsində qapanıb qalmamalı, ondan çox-çox kənarlara çıxmalıdır. Şagirdlər texniki-peşə məktəblərində, baza müəssisələrində, tədris-istehsalat kombinatlarında, kolxoz və sovxoz tarlalarında və xalq təsərrüfatının digər sahələrində əmək tərbiyəsi və təlimi keçməli olduqlarından həmin prinsipə dönmədən əməl olunması böyük əhəmiyyət kəsb edir. İslahata uyğun olaraq, şagirdlərin əmək tərbiyəsi və təliminin təşkilində baza müəssisələrinin rəhbərləri məktəb rəhbərləri qədər məsuliyyət daşısalar da, şagird əməyinin mütəşəkkil

keçməsində məktəb rəhbərləri aparıcı rol oynamalıdır. İş yerinin olmaması və ya azlığı, materialın olmaması və ya çatışmaması, vaxtında lazımi tədbirlərin görülməməsi əməyin qeyri-mütəşəkkil olmasına gətirib çıxara bilər.

***Şagird əməyinin cəmiyyət üçün faydalı olması.*** İslahatın tələbinə görə şagirdlərin əmək tərbiyəsi ictimai-faydalı, məhsuldar əmək əsasında qurulmalıdır. Bu cür əmək cəmiyyət üçün faydalı əmək, əsl əmək olmalıdır. Şagird istehsalat briqadalarında, məktəblərarası tədris-istehsalat kombinatlarında, müəssisələrin, texniki-peşə məktəblərinin tədris sexlərində və sahələrində şagirdlərin işi cəmiyyət üçün faydalı əməkdir. Şagirdlərin ailədə məişət əməyi ailəyə səmərə versə də, nəticə etibarilə cəmiyyət üçün də faydalıdır. Yaxud, məktəbdə şagirdlərin, məsələn, divar qəzeti çıxarmaları, yaxud tədris vasitələri düzəltmələri məktəb üçün faydalı olduğu kimi cəmiyyət üçün də faydalıdır.

Şagird öz işinin, öz əməyinin məhsulunun cəmiyyət üçün faydasını görməli, onu hiss etməli və aydan başa düşməlidir.

Şagirdlərin əmək tərbiyəsini, təlimini, onların ictimai-faydalı əməyini təşkil etməyin əsasında duran prinsiplər yuxarıda səciyyələndirdiklərimizlə məhdudlaşmır. İslahata aid sənədlərdə digər prinsiplər də ifadə olumuşdur:

1. Oğlan və qızların xüsusiyyətlərinin nəzərə alınması;
2. Şəhər və kənd məktəblərinin xüsusiyyətlərinin, yerli şəraitin nəzərə alınması;
3. Müxtəlif sahələrdə olan səylərin birləşdirilməsi;
4. Şagird əməyinin politexnik əsasda təşkili;
5. Əməyin təlim və tərbiyə ilə birləşdirilməsi;
6. Əmək tərbiyəsi və təliminin sosial funksiyasının nəzərə alınması;
7. Əmək tərbiyəsi və təliminin iqtisadi funksiyasının nəzərə alınması.

***Oğlan və qızların xüsusiyyətlərinin nəzərə alınması.*** İslahata aid əsas sənəddə tövsiyə olunur ki, şagirdlərin əmək tərbiyəsi və təlimini təşkil edərkən oğlan və qız əməyinin xüsusiyyətlərinə istinad edilsin. Bu tələb ailə tərbiyəsinə də, ictimai tərbiyəyə də eyni dərəcədə aiddir. Faktlar göstərir ki, ailədə, məktəbdə və istehsalatda şagird əməyini təşkil

edərkən oğlan və qızların xüsusiyyətlərinə laqeydlik göstərmək istənilən nəticəni vermir.

***Şəhər və kənd məktəbləri xüsusiyyətlərinin, yerli şəraitin nəzərə alınması.*** Şagirdlərin əməyə, həyata hazırlanmasında bu prinsip də diqqət mərkəzində olmalıdır. Bu prinsip həm şagirdlərin əmək hazırlığının təşkili üçün əsas götürülən peşələrin siyahısının hazırlanmasında, həm xalq təsərrüfatının kadrlara ehtiyacının dəqiqləşdirilməsində, həm də əmək tərbiyəsinin, təliminin məzmunu, formaları və üsullarını müəyyənləşdirərkən nəzərə alınır.

***Müxtəlif sahələrdə olan səylərin birləşdirilməsi.*** Bundan sonra şagirdlərin əmək tərbiyəsi, təlimi və peşəyönümü ilə məktəb də, istehsalat müəssisələri də, ictimaiyyət də, ailə də məşğul olacaqdır. Buna görə də islahat onların səylərini vahid axında birləşdirməyi nəzərdə tutur. İslahata aid əsas sənəddə yazılmışdır: «Əmək hazırlığının müxtəlif istiqamətlərini və formalarını, ümumtəhsil, texniki-peşə məktəblərinin, texnikumların, istehsal kollektivlərinin, ailənin və ictimaiyyətin əlbir səylərini nəzərdə tutan kompleks proqramlar hazırlanmalıdır» (səh. 57).

***Şagird əməyinin politexnik əsasda təşkili.*** Politexnik bilik və bacarıqlar yalnız şagird əməyinə şamil edilmir. Politexnizm bütövlükdə sovet məktəbini səciyyələndirən başlıca göstəricilərdən birinə çevrilir. İslahata aid sənədlərdə vahid əmək, politexnik məktəb haqqında Lenin ideyaları daha da inkişaf etdirilmişdir. İslahatda nəzərdə tutulduğu kimi, bir-iki beşillik ərzində gənclərin ümum orta təhsili onların ümumi peşə təhsili ilə tamamlanacaqdır. Əmək fəaliyyətinə başlamazdan əvvəl bütün gənclərə peşəyə yiyələnmək imkanı verilir. Gələcəkdə isə bu, ümumtəhsil bir-birinə yaxınlaşmasına və birləşməsinə gətirib çıxaracaqdır. Belə bir tarixi yaxınlaşma və birləşmədə politexnizm böyük əhəmiyyətə malikdir. Nəinki fənlərin tədrisində, həm də əmək təlimində politexnizm aparıcı prinsiplərdən birinə çevrilmişdir.

İslahata aid əsas sənəddə təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi tədbirlərindən danışılarkən «təhsilin məzmununun politexnik istiqamətini gücləndirmək; əməli məşğələlərə və laboratoriya məşğələlərinə, fizika, kimya,

biologiya elmlərinin və başqa elmlərin qanunlarının texnologiyada tətbiqinin göstərilməsinə daha çox diqqət yetirmək, bununla da gənclərin əmək təlimi və peşəyönümü üçün əsas yaratmaq» tələb olunur (səh. 50). Əmək təliminin özündə istehsalatın bütün sahələrinə aid olan bilik və bacarıqlar şagirdlərə aşılanacaqdır.

İslahatın bu ideyası «Məktəblilərin əmək tərbiyəsini, təlimini, peşəyönümünü yaxşılaşdırmaq və onların ictimai-faydalı, məhsuldar əməyini təşkil etmək haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarında ifadə olunmuşdur. Həmin qərarda SSRİ Maarif Nazirliyinə və SSRİ Pedaqoji Elmlər Akademiyasına tapşırılmışdır ki, məktəblilərin əmək təliminin yeni birtipli proqramlarını hazırlasınlar. «Bu proqramlar politexnik əsas üzərində qurulmalı, elmi-texniki tərəqqinin nailiyyətlərini daha dolğun nəzərə almalı, şagirdləri müasir istehsalatın və iqtisadi biliklərin əsasları ilə tanış etməlidir» (səh. 86).

***Əməyin təlim və tərbiyə ilə birləşdirilməsi.*** Marksizm-Leninizm klassikləri tərəfindən elmi şəkildə əsaslandırılmış həmin prinsip sovet məktəbi tarixinin ilk günlərindən təlim və tərbiyə sahəsində nəzərə alınır. İslahata aid sənədlərdə təlimin həyatla, məhsuldar əməklə əlaqələndirilməsi ideyası daha da inkişaf etdirilmişdir. Əsas istiqamətlərdə göstərildiyi kimi, təlimin məhsuldar əməklə birləşdirilməsi dedikdə aşağı siniflərdən başlayaraq şagirdlərin cəmiyyətə lazım olan əməyə cəlb olunması nəzərdə tutulur.

Şagirdlərin ictimai-faydalı, məhsuldar əməyə cəlb edilməsinin əməli cəhəti ilə yanaşı nəzəri-psixoloji cəhətləri də vardır. Əmək təliminin bu sonuncu cəhəti islahatın əsas istiqamətlərində belə ifadə edilmişdir: «Əmək təlimi ilə sıx əlaqədar şəkildə şagirdlərin iqtisadi tərbiyəsi təmin edilir. Gərək onlar istehsal münasibətlərinə əməli surətdə qoşulsunlar, sosialist mülkiyyəti, plan, əmək və istehsal intizamı, əmək haqqı barəsində həyati təsəvvürlər alsınlar, zəhmətlə qazanılan manatın qədrini bilməyi öyrənsinlər. Şagirdlərin qazandıqları vəsaitin bir hissəsi məktəb kollektivinin sərəncamında verilsin. Məktəb şagirdlərdə qənaətcil təsərrüfatçı keyfiyyətləri, ictimai sərvətə və doğma

təbiətə, dərsliklərə, məktəb əmlakına, elektrik enerjisinə, şəxsi əşyalara, ərzaq məhsullarına, xüsusilə çörəyə qayğıkeş və qənaətcil münasibət formalaşdırmalıdır. Şagirdlər qənaət rejimi, əmək məhsuldarlığı, məhsulun maya dəyəri və keyfiyyəti, təsərrüfat hesabı anlayışları ilə və başqa belə anlayışlarla əməli surətdə tanış edilsinlər» (səh. 59-60).

***Əmək tərbiyəsi və təliminin iqtisadi funksiyasının nəzərə alınması.*** Əmək tərbiyəsinə şəxsiyyəti formalaşdırmağın əsas mühüm amili kimi və xalq təsərrüfatının əmək ehtiyatlarına tələbatını ödəməyin vasitəsi kimi baxılmalıdır. Şagirdlərin əmək tərbiyəsi, təlimi, peşəyönümü və ictimai-faydalı, məhsuldar əməyi məktəbin yerləşdiyi regionun istehsalat xüsusiyyətlərini nəzərə almaqla təşkil edildiyindən, sözsüz ki, xalq təsərrüfatının sonrakı inkişafına daha güclü təsir göstərməlidir. Şagirdlərdə ümumtəhsil və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi ictimai istehsalın təkmilləşdirilməsinə, elmi-texniki tərəqqinin gücləndirilməsinə, istehsalın mexanikləşdirilməsini və avtomatlaşdırılmasını sürətləndirməyə, elm və texnika yeniliklərindən istehsalatda daha səmərəli istifadə olunmasına münasib şərait yaradır.

Şagirdlərin əmək tərbiyəsini, təlimini, ictimai-faydalı əməyini təşkil etməyin prinsiplərini təsəvvüründə aydın canlandıran və öz əməli işində onlara dönmədən əməl edən müəllim, əlbəttə, məktəb islahatının qarşısında qoyulmuş başlıca sosial və iqtisadi vəzifələrin yerinə yetirilməsində daha fəal iştirak edəcəkdir. Həmin vəzifələr isə islahata aid əsas sənəddə belə ifadə olunmuşdur: «Qarşıda xalq təsərrüfatının bütün sahələrini elm və texnikanın ən qabaqcıl mövqelərinə çıxarmaq, istehsalı geniş avtomatlaşdırmaq, əmək məhsuldarlığının əsaslı surətdə yüksəldilməsini, ən yaxşı dünya nümunələri səviyyəsində məhsul buraxılışını təmin etmək vəzifələri durur» (səh. 44). İslahatın xidmət etməli olduğu bu sosial və iqtisadi vəzifələr bütün müəllimlərin, maarif işçilərinin daim diqqət mərkəzində olmalıdır. Onların səyi həmin vəzifələrin yerinə yetirilməsinə yönəldilməlidir.

**(«Azərbaycan müəllimi» jurnalı, 1986, №3)**

# 22. YENİ PROQRAM LAYİHƏLƏRİNDƏN DÜZGÜN İSTİFADƏ ETMƏLİ

Məktəbin həyatla əlaqəsini möhkəmlətmək haqqında Qanunla əlaqədar olaraq I-V siniflərdə yeni tədris planı və proqramına keçilmişdir. Aparılan müşahidələr göstərir ki, cari dərs ilindən keçən müddət ərzində yeni proqram layihələrinin tətbiqi yaxşı nəticələr verir. Bir çox müəllimlər ana dili dərslərini praktik işlə lazımınca əlaqələndirir, əl əməyi dərslərində şagirdlərə özünəxidmət və evdarlıq üzrə faydalı vərdişlər aşılayırlar. Həmin müəllimlərin dərs dedikləri şagirdlər gücləri çatan ictimai-faydalı işlərdə həvəslə iştirak edirlər.

Bu fərəhləndirici cəhətlərlə yanaşı yeni proqram layihələrinin tətbiqində bir sıra nöqsanlara da yol verilir. Bəzi məktəblərdə sinif müəllimləri ana dili, əl əməyi və təbiətşünaslıq dərslərini düzgün planlaşdırmır, yeni proqram layihələrindən istifadə etməkdə acizlik göstərir, proqramın tələbləri əsasında müstəqil material tapmağa çalışmırlar.

Bəzi müəllimlər yeni tədris planında ana dilinə verilmiş saatları ana dili, Azərbaycan dili və hüsnxətt arasında düzgün bölüşdürmür, yazı işlərini ana dili və Azərbaycan dili dərslərindən süni surətdə ayıraraq, yazı işlərinə həftədə 1 saat vaxt sərf edirlər.

Azərbaycan dilinə verilmiş saatların bölüşdürülməsində müşahidə edilən bu qarışıqlığı aradan qaldırmaq məqsədilə bəzi mülahizələr söyləməyi zəruri hesab edirik.

I sinifdə, ilin ikinci yarısında Azərbaycan dilinə verlmiş 12 saatdan 2 saatını hüsnxətə, 4 saatını qrammatikaya, yazı qaydalarına və nitq inkişafına, 6 saatını isə qiraətə və nitq inkişafına; II sinifdə 9 saatdan 1 saatını hüsnxətə, 3 saatını qrammatikaya, yazı qaydalarına və nitq inkişafına, 5 saatını isə qiraətə və nitq inkişafına; III sinifdə 10 saatdan 1 saatını hüsnxətə, 3 saatını qrammatikaya, yazı qaydalarına və nitq inkişafına, 6 saatını isə qiraətə; IV sinifdə 8 saatdan 4 saatını qrammatikaya, yazı qaydalarına və nitq inkişafına, 4

saatını isə qiraətə ayırmaq məsləhətdir. Yazı işləri qrammatika və qiraət dərslərinin hesabına aparılmalıdır.

II, III, və IV siniflər üçün ana dili proqramı layihəsinə həyatla əlaqədar olan, şagirdləri psixoloji cəhətdən əməyə hazırlamağa yardım edən bir çox yeni material daxil edlmişdir. Bu materialların çoxunun hazırda məktəblərimizdə istifadə olunan mövcud ana dili dərsliklərində olmadığını nəzərə alaraq, tədrisin müvəffəqiyyətlə təşkili müəllimdən böyük səy, fəallıq və müstəqillik tələb edir.

Hər şeydən əvvəl, müəllim proqram layihəsində «Oxu və nitq inkişafı» başlığı altında göstərilmiş tematika ilə yaxından tanış olmalı, onun mahiyyətini, məzmununu dərk etməlidir. Buna uyğun olaraq o, uşaqlar üçün yazılmış ayrı-ayrı kitablardan, «Azərbaycan» və «Pioner» jurnallarından, «Azərbaycan pioneri» və başqa qəzetlərdən həmin sinif şagirdlərinin bilik səviyyəsində müvafiq maraqlı və məzmunlu materiallar seçə bilər.

Əzbərlənməsi tövsiyə edilən şeirlərin sayı proqram layihələrində o qədər də çox deyildir. Müəllim bu şeirləri də özü tapmalıdır. Məsələn, III sinfin proqram layihəsi üzrə əzbərlənməsi tövsiyə edilən şeirlərdən «İlqarın sualı»nı (H.Abbaszadə, «Pioner» jurnalı 1953-cü il №6), «Azərbaycanı» (S.Vurğun, II sinif üçün «Ana dili» dərsliyi, 1957-ci il nəşri), «Fəhlə mənzilləri»ni (M.Seyidzadə, yenə də həmin dərslik) və s. mənbələrdən tapmaq olar.

IV sinfin proqram layihəsində tövsiyə edilən Koroğlunun qoşmalarını «Koroğlu» dastanından, S.Vurğunun «Ceyran» şeirini «Muğan» poemasından, Ə.Sabirin «Uşaqdır uşağım» adlı şeirini «Hophopnamə»dən tapmaq mümkündür.

Bəzi hekayəni, nağılı və əzbərlənməsi tövsiyə olunan şeirləri tapmaqda müəllim çətinlik çəkərsə, onları keçmiş dərslikdəki müvafiq materiallarla əvəz etmək olar.

Ana dili dərslərinin planlaşdırılmasındakı nöqsanlardan biri də ekskursiya, əşya dərsi, müşahidə və praktik məşğələlərin müəllimlər tərəfindən nəzərə alınmamasıdır. Belə bir vəziyyət göstərir ki, bəzi müəllimlər ana dili ilə əlaqədar olaraq aparılacaq ekskursiyaların, əşya dərslərinin,

müşahidələrin və praktik məşğələlərin əhəmiyyətini lazımınca qiymətləndirmirlər. Həmin məşğələlər I, II və III siniflərdə izahlı qiraətin hesabına aparılmalı və qeyri-bədii mətnlərin (tarıx, təbiyyat və coğrafiyaya aid materialların) tədrisi ilə sıx əlaqələndirilməlidir.

Qeyd etmək lazımdır ki, müəllim kskursiyanın yalnız mövzusunu bilməkdə kifayətlənməməli, həmçinin ekskursiyanın məzmun və məqsədi ilə tanış olmalı, görəcəyi işləri qabaqcadan aydın təsəvvür etməlidir. Bu isə yeni proqram layihələrində müfəssəl şəkildə izah olunmuşdur. Proqram layihələrində verlmiş bəzi ekskursiya və əşya dərslərinə aid hazırki dərsliklərdə qiraət materialı yoxdur. Müəllim həmin ekskursiya və əşya dərslərini özü təşkil etməli və müvafiq material tapıb şagirdlərə oxutmalıdır.

Proqram layihəsində göstərilmiş ekskursiyaların keçirilməsində yerli şərait də nəzərə alınmalıdır. Məsələn, layihədə göstərilir ki, II sinif şagirdləri meşəyə, dəmir yolu stansiyasına, dülgərlik emalatxanasına və s. yerlərə ekskursiyaya aparılmalıdır. Halbuki, şəhərdə meşə, kəndlərin hamısında dəmir yolu stansiyası yoxdur. Yaxud III sinif şagirdləri çaya, meyvə bağına, tarlaya, fermaya və s. yerlərə ekskursiyaya getməlidirlər. Halbuki, böyük şəhərlərdə bu obyektlərdən bəziləri yoxdur. Buna görə də meşəyə ekskursiyanı parka ekskursiya ilə, çaya ekskursiyanı gölə, dənizə ekskursiyanı ilə və s. əvəz etmək olar.

Müşahidə və praktik məşğələlərə verilmiş saatları, həmin məşğələlərə aid məsələlər uüzrə düzgün bölüşdürmək lazımdır. I sinifdə müşahidəyə verilmiş 4 saatdan 1 saatını üçüncü rübdə təbiət və əmək təqviminin tərtibinə, 3 saatını isə III-IV rübdə müşahidənin yekunlaşdırılmasına sərf edilməli; müşahidənin özü isə il boyu müəllimin tapşırığı üzrə şagirdlər tərəfindən müstəqil surətdə və ya ekskursiya zamanı müəllimin rəhbərliyi ilə aparılmalıdır.

I sinifdə ana dili üzrə proqram layihəsini planlaşdırarkən praktik məşğələləri ilə əməyi dərslərindəki özünəxidmət məşğələləri ilə də əlaqələndirmək olar. Məsələn, müəllim dərslikdə təmizlik və səliqəliliklə əlaqədar verlimiş olan

hekayələri oxutdurduqdan sonra, proqramda tələb olunan praktik məşğələni təşkil etməli, paltara qulluq qaydalarını şagirdlərə praktik olaraq göstərməli, əl əməyi dərslərində isə bu vərdişləri daha da inkişaf etdirməlidir.

Layihə üzrə II sinifdə aparılacaq müşahidələr I sinifdə aparılacaq müşahidələrdən az fərqlənir. III sinifdə isə müşahidələrə və praktik məşğlələrə daha geniş yer verilmişdir. Bu sinifdə proqram layihəsində göstərilən məşğələlərin bir çoxunu dərslikdəki müvafiq mövzularla əlaqələndirmək yaxşı nəticə verir. Məsələn, gübrə verilmiş torpaqda bitkinin necə boy atmasının müşahidə edilməsini dərslikdəki «Taxıl bitkiləri» və ya «Pambıq» mövzularının keçilməsi ilə əlaqələndirmək faydalı olur.

Ekskursiyalar, əşya dərsləri, müşahidlər və praktik məşğələrlə əlaqədar olaraq, IV sinifdə təbiətşünaslıq fənninin planlaşdırılmasında da nöqsanlara yol verilmişdir. Hazırda təbiətşünaslıq fənninin tədrisində mövcud «Təbiyyətdən qiraət kitabı» və «Coğrafiyadan qiraət kitabı» dərsliklərindən istifadə edilməlidir. Təbiətşünaslıq dərslərini planlaşdırarkən, proqram layihəsində qeyd olunmuş mövzuları həmin kitablardan seçmək tələb edilir. Bu zaman çalışmaq lazımdır ki, şagirdlər həddən artıq yüklənməsinlər. Proqram layihəsinin tələb etdiyi bəzi mövzulara aid dərslikdə bir neçə hekayə vardır. Müəllim bunlardan ən zəruri olan birini və ya ikisini seçib oxutmalıdır. Dərslikdə olmayan bir sıra mövzulara dair müəllim özü material tapmalı və dərsləri bu materiallar üzrə keçməlidir.

Təbiətşünaslıq dərsləri ilə əlaqədar ekskursiyalara, əşya dərslərinə, təcrübələrə və praktik məşğələlərə 52 saat vaxt verilmişdir. Buna baxmayaraq, bir çox məktəblərdə təbiətşünaslıq fənnini planlaşdırarkən bu məşğələlərə əhəmiyyət verilməmişdir. Halbuki, həmin məşğələlər öz məzmunu və xarakteri etibarilə təbiətşünaslığın ayrı-ayrı mövzuları ilə üzvi surətdə bağlıdır. Məsələn, proqram layihəsində «Qum və gil» mövzusunda əşya dərsi keçmək tələb edilir. Bu dərsi keçdikdən sonra, müəllim dərslikdən «Qum və gil» mövzusunu şagirdlərə oxutmalıdır. Sonra isə proqram layihəsinin

«Praktik məşğələlər» bölməsində irəli sürülən «Gildən nələr hazırlanır» mövzusunda praktik iş aparmalı və kolleksiya tərtib etdirməlidir.

Əl əməyi üzrə proqram materiallarının planlaşdırılmasında da bir sıra nöqsanlar müşahidə olunur. Bakı məktəblərində əl əməyi fənnini planlaşdırarkən onun ayrı-ayrı sahələri arasındakı nisbət nəzərə alınmamış, özünəxidmət məsələlərinə az yer verilmiş, I rübdə görülməli ən zəruri payız işləri unudulmuş, əl əməyi ilə başqa fənnlər, xüsusilə ana dili və təbiətşünaslıq fənni arasında əlaqə, uzlaşma gözlənilməmişdir.

Əl əməyi dərsləri aşağıdakı bölmələr üzrə planlaşdırılmalıdır:

Özünəxidmət və ailə-məişət əməyi.

Bitkilərin becərilməsi. Kənd təsərrüfatı əməyi.

Kağız və karton üzərində iş.

Gillə (plastilinlə) görülən işlər.

Əl əməyi üzrə tədris materiallarını planlaşdırarkən, evdarlıq və özünəxidmətin ən zəruri məsələlərinə xüsusi fikir verilməlidir.

Kənd təsərrüfatı əməyinin fəsillər üzrə planlaşdırılıb öyrədilməsi vacibdir. Məsələn, payız işlərinin I-II rüblərdə, yaz işlərinin IV rübdə görülməsi məsləhətdir.

Əl əməyi dərslərini, yeri gəldikcə, ana dili və təbiətşünaslıq dərsləri ilə əlaqələndirmək lazımdır. Məsələn, I sinifdə ana dili dərsi ilə əlaqədar olaraq meşəyə və ya parka ekskursiyadan toplanan yarpaqlardan əl əməyi dərsində kolleksiya düzəltmək olar.

Ana dili dərsliyindən meyvələr, əşyalar haqqında hekayə oxunduqdan sonra məktəbin bağına, şəhərin küçəsinə, kolxoza ekskursiya keçirmək, sonra əmək dərsində gil və yaxud plastilindən (fərdi və ya kollektiv surətdə) model hazırlamaq faydalıdır. Payız zamanı bütün siniflərdə bağ və bostanda görülən işlərlə tanış olmaq üçün ana dili dərslərində ekskursiya, əşya məşğələləri təşkil olunur; hekayə və ya şeir oxunur; əmək dərslərində isə şagirdlər bilavasitə praktik iş görürlər. Yaxud, yeni tikintilərə ekskursiyadan

sonra şagrdlərə gil və plastilindən kərpic, daş və s. düzəltdirmək, kiçik evcik quraşdırmağı tapşırmaq olar.

Tədris planında III-IV siniflərdə şagirdlərin ictimai-faydalı əməyinə həftədə 1 tədris saatı verilmişdir. Lakin, həmin siniflər üçün ictimai-faydalı əmək üzrə ayrıca proqram hələ də tərtib olunmamışdır. Bunu nəzərə alaraq, hər bir müəllim əl əməyi proqramı layihəsindəki «Şagirdlərin ictimai-faydalı əməyi» bölməsindən istifadə edib, yerli şəraitdən asılı olaraq görüləcək iş növlərini müəyyənləşdirməli və ayrıca plan hazırlamalıdır.

Yeni proqram layihələrinin düzgün tətbiqi maarif işçiləri və müəllimlərdən səylə və diqqətlə işləməyi, proqram materiallarını dəqiq planlaşdırmağı tələb edir.

**(«Azərbaycan müəlimi», 15.XI.1959)**

## 23. «ANA DİLİ» DƏRSLİYİ HAQQINDA

Dərslik müəllimin apardığı pedaqoji işə və şagirdin şüuruna istiqamət verir. Gənc nəslin nəcib kommunizm ideyaları ruhunda tərbiyə edilməsində yüksək keyfiyyətli dərsliklərin böyük rolu vardır.

III sinif «Ana dili» dərsliyi nəşr edilməyə başladığı ilk dövrlərdə gənc nəslin təlim-tərbiyəsində müsbət rol oynamışdır. Lakin uzun müddət əsaslı dəyişiklik edilməmiş təkrar çap olunduğundan, həmin dərslik dövrümüzün artan tələblərini lazımınca təmin edə bilmir.

Biz həmin məqalədə III sinif «Ana dili» dərsliyi haqqında danışacağıq.

Dərslikdəki «Meşə», «Yaşıl aptek», «Səbətkeçməz» və s. mətnlərin bağçılıqla heç bir əlaqəsi yoxdur. Lakin buna baxmayaraq həmin materiallar süni surətdə «Bağçılıq» bölməsinə daxil edilmişdir. Əsasən payız fəslinə aid olan «Bulka» hekayəsi «Yay xatirələri» adlı bölmədə verilmişdir. Yaxud H.Hüseynzadənin «Mən sülhə səs verirəm» adlı şeiri dərsliyin yay fəsli bölməsinə daxil edlmişdir. Balıqlar və

balina haqqında məlumatların «Suda-quruda yaşayanlar» bölməsinə daxil edilməsi dərslikdə sistemsizliyə səbəb olur.

Dərsliyin 124-cü səhifəsində «Taxılın düşmənləri» başlığı ilə xüsusi bölmə verilmişdir. Quşlara aid olan «Dostlarımız», «İpək qurdu» adlı mətnlər isə bu bölməyə daxil edilmişdir. Bölmənin başlığına fikir verən kiçik oxucu belə qənaətə gəlir ki, quşlar və ipək qurdu da taxılın düşmənidir.

III sinif şagirdlərinin yaş xüsusiyyətləri, onların anlayış və təsəvvürləri həmin «Ana dili» dərsliyinə daxil edilmiş materialların bir qismində nəzərə alınmamışdır. Məsələn, dərsliyin «Bədənimiz» bölməsindəki skelet, onurğa, döş qəfəsi, əzələlər, qida, həzm, ürək və s. haqqında verilən məlumat bu barədə yuxarı siniflərin dərsliklərindəki məlumatdan didaktik cəhətdən heç də fərqlənmir.

Bu bölmədə olan «İnsanın skeleti», «Döş qəfəsi», «Onurğanın əyilməsi», «Bədənimizin əzələləri», «Həzm üzvləri» və s. şəkillər də didaktik cəhətdən yaxşı işlənməmişdir. Yaxud, «Kolxoz kəndi» başlığı ilə verilmiş mətn Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasında oxuyan iki tələbənin söhbəti kimi şərh edilir. Bizcə, həmin söhbətin məzmunu III sinif şagirdinin səviyyəsinə uyğun deyildir.

10-11 yaşlı uşaqların maraqları, onların yaş xüsusiyyətləri dərsliyin «Tarix» bölməsindəki mətn və şəkillərdə də zəif nəzərə alınmışdır.

Bu bölmədəki 40 mətnin 32-si (məsələn: «1812-ci il vətən müharibəsi», «Bizim böyük qardaşıız», «Zəhmətkeşlərin böyük dostu Lenin», «Patyomkin»də üsyan, «Mütləqiyyətin yıxılması», «Oktyabr inqilabı» və s. adda olan mətnlər) III sinif şagirdlərinin başa düşə biləcəkləri tərzdə yazılmamışdır.

Dərsliyin 153-cü səhifəsində oxuyuruq: «Miçurin özünün təzə torpaq parçasında yeni qayda ilə işləməyə başladı. Bu qayda ilə Miçurinin bağında yeni-yeni ağaclar yetişib, meyvə verməyə başlayır. Miçurin bunları gözdən keçirir, bəyəndiklərini başqa yolla yenə yaxşılaşdırmağa çalışır; yeniləri köhnələrə və köhnələri yenilərə calaq edir». Bizcə, III sinif şagirdləri «yeni qaydanın», «başqa yolun»,

«yenilərinin», «köhnələrinin» və s. ifadə və məfhumların nə demək olduğunu dərk etməyə hələ hazır deyillər.

Dərslikdəki şəkillərin böyük bir qismində əks olunan hadisələr öz təbii şəraitindən təcrid olunmuş halda verilmişdir. Məsələn, «Ev heyvanları» adlı bölmədə atın, inəyin, qoyunun, dəvənin, itin adi şəkilləri şagirdlərə yeni heç bir məlumat vermir. Dərsliyə daxil edilən şəkillər isə konkret ideya ifadə etməli, şagirdlərə yeni məlumat verməli, aid olduqları mətnin məzmununu şüurlu başa düşməkdə şagirdlərə kömək etməlidir.

Əyaniliklə əlaqədar olaraq dərsliyin qüsurlarından biri də burada tarixi hadisələrlə əlaqədar olaraq şagirdlərə şəkillər vasitəsilə, bəzən yanlış anlayışların verilməsidir. Tarixin xalq tərəfindən yaradıldığı ideyasını şagirdlərə öyrətmək əvəzinə dərsliyin «Tarix» bölməsindəki 19 şəkildən yalnız 8-i kütləvi-ictimai xarakter daşıyır; qalanları isə gənc nəslə tanış olan bu və ya digər şəxsin yalnız sadəcə şəklidir.

Dərslikdə bəzən elə heyvanlar haqqında məlumata rast gəlmək olur ki, bu, şagirdlərdə təsəvvürün genişlənməsinə kömək etmir. Məsələn, «Toyuq», «Yırtıcılar», «İlan ovçusu» adlı mətnlərdəki quşlara dair olan məlumatlar quru şərh edilir.

Uşaqların xəyallarını, onların bədii zövqlərini, şeirə olan maraqlarını inkişaf etdirmək üçün dərslikdə tapşırıq və çalışmalar olmalıdır. Lakin belə tapşırıq və çalışmalar həmin dərslikdə yox dərəcəsindədir.

Məlumdur ki, ibtidai məktəb şagirdləri xalq yaradıcılığına, xüsusən, nağıllara, atalar sözləri və tapmacalara böyük maraq göstərirlər. Buna baxmayaraq, «Ana dili» dərsliyində xalq yaradıcılığına lazımi əhəmiyyət verilməmişdir. 167 müxtəlif məzmunlu mətnin müqabilində, dərsliyə yalnız 3 nağıl, 9 tapmaca və 14 atalar sözü daxil edilmişdir.

«Ana dili» dərsliyindəki bəzi mətnlər həcm etibarilə çox böyükdür. «Gülgəzin babası» (6 səhifə), «Quş yuvası» (4 səhifə), «Payız günləri» (4 səhifə) və s. buna misal ola bilər. Belə mətnlərin üzərində lazımi didaktik əməliyyat

aparılsaydı, onların məzmununu 1 və ya 1,5 səhifədə vermək olardı.

Məlumdur ki, biliyin müqayisəli tərzdə verilməsi onun möhkəm və şüurlu mənimsənilməsinə, şagirdlərdə nitq və təfəkkürün inkşafına kömək edir. Lakin mətnlərin məzmununda, materialların dərslik üzrə düzülüşündə belə bir səmərəli üsul nəzərə alınmamışdır. Təkcə bunu demək kifayətdir ki, dərslikdəki müxtəlif xarakterli 472 sual və tapşırığın heç biri şagirdlərdən müqayisə tələb etmir.

III sinfin «Ana dili» dərsliyi dörd hissədən («Ədəbiyyat», «Coğrafiya və təbiiyyat» və «Tarix» hissələrindən) ibarətdir. Dərsliyin «Tarix» hissəsində «Bizim ulu babalarımız» adlı mətnlə başlayan və «Mütləqiyyətin yıxılması» adlı mətnlə qurtaran hissədəki materiallar müəyyən başlıq altında verilmədiyi halda, bunlardan sonra gələn materiallar başlıqlar altında qruplaşdırılmışdır.

Həmin hissədə tədris materiallarının düzülüşündə bəzən xronoloji ardıcıllıq da pozulmuşdur. Bu hissənin başlanğıcı haqlı olaraq kiçik oxucunun xəyalını Azərbaycanın uzaq keçmişinə doğru yönəldir. Sonra «Qədim Bakı» və «Sosialist Bakısı» haqqında danışılır. Heç bir əlaqə göstərilmədən, bu mətnlərin arxasınca dərsliyə «Aleksandr Nevski» adlı material daxil edilir. Sornra Koroğludan danışılır, daha sonra «1912-ci il vətən müharibəsi»nə aid materiallar verilir.

Bizcə, Azərbaycanın tarixi dərslikdə Rusiyanın yalnız Böyük Oktyabr sosialist inqilabından sonrakı tarixi ilə əlaqələndirilsəydi, bu, həmin sinif şagirdlərinin bilik səviyyəsinə daha çox uyğun olardı. Onsuz da şagird IV sinifdən SSRİ tarixi ilə tanış olacaqdır.

Dərsliyin quruluşu haqqında danışarkən orada əhəmiyyət verilməmiş bəzi məsələlərə toxunmamaq olmaz. «Ana dili» dərsliyinin əsas vəzifəsi doğma ana dilinin – Azərbaycan dilini kiçik uşaqlara öyrətməkdir.

Dildə istifadə etdiyimiz ayrı-ayrı sözlər müəyyən hadisə və obyektlərə aid olur; bu sözlərin xarici aləmdə konkret məzmunu vardır. Odur ki, ana dilini kiçik yaşlı şagirdlərə öyrətməyi qarşısına məqsəd qoyan dərsliyin konkret

məzmunu olmalı, ciddi müəyyənləşdirilmiş hadisə və obyektlərə dair məlumatı özündə əks etdirməlidir. Başqa sözlə demiş olsaq, ana dilini öyrənən şagird eyni zamanda müəyyən faydalı biliklərə də yiyələnməlidir. O, həmin biliklər vasitəsilə öz ana dlinin incəliklərini anlamalıdır.

Bəs bu biliklər nədən barət olmalıdır? Şagirdlər öz doğma ana dilini hansı bliklərin vasitəsilə öyrənməlidirlər? «Ana dili» dərsliyinə hansı hadisə və obyektlər haqqında məlumat daxil edilməlidir?

Bizcə, şagirdi bilavasitə əhatə edən mühitə – Azərbaycanın təbiət və təsərrüfatının başlıca sahələrinə dair müyəssər olan biliklər həmin sinif «Ana dili» dərsliyinin məzmununu təşkil etməlidir. «Ana dili» dərsliyi ədəbiyyat, coğrafiya, təbiiyyat və tarix hadisələrilə yanaşı, Azərbaycanda xalq təsərrüfatının mühüm sahələri haqqında şagirdə ilk məlumat da verməlidir. Azərbaycanda xalq təsərrüfatının başlıca sahələri: neft sənayesi, pambıqçılıq, əkinçilik, maldarlıq, ipəkçilik və s. haqqında isə şagirdə ilk yığcam məlumat vermək həmin dərsliyin əsas məqsədlərindən biri olmamışdır.

Xalq təsərrüfatı bütün həyatımızın əsasını təşkil edir. Xalq təsərrüfatının mühüm sahələrinə xüsusilə III sinfin «Ana dili» dərsliyində laqeyd münasibət göstərmək olmaz. Fikrimizcə, Azərbaycanda xalq təsərrüfatının, ictimai əməyin başlıca sahələrinə dair ilk yığcam məlumat «Ana dili» dərsliyində xüsusi yer tutmalıdır.

Bu tələb «Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və ölkədə xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında»kı Qanunda da irəli sürülmüşdür. Qanunda deyilir: «Tədrisin hələ birinci illərindən uşaqları psixoloji cəhətdən ona hazırlamaq lazımdır ki, onlar gələcəkdə icimai-faydalı işlərdə, əməkdə iştirak etməlidirlər».

Məlumdur ki, məktəbimiz son illərdən bəri şagirdlərə zəruri olan nəinki istehsalat vərdişləri aşılayır, həm də onlara bu sahədə nəzəri biliklər də öyrədir. «Ana dili» dərsliyi isə istehsalata dair şagirdlərə ilk məlumat vermək üçün gözəl imkan yaradır. Təəssüf ki, həmin dərsliyin müəllifləri belə bir imkandan istifadə etməyi qarşılarına məqsəd qoymamışlar.

Məhz buna görə də dərslik şagirdləri avtomobilə, traktora, kombayna və s. kənd təsərrüfatı maşınlarına, tikintiyə və nəqliyyata aid ilk ümumi biliklərlə tanış etmir.

Təcrübə göstərir ki, həmin dərslik məktəb həyatında özünü lazımınca doğrultmur. Müəyyən edilmişdir ki, təlim zamanı müəllimlər mətnləri dərslikdəki ardıcıllıqdan tamamilə fərqli olan başqa bir ardıcıllıqla tədris edirlər. Məsələn, 176 nömrəli məktəbin III sinif müəllimləri dərsliyin «Yay xatirələri» bölməsindəki mətnlərdən «Pioner düşərgəsi» (səh. 3), «Taxıl biçini» (səh. 6), «Dağ çayı» (səh. 7), «Qara» (səh. 9) adlı materialları keçdikdən sonra, «Coğrafiya və təbiiyyat» bölməsindəki «Günəşin çıxması və batması» (səh. 115), «Üfüq» (səh. 116), «Cəhətlər» (səh. 116) adlı mətnləri, bunun arxasınca dərsliyin «Tarix» hissəsindəki «Türkiyədə» (səh. 234) adlı hekayəni, sonra isə «Payız» bölməsindəki «Payız» adlı şeiri öyrətmişlər. Bu mətnlərdən sonra onlar yenidən «Tarix» hissəsinə qayıtış, oradakı «Sovet Azərbaycanı dördüncü beşillikdə» (səh. 227) adlı mətn, bundan sonra isə yenə geri qayıdaraq «Bədənimiz» bölməsindəki «Onurğa» (səh. 164), «Döş qəfəsi» (səh. 165) adlı materialları keçmişlər.

Dərsliyin ayrı-ayrı bölmələrindəki başqa materiallar da bütün il boyu bu cür adda-budda, biri «Tarix» hissəsindən, digəri «Coğrafiya»dan, başqası «Ədəbiyyat» hissəsindən tədris edilir.

Şagirdlər isə elə tez-tez dərsliyi vərəqləməli, müəllimin dediyi mətni kitabın gah axırında, gah əvvəlində, gah da ortasında tapıb oxumalı olurlar.

Aydındır ki, belə bir vəziyyətdə dərslik öz əhəmiyyətini itirir və yalnız material yığımına çevrilir.

Mətnlərin dərslikdəki ardıcıllığının tamamilə pozulması və bu mətnlərin başqa ardıcıllıqla keçilməsi göstərir ki, izahlı oxu dərsliyi üzrə materiallar düzülərkən və şagirdin yorulmaması üçün zəruri olan müxtəliflik, nə də haqqında danışılan hadisələrin dərs ilinin nə vaxtı təlim ediləcəyi nəzərə alınmamışdır. Dərslərin ardıcıllığı mövcud dərslikdəki materialların ardıcıllığı üzrə getmiş olsaydı, həm şagird yorular, həm də

məsələn, yaz fəslinə aid olan mətnlər hökmən qışda keçilərdi; nəticədə isə istənilən pedaqoji fayda alınmazdı.

Materialların dərslikdəki ardıcıllığının pozulması və bu materialların məktəbdə tamamilə başqa bir ardıcıllıqda tədris edilməsi nəinki bir dərslik kimi, hazırkı «Ana dili»nin əhəmiyyətinin itməsinə səbəb olur; həm də bu, təlim işinə böyük zərər verir.

Dərslikdəki belə bir vəziyyətlə əlaqədar olaraq, ayrı-ayrı müəllimlər bəzi mövzuların keçilmiş olduğunu unudur və bu mövzuları yenidən tədris edirlər. Onlar bəzi materialların keçilməsinə yersiz olaraq 2-3 dərs ayırırlar; dərslikdəki bir sıra mətnləri isə tədris etmirlər. Məsələn, yuxarıda adını çəkdiyimiz məktəbin III sinif müəllimləri «Sovet xalqının Böyük Vətən müharibəsi», «Sovet Ordusu», «Sovet Azərbaycanı dördüncü beşillkdə» və sair mətnlərin hərəsini dərs ilinin müxtəlif dövrlərində iki dəfə keçmişlər. Onlar «Bulka» hekayəsinə 3, «Pioner düşərgəsində» adlı mətnə 3, «Hədiyyə», «Ayazın hesabı», «Günəşin çıxması və batması», «Pambıq yığanlar», «Çamadan», «Mütləqiyyətin yıxılması» və s. adlı materialların hərəsinə 2 saat ayırmışlar. «Yay günləri», «Mən sülhə səs verirəm», «Payız günləri», «Sabahın ustaları», «Quzu», «Sarı yemiş», «Kəndimizin baharı», «Daşkəsən yollarında», «26-lar», «Vətəndaş müharibəsi» kimi mətnlər, ümumiyyətlə, dərslikdəki 155 mətnin 45-i isə tədris edilməmişdir.

Müəllim dərslikdəki eyni xarakterli materialları əlaqələndirməli və mümkün qədər onları bir-birinin arxasınca tədris etməlidir. Məsələn, dərslikdəki «Bulka» hekayəsini payız günlərində, «Mən sülhə səs verirəm» şeirini isə «Sülh müharibəyə qalib gələcəkdir» adlı mətndən sonra keçmək olar. Dərslikdə şəhərlər haqqında eyni xarakterli mətnləri də qruplaşdırıb əlaqəli şəkildə tədris etmək mümkündür. Mətnlərin qruplaşdırılmış şəkildə bu cür tədrisini dərslikdə kənd təsərrüfatına, sənayeyə aid olan materiallar üzrə də təşkil etmək olar.

«Bağçılıq» bölməsindəki materialları keçərkən yadda saxlamaq lazımdır ki, oradakı «Meşə», «Yaşıl aptek» adlı mətnlərin bağçılıq məfhumu ilə əlaqəsi yoxdur.

«Suda-quruda yaşayanlar» bölməsini tədris edərkən müəllim unutmamalıdır ki, orada balıqlar və balina haqqında olan məlumat, suda-quruda yaşayanlara deyil, yalnız suda yaşayanlara aiddir.

Dərsliyin 143-cü səhifəsində «Vəhşi quşlar» başlığından sonra «Yırtıcılar» adlı materialı tədris edərkən şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, vəhşi quşlar yalnız yırtıcı quşlardan ibarət deyildir. Yırtıcı olmayan bəzi vəhşi quşların da dərs zamanı adını çəkmək və haqqında söhbət aparmaq lazımdır. Bu deyilənlər dərsliyin 124-cü səhifəsindəki «Taxılın düşmənləri» başlığı ilə əlaqədar olan mətnlərə də aiddir.

Dərsliyin xüsusilə «Bədənimiz» və «Tarix» bölmələrindəki materialların əksəriyyətinin 10-11 yaşlı uşaqların səviyyəsinə uyğun olmadığını nəzərə alan müəllim, həmin mətnlərlə əlaqədar olaraq öz izahat işini daha ətraflı düşünməli və söhbətini bədii şəkildə qurmalıdır. Bunun üçün «İnsanın skeleti», «Döş qəfəsi», «Onurğanın əyilməsi», «Həzm üzvləri» və sairənin rəngli şəkillərini tapıb, onların sinifdə nümayiş etdirilməsi məsləhət görülür.

Müəllim dərsliyin bu və ya digər mətnini sinifdə keçməzdən əvvəl, oradakı bütün fikir və sözləri diqqətlə nəzərdən keçirməli, şagirdlərin səviyyəsinə uyğun gəlməyən ifadə və məfhumları sinifdə onlara başa salmalıdır. Məsələn, dərsliyin 153-cü səhifəsində olan «yeni üsul», «başqa yol» və sair qeyri-müəyyən ifadələrin nə demək olduğunu sinifdə aydınlaşdırmaq lazımdır.

III sinif şagirdlərinin yaş xüsusiyyətlərinə əsaslanan müəllim, həmin sinfin «Ana dili» üçün qüsurlu olan şəkillər üzərində də ciddi işləməlidir. Dərsliyin «Ev heyvanları» adlı bölməsindəki sönük, təbii şəraitdən təcrid olunmuş, obyekti hərəkətsiz göstərən şəkillərin əvəzində, müəyyən ideya ifadə edən başqa şəkillər, məsələn, qoyunun elektriklə qırxıldığını, inəyin fermada elektriklə sağıldığını göstərən şəkilləri nümayiş etdirə bilər.

Bu cür iş dərsliyin «Tarix» bölməsi ilə də əlaqədar olaraq aparılmalıdır. Məsələn, «Zəhmətkeşlərin böyük dostu Lenin» adlı mətni keçərkən, müəllim Leninin zəhmətkeşlərlə səmimi,

ürəkdən söhbət etdiyini göstərən, onun kütlə arasındakı çıxışlarını tərənnüm edən şəkillərdən sinfə gətirməlidir. Eyni iş «K.Y.Voroşilov», «Nasos», «Stalinqrad qəhrəmanı», «Axtarış», «Şamama», «G.M.Dmitrov», «Azad Çin xalqı» və s. adlı mətnlərin öyrənilməsində də aparılmalıdır.

Dərsliyin bəzi bölmələrindəki materiallar aid olduqları bölmənin mahiyyətini lazımınca açmadığından və bu sahədə şagirdə ilk zəruri bilik vermədiyindən, müəllim əlavə materiallara da əl ata bilər. Məsələn, «Ey heyvanları» adlı bölmədəki materialları tədris edərkən qoşadırnaqlılar və təkdırnaqlılar haqqında şagirdlərə ilk məlumat vermək olar. Yaxud «Quşlar» bölməsini keçərkən quşların bəzi xarakter əlamətləri şagirdlərin nəzərinə çatdırılmalıdır.

Müəllim, yeri gəldikcə şagirdə müqayisə aparmağı, müqayisəli tərzdə cavab verməyi tələb edən suallar verməlidir. Məsələn, «Xarici ölkələrdə uşaqların vəziyyəti» başlığı ilə verilən materialları sinifdə keçərkən, kapitalizm şəraitində həyat sürən uşaqlara nisbətən, sovet uşaqlarının xoşbəxt həyatlarının üstünlüklərini göstərmək məqsədilə şagirdlərin qarşısında sual qoymaq olar.

Dərsliyin «Tarix» hissəsini tədris edən zaman, müəlim çalışmalıdır ki, burada «Sovet vətənimizin tarixindən» adlı bölməyədək olan məlumatların ölkəmizin uzaq keçmişinə aid olduğunu şagirdlər başa düşsünlər.

«Ana dili» dərsliyi Azərbaycanda xalq təsərrüfatının mühüm sahələrinə dair son dərəcə az məlumat verir; bu çatışmamazlığın dərs zamanı aradan qaldırılması hələlik müəllimin üzərinə düşür. Məsələn, «Tarla» bölməsindəki «Taxıl bitkiləri» adlı mətni şagirdlərə öyrədərkən, əkinçilik haqqında, «Pambıq» adlı mətni keçərkən pambıqçılıq haqqında şagirdlərdə ilk təsəvvür yaratmaq olar. Yaxud, «Daşkəsən yolunda» adlı hekayəni öyrədərkən metal haqqında, yeraltı mədən işləri haqqında şagirdlərə anlayış verilməlidir. Müəllim neftə, pambıqçılığa, maldarlığa, ipəkçiliyə, tikintiyə, nəqliyyatı, texnikaya dair sinifdə yeri gəldikcə söhbət aparmalıdır.

Bizcə, göstərilən məsləhətlərə müəllimlər tərəfindən əməl edilməsi doğma ana dili tədrisinin daha məzmunlu təşkilinə kömək edəcəkdir.

**(«Azərbaycan məktəbi» jurnalı, №2, 1959)**

## 24. ANA DİLİ ÜZRƏ EKSKURSİYALARDAN İSTİFADƏ EDİLMƏSİ TƏCRÜBƏSİNDƏN

Məktəbin həyatla əlaqəsini möhkəmlətmək məqsədi ilə ana dili proqramı layihəsində bir sıra yeni iş formaları nəzərdə tutulmuşdur. Bunlardan biri də ekskursiyalardır. Ana dilindən proqram layihəsində ekskursiyalara I sinifdə 8 saat, II sinifdə 8 saat, III sinifdə isə 9 saat ayrılmışdır.

Şagirdlər sinifdən-sinfə keçdikcə layihədə nəzərdə tutulmuş ekskursiyaların mövzusu və məzmunu da buna müvafiq olaraq mürəkkəbləşir. I sinifdə keçirilməli olan ekskursiyaların mövzusu əsasən fəsillərin başlıca əlamətləri ilə, ətrafdakı sovxoz, kolxoz, fabrik, zavodla əlaqədardır. II sinif üçün nəzərdə tutulan ekskursiyaların mövzusu ayrı-ayrı fəsillərdə bitkilərin, quşların və heyvanların həyatı ilə, adamların işi ilə əlaqədardır. III sinfin proqramı isə ekskursiya zamanı ictimai həyatın, istehsalatın müxtəlif sahələri ilə uşaqları tanış etməyi tələb edir.

Ana dili üzrə ekskursiyaların keçirilməsində başlıca məqsəd şagirdlərin şifah nitqini inkişaf etdirmək, onlarda müşahidəçilik qabiliyyətini artırmaq, gördüklərini əlaqəli şəkildə danışmaq bacarığını inkişaf etdirməkdir. Bununla yanaşı, həmin ekskursiyalar şagirdlərdə doğma təbiətə, əməyə məhəbbət tərbiyə edir, psixoloji cəhətdən onların həyata hazırlanmasına gözəl şərait yaradır.

Cari dərs ilindən ana dili üzrə tətbiq edilən ekskursiyaların keçirilməsində bir sıra nöqsanlar müşahidə edilir. Əvvəla, yeni proqram layihəsində ekskursiyaların nəzərdə tutulduğundan nədənsə, bəzi sinif müəllimlərinin xəbəri yoxdur. Dərs ilinin ikinci yarısından xeyli vaxt keçmişdir. Ancaq bu müəllimlər ana dili üzrə heç bir ekskursiya təşkil etməmişlər.

Onlar bunun səbəbini belə izah etməyə çalışırlar ki, proqram layihəsində nəzərdə tutulmuş ekskursiyalardan çoxunun mövzusu «Ana dili» dərsliklərindəki materiallara uyğun gəlmir. Lakin müəllimlər unutmamalıdırlar ki, proqram layihəsi yenidir, orada irəli sürülmüş iş formalarına aid materialları hazırda istifadə edilən dərslikdə axtarmaq gözlənilən nəticəni verməz. Buna görə də proqram layihəsində göstərilən materialları tapmaq zəruridir.

Bəzi müəllimlər isə yeni proqram layihəsinin tələblərinə uyğun olaraq ekskursiya keçirir, lakin ondan ana dili materiallarının fəal mənimsənilməsi üçün bir vasitə kimi istifadə edə bilmirlər.

III sinfin ana dili proqramı layihəsinə görə müəllimlər, məktəbin ətrafına, qaramal, qoyun və ya quşçuluq fermasına, sənaye müəssisələrinə, tikinti sahələrinə və s. ekskursiyalar təşkil etməlidirlər.

Qeyd etməliyik ki, ana dilindən ekskursiyaları yaxşı təşkil edən müəllimlər az deyildir. Bu cəhətdən Bakıdakı 31 nömrəli məktəbin III sinif müəllimlərindən Ş.Həşimova və T.İsmayılova yoldaşların təcrübələri diqqətəlayiqdir.

Həmin müəllimlər 31 nömrəli məktəbin ətraflarına, Bakı şəhərindəki baytarlıq müalicəxanasına və məktəbdəki canlı guşəyə, Sovet küçəsindəki yeni tikintilərə ekskursiya keçirmişlər.

Onlar, bu ekskursiyalardan birincisini sonralar dərsdə keçiləcək «Cəhətlər» mövzusu ilə, digərini «Ovçu», üçüncüsü isə «Fəhlə mənzilləri» materiallarla əlaqələndirmişlər.

Ana dilinin məzmunu müşahidə və ekskursiya materialları ilə zənginləşdirildiyindən, bu fənnin tədrisi həyatla bilavasitə əlaqələndirildiyindən şagirdlərin nitqi daha səlis, fikirləri daha dolğun olmuş, onlarda nitq qabiliyyətinin inkişafı üçün daha münasib şərait yaranmışdır. Bunu bir dərsin gedişində göstərək.

Sinif müəllimləri T.İsmayılova və Ş.Həşimova yoldaşlar başqa məsələlərdə olduğu kimi, ekskursiyanın təşklini, keçiləcək mövzu ilə onu əlaqələndirməyi, dərsin gedişini qabaqcadan bir-biri ilə ətraflı məsləhətləşdikləri üçün həmin

müəllimlərin dərsləri demək olar ki, eyni qayda və ardıcıllıqla keçmişdir.

Ekskursiya zamanı şagirdlərin müşahidə etdiklərini onların təsəvvürlərində canlandırmaq üçün müəllim sinfə sual verdi:

-Uşaqlar, dünən haraya getmişdik?

-Dünən Sovet küçəsindəki yeni tikintilərə baxmağa getmişdik.

-Yeni tikintilərdə gördüklərini kim danışar?

-Orada bənnalar işləyirdi. Onlar beş-altı mərtəbəli bir neçə bina tikirdilər. Qaldırıcı maşın yuxarı mərtəbəyə daş, sement, taxta qaldırırdı. Binalardan ikisi yenicə tiklib qurtarmışdı. Tikinti mühəndisi deyirdi ki, gördüyünüz həmin binaların yerində əvvəllər kiçik daxmalar var idi.

Müəllim T.İsmayılova əlavə olaraq 4 şagirdi də danışdırdı. Onlardan bir tikinti mühəndisinin ekskursiya zamanı söylədiklərini yada saldı. Digəri qaldıcı maşının işindən danışdı.

Şagirdlərin ekskursiya haqqında dediklərindən aydın oldu ki, müəllim onlarla əvvəlcədən hazırlıq işləri aparmış, öz işini planlı təşkil etmişdir. Müəllim ekskursiya zaman şagirdlərin diqqətini tikilməkdə olan təzə binaların yanındakı alçaq daxmalara da cəlb etmişdi. Buna görə də o, müqayisə üsulundan istifadə edərək, sinfə belə bir sual verdi:

-Gördüyünüz təzə binalarla onların yanındakı köhnə evlər arasındakı fərqi kim deyər?

Şagirdlərin hamısı müəllimin suallarına cavab verməyə hazır olduqlarını bildirdilər. Bir nəfər şagird ayağa qalxaraq dedi:

-Yeni binaların hündür pəncərələri, işıqlı otaqları vardır. Köhnə evlər isə alçaq və otaqları qaranlıqdır. Gördüyümüz köhnə daxmaların yerində hündür, işıqlı, yeni binalar tikiləcəkdir.

Müəllimin sinfə verdiyi sonrakı suallarından məlum oldu ki, o, şagirdlərin ev şəraitlərini yaxşı bilir, onların fərdi xarakterlərinə yaxından bələddir. Məsələn o, sinfə belə bir sualla müraciət etdi.

-Uşaqlar, hansınız təzə mənzillərdə olursunuz?

Şagirdlərdən Balahüseyn əl qaldırdı və ayağa qalxaraq dedi:

-Bz Sovet küçəsindəki təzə binada oluruq. Mənzilimizdə mətbəx və hamam da vardır. Otaqlarımız geniş və işıqlıdar, havası təmizdir, hər tərəfində böyük pəncərələri var.

Müəllim ekskursiya zamanı şagirdlərin gördüklərini müsahibə vasitəsi ilə yekunlaşdırdı və yeni keçəcəyi mövzu ilə – «Fəhlə mənzilləri» adlı şeir ilə bunu əlaqələndirdi.

Şeirin ideyasından qısaca danışdıqdan sonra, müəllim şeiri ifadə ilə oxudu, sonra şagirdlərə belə bir sual verdi:

-Kim deyər, şeir neçə hissədən ibarətdir?

Şagirdlərdən biri cavab verdi:

-Şeir iki hissədən ibarətdir.

-Şeirin keçmişdə fəhlə mənzillərini təsvir edən hissəsini kim oxuyar?

Sonra müəllim soruşdu:

Şeirin indiki fəhlə mənzillərini təsvir edən hissəsini kim oxuyar?

Şagirdlərdən biri şeirin ilk hissəsini, digəri isə ikinci hissəsini oxudu.

Müəllim əvvəlcədən hazırladığı iki şəkili yazı taxtasından asdı və üzünü şagirdlərə tutdu.

-Bu şəkillərdən hansı şeirin birinci hissəsinə aiddir.

Şagirdlərin hamısı suala cavab vermək istəyirdi. Ancaq müəllim bu dərsdə hələ cavab verməyən şagirdlərdən birini çağırdı. Şagird yazı taxtasına yaxınlaşdı və əlini sol tərəfdən asılan şəklə uzadaraq dedi:

-Bu şəkil şeirin birinci hissəsində təsvir edilən keçmiş dövrə aiddir.

Müəllim şagirdlərdən həmin şəkildə gördüyünü danışmağı tələb etdi.

Şagird dedi:

-Bu şəkildə alçaq bir daxma görürür, onun bir tərəfi uçuqdur, pəncərəsi lap kiçikdir, zibilli həyətində iki uşaq görünür.

Müəllim yenidən sinfə müraciət etdi.

-Bəs sağ tərəfdəki şəkil şeirdə təsvir edilən hansı zamanı göstərir.

Şagirdlərdən biri sinfin qarşısına çıxıb danışmağa başladı. O göstərdi ki, bu şəkil indiki zamanı təsvir edir, şəkildə beş mərtəbəli bina vardır. Binanın qarşısında ağaclar görünür. Meydançada dəstə-dəstə uşaqlar oynayırlar.

Müəllim şəkilləri müqayisə etməyi, onların arasındakı fərqi göstərməyi şagirdlərdən tələb etdi. Bir şagird müəllimin dediklərinə əməl etdi.

Sonra müəllim lüğət üzərində işə başlandı. O, şeirdəki «daxma», «yaylaq», «inqilab» sözlərini uşaqlara yazı taxtasında qeyd etdirdi və həmin sözlərin mənasını uşaqlardan soruşdu. Şagirdlərdən biri «inqilab» və «yaylaq» sözlərinin mənasını düzgün deməkdə çətinlik çəkdi.

Müəllim yenidən sinfə müraciət etdi və bu sözlərin mənasını başqa şagirdlərin vasitəsi ilə aydınlaşdırdı.

Ekskursiyanın nəticəsindən və əyani vəsaitdən dərsdə istifadə edildiyinə, lüğət üzərində iş aparıldığına görə şeiri bütün şagirdlər şüurlu surətdə başa düşdülər.

**(«Azərbaycan müəllimi» qəzeti, 10.IV.1960)**.

## 25. «ANA DİLİ» PROQRAMI LAYİHƏSİ HAQQINDA

Ölkəmizdə elm və texnika sürətlə inkişaf edir, xalqımızın maddi və mənəvi səviyyəsi durmadan yüksəlir. Bu, uşaqların ümumi inkişafına böyük təsir göstərir. Onların marağı, aldıqları məlumat dərinləşir və genişlənir, dərketmə imkanları artır. Təlimin mövcud məzmunu isə bu inkişaf və yeniliklərə cavab verə bilmir. Bütün bunların nəticəsində də təlim və tərbiyə işlərini, o cümlədən təlimin məzmununu daha da təkmilləşdirmək zərurəti meydana çıxmışdır.

Həmin yenilikləri nəzərə almaq məqsədi ilə məktəb tədris fənləri üzrə yeni proqramlar hazırlanır, onların layihələri müzakirəyə qoyulur. Belə proqramlardan biri də «Ana dili» proqramı layihəsidir. İndi çoxlarını bu sual düşündürür: bu yeni proqram layihəsində həyatın yeni tələbləri nə dərəcədə

nəzərə alınmışdır? Müəyyən cəhətlərinə görə, yeni proqram layihəsi mövcud proqramdan üstündür. Bu üstünlük, əvvəla, ondan ibarətdir ki, layihə ibtidai təlimin üç il ərzində həyata keçirilməsinə əsaslanmışdır; ikincisi, Vətənimizin təbiət lövhələrini, ictimai və mədəni nailiyyətlərini əks etdirən mətnlərin şagirdlərə öyrədilməsinə müəyyən yer verilmişdir; üçüncüsü, sinifdə oxunması tövsiyə olunan ədəbiyyatın geniş siyahısı proqrama daxil edilmişdir; dördüncüsü, qiraət zamanı şagirdlərə verilməli biliklərlə yanaşı, öyrədilməli vərdişlər də nəzərdə tutulmuşdur; beşincisi, Vətənimizin təbiəti ilə, xalq təsərrüfatında tətbiq olunan texnika ilə, qabaqcıl adamlar və onların coşğun əməyi ilə bilavasitə tanış olmaq üçün sinifdənkənar vaxlarda görülməli işlərin məzmunu göstərilmişdir.

Ana dili, qiraət və qrammatika kimi məfhumların dəqiqləşdirilməsinə və bu məfhumlar arasındakı qarşılıqlı əlaqənin müəyyən edilməsinə səy göstərilməsi də layihənin diqqəti cəlb edən xüsusiyyətlərindən biridir. Proqram layihəsində ana dili ümumiləşdirici məfhum, savad təlimi, qiraət və qrammatika isə ana dilinin tərkib hissələri kimi verilmişdir. Bizcə bu, düzgün yoldur.

Buradan belə bir nəticə də çıxır ki, hüsnxət üçün xüsusi məşğələlər ayrılmayacaq, xəttin gözəlliyinə, səliqəliliyinə və sürətinə bütün yazılı çalışmalarda fikir veriləcəkdir.

Əlifba təlimi zamanı proqram layihəsində nəzərdə tutulmuş ekskursiyalar şagirdlərin ətraf aləmlə yaxından tanış olmasına, onların təsəvvürlərinin genişlənməsinə, dəqiqləşməsinə, nitqinin zənginləşməsinə imkan verəcəkdir.

Layihədə rabitəli nitqin inkişafı üzrə aparıcalaq işlərin həddi müəyyənləşdirilmişdir ki, bu cəhət də layihəni mövcud proqramdan fərqləndirir.

Rabitəli nitqin inkişafı üzrə işlərin həm qiraət, həm də qrammatika məşğələlərində aparılmasının nəzərdu tutulması, qiraət dərslərində rabitəli nitq üzrə çalışmaların oxunan əsərin məzmunu ilə əlaqələndirilməsi, qrammatika dərslərində isə belə çalışmaların qrammatika üzrə ümumi çalışmalar siste-

minə daxil edilməsi şagirdlərdə nitq mədəniyyətinin ümumi inkişafına müsbət təsir göstərməyə bilməz.

Bu cür üstün cəhətləri ilə yanaşı, proqram layihəsinin bəzi qüsurları da vardır. Həmin qüsurların aradan qaldırılması layihənin daha da təkmilləşməsinə kömək edərdi. Nəzərdə tutduğumuz nöqsanlar hansılardır?

Ana dili proqramının tərkib hissələrinə verilən adlarda sabitlik axıradək gözlənilməmişdir. Məsələn, layihənin 5-ci səhifəsində ana dilinin tərkib hissələrindən danışılarkən oraya, yuxarıda dediyimiz kimi, savad təlimi və nitq inkişafı, nəhayət, qrammatika, yazı qadaları və nitq inkişafı daxil edilir. Sonralar isə həm izahat vərəqəsində, həm də proqramın özündə «savad təlimi», «qrammatika, yazı qaydları və nitq inkişafı» məfhumları ilə yanaşı, «əlifba təlimi», «Azərbaycan dili» kimi məfhumlar da işlədilir. Layihənin izahat vərəqəsində ana dilinin tərkib hissələrindən hesab edilən qrammatika, yazı qaydaları və nitq inkişafı proqram layihəsinin özündə (səh. 36) Azərbaycan dili adlandırılmışdır. Söhbət proqram haqqında getdiyindən, məfhumların işlədilməsində xüsusilə ardıcıl olmaq zəruri şərtlərdən biridir.

Qiraətə aid materiallar bir sinif üzrə bölmələrə ayrılır, başqa siniflər üzrə isə bu cür bölgü verilmir. Məsələn, III sinif üzrə tədris mövzuları qismən bölmələrə ayrılır və bu bölmələrə müvafiq adlar da verilir. Lakin I və II siniflər üzrə mövzular müəyyən bölmələr üzrə qruplaşdırılmır. Bu cəhətdən vahid prinsipə əməl edilməsi daha faydalı olardı. Biz, sonuncunun, yəni qiraət üzrə tədris mövzularını bölmələrə ayırmamağın tərəfdarıyıq.

III sinif üzrə mövzuların layihədə bölmələrə ayrılması süni görünür və bəzi uyğunsuzluqlar meydana çıxır. Həmin sinif üzrə tədris materialı zahirən üç bölmədə qruplaşdırılır. II və III bölmələrə başlıq verildiyi halda, I bölməyə heç bir başlıq verilmir. Başlığı olan bölmələrdəki bəzi materialların məzmunu aid olduğu bölmənin aydına uyğun gəlmir. III bölmə buna misal ola bilər. Bölməyə «Xalqımızın keçmişindən» başlığı verilmişdir. Həmin bölməyə isə «SSRİ qəhrəmanlar

ölkəsidir» adlı mövzu da daxil edilmişdir. Mövzunun məzmunu isə keçmişə deyil, əsasən müasir dövrümüzə aiddir.

Bu cür uyğunsuzluqları nəzərə alaraq təklif edirik ki, I və II siniflərə aid proqram layihələrində olduğu kimi, III sinifdə də qiraət materialları həm proqramda, həm də dərsliklərdə yalnız müvafiq mövzular üzrə qruplaşdırılsın. III sinif «Ana dili» dərsliyinin son nəşrlərində bu tələbə əməl edilmişdir. Bizcə həmin təcrübəni nəzərə almaq faydalı olar.

Layihədə bəzi mövzular ona aid edilmiş materialları tam əhatə etmir: materiallar geniş, mövzu isə nisbətən məhdud-dur. I sinfin qiraət üzrə proqram layihəsində «22 aprel – V.İ.Leninin anadan olduğu gündür» və başqa mövzular, həmin mövzulara aid olan materiallar buna misal ola bilər.

İlin fəsillərinə aid materiallar proqram layihəsində siniflər üzrə eyni prinsip əsasında yerləşdirilməmişdir. I və II siniflərin proqramlarında fəsillərə aid materiallar bir-birinin arxasınca verilməmişdir. Məsələn, I sinfin proqram layihəsində «Qış» mövzusuna aid materiallardan sonra «Ailə», «Yaxşı nədir, pis nədir?», «Bizim ordumuz», «8 Mart – anamın bayramıdır» mövzularında materiallar verilir. Bu materiallardan sonra «Yaz» mövzusu gəlir. II sinfin proqramında da ilin fəsilləri üzrə təbiət lövhələrinə aid materiallar başqa xarakterli materiallarla növbləşdirilmişdir. Müxtəlif xarakterli materialların proqramda və buna uyğun olaraq dərslikdə növbələşdirilməsi bir çox cəhətdən faydalıdır. Belə bir prinsip təbiət lövhələrinə aid materialların da vaxtında, məhz aid olduğu fəsillər dövründə öyrənilməsinə imkan verir.

Lakin həmin prinsip III sinfin proqram layihəsində gözlənilməmişdir. Burada təbiət lövhələrinə aid materiallar dalbadal («Yay», «Payız», «Qış», «Yaz») verilmişdir. Fəsillərə aid olan materialların proqram layihəsindəki ardıcıllıqda tədrisi bir çox cəhətdən dolaşıqlığa səbəb olar.

Bizcə, I və II siniflərin proqram layihələrində olduğu kimi, III sinfin proqram layihəsində də təbiət lövhələrinə aid materialların başqa xarakterli materiallarla növbələşdiril-

məsi məsləhətdir. Belə bir tələbə mövcud dərslikdə əməl edilmiş və bu tələb özünü təcrübədə doğrultmuşdur.

Bu deyilənlər nağıllara, təmsillərə, atalar sözlərinə və məsəllərə də aiddir. Belə materiallar proqram layihəsində müstəqil mövzu kimi verilmişdir. Mövzu I sinifdə «Nağıllar», II sinifdə «Nağıllar və təmsillər», III sinifdə «Nağıllar, təmsillər, atalar sözləri və məsəllər» adlandırılmışdır.

Məlumdur ki, nağıllar da, təmsillər də, atalar sözləri və məsəllər də – bunların hamısı müəyən əxlaqi ideya ifadə edir. Belə materiallar, hər şeydən əvvəl, şagirdlərdə müvafiq əxlaqi hisslərin, anlayışların inkişafına, onlarda yüksək əxlaqi sifətlərin formalaşmasına kömək edir.

Şagrdlərin əxlaqi hisslərinə, onların estetik zövqlərinə təsir göstərən başqa formalı və başqa məzmunlu materiallar da proqram layihəsində vardır. Buna görə də nağılları, təmsilləri, atalar sözü və ya məsəlləri müvafiq mövzulara daxil etmək daha yaxşı olardı. Bəzi mövcud dərslklərdə bu ideya nəzərə alınmış və təcrübədə özünü doğrultmuşdur.

Qiraət vərdişləri, mətn üzərində iş və əsərlərin növləri ilə praktik tanışlıq üzrə çalışmaların proqram layihəsində nəzərdə tutulması diqqəti cəlb edir. Bu qəbildən olan çalışmalar oxunan mətnin şagirdlər tərəfindən daha yaxşı başa düşülməsinə kömək edər, onlarda müstəqil oxu vərdişlərini artırar, ədəbi yaradıcılığın tez təşəkkül tapmasına yardım göstərər.

Son dərəcə faydalı olan bu işlə əlaqədar olaraq bəzi mülahizələrimizi söyləmək istəyirik. Əvvəla, qiraət vərdişləri, mətn üzərində iş və ya əsərlərin növləri ilə praktik tanışlıq məsələləri proqram layihəsində oxunan mətnlərdən əlaqəsiz şəkildə, yəni ayrı-ayrı mövzular formasında verilmişdir. İkincisi, göstərilən sahələr üzrə məsələlər təlimin məzmunu şəklində deyil, təlimat xarakterində təqdim edilmişdir. Məsələn, I sinfin proqram layihəsində «Qiraət vərdişləri» mövzusu ilə başlayır: «Şagirdlər asan sözləri hecalarla oxumağı bacarmalıdırlar. Hərfi və hərf-heca ilə qiraətə yol verilməməlidir. Dərs ilinin sonuna yaxın

şagirdlərin bütöv sözlərlə şüurlu, ifadəli və səlis oxumalarına nail olmaq lazımdır…»

**Sual olunur:** proqramın özündə, onun məzmununda işin metodikasına və vəzifəsinə aid izahat vermək nə dərəcədə məqsədəuyğundur? Belə izahatlar proqramın izahat vərəqəsində verilməli deyilmi?

Bu cür təlimati xarakter daşıyan qeydlər proqram layihəsinə yazılmış izahat vərəqəsində də vardır.

Proqram layihəsindəki belə uyğunsuzluqları nəzərə alaraq bəzi təkliflər irəli sürürük. Məsələn:

1. Qiraət vərdişləri, mətn üzərində iş və əsərlərin növləri ilə praktik tanışlıq üzrə nəzərdə tutulan məsələlər ayrıca mövzular şəklində verilməsin: həmin məsələlər qiraətin ümumi məzmununda, faktik materiallarla əlaqədar şəkildə verilsin.

2. Göstərilən sahələr üzrə nəzərdə tutulan məsələlər təlimat formasında deyil, konkret çalışmalar, iş növləri şəklində ifadə edilsin.

3. Qiraət vərdişləri, mətn üzərində iş və s. haqqında təlimat tərəqqi ilə deyilməli fikirlər proqramın məzmununda deyil, izahat vərəqəsində verilsin.

Sinifdən-sinfə keçdikcə qiraətə aid materiallar və ya tapşırıqlar bəzi hallarda getdikcə mürəkkəbləşmir, eyni xarakterdə, eyni məzmun və formada tapşırıqlar verilmir. Məsələn, II sinfin proqram layihəsində oxuyuruq: cümlələr və mətnin hissələri arasında fasilənin gözlənməsi». Eyni tapşırıq III sinfin proqram layihəsində də nəzərdə tutulmuşdur: «Cümlə daxilində və mətnin hissələri arasında fasilənin gözlənməsi».

Proqram layihəsində eyni tapşırığın yuxarı sinifdə asan, aşağı sinifdə isə nisbətən çətin formada verildiyinə də təsadüf edilir. Məsələn, II sinfin proqram layihəsində yazılır: «Nağılın xüsusiyyətləri. Hekayələr və elmi-kütləvi mətnlər. Hekayələr və elmi-kütləvi mətnlər. Şeirin xüsusiyyətləri (ahəng, qafiyə)». I sinfin proqram layihəsində isə tələb edilir: «Şagirdlərə nağıl, hekayə və şeiri bir-birindən fərqləndirmək bacarığı verilməlidir».

Məlumdur ki, nağılı hekayədən, yaxud hekayəni şeirdən fərqləndirmək üçün şagird ədəbiyyatın həmin formalarına xas olan xüsusiyyətləri bilməlidir. Proqram layihəsində isə nağılın, hekayənin və s. xüsusiyyətlərini bilmək II sinif şagirdlərindən, ədəbiyyatın formalarını fərqləndirmək isə I sinif şagirdlərindən tələb edilir.

Bizcə, belə hallara proqram layihəsində yol verilməməlidir. Eyni iş növü sinifdən-sinifə keçdikcə mürəkkəbləşdirilməlidir. Daha doğrusu, asandan çətinə prinsipi layihədə axıradək nəzərə alınmalıdır.

Proqram layihəsinin ciddi qüsurlarından biri də müasir həyata, xalq təsərrüfatının müxtəlif sahələrinə, elm və texnikaya, qabaqcıl adamların fəaliyyətinə aid materialın orada az olmasıdır. Həin sahələr üzrə materialın öyrənlməsinə III sinfin proqram layihəsində cəmi 9 saat ayrılması nəzərdə tutulmuşdur. I və II siniflərin proqram layihələrində isə yuxarıdakı sahələr üzrə, demək olar ki, heç bir mövzu nəzərə alınmamışdır. Halbuki qiraətin qarşısında duran başlıca vəzifələrdən biri aşağı siniflərdən başlayaraq şagirdləri müasir həyatla tanış etməkdən, xalq təsərrüfatına, texnikaya və mədəniyyətə aid onlar üçün müyəssər olan məlumat verməkdən və bu əsasda şagirdlərin nitqini inkişaf etdirməkdən ibarətdir. Proqram layihəsi isə şagirdləri psixoloji cəhətdən müasir həyata hazırlamaq əvəzinə, onların diqqətini daha çox tarixə, tarixi materialların öyrənilməsinə yönəldir. III sinif üçün proqram layihəsində tarixə aid materialların öyrədilməsinə verilən 77 saatdan yalnız 9-nun ölkəmizdə müasir quruculuq işlərinə ayrılması bunu sübut etmirmi? Belə bir nisbəti qirat üçün normal hesab etmək olarmı? Əlbəttə, yox! Bizcə, qiraət proqramında müasir həyatın öyrənilməsi tarixin öyrənilməsinə nisbətən üstünlük təşkil etməlidir. Tarixi materialların mənimsənilməsi müasir həyatın şagirdlər tərəfindən daha şüurlu başa düşülməsinə xidmət etməlidir. Proqram layihəsinə yazılmış izahat vərəqəsində deyilir ki, mövcud ibtidai təlim sistemi ölkəmizdə elm və texnikanın sürətli inkişafından geri qalır, şagirdlərin ümumi inkişafını təmin

etmir. Proqram layihəsinin göstərdiyi həmin əsaslı qüsuru həyata, quruculuq işlərinə aid materialları azaltmaq və tarixə aid materialı çoxaltmaq yolu ilə aradan qaldırmaq olarmı? Güman edirik ki, olmaz. Məktəb qarşısında qoyulmuş yeni vəzifələrin həyata keçirlməsinə kömək etmək məqsədi ilə qiraətin məzmununda müasir həyatımızı əks etdirən materiallara diqqət artırılmalıdır. Bu məsələ hamımızı ciddi düşündürməlidir.

Fikrimizcə, ana dili üzrə proqram layihəsinin qüsurlarından bir də ondan ibarətdir ki, layihə şagirdlərin müşahidəçilik qabiliyyətini, fikir yürütmək, öyrənilən hadisəni təsvir etməyi bacarmaq, müşahidə edilən əşyalarda və hadisələrdə ümumi cəhətlərə diqqət yetirmək və bunları ümumiləşdirmək, bir sözlə, şagirdlərdə əqli inkişafı maksimum dərəcədə sürətləndirmək üçün müəllimə kifayət qədər material və istiqamət vermir. Buna görə də arzu edirik ki, qiraət materiallarının məzmunu ilə əlaqədar olaraq şagirdlərin əqli inkişafını sürətləndirən iş növləri, çalışmalar və s. proqrama daxil edilsin. Mətnlə əlaqədar olan bu cür çalışmalar, iş növləri nəinki həmin mətnlərin əsaslı mənimsənilməsinə, şagirdlərdə nitqin inkişafına kömək edir, həmçinin onları tədricən mühakimə yürütməyə, müstəqil olaraq bilik əldə etməyə alışdırır.

Bizcə, proqram layihəsi təlimin tərbiyələndirici mahiyyətindən maksimum dərəcədə istifadə edilməsinə istiqamət verə bilməmişdir. I və II siniflər üçün qiraət üzrə materialların 95 faizi kiçik şagirdlərə təbiət və cəmiyyət haqqında bu və ya digər faktik biliklər verilməsini nəzərdə tutur. Bu, əlbəttə, şagirdlərdə materialist dünyabaxışının yaranmasına müəyyən dərəcədə xidmət edər. Lakin həmin siniflər üçün proqram layihəsində əxlaq və estetika məsələləri son dərəcə az nəzərə alınmışdır. III sinfin proqram layihəsində isə əxlaq məsələləri əsasən «Əsil insan olmalı» mövzusunda verilmişdir. Burada şagirdlərə aşılanmalı əxlaqi sifətlər isə mücərrəd şəkildə verilmişdir. Məsələn, layihədə oxuyuruq: «Bizim cəmiyyətimizin adamları necə olmalıdırlar, onların vətənə, insana, biliyə, əməyə, incəsənətə münasibəti haqqında hekayələr və

şeirlərin oxunması». Göründüyü kimi, burada heç bir əxlaqi sifətin adı çəkilməmişdir. Bu cəhətdən də proqram dəqiq olmalıdır. Proqramda fikir təqribən aşağıdakı şəkildə konkretləşdirilməlidir: «Bizim cəmiyyətimizdə, adamların vətənpərvərliyi, insanpərvərliyi, beynəlmiləlçiliyi, əməyi və musiqini sevməsi, biliyə can atması və s. haqqında şeir və hekayələr».

Əxlaq və estetik tərbiyə cəhətdən bu cür konkretlik proqramın başqa mövzularında da nəzərdə tutulmalıdır. Yeri gəldikcə, başqa xarakterli materiallarla əlaqədar olaraq müvafiq əxlaqi keyfiyyətin və ya estetik zövqün şagirdlərə aşılanması proqramın məzmununda əks etdirilməlidir. Proqramın bu cəhətdən təkmilləşdirilməsi təlim zamanı həm də tərbiyə vəzifələrinin yüksək səviyyədə həyata keçirilməsinə şərait yaradır.

Bizcə, qiraət materialları üzrə proqram layihəsindəki qüsurların başlıca səbəbi aşağıdakılardan ibarətdir: 1) qiraət proqramı ilə əlaqədar olan başlıca vəzifələr və qiraətin məzmunu kifayət qədər dəqiqləşdirilməmişdir; 2) qiraət proqramı layihəsinə yazılmış izahatdan və onun məzmunundan aydın başa düşmək olmur ki, qiraətin qarşısında qoyulan başlıca vəzifələr nədən ibarətdir və bu vəzifələri yerinə yetirməyə imkan verə biləcək faktik tədris materialı hansılardır?

Müzakirə etdiyimiz proqram layihəsində qiraətin vəzifəsi, səhv etmiriksə, təqribən belə müəyyənləşdirilir: a) qiraət dərslərində şagirdlərə şüurlu, düzgün, ifadəli və sürətlə oxumaq vərdişlərinin aşılanması diqqət mərkəzində durmalıdır. Uşaq əsərdə iştirak edən surətlərin hərəkətlərini qiymətləndirməyi, onlara öz münasibətini bildirməyi, təbiət və incəsənətdəki gözəlliyi çirkinlikdən fərqləndirməyi bacarmalıdır; b) qiraət dərslərində, başlıca olaraq, şagirdlərin şifahi nitqi inkişaf etdirilir, konkret təsəvvürlər və anlayışların yaranması əsasında onların lüğət ehtiyatının zənginləşdirilməsinə, həmçinin rabitəli nitqinin təkmilləşdirilməsinə böyük diqqət verilir.

Göründüyü kimi, hər iki vəzifə əgər onları vəzifə hesab etmək olarsa, diqqəti qiraətin məzmunundan yayındıraraq

formaya yönəldir. Belə göstərişlərə uyğun olaraq müəllim çalışmalıdır ki, qiraət dərslərində şagirdlərə oxumaq vərdişləri aşılasın, əsərdəki surətlərin onlar tərəfindən qiymətləndirilməsinə nail olsun, başlıca olaraq şagirdlərin şifahi nitqini inkişaf etdirsin.

Qiraətin qarşısında qoyulmuş vəzifələrə formalizm mövqeyindən yanaşılması ilə razılaşmaq olarmı? Əlbəttə, yox! Bizcə, qiraətin başlıca vəzifələrindən biri ətraf mühiti, məktəb həyatını, şagirdlərin həyatını, müasir kommunizm quruculuğu işlərini başa düşməkdə şagirdlərə kömək etməkdən ibarət olmalıdır. Başqa sözlə desək, qiraətin əsas məqsədi şagirdlərdə elmi dünyabaxışının yaranmasına kömək edən, ailə, məktəb və cəmiyyət qarşısında öz borclarını başa düşməyə kömək edən biliklər – müasir ictimai həyat hadisələrinə və təbiət hadisələrinə dair ilkin biliklər verməkdən ibarət olmalıdır. Şagirdlərin müstəqil oxumasına və müstəqil çalışmasına imkan verən düzgün oxu vərdişlərinin onlara aşılanması da qiraətin vəzifələrindəndir. Qiraətin başqa bir vəzifəsi, şagirdlərdə əqli keyfiyyətlərin, xüsusən müşahidəçilik, oxuduğu və yaxud müşahidə etdiyi hadisələri ardıcıl təsvir etmək, bu cisim və hadisələrdəki oxşar cəhətləri qeyd etmək, ətraf mühiti məqsədəuyğun şəkildə dəyişdirməyə səy göstərmək və s. keyfiyyətlərin formalaşmasına kömək etməkdən ibarət olmalıdır.

Qiraətin qarşısında qoyulmalı başlıca vəzifələri aydınlaşdırmadan onun məzmununu, qiraət üçün vacib olan materialların həcmini müəyyənləşdirmək çətindir.

Bizcə, qiraətin qarşısında qoyulan vəzifələr proqram layihəsində dəqiq müəyyən olunmadığından, qiraətin məzmunu da əsaslı, inandırıcı görünmür. I, II və III siniflər üçün qiraət proqramında müasir ictimai həyat hadisələrinə son dərəcə az, uzaq keçmişə isə nisbətən çox yer verildiyi, proqram layihəsində deyildiyi kimi, ictimai-tarixi materialların III sinif proqramında bir bölməyə – «Xalqımızın keçmişindən» adlı bölməyə aid edildiyi, təbiət hadisələrinə aid materialların isə bədii materiallar kimi qələmə alındığı, «Qiraət vərdişləri», «Mətn üzərində iş» və «Bədii əsərlərin

növləri ilə praktik tanışlıq»ın ayrı-ayrı başlıqlarda, oxunan mətnlərdən təcrid edilmiş şəkildə verilməsi və s. buna misal ola bilər. Qiraətin məzmununu qiraətin qarşısında qoyulmalı vəzifələrə uyğun olaraq dəqiqləşdirmək lazımdır.

Qiraət üzrə proqrama, hər şeydən əvvəl, şagirdlərdə elmi dünyagörüşünün yaranmasına kömək edən, ailə, məktəb və cəmiyyət qarşısında öz borcunu başa düşməyə imkan yaradan müasir ictimai həyat hadisələrinə aid materiallar verilməli və məhz belə materialar proqramda üstünlük təşkil etməlidir.

Həmin materiallarla əlaqədar olaraq müəllimin rəhbərliyi altında şagirdlərin müstəqil oxusuna və müstəqil çalışmasına imkan verən düzgün oxu vərdişləri aşılayacaq, şagirdlərdə müxtəlif əqli keyfiyyətlər formalaşdıra biləcək iş növləri də proqrama daxil edilməlidir. İctimai həyata və təbiətə aid olan materiallarla yanaşı belə iş növləri də qiraətin məzmununun tərkib hissəsinə çevrilməlidir.

Bizə ehtiraz edib deyə bilərlər ki, proqram layihəsi ilə əlaqədar olaraq yuxarıda göstərdiyimiz nöqsanların əksəriyyəti elə rus məktəbləri üçün tərtib edilmiş proqram layihəsində də vardır; ana dili proqramı layihəsindəki nöqsanlar rus dili proqramı layihəsindəki nöqsanlardan irəli gəlir. Bu, doğrudan da, qismən, belədir. Lakin bu cür «dəlil» bizə o qədər də əsaslı görünmür. Əvvəla, rus dili üzrə proqram layihəsinin özü də müzakirə təriqi ilə çap edilmişdir. Bu o deməkdir ki, həmin layihədə mümkün olan qüsurlar aşkara çıxarılmalı və aradan qaldırılmalıdır. İkincisi, heç kəs heç yerdə tələb etmir ki, biz rus dili üzrə proqram layihəsini tərcümə etməli, orada heç bir dəyişikliyə yol verməməliyik. Başqa sahələrdə olduğu kimi, ana dili üzrə proqram tərtibində də digər respublikaların, xüsusən RSFSR-in gözəl təcrübəsindən istifadə etməliyik. Lakin övcud təcrübədən yaradıcılıqla istifadə olunmalıdır.

Proqram layihəsindəki qüsurların səbəblərindən biri də mövcud proqram və dərsliklərdə özünü doğrultmuş prinsiplərin kifayət qədər nəzərə alınmamasından ibarətdir. Halbuki hazırda istifadə edilən qiraət proqramları və

dərsliklərinin tərtibində özünü doğrultmuş bir sıra cəhətlər vardır. Qiraətin məzmununa daxil edilən müxtəlif xarakterli materialların növbələşdirilməsi, təbiətə və ictimai həyata dair mətnlərin aid olduğu fəsillərdə və əlamətdar vaxtlarda öyrədilməsi, nağıllar, atalar sözləri və məsəllərin əxlaq məzmunlu materiallarla əlaqələndirilməsi və s. mövcud proqram və dərsliklərin faydalı cəhətlərindəndir.

Proqram layihəsinə yazılmış izahat vərəqəsində deyilir ki, layihə mövcud proqramdan üz çevirməmişdir, onun əsasında tərtib edilmişdir. Belə bir fikrə proqram layihəsinin həm məzmununda, həm də quruluşunda axıradək əməl edilməlidir.

Təlimin qarşısında qoyulmuş yeni vəzifələr və məktəb təcrübəsində özünü doğrultmuş faydalı cəhətlər qiraət üzrə proqramda həqiqətən uzlaşdırılmalıdır.

Ana dili, xüsusən onun tərkib hissəsi olan qiraət ibtidai təlimin əsasını, biz deyərdik ki, gələcək təhsilin bünövrəsini təşkil edir. Bu bünövrə haqqında geniş söz açmağa, ana dili proqramı layihəsini geniş və əsaslı şəkildə təhlil etməyə, onun ən vacib məsələlərini geniş müzakirə etməyə dəyər.

Arzu edirik ki, ana dili proqramının layihəsi ilə əlaqədar olaraq müəllimlər, metodistlər, alimlər tərəfindən söylənən fikirlər nəzərə alınsın, proqram layihəsi daha da təkmilləşsin. Bu istiqamətdə aparılan iş gənc nəslin təlim və tərbiyəsi səviyyəsinin daha da yüksəldilməsinə kömək edər.

**(«Azərbaycan məktəbi» jurnalı, №12, 1967)**.

## 26. YENİ PROQRAMLAR, YENİ QAYĞILAR

Hazırda respublikanın bütün məktəbləri yeni proqramlara keçmək üzrədir. İndi I-III siniflərdə qiraət, Azərbaycan dili, riyaziyyat, əmək təlimi, I-II siniflərdə rus dili, V-VI siniflərdə botanika, VI-VII siniflərdə zoologiya və fizika, VII sinifdə kimya və sair fənlər yeni proqramlar əsasında tədris edilir. Bəs yeni proqramlarla iş təcrübəsi nə göstərr? Bunu öyrənmək üçün bizim institut Bakı, Gəncə, Şəki, Lənkəran, Ağdam şəhərlərində, Quba, Abşeiron, Qasım

İsmayılov, Tovuz, Qax, Xaçmaz, Kəlbəcər, Mirbəşir, Balakən, Zaqatala və sair rayonlarda yoxlamalar aparmışdır. Bu tədbir şəhərlərdə və rayon mərkəzlərində, həm də onlardan kənarda yerləşən məktəbləri əhatə etmişdir. 60 minə yaxın şagird yoxlamadan keçmişdir.

Aydın olmuşdur ki, yeni proqramlarla tədrisin öhdəsindən müvəffəqiyyətlə gələn müəllimlərimiz vardır. Bakı şəhərindəki 18 nömrəli məktəbdən Səmayə Şəmsiyeva, 132 nömrəli məktəbdən Tatyana MİronovA, 172 nömrəli məktəbdən Bayram Əliyev, Tovuz rayonundakı Xatunlu kənd orta məktəbindən Fərman Həsənov, Şəkidəki 2 nömrəli məktəbdən Xədicə Rəsulova, 10 nömrəli məktəbdən Naimə Cəlilova və onlarca başqaları belələrindəndir. Onlar yeni proqramların başlıca məqsədini əsaslı bilən, təzə pedaqoji və metodik kitabları, məqalələri oxuyan, qabaqcıl təcrübəni müntəzəm öyrənən, öz işini daim təhlil edən müəllimlərdir.

Bununla yanaşı, şagirdlərinin bilik səviyyəsi xeyli aşağı olan müəllimlərə yenə də təsadüf edilir. Aşağı siniflərdə elə müəllimlər var ki, onlar iki il ərzində şagirdlərə yeni qrafik üzrə ən sadə kalliqrafiya qaydalarını, bəsit əmək və musiqi bacarıqlarını belə öyrədə bilməmişlər. I sinifdə şagirdlər şəkillər üzrə rusca danışmaqda çox çətinlik çəkirlər. Yaxud, fizikadan V I sinifdə şagirdlərin əksəriyyəti maddənin quruluşu, maye və qazların təzyiqi ilə əlaqədar hadisələri molekulyar-kinetik nəzəriyyə əsasında çətinliklə izah edirlər. VII-VIII siniflərdə şagirdlər kimyəvi elementlərin işarələrini yazmaqda, onların valentliyini aydınlaşdırmaqda acizlik göstərirlər. Aşağı siniflərdə uşaqlar hesaba, həndəsəyə və cəbrə aid misalların həllində riyazi qanunlardan istifadə etməyi, karton və ya kağızdan həndəsi fiqurlar hazırlamağı bacarmırlar. Onlar məsələlərin həllində dolaşırlar.

Azərbaycan KP MK oktyabr plenumunda göstərilmişdir ki, bir sıra məktəblərdə şagirdlərin faktik bilik səviyyəsinin hesabat məmulatlarına uyğun gəlməməsi bizi çox narahat edir. Zənnimizcə, bunun bir sıra səbəbləri vardır. Onlardan başlıcası budur ki, müəllimlərimizin bir qismi pedaqoji və metodik ədəbiyyat yenilikləri ilə son dərəcə az maraqlanır,

yeni məzmunlu tədris mövzularının əvvəlki qaydalarla öyrədirlər, öz işlərinin nəticələrinə tənqidi yanaşmır, şagirdlərin əqli inkişafı, onların tədqiqatçılıq bacarığının artması qayğısına lazımınca qalmır, dərsləri müasir tələblər əsasında qurmağa səy göstərmirlər.

Müəllimlərimizin xeyli hissəsinin elmi-pedaqoji və metodik səviyyəsinin bu günkü tələblərdən geri qalmasının bir çox səbəbi vardır. Əvvəla yeni proramlarla işin təşkilinə dair müəllimlər üçün kifayət qədər elmi-metodik vəsait çap edilmir. Ayrı-ayrı fənlərdən dərs deyən müəllimlərin ədəbiyyata olan ehtiyacı yarıtmaz ödənilir. İnstitutumuz müəllimlərə elmi-metodik kömək göstərmək üçün bir sıra vacb problemlər üzrə vəsaitlər hazırlamışdır. Məsələn, 1969-cu ildə «Azərbaycan dilinin tədrisində yeniliklər» adlı metodik vəsait hazırlanıb respublika Maarif Nazirliyinə təqdim edilmişdir. Həmin vəsaitdə Azərbaycan dilindən yeni proqramın xüsusiyyətləri şərh olunur.

İnstitutda həmçinin Azərbaycan dili dərslərində texniki vasitələrdən istifadə etməklə şagirdlərin fəallaşdırılması, təlim zamanı şagirdlərdə peşələrə meyl və marağın inkişaf etdirilməsi, dərslərin müasir tələblər sırasında təşkili və s. mövzularda əsərlər yazılmışdır. Lakin məktəb üçün vacib olan bu cür əsərləri institut çap etdirmək imkanından məhrumdur. Bu sahədə Maarif Nazirliyi də, «Maarif» nəşriyyatı da institutumuza köməyi artırmalıdırlar.

Yeni proqramların tətbiqində müəllimlərin qarşılaşdığı çətinliklərdən biri də ayrı-ayrı fənlər üzrə əyani vasitələrin azlığıdır. İndi elə bir fənn yoxdur ki, onun tədrisi tamamilə yeni cədvəllər, diaqramlar, şəkillər, tablolar, diafilmlər, maqnitofon yazıları və s. tələb etməsin. Məktəblərimizin, müəllimlərimizin müxtəlif formalı və məzmunlu əyani vasitələrə olan ehtiyacı respublikada yarıtmaz ödənilir. İnstitut yeni proqramların tələblərinə cavab verəcək bir çox əyani vasitənin hazırlanmasına da müəyyən diqqət yetirmişdir. I-II siniflərdə ana dilindən süjetli şəkillər, qrammatikadan cədvəllər, I sinif üçün riyaziyyatdan cədvəllər, I-III siniflər üçün əl əməyinə dair albom, aşağı siniflərdə rus dilindən

şəkilli cədvəllər, orta və yuxarı siniflərdə rus ədəbiyyatı üzrə illüstrativ cədvəl və digər əyani vasitələr hazırlanmışdır.

Bu cür əyani vasitələrin təlim üçün əhəmiyyəti böyükdür. Məsələn, IV sinfin proqramına uyğun olaraq Azərbaycan dili fənninin tədrisi üçün hazırlanmış cədvəllər dilin müxtəlif sahələrini bir-biri ilə əlaqəli şəkildə öyrənməyə, şagirdləri müstəqil mühakimələr yürütmək üçün alışdırmağa imkan verir. Cədvəllərdən təkcə yeni materialın öyrədilməsi üçün deyil, biliyi möhkəmləndirmək, ümumiləşdirmək məqsədi ilə də istifadə etmək mümkündür.

Ədəbiyyatdan «M.Füzuli», «M.P.Vaqif», «Ə.Haqverdiyev», «N.Vəzirov», «M.Ə.Sabir», «C.Məmmədquluzadə» mövzularında hazırlanmış tədris albomları sözlə əyaniliyin vəhdətini təmin edir. Çox təəssüf ki, bu cür əyani vasitələrin xeyli hissəsi hələ də çap olunub müəllimlərin istifadəsinə verilməmişdir.

Respublikada pedaqoji və metodik əsərlərin, xüsusən yeni proqramlar üzrə materialların son dərəcə az çap edildiyi indiki şəraitdə mətbuatın, radio və televiziyanın imkanlarından istifadə etməyin əhəmiyyəti xeyli artır. Bu sahədə pedaqoji institutların və universitetin müvafiq kafedraları, təkmilləşdirmə institutları, elmi-tədqiqat pedaqogika institutu çox iş görə bilər və görməlidirlər. Məsələn, təkcə bizim institutun elmi işçiləri yeni proqramlarla əlaqədar olaraq müxtəlif mövzularda 270-dən çox məqalə ilə çıxış etmiş və 200-ə qədər məruzə oxumuşlar. Sov.İKP XXIV və Azərbaycan KP XXVIII qurultaylarının materialları və yeni tədris proqramları əsasında işin təşkili ilə əlaqdar Qusar, Quba, Yardımlı, Qasım İsmayılov, Əli Bayramlı, Ağdam və s. yerlərdə elmi-təcrübi konfranslar keçirilmişdir. Həmin tədbirlərin məktəbə nə verdiyini müəllimlər daha yaxşı bilirlər. Müəllimlərimiz ali məktəblərin pedaqogika, metodika və psixologiya kafedraları üzvlərinin məktəblərə daha yaxın olmalarını arzulayırlar. Hər bir kafedra müəyyən rayona təhkim edilsə, bunun müəllimlərə böyük köməyi olar. Bizim institutun əmək və politexnik təlim şöbəsi Bakının Oktyabr rayonu məktəb-

lərində əmək təlimi müəllimlərinin daimi seminarını təşkil etmişdir. Seminar ictimai əsaslarla 1969-cu ildən fəaliyyət göstərir. Hər ay seminarın iki məşğələsi keçirilir. Təlimin texniki vasitələri laboratoriyası da müəllimlər üçün bu cür seminar təşkil etmişdir.

Tədqiqatların nəticəsi göstərir ki, yeni proqramlara müvafiq olaraq müəllimlərin elmi-pedaqoji və metodik hazırlıqlarındakı qüsurlar qismən təkmilləşdirmə institutlarının iş xarakteri ilə də əlaqədardır. Müəllimlərin xeyli hissəsi təkmilləşdirmə kurslarından tam razı deyildir. Onlar deyirlər ki, təkmilləşdirmə kurslarında mühazirə oxuyan şəxslərin bəzilərinin məktəblə, yeni proqramlarla əlaqəsi yoxdur, bəzən də məruzəçinin təhsili və hazırlıq səviyyəsi dinləyicilərinkindən yuxarı olmur. Oxunan mühazirələrin xeyli hissəsi ümumi, nəzəri xarakter daşıyır, onların məzmunu məktəb təcrübəsi ilə bağlanmır, müəllimə konkret metodiki istiqamət vermir.

Yeni proqramlarla əlaqədar aşağı sinif müəllimlərinin təkmilləşdirilməsi də düzgün aparılmamışdır. Aşağı siniflərlə tanış olmayan, I-III siniflərdə heç vaxt ana dilini tədris etməmiş ədəbiyyat müəllimlərinin təkmilləşdirmə kurslarında dərs demələri səmərə vermişdirmi? Zənnimizcə, yox! Həmin kurslarda olmuş bəzi sinif müəllimləri yeni proqramların öhdəsindən gəlməyə çalışırlar, lakin buna nail ola bilmirlər. Belə müəllimlərin şagirdlərinin ümumi hazırlıq səviyyəsi bir çox halda əvvəlki proqramlarla təhsil almış şagirdlərin hazırlıq səviyyəsindən də geridir. Məsələn, tədqiqat aparılan aşağı siniflərdə 65-70 sözdən ibarət olan mətni yoxlamadan keçmiş şagirdlərin 3.997 nəfərinin hecalarla, 1.495 nəfərinin hərfləyə-hərfləyə oxumasını, 252 nəfərinin isə heç oxuya bilməməsini, yaxud ayrı-ayrı siniflərdə ana dilindən, riyaziyyatdan mənimsəmə faizinin xeyli aşağı olduğunu nə ilə zah etmək olar? Zənnimizcə, aşağı siniflərdə yeni proqramların tətbiqi sahəsində yaranmış belə vəziyyətin təkmilləşdirmə kursları ilə müəyyən əlaqəsi vardır. Həyat göstərir ki, təkmilləşdirmə kurslarının məzmununu və sistemini tamam yenidən qurmaq zəruridir.

Yeni proqramlar əsasında keçilən dərslərin şagirdlər tərəfindən yüksək səviyyədə mənimsənilməsinə valideynlər də kömək göstərməlidirlər. İradəcə zəif olan, diqqəti tez yayınan uşaqlar ev tapşırıqlarını keyfiyyətlə yerinə yetirmək əvəzinə, televiziya və radio verilişlərinə baxmağa həddən artıq vaxt sərf edirlər. Odur ki, yeni proqramların ağırlığından valideynlər də hali olmalı və uşaqların evdə təlim əməyinə ciddi nəzarət etməli, məktəblə, müəllimlərlə əlaqəni gücləndirməlidirlər.

Təcrübə göstərir ki, uşaqları I sinifdə ciddi fəaliyyət tələb edən təlimə hazırlamaq son dərəcə zəruridir. Bu tələb həm valideynlərə, həm də uşaq bağçaları işçilərinə aiddir. Onlar birinci sinfin proqramları ilə tanış olmağa və uşaqları məktəbdə, həm də bağçada gələcək təlimə psixoloji cəhətdən hazırlamağa borcludurlar. Xatırladaq ki, I sinifdə çətinlik çəkənlər məhz ailədə və bağçada lazımi hazırlıq görməmiş uşaqlardır.

Bəzi şəhər və ya rayonlardakı məktəb direktorları və maarif şöbə müdirləri zəif hesab etdikləri sinif müəllimlərinə I sinifləri, bir qədər qüvvəlilərə isə II-III sinifləri tapşırırlar. Tarix, ədəbiyyat və bəzi başqa fənlərin tədrisində özünü doğrultmayan müəllimlərə də aşağı siniflərdə dərs deməyi etibar edirlər. Fizikadan, riyaziyyatdan və ya kimyadan direktorun zəif hesab etdiyi müəllimlərə kursun başlanğıcında, yəni VI-VII siniflərdə, bacarıqlılarına isə yuxarı siniflərdə dərs verməsi hallarına da az rast gəlmirik. Məktəbdə müəllimlərin qüvvəsindən istifadə edilməsinə bu cür qeyri-pedaqoji münasibət təlim-tərbiyə işi səviyyəsinin aşağı düşməsinə səbəb olur. Şagirdlərdə bilik və bacarıqların, müvəffəqiyyətli təlim üçün vacib olan psixoloji keyfiyyətlərin təməli aşağı siniflərdə qoyulmurmu? Bünövrəsinin qoyulması səriştəsiz mühəndisə, yuxarı mərtəbələrinin tikilməsi isə qabiliyyətli, təcrübəli mühəndisə həvalə edilən binanın aqibəti necə olar?

Məktəb də bu cürdür! İbtidai siniflər nə qədər etibarlı əllərdə olursa, hər bir fənnin başlanğıc kursunu nə qədər

usta müəllim tədris edirsə, şagirdlər yuxarı siniflərdə bir o qədər müvəffəqiyyətlə oxuyurlar.

Deməli, müəllimlər arasında dərs bölgüsünə subyektiv mövqedən deyil, obyektiv, pedaqoji mövqedən yanaşmaq lazımdır. Yəni, hər bir fənnin başlanğıc kursunun məhz hazırlıqlı müəllimlərə həvalə olunmasına çalışsaq, bundan birinci növbədə şagirdlər qazanar, müvafiq fənn üzrə onların bilik və bacarıqları daha möhkəm, daha əsaslı olar.

Müasir həyatın, elm və texnikanın, mədəniyyətin inkişaf səviyyəsinə müəyyən dərəcədə uyğun gələn yeni proqramların müvəffəqiyyətlə həyata keçirilməsi müəllimlərin, məktəb rəhbərlərinin, maarif işçilərinin birgə əməyi, səyi nəticəsində mümkündür. Bu ümumxalq və ümumdövlət işində təkmilləşdirmə institutları, elmi-tədqiqat pedaqogika institutu, ali məktəblər, habelə «Maarif» nəşriyyatı ümumtəhsil məktəblərinə, müəllimlərimizə əllərindən gələn köməyi göstərməyə borcludurlar.

**(«Kommunist» qəzeti, 23 dekabr, 1971)**

## GİRİŞ ƏVƏZİ

Ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də yeniləşmə, inkişaf getdikcə daha geniş vüsət alır. Təhsilin maddi-texniki bazası möhkəmlənir, yeni məktəb binaları tikilir; bu sahədə Heydər Əliyev fondunun təşəbbüsləri bütün xalqımızı sevindirir. Məktəblərin kompüterləşdirilməsi ildən ilə artırılır. Ümumtəhsil fənləri üzrə təhsil proqramları (kurrikulumlar) hazırlanır; ali məktəblərimiz çoxballı qiymətləndirmə sistemini tətbiq edir və tədricən kredit sisteminə keçir. Təhsil sistemində xoşagəlməz hallara qarşı mübarizə son vaxtlar xeyli gücləndirilir və s.

Söz yoxdur ki, bu yeniliklər respublikamızda mənəvi-psixoloji mühitin sağlamlaşmasına da müsbət təsir göstərir. Lakin, düsünürük ki, dövlət müstəqilliyi şəraitində təhsillə əlaqədar görülən tədbirlər geniş miqyaslı və yüksək səviyyəli tərbiyəvi tədbirlərlə möhkəmləndirilsəydi nailiyyətlərimiz daha çox olardı. Təəssüflə etiraf olunmalıdır ki, son zamanlar təhsil kateqoriyasını bəzi səlahiyyətli mütəxəssis və məmurlar çox bəsid və məhdud mənada başa düşmüşlər; onun tərbiyə və psixoloji inkişafla bağlılığına məhəl qoymamışlar, onu yalnız müvafiq biliklərin, bacarıq və vərdişlərin toplusu kimi təsəvvür etmişlər. Bu cür məhdud, cılız başa düşülən anlamın bünövrəsi isə 1992-ci ilin dekabrında qəbul olunmuş təhsil qanununda qoyulmuşdur. Bu zərərli anlam rəsmi sənədlərə süzülərək indiyədək yaşamaqdadır.

Həqiqətdə isə təhsil məfhumunun məzmunu yalnız müvafiq biliklərlə, bacarıq və vərdişlərlə məhdudlaşmır; bunlardan əlavə, həm milli və ümumbəşəri dəyərlər, həm də həmin biliklərin və mənəvi dəyərlərin mənimsənilməsinə imkan verən psixoloji qüvvələr də onun, yəni təhsilin məzmununa daxildir. Deməli, təhsili ətə-qana dolduran təkcə çılpaq biliklər, bacarıq və vərdişlər deyil, əsasən tərbiyə və psixoloji inkişaf imkanlarına malik olan biliklər, bacarıq və vərdişlərdir.

Bundan əlavə, təhsilin səviyyəsinə dayaq olan həm də, necə deyərlər, xalis tərbiyədir, ailədə, dərsdən (auditoriyadan) kənar, məktəbdənkənar həyata keçirilən tərbiyəvi tədbirlərdir.

Təhsilin hər iki cəhətdən tərbiyəvi imkanlarını nəzərə almayan təhsil qanununun bəlasını, başqa sözlə, tərbiyədən kənarlaşdırılmış təhsilin bəlasını biz- təhsil işçiləri, pedaqoji problemlərlə məşğul olan alimlər çəkir. Nəticədə respublika üzrə şagirdlərin tərbiyəlilik və psixoloji inkişaf səviyyəsini yüksəltmək işi xeyli çətinləşir. Necə olur-olsun göstərilən ciddi nöqsan aradan qaldırılmalıdır.

Deyilənlərdən belə bir nəticə çıxartmaq düzgün olmazdı ki, guya indiyədək tərbiyə problemlərinə həsr edilmiş əsərlər yazılmamışdır. Yazılmışdır! Lakin, hələ də tərbiyənin fundamental, köklü, təhsilə dayaq olacaq tədqiqatları yox dərəcəsindədir.

Bu və ya digər mənəvi dəyərin hər hansı sinifdə (siniflərdə) hansısa fənlə (fənlərlə) əlaqədar, yaxud dərsdənkənar tədbirlərdə formalaşdırılması üzrə tədqiqatlar aparılır. Lakin bu tədqiqatların əksəriyyəti formaca bir-birindən çox az fərqlənir: araşdırılan mənəvi keyfiyyətin tərbiyə olunma mexanizminə toxunulmur; bu cəhət sirr olaraq qalır.

Deməli, bir tərəfdən rəsmi təhsil anlayışını tərbiyə imkanları ilə ətə-qana doldurmaq, digər tərəfdən tərbiyə problemlərinin tədqiqinə yeni elmi istiqamət vermək indi zərurətə çevrilmişdir. Bu zərurəti dərk edərək «Mərhələli tərbiyə nəzəriyyəsi» ni işləyib ortaya qoymaq qərarına gəldik.

Belə bir vəzifənin öhdəsindən nə dərəcədə gələ bildiyimiz barədə söz oxucularındır.

## 1. TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN YARADILMASI DÖVRÜN TƏLƏBİDİR

Respublikamızın bütün sahələrində islahatlar getdikcə dərinləşir və genişlənir. Yeniləşmə təhsil sahəsini də əhatə etmişdir. Lakin, təəssüf ki, bunu tərbiyə sahəsi ilə əlaqədar deyə bilmirik.

Vəziyyəti nəzərə alan respublika təhsil nazirliyi özünün dekadr 2000-ci il tarixli qərarında göstərmişdir ki, milli ideologiya və dövlətçilik prinsipləri əsasında hələ də milli tərbiyə proqramı işlənib hazırlanmamışdır; və bu, islahatların gedişini ləngidən amillərdən biridir.

Qərardan təqribən altı il keçməsinə baxmayaraq, indiyədək heç bir səlahiyyətli təşkilat və ya idarə lazımı təşəbbüs göstərməmişdir. Yalnız tək-tək mütəxəssislər, o cümlədən bu yazının müəllifi və prof. Z.Qaralov ilkin addımlar atmışlar.

Mən məqalələrimin birində yazmışam, indi yenə təkrar etməyi vacib sayıram ki, Azərbaycanda Zahid Qaralov ilk dəfə mükəmməl tərbiyə nəzəriyyəsi yaratmaq təşəbbüsü ilə çıxış etmişdir. Bu məqsədlə o, dünya miqyasında tərbiyə üzrə söylənmiş fikirləri toplamış, qruplaşdırmış və nəticəsini üç sanballı kitab halında çap etdirmişdir. Etiraf olunmalıdır ki, həmin kitablar uzun illər çəkilmiş son dərəcə gərgin əməyin məhsulu olmuşdur. Düşünürük ki, bu zəhmət öz bəhrəsini verməlidir. Əməli tərbiyə işində uğur qazanmaq sorağında olan hər kəs həmin kitablardan istənilən qədər bəhrələnə bilər.

Zənnimcə, həmin kitabları yaratmaqda Zahid müəllimin son məqsədi elə bir kamil, elə bir universal tərbiyə nəzəriyyəsi yaratmaqdır ki, bu nəzəriyyədən nəinki müasir Azərbaycanda və digər ölkələrdə, həm də gələcəkdə bütün ölkələrdə, bütün xalqlar istifadə edə bilsinlər. Gözəl arzudur, özü də ümumbəşəri arzudur. Fəxr etməyə dəyər ki, belə bir bəşəri istəyi ortaya qoyan, onu əsaslandırmağa çalışan, ideyasının dünya miqyasında fayda verəcəyinə dərin inam bəsləyən şəxs Azərbaycan övladıdır, azərbaycanlıdır.

Z.Qaralovun irəli sürdüyü nəzəriyyənin mahiyyətini özüm üçün aydınlaşdırmaq məqsədi ilə onun yalnız bir cəhətinə- tanrı ilə bağlı olan cəhətinə toxunmaq istərdik.

3-cü kitabın 140-cı səhifəsində nəzəriyyənin mahiyyəti belə ifadə olunur: «Tərbiyənin sağlam üçlüklər (3+3+3) nəzəriyyəsi» ilk üçlükdə ailə, məktəb və ictimayyətin əlbir işi; ikinci üçlükdə milli-mənəvi, ümumbəşəri və dini mədə-

niyyətlərin inteqrasiyası; sonuncu üçlükdə insan-təbiət və cəmiyyət qarşılıqlı münasibət və təsir mədəniyyətlərinin cəmi nəzərdə tutulur. 1-ci kitabın 92-ci səhifələrində yazılır ki, mükəmməl tərbiyə nəzəriyyəsini yalnız insan-təbiət-cəmiyyət-tanrı münasibətlərinin tarazlığı prinsipləri əsasında yaratmaq mümkündür.

Digər ölkələrin və xalqların həmin nəzəriyyəyə münasibəti bir yana qalsın, özümüzdə müxtəlif səviyyəli ailələrin, başqa-başqa səviyyəli məktəblərin və müxtəlif tərkibli cəmiyyətin mövcud olduğu bir şəraitdə mükəmməl tərbiyə nəzəriyyəsinin yaradılması və tətbiqini aydın təsəvvür etmək çətindir. Üstəgəl tanrının mövcudluğuna inanmayan və təhsilin dünyəviliyi ilə dini qovuşdurmağın yolverilməzliyini bilən mənim kimi konstitusiyapərəst tərbiyəçilər təklif edilən nəzəriyyəni mübahisəli görür. Həmin nəzəriyyə, əvvəla, insan, ailə, məktəb, cəmiyyət və tanrı arasında tam tarazlığın olmadığı indiki dövrə aid edilə bilməz; ikincisi, bu nəzəriyyə ölkələrin, insanların, ailələrin, məktəblərin, cəmiyyətin təkmilləşəcəyinə, tarazlaşacağına hesablanır. İnsanlar arasında təbəqələşmənin artdığı cəmiyyətdə həmin nəzəriyyənin işlək olacağı real görünmur. O da nəzərə alınmalıdır ki, şəxsiyyətə tərbiyəvi təsirlərlə sosial və təbii mühit amillərinin təsirini eyniləşdirmək halları, tərbiyə nəzəriyyəsini cəmiyyətdə cərəyan edən çoxşaxəli, çoxmərhələli zəncirvari təsirlər zəminində qurmaq halları mövcud olmuş və bu cür hallar indinin özündə də vardır. Məşhur sovet pedaqoqlarından Suxomlinskinin, Monoszonun, Lixaçovun və başqalarının fikirləri buna misal ola bilər. Düşünürük ki, tərbiyəni cəmiyyətlə eyiləşdirmək düzgün olmadığı kimi, tərbiyə nəzəriyyəsini də yalnız cəmiyyətin inkişaf qanunauyğunluqları əsasında qurmaq cəhdi də uğursuzluqla nəticələnə bilər. Çünki tərbiyə işi cəmiyyətdə özünəməxsus fəaliyyət növüdür və bunun spesifikliyi diqqətdən yayınmamalıdır. Eyni zamanda tərbiyə işinin həyata keçirildiyi sosial və təbii mühitin necəliyi də hökmən nəzərə alınmalıdır.

2005-ci il iyun ayının 10-dan «Azərbaycan müəllimi» qəzeti «Milli pedaqogikada tərbiyə nəzəriyyəsi» mövzusunda

mənim onadək silsilə məqalələrimi çap etdirmişdir. Elə bil respublikamızda tərbiyə məsələləri ilə məşğul olan nə dövlət idarə və təşkilatı var, nə də mütəxəssis alimlər: həmin silsilə məqalələrdə tərbiyə nəzəriyyəsinə dair qaldırılmış məsələlərə heç bir münasibət bildirilmədi. Susmağı razılıq kimi qəbul etsək, deməliyik ki, xatırlatdığımız məqalələrdə yaradılmalı, işlənib hazırlanmalı tərbiyə nəzəriyyəsinin yalnız konturları cızılmışdır. Bu konturlar ətə-qana gəlməli və onunla bağlı olan bəzi vacib problemlər həll edilməlidir. Belə problemlərə aydınlıq gətirilməsi işlək tərbiyə nəzəriyyəsi yaratmağın şərtlərinə çevrilərdi.

***İşlək tərbiyə nəzəriyyəsi yaratmağın şərtləri.*** Bu cür şərtlərdən biri pedaqoji elmdə, xüsusən pedaqogikadan dərslik və dərs vəsaitlərində «Tərbiyə nəzəriyyəsi» məfhumuna dair anlayışın qoyuluşu vəziyyətini təhlil etməkdən ibarətdir; ikincisi, lazım gələrsə, elmi ədəbiyyatda «nəzəriyyə» məfhumuna müraciət etməyin zəruriliyidir; üçüncüsü, həmin ümumi anlayış baxımından tərbiyə nəzəriyyəsinin başlıca əlamətlərini aydınlaşdırmağa çalışmaqdır; dördüncüsü, tərbiyə kateqoriyasının mahiyyətinə dair vahid anlayışın yaradılmasıdır; beşincisi, tərbiyənin strateji məqsədini müəyyənləşdirməkdir; altıncısı, tərbiyədə mərhələlik əlamətlərinin olduğunu etiraf etməkdir; mühit amillərinin nəzərə alınmasıdır; tərbiyənin daxili komponentləri arasında qarşılıqlı əlaqələrə aydınlıq gətirilməsidir; işlək tərbiyə nəzəriyyəsini formalaşdırmağın elmi və praktik əhəmiyyətini ortaya qoymaqdır.

***Pedaqoji ədəbiyyatda «tərbiyə nəzəriyyəsi» məsələsinin qoyuluşu.*** Pedaqoji ədəbiyyatın, o cümlədən pedaqogika üzrə dərsliklərin və dərs vəsaitlərinin, ayrı-ayrı monoqrafiyaların araşdırılmasından aydın olur ki tərbiyə nəzəriyyəsi alimlər tərəfindən birmənalı başa düşülmür. Onların əksəriyyəti tərbiyə məsələlərini küll şəklində əhatə edən yazını və ya materialı tərbiyə nəzəriyyəsi kimi təqdim edirlər. Pedaqogika adlı dərs vəsaitlərinin böyük qismində vəziyyət belədir. Məsələn, 1968-ci ildə və ya 1981-ci ildə Moskvada «Prosveşenie» nəşriyyatı tərəfindən çap olunmuş «Pedaqo-

gika» adlı dərs vəsaitlərində «Tərbiyə nəzəriyyəsi» başlığı ilə material verilmişdir. Burada tərbiyənin mahiyyəti, məzmunu, prinsipləri, üsulları, təşkili formaları və s. məsələlər ətraflı şərh edilir. Lakin bu məsələlərin daxili əlaqəsi, sistemi, nəyin nədən törəmə olduğu aydınlaşdırılmır, əslində başlığın mahiyyəti açılmır. Oxucuda belə təəssürat yaranır ki, «Tərbiyə nəzəriyyəsi» başlığı altında şərh edilən məsələlərin hamısı toplu halında elə tərbiyə nəzəriyyəsidir. Tərbiyə nəzəriyyəsinin bu cür başa düşülməsinə Azərbaycanda çap olunmuş pedaqogika adlı dərs vəsaitlərinin əksəriyyətində rast gəlmək olur.

Görəsən, tərbiyə problemlərinə həsr olunmuş monoqrafiyalarada tərbiyə nəzəriyyəsi məsələsinin qoyuluşu nə vəziyyətdədir? Bu istiqamətdə apardığımız araşdırmalardan məlum oldu ki, məsələnin monoqrafiyalardakı qoyuluşunda da vəziyyət təqribən eynidir. Bircə misal gətirək. 1980-cı ildə Moskvada «Pedaqogika» nəşriyyatı tərəfindən çap olunmuş məşhur «
» adlı iri həcmli əsərin 3-cü fəsli belə adlanır: «
- ». Buna baxmayaraq, həmin fəslin məzmununda tərbiyənin ayrı-ayrı məsələlərindən uzun-uzadı danışılır: ümumiyyətlə tərbiyə nəzəriyyəsinin, xüsusən marksizm-leninizm nəzəriyyəsinin nədən ibarət olduğu, onun mahiyyəti kölgədə qalır, açılmır.

Ayrı-ayrı şəxsin-şairin, yazıçının, filosofun, pedaqoqun yaradıcılığında tərbiyəyə aid fikirləri tədqiq edən bəzi mütəxəssislər üzə çıxarıb şərh etdikləri fikirləri də tərbiyə nəzəriyyəsi kimi təqdim edirlər.

Pedaqoji ədəbiyyatda mövcud olan bu cür faktlar açıq şəkildə göstərir ki, «Tərbiyə nəzəriyyəsi» məfhumunun mahiyyəti çoxlarımız üçün o qədər də aydın deyil; həmin məfhuma aydınlıq gətirilməlidir.

**Sual olunur:** görəsən *elmi ədəbiyyatda ümumiyyətlə «nəzəriyyə» məfhumu necə başa düşülür?* Bu istiqamətdə apardığımız araşdırmalardan məlum oldu ki, elmi ədəbiyyatda

nəzəriyyə məfhumuna şərh verilmişdir. «Советский енциклопедический словар»а görə teoriya yunan (theoriya) sözündəndir, nəzərdən keçirmək, araşdırmaq mənasındadır.

Etiraf edək ki, ensklopediyada nəzəriyyə (teoriya) məhfumunun hərfi mənası ilə yanaşı, onun elmi mənasına da aydınlıq gətirilmişdir, yazılmışdır: Nəzəriyyə «Bu və ya digər elmlər sahəsində başlıca ideyaların sistemini bildirir; xarici aləmdəki qanunauyğunluqlar və başlıca əlaqələr barədə bütöv təsəvvür yaradır. Nəzəriyyənin həqiqiliyinin meyarını və inkişafının əsasını praktika təşkil edir» («Sovetskaya Ensiklopediya». Moskva, 1980, səh. 1330).

Nəzəriyyə məfhumunun nə demək olduğuna «Azərbaycan Sovet Ensiklopediyasında» cavab verilmişdir. Orada yazılır: «Nəzəriyyə – ərəb sözündəndir, görmək, baxmaq mənasındadır; geniş mənada müəyyən bir hadisənin şərhinə və izahına yönəldilmiş baxışlar, ideyalar, təsəvvürlər kompleksidir; dar, xüsusi mənada - gercəkliyin nəzəriyyə obyekti olan sahəsinin qanunauyğunluqları və mühüm əlaqələri haqqında tam təsəvvür yaradan elmi biliyin ən yüksək, inkişaf etmiş təşkili formasıdır» (ASE, Bakı, 1983,VII c., səh.221).

Məsələ burasındadır ki, nəzəriyyə məfhumunun mahiyyətinə «Bolşaya Sovetskaya Ensiklopediya»- da geniş açıqlama verilir. Orada da eyni fikir şərh edilir. Yazılır: «Teoriya- yunan sözündəndir (theöreö), görürəm, nəzərdən keçirirəm mənasındadır; geniş mənada müəyyən bir hadisənin şərhinə və izahına yönəldilmiş baxışlar, ideyalar, təsəvvürlər kompleksidir; dar, xüsusi mənada – gerçəkliyin nəzəriyyə obyekti olan sahəsinin qanuauyğunluqları və mühüm əlaqələri haqqında tam təsəvvür yaradan elmi biliyin ən yüksək, inkişaf etmiş təşkili formasıdır» (BSE, Moskva,1976,c. 25,434).

Göründüyü kimi, bu üç mənbədə nəzəriyyəyə dair yazılmış fikirlər tam eyniyyət təşkil edir və bizdən ötrü əsas mənbə BSE-dir. Çünki o, 1976-cı ildə, «Sovetskaya Ensiklopediya» 1980-ci ildə, Azərbaycan Sovet Ensiklopediyası isə 1983-cü ildə işıq üzü görmüşdür.

Hansı mənbəyin əvvəl, hansının isə sonra çap olunması problemin həlli üçün o qədər də vacib deyil. Ən vacibi nəzəriyyə məfhumunun mahiyyətinə dair mövcud anlama bizim münasibətimizdir. Münasibətimiz isə birmənalı deyil. Nəzəriyyəyə dair mövcud anlamı əsasən məqbul saymaq olar. Ona bizim kiçik də olsa iki əlavəmiz var. Əvvəla, əsil, dolğun nəzəriyyə əhatə etdiyi cisim və ya hadisələri nəinki başa düşməyə imkan verməlidir ,həm də düzgün fəaliyyət göstərməyə yardımçı olmalıdır.İkincisi, əsil, İşlək nəzəriyyə ideyalar, baxışlar, təsəvvürlər kompleksi, toplusu ola bilməz. Nəzəriyyənin mahiyyətinə aid olan ideyalar və ya baxışlar qarşılıqlı əlaqədə olmalı, sistem yaratmalıdır. Bu iki cəhəti də nəzərə alan Milli pedaqogika *nəzəriyyə* məfhumunun mahiyyətini belə ifadə etməyi daha dəqiq hesab edir: «Müəyyən qrup hadisələrin və ya cisimlərin başa düşülməsinə və izahına yardım edən, habelə bu əsasda adamın əməli fəaliyyətinə istiqamət verən ideyalar, yaxud baxışlar sisteminə nəzəriyyə deyilir».

Nəzəriyyə məfhumunun mahiyyətini dəqiqləşdirdikdən sonra tərbiyə nəzəriyyəsinin mahiyyətinə aydınlıq gətirilməlidir.

İşlək tərbiyə nəzəriyyəsi yaratmaq üçün tələb olunan şərtlərdən biri tərbiyə kateqoriyasının mahiyyətinə tam aydınlıq gətirməkdən ibarətdir.

***Postsovet məkanında tərbiyənin mahiyyəti məsələsinin ədəbiyyatda qoyuluşu.*** Aparılmış xüsusi araşdırmalardan məlum olur ki, pedaqoji ədəbiyyatda tərbiyəyə dair hamı tərəfindən qəbul edilən vahid anlayış yoxdur: anlayışlar olduqca müxtəlifdir. Mövcud olan həmin fikirləri iki əsas qrupa ayırmaq olar: tərbiyənin pedaqoji tədqiqat obyekti olub-olmamasına aid olan fikir və tərbiyənin mahiyyətinə dair fikirlər.

Bəzi pedaqoqlar düşünürlər ki, pedaqoji elm tərbiyə məsələlərini öyrənməlidir. 2000-ci ildə Moskvada «Vlados» nəşriyyatı tərəfindən çap olunmuş «Pedaqogika» adlı, Bakıda 2002-ci ildə «Renessans» nəşriyyatının buraxdığı «Pedaqogika» adlı, 2003-ci ildə Bakıda BDU-nun nəşriyyatı

tərəfindən çap olunmuş «Pedaqogika» adlı kitablarda söylənən fikirlər buna misal ola bilər.

Başqa fikir söyləyənlər də var. Məsələn, Bakıda 2003-ci ildə «Çaşıoğlu» nəşriyyatının məhsulu olan «Pedaqogika. Yeni kurs» adlı kitabda yazılır ki, tərbiyə pedaqoji elmin tədqiqat sahəsi ola bilməz. Nə üçün? Müəlliflərin gətirdikləri dəlillərə görə «Tərbiyə birmənalı anlayış deyil, azı dörd mənada işlədilir( səh.12). Bəs pedaqoji elmin tədqiqat sahəsi nə ola bilər? Həmin müəlliflərin fikrincə - təhsil!

Müzakirə etdiyimiz məsələ üzrə üçüncü mövqe də var. Bu, Azərbaycanda formalaşmış Milli pedaqogikanın mövqeyidir. Milli pedaqogikaya görə pedaqoji elm indiyədək nəinki tərbiyə və təhsil məsələləri ilə, hətta təlim məsələləri ilə məşgul olmuş, olur və bundan sonra da məşğul olacaq.

**Soruşmaq olar:** pedaqogikanın tərbiyəyə münasibətinə diar pedaqoqların fikirlərindəki köklü fərqi nə ilə izah etmək olar? Sözü pedaqoqların özlərinə verək. Birinci qrupa aid etdiyimiz müəlliflərin fikrinə görə pedaqoqların əksəriyyəti belə düşünür, biz də belə. İkinci qrupa aid olan pedaqoqların fikirləri yuxarıda aşkarlandı: çünki tərbiyə çoxmənalı anlayışdır. Üçüncü qrupun tərəfdarları düşünür ki, təlim də, tərbiyə də, təhsil də həyatda işlədildiyindən, pedaqoji elm onlarla məşğul olmalıdır.

**Yenə sual yaranır:** ilk iki qrupa aid edilmiş dəlillərlə razılaşmaq olarmı? Olmaz! Nə üçün? Çünki onların əsasında ciddi elmi təhlil dayanmır: birincilər sadəcə ənənənin qulu olurlar; ikincilər isə tərbiyəyə dair dörd anlayışın olduğunu etiraf etməklə vəzifəsini bitmiş hesab edirlər, qolunu çırmalayıb həmin anlayışları təhlil etmir, hansının həqiqətə yaxın, hansının isə uzaq olduğunu açmır, onları vahid məxrəcə gətirmir; başqa sözlə, tərbiyə kateqoriyasına tam aydınlıq gətirməyin çox çətin olduğunu duyub bu çətinlikdən qaçırlar.

Görünür, bu çətinliyin aradan qaldırılması vəzifəsi də 3-cü qrupu təmsil edən Milli pedaqogikanın üzərinə düşməli olur.

Yuxarıda nəzərdə tutduğumuz ikinci suala aydınlıq gətirməyə çalışaq: pedaqoji elmdə tərbiyənin mahiyyəti necə qiymətləndirilir. Pedaqoji ədəbiyyatla yaxından tanışlıq

göstərdi ki, doğrudan da, tərbiyənin mahiyyətinə dair müxtəlif anlayışlar mövcuddur. Bəla burasındadır ki, bu anlayışlar nəinki başqa-başqa mütəxəssislər tərəfindən irəli sürülür, hətta eyni müəllifin eyni əsərində tərbiyənin mahiyyəti haqqında bir-birindən köklü şəkildə fərqlənən fikirlər söylənir. Faktlara müraciət edək. 2000-ci ildə Bakıda «Renessans» nəşriyyatının çap etdirdiyi «Pedaqogika» adlı kitabda oxuyuruq: «Tərbiyə dedikdə tarixən qazanılmış sosial təcrübənin yaşlı nəsil tərəfindən gənc nəslə ötürülməsi nəzərdə tutulur» (səh.6). Ədalət xatirinə etiraf edilməlidir ki, bu fikir sovet və rus pedaqoqları arasında geniş yayılmışdır.

Başqa bir əsərdə tərbiyənin mahiyyəti tamam digər məzmunda təqdim edilir: «Tərbiyə şəxsiyyətin məqsədyönlü və mütəşəkkil formalaşması prosesidir» (İ.Podlasıy Moskva, «Vlados» nəşriyyatı, 2000, səh.24).

Bəla təkcə burasında deyil ki, eyni tərbiyə məfhumu haqqında başqa-başqa mütəxəssislər bir-birindən fərqli fikirlər söyləyirlər. Bəlkə də bu, elmdə təbii hesab edilə bilər. Bəla həm də orasındadır ki, hər sonra əsər yazmaq həvəsinə düşən şəxslər qələmə aldıqları məsələyə aydınlıq gətirmək əvəzinə, bir çox halda, özündən əvvəl deyilmiş fikrin mənbəyini göstərmədən təkrar etməklə məsələnin daha da qəlizləşməsinə səbəb olurlar. Təəssüfki, bu cür hallara tərbiyə kateqoriyasının mahiyyətinə aid yazılarda da rast gəlmək olur. Məsələn, «Renessans» nəşriyyatının çap etdirdiyi və yuxarıda adını çəkdiyimiz kitabdakı fikir eynilə, mənbə göstərmədən, 2003-cü ildə BDU nəşriyyatı tərəfindən çap olunmuş «Pedaqogika»nın 12-ci səhifəsində də verilmişdir. Bu cür əmələ digər fikirlə bağlı olan yazıda da rast gəlmişik. Podlasıyın yuxarıda istinad etdiyimiz fikri Bakıda «Çaşıoğlu» nəşriyyatı tərəfindən 2003-cü ildə buraxılmış «Pedaqogika. Yeni kurs» adlı dərs vəsaitində ünvan göstərilmədən eynilə təkrar olunmuşdur: «Tərbiyə şəxsiyyətin məqsədyönlü və mütəşəkkil formalaşması prosesidir» (18 səh).

Faktların təhlilini yekunlaşdırmağa tələsməyək, deyək ki,tərbiyə kateqoriyasının mahiyyətinə dair hələlik üç fərqli anlayışla üzbəüzük. Dördüncü anlayış da vardır. Başqalarının fikirlərini elmi təhlil süzgəcindən keçirmədən özününküləşdirmək meyli bəzi şəxslərdə o qədər güclüdür ki, onlar hətta öz yazılarına inamsızlıq da nümayiş etdirir, necə deyərlər, gah nala, gah da mıxa vururlar. Yuxarıda «Caşıoğlu» nəşriyyatı ilə bağlı olan pedaqogikanın 18-ci səhifəsindəki fikri xatırlatdıq. Sən demə, tərbiyənin mahiyyəti haqqında müəlliflərin başqa fikirləri də varmış. Onlar həmin kitabın 312-ci səhifəsində yazmışlar: «Tərbiyə prosesi şəxsiyyətin inkişafı və formalaşması prosesidir». Deyək ki, qeyri ixtisas sahibləri 18-ci və 312-ci səhifələrdə yazılmış fikirlərdəki köklü fərqi duymaya bilərlər. Lakin bu köklü fərq pedaqogika kursu keçmiş ali məktəb tələbəsinə çoxdan məlumdur; insan şəxsiyyətinin formalaşmasında iki qrup amillər iştirak edir: məqsədyönlü, planlı və mütəşəkkil təsir göstərən amillər, habelə qeyri məqsədyönlü, qeyri planlı, qeyri mütəşəkkil təsir göstərən amillər. Birinci amillər tərbiyəyə aiddir, ikincilər isə tərbiyə prosesinə daxil deyil.

Tərbiyə kateqoriyasının mahiyyətinə tamam başqa, beşinci baxış da mövcuddur. Biz tərbiyə və təhsil kateqoriyalarını eyniləşdirmək cəhdini burada ayrıca qeyd etmək istərdik. Belə cəhdlər var və özü də çox güclüdür. Bu cəhdin ən bariz nümunəsini biz Lednevin 1989-cu ildə Moskvada çap olunmuş «Содержание образованийа» adlı əsərində görürük. Əsərin 52-ci səhifəsində yazılır: «Ontogenez cəhətdən şəxsiyyətin biososioloji formalaşması prosesi kimi sosial mahiyyətli təcrübənin əvvəlki nəsil tərəfindən sonrakı nəsillərə mütəşəkkil və normalaşdırılmış şəkildə verilməsi prosesi təhsildir.»

Söyləməyə məcburüq ki, təhsil kateqoriyasının mahiyyətini açmağa yönəlmiş bu anlamı oxuyanda, istər-istəməz, nəinki yuxarıda adını çəkdiyimiz «Renessans» nəşriyyatının çap etdiyi «Pedaqogika» adlı kitabın 6-cı səhifəsində və BDU nəşriyyatının buraxdığı «Pedaqogika» adlı kitabın 12-ci səhifəsində tərbiyəyə dair təkrarlanan fikirlər yada düşür;

bundan əlavə, hətta təhsil kateqoriyasının mahiyyətini açmağa ilk dəfə təşəbbüs göstərmiş olan mənbələrdən birindəki fikir də hafizədə yenidən canlanır. Biz 1960-cı ildə Moskvada çap olunmuş «Pedaqoqiçeskiy slovar»da söylənmiş bir fikri nəzərdə tuturuq. Həmin lüğətin 184-cü səhifəsində tərbiyə kateqoriyasının mahiyyəti belə açıqlanır: «Gənc nəsli ictimai həyata və məhsuldar əməyə hazırlamaq məqsədi ilə ictimai tarixi təcrübənin ona verilməsi tərbiyədir».

Mən burada Azərbaycan pedaqoqlarını günahkar hesab etmirəm. Çünki onlar əsasən rus pedaqoqlarından qidalanırlar. Əsas bu deyil, əsas odur ki, Azərbaycan pedaqoqları da rus pedaqoqları kimi tərbiyəni təhsil kimi, təhsili isə tərbiyə kimi başa düşməyə məcbur olmuşlar. Yenə soruşa bilərlər: bəs onları məcbur edən qüvvə nədir? Fikrimizcə, tərbiyə və təhsil kateqoriyaları arasında dialektikadan hali olmadıqlarından və həmin kateqoriyaların mahiyyətində fərqli cəhətlərə nisbətən oxşar cəhətlərin üstünlük təşkil etdiyindən, oxşarlıq onların gözlərini qamaşdırmış, nəticədə fərqi aça bilməmişlər. Bu barədə sonra ətraflı danışmaq imkanımız olacaqdır. Əsas mətləbi unutmayaq.

Pedaqoqlar arasında elələri də var ki, onlar təlim və təhsili nisbi mənada olsa da müstəqil kateqoriyalar kimi qəbul etmirlər; həmin kateqoriyaları tərbiyə kateqoriyasının nəzdində öyrənməyi məsləhət görürlər. B.Lixaçov bu qəbildən olan pedaqoqların ən parlaq nümayəndəsidir.O, 1998-ci ildə Maskvada «Yurayt» nəşriyyatında çap etdirdiyi «Pedaqogika» adlı dərs vəsaitində öz mövqeyini çox aydın şəkildə belə ifadə etmişdir: «İnsanların təlim və təhsili hisslər kimi tərbiyəyə daxildir»(səh.7).

Tərbiyənin mahiyyətinə dair mövcud anlayışlar haqqında danışarkən sonuncu bir fikir, özü də nəinki bəzi pedaqoqlar arasında, həm də daha çox metodistlər arasında özünə möhkəm kök salmış bir meyli unutmaq olmaz. Biz təlimdən kənarda təşkil edilib həyata keçirilən saysız tədbirləri, necə deyərlər, «xalis» tərbiyəni, nəzərdə tuturuq.Məsələ burasındadır ki, həmin qrup mütəxəssislər ailədə və ictimai

yerlərdə təşkil olunan, tədris müəssisələrinin dərsdən əvvəl və ya sonra həyata keçirdikləri tədbirləri tərbiyə hesab edirlər. Lakin bu cür mütəxəssislər unudurlar ki, gənc nəslin tərbiyəsi həm də daha çox, daha mütəşəkkil və daha müntəzəm məhz dərs zamanı, habelə təlimin digər təşkili formalarında həyata keçirilir.

Fikrimizi yekunlaşdırmağa çalışaq. Gətirdiyimiz faktlardan görünür ki, Bakıda «Çaşıoğlu» nəşriyyatının 2003-cü ildə çap etdiyi «Pedaqogika. Yeni kurs» adlı dərs vəsaitinin 12-ci səhifəsində göstərildiyi kimi mövcud pedaqoji ədəbiyyatda tərbiyə azı dörd mənada deyil,azı altı mənada işlədilir.Burada başlıca məqsədimiz mövqelərin miqdarına və mahiyyətlərinə aydınlıq gətirməkdən ibarət olmamışdır. Bu cür faktlardan irəli gələn iki nəticəyə diqqəti cəlb etmək istəyi olmuşdur.Birinci nəticə:tərbiyənin mahiyyətinə dair elmdə dörd və ya altı anlayışın olduğunu etiraf etməklə işi bitmiş hesab etmək olarmı? İkinci nəticə:eyni kateqoriyanın – tərbiyənin mahiyyətinə dair bu qədər müxtəlif anlayışların mövcud olduğu bir şəraitdə tərbiyəyə dair vahid,işlək nəzəriyyə yaratmaq mümkündürmü?

Birinci suala cavabımız mənfidir: bitmiş hesab etmək olmaz. Axı, problemin varlığını etiraf etmək azdır, onun həlli ilə məşğul olmaq daha vacibdir. Elmdə alternativ fikirlər ola bilər; bu şərtlə ki, hər sonra yaranan fikir özündən əvvəlki fikrə münasibət bildirsin, öz fikrinin üstünlüyünü sübut etsin. İndiki halda isə mütəxəssislər, təəssüfki bu elmi yolu tutmurlar, necə gəldi fikirlərini yazırlar. Belə halda elmdə irəliləyiş olarmı? Olmaz! Deyilənləri nəzərə alaraq, tərbiyə kateqoriyasının mahiyyətinə dair mövcud anlayışları təhlil etmək və vahid anlam yaratmaq təşəbbüsündə olmağa çalışaq.

İkinci suala bizim cavabımız da mənfidir. Düşünürük ki, tərbiyənin mahiyyətinə dair müxtəlif anlayışlar olan şəraitdə vahid, işlək nəzəriyyə formalaşdırmaq mümkün deyil. Nə üçün? Çünki tərbiyəyə dair hansı anlayışa üstünlük verilməli və onun zəminində nəzəriyyə formalaşdırılmalıdır? Axı

anlayışlardan hansınınsa üstün olduğu indiyədək sübut olunmayıbdır!

Bəlkə xarici ölkələrin pedaqoqlarına müraciət etmək məsləhətdir? Bəlkə hər hansı ölkənin pedaqoji fikirində tərbiyəyə dair elmi cəhətdən sübut olunmuş anlayış var? Suala cavab tapmaq üçün uzun müddət araşdırmalardan sonra Milli pedaqogikaya məlum oldu ki, indiyədək dünya miqyasında 25 pedaqoji cərəyan fəaliyyət göstərmişdir.

## 2. DÜNYA PEDAQOJİ FİKRİNDƏ TƏRBİYƏNİN MAHİYYƏTİ MƏSƏLƏSİ

Müəyyənləşdirdiyimiz pedaqoji cərəyanlar bunlardır: Hürufizm pedaqogikası, asketizm pedaqogikası, centlmen pedaqogikası, dözümlülük pedaqogikası, təbiətvarilik pedaqogikası, pedosentrizm pedaqogikası, pietizm pedaqogikası, ləyaqət pedaqogikası, hərəkət pedaqogikası, eksperimental pedaqogika, şəxsiyyət pedaqogikası, monarxist-saray pedaqogikası, xəlqilik pedaqogikası, humanizm pedaqogikası, neohumanizm pedaqogikası, neotomizm pedaqogikası, neokantizm pedaqogikası, filantropizm pedaqogikası, praqmatizm pedaqogikası, eksistensializm pedaqogikası, antropoloji pedaqogika, utopik sosializm pedaqogikası, marksizm pedaqogikası, sovet pedaqogikası və milli pedaqogika.

Bu pedaqoji cərəyanları ayrılıqda səciyyələndirməyə burada ehtiyac yoxdur. Çünki belə bir vəzifənin öhdəsindən «Pedaqoji cərəyanlar hansılardır və Milli pedaqogika onları necə qiymətləndirir» adlı yazımızda gəlmişik (Bax: Milli pedaqogika yollarında», Bakı, Ağrıdağ», 2001, səh. 392-410). Lakin bütün pedaqoji cərəyanlar üçün səciyyəvi olan cəhətləri burada qələmə almaq məsləhət olardı. Onların hamısı tərbiyənin mahiyyətini açmağa kömək edəcək bu və ya digər əlaməti ön plana çəkməklə kifayətlənmişlər. Məsələn, neohumanizm pedaqogikası real elmi biliklərin tədrisini, məktəbin kilsədən ayrılmasını ön plana çəkirdi.

Neotomizm pedaqogikası isə insanların tərbiyəsində dini elmdən üstün tutur, dövlət məktəblərində dinin tədrisinin bərpasını tələb edirdi. Yaxud, xəlqilik pedaqogikası gəncliyin tərbiyəsini xalqın istək və arzuları, adət və ənənələri əsasında qurmağı təbliğ edirdisə, monarxist-saray pedaqogikası, əksinə,monarxiya ideyalarını və dini, allahın varlığını tərbiyənin əsasına çevirməyə çalışırdı.

Şəxsiyyət pedaqogikası, hərəkət pedaqogikası, ləyaqət pedaqogikası, asketizm pedaqogikası və pedaqoji cərəyanların digər növləri də belə: tərbiyənin mahiyyətini açmağa yardım edən hər hansı əlamətlərdən biri qabardılır, ön plana çəkilir, həlledici əlamatə çevrilir.

Pedaqoji cərəyanlar haqqında yığcam şəkildə deyilənlərdən bəzi nəticələr çıxarmaq mümkündür. Dünya miqyasında mövcud olan pedaqoji cərəyanlardan hansını əsas götürərək tərbiyə kateqoriyasının mahiyyətini açmaq olar? Belə hesab edirik ki, həmin cərəyanlardan heç birini əsas götürmək olmaz. Nə üçün? Çünki, şərhdən aydın göründüyü kimi, tərbiyənin mahiyyətinə dair pedaqoji cərəyanlarda anlayışlar birtərəflidir. Əgər hər pedaqoji cərəyanda tərbiyənin bir və ya iki əlaməti ön plana çəkilirsə, bu faktın özündən başqa məntiqi nəticə çıxırki,tərbiyənin mahiyyətini səciyyələndirən əlamətlər bir və ya iki deyil, çoxdur. Deməli, yarımçıq başa düşülən tərbiyə haqqında tutarlı nəzəriyyə yaratmaq mümkün deyil.

Yenə sual yaranır: Nə üçün nə postsovet məkanında, nə də ümumiyyətlə dünya miqyasında tərbiyə kateqoriyasının mahiyyətini hərtərəfli işıqlandırmaq mümkün olmamışdır? Çünki, görünür, tərbiyə haqqında düşünən mütəxəssislərdən ötrü idrakın, yəni cisim və ya hadisələrin mahiyyətini dərk etməyin qnoseoloji kökləri o qədər də aydın olmamışdır. Onlardan bəziləri tərbiyə, təlim və təhsil hadisələrini ayrılıqda nəzərdən keçirmiş, bəziləri tərbiyəni təhsil, təhsili də tərbiyə hesab etmişlər. Birinci halda alimlərin diqqəti yalnız fərqdə, ikinci halda isə yalnız oxşarlıqda, ümumi cəhətlərdə cəmləşmişdir. Təlim, tərbiyə və təhsil kateqoriyalarındaki ümumi, oxşar əlamətlər birincilər üçün,

həmin kateqoriyaların hərəsinə xas olan fəqli, spesifik əlamətlər isə ikincilər üçün yad olmuşdur.

Soruşmaq yerinə düşərdi: bu qnoseoloji cətinliyin öhtəsində gəlmək olarmı? Bəli, olar! Necə? Təlim, tərbiyə və təhsil kateqoriyalarının həyatda mövcudluğunu etiraf etməklə, onların nisbi mənada müstəqil kateqoriyalar olduğunu qəbul etməklə, tərbiyə, təlim və təhsil kateqoriyalarını müqayisə etməklə, aralarındakı həm oxşar əlamətləri, həm də fərqlərini müəyyənləşdirmək yolu ilə həmin çətinliyin öhtəsindən gəlmək mümkündür. Bu imkanı gercəkləşdirmək üçün, yəni tərbiyə kateqoriyası ilə təhsil kateqoriyasını müqayisə edək, onların ortaq cəhətlərini və hərəsinə xas olan xüsusiyyətləri açıqlamağa çalışaq. Belə bir yol bizdən ötrü işıqlı görünür təkcə ona görə yox ki, müqayisə nəzəriyyəsini biz yaratmışıq və müqayisəni ağlın sönməz məşəli adlandırmışıq;həm də ona görə ki, müqayisə ağaclar arxasında meşəni görməyə şərait yaradır.

## 3. MİLLİ PEDAQOGİKA TƏRBİYƏNİN MAHİYYƏTİ HAQQINDA

***Tərbiyənin məqsədəyönlü proses olması.*** Əvvəlcə tərbiyə və təhsil arasındakı ortaq, ümumi, oxşar əlamətləri göstərməyə çalışaq. Aydındır ki, tərbiyə də, təhsil də məqsədyönlü prosesdir. Məqsədsiz nə tərbiyə mümkündür, nə də təhsil. Tərbiyə ailədə, bağçada, məktəbdə, yaxud hər hansı başqa bir yerdə aparılsa da, müəllim və ya valideyn, yaxud digər tərbiyəçi tərəfindən aparılsa da, hər konkret halda müəyyən məqsədi həyata keçirməyə yönəlir. Məqsəd isə müxtəlif ola bilir: Yaxın məqsəd və uzaq məqsəd. Səliqəlilik, düzlük və doğruçuluq, yaxud halallıq tərbiyəsi yaxın məqsədə, milli mənlik şüurunun və ya azərbaycançılıq şüurunun formalaşdırılması uzaq məqsədə misal ola bilər. Bəzən tərbiyə qarşısında daha yaxın, daha konkret məqsəd də qoyulur. Məsələn, müəllim (və ya valideyn) müəyyənləşdirir ki, şagird (uşaq) hansısa davranış qaydasına, yaxud əxlaq

normasına aid müəyyən anlayışa malikdir; lakin fəaliyyət zamanı heç də həmişə öz anlayışına uyğun hərəkət etmir. Belə hallarda tərbiyəçi nəticə çıxarır ki, şagirddə(uşaqda) hələ müvafiq vərdiş yoxdur. O, növbəti tərbiyə işinin yaxın məqsədini bir qədər də konkretləşdirir; nəzərdə tutduğu əxlaq qaydası üzrə vərdişin formalaşdırılmasına başlayır: o, həmin əxlaq qaydası ilə əlaqədar şagirdin(uşağın) fəaliyyətini təşkil edir, onun fəalyyətinə müntəzəm nəzarət qoyur.

Bu cür yaxın məqsədləri tərbiyənin vəzifələri adlandırmaq da olar. Tərbiyənin uzaq məqsədi də müxtəlif səciyyəlidir. Onun ən uzaq məqsədi Milli pedaqogikada ali, strateji məqsəd adlanır və müvafiq formada ifadə olunur. Bu barədə bir qədər sonra danışacağıq.

Tərbiyə işində olduğu kimi, təhsil sahəsində də yaxın vəzifələrlə yanaşı uzaq məqsəd, strateji məqsəd həyata keçirilir. Deməli, məqsədəyönlülük həm tərbiyə üçün, həm də təhsil üçün oxşar olan ortaq əlamətdir. Başqa sözlə desək, tərbiyəni səciyyələndirən əlamətlərdən biri onun *məqsədyönlü* proses olmasıdır.

***Tərbiyənin planlı proses olması.*** Təhsil sahəsində olduğu kimi, tərbiyə sahəsində də hər bir tədbir ətraflı ölçülüb biçilir. Təhsilin planlılığı bir sıra dövlət sənədləri əsasında tənzimlənir. Təhsil başdan başa əvvəlcədən tərtib və təsdiq edilmiş tədris planları və tədris proqramları əsasında həyata keçirilir.

Gənc nəslin normal tərbiyəsi təsadüfi səciyyə daşımır, necə gəldi aparılmır. Onun qarşısına qoyulmuş vəzifəni və ya məqsədi həyata keçirməli olan tədbir(və ya silsilə tədbirlər) qabaqcadan diqqətlə planlaşdırılır: tədbiri nədən başlamaq, onu necə aparmaq, hansı ardıcıllıqla davam etdirmək, tədbirə kimləri dəvət etmək, onu necə yekunlaşdırmaq haqqında aydın təsəvvür yaradılır. Tərbiyə vəzifəsini yerinə yetirməli olan tədbir beləcə planlaşdırılandan sonra təşkil edilib həyata keçirilir və, adətən, gözlənilən nəticəni verir.

Tərbiyə məqsədi güdən tədbiri yazılı formada da, şifahi formada da (fikrən) planlaşdırmaq mümkündür. Qarşıdakı

tərbiyəvi tədbir kütləvi səciyyə daşıdıqda, o, adətən, yazılı şəkildə planlaşdırılır. Tərbiyəvi tədbir fərdi səciyyəli olduqda, yəni tərbiyəçi (müəllim, valideyn və s.) bir şəxslə (uşaqla, şagirdlə, tələbə ilə və s. şəxslə) işləməli olduqda, belə tərbiyəvi tədbir, adətən, fikrən ölçülüb biçilir.

Deməli planlılıq nəinki təhsil kateqoriyasına, həm də tərbiyə kateqoriyasına xas olan xüsusiyyətdir.

***Tərbiyənin mütəşəkkil proses olması.*** Məlum olduğu kimi, tərbiyə işləri bu və ya digər səviyyədə həm dərs məşğələlərində, həm də dərsdəkənar müxtəlif formalı və başqa-başqa məzmunlu tədbirlərdə həyata keçirilir. Tərbiyə işi yalnız tədris müəssisələrində reallaşdırılmır. Tərbiyə işi ailədə də, uşaq bağçasında da, mədəni maarif müəssisələrində də, məktəbdənkənar təlim- tərbiyə müəssisələrində də, hətta idarə və təşkilatlarda da özünü göstərir. Həyata keçirildiyi yerdən asılı olmayaraq tərbiyə işində az və ya çox dərəcədə mütəşəkkillik əlaməti müşahidə olunur. Tərbiyəvi tədbir zamanı kimsə kiminsə və ya kimlərinsə psixologiyasına, əxlaqına təsir göstərməyə çalışır. Burada ağız deyəni qulaq eşidir; dinləyənlər də passiv olmur; deyilənləri götürqoy edir, öz düşüncə süzgəcindən keçirir, nəyi isə qəbul edir, nəyi isə qəbul etmir, nəyəsə etirazını bildirir, fəal mövqe nümayiş etdirir.

Tərbiyə işini səciyyələndirən bu cür əlamətlər onun mütəşəkkillik nişanələridir. Bircə misal gətirək. İstər uşaq bağçası olsun, istər orta ümumtəhsil və ya ali təhsil məktəbi və ya hər hansı idarə və ya təşkilat olsun, fərqi yoxdur, şəhidlər xiyabanını ziyarət edən zaman bir mütəşəkkillik nümayiş etdirirlər: ziyarətin günü müəyyənləşdirilir; təyin olunmuş saatda toplaşaraq şəhidlər xiyabanına yollanılır; məzarlar üstünə tər çiçəklər düzülür; ziyarətin təşkilatçısı şəhidlər haqqında danışır; iştirakçılar öz təəssüratlarını bölüşürlər və s.

Təlimin tərbiyə imkanlarından istifadədə mütəşəkkillikdən qısaca olsa da ayrıca danışmağa ehtiyac var. Çünki tərbiyə işinin mütəşəkkilliyi təlim zamanı daha qabarıq şəkildə özünü göstərir. Təlimin tərbiyələndirici imkanları

olduqca genişdir. Bu imkanlar təlimin məzmununda, yəni öyrədilməli biliklərdə, bacarıq və vərdişlərdə, təlim zamanı tətbiq edilən üsullarda, təlimin təşkili formalarında, məşğələ zamanı müəllimin davranışında, geyimində, nitqində, dinləyiciləri inandırma tərzində, faktları təhlil etmək, müqayisələr aparmaq, ümumiləşmələr aparmaq bacarığında və s. cəhətlərdə yetərincədir. Təlimin bu cür imkanlara malik olduğunu bilən və bu imkanlardan yerli-yerində istifadə edən müəllimlər, əlbəttə, tərbiyə işində daha çox uğur qazanırlar. Məhz belə müəllimlərin şagirdlərində (tələbələrində) tərbiyəlilik səviyyəsi adətən yüksək olur.

Deməli, təlimdə və təhsildə olduğu kimi, məqsədyönlülük, planlılıq və mütəşəkkillik əlamətləri tərbiyə kateqoriyasına da xasdır. Təlim, tərbiyə və təhsil kateqoriyaları üçün ümumi, ortaq əlamətlərlə yəni, onların hərəsini səciyyələndirən, onları fərqləndirməyə imkan verən spesifik əlamətlər də mövcuddur. Daha çox tərbiyə üçün xarakterik olan cəhətlər bunlardır: tərbiyənin əsasən mənəviyyatla, davranışla və mühitlə bağlılığı.

***Tərbiyənin əsasən mənəviyyatla bağlılığı.*** **Sual olunur:** tərbiyə zamanı adamlara, o cümlədən gənc nəslə aşılanan nələrdir? Yığcam şəkildə desək: mənəvi dəyərlərdir! Bəs mənəvi dəyərlər deyəndə konkret nələr nəzərdə tutulur? Əxlaqi keyfiyyətlər, əməyə münasibətlə əlaqədar keyfiyyətlər, sağlamlıqla, ətraf mühitlə bağlı keyfiyyətlər, gözəlliklə, hüquqla əlaqədar keyfiyyətlər; Bir sözlə, adamın yaşayış tərzinə hər hansı şəkildə dəxli olan mənəvi keyfiyyətlər!

Bu cür mənəvi dəyərləri şərti olaraq iki qrupa ayırırıq: milli mənəvi dəyərlər və ümumbəşəri mənəvi dəyərlər. Böyüklərə hörmət, valideynlərə hörmət, uşaqlara qayğı, ailəyə bağlılıq, xalqının adətləri və ənənələrini yaşatmaq, doğma dili qorumaq, azərbaycançılıq, əməksevərlik, qonaqpərvərlik, elsevərlik, halallıq, dostcanlı olmaq kimi mənəvi keyfiyyətlər milli dəyərlərə aiddir. Yaşamaq hüququ, seçmək və seçilmək hüququ, əmək hüququ, mənzilin toxunulmazlığı hüququ, azadlıq hüququ, fikir və söz azadlığı, yaradıcılıq azadlığı, dövlət rəmzlərinə hörmət kimi bütün

xalqlar üçün səciyyəvi olan hüquqlar, azadlıqlar və vəzifələr ümumbəşəri dəyərlərə aiddir.

Tərbiyə zamanı gənc nəslə aşılanan məhz belə milli və ümumbəşəri dəyərlərdir. Mənəvi dəyərlər də, öz növbəsində, insan davranışında əks səda verir.

***Tərbiyənin əsasən davranışla bağlılığı.*** **Soruşmaq yerinə düşərdi:** insanın hansı mənəviyyat sahibi olduğunu, onun hansı mənəvi keyfiyyətlərə malik olduğunu nələrdən bilmək mümkündür? Əlbəttə, söylədiyi fikirlərdən və davranışında, cəmiyyətdə özünü necə aparmasıdan, birgəyaşayış qaydalarına onun necə əməl etdiyindən bilmək olur. Məsələ burasındadır ki, bəzən adamın dediyi və yazdığı fikir göstərdiyi fəaliyyətlə, əməli davranışı ilə üst-üstə düşmür. Elə hallar da az deyil ki, insanın dediyi və ya yazdığı fikir əməli ilə, etdiyi ilə eyniyyət təşkil edir. Cəmiyyətdə birinci hal mənəvi yoxsulluq kimi qiymətləndirilir və pislənilir; ikinci hal isə mənəvi zənginlik kimi dəyərləndirilir və rəğbətlə qarşılanır. Başlıca cəhət budur ki, hər iki halda insan mənəviyyatının necəliyini qiymətləndirərkən onun sözünə nisbətən əməlinə, davranışının necəliyinə üstünlük verilsin. Tərbiyə işində bu cəhət də nəzərə alınır, şəxsin mənəvi tərbiyəsində anlayışları, təsəvvürü, şüuru ilə yanaşı davranışının formalaşdırılması diqqətdən kənarda qalmamalıdır. Burada el deyimlərini xatırlamaq yerinə düşərdi: filankəsin dediyini yox, əməlini nəzərə al. Bəzən də bu fikrin tam əksini eşidirik: filankəsin dediyinə əməl et, əməlindən uzaq ol.

Faktlar göstərir ki, mənəvi keyfiyyətlərin sözdə və əməldə üst-üstə düşməsi cəmiyyətimizin xeyrinə yönəlir; hər hansı şəxsin mənəvi keyfiyyəti sözdə və əməldə təzad yaratdıqda isə cəmiyyətin zərərinə istiqamətlənir. Nəzərə alınmalıdır ki, hər hansı mənəvi keyfiyyət barədə aparılan faydalı söhbət müvafiq davranış tərzi ilə möhkəmləndirilmədikdə söhbət olaraq qalır, istənilən səmərəni vermir. Əksinə, məsələn, səliqəlilik barədə aparılan izahat uşağın (şağirdin) geyimində səliqəliliklə, sinif otağındakı yerində səliqəliliklə, ailə şəraitində səliqəliliklə müşayiət edildikdə, həmin söhbət

əməli olaraq həm də təşkil edildikdə tamam başqa mənzərənin şahidi oluruq.

Tərbiyə kateqoriyasını fərqləndirən spesifik əlamətlərdən biri də onun mühitlə qarşılıqlı əlaqədə olmasıdır.

***Tərbiyənin ətraf mühitlə bağlılığı.*** Xüsusi sübut etməyə ehtiyac yoxdur ki, tərbiyə işi həmişə müəyyən xüsusiyyətlərlə səciyyələnən mühitdə aparılır: ailədə, tədris müəssisəsində, istehsalatda, ictimai-siyasi təşkilatda, hərbi hissədə və s. yerlərdə. Tərbiyəvi tədbirlərin həyata keçirildiyi mühit iki cəhətdən səciyyələndirilməlidir: mühitin qlobal və ya regional olması cəhətdən və mühitdə həm maddi-texniki, həm də mənəvi-psixoloji durumu cəhətdən. Çünki sadalanan yerlərin hər birində mövcud olan maddi- texniki durum və ya mənəvi-psixoloji əhval, yaxud onların əhatəsində olan mühit eyni səciyyəli olmur, bir-birindən xeyli fərqlənir.Bu müxtəliflik isə orada aparılan tərbiyə işinin səviyyəsinə ciddi təsir göstərir. Belə təsir işin xuyrinə də, ziyanına da ola bilir. Məsələn, ailə şəraitində uşağa qarşı tələbkarlıqda valideynlərin mövqeləri, yaxud məktəbdə şagirdlərə qarşı müəllimlərin mövqeləri fərqləndikdə tərbiyə işi çətinləşir; bunun əksi də müşahidə olunur: ailədə valideynlər, məktəbdə isə müəllimlər eyni mövqedə dayandıqda tərbiyə işi xeyli asanlaşır.

Ətraf mühitdə də belədir. Ətraf mühit amilləri də adamların, o cümlədən gənc nəslin psixologiyasına, onun xarakterinə bu və ya digər dərəcədə təsir göstərir: bu təsir cəmiyyətin xeyrinə də, zərərinə də yönələ bilir.Uşaqlar küçədə, bazarda, bulvarda, digər ictimai yerlərdə gördükləri və eşitdikləri ilə məktəbdə və ailədə öyrəndikləri arasında təzadlar olduğunu yəqin edəndə onlar çaş-baş qalır, müəllimlərin və valideynlərin fikirlərinə şübhə ilə yanaşmalı olurlar. Odur ki, tərbiyə ilə məşğül olan, bu işi təşkil edən şəxslər ətraf mühitin xüsusiyyətlərini nəzərə almalıdırlar. Nəzərə almalıdırlar ki, burada müəyyən qanunauyğunluq hökm sürür. Mühit və tərbiyə arasındakı qarşılıqlı münasibətdə Milli pudaqogikanın aşkar etdiyi qanunauyğunluq belədir: mühit amillərinin tərbiyə vasitələrinə çevrilməsi şəxsiyyətin formalaşmasını asanlaşdırdığı kimi, tərbiyə

vasitələrinin qismən də olsa mühit amillərinə çevrilməsi isə şəxsiyyətin formalaşmasını xeyli çətinləşdirir. *Şəxsiyyətə mühitin təsiri nə qədər geniş, tərbiyənin təsiri isə nə qədər məhduddursa tərbiyəçinin işi bir o qədər çətinləşir.* Həyatda bunun əksidə müşahidə olunur: *şəxsiyyətə göstərilən tərbiyəvi təsir dairəsi nə qədər genişlənirsə, bunun müqabilində mühitin qeyri mütəşəkkil dairəsi nə qədər məhdudlaşdırılırsa tərbiyəçinin işi bir o qədər səmərəli olur.*

Bu qanunauyğunluğun həyatiliyini biz Heydər Əliyev Sarayı qarşısındakı parkın yenidən qurulması nümunəsində qabarıq şəkildə görə bilirik. Həmin parkda hər şey: Heydər Əliyevə ucaldılmış heykəl də, heykəlin sağındakı və solundakı görüntülər də, oradakı fəvvarələr də, güllər və çiçəklər də, yerə döşənmiş mərmərlər də, parkın dövrəsində yerləşən binalar da güclü tərbiyə vasitələrinə çevrilir. Orada tərbiyəçinin işini çətinləşdirə biləcək heç bir mühit amili yoxdur.

Deməli, tərbiyə işi ilə məşğul olan şəxs tərbiyənin aparıldığı yerin, mühitin necəliyi ilə maraqlanmalı, həmin qanunauyğunluqlardan irəli gələn nəticələri nəzərə almalıdır.

Göründüyü kimi, tərbiyə kateqoriyasının təlim və təhsil kateqoriyaları ilə həm ortaq olan əlamətləri, həm də onlardan fərqli əlamətləri vardır. Həmin əlamətləri nəzərə alaraq tərbiyə kateqoriyasının mahiyyətinə tam aydınlıq gətirmək olar. Beləliklə, *davranışla bağlı olan milli və ümumbəşəri dəyərlərin müəyyən mühitdə adamlara məqsədyönlü, planlı və mütəşəkkil aşılanması prosesi tərbiyədir.*

**Sual olunur:** görəsən bu cür başa düşülən tərbiyə hansı məqsədə xidmət edər? Suala cavab verməzdən əvvəl mövcud pedaqoji ədəbiyyatda tərbiyənin məqsədi haqqında söylənmiş fikirlərə diqqət yetirək.

## 4. TƏRBİYƏNİN MƏQSƏDİ MƏSƏLƏSİNİN ƏDƏBİYYATDA QOYULUŞU

Bizim araşdırmalardan görünür ki, dünya miqyasında ad qazanmış görkəmli pedaqoqlar və filosoflar tərbiyənin hansı

məqsədə xidmət etməli olduğu barədə öz fikirlərini söyləmişlər. Maraqlı cəhət həm də odur ki, Milli pedaqogikanın müəyyənləşdirmiş olduğu pedaqoji cərəyanlar da tərbiyənin məqsədi məsələsinə laqeyd qalmamışdır. Yeri gəlmişkən deyək ki, həm pedaqoji cərəyan məfhumunu, həm pedaqoji cərəyanların adlarını, həm də onların miqdarını dünya ədəbiyyatında ilk dəfə biz formalaşdırmışıq. Onların hamısı öz aparıcı ideyalarına uyğun gələn tərbiyə qarşısında qoyulmalı məqsədi aydın ifadə etmişdir. Məsələn, *asketizim pedaqogikasına* görə bu dünya fanidir, müvəqqətidtr, o dünya, ruhlar dünyası isə daimidir. Həmin cərəyanın tərəfdarları tələb etmişlər ki, gəncliyi o dünyaya hazırlamaq lazımdır; uşaqlar balacalıqdan başa düşməlidirlər ki,bu dünyadan uzaqlaşmaq, əbədi olan ruhlar aləminə hazırlaşmaq gərəkdir. Bu cərəyanın ideoloqu kilsə xadimi Avqustin olmuşdur (345-430).

*Centlmen pedaqogikasının* tərəfdarları çalışmışlar ki, cəmiyyət üçün işgüzarlığı, intizamlılığı, cəsarətliliyi, təkidliliyi ilə fərqlənən gənc nəsl tərbiyə etsinlər. Cərəyanın aparıcı ideoloqu ingilis filosofu və pedaqoqu Con Lokk olmuşdur (1632-1704).

*Dözümlülük pedaqogikasına* görə uşaq «vəhşi şıltaqlıq», «qəddar inadkarlıq» kimi əlamətlərlə dünyaya gəlir; bu səbəbdən də tərbiyə uşaqda baş qaldıran «vəhşi şıltaqlıq», «qəddar inadkarlıq» kimi əlamətlərin qarşısını almağa yönəldilməlidir. Bu cərəyanın əsas yaradıcısı İohann Herbart (1776-1841) olmuşdur.

İohann Pestalotsi(1746-1827) və Yan Amos Komenski (1592-1692) bir qədər fərqli mövqe sahibi olmuşlar. Onların əqidəsincə, tərbiyənin məqsədi uşaqlarda olan təbii qüvvələri inkişaf etdirməkdən ibarət olmalıdır. Pestalotsi təbii qüvvələr deyəndə duyğu orqanlarını: eşitmə, görmə, yerimə, düşünmə və s. orqanları nəzərdə tutmuşdur. Komenski üçün təbii qüvvələr: il, ilin fəsilləri, quşların dəstə halında yaşamaları, ağac köklərinin torpağa dərin işləməsi və s. təbiət hadisələridir. Bu qüvvələr təlim-tərbiyə işinin əsasına çevrilməlidir. Bu cür fikirlər tarixdə *təbiətvarilik cərəyanı* kimi məşhurdur.

Tərbiyənin vəzifəsini uşaqların meyl və maraqlarını nəzərə alıb inkişaf etdirməkdə görən cərəyan *pedosentrizm pedaqogikası* adlanır. Cərəyanın aparıcı nümayəndəsi J.J.Russodur (1712-1778). Uşaqların yaş və fərdi xüsusiyyətlərinə ifrat dərəcədə uyan Russo onların inkişaf mərhələlərini – yaş dövrlərinə ayırmışdır: anadan olandan 2 yaşa, 2 yaşdan 12 yaşa, 12 yaşdan 15 yaşa və 15 yaşdan kamillik yaşınadək. Hər dövr qarşısında xüsusi vəzifələr qoyulur: 0-2 yaş dövründə fiziki inkişaf, 2-12 yaşında duyğuların tərbiyəsi, 12-15 yaşında ağıl tərbiyəsi və sonuncu-dördücü dövrdə əxlaq tərbiyəsi təmin edilməlidir.

*Pietizm pedaqogikası* xristian dinində insanın günahla doğulduğu fikrinə sadiq qalmışdır. Bu səbəbdən də onun tərəfdarları, başda alman Frange olmaqla, XVIII əsrdə dini tərbiyəyə, yenilməz intizama, uşağın istək və arzularını dəf etməyə üstünlük vermişlər.

Kapitalizm mühitində düzgün tərbiyə sorağında olmuş pedaqoji cərəyanlardan biri də *ləyaqət pedaqogikasıdır.* Onun aparıcı ideoloqu mürtəce alman pedaqoqu Georq Kerşenşteynerdir (1854-1932). Kerşenşteynerə görə ölkə daxilində baş qaldıran dağıdıcı qüvvələri tankla, topla, əsgər süngüsü ilə deyil, dövlətin vəzifələrini başa düşən və yerinə yetirən ləyaqətli vətəndaşlar yetişdirməklə susdurmaq olar; odur ki, tərbiyə dövlət üçün ləyaqətli vətəndaşlar hazırlamaqla məşğul olmalıdır.

Təlim-tərbiyə işində yenilik axtaran cərəyanlardan biri də *hərəkət pedaqogikasıdır.* Cərəyanın bünövrəsini qoyanlardan ən məşhuru alman pedaqoqu Vilhelm Lay olmuşdur (1862-1926). O, uşaqlarda iş görmək üçün hərəkət tələb edən bacarıqların inkişaf etdirilməsini, «Alman ruhunun» qorunmasını, dinin təbliğini və tərbiyəsini vacib saymışdır.

Başqa bir alman pedaqoqu (Hüqo Qaudiq 1860-1923) fərqli pedaqoji cərəyanın – şəxsiyyət pedaqogikasının əsasını qoymuşdur. Onun fikrinə görə, insan fərdi keyfiyyətlərlə dünyaya gəlir və ətraf mühitlə qarşılıqlı təmasda şəxsiyyəti formalaşır.

*Monarxist-saray pedaqoji cərəyanının* yaradıcısı olan Sergey Uvarov Rusiyada monarxiyanın, pravoslav kilsəsinin və xəlqiliyin (təhkimçiliyin) qorunub saxlanmasını tərbiyə işinin məqsədinə çevirməyə çalışmışdır.

Asketizmin və dini sxolastikanın Avropada tüğyan etdiyi bir dövrdə mövhumata və xurafata qarşı çıxaraq insanı ən ali varlıq hesab edən, uşaq şəxsiyyətinə hörməti ön plana çəkən, hər kəsin hərtərəfli inkişafına zəruri şərait yaradılmasını tələb edən Fransua Rable (1494-1553) və Mişel Monten (1533-1592) humanizmi tərbiyənin əsas məqsədi elan etmişlər. Bununla da onlar *humanizm pedaqogikasının* banilərinə çevrilmişlər.

Xeyli keçəndən sonra Fransu Rablenin və Mişel Montenin ideyalarını Almaniyada bir qədər də təkmilləşdirən Vilhelm Humbolt (1767-1835) və Fridrix Volf (1759-1824) pedaqogikada yeni cərəyanın - *neohumanizmin* meydana gəlməsinə səbəb olmuşlar. Neohumanistlər məktəbi kilsədən, dini məktəb təlimindən ayırmağa, gənc nəslə təbiət və cəmiyyət haqqında real, elmi biliklərin aşılanmasına çalışmışlar və bir çox halda buna nail olmuşlar.

Mütərəqqi pedaqoji cərəyanlar olan humanizm pedaqogikası, neohumanizm pedaqogikası kimi cərəyanların əleyhinə çıxan və köhnəlikdən bərk-bərk yapışan cərəyanlar az olmamışdır. Belələrindən biri *neotomizm pedaqogikasıdır.* Neo - yeni deməkdir; tomizm isə Foma Akvinskinin mürtəce, sxolastik nəzəriyyəsini nəzərdə tutur.

Neotomizm cərəyanının yaradıcısı fransız Jak Maritendir (1882-1948). Bu cərəyana görə, tərbiyənin məqsədi Allaha qovuşmaqdan ibarət olmalıdır. Belə bir məqsədə çatmaqdan ötrü din elmdən üstün tutulmalı, bütün məktəblər katolik məktəblərə çevrilməli, dövlət məktəblərində dini tərbiyə bərpa edilməlidir.

Neotomizm pedaqogikasını qəbul etməyən, alman filosofu və pedaqoqu, tarixdə böyük iz qoymuş, İmmanuil Kantın fikirlərinə söykənən *neokantizm cərəyanı* meydana gəlmişdir. Bu cərəyanın aparıcı nümayəndəsi isə Paul Natorp olmuşdur (1854-1924). Neokantizm cərəyanının

tərəfdarlarına görə tərbiyənin əsas məqsədi adamın daim ali vəzifəyə və əxlaqi kamilliyə can atmasına köməklik etməkdən ibarət olmalıdır. Onlar həmin məqsədə çatmağın yollarını da göstərmişlər: uşağı anadan olan gündən tərbiyə etmək; maddi həvəsləndirməni mənəvi həvəsləndirmə ilə, fiziki cəzanı mənəvi cəza ilə əvəz etmək; dövlət məktəbləri ilə yanaşı xüsusi məktəblərin açılmasını və tərbiyəni cəmiyyətin inkişafını təmin edən amilə çevirmək.

ABŞ pedaqoji fikrinin görkəmli nümayəndələrindən olan Con Dyui (1859-1952) *praqmatizm pedaqogikasının* əsasını qoymuşdur. Praqmatizm pedaqogikasına görə tərbiyə işinin məqsədi gəncləri həyata - kapitalizm həyat tərzinə uyğunlaşdırmaqdan, ona hazırlamaqdan ibarət olmalıdır. Con Dyui həmin məqsədə çatmağın yollarını da göstərmişdir. Onun fikrincə, uşaqlara, yeniyetmə və gənclərə elə biliklər verilməli, elə bacarıq və vərdişlər aşılanmalıdır ki, onların həyatda tətbiqi mümkün olsun. Hətta o, öz təklifinin əsaslarını da açmışdır; Dyui deyirdi: adam o şeyi yaxşı bilir ki, onu özü düzəldir. Bu səbəbdən də o, təlim-tərbiyə işini uşaqların şəxsi təcrübəsi əsasında qurmağa çalışırdı; nəzəri biliklərin öyrədilməsinə əhəmiyyət vermirdi.

Pedaqogikada *ekzistensializm cərəyanı* da mövcud olmuşdur. Cərəyanın tərəfdarları tərbiyə qarşısında tamam başqa məqsəd qoymuşlar. Onların əqidəsinə görə ailə tərbiyəsi də, məktəb tərbiyəsi də çalışmalıdır ki, ağıl və əxlaq cəhətdən kamil olmadıqlarını uşaqlara başa salsınlar; uşaqlar anlasınlar ki, hər kəs özü haqqında düşünsün, özünə gün ağlasın, öz xarakterini formalaşdırsın, özünün kim olduğunu dərk etsin.

Ekzistensializm pedaqoqikası tərəfdarlarının fikrincə, özünütərbiyə ailə tərbiyəsindən də, məktəb tərbiyəsindən də faydalıdır; tərbiyənin planlılığına və ya mütəşəkkilliyinə ehtiyac yoxdur.

A.Fallinqton ABŞ-da, J.Sartr Fransada, E.Qrizebax Almaniyada bu cərəyanın aparıcı nümayəndələridir.

*Utopik sosializm pedaqogikasının* nümayəndələri arzu etmişlər ki, bütün təlim-tərbiyə işi uşaqlarda şəxsiyyətin

hərtərəfli inkişafına yönəldilsin. Onların bu istəkləri arzuladıqları dövlətdə reallaşır. Çünki həmin xəyali dövlətdə xüsusi mülkiyyət yoxdur, ictimai mülkiyyət mövcuddur, dövlət hesabına ümumi icbari təhsil həyata keçirilir, oğlanlar və qızlar birlikdə təhsil alırlar, təhsil məhsuldar əməklə birləşdirilir.

Bu cərəyanın ən görkəmli nümayəndələri Tomas Mor (1478-1535), Tomazo Kampanella (1568-1639), Robert Ouen (1771-1858) və başqalarıdır. Tomas Mor öz ideyalarını «Utopiya» adlı əsərdə, Tomazo Kampanella isə «Günəş şəhəri» adlı əsərdə şərh etmişdir. Robert Ouen isə həmin ideyaları əməli olaraq həyata keçirməyə cəhd etmişdir. Lakin kapitalizm mühitində onun cəhdi boşa çıxmışdır.

*Marksizm pedaqogikası* utopik sosialistlərin ideyalarından qidalanmışdır. Bu pedaqoji cərəyan da şəxsiyyətin hərtərəfli inkişafını tərbiyənin son məqsədi hesab etmişdir. Lakin utopik sosialistlərdən fərqli olaraq marksistlər nəzəri cəhətdən sübut etməyə çalışmışlar ki, həmin məqsədi kapitalizm şəraitində reallaşdırmaq mümkün deyil, bundan ötrü kapitalizmi inqilabi yolla ortadan götürmək zəruridir. Odur ki, gənc nəsli də xalqla birlikdə inqilaba hazırlamaq lazımdır. Marksizm pedaqogikasının baniləri Karl Marks və Fridrix Engelsdir.

*Sovet pedaqogikasının* rişələri də müəyyən dərəcədə marksizm pedaqogikasına gedib çıxır. Sovet pedaqogikasında tərbiyə kommunist tərbiyəsi adlanmışdır. Onun məqsədi açıq-aydın belə ifadə olunmuşdur: fəal kommunizm qurucuları yetişdirmək. Gənc nəslin təlim və tərbiyəsi Sov.İKP proqramının tələblərinə uyğun gələn biliklərlə, bacarıq və vərdişlərlə zənginləşdirilirdi.

Göründüyü kimi, başqa-başqa vaxtlarda müxtəlif ölkələrdə yaşayıb yaratmış olan alimlər: pedaqoqlar, filosoflar, psixoloqlar gənc nəslin tərbiyəsi qarşısında qoyulmalı məqsəd məsələsinə laqeyd qalmamışlar, öz fikirlərini bildirmişlər. Fikirlər isə olduqca müxtəlifdir.

**Sual olunur:** Tərbiyənin məqsədi barədə fikirlərin müxtəlifliyini nə ilə izah etmək olar? Düşünürük ki, səbəb də

müxtəlif ola bilər. Görünür, dövr dəyişdikcə tərbiyə qarşısında qoyulan məqsəd də dəyişir. İstinad etdiyimiz pedaqoji cərəyanların təhlili göstərir ki, orta əsrlərdə dinin tüğyan etdiyi bir dövrdə adamların cəhalətdə saxlanması, real elmi biliklərin məktəbə gətirilməməsi hakim dairələrin xeyrinə olmuşdur. Bu səbəbdən də həmin dövr üçün asketizm pedaqogikası, tomizm pedaqogikası, neotomizm pedaqogikası hakim mövqedə olmuşdur. Amma eyni zamanda geniş xalq kütləsinin mənafeinə uyğun gələn cərəyanlar-humanizm pedaqogikası, neohumanizm pedaqogikası, utopik sosializm pedaqogikası da baş qaldırmışdır.

Cəmiyyətdə baş verən təbəqələşmə də tərbiyənin məqsədini müəyyənləşdirməyə təsir göstərir. Məsələn, Rusiyada monarxist-saray pedaqogikası tərbiyə işində çarizm üsul idarəsinin mənafeinə xidmət edirdisə, K.D.Uşinskinin yaratdığı xəlqilik pedaqogikası rus xalqının mənafeinə üstünlük verirdi. Hətta eyni ölkədə eyni dövrdə fəaliyyət göstərən və başqa-başqa sosial qrupları təmsil edən siyasi partiyalar öz təsir dairələrində həyata keçirdikləri tərbiyəvi tədbirlərdə fərqli məqsədlərə can atırlar.

**Soruşulur:** Dövlət müstəqilliyinə yenicə qədəm qoymuş Azərbaycan Respublikasında aparılan tərbiyə işi hansı məqsədə xidmət etməlidir? Elə bir inandırıcı, real, qlobal məqsəd müəyyən etmək olarmı? Olar. Azərbaycan Respublikasının bütün ailələrində, bütün məktəblərində, bütün idarə və müəssisələrində aparılan təlim-tərbiyə işini həmin məqsədə istiqamətləndirmək mümkündür. Belə bir məqsədin işlənib hazırlanmasına respublikamızda müəyyən təşəbbüs də göstərilmişdir. Məsələn, 2000-ci ildə «Renessans» nəşriyyatının çap etdiyi «Pedaqogika» adlı dərs vəsaitinin 78-ci səhifəsində tərbiyənin məqsədi belə ifadə edilmişdir: «Öz soykökünə bağlı, cəmiyyətə yararlı, vətəni sevən, onun talehi üçün narahat olan, müdafiəsində duran, ölkəmizi dünyanın inkişaf etmiş və sivil dövlətlər səviyyəsinə çatmaqda maraqlı olan və bu yolda mübarizə aparan, nümunəvi davranışlı, ən nəcib sifətləri özündə birləşdirən, demokratik dünyagörüşlü, hümanist, elmi biliklərə yiyələnmiş gənc nəsil yetişdirmək».

Bu anlam ölkəmizdə tərbiyə işinin məqsədini müəyyənləşdirmək sahəsində göstərilən ilk müstəqil təşəbbüslərdən biri kimi qiymətləndirilə bilər. Lakin onu tam məqbul saymaq çətindir. Çünki, əvvəla, tərbiyənin məqsədi üçün sadalanan mənəvi keyfiyyətlərdən əlavə bəzi digər mənəvi dəyərləri də xatırlatmaq mümkündür; İkincisi, həmin anlamda bəzi mənəvi keyfiyyətlərin təkrarına yol verilmişdir. Hər hansı məfhumun mahiyyətinin açılması isə səciyyəvi əlamətlərin maksimum ümumləşdirilməsini tələb edir.

2002-ci ildə «Çaşıoğlu» nəşriyyatı tərəfindən buraxılmış «Pedaqogika. Yeni kurs» adlı kitabda da tərbiyənin məqsədi məsələsinə toxunulmuşdur. Lakin kitabın müəllifləri sovet dövründə dəbdə olmuş «şəxsiyyətin imkanlarının hərtərəfli, ahəngdar inkişafını» tərbiyənin məqsədi kimi qəbul etməyi məsləhət görmüşlər (səh.317). Məlum olduğu kimi,həm ilkin utopik sosialistlər üçün, həm də son utopik sosialistlər üçün həmin fikir xəyal olaraq qalmışdır. Sonralar sovet dövrünün ideoloqları şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına kommunizm donu geydirsələr də, bütün dövlət maşınını bu istiqamətə yönəldərək onu ətəqana doldurmağa çalışsalar da tarixin sonrakı gedişində duruş gətirə bilmədi: həmin ideya real olmadığı üçün tarixin arxivinə atıldı.

Bakı Dövlət Universitetinin nəşriyyatı tərəfindən 2003-cü ildə çap olunmuş «Pedaqogika»da sözgəlişi yazılır ki, tərbiyə nəzəriyyəsində «Əsas məsələ» geniş dünyagörüşlü və humanist ruhlu insanlar yetişdirməkdir (səh. 329). Müəlliflərin əsas məsələ kimi nəzərdə tutduqları tərbiyənin məqsədi məsələsi alqışlanmalıdır. Lakin tərbiyənin məqsədinin nədən ibarət olduğuna dair müəlliflərin fikri ilə razılaşmaq heç cür mümkün deyil. Ona görə ki, əvvəla, real həyatda həqiqi dünyagörüşü nə geniş olur, nə məhdud; dünyagörüşü ya elmi olur, ya dini olur, yaxud idealist olur. İkincisi, şəxsən mən özüm Ermənistanda və bizim torpaqlarımızda azərbaycanlıların başlarına müsibətlər gətirmiş erməni cəlladlarına qarşı humanist olmamışam, humaist deyiləm, budan sonra da humanist ola bilmərəm.

Burada qeyd etmək yerinə düşərdi ki, tarixdə humanizm tərbiyəsinə aludəçiliyə uymaq, hətta humanizmi tərbiyənin məqsədinə çevirmək halları olmuşdur. Məsələn, Fransua Rable (1494-1553) və Mişel Monten (1533-1592) humanizmi tərbiyənin əsas məqsədi elan etmişlər. Bununla da onlar xüsusi pedaqoji cərəyanın – humanizm pedaqogikasının banilərinə çevrilmişlər. Hətta müasir dövrümüzdə tərbiyənin məqsədini müəyyənləşdirərkən ötəri ideyalar deyil, dəyişməyən ideyalar sorağında olan alimlər də meydana çıxmışdır. Onlar humanizmi belə ideyalara aid etmişlər, düşünmüşlər ki, tərbiyə insanlarda humanizm ideyaları formalaşdırmalıdır.

İlk baxışda bu fikir olduqca cazibədar görünür. Doğrudan da dünyanın böyük adamları humanizm ideyalarının təbliği ilə məşğul olmuşlar. Lakin, təəssüf ki, humanizm ideyaları özünü heç də həmişə hər yerdə doğrultmamış və indi də doğrultmur. Xüsusən insanlar arasında təbəqələşmənin, qruplaşmanın gücləndiyi, maddi nemətlərin siniflər arasında qeyri bərabər bölündüyü bir cəmiyyətdə, bir dövlət digər dövlətin təcavüzünə məruz qaldığı bir şəraitdə humanizm ideyaları özünü o qədər də doğrultmur. Deməli, ilk baxışda cazibədar görünən hər hansı ümumbəşəri dəyər, o cümlədən humanizm bütün ölkələrdə bütün xalqlardan, bütün siniflər və təbəqələrdən ötrü yararlı hesab edilə bilməz. Başqa sözlə, Azərbaycanda humanizmi indiki durumda tərbiyənin məqsədi kimi qəbul etmək böyük səhv olardı.

Qayıdaq yenə öz respublikamıza və görək 1992-ci ildə qəbul olumuş Təhsil Qanununda problem necə qoyulmuşdur? Bəri başdan etiraf etməliyik ki, bu sənətdə də təlim-tərbiyənin məqsədi məsələsinə elmi cəhətdən əsaslandırılmış aydınlıq gətirilməmişdir. Orada təhsilin vəzifələri uzun-uzadı sadalansa da, onun qlobal, strateji məqsədi qeyri-müəyyən olaraq qalmışdır.

Azərbaycan Respublikasının 15 ili ərzində davam edən bu qeyri-müəyyənlik aradan qaldırılmalıdır; ölkəmizdə təlim-tərbiyə üzrə işlək, real, ali, strateji məqsəd işlənib

hazırlanmalıdır. Bu vəzifənin yerinə yetirilməsində Milli pedaqogika təşəbbüs göstərmək əzmindədir.

## 5. MİLLİ PEDAQOGİKA TƏLİM-TƏRBİYƏNİN STRATEJİ MƏQSƏDİNİ NƏDƏ GÖRÜR?

Suala cavab verməzdən əvvəl belə bir məsələyə aydınlıq gətirilməlidir: Azərbaycan Respublikasında hamı tərəfindən qəbul edilməli olan tərbiyə məqsədi hansı tələblərə cavab verməlidir?

Əvvəla, belə məqsəd ölkəmizdə bütün sosial qruplar tərəfindən məqbul sayılmalı, qəbul edilməli, tərbiyə işində nəzərə alınmalıdır; ondan imtina etmək üçün heç bir qüsuru olmamalıdır.

İkincisi, belə bir məqsəd Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarına tam uyğun olmalıdır, onunla heç bir cəhətdən ziddiyyət təşkil etməməlidir.

Üçüncüsü, məqsəd mümkün qədər aydın ifadə olunmalıdır; birmənalı başa düşülməlidir, çoxmənalılığa yer qalmamalıdır.

Dördüncüsü, nəzərdə tutulan məqsəd elə formalaşdırılmalıdır ki, respublikamızın hazırkı durumu tam, dolğun nəzərə alınsın; nəzərə alınsın ki, qismən sərhədlərimiz və ərazi bütövlüyümüz pozulub, ərazimizin iyirmi faizi düşmən tapdağı altındadır, bir milyon qaçqınımız var. Bu problem məsələlər xalqımızın qarşısında duran və həllini gözləyən problemlərdir.

Beşincisi, tərbiyənin məqsədi nəinki mövcud durumu, nəinki yaxın gələcəyi, hətta xalqın uzaq gələcəyini də özündə ehtiva etməlidir.

Altıncısı, tərbiyənin məqsədi elə formalaşdırılmalıdır ki, onu həyata keçirməyin necəliyi də, yolları da aydın sezilsin. Çünki məqsədi reallaşdırmağın yolları tərbiyəçilər üçün qeyri-müəyyən olduqda məqsəd çox halda məqsəd olaraq göydən asılı vəziyyətdə qalar.

Yeddincisi, nəzərdə tutulan tərbiyə məqsədi elə ifadə edilməlidir ki, millətimizi səfərbər etməyə, bir yumruq kimi

birləşdirməyə imkan versin, qruplara parçalanmasının qarşısını alsın.

Səkkizincisi, tərbiyəçi üçün aydın olmalıdır ki, nəzərdə tutulan məqsədə doğru irəliləyən şəxs hansı real, elmi biliklər və mənəvi keyfiyyətlər mənimsəməlidir. Bu bilik və mənəvi keyfiyyətlər milli, yoxsa ümumbəşəri və ya həm milli, həm də ümumbəşəri səciyyəli olmalıdır?

Doqquzuncusu, məqsəd elə formalaşdırılmalıdır ki, həmin məqsəddən qidalanan şəxs lazım gəldikdə söz meydanına, lazım gəldikdə isə əlində silah döyüş meydanına atılmağa hazır olsun.

Nəhayət, sonuncusu, söhbət tərbiyənin məqsədindən getdiyindən və tərbiyədə insanların davranışı önəmli olduğundan, tərbiyənin məqsədi məfhumunun mahiyyəti açılarkən onun davarınşla bağlılığı nəzərə alınmalıdır. Çünki, bəzən deyilən söz, verilən vədlər atılan addımlarla üst-üstə düşmür; sözdə bir, əməldə başqa olur. Odur ki, müdriklərimiz də dönə-dönə tövsiyyə ediblər ki, adamların ən çox dediklərinə yox, necə hərəkət etdiklərinə diqqət yetirmək lazımdır.

Sadalanan tələbləri nəzərə alan Milli pedaqogika uzun müddət araşdırmalardan sonra belə qərara gəlib ki, arzu olunan məqsədi formalaşdırmaq mümkündür. Belə: *Davranışla əlaqədar olan milli və ümumbəşəri dəyərlərə gənc nəsli məqsədyönlü, planlı və mütəşəkkil yiyələndirmək yolu ilə respublikamızın dövlət müstəqilliyini, sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirmək tərbiyənin məqsədidir.*

Bu anlamdan göründüyü kimi, ölkəmizdə tərbiyənin məqsədi Azərbaycan Respublikasına hərtərəfli xidmət göstərməli olan vətəndaşlar yetişdirməkdən ibarətdir. Yetişdirilən, boya-başa çatdırılan vətəndaşın yerinə yetirməli olduğu vəzifələr həmin anlamda ifadə olunmuşdur: Ölkəmizdə tərbiyə işi ilə əhatə edilən hər bir vətəndaş respublikamızda dövlət müstəqilliyimizi, sərhədlərimizin toxunulmazlığını, ərazimizin bütövlüyünü qorumağa qadir olmalıdır; bununla yanaşı, hər bir vətəndaş ölkəmizi dünyada inkişaf etmiş

demokratik dövlətlər səviyyəsinə qaldırmaqda əzmkarlıq göstərməlidir.

Xalqımızın keçmiş tarixi və indiki durumu tələb edir ki, tək-tək azərbaycanlılar yox, müstəsnasız olaraq bütün azərbaycanlılar həmin vəzifələrin zəruriliyini dərk etsin və bu vəzifələri canla-başla yerinə yetirsin. Nəzərə alınmalıdır ki, bu vəzifələr hətta yaxın gələcəkdə də, uzaq gələcəkdə də aktual olaraq qalacaq.

Bunu bizim keçmişimiz də, müasir vəziyyətimiz də, gələcək inkişaf xüsusiyyətrimiz də diqtə edir.

**Soruşmaq yerinə düşərdi:** səciyyələndirilən məqsədə doğru irəliləyən şəxslər hansı keyfiyyətlərlə silahlanmalıdırlar ki, tələb olunan vəzifələrin öhdəsindən gələ bilsinlər? Yuxarıda ifadə etdiyimiz məqsəddə bu sualın cavabı da nəzərdə tutulmuşdur: davranışa qida verən *milli və ümumbəşəri dəyərlər!*

Əvvəla, həm milli, həm də ümumbəşəri dəyərlərin əsasları Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın ikinci bölməsinin 3-cü fəslində əsas insan və vətəndaş hüquqları incəliklərinədək aydın ifadə edilmişdir. hər bir vətəndaş Konstitusiyada təsbit edilmiş həmin hüquqlar və azadlıqları dərindən bilməlidir. Yaxud, Konstitusiyanın 4-cü fəslində qeyd edilən vətənə sədaqətin müqəddəsliyi, vətəni müdafiənin hər bir vətəndaşın borcu olması, Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hər bir vətəndaşın hörmət etməli olduğu sırf milli dəyərlərdir. Vətənimizin yeraltı və yerüstü sərvətləri olan başı qarlı dağlar, çeşidli ağacları olan meşələr, allı-güllü çəmənliklər, barlı-bağatlı bağlar, zəngin mədənlər, gözəl şəhərlər, hər eldə-obada yerləşən tarix və mədəniyyət abidələri, dünyada dillər əzbəri olan nəğmələr, ürəkləri riqqətə gətirən musiqi, zövqləri oxşayan təsviri sənət inciləri, doğma ana dili və s. və i.a. haqqında biliklər milli dəyərlərimizdir. Bu cür milli dəyərlərlə silahlanan şəxslər vətəndaşlıq zirvəsinə aparan vasitələrdəndir.

Vətəndaş tərbiyəsində milli dəyərlərin mənimsənilməsi indiki dövrdə zəruri olsa da, kifayət deyil. Tərbiyənin

məqsədinə dair Milli pedaqogikanın təklif etdiyi anlama görə, vətəndaş tərbiyəsində gənclik milli dəyərlərlə yanaşı ümumbəşəri dəyərlərlə də tanış olmalı, onları da mənimsəməlidir.

Milli dəyərlər Azərbaycan Respublikası ilə, onun dövləti və xalqı ilə bağlıdırsa, ümumbəşəri dəyərlər həm Azərbaycan xalqına, həm də dünyanın bütün digər xalqlarına aid olur. Məsələn, yaşamaq hüququ, azadlıq hüququ, təhlükəsiz yaşamaq hüququ, nigah hüququ, əmək hüququ, istirahət hüququ, təhsil almaq hüququ, vətəndaşlıq hüququ, seçki hüququ, azad sahibkarlıq hüququ, fikir və söz azadlığı, vicdan azadlığı və s. ümumbəşəri dəyərlərə misal ola bilər.

Milli pedaqogika anlamında tərbiyə məqsədinə aparan yolun necəliyi, onun mexanizmi də nəzərə alınmışdır. həmin anlamdan göründüyü kimi, milli və ümumbəşəri dəyərlər gənc nəslə necə gəldi mənimsədilmir; mənimsədilmə prosesi əvvəlcədən ətraflı ölçülüb biçilir: *məqsədyönlü, planlı və mütəşəkkil olur.*

Məlumdur ki, tərbiyəçi həyata keçirdiyi tədbir zamanı hansısa vəzifəni yerinə yetirir; məsələn, validleyn uşağı bir halda səliqəliyə, digər halda səmimiliyə alışdırır və s. Yaxud, müəllim təlim zamanı şagirdə bir halda dərsə hazır gəlməyin, digər halda diqqətli olmağın və s.-in zəruriliyini başa salır. Ailədə və ya tədris müəssisəsində bu cür xeyli yaxın, gündəlik, cari vəzifələr icra olunur. Adətən, çox halda belə vəzifələr kiçik vəzifələr olaraq qalır, bir-biri ilə əlaqələndirilmir, pərakəndə halda həyata keçirilir, hansısa uzaq, strateji məqsəd yolunda atılan addımlar kimi qiymətləndirilmir. Halbuki, gündəlik yaxın, kiçik vəzifələrə strateji məqsəd baxımından yanaşıldıqda, bunu tərbiyəçi (müəllim və ya valideyn) də, müəyyən vaxt tərbiyə olunanlar da bildikdə tərbiyə işinin səviyyəsi xeyli yüksəlir. Bu vəziyyəti biz gündəlik tərbiyə işimizdə dönə-dönə müşahidə edirik. Hər hansı bir sahənin gözəl mütəxəssisi olmağı arzulayan şagird (tələbə) kiçicik xətaya yol verdikdə valideynindən və ya müəllimindən eşidir: yaxşı həkim, hüquqşünas, mühəndis, müəllim olmaq üçün filan fənləri

dərindən öyrənməlisən. Çox nadir halda isə müəllim və ya valideyn uşağa, hər şeydən əvvəl, gözəl vətəndaş olmağı xatırladır: ölkə üçün əsil vətəndaş kimi böyüyən şəxs, istər istəməz, gözəl mütəxəssis kimi yetişər.

Şərhdən göründüyü kimi, tərbiyənin məqsədinə gedən yol bu və ya digər səviyyədə planlaşdırılır.

***Tərbiyə məqsədinin planlı şəkildə həyata keçirilməsi.*** Tərbiyə qarşısında qoyulan vəzifə, necəliyindən asılı olmayaraq, tərbiyəçi (valideyn və ya müəllim) tərəfindən planlaşdırılır. Konkret vəzifənin xarakterindən asılı olaraq tərbiyə işi yazılı formada və ya şifahi formada planlaşdırıla bilir. Tərbiyəvi tədbir ötəri xarakter daşıdıqda və bir nəfərlə məhdudlaşdıqda, adətən, fikrən, şifahi, uzunmüddətli olduqda və kütləvi səciyyə daşıdıqda yazılı formada planlaşdırılır. Tərbiyəvi tədbirin fərdi və ya kütləvi səciyyə daşıdığından asılı olmayaraq, onun nə vaxt və necə başlayacağı, hansı mərhələlərdən keçəcəyi, nə ilə nəticələnəcəyi qeydə alınır. Bu, həm də o deməkdir ki, tərbiyə məqsədinin həyata keçirilməsində mütəşəkkillik təmin edilir.

***Tərbiyə məqsədinin həyata keçirilməsində mütəşəkkillik.*** Tərbiyə məqsədinin reallaşdırılması müddətindən və formasından asılı olmayaraq, proses daim mütəşəkkilliyi ilə səciyyələnir. Mütəşəkkilliyin əsas göstəriciləri: qarşıdakı tərbiyəvi tədbirdən tərbiyəçinin məlumatı olduğu kimi, müəyyən dərəcədə tərbiyə olunanların da məlumatlandırılması; tərbiyəvi tədbirdə iştirak edən tərəflərin necə iştirak edəcəyində aydınlıq; tərbiyə zamanı həyata keçiriləcək yaxın vəzifənin, hətta bu vəzifənin xidmət etdiyi strateji məqsədin tərbiyə olunanlar üçün (lazım olarsa) açıqlanması; tərbiyəçi ilə tərbiyə olunanlar arasında qarşılıqlı anlaşmanın təmin edilməsi.

Real tərbiyə hadisələrinə diqqətlə nəzər saldıqda, istər-istəməz, adamda belə bir təəssürat yaranır ki, tərbiyə işində müəyyən mərhələlər olur. Bəs mövcud pedaqoji ədəbiyyatda həmin təəssüratlara toxunulubmu? Bu suala cavab tapmaq üçün imkanımız daxilində ədəbiyyatı nəzərdən keçirdik. Nəticə olaraq bizim gəldiyimiz qənaət bu oldu ki, bizi

maraqlandıran məsələ barədə mövcud pedaqoji ədəbiyyat susur. Misal: tərbiyə məsələlərini daha müfəssəl əhatə edən «Pedaqogika şkolı» adlı dərs vəsaitini nəzərdən keçirdik; on doqquz fəsildən ibarət olan həmin vəsaitin on iki fəsli sırf tərbiyə məsələlərinə həsr edilmişdir. Lakin, təəssüf, orada nəinki tərbiyənin mərhələləri məfhumuna, heç tərbiyədə mərhələlik əlamətləri məfhumuna rast gəlmədik. Yaxud, həm rus, həm də Azərbaycan dilində çap olunmuş ensiklopediyaları araşdırdıq. Yenə eyni vəziyyətin şahidi olduq: tərbiyənin mərhələliyi məsələsinə toxunulmur.

Pedaqoji ədəbiyyatın araşdırılmasından belə bir təəssürat yaranır ki, tərbiyə işində mərhələlik əlamətləri yoxdur. Halbuki, tərbiyə sahəsində iş təcrübəsini bir qədər diqqətlə izlədikdə məlum olur ki, tərbiyədə mərhələlik əlamətlərini görmək o qədər də çətin deyil.

## 6. TƏRBİYƏ TƏCRÜBƏSİNDƏ MƏRHƏLƏLİYİN GÖRÜNTÜLƏRİ

Soruşmaq yerinə düşərdi: tərbiyənin mərhələlik görüntülərini hansı istiqamətlərdə müşahidə etmək mümkündür? Aşağıdakı istiqamətlərdə:yaş xüsusiyyətlərinin nəzərə alınmasında; tərbiyənin növlərində; ilkin tərbiyədə; yenidən tərbiyədə; özünü tərbiyədə; şəxsiyyətin formalaşmasına kompleks yanaşılmasında; tərbiyəlilik səviyyəsinin nəzərə alınmasında; tərbiyə vəzifələrinin yerinə yetirilməsində və s. istiqamətlərdə.

***Yaş xüsusiyyətlərinin nəzərə alınmasında mərhələlik əlamətləri.*** Tarixdə də, müasir dövrdə də tərbiyə məsələləri ilə məşğul olan mütəxəssislərin əksəriyyəti belə bir fikirdə yekdildirlərki, gənc nəslin tərbiyəsində yaş xüsusiyyətləri nəzərə alınmalıdır.Onlar haqlı olaraq qeyd edirlər ki, hər bir uşaq anadan olandan sonra müxtəlif yaş dövrlərindən keçir; hər yaş dövrü müxtəlif fiziki, fizioloji, psixoloji və mənəvi keyfiyyətlərə malik olur.Tərbiyə işini təşkil edərkən yaş dövrünü səciyyələndirən həmin xüsusiyyətlər tərbiyəçi tərəfindən nəzərə alınmalıdır: işin forması da, tətbiq edilməli

üsullar da tərbiyə edilən uşaqların yaşına uyğun gəlməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, uşaqların inkişafını 2 yaşadək, 2-dən 12 yaşadək, 12-dən15 yaşadək, 12 yaşdan kamillik yaşınadək olan dövrlərə bölən Russo hər dövrün qarşısında xüsusi tərbiyə vəzifəsi qoymuş və müvafiq iş formaları təklif etmişdir. Bu cür faktlar açıq- aşkar göstərir ki, tərbiyə işinin yaş dövrlərinə uyğun qurulması tərbiyədə mərhələliyin olduğunu göstərir: uşağın 2 yaşadək fiziki inkişafı ilə, 12 yaşadək duyğuların inkişafı ilə, 15 yaşadək ağıl tərbiyəsi ilə, 15 yaşdan sonra əxlaqi keyfiyyətlərin formalaşdırılması ilə məşğul olmaq.

Yaş dövrlərinin və hər dövr üçün tərbiyə vəzifələrinin nə dərəcədə düzgün olub-olmadığına burada toxunmuruq. Başlıcası budur ki, Russonun ideyalarının əsasını tərbiyə işinin mərhələlərlə aparılması təşkil edir.

***Tərbiyənin növlərində mərhələliyin əlamətləri.*** Məlum olduğu kimi, pedaqoji ədəbiyyatda tərbiyyənin növləri belə adlandırılır: tərbiyə, yenidəntərbiyə və özünütərbiyə. Bu bölgüdə iki cəhətdən məntiqsizlik əlamətləri sezilməkdədir. Məntiqsizlik nədədir? Bölgüdən görmək çətin deyil ki, ifadədə, əvvəla, tərbiyə məfhumu təkrar olunduğundan tərbiyənin növü kimi təqdim edilir; ikincisi, bu halda yenidəntərbiyə və özünütərbiyə məfhumları tərbiyə kateqoriyasının dairəsindən, süni olaraq, hiss edilmədən, kənarlaşdırılır. Odur ki, tərbiyənin növlərinə dair mövcud ədəbiyyatda kök salmış həmin anlayışdakı göstərdiyimiz məntiqsizliklər aradan qaldırılmalıdır. Necə? Milli pedaqogikada olduğu kimi! *«Milli pedaqogika çətinlik dərəcəsinə görə tərbiyəni üç növə ayırır: ilkin tərbiyə, yenidəntərbiyə və özünütərbiyə»* (Bax: Məktəb pedaqogikası, Bakı, «Çaşıoğlu», 2005, səh.267).

Bu bölgüdə pedaqoji elmə üç yeni məfhum gətirilmişdir: bölgünün əsası (tərbiyənin çətinlik dərəcəsi), ilkin tərbiyə və tərbiyənin növləri məfhumları.

İlkin tərbiyə məfhumu Milli pedaqogikada belə əsaslandırılır: *«Uşağın, yeniyetmə və ya gəncin şəxsiyyətində baş qaldıran mənəvi keyfiyyətlər valideynlər, müəllimlər və digər tərbiyəçilər tərəfindən ailə və cəmiyyət üçün faydalı hesab*

*olunduqca ilkin tərbiyə davam edir. Formalaşan hər hansı faydalı mənəvi keyfiyyətin istiqaməti dəyişdikdə, ailə, məktəb və cəmiyyət üçün zərərli hesab edildikdə valideyn, myəllim və ya digər tərbiyəçi narahat olmağa, başqa tədbir görməyə məcbur olur: ilkin tərbiyə bitir, yenidəntərbiyəyə keçilir»* (Bax: yenə orada, səh.267).

Nəhayət, ilkin tərbiyə məfhumunun mahiyyəti Milli pedaqogikada belə dəyərləndirilir: « Davranışla əlaqədar olan, ailə və cəmiyyət üçün faydalı hesab edilən milli və ümumbəşəri mənəvi keyfiyyətlərin gənc nəsldə məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılması ilkin tərbiyədir» («Məktəb pedaqogikası». Bakı, «Çaşıoğlu» nəşriyyatı, 2005, səh.268).

***Ayrı-ayrı mənəvi keyfiyyətlərin ilkin tərbiyə zamanı aşılanmasında mərhələlik əlamətləri.*** Uzun müddət apardığımız müşahidələr və topladığımız faktik materiallar əsasında müəyyənləşdirə bilmişik ki, ilkin tərbiyəinin özü müəyyən mərhələlərdən keçir. Əmək tərbiyəsinə, əxlaq tərbiyəsinə və tərbiyənin digər sahələrinə aid faktların müqayisəli təhlilindən və ümumiləşdirilməsindən sonra belə bir nəticəyə gəlmək mümkün olmuşdur ki, hər hansı mənəvi keyfiyyətin şəxsə aşılanması azı beş mərhələdən keçir. Tərbiyəçi (müəllim, valideyn) ilk mərhələdə şagirdə (tələbəyə, övlada) aşılamaq istədiyi mənəvi keyfiyyətin (halallığın, səliqəliyin, əməksevərliyin və s.-in) tərbiyə olunan şəxsdə səviyyəsini öyrənir. Tərbiyə bu zəmində aparılır. İkinci mərhələdə tərbiyəçinin başlıca qayğısı nəzərdə tutduğu mənəvi keyfiyyət üzrə tərbiyə olunanlarda ilkin təəssürat yaratmaqdan, onun diqqətini belə bir mənəvi keyfiyyətin varlığına yönəltməkdən ibarət olur. Üçüncü mərhələdə tərbiyəçi çalışır ki, həmin mənəvi keyfiyyətə dair tərbiyə olunanlarda müəyyən anlayış formalaşsın, onun mahiyyəti və əhəmiyyəti başa düşülsün. Dördüncü mərhələdə tərbiyəçi tərbiyə olunan şəxslərdə formalaşdırdığı anlayışa, şüura uyğun olaraq onların əməli fəaliyyətlərini təşkil edir. Sonuncu mərhələdə tərbiyəçi apardığı işə yekun vurur: tərbiyə olunanların iştirak dərəcəsinə, mənimsədikləri anlayışa uyğun

necə fəaliyyət göstərdiklərinə öz münasibətlərini bildirir və sözlə də olsa qiymətləndirir.

***Yenidəntərbiyədə mərhələlik əlamətləri.*** Yenidəntərbiyə təcrübəsindən alınan faktlardan məlum olur ki, tərbiyə işinin növlərindən biri olan yenidəntərbiyədə də işin mərhələ-mərhələ aparıldığı hallarına rast gəlmək olur. Məsələn, valideyn və ya müəllim yəqin edir ki, uşaq (şagird) yalançılığa meyl edir. O müvafiq tərbiyəvi tədbirlərə əl atmalı olur: əvvəlcə yalan danışmağın ailə üçün, cəmiyyət üçün zərərini uşağa (şagirdə) başa salır; yalanın gec-tez üstünün açılacağını və hörmətdən düşəcəyini ona bildirir. Sonra doğru danışmağın faydası açılır; arxasınca doğru danışmaq üzrə həmin uşağın fəaliyyəti təşkil edilir; sonra onun fəaliyyətinə, davranışına nəzarət qoyulur; nəticə olaraq yenidəntərbiyəyə cəlb olunmuş şəxsin davranışı qiymətləndirilir. Məgər bu, yenidəntərbiyənin də mərhələli olduğunu göstərmirmi?!

***Özünütərbiyədə mərhələlik əlamətləri.*** Məlumdur ki, özünütərbiyə hadisəsində şəxs öz təşəbbüsü ilə, tərbiyəçinin nəzarəti olmadan, istədiyi mənəvi keyfiyyəti özündə formalaşdırır. Özünütərbiyə də uzunmüddətlidir; bu prosesi şəxs özü planlaşdırır, qarşısında vəzifələr qoyur, bu vəzifələrin öhdəsindən necə gəldiyinə diqqət yetirir,can atdığı mənəvi keyfiyyətə qovuşmaq yolunda rastlaşdığı maneələri dəqiqləşdirir, onları dəf etməyin yollarını müəyyənləşdirir, özünü təkmilləşdirmək fəaliyyətini davam etdirir. Göründüyü kimi, hər hansı mənəvi keyfiyyətin, hər hansı bacarığın və ya qabiliyyətin sahibi olmaq üçün adamdan böyük iradə, yenilməz səbr, addım-addım irəliləmək, məqsədinə çatacağına dərin inam tələb olunur. Özünütərbiyə zamanı adam bir başa deyil, addım-addım, mərhələ-mərhələ irəliləyir. Başqa sözlə, özünütərbiyə hadisəsində mərhələlik əlaməti mövcuddur. Bunu tərbiyə işinə kompleks şəkildə yanaşmada da müşahidə etmək olur.

***Şəxsiyyətin formalaşdırılmasına kompleks yanaşmada mərhələlik əlamətləri.*** Təcrübə göstərir ki, həm orta ümumtəhsil məktəblərində, həm də ali məktəblərdə tərbiyə işləri,

adətən, planlaşdırılır. Bu planlarla tanışlıq göstərir ki, onu tərtib edən yoldaşlar tərbiyənin, demək olar əksər sahələrinə aid tədbirlərin adlarını, onların icraçılarını və icra vaxtını qeyd edirlər. Lakin əks halda plandakı tədbirlər arasında məntiqi əlaqəyə o qədər də diqqət yetirilmir; tərbiyə işində pərakəndəlik üstünlük təşkil edir.

Hər hansı tədris müəssisəsində tərbiyə işinin kompleks planında, yəni orada əxlaq tərbiyəsinə, əmək tərbiyəsinə, ideya-siyasi tərbiyəyə və s. sahələrə aid tədbirlərin ayrılıqda planlaşdırılıb həyata *keçirilməsində* ardıcıllıq, sistem, mərhələlik nəzərə alınır.

***Tərbiyəlilik səviyyəsi ilə əlaqədar tərbiyədə mərhələlik əlamətləri.*** Hamı üçün aydındır ki, hər hansı mənəvi keyfiyyət üzrə tərbiyəlilik səviyyəsi müxtəlif adamlarda eyni olmur. Məsələn, yoldaşlıqda səmimilik əlamətinə nəzər salaq. Birimiz səmimiliyin nə demək olduğunu, yoldaşlıqda səmimilityin əhəmiyyətini bilir, əməldə daim səmimi olmağa çalışır. Başqa birimiz isə səmimiliyin mahiyyətindən və əhəmiyyətindən ağız dolusu danışır, amma əməldə heç də həmişə səmimilik nümayiş etdirmir. Bu cür müxtəlifliyi adamlarda digər mənəvi keyfiyyətlərlə əlaqədar da müşahidə etmək mümkündür. **Sual olunur:** eyni mənəvi keyfiyyət üzrə tərbiyyəlilik səviyyəsi müxtəlif olan adamların (uşaqların, yeniyetmə və gənclərin) tərbiyəsində eyni üsuldan istifadə etmək səmərəli olar, yoxsa həmin adamların tərbiyəlilik səviyyələrinə uyğun gələn üsullardan istifadə etmək?

Milli pedaqogikada həm nəzəri, həm də əməli cəhətdən sübut edilmişdir ki, ikinci yoldan istifadə edildikdə, yəni, tərbiyəvi təsir üsulları tərbiyəlilik səviyyəsinə uyğun seçildikdə və tətbiq etdikdə tərbiyənin səmərəliliyi artır. Nə üçün? Çünki bu halda tərbiyə işi mərhələli aparılır: ilk mərhələdə tərbiyəçi aşılamaq istədiyi mənəvi keyfiyyətin tərbiyə olunanlarda səviyyəsini müəyyənləşdirir; ikinci mərhələdə həmin səviyyəyə uyğun gələn üsul (üsullar) seçir; üçüncü mərhələdə seçilmiş üsul və ya üsullar vasitəsi ilə nəzərdə tutulan əxlaqi keyfiyyətin mahiyyətinin tərbiyə olunanlar tərəfindən başa düşülməsini təmin edir; dördüncü

mərhələdə həmin mənəvi keyfiyyət üzrə onların fəaliyyətini təşkil edir; sonuncu mərhələdə tərbiyə işinin nəticəsini qiymətləndirir.

Deməli, tərbiyə işi tərbiyə olunanların tərbiyəlilik səviyyəsinə uyğun təşkil edildikdə mərhəliliyin əlamətləri qabarıq şəkildə üzə çıxır.

***Tərbiyə vəzifələri ilə əlaqədar mərhələlik əlamətləri.*** Məlumdur ki, ümumi pedaqoji kateqoriyalardan biri olan tərbiyənin əxlaq tərbiyəsi, əmək tərbiyəsi, estetik tərbiyə, ideya-siyasi tərbiyə və s. sahələri, yaxud tərkib hissələri var. Lakin o qədər də aydın deyil ki, tərbiyənin hər bir tərkib hissəsi qarşısında neçə və hansı vəzifələr durur. Milli pedaqogikada müəyyənləşdirilib ki, tərbiyənin hər hansı tərkib hissəsi qarşısında əsasən üç vəzifə və ya üç qrup vəzifə qoyulur və həll edilir. Bu fikri əxlaq tərbiyəsinin nümunəsində konkretləşdirək. Hər hansı əxlaqi keyfiyyətin (məsələn, vətənpərvərliyin) formalaşdırılmasında həll edilən üç əsas vəzifə bunlardır: Tərbiyə olunanlarda hissiyatın yaradılması, vətənpərvərliyə dair onlarda anlayışın (şüurun) formalaşdırılması və vətənpərvərlik üzrə tərbiyə olunanların fəaliyyətinin təşkili.

Aydındır ki, göstərilən vəzifələrin yerinə yetirilməsində ardıcıllıq gözlənilir: əvvəlcə vətənpərvərliyə dair hissiyyat yaradılır, arxasınca-anlayış (şüur) formalaşdırılır, nəhayət, formalaşan anlayışa uyğun fəaliyyət təşkil edilir. Başqa sözlə, əxlaq tərbiyəsi vəzifələrinin həyata keçirilməsində mərhələlik göz qabağındadır.

Üç qrup vəzifə həyata keçirən əmək tərbiyəsinə nəzər salaq. Bir qrup vəzifə uşaqların psixoloji cəhətdən əməyə hazırlanması ilə, ikinci qrup vəzifə onların əməyə əməli cəhətdən hazırlanması ilə, üçüncü qrup vəzifələr isə əmək mədəniyyəti bacarıqlarının onlara aşılanması ilə əlaqədardır.

Uşaqların psixoloji cəhətdən əməyə hazırlanmasına nələr aiddir? İqtisadi və sosial həyatda əməyin əhəmiyyətini uşaqların nəzərinə çatdırmaq; insan orqanizmi üzvlərinin (ürəyin, ciyərlərin, böyrəklərin, ali sinir sisteminin və s-in) normal fəaliyyətində və psixoloji proseslərin formalaşma-

sında əməyin rolunu onlara hiss etdirmək; əməyə məhəbbət və əmək adamlarına onlarda hörmət hissi oyatmaq; zəhmətə xor baxanlara qarşı onlarda nifrət hissi yaratmaq.

Əməli cəhətdən uşaqların əməyə hazırlanmasına aid olan vəzifələr: ailədə, uşaq bağçasında, tədris müəssisəsində özünəxidmət əməyi üzrə, məişət əməyi üzrə, ictimai-faydalı əmək üzrə uşaqlara aid əmək bacarıqları və vərdişləri aşılamaq.

Əmək mədəniyyətinin aşılanması üzrə vəzifələrə aiddir: ailədə, bağçada, tədris müəssisəsində iş yerinin sahmana salınması; iş üçün, fəaliyyət üçün lazım olan alətlərin və əşyaların gətirilməsi, işdən sonra, fəaliyyətdən sonra iş yerində səliqə sahman yaradılması; təhlükəsizlik üzrə uşaqlara məlumat verilməsi; iş zamanı təhlükəsizlik qaydaları üzrə uşaqlara adi bacarıq və vərdişlərin aşılanması.

Burada nəzərə alınmalı cəhət budur ki, sadalanan üç qrup vəzifələr necə gəldi yerinə yetirilmir: müəyyən ardıcıllıq gözlənilir. Əvvəlcə birinci qrup vəzifələr, sonra ikinci qrup vəzifələr və nəhayət üçüncü qrup vəzifələr həyata keçirilir. Başqa sözlə desək, əmək tərbiyəsində aydın sezilən mərhələlər mövcuddur.

Göründüyü kimi, tərbiyə vəzifələrinin həyata keçirilməsində mərhələlik əlamətləri olur. Mərhələlik yalnız əxlaq tərbiyəsi və ya əmək tərbiyəsi üzrə vəzifələrin icrası üçün səciyyəvi deyil, tərbiyənin qalan tərkib hissələri (estetik tərbiyə, fiziki tərbiyə, hüquq tərbiyəsi, ekoloji tərbiyə və s.) üçün də səciyyəvidir.

Tərbiyə təcrübəsində mərhələlik məsələsinə dair deyilənləri ümumiləşdirək. Həyat faktlarını diqqətlə izlədikdə məlum olur ki, tərbiyə işinə mərhələli yanaşma əlamətləri mövcuddur. Bu əlamətlər uşaqların , yeniyetmə və gənclərin tərbiyəsi zamanı yaş xüsusiyyətlərinin nəzərə alınması təcrübəsində; ilkin tərbiyə, yenidəntərbiyə və özünütərbiyənin ardıcıl həyata keçirilməsi təcrübəsində; ayrılıqda ilkin tərbiyə, yəni arzu olunan hər hansı mənəvi keyfiyyətin formalaşdırılması təcrübəsində; yenidəntərbiyə təcrübəsində; özünütərbiyə təcrübəsində; şəxsiyyətin formalaşmasına

kompleks yanaşma təcrübəsində, tərbiyə vəzifələrinin icrasında aydın sezilir. Tərbiyədə mərhələlik əlamətlərinin olduğunu üzə çıxartmaq, onları adlandırmaq, ümumiləşdirmək, əvvəlcə məfhum halına salmaq, mahiyyətini anlayış formasında ifadə edərək xüsusi nəzəriyyə yaratmaq, bu nəzəriyyə ilə tərbiyəçilərimizi silahlandırmaq,

## 7. MƏRHƏLƏLİ TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN BAŞLICA GÖSTƏRİCİLƏRİ

***Mərhələli tərbiyənin zəruriliyi.*** **Soruşmaq yerinə düşərdi:** indiyədək belə bir nəzəriyyə olmamışdır. Bəlkə bundan sonra bu cür nəzəriyyə yaratmağa ehtiyac da qalmamışdır? Mərhələli tərbiyə nəzəriyyəsinin əhəmiyyəti nədən ibarət ola bilər?

Bəri başdan deyək ki, mərhələli tərbiyə nəzəriyyəsinin yaradılması həm elmi zənginləşdirər, həm də tərbiyə işinin səmərəsini xeyli artırar. Elmi biliklərə söykənən tərbiyəçi hər hansı mənəvi keyfiyyəti uşaqlara, yeniyetmələrə aşılayan zaman nədən başlamalı, hansı mərhələlərdən keçməli, nə üçün məhz bu ardıcıllıqla fəaliyyət göstərməli olduğunu aydın bilməli olur; onda işinin səmərəli olacağına möhkəm inam yaranır. Uluların uluları da bu yolu tutmağı bizə məsləhət görmüşlər. Məsələn, dahi Üzeyir Hacıbəyov yazırdı ki, tərbiyə işi ilə əməli şəkildə məşğul olmaq nə qədər vacibdirsə, görülən işin elmi əsaslarını bilmək, nə üçün başqa cür deyil, məhz filan cür hərəkət etməyin zəruriliyini başa düşmək ondan da vacibdir.

Əslində mərhələli tərbiyə nəzəriyyəsi uydurulmur.Onun əlamətləri, yuxarıda sübut olunduğu kimi, tərbiyə təcrübəsinin bütün istiqamətlərində vardır. Bizim vəzifəmiz tərbiyə təcrübəsindəki mərhələ əlamətlərini üzə çıxarıb ümumiləşdirərək nəzəriyyə formasına salmaqdan ibarət olmuşdur: yaxşı nəzəriyyə real həyatda mövcud olan təcrübəni elmi cəhətdən dəqiq öyrənməkdən və ümumiləşdirməkdən ibarətdir.

Bu cür başa düşülən tərbiyə nəzəriyyəsinin bir sıra göstəriciləri vardır. Onlardan biri *tərbiyə işinin mərhələli*

*proses olmasıdır.* Belə bir göstəricinin mövcudluğunu yuxarıda kifayət qədər ətraflı sübut edə bilmişik. Burada yalnız onu əlavə edək ki, tərbiyənin mərhələləri bütün hallarda eyni miqdarda təkrarlanmır. Tərbiyə olunanların tərbiyəlilik səviyyəsindən, yəni mövcud mənəvi-psixoloji durum səviyyəsindən asılı olaraq 3-5 arasında dəyişə bilir. Aşılanmalı mənəvi dəyər üzrə tərbiyə olunanlarda tərbiyəlilik səviyyəsi yüksək olduğu hallarda tərbiyəvi tədbir üç mərhələli olur: mənəvi dəyər üzrə hazırlıq səviyyəsi üzə çıxarılır; aşkara çıxarılmış həmin yüksək anlayış səviyyəsinə uyğun fəaliyyət təşkil edilir; fəaliyyətin nəticəsi qiymətləndirilir.

Aşılanmalı mənəvi dəyər üzrə tərbiyəlilik səviyyəsi tərbiyə olunanlarda aşağı olduğu hallarda tərbiyəvi tədbir bütün beş mərhələdən keçməli olur:

*Birinci mərhələdə,* yuxarıda deyildiyi kimi, aşılanması nəzərdə tutulan hər hansı milli və ya ümumbəşəri dəyərin tərbiyə olunanlarda səviyyəsi təqribi də olsa üzə çıxarılır. Tərbiyə bu zəmində aparılır.

*İkinci mərhələdə* tərbiyəçinin başlıca qayğısı (buna ehtiyac olduqda) nəzərdə tutduğu mənəvi keyfiyyət üzrə öz uşaqlarında, yeniyetmə və ya gənclərində ilkin təəssürat yaratmaqdan, onların diqqətini belə bir mənəvi dəyərin varlığına yönəltməkdən ibarət olur.

*Üçüncü mərhələdə* tərbiyəçi çalışır ki, həmin mənəvi dəyərə dair tərbiyə olunanlarda müəyyən anlayış formalaşsın, onun mahiyyəti və əhəmiyyəti başa düşülsün.

*Dördüncü mərhələdə* tərbiyəçi tərbiyə olunan şəxslərdə formalaşdırdığı anlayışa, şüura uyğun olaraq onların əməli fəaliyyətlərini təşkil edir.

*Beşinci mərhələdə* tərbiyəçi tədbirlərinə yekun vurur: tərbiyəvi tədbirdə uşaqların, yeniyetmələrin və ya gənclərin iştirak dərəcəsinə, qazandıqları anlayışa uyğun necə fəaliyyət göstərdiklərinə öz münasibətini bildirir və sözlə də olsa qiymətləndirir.

Şərh edilən fikirləri ümumiləşdirən Milli pedaqogika tərbiyənin mərhələləri məfhumunun mahiyyətini belə dəyərləndirir*: «Aşılanacaq milli və ya ümumbəşəri dəyərlə əlaqədar*

*tərbiyə olunan şəxslərdə üzə çıxarılmış mənəvi-psixoloji hazırlığın səviyyəsinə nəzərən aparılan tərbiyə işindəki keçidlərə onun, yəni tərbiyənin mərhələləri deyilir»* (Məktəb pedaqogikası. Bakı, «Çaşıoğlu», 2005, səh.301).

Bu anlam Milli pedaqogikada yaradılan mərhələli tərbiyə nəzəriyyəsinin sadəcə göstəricilərindən biri deyil, həm də onun özəyidir.

Mərhələli tərbiyə nəzəriyyəsinin digər göstəricisi tərbiyədə mərhələləri müəyyənləşdirməyin əsasının açılmasıdır. İşlədiyimiz nəzəriyyənin üçüncü başlıca göstəricisi hər mərhələnin spesifik cəhətlərinə uyğun gələn üsulların dəqiqləşdirilməsi və tətbiq edilməsidir. Dördüncü göstərici üsullardan istifadə olunan zaman özünü biruzə verən qanunauyğunluqların müəyyənləşdirilməsidir. Və, nəhayət, aşkara çıxarılmış qanunauyğunluqlara nəzərən tərbiyə zamanı istinad edilməli prinsiplərin həm adlarının, həm də miqdarının dəqiqləşdirilməsidir.

***Tərbiyədə mərhələləri müəyyənləşdirməyin əsasları.*** Tərbiyənin mərhələlərini tərbiyəçinin və tərbiyə olunanların birgə fəaliyyətində müşahidə etmək mümkün olur.Bəs hansı hallarda bu cür imkan yaranır, hansı hallarda isə belə imkan yaranmır? Tərbiyə işində tərbiyə olunanların mənəvi-psixoloji hazırlıq səviyyələri tərbiyəçi tərəfindən nəzərə alındıqda həmin imkan yaranır, nəzərə alınmadıqda belə imkan yaranmır. Birinci halda, yəni bu və ya digər milli, yaxud ümumbəşəri mənəvi dəyər üzrə aparılacaq tərbiyə tədbirindən əvvəl həmin dəyər üzrə tərbiyə olunanların anlayış səviyyələrini tərbiyəçi öyrəndikdə və nəzərə aldıqda tərbiyə işinin mərhələləri aydın sezilir. İkinci halda isə, yəni aşılanmalı milli və ya ümumbəşəri mənəvi dəyər sahəsində tərbiyə olunan şəxslərin mənəvi-psixoloji səviyyəsini öyrənməyən, və, deməli, nəzərə almayan tərbiyəçinin tərbiyəvi tədbiri qeyri müəyyənliyi, pərakəndəliyi ilə fərqlənir və mərhələlik aradan qalxmış olur.

Deməliyik ki, təsvir etdiyimiz xüsusiyyətlər, həm ailədə, həm də digər keçirilən fərdi, qrup və ya kollektiv halındakı tərbiyəvi tədbirlər üçün səciyyəvidir. Həmin xüsusiyyətlərin nəzərə alınması bir də ona görə zəruridir ki, tərbiyəvi

tədbirlərin iştirakçıları, adətən, yaş cəhətdən də, mənəvi-psixoloji cəhətdən də müxtəlif səviyyəli ola bilir. Başqa-başqa mənəvi-psixoloji durumda olan, yəni tərbiyəlilik səviyyəsi müxtəlif olan uşaqların eyni tərbiyəvi tədbirdə eyni dərəcədə faydalanacağını söyləmək yalnız sadəlövhlük olardı. Deməli, Milli pedaqogika məsləhət görür ki, istər fərdi formada, istərsə də qrup və ya kütləvi formada təşkil olunacaq tərbiyəvi tədbirlərin əhatə edəcəyi mənəvi dəyər barədə tərbiyə olunanların, təqribi də olsa, anlayış səviyyəsi, yəni tərbiyəlilik səviyyəsi nəzərə alınsın. Fikrimizi vətənpərvərlik tərbiyəsinə dair yuxarıda dediklərimiz əsasında bir qədər də konkretləşdirək. V sinif rəhbəri vətənpərvərlik mövzusunda tədbir keçirmək istəyir. Mövzunu şagirdlərlə razılaşdırır. O, tədbiri nədən başlayıb necə davam etdirəcəyini özlüynüdə götür-qoy edir. Belə qənaətə gəlir ki, əvvəlcə bir neçə şagirdlə söhbət etsin, vətənpərvərliyə dair onların anlayış səviyyəsini öyrənsin. Bu məqsədlə onlardan soruşur:

-Uşaqlar, vətənpərvərliyə aid hansı misalları gətirə bilərsiniz?

Şagirdlərin gətirdiyi misallar müharibə ilə, xüsusən Dağlıq Qarabağ döyüşləri ilə əlaqədar, şəhidlərlə bağlı olmuşdur.

Vətənpərvərlik haqqında şagirdlərin anlayışlarının birtərəfli olduğunu, yalnız müharibə ilə məhdudlaşdırıldığını yəqin edən müəllim sualını bir qədər konkretləşdirərək yenidən şagirdlərə müraciət edir:

-Uşaqlar, deyin görüm, indi sizin özünüzün vətənpərvərliyiniz nədən ibarət ola bilər?

Şagirdlərin ümumi rəyi belə olmuşdur: indi əgər müharibə olarsa, biz də vətəni müdafiə etməyə gedərik, lazım gələrsə canımızdan keçərik.

Konkretləşmiş əlavə suala şagirdlərin cavabları sinif rəhbərini bir daha inandırır ki, vətənpərvərlik haqqında onların anlayışları doğrudan da birtərəflidir, əsasən müharibə ilə məhdudlaşır. Bu vəziyyəti nəzərə alan sinif rəhbəri qərara gəlir ki, növbəti söhbət zamanı vətənpərvərliyə dair şagirdlərdə nisbətən dolğun anlayış formalaşdırsın. Bu məqsədlə o, növbəti söhbətdə şagirdlərin fikirlərini müdafiə edir və həmin

fikirlərə əlavə olaraq şagirdlərin fəal iştirakı ilə sosial-iqtisadi və mədəni-siyasi həyatımızın müxtəlif sahələrində canla-başla, namusla çalışan şəxslərin fədakar fəaliyyətlərindən misallar gətirir; hər dəfə sübut edir ki, dinc quruculuq işlərində də vətənpərvərlik nümunələri göstərmək üçün geniş imkanlar mövcuddur. Söhbətin sonunda sinif rəhbəri vətənpərvərliyi şagirdlərin təhsili ilə əlaqələndirərək deyir:

-Mənim əzizlərim! Elə bilirsiniz ki, sizin şagirdlik fəaliyyətinizdə, sabah ali məktəbə daxil olub tələbə kimi oxuyacağınızda vətənpərvərlik nümunəsi göstərmək imkanları yoxdur? Var!

Nümunəvi oxuyan, nümunəvi davranışı olan şagird, öz gözəl fəaliyyəti ilə müəllimlərini, valideynlərini, el-obasını sevindirən şagird əsil vətənpərvər şagirddir.

Sinif rəhbəri bu sözlərdən sonra şagirdlərdən soruşur:

-İndi deyin görək, şagird necə vətənpərvərlik nümunəsi göstərə bilər?

Şagirdlər bir ağızdan bildirirlər:

-Nümunəvi oxuyan, özünü məktəbdə və ondan kənarlarda nümunəvi aparan şagird, valideynlərini və müəllimlərini sevindirən şagird vətənpərvərdir.

Şagirdlərin bu etirafından sonra sinif rəhbəri tərbiyə işinin növbəti mərhələsinə keçir:

-Gəlin bundan sonra özümüzü müşahidə edək, görək kim, indi vətənpərvərlik haqqında burada dediyiniz formada fəaliyyət göstərəcək, kim öz sözünün üstündə duracaq, kim öz sözündən qaçacaq.

Təsvir etdiyimiz təcrübəyə dair faktları yekunlaşdıraq. Təcrübədən göründüyü kimi, vətənpərvərlik tərbiyəsi üzrə tədbirə nədən başlamalı olduğunu müəyyələşdirmək üçün tərbiyəçi vətənpərvərlik məfhumu barədə şagirdlərin anlayış səviyyəsini, yəni tərbiyəlilik səviyyəsini öyrəndi. İşin sonrakı mərhələləri (şagirdlərin anlayış səviyyəsini yüksəltmək, yəni səviyyəyə uyğun onların fəaliyyətini təşkil etmək və fəaliyyətə nəzarət qoymaq) həmin əsasda quruldu. Bu, mərhələli tərbiyə nəzəriyyəsinin başlıca göstəricilərindən biridir.

***Tərbiyədə hər bir mərhələyə uyğun gələn üsulların müəyyənləşdirilməsi və tətbiqi.*** Mərhələli tərbiyə nəzəriyyəsinə görə tərbiyə zamanı müəllim və ya valideyn ağlına düşən üsullardan necə gəldi istifadə edə bilməz. Yuxarıda təhlil etdiyimiz faktlardan göründüyü kimi, tərbiyə işinin hər mərhələsinin özünəməxsus spesifik xüsusiyyətləri və vəzifələri olur. Tərbiyəçinin qayğısı hər mərhələnin xüsusiyyətləri və vəzifələrinə uyğun gələn üsullar arayıb axtarmaqdan, tapmaqdan və tətbiq etməkdən ibarət olur.

Bu cəhətdən tərbiyəçinin işini yüngülləşdirmək məqsədi ilə mərhələli tərbiyə nəzəriyyəsində hər mərhələnin xüsusiyyətlərinə uyğun gələn üsullar təqribi də olsa müəyyənləşdirilmişdir. Üsulların müəyyənliyi mərhələli tərbiyə nəzəriyyəsinin vacib göstəricilərindən biri olduğundan, onun üzərində dayanmağa dəyər. Bir də ona görəki, tərbiyə üsullarının mahiyyətinə dair anlayışda, onların miqdarında və adlarında qeyri dəqiqlik az deyil. Pedaqogika üzrə dərs vəsaitlərinin bəzilərində göstərilir ki, tərbiyə üsulları tərbiyənin mahiyyətindən, məqsədindən, məzmunundan, prinsiplərindən, vəzifələrindən irəli gəlir. Lakin tərbiyə üsulu məfhumunun mahiyyəti bu anlamdan aydın olmur. Məsələn, «Pedaqogika şkolı» adlı kitabda yazılır: «Tərbiyə üsulları-tərbiyə prosesinin çox mürəkkəb komponentidir… onun köməkliyi ilə həm cəmiyyətin qoyduğu ümumi tərbiyə məqsədləri, həm də tərbiyə prosesi ilə həll olunan konkret vəzifələr həyata keçirilir». Göründüyü kimi, bu anlam da tərbiyə üsulu məfhumunun mahiyyətinə aydınlıq gətirmir. Yaxud, Y.K.Babanskinin redaktəsi ilə çap olunmuş dərs vəsaitində tərbiyə üsulu məfhumuna bir qədər aydınlıq gətirilmişdir. Orada oxuyuruq: «Tərbiyə üsulları deyəndə… kommunist tərbiyəsi vəzifələrini həll etməyə yönələn tərbiyəçilərlə tərbiyə olunanların qarşılıqlı fəaliyyət tərzləri başa düşülür». (Pedaqogika. «prosveşşenie», Moskva, 1988, səh.105)

2000-ci ildə «Renessans» nəşriyyatında çapdan çıxmış «Pedaqogika» adlı dərs vəsaitindəki fikirdə metod sözü üsul sözü ilə əvəz edilsə də, mahiyyət dəyişməmişdir: «Tərbiyənin metodları dedikdə tərbiyənin vəzifələrinə çatmaq üçün

tərbiyəçinin (valideynin,müəllimin) istifadə etdiyi yol və vasitələr, üsullar sistemi başa düşülür» (səh.103).

Nümayiş etdirdiyimiz anlamlarda tərbiyə üsulu məfhumunu düzgün səciyyələndirməyə imkan verən əlamətlər var; tərbiyə üsulunun məqsəddən asılı olması, tərbiyəçi ilə tərbiyə olunanların birgə fəaliyyətinin qeyd edilməsi bu cür faydalı əlamətlər hesab edilə bilər. Lakin, bununla belə, yuxarıda misal kimi gətirdiyimiz təriflərdən heç birini ayrılıqda tam qənaətləndirici hesab etmək çətindir. Nə üçün? Çünki, onlar, əvvəla, tərbiyə məfhumunun mahiyyətini nəzərə almır; ikincisi,tərbiyə zamanı tərbiyəçi ilə tərbiyə olunanların birgə fəaliyyətinə imkan verən cəhət-aşılanan milli və ya ümumbəşəri mənəvi dəyər diqqətdən yayınır; üçüncü, mövcud təriflərdən heç biri tərbiyə üsullarını qruplaşdırmağa imkan vermir.Bu qəbildən olan nöqsanlar mərhələli tərbiyə nəzəriyyəsində aradan qaldırılmışdır. Burada tərbiyə üsulu məfhumunun mahiyyəti belə dəyərləndirilir: *tərbiyənin müvafiq mərhələsi qarşısında qoyulmuş vəzifənin, yəni milli və ya ümumbəşəri mənəvi dəyərin müəyyən mühitdə adamlara məqsədəyönlü, planlı və mütəşəkkil aşılanması yollarına tərbiyənin üsulları deyilir.*

Tərbiyə üsullarının tərbiyə mərhələlərindən asılılığı imkan verir ki, birincilər ikincilərə əsasən qruplaşdırılsın.

***Tərbiyə üsullarının tərbiyə mərhələlərinə görə qruplaşdırılması.*** Məsələnin bu şəkildə ifadəsində belə bir məntiqi nəticə hasil olur ki, tərbiyənin mərhələləri tərbiyə üsullarını qruplaşdırmağın ən etibarlı əsası hesab etmək lazımdır. Başqa sözlə desək, davranış və fəaliyyətlə əlaqədar olan hər hansı milli və ya ümumbəşəri mənəvi dəyər tərbiyə olunanlar üçün yeni olduqda həmin dəyərin onlara aşılanması prosesi beş mərhələdən keçməli olduğundan, həmin prosesboyu istifadə ediləcək bütün üsullar da beş qrupa bölünməlidir.

Mərhələli tərbiyə nəzəriyyəsində mərhələlər, yuxarıda deyildiyi kimi, belə adlandırılmışdır: 1. Aşılanacaq mənəvi dəyərin səviyyəsinin üzə çıxarılması; 2. Həmin mənəvi dəyər üzrə tərbiyə olunanlarda ilkin təəssüratın yaradılması; 3. Mənəvi dəyər üzrə onlarda anlayışın (şüurun) formalaşdırıl-

ması; 4. Formalaşan anlayışa uyğun davranışın və fəaliyyətin təşkili; 5. Davranış və fəaliyyətə nəzarət, nəticənin qiymətləndirilməsi.

Tərbiyənin bu mərhələlərinə uyğun olaraq tərbiyə üsulları mərhələli tərbiyə nəzəriyyəsində belə qruplaşdırılır və belə adlandırılır: 1. Mənəvi dəyərin səviyyəsini müəyyənləşdirməyin üsulları; 2. Davranış və fəaliyyətlə əlaqədar olan mənəvi dəyərlərin ilkin qavranmasına xidmət edən üsullar; 3. Həmin mənəvi dəyərlərlə əlaqədar tərbiyə olunanlarda anlayışın formalaşmasına xidmət edən üsullar; 4. Mənəvi dəyərlərlə əlaqədar davranış və fəaliyyətin təşkilinə xidmət edən üsullar; 5. Davranış və fəaliyyətə nəzarətin, habelə nəticəsini qiymətləndirməyin üsulları.

**Sual olunur:** Uşaqlarda, yeniyetmələrdə və gənclərdə tərbiyəlilik səviyyəsini, yəni aşılanmalı mənəvi dəyərin səviyyəsini kim öyrənə bilər? Onların, yəni uşaqların, yeniyetmə və gənclərin düzgün tərbiyəsində maraqlı olan şəxs: müəllim, valideyn, elmi işçi və s.

**Yenə sual:** Həmin şəxs tərbiyə olunanlarda hər hansı mənəvi dəyərin səviyyəsini özü üçün öyrənməkdən ötrü hansı üsullara əl ata bilər? *Tərbiyənin bu ilk mərhələsində ən çox istifadə olunan üsullar bunlardır*: Pedaqoji müşahidə və pedaqoji müsahibə.

*Pedaqoji müşahidə.* Belə müşahidə ümumiyyətlə aparılmır, uşaqların tərbiyəsi ilə əlaqədar olur; pedaqoji məqsəd güdür. Müşahidə ailə şəraitində, uşaq bağçasında, məktəbdə, həyətdə, bağ və bulvarda, digər yerlərdə aparıla bilir. Hər dəfə onun qarşısında müəyyən pedaqoji vəzifə qoyulur. Vəzifə isə müxtəlif ola bilər. Bir halda uşağın (şagirdin) yoldaşları ilə ünsiyyət xüsusiyyətlərini, digər halda başlanan işi axıra çatdırmaq əzmi, başqa halda maraq dairəsini və s. məsələləri öyrənmək lazım gəlir. Bu cür mənəvi keyfiyyətlərin səviyyəsini öz uşaqlarında (şagirdlərində) müəyyənləşdirən müəllim (valideyn) sonrakı tərbiyəvi addımlarını planlaşdırmaq üçün tutarlı elmi əsaslara istinad etmiş olur; onun tərbiyəvi işi kortəbii səciyyə daşımır, məqsədəyönlü, planlı və mütəşəkkil olur.

*Pedaqoji müsahibə.* Uşaqların, yeniyetmə və ya gənclərin mənəvi aləminə nüfuz etməyin üsullarından biri onlarla aparılan müsahibədir. Bəzən müəllim, yaxud valideyn müşahidədən aldığı məlumatın dəqiqliyini yoxlamaq üçün öz övladları ilə söhbət etməli olur. Aydındır ki, uşaqla (şagirdlə) aparılacaq söhbət son dərəcə ehtiyatlı olmalıdır. Söhbətin məqsədini uşaq (şagird) duymamalıdır. Əks təqdirdə o, öz ürəyindəkilərini valideyninə (müəlliminə) açmaya bilər. Nəticədə uşağın (şagirdin) nəzərdə tutulan mənəvi keyfiyyəti barədə valideyndə (müəllimdə) yaranan anlayış tam olmaz.

Nəzərə alınmalıdır ki, aparılan müsahibə və ya müşahidə uşaqların fəaliyyət məhsullarını da (çəkdikləri şəkilləri, yazdıqları imla və ya inşanı, hazırladıqları əyani vasitələri, düzəltdikləri əşyaları və s.) əhatə etməlidir.

## 8. MƏNƏVİ KEYFİYYƏTLƏRİ FORMALAŞDIRMAĞIN ÜSULLARI

***Davranış və fəaliyyətlə əlaqədar olan mənəvi keyfiyyətlərin ilkin qavranılmasına xidmət edən üsullar.*** Bu üsullara aid ola bilər: göstəriş, tələb, nümunə.

*Göstəriş üsulu.* Mənəvi keyfiyyətlərin ilkin qavranmasına xidmət edən üsul kimi, göstəriş bütün yaş dövrlərində tətbiq edilir. Aydındır ki, bu zaman tərbiyə olunanların yaş xüsusiyyətləri nəzərə alınır. Məsələn, məktəbəqədər yaş dövründə uşaqları özünəxidmət və məişət əməyinə qovuşdurmaq məqsədi ilə valideyləri onlara müəyyən göstərişlər verirlər: «Özünə stul gətir!», «Paltarını dəyiş!», «Əl-üzünü yu!», «Dibçəyə su tök!», «Otağı süpür!», «Masaya süfrə sal!» və s. Yaxud, orta ümumtəhsil məktəbində müəllimlər və digər tərbiyəçilər şagirdləri ictimai-faydalı əməyə dair ilkin hissiyyat yaratmaq üçün göstəriş üsuluna tez-tez əl atırlar: «Yazı lövhəsini sil!», «Pəncərəni aç!», «Dərs haqqında xəstə yoldaşına məlumat ver!», «Məktəbin həyətini daş-kəsəkdən təmizləyin!», «Məktəbyanı sahədəki güllərə su verin!» və s.

Göstəriş üsulundan istifadə halları ali məktəbdə də az deyil. Məsələn, elmi tədqiqat işi barədə ilkin təsəvvür yaratmaq üçün ali məktəb müəllimi tələbəyə bu cür tapşırıqlar verir: «Götürdüyün mövzu üzrə ədəbiyyat siyahısı hazırla!», «Siyahıdakı ədəbiyyat üzrə referat yaz», «Əldə etdiyin mənbələr əsasında məruzənin planını tərtib et!» və s.

Bu cür göstərişlərin icrasında nəzərdə tutulan başlıca vəzifə bəzi hallarda uşaqlarda, digər hallarda şagirdlərdə, üçüncü hallarda tələbələrdə müvafiq olaraq özünəxidmət əməyinə, ictimai-faydalı əməyə və elmi tədqiqat işinə dair ilkin təəssürat yaratmaqdır. Misal kimi gətirdiyimiz göstərişlərdə qavranması nəzərdə tutulan mənəvi keyfiyyətlər isə bunlardır: birinci halda işgüzarlıq, ikinci halda qayğıkeşlik, üçüncü halda müstəqil işə alışmaq.

Məlum olduğu kimi,tərbiyə işində göstəriş sözlə verilir.Unutmayaq ki, söz vasitəsi ilə verilən tapşırıqların böyük pedaqoji əhəmiyyəti vardır. Göstəriş amiranə tərzdə ifadə edildikdə uşaq və ya şagird həvəs göstərməyə bilir. Göstəriş mülayim tərzdə verildikdə, necə deyərlər, cana sarı yağ kimi yayılır.Bu mənada deyilmiş atalar sözlərini yadda saxlamalıyıq: «Söz ilə olan zor ilə olmaz», «Şirin dil ilanı da yuvasından çıxarır», «Ho-ho var dağa qaldırar, ho-ho var dağdan endirər».

Deməli, *tərbiyə olunanların diqqətini ailədə, məktəbdə, ümumən cəmiyyətdə adamların qarşılıqlı əlaqədə fəaliyyət göstərdiklərinə yönəldən və özlərinin də bu fəaliyyətdə qismən iştirakını hiss etdirən üsula göstəriş üsulu deyilir.*

*Tələb üsulu.* Tərbiyə işində tələb üsulundan geniş istifadə edilir. Göstəriş üsulu tərbiyə olunanların diqqətini ailədə, cəmiyyətdə bəyənilən mənəvi dəyərlərə birbaşa yönəldir. Tələb üsulu isə tərbiyə olunanların diqqətini ailədə, məktəbdə, bütövlükdə cəmiyyətdə hansı hərəkətin, hansı davranış tərzinin yolverilməz olduğuna, bəyənilmədiyinə birbaşa və ya dolayısıyla cəlb edir.Fikrimizi tələb üsulunun tətbiqi formalarında konkretləşdirək. Bu üsul üç formada tətbiq edilir: Tələbin vəzifə borcu formasında, tələbin əmr formasında və tələbin inkar formasında.

Tələbin vəzifə borcu formasında ifadəsinə misal: «Ev tapşırıqlarını vaxtında yerinə yetirmək lazımdır»; «Zəng olan kimi sinif otağına gəlmək lazımdır»; «Cavab vermək üçün əl qaldırmaq kifayətdir»; «Yoldaşa qayğı göstərmək lazımdır»; «Yeməkdən əvvəl əlləri yumaq lazımdır» və s.

Tələbin əmr formasında ifadəsinə misal: «Ev tapşırıqları vaxtında yerinə yetirilməlidir»; «Zəng olan kimi sinif otağına gəlinməlidir»; «Cavab vermək üçün əl qaldırılmalıdır»; «Yoldaşa qayğı göstərilməlidir»; «Yeməkdən əvvəl əllər yuyulmalıdır»; «Danışana qulaq asılmalıdır» və s.

Tələbin inkar formasında ifadəsinə misal: «Ev tapşırıqlarını vaxtında yerinə yetirməmək olmaz»; «Cavab vermək üçün yerində mən-mən demək yaramaz»; «Yoldaşa qayğı göstərməmək olmaz»; «Yeməkdən əvvəl əlləri yumamaq olmaz» və s.

Gətirilən misallardan göründüyü kimi, tələb üsulunun tətbiqi formaları üçün ümumi cəhət var: tərbiyə olunanların diqqəti bəzən birbaşa cəmiyyət üçün faydalı olan, bəzən də zərərli olan keyfiyyətlərə dolayısıyla yönəldilir. Deməli, *tərbiyə üsulu kimi tələb-tərbiyə olunanların diqqətini cəmiyyət üçün faydalı olan mənəvi keyfiyyətlərin icrasının vacibliyinə birbaşa, yaxud dolayısıyla yönəltməkdir.*

*Nümunə üsulu.* Mənəvi keyfiyyətin tərbiyə olunanlar tərəfindən duyulmasına, qavranmasına xidmət edən üsullardan biri də nümunədir. Nümunəvi hərəkəti, davranışı, işi, yazını, tələffüzü və s. cəhətləri görən şəxs (uşaq, şagird, tələbə) daxilən düşünməli olur; o cür hərəkət etməyi, işləməyi, yazmağı, ifadə etməyi arzulayır. Bu mənada atalar haqlı deyib: «Görən görüb götürər»; «Yaxşı timsal yönsüz sözdən yaxşıdır»; «Gözü ilə görən tanrıdan çox bilər»; «Qonşu qonşuya baxar, canını oda yaxar» və s.

Tərbiyə zamanı istifadə edilən nümunənin növləri çoxdur: müəllim nümunəsi; valideyn nümunəsi; yoldaş nümunəsi; tarixi şəxslərin nümunəsi; elm, mədəniyyət və incəsənət xadimlərinin nümunəsi; milli qəhrəmaların nümunəsi; iş nümunəsi; yazı nümunəsi; bədii qiraət nümunəsi; bədii obraz nümunəsi və s.

Valideyn nümunəsinin balacalıqda uşaqlara təsiri daha güclü olur və onların hafizələrində uzun müddət qalır. Bu səbəbdən də bütün valideynlərimiz çalışmalıdırlar ki, hər cəhətdən uşaqlarına nümunə olsunlar. Müdriklərimiz ailədə valideyn nümunəsinə böyük qiymət vermişdir. Məsələn, «Qabusnamə» xatırladır: «Arvad gərək…atasının və anasının necə ev saxladığını, necə ev dolandırdığını görmüş olsun (Qabusnamə. Bakı, Azərnəşr, 1989, səh.144). Dədə Qorqud da təqribən eyni fikirdə olmuşdur: «Oğul atadan görməyincə süfrə yaymaz», «Qız anasından görməyincə öyüd almaz».

Müəllim nümunəsi də həmişə aktual olmuşdur. Müəllim daim yadda saxlamalı olur ki, gənc nəslin həssas nəzəri ona zillənir. Müəllimin görkəmi də, nitqi də, davranışı da, hərəkəti də, sevinmək və ya kədərlənmək tərzi də, başqalarına münasibəti də gənc nəsil üçün nümunə ola bilir. Bu mənada müəllim dövlət və xalq qarşısında məsuliyyət daşıdığını heç vaxt unutmamalıdır.

Nümunənin başqa növlərindən müəllimlər, valideynlər və pedaqoji işlə məşğul olan digər şəxslər, yeri gəldikcə, imkan düşdükcə, lazım bilindikcə istifadə edirlər. Nümunənin ayrı-ayrı növlərinə tərbiyə işində müraciət etmək imkanları genişdir. Belə imkanlar fənlərin tədrisində, dərsdənkənar tədbirlərdə, ailə şəraitində, ictimai yerlərdə, istehsalatda, kütləvi informasiya vasitələrində kifayət qədərdir. Beləliklə, *nümunə xalqın bəyəndiyi şəxsi və ya obrazı, yaxud hər hansı hərəkəti və ya əsəri özünə örnək kimi qəbul etməkdir.*

***Davranış və fəaliyyətlə əlaqədar olan mənəvi keyfiyyətlərə dair anlayışın formalaşdırılmasına xidmət edən üsullar.*** Gənc nəsildə formalaşdırılması nəzərdə tutulan mənəvi keyfiyyətlərin şüurlu başa düşülməsi və onda möhkəm inam yaradılması üçün bir qədər fərqli üsullardan istifadə edilir. Bu, o deməkdir ki, tərbiyəçi işin növbəti mərhələsinə keçir: yəni o, hər hansı mənəvi keyfiyyət üzrə yaranan ilkin təəssüratın və ya təsəvvürün anlayışa çevrilməsinə, şüurlu başa düşülməsinə çalışır. Bu məqsədlə tərbiyəçi bir sıra üsullara, o cümlədən nəsihətə, məruzəyə, disputa, əsər müzakirəsinə və s. üsullara əl atır.

*Nəsihət üsulu.* Tərbiyə üsulu kimi nəsihətdən müəllimlərimiz, valideynlərimiz tez-tez istifadə edir. Səbəbi budur ki, nəsihət bilavasitə gənc nəslin şüuruna ünvanlanır. Nəsihət bir şəxsə, bir qrup adama, hətta bütöv bir xalqa da aid ola bilir. Nəsihət həyatın ayrı-ayrı sahələrində adamları cəmiyyət üçün, xalq üçün faydalı mənəvi dəyərlərə səsləyir. Nəsihətə qulaq asanlar da, ona əməl edənlər də, nəsihətə biganə qalanlar da tapılır. Birincilər həyatda düzgün yol seçə bilir; ikincilər isə həyat acılarını dadmalı olurlar. Qoca Şərqin böyük ustadı şair Sədi gözəl deyib:

*«Yazıq o şəxsə ki, sevmir nəsihət,*
*Nəsihət sevənlər qazanar sərvət»*

Nəsihətin əhəmiyyəti atalar sözlərində dönə-dönə xatırladılır, özü də müxtəlif səpgidə. Atalar sözlərində nəsihətin psixoloji məqamı da diqqətdən yayınmamışdır. Məsələn, atalar sözlərindən birində deyilir: «Nəsihət acı olur, meyvəsi şirin». Məsləhət formasında təqdim olunan nəsihətin şüura təsiri də güclü olur; «Məsləhətli don gen olar».

Deməli, məsləhət geniş həyat təcrübəsinə və dərin elmi biliyə malik olan şəxsin başqasına həyatda səhvə yol verməməsi, düzgün istiqamət götürməsi üçün verdiyi tövsiyədir.

*Məruzə üsulu.* Məruzə üçün səciyyəvi cəhət budur ki, o, hər hansı bir mövzu üzrə dinləyicilərdə nisbi mənada tam anlayış yaradılmasına yönəlir. Məruzə elmiliyi, dərinliyi, ardıcıllığı, sistemliliyi ilə fərqlənir. Bu səbəbdən də məruzə anlayışlar səviyyəsində cərəyan edir və müvafiq mənəvi dəyərlərin şüurlu başa düşülməsinə münasib imkan yaradır. Bu cəhətdən də məruzə ciddi hazırlıq tələb edir. Dinləyicilərin də məruzə mövzularına hazırlaşmaları vacib sayılır; məruzənin günü,yeri və saatı barədə əvvəlcədən elan verilir.

Deməli, *bu və ya digər mövzu üzrə dinləyicilərdə nisbi də olsa, düzgün anlayış formalaşdırmaq üçün planlılığı, ardıcıllığı, elmiliyi ilə səciyyələnən mütəşəkkil şərhə məruzə deyilir.*

*Disput üsulu.* Disput müstəqil tədbir kimi təşkil edilib keçirilə də, hər hansı məşğələlərin tərkibində bir üsul kimi tətbiq edilə də bilir. Bu və ya digər mövzu, yaxud mənəvi keyfiyyət üzrə mümkün olan fikir, yaxud mövqe müxtəlif-

liyini aşkar etmək və fikir birliyi yaratmaq üçün disputun imkanları daha genişdir. Üsul kimi disputun tədbiq sahəsi çoxdur: ondan şagirdlər və tələbələr arasında da, valideynlər arasında da, digər şəxslər arasında da istifadə edilir. Bu səbəbdən də disputun mövzusu çox müxtəlif ola bilir.

Disputun səmərəsi ona hazırlığın səviyyəsindən asılı olur. Disputun mövzusu, keçirilmə vaxtı, müzakirəyə qoyulacaq məsələ və ya sual,habelə müvafiq mənbələr barədə iştirakçılara xeyli əvvəl məlumat verilir.

Deməli, *iştirakçıların qabaqcadan bildiyi hər hansı mövzu üzrə fikir birliyi yaratmaq məqsədi ilə müəyyənləşdirilmiş vaxtda mütəşəkkil keçirilən fikir mübadiləsinə disput deyilir.*

*Əsər müzakirəsi.* Bədii, tarixi, elmi, pedaqoji əsərlər müzakirə mövzusu ola bilir. Xarakterinə görə əsərlərin müzakirəsini iki qrupa ayırmaq mümkündür: yeni çap olunmuş əsərlərlə tanışləq məqsədi güdən müzakirə və çap edildiyi vaxtdan asılı olmayaraq tərbiyə məqsədi ilə keçirilən müzakirə.

Burada ümumiyyətlə əsər müzakirəsi deyil, tərbiyə üsulu kimi istifadə olunan və ikinci qrupa aid edilən müzakirə nəzərdə tutulur. Bu cür müzakirələrdən başlıca məqsəd bu və ya digər anlayışın, mənəvi keyfiyyətin müəyyən qrup adamlarda formalaşdırılmasından ibarət olur. Belə bir məqsəd daşıyan müzakirə yalnız şagirdlər və ya tələbələr arasında deyil, müəllimlər və valideynlər arasında da keçirilir.

İştirakçıların tərkibindən və keçirildiyi yerdən asılı olmayaraq, tərbiyə məqsədli əsər müzakirələrinin hamısı üçün səciyyəvi olan cəhətlər var: müzakirəyə qoyulacaq əsərlə iştirakçıların qabaqcadan tanış olması; müzakirə məqsədinin onlara məlum olması; müzakirə günü və saatının əvvəlcədən elan edilməsi.

Aşağı sinif şagirdləri arasında hekayə, nağıl, şeir və ya dastandan parçaları müzakirəyə qoymaq halları olur. Bu zaman güdülən məqsədə xidmət edəcək müvafiq atalar sözlərindən, tapmacalardan (məsələn, «Dili yoxdur, dilləndirir, insanı elmləndirir», «O nədir ki, özü qara, sözü ağ» və s.) istifadə edilir.

Deməli, *bu və ya digər əsərlə əvvəlcədən tanış olaraq müəyyən edilmiş vaxtda tərbiyə məqsədi ilə mütəşəkkil keçirilən fikir mübadiləsinə əsər müzakirəsi deyilir.*

Göründüyü kimi, nəsihət, məruzə və disput kimi, əsər müzakirəsi də anlayışların, mənəvi keyfiyyətlərin mahiyyətinin başa düşülməsinə xidmət edir.

Bəs davranış və fəaliyyətin təşkilinə yönələn üsullar hansılardır?

***Mənəvi dəyərlərlə əlaqədar davranış və fəaliyyətin təşkilinə xidmət edən üsullar.*** Məşq, alışdırma, rejim, özünəxidmət əməyi, məişət əməyi, ictimai-faydalı əmək davranışın və fəaliyyətin təşkilinə xidmət edən başlıca üsullardır.

*Məşq üsulu.* Məşq,üsullardan biri kimi, təkrar və çalışma üsullarına oxşasa da, onlardan xeyli fərqlənir.Təkrar əsasən şifahi formada, çalışmalar əsasən yazılı formada aparılır. Bunlardan fərqli olaraq məşq fiziki hərəkətlər formasında keçirilir. Məşq yolu ilə adamlarda bir çox faydalı fiziki keyfiyyətləri və bacarıqları formalaşdırmaq mümkün olur. Çeviklik, dözümlülük, güclülük, elastiklik kimi fiziki keyfiyyətlər, yaxud yerimək, qaçmaq, uzununa və hündürlüyə tullanmaq, futbol və ya basketbol oynamaq kimi fiziki bacarıqlar ən çox məşq sayəsində formalaşır.

Məşq zamanı eyni fiziki hərəkət dönə-dönə, özü də uzun müddət təkrar olunur. Bununla birlikdə məşq zamanı bədənin bütün əzaları fəal iştirak edir; orqanizmdə maddələr mübadiləsi yaxşılaşır, əzələlər möhkəmlənir. Mustafa Kamal Atatürk (1888-1938) haqlı olaraq xatırladırdı: «Yaşamaq fəaliyyətdə olmaq deməkdir».

Fiziki keyfiyyət və bacarıqların adamlarda məşq yolu ilə formalaşdırılmasında müasir idman növlərindən əlavə milli oyunlardan, o cümlədən qılınc oynatmaq, ox atmaq, at çapmaq və s. xalq idman növləri və oyunlarından da istifadə olunur.

Tarixdən ata-babalarımıza da məlum olmuşdur ki, idmanın hər hansı növləri ilə məşğul olmaq, məşq etmək sağlamlığın rəhnidir. Qoca Şərqin müdriklərindən Əbu Əli İbn Sinanın bu kəlamı hər bir azərbaycanlının hafizəsində

daimi məskən tapmalıdır: «İdmanla məşğul olanın heç bir müalicəyə ehtiyacı yoxdur. Onun müalicəsi hərəkətdir».

Deməli, *fiziki keyfiyyət və bacarıqların adamlarda məqsədyönlü formalaşdırılması üçün fiziki hərəkətlərin uzun müddət dönə-dönə eyni qaydada icrası məşqdir.*

*Alışdırma üsulu.* Mənəvi keyfiyyətlərin, o cümlədən əxlaq və əməklə əlaqədar olan keyfiyyətlərin formalaşmasında bacarıq və vərdişlərin zəruriliyi daha qabarıq müşahidə olunur. Dönə-dönə şahidi oluruq ki, uşaqlar və yeniyetmələr, hətta bəzi gənclər, məsələn, düzlük və doğruçuluğun, intizamın, vətənpərvərliyin və s. mənəvi dəyərlərin nə demək olduğunu anlayırlar; lakin əməldə onların bir qismi qeyri-səmimiliyə, kobudluğa, intizamsızlığa, qeyri vətənpərvərliyə yol verir. Bu cür hallarda alışdırma üsullarına əl atmaq lazım gəlir. Əgər uşaq əllərini yumamış süfrə arxasında əyləşirsə, gedib əllərini yuması ondan tələb edilir və bu tələbə alışanadək onun üzərində ciddi nəzarət qoyulur. Səliqəsiz yazı sahibi üçün də bu cür dözümsüzlük şəraiti yaradılır. Başqa sözlə, uşağın, yeniyetmə və ya gəncin hər hansı əməli müvafiq qaydaya uyğun gələnədək, nəzarət davam edir.

Alışdırma yolu ilə vərdişlərin formalaşması üçün bəzən aylar azlıq edir. Özünü gələcəkdə faydalı fəaliyyətə hazırlayan hər bir gənc işin, əməlin necəliyi barədə olan atalar sözlərini də unutmamalıdır: «Heyvanın dişinə baxarlar, insanın işinə», «İstəyirsən bol çörək,al əlinə bel, kürək».

Göründüyü kimi, alışdırma üsulu məşq üsuluna oxşasa da, ondan xeyli fərqlənir. Məşqdə olduğu kimi, alışdırma üsulunda da eyni hərəkət, eyni iş üsulu uzun müddət dönə-dönə icra olunur. Fərq orasındadır ki, əvvəla, məşq əsasən fiziki keyfiyyət və bacarıqlarla, alışdırma isə əsasən davranış və əmək bacarıqları ilə əlaqədar olur. İkincisi, məşq bəzən müəllimin (tərbiyəçinin) rəhbərliyi altında, bəzən müstəqil həyata keçirilir; alışdırma isə axıradək nəzarət altında təşkil olunur.

Beləliklə, *davranış və əmək bacarıqlarının adamlarda, o cümlədən gənc nəsldə vərdişə çevrilənədək tərbiyəçinin bilavasitə nəzarəti altında dönə-dönə yerinə yetirilməsi alışdırma üsuludur.*

*Gün rejimi üsulu.* Anlayışların formalaşmasında, onların möhkəmlənməsində, bacarıq və vərdişə çevrilməsində, digər üsullarla yanaşı rejimin də mühüm rolu vardır.

İctimai həyatın bütün sahələrində rejimə bu və ya digər dərəcədə əməl edilir. Məsələn, idarə və müəssisədə iş müəyyən vaxtda başlayır, müəyyənləşdirilmiş vaxtda bitir; hər gün eyni vaxtda nahara çıxırlar.

Təlim-tərbiyə müəssisələrində rejim yenilməz qanuna çevrilir. Məşğələlər zənglə başlayır, müəyyən olunmuş vaxta qədər davam edir, zənglə başa çatır. Rejimə dönmədən əməl edilməsi tədris müəssisələrində təlim-tərbiyə işinin uğurla getməsi üçün başlıca şərtlərdən biridir.

Şagirdlərin(tələbələrin), hətta uşaqların həyat tərzinin təşkilində, təlim və tərbiyəsində bir üsul kimi rejimdən istifadə olunur. Gənc nəslin gün rejimini təşkil edən müəllim, yaxud valideyn uşaqlarının yalnız müvəffəqiyyətlə oxumasına yardım etmir; bununla yanaşı, onların orqanizmlərinin normal fəaliyyətinə də gözəl şərait yaratmış olur.

Gün rejimi dedikdə hər gün müəyyənləşdirilmiş vaxtda yuxudan qalxmaq, eyni vaxtda əl-üznü yumaq, hər gün eyni vaxtda səhər idmanı ilə məşğul olmaq, səhər, günorta və axşam ayrılıqda eyni vaxtda yemək, eyni vaxtda əylənmək, istirahət etmək, öz üzərində işləmək, eyni vaxtda yatmaq nəzərdə tutulur.

Gün rejiminə əməl etmək və ona alışmaq asan deyil, çətindir; lakin nəinki mümkün, hətta zəruridir. Nəzərə alaq ki, *adamın gün ərzində həyat və fəaliyyətinin başlıca cəhətlərinin hər gün eyni vaxtda və eyni ardıcıllıqda təkrarını təmin etmək gün rejimi üsuludur.*

*Özünəxidmət əməyi üsulu.* Əmək və əxlaqla bağlı olan anlayışların, bacarıq və vərdişlərin ilkin təməli ailədə özünəxidmət əməyinin təşkili ilə qoyulur. Təcrübəli valideynlər öz övladlarını gələcək əməyə, ictimai faydalı və məhsuldar əməyə hazırlamaq işini haqlı olaraq özünəxidmət əməyinin təşkilindən başlayırlar.Belə valideynlərin rəhbərliyi altında uşaqlar özləri üçün çay gətirir, stəkan-nəlbəkini aparır, yatağını açır və yığışdırır, üst-başını səliqə-səhmana salır,

paltarına ütü çəkir, ayqqabısını təmizləyir, gigiyenik qaydalara əməl edir və bu yolla özünfxidmət əməyi üzrə bacarıq və vərdişlərə yiyələnirlər.

Deməli, *özünəxidmət əməyi valideynlərin rəhbərliyi altında uşaqların öz ehtiyaclarını ödəyəcək işlərə cəlb edilməsidir.*

*Məişət əməyi üsulu.* Bir qədər böyüdükdən sonra uşaqlar gücləri çatan məişət əməyi ilə də məşğul olmağa başlayırlar. Təcrübəli valideynlərin ailələrində uşaqların özünəxidmət əməyində qazandıqları bacarıq və vərdişlər tədricən məişət əməyi sahəsində bacarıq və vərdişlər səviyyəsinə qalxır. Belə ailələrdə uşaqlar çayın dəmlənməsində, süfrənin açılmasında və yığışdırılmasında, qab-qacağın gətirilməsində və götürülməsində, döşəmənin süpürülməsi və yuyulmasında, zibilin atılmasında, mənzilin havasının təmizlənməsində, toyuq-cücəyə, mal-qaraya, qoyun-quzuya baxılmasında, həyətyanı sahələrdəki işlərdə məmnuniyyətlə iştirak edirlər.

Göründüyü kimi, *valideynlərin rəhbərliyi altında uşaqların və yeniyetmələrin ailə ehtiyaclarını ödəyəcək işlərə cəlb edilməsi məişət əməyi üsulu deməkdir.*

*İctimai-faydalı əmək üsulu.* Həyat faktları göstərir ki, ailə şəraitində məişət əməyinə alışan, məişət əməyinin müxtəlif sahələrində bacarıq və vərdişləri olan şagirdlər, bir qayda olaraq, təhsil aldıqları tədris müəssisəsində ictimai-faydalı əməkdə daha çox fəallıq göstərirlər. Onlar məktəbdə ictimai faydalı əməyin müxtəlif sahələrində öz bacarıqlarını daha da inkişaf etdirmək imkanı əldə edirlər. Şagirdlər sinif otağında, məktəb dəhlizində, yeməkxanasında növbətçilik edir, divar qəzetlərinin çıxarılmasında, məktəb əmlakının təmirində, fotomantaj və stentlərin hazırlanmasında, şagird təşkilatlarının işində, məktəbin kütləvi tədbirlərində, məktəblərarası yarışlarda, məktəbyanı sahənin səliqə-səhmana salınmasında, bağ-bostan becərilməsində və s. işlərdə bilik və bacarıqlarını möhkəmləndirirlər. Bütün bu işlər ayrı-ayrı müəllimlərin, məktəb rəhbərlərinin göstəriş və təşkilatçılığı sayəsində görülür.

Deməli, *pedaqoji kollektivin rəhbərliyi altında məktəbin ehtiyaclarını ödəyəcək işlərə şagirdlərin cəlb edilməsi ictimai-faydalı əməkdir.*

***Davranış və fəaliyyətə nəzarət; nəticələrin yoxlanılması və qiymətləndirilməsinə xidmət edən üsullar. Tərbiyədə nəzarət, yoxlama və qiymətləndirmə məfhumları.*** Mütəxəssis alimlərin bu məfhumlara münasibəti birmənalı deyil. Bəzi dərs vəsaitləri və monoqrafiyalarda təlim və tərbiyə üsulları şərh edilərkən nəzarət və yoxlama məsələlərinə toxunulmur. Belə çıxır ki, nəzarətin və yoxlamanın təlim və ya tərbiyə üsullarına dəxli yoxdur. « », yaxud « » adlı əsərlər buna misal ola bilər.

Şagirdlərin bilik, bacarıq və vərdişlərinin yoxlanması və qiymətləndirilməsi üzərində xüsusi dayanmaq, lakin nəzarət məsələsinə toxunmamaq halları da var. B.P.Yesipovun mövqeyi belədir.

Bəzi mənbələrdə nəzarət və yoxlama anlayışlarına fərq qoyulmur, eyniləşdirilir. Ç.Kupiseviçin «Osnovı obşey didaktiki» adlı əsərində bu fikrə rast gəlirik.

Yoxlamanı və qiymətləndirməni tərbiyədə nəzarətin, yaxud təlimdə nəzarətin üsulu kimi başa düşənlər də var.

**Sual olunur:** həmin mövqelərdən hansını məqbul saymaq olar? Bizcə, heç birini! Çünki nəzərdən keçirdiyimiz fikirlər birtərəflidir: nəzarət, yoxlama və qiymətləndirmə məfhumlarını eyniləşdirmək də, onların fərqini görməmək də eyni dərəcədə nöqsan sayılmalıdır.

Real pedaqoji prosesdə təlim zamanı olduğu kimi, tərbiyədə də nəzarət, yoxlama və qiymətləndirmə üsullarından geniş istifadə olunur.

*Tərbiyədə nəzarət üsulları.* Tərbiyə işində nəzarət, adətən, bilavasitə müşahidə formasında həyata keçirilir. Nəzarət məqsədi güdən müşahidəni müəllim, valideyn, sinif rəhbəri, tədris müəssisəsinin rəhbərləri, digər tərbiyəçilər apara bilir.

Tərbiyə işində istənilən nəticəni əldə etmək üçün nəzarət üsuluna da əl atmaq lazım gəlir. Tərbiyəçi bilmək istəyir ki, verdiyi tapşırıq tərbiyə olunanlar tərəfindən necə yerinə yetirilir, bu zaman onlar necə davranırlar, canla-başla fəaliyyət göstərirlər, yoxsa necə gəldi, başdan sovdu icra edirlər.

Bundan əlavə, nəzarət tərbiyəçiyə imkan verir ki, müşahidə faktları əsasında lazım gəldikdə işə qarışsın, müəyyən düzəlişlər etsin, zəruri istiqamətlər versin.

Davranış və fəaliyyət üzərində tərbiyəçi tərəfindən nəzarətin olduğunu bilən şəxsin (şagirdin və ya tələbənin) məsuliyyəti xeyli artır, daha yaxşı işləməyə səy göstərir.

Nəzarət üsulundan bütün tərbiyəvi tədbirlərdə: müzakirələrdə, disputlarda, gəzintilərdə, şəhidlər xiyabanına ziyarətdə, döyüşçülərlə görüşlərdə, kino və ya teatra kollektiv baxışda, məktəbdə tənəffüs zamanı, məşğələdə, ailədə və sair yerlərdə istifadə etmək olur.

Tərbiyəçinin nəzarəti nəticə etibarilə şagirdin özünənəzarəti ilə sona çatmalı, öz sözlərinə və hərəkətlərinə nəzarət qoymasına alışmalıdır.

Tərbiyə prosesinin son mərhələsində istifadə olunan üsullardan biri də yoxlamadır.

***Davranış və fəaliyyət nəticələrinin yoxlanması.*** Tərbiyə işində yoxlamanın məqsədi müxtəlif ola bilir: şagirdlərin tərbiyəlilik səviyyəsini üzə çıxartmaq; tərbiyəçinin fəaliyyətinin səmərəlilik dərəcəsini öyrənmək; tədris müəssisəsinin işini səciyyələndirmək və s.

Şagirdlərin davranış və fəaliyyətinin səmərəsini yoxlamaq üçün onlara müxtəlif məzmunlu və formalı ictimai-faydalı tapşırıqlar verilir. Məsələn, divar qəzeti çıxartmaq; qəzetə məqalə yazmaq; yaxud şəkil çəkmək; tənha qocalara baş çəkmək; sinif otağında çiçəklərə qulluq etmək; tənəffüz zamanı növbətçilik etmək; üzlüyü aralanmış kitabları sahmana salmaq; xəstə yoldaşa köməklik göstərmək; məktəbyanı sahəni daş-kəsəkdən təmizləmək və s. və i.a.

Bu cür ictimai-faydalı tapşırıqların icra vəziyyətini yoxlamaqla müvafiq şagirdlərin tərbiyəlilik dərəcəsi barədə fikir söyləmək üçün tərbiyəçi əlavə imkan qazanmış olur. Nəzarətin və yoxlamanın nəticələri qiymətləndirilir.

*Qiymətləndirmə üsulları.* Bu üsulları iki böyük qrupa ayırmaq olar: rəğbətləndirmə üsulları və tənbeh üsulları.

Rəğbətləndirmə üsullarının da, tənbeh üsullarının da siyasi, psixoloji və pedaqoji mənaları vardır. Siyasi mənası:

qiymətləndirmə üsulu ilə nəyin cəmiyyətdə bəyənildiyini, nəyin isə bəyənilmədiyini tərbiyə olunanların nəzərinə çatdırmaqdan ibarətdir.

Psixoloji mənası budur ki, yaxşı sözünə və yaxşı davranışına görə rəğbətləndirilən şəxs sevinc hissi, məmnunluq hissi keçirir: nalayiq sözünə, ədalətsiz hərəkətinə görə tənbeh edilən şəxs isə peşmançılıq hissi keçıirir, kədərlənir.

Sözü, davranışı, fəaliyyəti qiymətləndirməyin pedaqoji mənası orasındadır ki, hər hansı ürəkaçan sözünə, davranışına və ya fəaliyyətinə görə rəğbətləndirilən şəxs bundan sonra da nümunəvi əməlləri ilə sevinc hissləri keçirməyə çalışır; ətrafdakılar tərəfindən bəyənilməyən davranış üstündə tənbeh olunan şəxs isə bir daha peşmançılıq hissləri keçirməmək üçün çalışır ki, yaramaz hərəkətlərinə yol verməsin.

Tərbiyə olunanların fəaliyyət xüsusiyyətlərinə laqeydlik göstərmək, münasibət bildirməmək, qiymətləndirməmək yolverilməzdir. Nə üçün? Çünki, məsələn, M.F.Axundovun haqlı olaraq yazdığı kimi, «Sevinc və şənlik bəxş edən vasitələrdən uzaqlaşmaq hisslərin süstləşməsinə və ağlın kütləşməsinə səbəb olar». Odur ki, «Uşaqda yaxşı bir hərəkət baş verdikdə həvəsləndirib artırmaq lazımdır».

*Rəğbətləndirmə üsulları.* Pedaqogika elm kimi formalaşana qədər xalq arasında tərbiyə məqsədi ilə rəğbətləndirmə üsullarından istifadə olunmuşdur: yaxşı əməllərinə görə uşaqları təriflәmişlər, belələrinə hədiyyələr vermişlər. Ehtiyacı olanlara, yetim uşaqlara həyan duranlar,çətin vəziyyətə düşənləri xilas edənlər, igidlik nümunəsi göstərənlər nağıllarda, dastanlarda, rəvayətlərdə tərənnüm olunmuşdur. «Əl tutmaq Əlidən qalıb» deyirlər.

Tədris müəssisələrində, idarələrdə, ailədə və digər ictimai yerlərdə tətbiq olunan rəğbətləndirmə üsullarını iki qrupa ayırmaq olar: sadə rəğbətləndirmə üsulları və yüksək rəğbətləndirmə üsulları.

*Sadə rəğbətləndirmə üsulları:* uşağın saçına sığal çəkmək, «Afərin!», «Qoçaq qızım!», «Qoçaq oğlum!», «İşi belə görərlər!» kimi qəlbə qida verən ifadələr işlətmək; arzusunu yerinə yetirmək (konsertə, sirkə, sərgiyə, kinoya, teatra,

muzeyə və s. görməli yerlərə aparmaq); kitab alıb hədiyyə vermək, yaxşı yazısını, nitqini, davranışını, səyini dilə gətirib tərifləmək və s.

*Yüksək rəğbətləndirmə üsulları:* şifahi və ya yazılı təşəkkür elan etmək; adlı təqaüdə təqdim etmək; turizm gəzintisi üçün putyovka vermək; adına tərifnamə yazmaq; gümüş və ya qızıl medalla təltif etmək; fərqlənmə diplomu vermək; magistraturaya və ya aspiranturaya təqdim etmək; xaricə oxumağa göndərmək; şəklini şərəf lövhəsinə vurmaq; kütləvi yığıncaqlarda adını çəkmək; haqqında qəzetə məqalə yazmaq; və s.

*Tənbeh üsulları:* Bu üsullar tarixən cəza üsulları adlandırılmış və indi də belə adlanır. Lakin respublikamız dövlət müstəqilliyi qazandığı və demokratiya yolunu tutduğu bir şəraitdə, tərbiyədə cəza əvəzinə tənbeh sözünün işlədilməsi daha münasib hesab edilir. Çünki, tənbeh tərbiyə işində fiziki cəza üsullarını, habelə insan şəxsiyyətini alçaldan digər üsulları istisna edir.

Tənbeh üsullarını iki qrupa ayırmaq olur: yüngül tənbeh üsulları və nisbətən ağır tənbeh üsulları.

*Yüngül tənbeh üsulları:* tərbiyəçinin simasında narazılıq əlamətlərinin təzahürü; «Belə olmaz!», «Belə yaramaz!», «Razı deyiləm!», «Narazı qaldım!» kimi ifadflərin işlədilməsi; dərs zamanı diqqəti yayınan şagirdlərə yanaşmaq; səsin tonunu qaldırmaq və ya, əksinə, endirmək; uşağın və ya şagirdin istəyinə əməl etməmək və s.

*Ağır tənbeh üsulları:* bir müddət danışdırmamaq; məzəmmət etmək; danlamaq; şifahi töhmət elan etmək; yazılı töhmət elan etmək; təkrar sinifdə (kursda) saxlamaq; adlı təqaüddən məhrum etmək; ictimai tapşırığı başqasına həvalə etmək; başqa tədris müəssisəsinə köçürmək; tədris müəssisəsindən xaric etmək və s.

*Rəğbətləndirmə və tənbeh üsullarının tətbiqinə verilən tələblər.*

1. Rəğbətləndirmə və ya tənbeh obyektiv olmalı və qısa da olsa səciyyələndirilməlidir. Nəvvab xatırladırdı: «Heç bir kəsin günahını aydınlaşdırmamış tənbeh etmə».

2. Rəğbətləndirmə və ya tənbehin konkret halına biryolluq verilmiş qiymət kimi baxılmamalıdır. Şəxs bilməlidir ki, bu gün rəğbətləndirilən sabah tənbeh oluna və ya əksinə, tənbeh olunan sabah rəğbətləndirilə bilər.

3. Günahını etiraf edən şəxsin bağışlanmaq imkanı nəzərə alınmalıdır. Məhəmməd peyğəmbər də buyurmuşdur: «Günah işlədən tövbə edirsə onu əfv edin».

4. Azərbaycanda tarixən olduğu kimi, indinin özündə də mütərəqqi fikirli şəxslər təlim və tərbiyə zamanı fiziki cəzanın yolverilməz olduğunu söyləmişlər; bunu daim yadda saxlamaq lazımdır. Milli pedaqogika pedaqoji prosesdə formasından asılı olmayaraq hər cür fiziki cəzanın əleyhinədir.

Tərbiyənin mərhələlərinə uyğun gələn üsulların tətbiqində, yəni tərbiyə zamanı özünü göstərən bir sıra ziddiyyətlər və qanunauyğunluqlar üzə çıxarılmışdır. Bu ziddiyyətlər və qanunauyğunluqlar hansılardır?

## 9. ZİDDİYYƏTLƏR, QANUNAUYĞUNLUQLAR VƏ QANUNLAR HAQQINDA

Konkret qanunauyğunluqların səciyyələndirilməsinə keçməzdən əvvəl ziddiyyətlər və qanunauyğunluqlar məsələlərinin ədəbiyyatda qoyluşuna qısa bir nəzər salmaq lazım gəlir.

***Tərbiyə prosesində ziddiyyətlər məfhumu.*** Pedaqoji ədəbiyyatda belə bir fikir vardır: tərbiyə prosesində müşahidə olunan ziddiyyətlər onun, yəni tərbiyənin hərəkətverici qüvvələridir. Lakin Milli pedaqogikada bu fikrə bir qədər diqqətlə yanaşıldıqda məlum olmuşdur ki, nəzərdə tutulan ziddiyyətlər nəinki tərbiyə işini irəlilətmir, hətta ona mane olur; ziddiyyətlər müəyyənləşdirildikdə və aradan qaldırıldıqda hərəkətverici qüvvəyə çevrilir. Fikrimizi konkret misalda aydınlaşdıraq. Məsələn, müəllimin (tərbiyəçinin) tələbi və uşağın (tərbiyə olunanın) marağı arasında ziddiyyəti misal gətirirlər. Deyirlər ki, bu cür ziddiyyətlər hərəkətverici qüvvədir. Halbuki, həmin ziddiyyətlərin mövcudluğu özlüyündə tərbiyə işinə əngəl törədir, çətinlik yaradır.

Tərbiyə işində uşaqların (yaxud şagirdlərin və ya tələbələrin) maraq dairəsi öyrənildikdə və müəyyən dərəcədə nəzərə alındıqda isə qarşılıqlı anlaşma yaranır, nəticədə istənilən səmərəni əldə etmək imkanı qazanılır.

*Tərbiyə prosesində ziddiyyətlər dedikdə bu prosesi əmələ gətirən bütün ünsürlər arasında özünü göstərən uyğunsuzluqlar nəzərdə tutulur.* Ziddiyyətsəciyyəli uyğunsuzluqlar tərbiyə prosesində çox müşahidə olunur. Məsələn, tərbiyə prosesini müəllimin (və ya valideynin) idarə etmək səyi ilə şagirdin (tələbənin) müstəqilliyə can atması arasında; tərbiyə olunan şəxsin fiziki inkişafı ilə sosioloji inkişafı arasında; şəxsə göstərilən pedaqoji təsirlə onun (yəni şəxsin) psixoloji-mənəvi hazırlığı arasında; tərbiyənin rəsmi məqsədi ilə mühit arasında; tərbiyə olunanların arzuları ilə psixoloji imkanları arasında olan uyğunsuzluqlar buna misal ola bilər. Tərbiyə işində zıddiyyətlər adlandırılan bu cür uyğunsuzluqlar tərbiyəni çətinləşdirir; uyğunsuzluqlar dərk olunaraq aradan qaldırıldıqda bərbiyənin hərəkətverici qüvvəsinə çevrilir.

Ziddiyyətlər iki qrupa ayrılır: *zahiri ziddiyyətlər və daxili ziddiyyətlər. Müşahidəsi mümkün olan ziddiyyətlər zahiri, görünməsi mümkün olmayan ziddiyyətlər isə daxili ziddiyyətlər adlanır.*

Yuxarıda gətirdiyimiz misallarda şəxsin arzusu ilə həmin arzunu reallaşdırmağa imkan verən psixoloji hazırlığın olmaması arasındakı uyğunsuzluq daxili ziddiyyətlərə misal ola bilər. Çünki, bu cür uyğunsuzluğu görmək mümkün deyil: onu yalnız xüsusi aparılan araşdırmalar vasitəsi ilə müəyyənləşdirmək mümkün olur.

Övladları qarşısında eyni məsələ üzrə atanın qoyduğu tələblə ananın qoyduğu tələb arasında uyğunsuzluq zahiri ziddiyyətə aid misal ola bilər. Çünki bu cür uyğunsuzluğu müşahidə etmək mümkündür.

Deməli, *zahiri və ya daxili ziddiyyətlər tərbiyə işini çətinləşdirirsə, onların duyulması, aşkara çıxarılması və aradan qaldırılması tərbiyəni asanlaşdırır, onun hərəktverici qüvvəsinə çevrilir.*

***Tərbiyə prosesinin qanunauyğunluğu və qanunu məfhumları.*** Tərbiyənin qanunauyğunluğu məfhumunun mahiyyətinə dair pedaqoji ədəbiyyatda aydınlıq yoxdur. Bəzi mənbələrdə pedaqoji elmin və tərbiyənin qanunauyğunluqları eyniləşdirilir; onlara fərq qoyulmur. Məsələn, D.O.Lordkipanidze «Didaktika» adlı kitadında üç «qanun» adını çəkir və arxasınca yazır: «bu qanunlarla yanaşı sovet pedaqogikası və tərbiyə aşağıdakı qanunauyğunluqlarla da səciyyələnir».

Göründüyü kimi. Bu fikirdə, əvvəla, didaktika və tərbiyə məfhumları eyniləşdirilir; ikincisi, pedaqogika və tərbiyəyə fərq qoyulmur; üçüncüsü, qanun və qanunauyğunluq eyni məzmunlu məfhumlar kimi təqdim edilir.

Təlim və tərbiyəni eyniləşdirmək və orada cərəyan edən qanunauyğunluqları qeyri müəyyən formada ifadə etmək halları da vardır. M.A.Danilov və M.N.Skatkinin redaktəsi ilə çap olunmuş « Didaktika sredney şkolı» adlı kitabındakı fikir buna nümunə ola bilər. Orada təlimin qanunauyğunluğu belə adlanır: «Təlim və tərbiyədə şagirdlərin fəallığı». Bu fikirdə təlim tərbiyə ilə nəinki eyniləşdirilir, heç qanunauyğunluğun mahiyyəti açılmır. Belə çıxır ki, fəallıq qanunauyğunluqdur. Yalnız bir hadisə-fəallıq qanunauyğunluq ola bilərmi? «Pedaqogika» adlı kitabın 213-cü səhifəsində şərh edilən «qanunauyğunluqlar» da bu qəbildəndir. Burada da pedaqoji faktların adı çəkilir, lakin aralarındakı asılılığın mahiyyəti kölgədə qalır. Məsələn, «qanunauyğunluğun» biri belə ifadə olunur: « tərbiyə, fəaliyyət və ünsiyyət ayrılmazdır». Əvvəla, heç də bütün insan fəaliyyəti və adamlar arasındakı ünsiyyət tərbiyə ilə bağlı olmur. İkincisi, tərbiyə, fəaliyyət və ünsiyyət arasındakı əlaqə və asılılığın nədən ibarət olduğu bu cür ifadələrdə açılmır.Belə çıxır ki, ümumiyyətlə qanunauyğunluq, o cümlədən pedaqoji qanunauyğunluq məfhumlarının mahiyyəti çoxları üçün qaranlıqdır. Belə bir vəziyyəti nəzərə alaraq qanunauyğunluq məfhumuna aydınlıq gətirməyə çalışaq.

Qanunauyğunluğu səciyyələndirən başlıca əlamətlərdən biri onun *obyektiv* səciyyə daşımasıdır; yəni ümumiyyətlə

qanunauyğunluq xarici aləmdə, təbiət və cəmiyyət hadisələrində, habelə təfəkkür hadisələrində cərəyan edir. İkincisi, qanunauyğunluq həmin hadisələr arasındakı qarşılıqlı əlaqə və asılılıqlarda özünü göstərir. Üçüncüsü, təbiət və cəmiyyət hadisələrindəki əlaqə və asılılıqlar dönə-dönə təkrarlandıqda qanunauyğunluq halına düşür.

Deməli, *obyektiv şəkildə mövcud olan təbiət, yaxud cəmiyyət və ya təfəkkür hadisələrində səbəb-nəticə arasında davamlı təkrar olunan asılılığın mahiyyətinin aydın və dəqiq ifadəsi qanunauyğunluq, qanunauyğunluğun yığcam ifadəsi isə qanundur.*

Qanunvuyğunluğun bu cür başa düşülməsi tərbiyə hadisələrində də özünü doğruldur. Yəni, *təpbiyə hadisələrindəki (səbəb-nəticə arasındakı) asılılıqların dönə-dönə təkrar olunması tərbiyə prosesində müəyyən qanunauyğunluq olduğunu göstərir.*

Bu anlamı bir misalda konkretləşdirək. Tərbiyə işində müşahidə olunur ki, uşağın qarşısında qoyulan tələb ilə (məsələn, hər hansı əşyanın şəklini səliqəli çəkmək tələbi ilə) bu tələbi istənilən səviyyədə icra etmək üçün həmin uşağın malik olduğu psixoloji keyfiyyətlər arasında müəyyən asılılığın varlığı özünü göstərir. Həmin psixoloji keyfiyyətlər uşaqda formalaşıbsa tapşırıq yüksək səviyyədə yerinə yetirilir; əks halda tapşırıq ya icra olunmur, yaxud səliqəsiz icra olunur. Deməli, tələb və ya tapşırıqla onun icra vəziyyəti arasında asılılıq mövcuddur. Bu asılılığın mahıyyəti, yəni qanunauyğunluq belədir: tərbiyə zamanı uşağa verilən tapşırıq onun psixoloji imkanlarına uyğun gəldikdə icra səmərəli, uyğun gəlmədikdə isə - keyfiyyətsiz olur.

***Pedaqoji qanunauyğunluğun mahiyyəti.*** Tələbə soruşa bilər: pedaqoji qanunauyğunluğun mahiyyəti nədən ibarətdir?

Milli pedaqogikada pedaqoji qanunauyğunluq məfhumunu səciyyələndirən əlamətlər də, onun mahiyyəti də açılmışdır. Pedaqoji qanunauyğunluğu səciyyələndirən əlamətlərə aşağıdakılar aid edilmişdir: 1) belə qanunauyğunluğun pedaqoji hadisələrlə, yəni təlim, tərbiyə,təhsil və psixoloji inkişafla, habelə onlara aid fikirlərlə bağlılığı; 2) həmin hadisələrdə səbəb-nəticə arasında əlaqənin mövcud-

luğu; 3) bu əlaqənin dayanıqlı olması; 4) həmin əlaqənin aydın, birmənalı başa düşülməsi; 5) aydın duyulan əlaqənin dildə dəqiq ifadə olunması.

Həmin əlamətləri nəzərə alan Milli pedaqogika pedaqoji qanunauyğunluq məfhumunun mahiyyətini belə dəyərləndirmişdir: *təlim, tərbiyə, təhsil və psixoloji inkişaf hadisələrində dönə-dönə təkrar olunan davamlı səbəb-nəticə əlaqələrinin mahiyyətinin başa düşülməsi, dildə aydın və dəqiq ifadəsi pedaqoji qanunauyğunluqdur.*

Bu anlama əsasən açılan qanunauyğunluğu sonradan yığcam şəkildə-qanun formasında ifadə etmək mümkün olur. Yəni qanunauyğunluğun mahiyyəti müvafiq qanunda açılmır, yalnız ona işarə edilir.

Milli pedaqogikada artıq kök formalaşmış bu ideyalar 1999-cu ildə «Nicat» nəşriyyatı tərəfindən çap olunmuş «Ali məktəb pedaqogikası» və «Çaşıoğlu» nəşriyyatının məhsulu olan və 2002-ci ildə işıq üzü görmüş «Məktəb pedaqogikası» adlı dərsliklərdə, habelə 2003-cü ildə yenə «Çaşıoğlu» nəşriyyatının çap etdiyi «Məktəb pedaqogikası sxemlərdə» adlı əsərdə daha da dərinləşdirilmiş və genişləndirilmişdir.

Sual olunur: Milli pedaqogikada üzə çıxarılmış konkret hansı pedaqoji qanunauyğunluqlar necə açılmış və dildə necə aydın ifadə olunmuşdur?

***Tərbiyənin mühitlə əlaqəsində qanunauyğunluq.*** Faktlar göstərər ki,tərbiyə həyata keçirildiyi maddi və mənəvi mühitdən ayrılmazdır.Tərbiyənin təşkil edildiyi yerlərdə (məsələn, ailələrdə və ya məktəblərdə) maddi-texniki və mənəvi-psixoloji mühit başqa-başqa ola bilir. Bu cür müxtəliflik aparılan tərbiyə işinin səviyyəsinə bu və ya digər dərəcədə təsir göstərir: onun səmərəsini artıra da, azalda da bilir. Faktlardan aydın olur ki, məsələn, tədris müəssisəsi rəhbərləri ilə müəllimlər arasında, müəllimlərin özləri arasında, müəllimlərlə şagirdlər arasında olan münasibətlərin xarakteri də tərbiyənin necəliyində əks-səda verir: onun faydasını gücləndirir, yaxud zəifədir. Şərh olunan hadisələrdə müəyyən qanunauyğunluğun varlığı özünü qabarıq şəkildə göstərir; qanunauyğunluq belədir: *münasib maddi-*

*texniki və mənəvi-psixoloji mühitdə cərəyan edən tərbiyə işi uşaqların tərbiyəlilik səviyyəsini artırmağa imkan verir; tərbiyə işi namünasib şəraitdə cərəyan etdikdə tərbiyəlilik səviyyəsini artırmağı çətinləşdirir. Səciyyələndirdiyimiz qanunauyğunluğun qanun forması belədir: tərbiyədə səmərəliliyin həyata keçirildiyi mühitdən asılılığı qanunu.*

***Tərbiyənin həyatla əlaqələndirilməsində qanunauyğunluq.*** Müşahidələrdən məlum olur ki, hər hansı mövzu üzrə müşahidə apararkən, məruzə edərkən, disput keçirərkən, digər tərbiyəvi tədbir təşkil edərkən həyat faktlarına söykəndikdə, dövrümüzün real faktlarına istinad etdikdə, mövzunun bugünkü həyatımız üçün əhəmiyyəti açıldıqda iştirakçıların hisslərinə və şüuruna təsiri artır. Bunun əksi də müşahidə olunur: müəllimin, valideynin, digər tərbiyəçinin söhbəti ümumi səciyyə daşıdıqda, hazırki dövrlə əlaqələnmədikdə, konkretlikdən uzaq olduqda cansıxıcı səciyyə daşıyır, dinləyicilərin şüuruna və hisslərinə o qədər də təsir etmir, tərbiyəlilik dərəcəsi istənilən səviyyəyə qalxmır. Göründüyü kimi, bu hadisələrdə müəyyən asılılıq vardır. Tərbiyənin səmərəlilik dərəcəsi həyatla əlaqələndirilmə vəziyyətindən asılı olur. Bu asılılığın mahiyyəti, yəni qanunauyğunluq belədir: *tərbiyəvi tədbirin məzmunu real həyat faktları ilə zənginləşdirildikdə onun səmərəliliyi artır; quru sözçülüyə çevrildikdə səmərə azalır. Həmin qanunauyğunluğun qanun formasında ifadəsi: tərbiyədə səmərəliliyin həyatla əlaqələndirilməsindən asılılığı qanunu.*

***Şagirdə hörmət və tələbkarlıqla əlaqədar qanunauyğunluq.*** Müşahidələr göstərir ki, tərbiyə zamanı şagirdlərə hörmət və tələbkarlıqla əlaqədar üç əsas münasibət olur. Bəzi tərbiyəçilər şagirdlərə münasibətdə hörmətə üstünlük verirlər; həddən artıq mülayimlik göstərirlər; Hər cür hərəkətə və hala güzəştə gedirlər. Belə tərbiyəçilərin iş təcrübəsində tələbkarlıq, sərtlik, təkidlilik yox dərəcəsində olur.

Digər qrup tərbiyəçilərin iş təcrübəsində tamam başqa münasibətin şahidi oluruq. Belə tərbiyəçilər tərbiyə işində tələbkarlığı üstün tuturlar: heç bir məsələdə, heç bir halda

şagirdə güzəştə getmirlər; kiçik nöksanı qabardır, tənbeh üsüllarına əl atırlar.

Üçüncü qrup tərbiyəçilər öz şəxsiyyətlərində tələbkarlıqla hörməti qovuşdurmağa çalışırlar. Belə tərbiyəçilər şagirdə qarşı tələbkar olduqları qədər də hörmətə yer qoyurlar. Tələblərinin həyata keçirilməsində təkidli olan bu cür tərbiyəçi xoş söz tapıb şagirdi ruhlandırmağı da bacarır, uşaq şəxsiyytini alçaldan, təhqir edən söz və ifadələrdən uzaq olur.

Şagirdlər, adətən, birinci və ikinci qrupa deyil, üçüncü qrupa aid olan tərbiyəçilərə rəğbət göstərirlər. Nə üçün? Çünki, birinci qrup tərbiyəçilərin mülayimliyindən, tələbkar olmadığından, iradə zəifliyindən şagirdlər sui-istifadəyə, saymamazlığa yol verirlər.

Müəllimlərdə yalnız tələbkarlıq, sərtlik görən, onlardan tənbeh alan, mehribanlıq görməyən, xoş söz eşitməyən şagirdlər belə müəllimlə ünsiyyətə meyl göstərmir, ondan gen gəzməyə çalışır.

Tələblərində təkidli olan, iradə möhkəmliyi göstərən tərbiyəçdən eyni dərəcədə qayğı və mehribanlıq görən şagirdlər özlərini ələ almalı, məsuliyyətli, intizamlı olurlar; məhz bu cür tərbiyəçilərə rəğbət bəsləyirlər.

Həmin faktlarda müəyyən qanunauyğunluq özünü aydın şəkildə göstərir: *tərbiyəçinin yalnız tələbkar olduğu, yaxud yalnız hörmət göstərdiyi hallarda şagirdlərin tərbiyəlilik səviyyəsi artmır; onun tələbkarlığı ilə hörmətinin vəhdətdə olduğu hallarda isə şagidlərin tərbiyəlilik səviyyəsi yüksəlir.*

*Bu qanunauyğunluğun qanun forması belədir: tələbkarlıqla hörmətin vəhdəti qanunu.*

***Tələblərlə əlaqədar qanunauyğunluq.*** Tələbə sual verə bilər: Tələbləri kim verir və kimin qarşısında qoyulur?

Tərbiyə iştirakçıları müxtəlifdir: məktəb rəhbərləri və şagirdlər, müəllimlər və şagirdlər, valideynlər və uşaqlar, ailənin yaşlı üzvləri və uşaqlar, zabitlər və əsgərlər, idarə rəhbərləri və tabelikdə olan şəxslər və s.

Tərbiyəçilərin tərbiyə olunanlar qarşısında qoyduğu tələblər də müxtəlif olur. Eyni pedaqoji məsələlərə tərbiyəçi-

lərin münasibətində müxtəliflik halları ilə yanaşı həmrəylik halları da müşahidə edilir. Məsələn, ev tapşırıqlarının icrası vəziyyətinə, yaxud zəngdən sonra şagirdin sinfə daxil olması vəziyyətinə eyni sinifdə işləyən müəllimlərin münasibətlərinin necəliyi şagirdlərin əhval-ruhiyyələrində əks-səda verir. Yaxud, ailə şəraitində uşağın yol verdiyi qəbahətə valideynlərin eyni mövqedə və ya başqa- başqa mövqedə olmaları onun (uşağın) vəziyyətini yüngülləşdirə də, ağırlaşdıra da bilər. Bu cür hallar tərbiyənin həyata keçirildiyi digər yerlərdə (hərbi hissələrdə, idarə və müəssisələrdə) də müşahidə olunur.

Eyni hal üzrə ailədə atanın və ananın uşağa başqa-başqa münasibətləri, yaxud sinifdə müəllimlərin şagirdlərə fərqli münasibətləri müxtəlif psixoloji və pedaqoji nəticələrə səbəb olur; bu cür hallar tərbiyə olunan şəxslərdə belə bir hiss əmələ gətirir ki, tələblər ayrı-ayrı tərbiyəçilərin istəkləri və arzularından irəli gəlir; odur ki, bəzilərinin sözlərinə baxmaq, bəzilərinin isə sözlərinə baxmamaq olar.

Eyni hal üzrə valideynlər öz övladlarına, yaxud müəllimlər şagirdlərinə vahid mövqedən münasibət göstərdikdə uşaqlarda (şagirdlərdə) təqribən eyni psixoloji hisslər yaranır. Belə hallarda əmələ gələn hisslər tamam başqa məzmun kəsb edir. Bu dəfə tərbiyə olunanlar düşünür ki, tələblər tərbiyəçinin şəxsi istəyindən törəmir; ailənin, məktəbin, bütövlükdə cəmiyyətin tələbləridir: onlara əməl olunmalıdır.

Göründüyü kimi, bu faktlarda müəyyən qanunauyğunluq vardır: *tərbiyə olunanlar qarşısında başqa-başqa şəxslərin eyni məsələ üzrə qoyduqları tələblərdəki müxtəliflik tərbiyə işini nə qədər çətinləşdirirsə, tələblərdə vahidlik tərbiyə işini bir o qədər asanlaşdırır. Bunun qanun forması belədir: tələblərdə vahidlik qanunu.*

***Tərbiyənin planlılığı ilə əlaqədar qanunauyğunluq.*** Müşahidələr göstərir ki, tərbiyə olunanlara göstərilən pedaqoji təsirlər bir çox halda ötəri səciyyə daşıyır, ölçülüb-biçilmir, planlaşdırılmır. Tərbiyəçi (valideyn, müəllim, sinif rəhbəri) bu cür halları vaxtın olmadığı ilə izah edir.

Doğrudur, ailə şəraitində və ya məktəb həyatında valideyn, yaxud müəllim uşağın və şagirdin elə davranış tərzləri ilə rastlaşır ki, ona yerindəcə münasibət bildirmək, müəyyən izahat vermək, digər tədbir görmək lazım gəlir. Etiraf edək ki, bu cür hallarda tərbiyəçinin atdığı tərbiyəvi addımlar tələsiklik ucundan istənilən nəticəni verməyə bilir. Bu mənada qrup və ya kütləvi tərbiyəvi tədbirlərin əvvəlcədən diqqətlə planlaşdırılmadan keçirilməsinə də haqq qazandırmaq olmaz.

Bunun əksi də müşahidə olunur. Fərdi tərbiyəvi tədbir, yaxud qrup və kütləvi formada keçirilən tərbiyəvi tədbir qabaqcadan ətraflı planlaşdırıldıqda gözlənilən nəticəni əldə etmək mümkün olur.

Bu cür həyati faktlardan belə bir qanunauyğun nəticə çıxır; *formasından asılı olmayaraq qarşıdakı tərbiyəvi tədbir, tərbiyə işi, əvvəlcədən nə qədər diqqətlə ölçülüb-biçilirsə, gözlənilən nəticə bir o qədər tam həyata keçirilir və əksinə, tərbiyə işi əvvəlcədən hərtərəfli planlaşdırılmadıqda gözlənilən nəticəni almaq çətinləşir.*

Bu qanunauyğunluğun qanun formasında ifadəsi belədir: *tərbiyədə səmərənin planlılıqdan asılılığı qanunu.*

***Söz və əməlin nisbətində qanunauyğunluq.*** Tərbiyə işinin müşahidəsi göstərir ki, bəzi tərbiyəçilərin davranışları və sözləri apasında uyğunsuzluq halları olur. Bu cür uyğunsuzluq bir çox halda tərbiyə işini xeyli çətinləşdirir.

Tərbiyəçinin (müəllimin, valideynin və s.) əməli, davranışı onun söylədiyi fikirlərə, irəli sürdüyü tələblərə uyğun gələ də, gəlməyə də bilir. Birinci halda tərbiyəçinin sözünün kəsəri artır, əməli cazibədar qüvvəyə çevrilir, tərbiyə olunanlar üçün örnək olur; ikinci halda isə tərbiyəçinin dediyi sözün heç bir kəsəri olmur, heç bir məna kəsb etmir; onun atdığı addım, gördüyü əməli iş rişxənd hədəfinə çevrilir, bu səbəblərə görə də o, tərbiyə olunanlar arasında hörmətdən düşür.

Deyilən faktlardan irəli gələn nəticə belədir: tərbiyə olunanlar arasında hörmət qazanmaq üçün tərbiyəçi çalışmalıdır ki, gördüyü əməli iş söylədiyi fikirlərə uyğun gəlsin.

Tərbiyə olunanlarla əlaqədar tərbiyəçinin üzərinə əlavə vəzifə düşür. Məsələ burasındadır ki, sözlə əməlin üst-üstə düşmədiyi hallar tərbiyə olunanlar (uşaqlar, şagirdlər, tələbələr) arasında da müşahidə edilir; onlardan kimsə hərəkətinin yolverilməz olduğunu bilir, buna baxmayaraq o cür hərəkət edir.

Tərbiyə olunan şəxsin əməli və fikri bir-birinə uyğun gəlmədikdə tərbiyəçi köməyə çatmalı, izahat verməli, düzəliş etməli olur. Soruşulur: Bu vəzifənin öhdəsindən hansı tərbiyəçi uğurla gələ bilər? Əməli sözündən fərqlənməyən tərbiyəçi, yoxsa sözü əməlindən fərqlənən tərbiyəçi? Əlbəttə, əvvəlki tərbiyəçi. Çünki digər tərbiyəçi işə qarışarsa, tərbiyə olunan şəxs ona irad tuta bilər: siz özünüz həmişə dediyiniz kimi hərəkət edirsiniz?

Deməli, şərh olunan faktlarda müəyyən qanunauyğunluq vardır: *tərbiyəçinin sözü ilə əməli bir-birinə uyğun gəldiyi hallarda tərbiyə olunanların tərbiyəlilik səviyyəsi artır və əksinə, uyğun gəlmədiyi hallarda-tərbiyəlilik səviyyəsi artmır.*

Həmin qanunauyğunluğun qanun formasında ifadəsi belədir: *sözlə əməlin vəhdəti qanunu.*

***Tərbiyəçinin inam dərəcəsi ilə əlaqədar qanunauyğunluq.*** Məktəblərimizin bir çoxunda və bəzi ailələrdə ipə-sapa yatmayan, çətin tərbiyə olunan uşaqlardan şikayətlənirlər. Belə uşaqlar haqqında deyirlər: «Qozbeli qəbir düzəldər», «Mülayim, də davranırsan, sərt də, lakin heç birinin səmərəsi olmur», «Neçə dəfə izah edirsən et, başa düşmür ki, düşmür» və s.

Bu cür nidalar, bu cür əhval-ruhiyyə göstərir ki, tərbiyəçilərimiz arasında tərk-silah olanlar, tərbiyə işində acizlik göstərənlər var. Belə tərbiyəçilər ümidsizliyə qapanır, həmin uşaqların tərbiyəsində uğur qazanmağın qeyri-mümkün olduğunu etiraf etmiş olurlar.

**Soruşulur:** Tərbiyə işində özünü göstərən belə ümidsizliyi nə ilə izah etmək olar? Bunun səbəbləri çox ola bilir. Başlıca səbəblərdən biri uşaq (şagird) şəxsiyyətinə birtərəfli yanaşmaqla bağlı olur. Tərbiyəçi (müəllim və ya valideyn) uşaqda (şagirddə) yalnız nöqsan görür, onun yaxşı cəhətlərinin

olub-olmadığı ilə maraqlanmır, yaxud maraqlanmaq istəmir. Nöqsanının daim qabardıldığını görən, tez-tez tənəli sözlər eşidən uşağın (şagirdin) tərbiyəçiyə qarşı müqaviməti təbii olaraq güclənir.

Bunun əksi də müşahidə olunur. Tərbiyə işində inamını itirməyən müəllim və ya valideyn uşaqda (şagirddə) sezdiyi nöqsanı nəzərə alır, onun şəxsiyyətində hansısa yaxşı cəhətləri də arayır, axtarır və tapır. Bu cəhəti qabardır, onu həvəsləndirir, ruhlandırır və deyir:- güman edirəm ki, filan nöqsanını da aradan qaldıra biləcəksən.

Faktlar göstərir ki, tərbiyəsi çətin hesab edilən şəxslərlə yaxından maraqlandıqda onlarda ya təşkilatçılıq bacarığının, ya rəqs etmək, ya şəkil çəkmək, ya hansısa musiqi alətində çalmaq bacarığını, futbol, voleybol, basketbol, şahmat oynamaq və s. və i.a. bacarıqların olduğunu üzə çıxarmaq mümkündür. Nikbin tərbiyəçi həmin uşaqlarda bu cür gözəl xüsusiyyətlərdən hansınısa üzə çıxarır və onu ön plana çəkərək nöqsanları aradan qaldırmaq üzrə iş aparır və tərbiyə işində uğur qazana bilir.

Təsvir etdiyimiz bu faktlarda müəyyən qanunauyğunluq özünü göstərir: *tərbiyəçinin inamı, nikbinliyi artdıqca, tərbiyə olunanlarda faydalı cəhətləri də üzə çıxarıb, ona istinad etdikcə tərbiyə işində səmərəlilik artır və əksinə, tərbiyəçi inamsızlıq göstərdikcə tərbiyə işində səmərə artmır.*

Həmin qanunauyğunluğun qanun formasında ifadəsi belədir: *tərbiyədə səmərəliliyin inam dərəcəsindən asılılığı qanunu.*

***Yaş, fərdi və cinsi xüsusiyyətlərlə əlaqədar qanunauyğunluq.*** Məlumdur ki, yeni nəslin formalaşması bir neçə dövrdən keçir: ana bətnində inkişaf dövrü, 1yaşdan 3yaşadək, 3yaşdan 6 yaşadək, 6yaşdan 10 yaşadək, 10 yaşdan 15 yaşadək, 15 yaşdan 17 yaşadək, 17 yaşdan 20 yaşadək olan dövrlər.

Elmi tədqiqatlar və müşahidələr əsasında isbat olunmuşdur ki, insanın hər yaş dövrünü səciyyələndirən bir sıra ümumi fiziki, fizioloji, psixoloji və digər xüsusiyyətlər olur.

Eyni yaş dövründə olan ayrı-ayrı uşaqları səciyyələndirən ümumi xüsusiyyətlərdən əlavə, xeyli fərdi xüsusiyyətlər də müşahidə edilir. Bu cür fərdi xüsusiyyətlər sinir sistemi ilə,

eşitmə, görmə və digər duyğu orqanları ilə, nitq və təfəkkür ilə, hafizə və diqqətlə, iradə ilə, digər psixoloji xüsusiyyətlərlə əlaqədar qabarıq şəkildə özünü göstərir.

Cinsi səciyyələndirən əlamətləri də bu deyilənlərə əlavə etmək lazımdır. Tərbiyə işində uğurlu fəaliyyət göstərmək üçün ayrı-ayrı yaş dövrlərini səciyyələndirən fiziki, fizioloji, psixoloji xüsusiyyətləri nəzərə almaq nə qədər vacibdirsə hər bir uşağın, yeniyetmə və gəncin fərdi və cinsi xüsusiyyətləri ilə hesablaşmaq da bir o qədər vacibdir. Çünki gənc nəslin tərbiyəsində yaş, fərdi və cinsi xüsusiyyətlərə əhəmiyyət verməyən tərbiyəçi ciddi çətinliklərlə qarşılaşır. Bu cür xüsusiyyətlərə diqqət yetirən və onları nəzərə alan tərbiyəçi isə uğura bel bağlaya bilir.

Həyat faktları aydın şəkildə onu da göstərir ki, tərbiyə zamanı uşaqların yaş, fərdi və cinsi xüsusiyyətlərini nəzərə alıb-almamaqla tərbiyənin nəticəsi arasında müəyyən aslılıq olur.

Asılılığın mahiyyəti isə belədir: *tərbiyə olunanların yaş, fərdi və cinsi xüsusiyyətləri tərbiyə zamanı nə qədər diqqətlə öyrənilib nəzərə alınırsa, onların tərbiyəlilik dərəcəsi bir o qədər yüksəlir.*

Qanunauyğunluğun qanun formasında ifadəsi belədir: *tərbiyədə yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması qanunu.*

***Tərbiyə olunanların fəallıq dərəcəsi ilə əlaqədar qanunauyğunluq.*** Təcrübə göstərir ki, tərbiyə zamanı tərbiyəçi ilə tərbiyə olunanlar arasında çoxcəhətli, mürəkkəb, qarşılıqlı əlaqələr mövcuddur. Tərbiyə mövzusu üzrə tərbiyəçi və tərbiyə olunanların hazırlıq dərəcələri, tərbiyə zamanı onların fəallıq dərəcələri tərbiyə işinin nəticəsinə müəyyən təsir göstərir. Məsələn, milli mənlik şüurunu uşaqlarda formalaşdırmağa çalışan bəzi tərbiyəçilər ədəbiyyat, incəsənət, elm, mədəniyyət və digər sahələrdən konkret faktlar gətirir və güman edir ki, az da olsa, istəyinə nail olur. Lakin həmin uşaqlarla söhbətdən məlum olmuşdur ki, onların heç də hamısı milli mənlik şüurunun mahiyyətini lazımınca mənimsəyə bilməmişdir. Nə üçün? Çünki uşaqlar söhbətin

yalnız dinləyicilərinə çevrilmişlər, tədbirdə onların heç bir fəallığı təmin edilməmişdi.

Uşaqlarda milli mənlik şüurunun formalaşdırılmasına bir qədər başqa istiqamətdə yanaşan tərbiyəçilər də vardır. Onlar söhbətin mövzusunu uşaqlarla məsləhətləşərək razılaşdırırlar, sonra milli mənlik şüuruna dair onların anlayış səviyyəsini üzə çıxarır, bu əsasda ilkin məlumat verir və tapşırır ki, xalqımızın keçmiş tarixindən, habelə müasir həyatının müxtəlif sahələrindən onlara məlum olan milli mənlik şüurlu şəxsləri müəyyənləşdirsinlər. Uşaqlar tapşırığa əməl edirlər: razılaşdırılmış vaxtda onlar bildikləri və öyrəndikləri faktlar haqqında məlumat verirlər. Müzakirə başlayır, tərbiyəçi müzakirəni yekunlaşdırır. Bu cür hallarda milli mənlik şüurunun formalaşması şagirdlərdə intensivləşir. Nə üçün? Çünki mövzunun müəyyənləşdirilməsinə, faktların toplanmasına və müzakirəsinə uşaqlar fəal şəkildə cəlb olunmuş və tədbirin passiv dinləyicilərinə deyil, fəal iştirakçılarına, hətta bir növ yaradıcılarına çevrilmişlər.

Göründüyü kimi, həmin faktlarda müəyyən qanunauyğunluq müşahidə edilir: *tərbiyə olunanlar tərbiyə işinin passiv iştirakçılarına (dinləyicilərinə, müşahidəçilərinə), yəni obyektinə çevrildikdə tərbiyəlilik dərəcəsi o qədər də artmır, tərbiyə işinin fəal iştirakçılarına (hətta yaradıcılarına), yəni subyektinə çevrildikdə tərbiyəlilik dərəcəsi artır.*

Həmin qanunauyğunluğun qanun formasında ifadəsi belədir: *tərbiyə olunanların fəallıq dərəcəsindən tərbiyəliliyin asılılığı qanunu.*

***Tərbiyənin məzmununun məqsəddən asılılığı ilə əlaqədar qanunauyğunluq.*** Pedaqoji proses təcrübəsindən məlumdur ki, tərbiyə qarşısında həm qlobal (geniş), həm də lokal (məhdud) məqsəd qoymaq mümkündür. Tərbiyənin qlobal məqsədi ölkə üzrə onun həyata keçirildiyi bütün sahələri əhatə edir və strateji səciyyə daşıyıb uzunmüddətli olur. Lokal, məhdud məqsəd isə hansısa təlim-tərbiyə ocağında, ailədə, konkret şəxslə və ya qrupla əlaqədar nəzərdə tutulur və qısamüddətli olur. Qısa müddətdə həyata keçirilən məqsəd də nəticə etibarı ilə strateji məqsədə xidmət edir.

Sovet dövründə tərbiyənin strateji məqsədi Sovet quruluşuna, kommunizmə sadiq gənc nəsl yetişdirməkdən ibarət olmuşdur. Bu və ya digər təhsil müəssisəsində gündəlik həyata keçirilən konkret tərbiyəvi tədbirlər, onların məzmunu həmin qlobal, strateji məqsədə yönəlmişdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyi qazanandan sonra ictimai, iqtisadi, siyasi və ideoloji vəziyyət kökündən dəyişmişdir. Mövcud reallığımıza uyğun olaraq tərbiyənin qlobal, strateji məqsədi yuxarıda göstərdiyimiz kimi ifadə edilmişdir.

Tədris müəssisələrinin rəhbərləri, müəllimlər və digər tərbiyəçilər qlobal məqsədi həmişə yadda saxlamalıdırlar.

İndi Respublikamızın təhsil sisteminin bütün mərhələlərində təlim-tərbiyə və təhsil işinin məzmunu həmin strateji məqsəd baxımından təzələnir, irili-xırdalı təşkil olunan tərbiyəvi tədbirlərin hamısı strateji məqsədə xidmət edir. Deməli, tərbiyə işinin məzmunu məqsədindən asılı olaraq dəyişir.

Məsələnin mahiyyəti həm də orasındadır ki, bu asılılığı bilməyin və ya bilməməyin və onu işdə nəzərə almağın və ya almamağın tərbiyəlilik səviyyəsinə dəxli vardır; birinci halda, yəni asılılığın obyektiv mövcud olduğunu bilən, onu öz işində nəzərə alan tərbiyəçi hər bir konkret halda qarşısına qoyduğu məqsədə uyğun gələn materiallar (məzmun) seçir və tədbiri həyata keçirir, səmərə xeyli artır.

Bunun əksi də müşahidə olunur; asılılığın mahiyyətindən xəbərsiz olan, hətta bəzən topladığı faktik materiala uyğun məqsəd müəyyənləşdirməyə çalışan tərbiyəçi də, alim pedaqoq da olur. Belələrinin işi pərakəndəliyi, formallığı ilə səciyyələnir; səmərəsi azalır. Göründüyü kimi, burada da qanunauyğunluq mövcuddur: *Hər bir konkret halda tərbiyə işinin məzmunu həm yaxın, həm də uzaq (strateji) məqsədə uyğun seçildikdə və tərbiyə işi bu zəmində aparıldıqda onun səmərəsi artır. Həmin qanunauyğunluğun qanun formasında ifadəsi belədir: tərbiyə işi məzmununun məqsəddən asılılığı qanunu.*

***Tərbiyənin inkişafetdirici imkanları ilə əlaqədar qanunauyğunluq.*** Tərbiyə işinin məzmunu, onun təşkil formaları,

orada istifadə olunan üsullar, tərbiyəçinin şəxsi keyfiyyətləri tərbiyə olunanların psixoloji inkişafına, yəni diqqətlərinin, təxəyyül və təfəkkürlərinin, iradi keyfiyyətlərinin, hafizəsinin, digər psixoloji qüvvələrinin inkişafına müəyyən dərəcədə təsir göstərir. Lakin bu təsirin dərəcəsi az da, çox da ola bilir. Həmin dərəcə tərbiyəçinin hazırlıq səviyyəsindən asılı olur.

Tərbiyə zamanı tərbiyəçi öz nitqində məntiq qaydalarına ciddi əməl etdikdə, fikrini tutarlı elmi faktlarla sübuta yetirdikdə, fakt və hadisələri müqayisə etdikdə, müqayisədən müəyyən nəticələr çıxartdıqda, ümumiləşmələr apardıqda, bu cür mühakimə tərzlərini tərbiyə olunanlara aşılamağa çalışdıqda onların psixoloji inkişafı daha sürətlə gedir.

Təəssüf ki, bunun əksi də müşahidə olunur. Necə gəldi danışan, nitqində məntiq qaydalarına əməl etməyən, inandırma, isbat üsullarından, müqayisədən uzaq düşən, amirliyə meyl göstərən, tərbiyə olunan şəxslərin psixoloji inkişafı qayğısına qalmayan tərbiyəçi yaxşı nümunəyə çevrilmir; onların psixoloji inkişafı isə ləngiyir. Bu cür faktlarda müəyyən qanunauyğunluq aydın şəkildə sezilir: *tərbiyə işinin psixoloji inkişaf imkanlarına malik olduğunu tərbiyəçi bildikdə və bu imkanlardan istifadə etdikdə tərbiyə olunanlarda psixoloji qüvvələrin inkişaf səviyyəsi yüksəlir və əksinə…*

Bu qanunauyğunluğu qanun formasında ifadə edək: müəllimin *səriştəliliyindən psixoloji inkişafın asılılığı qanunu.*

***Tərbiyənin elmiliyi ilə əlaqədar qanunauyğunluq.*** Həyat faktları göstərir ki, hər bir konkret halda tərbiyə işinin məqsədində, təşkili formasında, istifadə olunan üsulların seçilməsində və tətbiqində müəyyənliyin olub-olmadığı alınan nəticəyə təsir göstərir.

Məqsəd tərbiyəçi üçün tam aydın olduqda, tərbiyə işinin formaları arasında, məsələn, məhz hərbi idman oyunlarının keçilməsi, üsullardan isə yalnız avtomat silahın sökülüb-yığılması üzərində dayanıldığı əsaslandırıldıqda tərbiyə işinin uğuru artır. Çünki bu cür hallarda tərbiyəvi tədbir hər bir cəhətdən ölçülüb-biçilmiş olur, onun elmiliyi təmin edilir.

Keçiriləcək tərbiyəvi tədbirin məqsədi tərbiyəçi üçün tam aydın olmadıqda, işin forması, orada tətbiq ediləcək üsul və istifadə olunacaq faktlar təsadüfi xarakter daşıdıqda, yəni lazımınca əsaslandırılmadıqda tədbirin səmərəsini artırmaq çətinləşir. Çünki bu cür hallarda tərbiyəvi tədbirin elmliyi təmin edilmir. Göründüyü kimi, burada müəyyən qanunauyğunluq diqqəti cəlb edir: *tərbiyə işinin bütün cəhətləri hər bir konkret halda tərbiyəçi tərəfindən əsaslandırılaraq keçirildikdə səmərəsi artır. Bu qanunauyğunluğun qanun formasında ifadəsi belədir: tərbiyə işinin elmiliyi qanunu.*

***Tərbiyə üsulunun seçilməsi ilə əlaqədar qanunauyğunluq.*** Məlumdur ki, tərbiyə işində istifadə olunan üsullar çoxdur. Konkret tərbiyəvi tədbir zamanı üsulların hamısından deyil, birindən və ya ikisindən istifadə edilir. Hansı üsuldan və ya üsullardan? Sualın cavabı birmənalı deyil. Bəzi tərbiyəçilər, adətən, alışdıqları üsullara müraciət edirlər, nə üçün məhz filan üsula əl atdıqlarını əsaslandıra bilmirlər. Nəticədə tərbiyə işinin səviyyəsini yüksəltmək mümkün olmur. Çünki bu cür hallarda aşılanacaq mənəvi keyfiyyətin tərbiyə olunanlarda tərbiyəlilik dərəcəsi öyrənilmir və deməli, nəzərə alınmır.

Pedaqoji təcrübəsi zəngin olan tərbiyəçilər bir qədər fərqli mövqedən çıxış edirlər. Onlar hər bir konkret halda aşılamaq istədikləri mənəvi keyfiyyətləri öz uşaqlarında (şagirdlərində) tərbiyəlilik səviyyəsi ilə maraqlanırlar; bu səviyyəni nəzərə alır və səviyyəyə uyğun gələn üsullar seçirlər. Belə tərbiyəçilər üçün aydındır ki, məsələn, hərbi vətənpərvərlik üzrə tərbiyəlilik dərəcəsi şagirdlərdə, uşaqlarda müxtəlif ola bilir: hərbi vətənərvərliyə dair ya heç anlayış olmur, ya müəyyən anlayış olur; yaxud müəyyən bacarıq olmur.

Həmin səviyyədən asılı olaraq istifadə ediləcək üsullar da başqa-başqa olur. Əgər tərbiyə olunanlarda hərbi vətənpərvərlik üzrə müəyyən anlayış varsa, lakin zəruri bacarıqlar yoxdursa, bu halda anlayışların formalaşmasına deyil, bacarıq və vərdişlərin formalaşmasına xidmət edən üsullara əl atılır; məsələn, hərbi idman oyunları təşkil edilir. Nəticə uğurlu olur.

Həmin faktlardakı qanunauyğunluğu sezmək mümkündür: *Hər hansı mənəvi keyfiyyəti formalaşdırmaq üçün müəllimin (valideynin) seçdiyi üsul(üsullar) tərbiyə olunan şəxslərin həmin keyfiyyət üzrə tərbiyəlilik dərəcəsinə uyğun gəldikdə səmərə verir. Bu qanunauyğunluğun qanun formasında ifadəsi belədir: tərbiyə üsulunun tərbiyəlilik dərəcəsinə uyğun seçilməsi qanunu.*

Milli pedaqogikada müəyyənləşdirilmiş həmin qanunauyğunluqlar tərbiyə işini uğurla həyata keçirmək üçün istinad edilən prinsiplərin elmi əsasını təşkil edir.

## 10. TƏRBİYƏNİN PRİNSİPLƏRİ MƏSƏLƏSİNİN MİLLİ PEDAQOGİKADA QOYULUŞU

***Məsələnin mövcud ədəbiyyatda vəziyyətinə dair.*** Məsələnin azacıqda olsa tarixi ilə maraqlanan tələbələr olur bu ehtiyacı nəzərə alaraq keçmişə qısa nəzər salmaq faydalıdır.

Tərbiyənin prinsiplərinə dair pedaqoji ədəbiyyatda geniş yayılmış anlam belədir: Tərbiyə işinin uğurla nəticələnməsi üçün irəli sürülən tələblər. Soruşmaq yerinə düşərdi: müasir şəraitdə həmin anlamla tam razılaşmaq olarmı? Bizcə, olmaz! Nə üçün? Çünki, əvvəla, həmin anlamdan aydın olmur ki, tərbiyənin prinsipləri necə müəyyənləşdirilir? İkincisi, tərbiyənin prinsipləri müəyyənləşdirilərkən hansı meyar əsas götürülür? Üçüncüsü, tərbiyənin prinsiplərini səciyyələndirən ümumi xüsusiyyətlər varmı? Varsa hansılardır?

Tərbiyənin prinsiplərinə dair həmin anlam bu cür sualları başa düşməyə imkan vermir. Nəticədə tərbiyə prinsiplərinin həm miqdarında və həm də adlarında subyektivliyə yol açılır, elmilikdən uzaq düşülür; pedaqogikaya dair tədris vəsaitləri müəlliflərinin münasibətləri bir çox halda bir-birindən köklü şəkildə fərqlənir.

Tərbiyə prinsipləri haqqında nəzəri fikirlərin qeyri-müəyyənliyi, subyektivliyi, elmdən uzaq düşməsi isə tərbiyə ilə əməli şəkildə məşğul olan şəxslərin fəaliyyətini çətinləşdirir.

***Tərbiyənin prinsipi məsələsinə münasibətdə müxtəliflik.*** Pedaqogika üzrə bir sıra tədris vəsaitlərinin müəllifləri tərbiyənin prinsipi məsələsinə toxunmurlar. « » ( , « », 1967), « » ( , 1972), « » ( , « » 1998), « , - » ( , « », 1998) adlı tədris vəsaitlərinin müəllifləri deyilənlərə misaldır. Tərbiyənin prinsipləri məsələsinə toxunmamaq həmin kitabların köklü nöqsanlarına aid edilməlidir.

Tərbiyə pinsipləri məsələsinə xüsusi diqqət yetirmək halları isə çoxdur.

***Tərbiyə prinsiplərinin miqdarında müxtəliflik.*** Təəssüf ki, sonuncu qəbildən olan tədris vəsaitlərindəki fikirlər üst-üstə düşmür. Bəzi pedaqoji mənbələrdə tərbiyənin 5, digərlərində 7, başqalarında 10 və s. qədər prinsip olduğu göstərilir. Məsələn, aparıcı sovet pedaqoqlarının çap etdirdikləri «Pedaqoqika» da (Moskva, 1968) tərbiyəyə 7, 2000-ci ildə Azərbaycanda A.Abbasov, H.Əlizadənin çap etdirdikləri «Pedaqogika» da 10, 1996-cı ildə «Maarif» nəşriyyatı tərəfindən nəşr olunmuş «Pedaqogika» da isə 13 prinsip aid edilir.

Məsələnin mahiyyəti təkcə ondan ibarət deyil ki, tərbiyə prinsiplərinin miqdarı barədə fikirlər müxtəlifdir. Başlıca cəhət budur ki, heç bir müəllif təklif etdiyi tərbiyə prinsiplərinin miqdarını əsaslandırmağa təşəbbüs göstərməmişdir. Bu səbəbdən də həmin fikirlər subyektiv səciyyə daşıyır, oxucunu inandırmır.

***Tərbiyə prinsiplərinin adlarında müxtəliflik.*** İndiyədək, tərbiyə prinsiplərinin nəinki miqdarında, adlarında da müxtəliflik hökm sürmüşdür. Belə çıxır ki, pedaqogikada tərbiyə prinsiplərinin adları da elmi cəhətdən əsaslandırılmamışdır. Məsələn, eyni prinsip bir mənbədə «tələbkarlıq və hörmət», digər mənbədə «uşaq şəxsiyyətinə hörmət etmək və ondan tələb etmək», başqa mənbədə «hörmət və tələbkarlığın birləşməsi» kimi adlandırılır.

Digər prinsiplərin adlarında da bu cür qeyri-müəyyənlik hökm sürmüşdür.

Bir tədris vəsaitində adı çəkilən bəzi prinsiplərin başqa tədris vəsaitində olmaması halları da mövcuddur.

Eyni prinsipin müxtəlif mənbələrdə başqa-başqa adlandırılması, yaxud bir mənbədə olması, digərində isə adların çəkilməməsi göstərir ki, müəlliflər tərbiyə prinsiplərini adlandırarkən heç bir meyara söykənməmişlər, subyektiv mülahizələrə üstünlük vermişlər.

Tərbiyə prinsiplərinin adlarına və miqdarına aydınlıq gətirmək üçün milli pedaqogikada təşəbbüs göstərilmişdir: tərbiyənin qanunauyğunluqları burada etibarlı elmi meyara çevrilmişdir.

***Prinsiplərin qanunauyğunluqlar əsasında müəyyənləşdirilməsi.*** Nəhayət tərbiyə prinsiplərinin miqdarını da, adlarını da tərbiyə prosesinin qanunauyğunluqları əsasında dəqiqləşdirmək mümkün olmuşdur. Fikrimizi əyaniliklə əlaqədar konkretləşdirək. Milli pedaqogikada isbat olunmuşdur ki, pedaqoji prosesdə əyani vasitələrdən istifadə ilə təlim-tərbiyə alan şəxslərin təhsillilik dərəcəsi arasında müəyyən aslılıq vardır. Asılılığın mahiyyəti belədir: pedaqoji prosesdə hər hansı əyani vasitə nümayiş etdirilərkən öyrənənlərin diqqəti həmin əyani vasitə ilə məhdudlaşdırıldıqda onlarda əsasən konkret *təsəvvür* formalaşır: həmin əyani vasitə ilə əlaqədar öyrənilməli olan *anlayış* isə, adətən, kölgədə qalır.

Pedaqoji prosesdə əyani vasitələrdən istifadənin başqa halları da müşahidə olunur. Bu cür hallarda əyanilikdən istifadə müəllimin əlində məqsəd deyil, didaktik məqsədə çatmaq vasitəsinə-müvafiq anlayışın formalaşması vasitəsinə çevrilir; müəllim dinləyicilərin diqqətini nümayiş etdirdiyi əşyanın (hadisənin) əlamətlərinin eynicinsli digər əşyalarda (hadisələrdə) də olduğuna yönəldir. Məsələn, üçbucaqlı anlayışın şagirdlərdə formalaşması üçün əvvəlcə bir üçbucaqlı (sivribucaqlı üçbucaq) nümayiş etdirilir; sonra onun digər növləri: korbucaqlı üçbucaq, düzbucaqlı üçbucaq nəzərdən keçirilir; onların bucaqlarının və tərəflərinin vəziyyətindən asılı olmayaraq, hamısı üçün üç bucağın və üç tərəfin ümumi, səciyyəvi əlamət olduğu xüsusi qabardılır.

Nəticədə əyanilik təhsildən ötrü vacib olan anlayışın (bizim misalda üçbucaqlı anlayışının) formalaşmasına xidmət edir.

Göründüyü kimi, qısaca təsvir etdiyimiz faktlarda müəyyən qanunauyğunluğun varlığı aydın sezilir. Həmin qanunauyğunluq isə belədir: *əyani vasitələrdən istifadə zamanı şagirdlərin diqqəti yalnız müşahidə olunan əşya (hadisə) çərçivəsində qaldıqda onlarda əsasən təsəvvürün formalaşmasına, həmin əşyanın (hadisənin) əlamətlərinin eynitipli digər əşyalarda (hadisələrdə) də olduğu müəyyənləşdirilərək ümumiləşdirildikdə isə şagirdlərdə anlayışların formalaşmasına imkan yaranır.*

Həmin qanunauyğunluqdan törəyən prinsip isə ənənəvi şəkildə olduğu (əyanilik prinsipi) kimi deyil, *əyaniliyin anlayışa xidmət etməsi prinsipi kimi ifadə edilməlidir.*

Göründüyü kimi, tərbiyə prinsiplərinin elmi əsasları var. Bu, tərbiyənin qanunauyğunluqlarıdır. Milli pedaqogikada tərbiyənin 13 qanunauyğunluğu üzə çıxarılmışdır; yəni, tərbiyənin o qədər də prinsipi elmi cəhətdən əsaslandırılmışdır.

***Tərbiyənin prinsipi məfhumunu səciyyələndirən əlamətlər.*** Yuxarıdakı şərhdən belə bir nəticə çıxır ki, tərbiyənin prinsipi məfhumunun mahiyyətini yeniləşdirmək lazımdır. Bu məqsədlə həmin məfhumu səciyyələndirən başlıca əlamətlər açılmalıdır. Belə əlamətlərdən biri *tərbiyə prinsipinin müvvafiq qanunauyğunluqla bağlılığıdır.* Çünki tərbiyə prinsipi tərbiyənin müəyyən qanunauyğunluqlarından irəli gəlir, deməli, ikinci birincinin elmi əsasıdır.

Tərbiyə prinsipinin elmi əsaslarını, yəni müvafiq qanunauyğunluqdan törəmə olduğunu bilən və öz əməli işində onu nəzərə alan tərbiyəçinin fəaliyyəti iki cəhətdən uğurlu olur. O, həm elmi cəhətdən silahlanır, həm də müvafiq prinsipi əldə rəhbər tutur. Deməli, *tərbiyə prinsipinin təsir gücünə malik olması da onun başlıca əlamətlərindən biridir.*

Tərbiyə prinsipi, adətən, davranışla əlaqədar olan mənəvi dəyərlərin formalaşdırılmasında nəzərə alınır.

Göstərilən əlamətləri nəzərə alaraq, milli pedaqogika tərbiyə prinsipi məfhumunun mahiyyətini belə başa düşür: *tərbiyənin müvafiq qanunauyğunluğundan irəli gələn, davra-*

*nışla əlaqədar milli və ümumbəşəri dəyərlərin formalaşmasına güclü təsir göstərən aparıcı ideyaya onun prinsipi deyilir.*

Bu cür başa düşülən prinsipləri ayrılıqda səciyyələndirək.

***Tərbiyə işi üçün münasib şəraitin yaradılması prinsipi.*** Milli pedaqogikada isbat olunmuşdur ki, tərbiyə işinin səmərəlilik dərəcəsi həyata keçirildiyi mühitdən də asılıdır. Cəmiyyətdə sosial-iqtisadi və siyasi-mədəni durumun necəliyi, tədris müəssisələrinin zəruri avadanlıqla təchizi vəziyyəti, binasının və otaqlarının gigiyenik tələblərə nə dərəcədə cavab verməsi, məktəbdə mənəvi-psixoloji mühitin xarakteri şagirdlərdə tərbiyə işinin səviyyəsini yüksəldə də, aşağı sala da bilir.

Faktlar dönə-dönə isbat edir ki, məsələn, məktəb rəhbərləri ilə müəllimlər arasında, müəllimlərin özləri arasında, müəllimlərlə şagirdlər və onların valideynləri arasında dedi-qodu, çəkişmələr olan şəraitdə şagirdlərin təlim-tərbiyə işini uğurla təşkil etmək xeyli çətinləşir. Bunun əksi də müşahidə olunur. Mənəvi-psixoloji mühitin sağlam olduğu məktəblərdə isə təlim-tərbiyə işinin öhdəsindən gəlmək xeyli asanlaşır.

Bu cür həyat faktlarında olan qanunauyğunluğu xatırlamaq yerinə düşərdi. Qanunauyğunluq isə belədir: *maddi-texniki və mənəvi-psixoloji mühiti namünasib olan məktəbdə tərbiyə işi çətinləşir; maddi-texniki və mənəvi-psixoloji mühiti münasib olan məktəbdə isə tərbiyə işi asanlaşır.*

Açılan qanunauyğunluqdan və dilə gətirilən qanundan məntiqi olaraq belə bir prinsip törəyir: *tərbiyə işi üçün münasib şəraitin yaradılması prinsipi.*

***Tərbiyənin məqsədyönlülük prinsipi.*** Bilmək lazımdır ki, bu prinsip əsasında belə bir qanunauyğunluq durur: tərbiyə işinin məqsədi nə qədər düzgün müəyyənləşdirilib həyata keçirilirsə, onun səmərəsi bir o qədər artır.

Qanunauyğunluğu bilən tərbiyəçi (müəllim, valideyn) hər bir konkret halda apardığı tərbiyə işinin, keçirdiyi tərbiyəvi tədbirin məqsədini aydın təsəvvür etməli olur. Həyata keçirdiyi müddətə və aşılanan mənəvi keyfiyyətin məzmununa görə tərbiyə yaxın məqsədə də, uzaq məqsədə də xidmət edə bilər. Tərbiyəçi uşaqlara, məsələn, səliqəlilik və ya doğruçuluq kimi keyfiyyət aşılamaq üzrə tərbiyə işi

aparsa, yaxın məqsəd güdmüş olur. Tərbiyəçi qarşıya uzaq məqsəd, strateji məqsəd də qoya bilir; respublikamızın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirmək. Atalar gözəl deyib: niyyətin hara, mənzilin ora.

İsbat olunmuşdur ki, tərbiyə işinin məzmunu da, onun təşkili formaları da qarşıya qoyulan məqsəddən asılı olaraq müxtəlifləşir. Hər bir halda tərbiyə işinin məqsədini özü üçün dəqiqləşdirən tərbiyəçi həmin məqsədə xidmət edən işin məzmununu və formasını seçir və nəticədə uğur qazanır. Məqsəd aydın olmadıqda tərbiyə işinin məzmunu və forması təsadüfiliyi ilə səciyyələnir və istənilən səmərəni vermir.

***Tərbiyə işinin planlaşdırılması prinsipi.*** Yeni pedaqoji ədəbiyyatdan xəbəri olan tərbiyəçi bu prinsipin əsasında duran qanunauyğunluğu bilir: formasından asılı olmayaraq qarşıdakı tərbiyəvi tədbir, tərbiyə işi nə qədər diqqətlə ölçülüb-biçilirsə gözlənilən nəticə bir o qədər səmərəli olur və tam həyata keçirilir. Bu qanunauyğunluqdan hali olan tərbiyəçi tədbirin vaxtını, iştirakçıların tərkibini, kimlərin danışacağını, kokret faktlardan, əyanilikdən, texniki vəsaitlərdən istifadə edəcəyini və s. cəhətləri dəqiqləşdirməli olur. Belə olduqda tərbiyə işi səmərə verir. Başqa hallar da müşahidə olunur. Belə ki, qarşıdakı tərbiyə işi (müşahidə, müzakirə, məruzə, teatra kollektiv baxış, ekskursiya, tarixi hadisənin qeyd edilməsi və s. və i.a.) lazımınca planlaşdırılmadıqda istənilən nəticə əldə etmək çətinləşir.

Deməli, tərbiyə işində uğur qazanmaq üçün həm də tərbiyənin planlaşdırılması prinsipini bilmək və onu nəzərə almaq gərəkdir.

***Tərbiyənin həyatla əlaqələndirilməsi prinsipi.*** Bu prinsipin əsasında duran qanunauyğunluq belədir: tərbiyəvi tədbirin məzmunu real həyat faktları ilə zənginləşdirildikdə onun səmərəliliyi artır; quru sözçülüyə çevrildikdə səmərə artmır. Qanunauyğunluğu nəzərə alan tərbiyəçi hər hansı tərbiyəvi mövzuda söhbət apararkən, məruzə və ya mühazirə oxuyarkən, disput keçirərkən, digər tədbir təşkil edərkən çalışır ki,

ətraf mühitdən, tarixdən, mədəniyyət və incəsənətdən, ədəbiyyatdan alınan faktlara istinad etsin, ümumi, mücərrəd fikirlərə yer verməsin. Belə olduqda tərbiyəvi tədbir qarşısında qoyulmuş yaxın və uzaq məqsədə uğurla qovuşmaq imkanı xeyli genişlənir; tədbirin aparıcı ideyası tərbiyə olunanlar tərəfindən asanlıqla qavranılır, qəbul edilir və özününküləşir.

***Tərbiyədə tələbkarlıqla hörmətin vəhdəti prinsipi.*** Bu prinsip aşağıdakı qanunauyğunluqdan törəmədir: tərbiyəçinin yalnız tələbkar olduğu, yaxud yalnız hörmət göstərdiyi hallarda şagirdlərin tərbiyəlilik səviyyəsi yüksəlmir, tələbkarlığı ilə hörmətinin vəhdətdə olduğu hallarda isə onların tərbiyəlilik səviyyəsi yüksəlir.Belə bir qanunauyğunluğu nəzərə alan tərbiyəçi çalışır ki, uşaqlara münasibətdə hörmətlə tələbkarlığını üzvi şəkildə əlaqələndirsin; çünki, yalnız tələbkar olmaq, yaxud yalnız hörmətə uymaq özünə olan rəğbəti sarsıdır, şöhrət gətirmir. By həqiqəti müdriklər də bilmiş və müxtəlif formada ifadə etmişlər. Məsələn, Mirzə Rəcəb Vəssaf fikrini poetik şəkildə belə yazmışdır:

*«Şirinə, acıya məna ver dərin,*
*Nə çox acı ol, nə də çox şirin».*

Tərbiyə məqsədi ilə göstərilən tələbkarlıq uşaq şəxsiyyətini alçaldan təhqirdən, hədə-qorxudan, zorakılıqdan uzaq olur, ağıla, inandırmaya, faydalılığa əsaslanır. Uşaq qarşısında qoyulan tələb, ona verilən tapşırıq və ya göstəriş amiranə tonda deyil,mülayim tonda olmalıdır. Atalar gözəl deyib: ho-ho var dağa qaldırır, ho-ho var dağdan endirir.

Həmin prinsip nəzərdə tutur ki, verilən tapşırığı, göstərişi, tələbi yerinə yetirən uşağa tənəli sözlər deyilməsin, köməklik edilsin.

***Tələblərdə vahidlik prinsipi.*** Bu prinsipi şərtləndirən qanunauyğunluq belədir: tərbiyə olunanlar qarşısında başqa-başqa şəxslərin qoyduqları tələblərdəki müxtəliflik tərbiyə işini nə qədər çətinləşdirirsə, tələblərdə vahidlik tərbiyə işini bir o qədər asanlaşdırır. Bu qanunauyğunluğun mahiyyətindən xəbərdar olan tərbiyəçilər (valideynlər və ya müəllimlər) eyni hala, məsələn, ev tapşırıqlarının vaxtında icra olunub-olunmamasına, dərsə gecikib-geçikməməsinə və

s. hallara başqa-başqa mövqedən deyil, eyni mövqedən münasibət göstərsinlər. Onlar Krılovun məşhur təmsilini də xatırladırlar ki, balıq, ördək və xərcəng başqa-başqa səmtə hərəkət etdiklərindən arabanı yerindən tərpətmək mümkün olmur. Atalar da gözəl deyib: iki yerə baxan çaş qalar.

Ailə tərbiyəsində valideynlər, məktəb tərbiyəsində müəllimlər, gəncliyin tərbiyəsində valideynlər vahid mövqedə duranda, uşaqlara, yeniyetmələrə və gənclərə eyi tələblərlə yanaşdıqda uğur xeyli reallaşır.

Uşaqların fəaliyyətində üzə çıxan eyni hala ata bir cür, ana başqa cür münasibət göstərdikdə şagirdlərin fəaliyyətində müşahidə edilən eyni fakta müəllimin biri digərindən fərqli münasibət göstərdikdə tərbiyə işi çətinləşir.

***Tərbiyədə sözlə əməlin vəhdəti prinsipi.*** Həmin prinsip belə bir qanunauyğunluqdan əmələ gəlmişdir: tərbiyəçinin sözü ilə əməli bir-birinə uyğun gəldiyi hallarda tərbiyə olunanların tərbiyəlilik səviyyəsi yüksəlir; Uyğun gəlmədiyi hallarda tərbiyəlilik səviyyəsi yüksəlmir. Bu qanunauyğunluq tələb edir ki, tərbiyəçi (valideyn, müəllim və s.) dediyi kimi, məsləhət gördüyü kimi hərəkət etsin. Belə olduqda valideyn uşaq üçün, müəllim şagird üçün faydalı nümunə olur. Əməlinin söylədiyi fikrə uyğun gəlməyən valideyn uşağın, müəllim isə şagirdin gözündə hörmətdən düşür: tərbiyə işində uğur qazana bilmir. Bu fikir atalar sözlərində də əks olunmuşdur: «Kişinin sözü ilə işi bir olsun gərək», «Adamın dili ilə ürəyi bir olsun gərək».

Keçmiş söz ustadlarımız da belə düşünmüşdür. Məsələn, böyük Əvhədi xəbərdarlıq edir:

*«Sözün, qəlbin, işin əgər olsa düz,*
*Sən hər istəyinə çatarsan sözsüz».*

Sözlə əməlin üst-üstə düşməsi prinsipi yalnız valideynlərə və ya müəllimlərə aid deyil: uşaqlarla, yeniyetmə və gənclərlə təmasda olan bütün tərbiyəçilərə, insalarla ünsiyyətə girən bütün şəxslərə də aiddir.

***Tərbiyədə nikbinlik prinsipi.*** Bu prinsipin nəşət etdiyi qanunauyğunluq belədir: gənc nəslin tərbiyəsində müəllimin və ya valideynlərin inamı, nikbinliyi artdıqca, tərbiyə işində

səmərəlilik də artır; tərbiyəçinin inamsızlıq göstərdiyi hallarda isə səmərəsi artmır. Həmin qanunauyğunluğa əsaslanan tərbiyəçi yəqin edir ki, tərbiyəsi mümkün olmayan, tərbiyəyə yatmayan uşaq və ya şagird yoxdur və ola da bilməz. Hər hansı uşağın, yeniyetmənin, yaxud gəncin şəxsiyyətində müşahidə edilən nöqsanlar yanlış tərbiyənin və qüsurlu mühitin məhsulu olur. Belələrinin arasında şəxsiyyəti başdan-başa qüsurlardan ibarət olanlara rast gəlmək mümkün deyil. Çünki tərbiyəsi çətin hesab edilən hər bir uşağın, yeniyetmə və ya gəncin şəxsiyyətində müsbət cəhətlər də olur. Nikbinlik prinsipi tələb edir ki, tərbiyəsi çətin hesab edilən adamın şəxsiyyətində bəzilərinin görə bilmədiyi faydalı cəhətlər üzə çıxarılsın: belə cəhətlərə istinad edərək, bu cəhətləri qabardaraq mövcud olan nöqsaları tədricən aradan qaldırmaq üçün ardıcıl iş aparılsın.

Nikbinlik prinsipi insana, onun imkanlarına inam hissi aşılayır; bu və ya digər şəxsdə yalnız nöqsan axtarmağı, yaxşı cəhətləri görə bilməməyi isə yol verilməz hesab edir.

Adamlarda yalnız nöqsan axtaranları, yaxşı cəhətləri görməyi bacarmayanları nəzərdə tutan Sədinin kəlamını burada xatırlamaq yerinə düşərdi:

*«Əgər eyib görməyi adət eyləsən,*
*Tovuzda sən çirkin ayaq görərsən».*

Təəssüflə qeyd etməliyik ki, son zamanlar insan xarakterini, onun müsbət və mənfi xüsusiyyətlərini, o cümlədən qabiliyyətlərini allah vergisi hesab eləyənlərin sayı artmışdır. Belələri təbii olaraq, nikbinlik prinsipindən də uzaq düşürlər.

***Yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi.*** Həmin prinsip bu qanunauyğunluqdan irəli gəlir: tərbiyə olunanların yaşı, cinsi və fərdi fiziki, fizioloji və mənəvi keyfiyyətləri tərbiyə zamanı nə qədər diqqətlə nəzərə alınırsa, onların tərbiyəlilik səviyyəsi bir o qədər yüksəlir.

Bu qanunauyğunluğa istinad edən tərbiyəçi çalışır ki, tərbiyəsi ilə məşğul olacağı şəxsin (şəxslərin) hansı yaş dövründə olduğunu, həmin yaş dövrünü səciyyələndirən xüsusiyyətlərin nədən ibarət olduğunu, oğlan və ya qız olduğunu, bir şəxs kimi hərəsinə ayrılıqda xas olan

xüsusiyyətlərin necəliyini mümkün qədər ətraflı öyrənsin və öz işində onları nəzərə alsın.

Bu həqiqət müdriklərimizə də məlum olubdur. Atalar sözündə təsadüfi deyilməmişdir: «Gücünə bax, şələni bağla».

Böyük Nizami məsləhət görürdü:

*«Güclünün yanına güclünü göndər,*
*Alimin üzünü alimə döndər».*

***Fəallığın təmin olunması prinsipi.*** Prinsipin əsasında duran qanunauyğuluq belədir: tərbiyə zamanı uşaqlar passiv iştirakçılara çevrildikdə tərbiyəlilik dərəcəsi o qədər də artmır, onlar tərbiyə işinin fəal iştirakçılarına çevrildikdə tərbiyəlilik dərəcəsi artır.

Bu qanunauyğunluq tərbiyəçidən tələb edir ki, tərbiyə zamanı uşaqların istək və arzularını öyrənsin , nəzərə alsın, onların fəallığını təmin etsin.

Belə olduqda tərbiyə olunanlar tərbiyə işinin dinləyicisinə, müşahidəçisinə deyil, yaradıcısına, çevrilirlər, canla-başla fəaliyyət göstərirlər; tərbiyəçinin göstərişinə uyğun olaraq uşaqlar düşündükdə, arayıb-axtardıqda, yazdıqda, oxuduqda, nəyisə düzəltdikdə, rəqs etdikdə, nəğmə oxuduqda, musiqi alətlərində çaldıqda, kimlərəsə kömək etdikdə, fənn dərnəklərində,digər səciyyəli dərnəklərdə, idmanın bu və ya digər bölməsində fəaliyyət göstərdikdə həm fiziki, həm psixoloji, həm də əxlaqi cəhətdən cəmiyyətimizin arzularına cavab verən tərzdə inkişaf edirlər.

***Tərbiyənin inkişafetdirici prinsipi.*** Prinsipin əsaslandığı qanunauyğunluq belədir: tərbiyə işinin psixoloji inkişaf imkanlarına malik olduğunu tərbiyəçi bildikdə və bu imkanlardan istifadə etdikdə tərbiyə olunanların psixoloji qüvvələrinin inkişaf səviyyəsi yüksəlir.

Bu qanunauyğunluğu nəzərə alan tərbiyəçi əsasən üç cəhəti özü üçün aydınlaşdırır: başlıca psixoloji qüvvələr hansılardır? Tərbiyə işinin məzmununda psixoloji inkişaf imkanları nədən ibarət olur? Bu imkanları necə reallaşdırmaq olar?

Uşaq fəaliyyətinin uğurunu şərtləndirən amillərdən biri psixoloji qüvvələrin normal cərəyan etməsidir. Başlıca psixoloji qüvvələr bunlardır: qavrayış, təsəvvür, təxəyyül, təfəkkür,

diqqət, iradə və s. Tərbiyəçi çalışır ki, tərbiyə zamanı öz psixoloji qüvvələrini idarə edə bildiyi kimi, tərbiyə olunanlar da öz psixoloji qüvvələrinə nəzarət etməyə alışsınlar.

Həmin prinsipə uyğun olaraq tərbiyəçi tədbir zamanı hansı faktlarla hansı psixoloji qüvvələrin inkişafına təsir göstərəcəyini də müəyyənləşdirir.

Tədbir zamanı tərbiyəçinin rəvan nitqi, düzgün mühakimə yürütmək, fikrini isbat etmək tərzi, diqqətliliyi, irədəliliyi, canlı təxəyyülü tərbiyə olunanlar üçün nümunəyə çevrilir. O, tədbirin gedişində diqqətini həmin psixoloji qüvvələrə yönəldir, o cür düşünməyi onlara məsləhət görür; nəticədə psixoloji qüvvələrin uşaqlarda inkişafı intensivləşir.

***Tərbiyə işinin elmiliyini təmin etmək prinsipi.*** Bu prinsip aşağıdakı qanunauyğunluqdan törəmədir: tərbiyə işinin bütün cəhətləri hər hansı konkret halda tərbiyəçi tərəfindən əsaslandırılaraq keçirildikdə səmərə artır.

Tərbiyə işinin isə xeyli cəhətləri olur: tərbiyə işinin məqsədi, mövzusu, keçiriləcəyi yer, vaxt, onun iştirakçıları, fəalları,keçirilmə ardıcıllığı, nəticəsi və s. Tərbiyəçi tədbirin bu cür cəhətlərini ayrılıqda ətraflı götür-qoy etdikdə, əsaslandırmağa çalışdıqda, nə üçün sualına cavab tapdıqda və tərbiyə işini bundan sonra təşkil etdikdə uğur qazanır. Tərbiyəçi onu da yadda saxlayır ki, lazımınca ölçülübbiçilməmiş, elmi cəhətdən əsaslandırılmamış tərbiyə işindən gözlənilən nəticəni əldə etmək mümkün olmur.

***Tərbiyə üsulunun tərbiyəlilik dərəcəsinə uyğun seçilməsi prinsipi.*** Bu prinsipin əsasını təşkil edən qanunauyğunluq belədir: hər hansı mənəvi keyfiyyəti formalaşdırmaq üçün tərbiyəçinin seçdiyi üsul və ya üsullar tərbiyə olunan şəxsin (şəxslərin) həmin keyfiyyətlər üzrə tərbiyəlilik səviyyəsinə uyğun gəldikdə səmərə verir. Bu prinsip tələb edir ki, tərbiyəçi tədbirə əl atmazdan əvvəl aşılamaq istədiyi mənəvi keyfiyyətin uşaqda (uşaqlarda) inkişaf səviyyəsini öyrənsin və həmin səviyyəyə uyğun gələn üsullar seçsin , çünki hər hansı mənəvi keyfiyyətin inkişaf səviyyəsi həm ayrı-ayrı şəxslərdə, həm də eyni adamın başqa-başqa yaş dövrlərində müxtəlif ola bilir. Səviyyəyə uyğun gəlməyən üsuldan istifadə edildikdə tərbiyə

işi maksimum səmərəni vermir. Bu, o deməkdir ki, tərbiyəni « mənə belə gəlir ki», «mən belə düşünürəm» kimi subyektiv hisslər əsasında qurmaq elmi yol deyil.

## SON SÖZ

Mərhələli tərbiyə nəzəriyyəsi göydəndüşmə deyil, alim xəyalının məhsulu da hesab edilə bilməz. Bu nəzəriyyə təhsil müəssisələrində, ictimai yerlərdə, idarə və təşkilatlarda, ailələrdə uzun müddət apardığımız müşahidələrin, topladığımız zəngin materialın diqqətlə təhlili və ümumiləşdirilməsinin məhsuludur.

İlkin tərbiyənin, yenidəntərbiyənin və özünütərbiyənin təhlili, habelə yaş dövrlərinin nəzərə alınması faktlarının elmi təhlili göstərdi ki, onların hər birində sən demə mərhələlik əlamətləri mövcuddur. Lakin, təəssüf ki, bu əlamət indiyədək alimlərin diqqətindən yayınmışdır; tərbiyədə mərhələlik məsələsinə layiq olduğu qiymət verilməmişdir. Halbu ki, tərbiyə təcrübəsinə aid həyati faktların təhlili və ümumiləşdirilməsi göstərdi ki, hər bir konkret halda tərbiyəvi tədbir azı üç, ən çoxu beş mərhələdən keçir; hətta hər mərhələyə uyğun gələn üsullar da mövcuddur.

Tədqiqat zamanı o da müəyyənləşmişdir ki, mərhələli tərbiyə nəzəriyyəsinin mahiyyətindən xəbərdar olan və öz işində bu nəzəriyyəyə əsaslanan müəllimin şagirdlərində tərbiyəlilik səviyyəsi bir qədər yüksək olur.

Mən arzu edərdim ki, hər bir müəllimimiz mərhələli tərbiyə nəzəriyyəsi ilə tanış olsun və öz işində onu tətbiq etsin; belə olduqda bir daha yəqin edər ki, həqiqi nəzəriyyə elmi cəhətdən ümumiləşdirilmiş və əsaslandırılmış təçrübədən başqa bir şey deyil. Düşünürəm ki, öxuculara təqdim etdiyimiz mərhələli tərbiyə nəzəriyyəsi onlarda dərin inam hissi yaradacaq. İnam isə insanı hərəkətə gətirən güclü psixoloji qüvvədir. Bu qüvvə sayəsində mərhələli tərbiyə nəzəriyyəsini öz işində nəzərə alan müəllimlərimiz və valideynlərimiz şagirdlərdə, uşaqlarda tərbiyəlilik səviyyəsinin yüksəldilməsinə güclü təkan vermiş olar.

# KİTABIN İÇİNDƏKİLƏR

**TƏRTİBÇİDƏN**...................................................... **3**

**I HİSSƏ. TƏRBİYƏNİN ELMİ-PEDAQOJİ ƏSASLARI**

Giriş. *Müasir şəraitdə ideoloji işin, tərbiyə işinin daha da güclənməsi*................................................. **7**

**I Fəsil. Şəxsiyyətin formalaşmasının bəzi ümumiməsələləri**............................................................. **14**

1. Şəxsiyyətin formalaşmasına dair fikir müxtəlifliyi.... **14**

2. Şəxsiyyətin formalaşmasına dair Marksizm-Leninizm ideyaları...................................................... **20**

3. Şəxsiyyətin formalaşmasına birtərəfli yanaşma halları............................................................................ **26**

**II Fəsil. Şəxsiyyətin formalaşmasında irsiyyətin və mühitin rolu**........................................................... **43**

1. Şəxsiyyətin formalaşmasında irsiyyətin roluna dair. **43**

2. Mühit və şəxsiyyətin inkişafı............................... **51**

**III Fəsil. Şəxsiyyətin hərtərəfli inkişafının obyektiv şərtləri**.............................................................. **60**

1. Siyasi şərtlər........................................................ **60**

2. İqtisadi şərtlər..................................................... **64**

3. Mədəni-maarif şərtləri......................................... **72**

**IV Fəsil. şəxsiyyətin formalaşmasında tərbiyənin roluna dair**.............................................................. **89**

1. Müasir tərbiyənin bəzi xüsusiyyətləri................... **89**

2. İnkişaf etmiş sosializm şəraitində fiziki, estetik və əmək tərbiyəsinin bəzi məsələləri........................... **106**

3. Tərbiyə işində nümunənin rolu........................... **125**

**V Fəsil. mühit, tərbiyə və irsiyyət arasında qarşılıqlı əlaqə; qabiliyyətlər və onların inkişafı**...................... **135**

1. Mühit və tərbiyə arasında qarşılıqlı əlaqə............. **135**

2. Qabiliyyətlər və onların inkişafı.......................... **148**

**VI Fəsil. fəaliyyətdə şəxsiyyətin formalaşması**........... **165**

1. Şəxsiyyətin formalaşmasında əməyin rolu........... **165**

2. Əməyin növləri və şəxsiyyətin formalaşması......... **169**

3. Fəaliyyət zamanı qabiliyyətlərin formalaşması şərtləri........................................................................ **176**

## II HİSSƏ. MİLLİ PEDAQOGİKA TƏRBİYƏNİN BƏZİ MÜASİR PROBLEMLƏRİ HAQQINDA

1. Formalizm tərbiyə işinə yaddır........................... **203**
2. Hərbi vətənpərvərlik tərbiyəsinə uşaq bağçasından başlamaq olarmı?............................................ **209**
3. Ağıl tərbiyəsinin müasir dövrdə zəruriliyi............. **214**
4. Dövlət müstəqilliyi şəraitində ideya-siyasi tərbiyə..... **231**
5. Hüquq tərbiyəsinin gücləndirilməsi dövrün tələbidir......................................................................... **242**
6. Əmək tərbiyəsinin nəzəriyyəsi və təcrübəsi haqqında.................................................................... **252**
7. Müstəqillik şəraitində fiziki tərbiyənin aktuallığı.. **259**
8. Tərbiyə işini təkmilləşdirməyin imkanları............ **269**
9. Tərbiyə işinə kompleks şəkildə yanaşmağın bəzi cəhətləri haqqında................................................ **274**
10. Respublika XIII «Pedaqoji mühazirələri»nə hazırlıq................................................................... **283**
11. Tədbirimizi mütəşəkkil keçirəcəyik..................... **286**
12. Mühazirələrin bəzi yekunları............................. **288**
13. Zəngin təcrübə məktəbi.................................... **293**
14. Yubiley «Pedaqoji mühazirə»ləri....................... **315**
15. Növbəti «pedaqoji mühazirə»lər qarşısında........ **326**
16. Geniş ictimaiyyət cəlb olunmalıdır..................... **339**
17. Учтено не всё.................................................... **342**
18. Attestasiyanın gedişinə dair.............................. **344**
19. Uşaq həqiqəti bilməlidir.................................... **348**
20. Məktəblilərin əmək tərbiyəsi və peşəyönümü işini yeni tələblər səviyyəsinə................................. **352**
21. Şagirdlərin əmək tərbiyəsi, təlimi, peşəyönümü və ictimai-faydalı, məhsuldar əməyini təşkil etməyin prinsipləri.......................................................... **354**
22. Yeni proqram layihələrindən düzgün istifadə etməli............................................................................ **362**
23. «Ana dili» dərsliyi haqqında............................. **367**

24. «Ana dili» üzrə ekskursiyalardan istifadə edilməsi təcrübəsindən.................................................. **376**
25. «Ana dili» proqramı layihəsi haqqında............... **380**
26. Yeni proqramlar, yeni qayğılar........................... **391**

## III HİSSƏ. MƏRHƏLƏLİ TƏRBİYƏ NƏZƏRİYYƏSİ

Giriş əvəzi............................................................ **398**
1. Tərbiyə nəzəriyyəsinin yaradılması dövrün tələbidir. **399**
2. Dünya pedaqoji fikrində tərbiyənin mahiyyəti məsələsi.................................................................... **411**
3. Milli pedaqogika tərbiyənin mahiyyəti haqqında..... **413**
4. Tərbiyənin məqsədi məsələsinin ədəbiyyatda qoyuluşu.................................................................... **419**
5. Milli pedaqogika təlim-tərbiyənin strateji məqsədini nədə görür?............................................................ **428**
6. Tərbiyə təcrübəsində mərhələliyin görüntüləri........... **433**
7. Mərhələli tərbiyə nəzəriyyəsinin başlıca göstəriciləri. **440**
8. Mənəvi dəyərlərlə əlaqədar davranış və fəaliyyətin təşkilinə xidmət edən üsullar....................................... **448**
9. Ziddiyyətlər və qanunauyğunluqlar haqqında.......... **462**
10. Tərbiyənin prinsipləri məsələsinin milli pedaqogikada qoyuluşu.......................................................... **478**
Son söz.............................................................. **489**